# AZƏRBAYCAN DİLİ 3

tədris dili

# METODİK VƏSAİT





**Rafiq İsmayılov**
**Ülkər Nurullayeva**
**Şəhla Zahidova**
**İradə Bayramova**
**Aysel Xanalıyeva**
**Könül Cəlilova**

Ümumi təhsil müəssisələrinin **3**-cü sinifləri üçün

# AZƏRBAYCAN DİLİ *(tədris dili)*

fənni üzrə dərsliyin

METODİK VƏSAİTİ

© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**trm@arti.edu.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

# İÇİNDƏKİLƏR


**GİRİŞ**

**1. Dərslik komponentləri** ............................... 3
**2. Dərsliyin strukturu**..................................... 3
**3. Məzmun vahidlərinin saatlar üzrə bölgüsü** 4
**4. Məzmun standartları və təlim nəticələri** .... 6
**5. Akademik anlayışlar** .................................. 9

**DƏRSLƏR ÜZRƏ ŞƏRHLƏR VƏ TÖVSİYƏLƏR**

**I BÖLMƏ. FƏRD VƏ TOPLUM**
Bölmənin icmalı .......................................... 12
1. Dürüstlük..................................................15
2. Dostluq ....................................................19
3. Mərhəmət ................................................25
4. Məsuliyyət ................................................30
5. Nikbinlik ...................................................34

**II BÖLMƏ. DÜNYAMIZI TANIYAQ**
Bölmənin icmalı .......................................... 41
1. Biz azərbaycanlıyıq ...................................44
2. Dünya xalqları ...........................................48
3. Tarixi abidələr ...........................................52
4. Milli bayramlar .........................................56
5. Səyahət .....................................................61

**III BÖLMƏ. QƏRİBƏ HEYVANLAR**
Bölmənin icmalı .............................................68
1. Mamont və fil............................................70
2. Nadir meşə heyvanları ..............................74
3. Manqust....................................................79
4. Antarktida sakinləri ...................................84
5. Delfin .......................................................88

**IV BÖLMƏ. TƏBİİ FƏLAKƏTLƏR**
Bölmənin icmalı ............................................ 93
1. Sel ...........................................................95
2. Meşə yanğınları ......................................100
3. Dənizdə fırtına.........................................106
4. Sunami ..................................................111
5. Daşqın ....................................................114

**V BÖLMƏ. İXTİRALAR**
Bölmənin icmalı ..........................................120
1. Zəka və ixtira ...........................................122
2. Ən mühüm ixtira ....................................127
3. İxtiraçı uşaqlar .........................................131
4. Özün düzəlt .............................................135
5. Rəqəmlərin tarixi ....................................139

**VI BÖLMƏ. UNUDULMAZ QƏHRƏMANLAR**
Bölmənin icmalı ...........................................144
1. Hünər göstər, ad qazan ............................147
2. El igidləri ilə tanınar ................................151
3. İgid döyüşdə bəlli olar .............................154
4. Qəhrəmanlar unudulmur ........................159
5. Möhtəşəm dönüş....................................164

**VII BÖLMƏ. ODLAR YURDU**
Bölmənin icmalı ...........................................169
1. Odlar oğlu ...............................................172
2. Göyçə gölü ...............................................177
3. Azərbaycan musiqisi................................181
4. Qız qalası .................................................186
5. Azərbaycan qalaları ................................191

**VIII BÖLMƏ. HİKMƏT XƏZİNƏSİ**
Bölmənin icmalı .......................................... 200
1. Əməksevərlik ..........................................203
2. Nəsihət ...................................................208
3. Birlik .......................................................212
4. Yumor və hikmət .....................................217
5. Məharət ..................................................221

# GİRİŞ

## 1. Dərslik komponentləri

Təqdim olunan dərslik komplekti mövzuların tədrisi, bilik və bacarıqların qiymətləndirilməsi baxımından bir-birini tamamlayan üç kitabdan ibarətdir: **dərslik, iş dəftəri və metodik vəsait.**

Dil tədrisinin əsas məzmununu təşkil edən informasiya materialı – mətnlər, şəkillər, dil qaydaları və tapşırıqlar **dərslikdə** verilir. Digər komponentlər şagird kitabının məzmunu ilə bağlıdır.

**Metodik vəsait** dərsliyin vacib komponentlərindən biridir. Müəllim üçün nəzərdə tutulmuş bu vəsaitdə məzmun standartları açıqlanır, mətnlərin oxunması üçün üsul və strategiyalar təklif olunur, hər bir dərs üzrə təlim nəticələri göstərilir, diferensial təlim yolları, əlavə resurslar və s. haqqında məlumat verilir.

**İş dəftəri** mənimsədilən bilik və bacarıqların tətbiqi üçün nəzərdə tutulmuş çalışmalardan ibarətdir.

## 2. Dərsliyin strukturu

**Tədris vahidləri.** Əvvəlki siniflərdə olduğu kimi 3-cü sinifdə də Azərbaycan dilinin tədrisinin 8 mərhələdə keçilməsi nəzərdə tutulur. Dərslik kompletkində bu mərhələlər ayrı-ayrı bölmələr (tədris vahidləri) şəklində təqdim olunmuşdur. Hər yarımil üçün 4 bölmə nəzərdə tutulmuşdur.

**Bölmənin strukturu**. Hər bir bölmə giriş dərsi, beş fəsil və ümumiləşdirici təkrardan ibarətdir. Giriş dərsində bölmənin ümumi mövzusu ilə bağlı mətn və vizual materiallar üzərində iş aparılır: şagirdlərin mövzu ilə bağlı bilikləri dinlənilir, açar sözlər izah olunur, dinləmə və ya oxu mətni əsasında mövzu haqqında təsəvvür dərinləşdirilir.

Ümumiləşdirici təkrar dərsində müvafiq bölmədə mənimsədilmiş filoloji bacarıqlar xatırladılır, dil qaydalarının tətbiqi üzrə çalışmalar yerinə yetirilir.

**Fəslin strukturu**. Dərslikdə ən kiçik məzmun vahidi fəsildir. O, bir neçə dərsi (3-4) əhatə edir. Fəsildə müəyyən mövzu zəminində hər bir nitq bacarığının inkişafı üçün materiallar verilir. Ona görə də dərsliyin məzmun kompozisiyası haqqında danışarkən bir dərsin deyil, fəsli təşkil edən bir neçə dərsin mərhələlərindən danışmaq lazım gəlir.

3-cü sinifdə fəsillərin strukturu aşağıdakı kimidir:




Bu struktur hər bir fəsildə müxtəlif məzmun xətlərinə aid standartların taksonomiyanın mərhələlərinə uyğun reallaşdırılmasına imkan yaradır:

1) **Oxu.** Şagirdlər mətni oxuyur, mövzu üzrə yeni məlumat əldə edirlər; bu zaman müxtəlif oxu strategiyaları tətbiq olunur: növbəli oxu, istiqamətləndirilmiş oxu və s.

2) **Dinləmə, danışma, yazı.** Əldə etdikləri məlumat və ya ideya ətrafında danışır (müzakirə, debat), yazır (təqdimat, esse), dinlədiklərini oxuduqları ilə müqayisə edirlər.

3) **Filoloji anlayışlar.** Mətnin xarakterindən asılı olaraq janrlar, kompozisiya elementləri, təqdimat üsulları və s. ilə bağlı yeni terminləri mənimsəyirlər; yaradıcılıq tələb edən tapşırıqları yerinə yetirməklə

həmin anlayışları mənimsədiklərini nümayiş etdirirlər.

4) **Dil qaydaları.** Hər fəsildə ekspressiv nitq bacarıqları (danışma, yazı) üçün praktiki əhəmiyyət daşıyan müəyyən dil qaydası mənimsədilir. (8-ci bölmədə bu qaydalar ümumiləşdirilərək təkrar olunur.) Möhkəmləndirici tapşırıqlardan sonra şagirdlər həmin qaydanı yazıda tətbiq edirlər.

Fəsillərdə əsas fəaliyyət oxu üçün nəzərdə tutulmuş mətn(lər) üzərində qurulur, bütün məzmun xətləri üzrə standartlar müvafiq mövzuya aid nitq materialı üzərində reallaşdırılır.

## 3. Məzmun vahidlərinin saatlar üzrə bölgüsü

3-cü sinifdə Azərbaycan dilinin tədrisinə 306 saat ayrılır: 34 həftə x 9 saat. Bölmə və fəsillərin saatlar üzrə bölgüsü aşağıdakı kimidir.

### I YARIMİL

| Fəsil | Mövzu | Dil qaydası | Dərs | Saat |
|---|---|---|---|---|
| **1-ci bölmə. FƏRD VƏ TOPLUM** | | | | |
| Giriş | | | 1 | 2 |
| 1 | Dürüstlük | Sözlərdə saitlərin düzgün yazılışı | 3 | 6 |
| 2 | Dostluq | Sözlərdə samitlərin düzgün yazılışı | 4 | 8 |
| 3 | Mərhəmət | Sözün tərkibi | 3 | 6 |
| 4 | Məsuliyyət | Sadə və düzəltmə sözlər | 3 | 6 |
| 5 | Nikbinlik | İki və dörd cür yazılan şəkilçilər | 3 | 6 |
| Ümumiləşdirici təkrar | | | 1 | 2 |
| 1-ci bölmə üzrə cəmi | | | 18 | 36 |
| **2-ci bölmə. DÜNYAMIZI TANIYAQ** | | | | |
| Giriş | | | 1 | 2 |
| 1 | Biz azərbaycanlıyıq | Söz, anlayış | 3 | 6 |
| 2 | Dünya xalqları | Konkret və mücərrəd isimlər | 3 | 6 |
| 3 | Tarixi abidələr | Ümumi və xüsusi isimlər | 3 | 6 |
| 4 | Milli bayramlar | Söz və söz birləşməsi | 3 | 6 |
| 5 | Səyahət | Ölkə və xalq adları | 3 | 6 |
| Ümumiləşdirici təkrar | | | 1 | 2 |
| 6-cı bölmə üzrə cəmi | | | 17 | 34 |
| **3-cü bölmə. QƏRİBƏ HEYVANLAR** | | | | |
| Giriş | | | 1 | 2 |
| 1 | Mamont və fil | Söz ortasında *k, t, p, q* samitlərinin yazılışı | 3 | 6 |
| 2 | Nadir meşə heyvanları | Söz, söz birləşməsi, cümlə | 3 | 6 |
| 3 | Manqust | Cümlənin məqsədə görə növləri | 4 | 8 |
| 4 | Antarktida sakinləri | Sifət | 3 | 6 |
| 5 | Delfin | | 2 | 4 |
| Ümumiləşdirici təkrar | | | 1 | 2 |
| 3-cü bölmə üzrə cəmi | | | 17 | 34 |
| **4-cü bölmə. TƏBİİ FƏLAKƏTLƏR** | | | | |
| Giriş | | | 1 | 2 |
| 1 | Sel | Mürəkkəb sözlər | 3 | 6 |
| 2 | Meşə yanğınları | Mürəkkəb sözlərin yazılışı | 4 | 8 |
| 3 | Dənizdə fırtına | Mürəkkəb sözlərdə eyni sözün təkrarı | 4 | 8 |
| 4 | Sunami | | 2 | 4 |
| 5 | Daşqın | Xüsusi isimlərin yaranması | 3 | 6 |
| 3-cü sinifdə keçilənlərin təkrarı | | | 1 | 2 |
| 4-cü bölmə üzrə cəmi | | | 18 | 36 |
| CƏMİ | | | 70 | 140 |

## II YARIMİL

| Fəsil | Mövzu | Dil qaydası | Dərs | Saat |
|---|---|---|---|---|
| 5-ci bölmə. İXTİRALAR | | | | |
| Giriş | | | 1 | 2 |
| 1 | Zəka və ixtira | Söz sonunda k samiti; k-y əvəzlənməsi | 4 | 8 |
| 2 | Ən mühüm ixtira | Söz sonunda q samiti; q-ğ əvəzlənməsi | 3 | 6 |
| 3 | İxtiraçı uşaqlar | "L" samiti ilə başlanan şəkilçilərin yazılışı | 3 | 6 |
| 4 | Özün düzəlt | Say. Miqdar və sıra sayları | 3 | 6 |
| 5 | Rəqəmlərin tarixi | Sayların yazılışı | 3 | 6 |
| Ümumiləşdirici təkrar | | | 1 | 2 |
| 5-ci bölmə üzrə cəmi | | | 18 | 36 |
| 6-cı bölmə. UNUDULMAZ QƏHRƏMANLAR | | | | |
| Giriş | | | 1 | 2 |
| 1 | Hünər göstər, ad qazan | Köməkçi sözlər | 3 | 6 |
| 2 | El igidləri ilə tanınar | Mürəkkəb cümlə | 3 | 6 |
| 3 | İgid döyüşdə bəlli olar | Mürəkkəb cümlədə vergül və bağlayıcılar | 3 | 6 |
| 4 | Qəhrəmanlar unudulmur | Bağlayıcıların növləri | 3 | 6 |
| 5 | Möhtəşəm dönüş | Bir-birini əvəz edən bağlayıcılar | 3 | 6 |
| Ümumiləşdirici təkrar | | | 1 | 2 |
| 6-cı bölmə üzrə cəmi | | | 17 | 34 |
| 7-ci bölmə. ODLAR YURDU | | | | |
| Giriş | | | 1 | 2 |
| 1 | Odlar oğlu | Şəxs əvəzliyi | 3 | 6 |
| 2 | Göyçə gölü | Feil. Təsdiq və inkar feillər | 3 | 6 |
| 3 | Azərbaycan musiqisi | Feilin şəxsə görə dəyişməsi | 3 | 6 |
| 4 | Qız qalası | Feilin zamanları | 3 | 6 |
| 5 | Azərbaycan qalaları | Feilin şəxsə və zamana görə dəyişməsi | 4 | 8 |
| Ümumiləşdirici təkrar | | | 1 | 2 |
| 7-ci bölmə üzrə cəmi | | | 18 | 36 |
| 8-ci bölmə. HİKMƏT XƏZİNƏSİ | | | | |
| Giriş | | | 1 | 2 |
| 1 | Əməksevərlik | Samitlərin yazılışı (Təkrar) | 3 | 6 |
| 2 | Nəsihət | Sözün tərkibi (Təkrar) | 3 | 6 |
| 3 | Birlik | Əsas və köməkçi sözlər (Təkrar) | 3 | 6 |
| 4 | Yumor və hikmət | Söz birləşməsi və cümlə (Təkrar) | 3 | 6 |
| 5 | Məharət | | 2 | 4 |
| 3-cü sinifdə keçilənlərin təkrarı | | | 1 | 2 |
| 8-ci bölmə üzrə cəmi | | | 16 | 32 |
| CƏMİ | | | 69 | 138 |

Tədris ili üçün ayrılmış 306 saatdan 28-i sərbəst saat kimi nəzərdə tutulmuşdur. Müəllimlərə həmin saatlarda aşağıdakı fəaliyyətləri qurmaq tövsiyə olunur:

1. Sinifdənxaric oxu
2. Müxtəlif tipli imla mətnlərinin yazılması
3. Həftə ərzində gözlənilən səviyyədə reallaşmamış təlim nəticələri üzrə iş
4. Dərslərdə aşağı nəticələr göstərən şagirdlərlə diferensial təlimin təşkili
5. "Söz boğçası" ilə iş
6. Nitq bacarıqlarını inkişaf etdirən intellektual oyunlar
7. Layihə tapşırıqları üzrə təqdimatlar
8. Formativ və kiçik summativ qiymətləndirmənin, eləcə də özünüqiymətləndirmənin təşkili

## 4. Məzmun standartları və təlim nəticələri

Aşağıda məzmun standartlarının tədris prosesində reallaşdırılması yolları açıqlanır. Hər dərsdə bir və ya bir neçə alt standart reallaşdırılır. Dərslərdə qoyulan təlim məqsədləri – gözlənilən şagird nailiyyətləri məzmun standartlarına doğru aparan addımları və ya standartların reallaşma üsullarını göstərir.

### Dinləmə

**3-1.1.1. Dinlədiyi mətnin məzmunu ilə bağlı əsas və ikincidərəcəli məqamları qeyd edir.**
• Dinlədiyi mətnlə bağlı faktoloji sualları cavablandırır.
• Qeyd götürməklə dinləyir.
• Dinlədiyi mətnin məzmununa uyğun olan (olmayan) fikir və faktları müəyyənləşdirir.
• Dinlədiyi mətnin əsas məqamlarını qeyd edir və məzmuna uyğun plan tərtib edir.

**3-1.1.2. Dinlədiyi mətni məzmun və ideya baxımından şərh etməklə obraz, fakt və fikirlərə münasibət bildirir.**
• Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir.

**3-1.1.3. Dinlədiyi mətnə yaradıcı yanaşır.**
• Dinlədiyi mətnin mövzu və məzmununa yaradıcı yanaşmaqla danışır.

### Danışma

**3-1.2.1. Müzakirələrdə çıxış edərkən mövzudan kənara çıxmır.**
• Müzakirə zamanı mövzuya uyğun fikirlər bildirir.

**3-1.2.2. Dinlədiyi fikirlərə münasibətini əsaslandırmaq üçün arqumentlər gətirir.**
• Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır.
• Debatda səslənən fikirlərdən birinə münasibət bildirir və mövqeyini arqumentlərlə əsaslandırır.

**3-1.2.3. Dialoq zamanı mövzu ilə bağlı müəyyən məqamları sual verməklə aydınlaşdırır.**
• Araşdırdığı məlumatlar və tərtib etdiyi suallar əsasında müsahibi ilə dialoq qurur.
• Mövzu ilə bağlı dialoq qurmaq (müsahibə almaq) üçün suallar tərtib edir.

**3-1.3.1. Oxuduğu və dinlədiyi mətni yaradıcı şəkildə nəql edir.**
• Bədii mətni hadisələrin ardıcıllığına uyğun nəql edir.
• Dinlədiyi mətnin qısa məzmununu danışır.
• Oxuduğu və ya dinlədiyi mətnin mövzu və məzmununa yaradıcı yanaşmaqla danışır.

**3-1.3.2. Qrafik və ya verbal-qrafik informasiyanı (şəkil, sxem, məlumat vərəqi və s.) rabitəli şəkildə şifahi təqdim edir.**
• Verbal və qrafik materialları (şəkil, sxem, xəritə, məlumat vərəqi və s.) şərh etməklə mövzu üzrə danışır.

**3-1.3.3. Mövzu ilə bağlı bildiklərini, fikir və təəssüratlarını rabitəli şəkildə təqdim edir.**
• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir.
• Əlavə biliklərindən istifadə etməklə mövzu üzrə təqdimat edir.

**3-1.3.4. Araşdırma nəticəsində əldə etdiyi məlumatları rabitəli şəkildə təqdim edir.**
• Mövzu üzrə apardığı araşdırmaların nəticələrini təqdim edir.

**3-1.4.1. Cümlə qurarkən sözləri uyğun qrammatik formada işlədir.**
• Sözlər arasında məna əlaqəsini müəyyən etməklə söz birləşməsi və cümlələr qurur.

**3-1.4.2. Danışarkən emosiyalarını nümayiş etdirmək üçün intonasiya, jest və mimikadan istifadə edir.**
• Jest və mimikalarını nitqin məzmununa uyğunlaşdırır.

## Oxu

**3-2.1.1. Müvafiq mətnləri sürətli, səlis, aydın səslə oxuyur.**
• Mətni intonasiya ilə oxuyur.
• Mətni sürətli, səlis, aydın səslə oxuyur.

**3-2.1.2. Dialoji mətni uyğun səs tonları ilə oxuyur.**
• Obrazların nitqini onların xarakterinə uyğun səsləndirir.
• Dialoji mətni səhnələşdirərkən improvizələr edir.

**3-2.2.1. Qeyd götürməklə mətndəki əsas məlumatları mənimsədiyini nümayiş etdirir.**
• Bədii mətndə hadisələrin ardıcıllığını müəyyən edir.
• Mətnin məzmununa uyğun hekayə xəritəsini tamamlayır. .
• Mətnlə bağlı faktoloji sualları cavablandırır.
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir.
• İnformativ mətndəki əsas faktları müəyyən edir.
• Qeyd götürməklə mətni oxuyur.
• Mətndə açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir.
• Mətndə müəllif mövqeyini faktlardən, təxəyyülü real hadisədən fərqləndirir.
• Oxuyarkən qabaqcadan müəyyən olunmuş sualların cavablarını mətndən seçir.

**3-2.2.2. Verbal-qrafik informasiyanı (şəkil, məlumat vərəqi, sxem və s.) mənimsədiyini nümayiş etdirir.**
• Şəkil, sxem, söz və söz birləşməsi ilə ifadə olunan məlumatları mənimsəyir.

**3-2.2.3. Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyənləşdirir.**
• Kontekstdən çıxış edərək sözün, frazeoloji ifadənin mənasını müəyyənləşdirir.
• Lüğətdən istifadə etməklə sözün mənasını müəyyən edir.
• Çoxmənalı sözün və ya omonimin kontekstə uyğun mənasını müəyyən edir.
• Verilmiş izaha (əlamətlərə və ümumi mənaya) görə sözü müəyyən edir.
• Sözün həqiqi və məcazi mənaları arasındakı bağlılığı müəyyən edir.
• Sözləri cümlədə mənasına uyğun işlədir.
• Mətni oxuyarkən tanış olmadığı sözləri qeyd edir.

**3-2.3.1. Ümumi məzmun səviyyəsində səbəb-nəticə əlaqəsini müəyyənləşdirir.**
• Sətiraltı fikir və informasiyanı izah edir.
• Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir.
• Mətnin məzmunundan çıxış edərək hadisənin səbəbini və nəticəsini müəyyən edir.
• Obrazların keçirdiyi hisslərin səbəbini onların düşdüyü situasiya ilə izah edir.

**3-2.3.2. Mətndəki hadisələrə və dialoqlara görə obrazlar haqqında fikir yürüdür.**
• Mətndəki obrazları xarakterizə edir.
• Mətndəki obrazları təhlil edir.

• Fikirlərini fakt və hadisələrə istinad etməklə əsaslandırır.

**3-2.3.3. Mətndə əsas fikrin açılmasına xidmət edən məqamları müəyyənləşdirir.**

• Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir.
• Situasiyaya uyğun gələn standart ifadələr (atalar sözü, aforizm) seçir.
• İnformativ mətndə fikir və arqumentlər arasındakı məntiqi əlaqəni müəyyən edir.
• Aforizmi səciyyələndirən xüsusiyyətləri müəyyən edir.
• Atalar sözünün ifadə etdiyi müdrik fikri izah edir.

**3-2.4.1. Mətndəki fakt, hadisə və obrazlarla bağlı şəxsi mövqeyini əsaslandırır.**

• İnformativ mətndəki fakt və fikirlərə münasibət bildirir.
• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir.
• Mətnə istinad etməklə obrazın xarakteri və ya davranışı haqqında fikirləri əsaslandırır.

**3-2.4.2. Mətni təxəyyülünə uyğun genişləndirir.**

• Mətni məzmununa və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır.
• Oxuduğu mətnin sonluğunu təxmin edir.
• Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir.
• Mətni təxəyyülünə uyğun davam etdirir.

**3-2.4.3. Mətnin tərkib hissələrini, struktur elementlərini və dil-üslub xüsusiyyətlərini müəyyən edir.**

• Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir.
• Rəvayət, təmsil, lətifə, əfsanə janrlarını səciyyələndirən xüsusiyyətləri müəyyən edir.
• Mətnlərin bədii, poetik xüsusiyyətlərini müəyyənləşdirir və ekspressiv təsirini izah edir.
• Mətndəki obrazlı ifadələri fərqləndirir və izah edir.
• Mətnin abzaslarını uyğun yarımbaşlıqlarla adlandırır.
• Mətnin giriş, əsas və sonluq hissələrini fərqləndirir.
• Mətnin hissələrini uyğun yarımbaşlıqlarla adlandırır.
• Ssenarini səciyyələndirən xüsusiyyətləri müəyyən edir.
• Mətnə aid məlumatları hissə və ya yarımbaşlıqlarla uyğunlaşdırır.

**3-2.4.4. Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımdan müqayisə edir.**

• Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir.
• Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir.
• Bədii və informativ mətnləri məzmun xüsusiyyətlərinə görə fərqləndirir.

## Yazı

**3-3.1.1. Yazısında məlumatları mətnin tərkib hissələri (giriş, əsas hissə, nəticə) üzrə qruplaşdırır.**

• Fakt, hadisə və fikirləri mətnin abzas və hissələri üzrə strukturlaşdırır.
• Yazılı təqdimatın məzmununa münasibət bildirir və təkliflərini verir.

**3-3.1.2. Özünün və ya başqasının yazısını dil qaydaları baxımından təkmilləşdirir.**

• Özünün və başqasının yazısını dil qaydaları baxımından təkmilləşdirir.
• Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir.
• Cümlələrdə ümumi və xüsusi isimlərin yazılışı ilə bağlı səhvləri tapıb düzəldir.

**3-3.2.1. Dinlədiyi, oxuduğu məlumatları yazısında əks etdirir.**

• Dinlədiyi mətnin qısa məzmununu yazır.
• Şahid olduğu və ya iştirak etdiyi hadisə haqqında məlumat (xəbər) yazır.
• Tanış olduğu məlumatları yazıda əks etdirir.
• İllüstrasiyadan istifadə etməklə mətnin sonluğunu yazır.
• Oxunulmuş mətnin məzmununu ssenari şəklində yazır
• Qrafik informasiyanı yazıda rabitəli cümlələr şəklində təqdim edir.
• Verilmiş şəkillərə əsasən mətn yazır.

**3-3.2.2. Fikir, təxəyyül və təəssüratları əsasında bədii mətn yazır.**
• Mövzu ilə bağlı təxəyyülünə uyğun dialoq yazır.
• Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətn yazır.
• Fikir və təxəyyülü əsasında qafiyə və ritmə uyğun kiçikhəcmli şeir yazır.
• Plan quraraq nəqli xarakterli mətn yazır.
• Müəyyən məqsədlə gündəlik yazır.

**3-3.2.3. Tanış olduğu məlumatlar əsasında kiçikhəcmli qeyri-bədii mətn yazır.**
• Mövzu ilə bağlı fakt və münasibət bildirən fikirləri yazıda əks etdirir.
• Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır.
• Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir.
• Məqsədə uyğun olaraq açıqça yazır.
• Mövzu ilə bağlı fikri əsaslandırmaq üçün faktlardan istifadə edir.
• Araşdırma materialları əsasında kiçikhəcmli informativ mətn yazır.
• Məqsədə uyğun olaraq məktub yazır.
• Oxuduğu mətn haqqında rəy yazır.

**3-3.2.4. Standart forma və məzmun xüsusiyyətlərini gözləməklə əməli yazılar (elan, anket, dəvətnamə) yazır.**

**3-3.2.5. Təqdimat üçün müxtəlif vizual forma və üsullar seçir.**
• Qrafik informasiyanı yazıda rabitəli cümlələr şəklində təqdim edir.
• Yazılı təqdimatın məzmununa münasibət bildirir və təkliflərini verir.
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (məlumat vərəqi, plakat, yaddaş xəritəsi və s.) hazırlayır.
• Məlumatları qrafik informasiya (məlumat vərəqi, cədvəl, diaqram) şəklində təqdim edir.
• Müəyyən məqsədlə şüar yazır.

## Dil qaydaları

**3-4.1.1. Sözlərdə sait və samitlərin yazılış qaydalarına riayət edir.**
• Sözlərdə samitlərin düzgün yazılış qaydalarına əməl edir.
• Sonu b, c, d, g ilə bitən sözləri orfoqrafik normalara uyğun yazır.
• Sözlərdə saitlərin düzgün yazılış qaydalarına əməl edir.
• B, c, d, g samitləri ilə bitən sözlərin düzgün yazılışını müəyyən edir.
• K və q samiti ilə bitən sözlərin düzgün yazılışını müəyyən edir.

**3-4.1.2. Mürəkkəb sözlərin yazılış qaydalarına riayət edir.**
• Mürəkkəb sözləri tərkib hissələri arasındakı məna əlaqəsindən çıxış edərək düzgün yazır.

**3-4.1.3. Şəkilçilərin yazılış qaydalarına əməl edir.**
• Sayları söz və rəqəmlə düzgün yazır.

• Ahəng qanununu gözləməklə sözə uyğun şəkilçilər artırır.

**3-4.2.1. Nitq hissələrinin ümumi qrammatik mənalarını və morfoloji tərkibini müəyyən edir.**
• Şəkilçiləri söz və cümlədəki funksiyalarına görə fərqləndirir.
• Sözlərin ifadə etdiyi ümumi anlayışı (varlıq, əlamət, say, hərəkət) müəyyən edir.
• Sözü kök və şəkilçiyə ayırır, sözdüzəldici və sözdəyişdirici şəkilçiləri funksiyalarına görə fərqləndirir.
• Sözə şəkilçi artırmaqla yeni sözlər düzəldir.
• Şəxs adları kimi işlənən sözlərin aid olduğu nitq hissəsini müəyyən edir.
• Mürəkkəb sözlərin tərkibini müəyyən edir.
• Əsas nitq hissələrinin (isim, sifət, say, feil, əvəzlik) ümumi leksik-qrammatik xüsusiyyətlərini müəyyənləşdirir.
• Köməkçi sözləri əsas nitq hissələrindən fərqləndirir.
• Cümlənin ifadə etdiyi fikrə əsasən müvafiq köməkçi sözlərdən istifadə edir.
• Sözlər arasında uyğunluğu müəyyən edərək mürəkkəb sözlər düzəldir.

**3-4.2.2. Sintaktik vahidlərin (söz birləşməsi və cümlə) komponentlərini və ifadə etdiyi semantikanı izah edir.**
• Məqsəddən asılı olaraq cümlələrin sonunda müvafiq durğu işarələrindən istifadə edir.
• Məqsəddən asılı olaraq nəqli, sual, əmr cümlələri qurur.
• Söz, söz birləşməsi və cümləni bir-birindən fərqləndirir.
• Lüğətdən istifadə etməklə sözün mənasını müəyyən edir.
• Sözlər arasında məna əlaqəsini müəyyən etməklə söz birləşməsi və cümlələr qurur.
• Sadə cümlələr arasında uyğunluğu müəyyən edərək mürəkkəb cümlə qurur.
• Cümlənin məqsəd və intonasiyaya görə növlərini fərqləndirir.

**3-4.3.1. Dialoqda müvafiq durğu işarələrindən istifadə edir.**
• Dialoqda durğu işarələrindən düzgün istifadə edir.

**3-4.3.2. Mürəkkəb cümlədə durğu işarələrindən istifadə edir.**
• Mürəkkəb cümlənin tərkib hissələri arasında vergül işarəsindən istifadə edir.

**3-4.4.1. Kontekstdən və morfoloji tərkibdən çıxış edərək sözün mənasını müəyyən edir.**
• Əks anlayışı ifadə edən söz cütlərini müəyyən edir.
• Lüğətdən istifadə etməklə sözün mənasını izah edir.
• Verilmiş izaha (əlamətlərə və ümumi mənaya) görə sözü müəyyən edir.
• Danışarkən fəal leksikadan istifadə edir.
• Bədii nümunələrdə fikrin təsirli və dəqiq ifadə olunmasında yaxınmənalı və əksmənalı sözlərin rolunu müəyyən edir.
• Kontekstə əsasən sözün mənasını müəyyən edir.

**3-4.4.2. Sözlərin mənalarını müxtəlif üsullarla izah edir.**
• Ümumi məna və özəl əlamətləri göstərməklə anlayışı izah edir.
• Yaxınmənalı və əksmənalı sözlərin köməyi ilə söz və ifadələri izah edir.

## 5. Akademik anlayışlar

Dilin tədrisinə müasir yanaşma şagirdlərə yalnız dil qaydalarının öyrədilməsini deyil, həm də oxu və yazı bacarıqlarının formalaşdırılmasını və inkişafını tələb edir. Bu isə yalnız dilçilik deyil, ümumiyyətlə, filologiya üzrə bir sıra termin və anlayışların mənimsənilməsini nəzərdə tutur. Bu proses 1-ci sinifdən başlanır və ibtidai siniflərdə şagirdlər bir çox sadə və daha ümumişlək terminləri mənimsəmiş olurlar.

Tədris prosesində şagirdlərlə ünsiyyət zamanı müəllimlər nəzərə almalıdırlar ki, 1-ci, 2-ci və 3-cü siniflərdə şagirdlər aşağıdakı filoloji anlayışlara yiyələnirlər.

| 1-ci sinif | 2-ci sinif | 3-cü sinif |
|---|---|---|
| ***Dil qaydaları üzrə*** | ***Dil qaydaları üzrə*** | ***Dil qaydaları üzrə*** |
| • səs<br>• hərf<br>• əlifba<br>• söz<br>• sait<br>• samit<br>• heca<br>• cümlə<br>• nöqtə<br>• ad bildirən sözlər<br>• şəxs adları<br>• yer adları<br>• əlamət bildirən sözlər<br>• hərəkət bildirən sözlər<br>• say bildirən sözlər<br>• nəqli cümlə<br>• sual cümləsi<br>• yaxınmənalı söz<br>• əksmənalı söz | • ahəng qanunu<br>• dırnaq işarəsi<br>• dodaqlanan sait<br>• dodaqlanmayan sait<br>• əmr cümləsi<br>• gözlə görünən və görünməyən varlıqlar<br>• hərəkət bildirən sözlərin təsdiq və inkarı<br>• hərəkətin zamanı<br>• hiss, həyəcan bildirən sözlər<br>• hissəcik (şəkilçi)<br>• incə sait<br>• qalın sait<br>• müraciət bildirən sözlər<br>• nida cümləsi<br>• sıra sayı<br>• tire<br>• vergül | • kök və şəkilçi<br>• iki cür yazılan şəkilçilər<br>• dörd cür yazılan şəkilçilər<br>• anlayış<br>• isim<br>• konkret isimlər<br>• mücərrəd isimlər<br>• ümumi isimlər<br>• xüsusi isimlər<br>• söz birləşməsi<br>• -stan, -iya şəkilçiləri<br>• sifət<br>• əlamət bildirən sifətlər<br>• keyfiyyət bildirən sifətlər<br>• sadə və düzəltmə sözlər<br>• mürəkkəb sözlər<br>• defis<br>• feil<br>• şəxs əvəzliyi<br>• bağlayıcı<br>• mürəkkəb cümlə |
| ***Oxu və yazı üzrə*** | ***Oxu və yazı üzrə*** | ***Oxu və yazı üzrə*** |
| • müəllif<br>• əsas fikir<br>• hekayə<br>• nağıl<br>• şeir<br>• bənd<br>• misra<br>• sətir<br>• qafiyə<br>• başlıq (sərlövhə)<br>• obraz<br>• baş qəhrəman<br>• xarakter<br>• mətnin planı<br>• abzas<br>• açar söz | • açıqca<br>• anket<br>• alqış<br>• atalar sözləri<br>• bədii mətn<br>• daxili əlifba<br>• dialoq<br>• informativ mətn<br>• əsas hissə<br>• fakt və münasibət<br>• giriş<br>• hekayə xəritəsi<br>• ideya<br>• izahlı lüğət<br>• jest<br>• qaravəlli<br>• lüğət<br>• mənfi obraz<br>• məzmun | • epizod<br>• köhnəlmiş sözlər<br>• ssenari<br>• məlumat vərəqi<br>• müsahibə<br>• haşiyə, şərh, istinad<br>• ensiklopediya<br>• mülahizə<br>• təxəyyül<br>• ritm<br>• qeydgötürmə<br>• yaddaş xəritəsi<br>• dastan<br>• obraz xəritəsi<br>• həqiqi və məcazi məna<br>• rəvayət<br>• əfsanə<br>• təmsil<br>• lətifə<br>• aforizm |

bölmə **1**

# FƏRD VƏ TOPLUM

| **Mövzu** | | **Fərd və toplum** |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | • Şəkillər əsasında mövzu ilə bağlı bildiklərini danışma<br>• Mövzu üzrə danışarkən fikrini əsaslandırma |
| | Söz ehtiyatı | Sözlər: *fərd, toplum, mənəvi dəyər, davranış, pörtmək, rəsədxana, ekskursiya, dəhliz, fürsət, müavin, zümzümə etmək, məsuliyyət, səndələmək, səhnə, ssenari, sükut, matç, yeniyetmə, qarabaqara, cərimə, hakim, bədbinləşmək, badalaq.*<br>Frazeoloji birləşmələr: *əl-ayağa düşmək, ürəyi düşmək, boynuna almaq, dayaq olmaq, şər atmaq, qanı qaralmaq, fikir götürmək, ağzına su almaq.* |
| | Oxu | • Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun və ideya cəhətdən müqayisə etmə;<br>• Mətni obrazlardan birinin dilindən nəql etmə. |
| | Yazı | • Oxunulan və ya dinlənilən mətnin məzmununun yazılması;<br>• Şəkillər və bildiyi məlumatlar əsasında elmi və ya bədii mətnin yazılması. |
| Akademik biliklər | Dil qaydaları | • Sonu b, c, d, g samitləri ilə bitən sözlərin yazılışı, sözün morfoloji tərkibi, şəkilçilərin növləri, şəkilçilərin ahəng qanununa görə iki və dörd cür yazılması |
| | Filoloji anlayışlar | • Sözün müxtəlif mənalar kəsb etməsi, daxili əlifba |
| Kompetensiyalar | | • Sosial davranış, əxlaqi dəyərlərin təbliği |

Bu bölmənin mövzusu sosial mühitdə insanların bir-biri ilə qarşılıqlı münasibəti, davranış və ünsiyyəti ilə bağlıdır. Şagirdlər dərk etməlidirlər ki, onlar cəmiyyətin üzvləridir və onların da toplumda bir sıra öhdəlikləri var. Bu öhdəliklər şagirdlərin təhsili və sosial davranışları ilə əlaqədardır. Bu mövzuda təqdim olunmuş bədii mətnlər vasitəsilə şagirdlərin dinləmə, danışma, oxu və yazı bacarıqları inkişaf etdirilir, söz ehtiyatları zənginləşdirilir, həmçinin bir sıra mənəvi dəyərlər aşılanır.

**Öncədən vacib olan bilik və bacarıqlar:**

– Bədii mətni dinləyicilərin başa düşəcəyi tərzdə oxuyur;
– “Mövzu”, “məzmun”, “ideya” anlayışlarını fərqləndirir;
– Səslə hərfin fərqini izah edir;
– Lüğətdən istifadə zamanı daxili əlifba üzrə biliklərini tətbiq edir;
– Cümlə daxilindəki sözləri əlaqələndirmək üçün şəkilçilərdən empirik şəkildə istifadə edir;
– Bəzi şəkilçilərin (*-çı*$^4$*, -lı*$^4$ və *-lar*$^2$) rolunu izah edir.

**Diferensial təlim**

Bölmədəki bəzi filoloji anlayışlar (“epizod”, “ssenari”) oxuyub-qavrama bacarığı kifayət qədər inkişaf etməmiş uşaqlar üçün çətinlik yarada bilər. Bu anlayışlar mənimsədilərkən şagirdlərin fəaliyyətinə diferensial yanaşmaq tövsiyə olunur. Bu məqamlarla bağlı tövsiyələr dərslərin şərhində verilmişdir.

**Mənimsəmədə çətinlik doğuran məsələlər:**

– Bəzi ümumişlək olmayan sözlərin – arxaizm və terminlərin izah edilməsi (*şahı, abbası, tramvay, kök, şəkilçi, epizod, ssenari* və s.);
– Ssenari şəklində təqdim olunmuş mətnin qavranılması;
– Bədii mətndəki əsas və köməkçi epizodların fərqləndirilməsi;
– Tapşırıqlarda iki və dörd cür yazılan şəkilçilərin qrafik təqdimi *(-çı*$^4$*, -lar*$^2$*).*

**1-ci bölmədə nəzərdə tutulan köməkçi vəsaitlər:** *bayraq, vatman kağızı, orfoqrafiya və izahlı lüğət* və s.

## **Giriş dərsi.** Bölmənin mövzusu ilə tanışlıq

• Dərslik: səh. 6–7 • İş dəftəri: səh. 2

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Mətnin tərkib hissələrini, struktur elementlərini (başlıq, illüstrasiya) onun əsas məzmunu ilə əlaqələndirir (st. 3-2.4.3).
• Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir (st. 3-2.3.3).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st. 3-2.4.4).
• Ümumi məna və özəl əlamətləri göstərməklə anlayışı izah edir (st. 3-4.4.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Dərsliklə ümumi tanışlıq |
| 2 | **Danışma** | Bölmənin mövzusu ilə bağlı olan şəkillər üzrə danışma |
| 3 | **Oxu** | “Dünyanı dəyişmək istəyən qız” mətni üzrə iş |
| 4 | **Oxuyub-qavrama** | “Dünyanı dəyişmək istəyən qız” mətni üzrə iş |
| 5 | **Söz ehtiyatı** | Həyatdan nümunələr gətirməklə mənəvi dəyərlər haqqında danışma |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Şagirdlərin ilk dərsdə yay tətili ilə bağlı təəssüratlarını danışması onların dərs mühitinə uyğunlaşmasına və fəallaşmasına kömək edə bilər.

Şagirdlərin diqqətini bölmənin mövzusuna yönəltməzdən öncə onların tədris ilində istifadə edəcəkləri Azərbaycan dili dərsliyi ilə tanış olması onlarda dərsliyin məzmununa maraq oyadacaq. Şagirdlər dərsliyi vərəqləyərək bölmələrin adlarını oxuyur, onların diqqətini çəkən mövzu, şəkil, mətn və tapşırıqlar haqqında ilkin təəssüratlarını danışırlar. Bundan sonra müəllim sual verir:

*– Dərsliyin ilk bölməsi hansıdır? Fərd və toplum deyəndə nə başa düşürsünüz?*

### Danışma

3-1.3.3 **Tapşırıq A (dərslik).** Şagirdlərin həyat bilgisi fənnindən fərd, kollektiv, cəmiyyət (toplum) haqqında müəyyən təsəvvürləri vardır. Müəllim yönəldici suallar verməklə şagirdlərin “fərd və toplum” anlayışları haqqında biliklərini xatırladır. Daha sonra şagirdlər müəllimin köməyi ilə şəkildə fərd və toplum anlayışlarının necə ifadə olunması barədə öz fikirlərini söyləyirlər.

**Müəllimin nəzərinə!** Şagirdlərin bu mövzuda ilkin biliklərini öyrəndikdən sonra fərd və toplum anlayışlarını şagirdlərin yaş səviyyəsini nəzərə almaqla aşağıdakı kimi izah etmək olar.

***Toplum, cəmiyyət*** – cəm halında yaşayan, bir-biri ilə ünsiyyətdə olan insanlar.

***Fərd*** – toplum və ya cəmiyyətin bir üzvü; insan, şəxsiyyət.

Cəmiyyətdə hər bir insanın bir vəzifəsi, işi, peşəsi var. Bir-birini tanıyan və tanımayan insanlar müəyyən dərəcədə bir-birindən qarşılıqlı asılı olurlar. Məsələn, həkimin bərbərə, bərbərin həkimə, yanğınsöndürənin polisə və ya polisin də dərziyə ehtiyacı ola bilər. Odur ki toplumdakı insanlar bir-birini tanısa da, tanımasa da, bir-birinə qarşılıqlı yardım və hörmət edirlər. Bu birliyə toplum deyirik. Hər bir fərd toplumun bir üzvüdür və toplumdakı davranışına, gördüyü yaxşı işlərə görə hörmət qazanır.

Mövzunu şagirdlərə bir az doğmalaşdırmaq üçün müəllim sual verir:

*– Sizin daha çox ünsiyyət qurduğunuz insanlar kimlərdir? (məhəllə uşaqları, sinif yoldaşları, dərnək yoldaşları). Siz bir fərd olaraq onların hörmətini necə qazanmısınız?*

**Tapşırıq B (dərslik).** Tapşırığı yerinə yetirmək üçün müəllim şagirdlərə müəyyən vaxt verir, şagirdlər şəkillərə baxaraq fərdin (şəklin mərkəzində təsvir olunmuş oğlanın) müxtəlif kollektivdə (toplumda) faydalı olan davranışlarını müəyyən edirlər. Bu davranışları (mənəvi dəyəri) ifadə edən açar sözlər (xeyirxahlıq, birlik, vətənpərvərlik, əməkdaşlıq) düşünürlər.

**Kollektiv iş.** Şagirdlər illüstrasiya üzrə danışır, seçdikləri açar sözləri söyləyir, seçimlərini şəklin məzmununa uyğun olaraq əsaslandırırlar.

Tapşırıq cütlərlə iş formasında da yerinə yetirilə bilər.

**Diferensial təlim**

Çətinlik çəkən şagirdlər çox olarsa, müəllim mənəvi dəyər bildirən sözləri *(qənaətcillik, xeyirxahlıq, məsuliyyət, birlik, vətənpərvərlik, əməkdaşlıq, dostluq və s.)* lövhəyə yazaraq şagirdlərə həmin sözlər içərisindən şəkillərə uyğun gələn açar sözləri seçməyi tapşıra bilər.

**Tapşırıq C (dərslik).** Şagirdlər B tapşırığında bir fərdin nümunəsində toplum üçün faydalı olan xidmətlərlə tanış oldular. Bu tapşırıqda isə şagirdlər öz həyatlarından nümunə gətirməklə mövzu ətrafında danışırlar.

### Oxu

3-2.4.3 **"Dünyanı dəyişmək istəyən qız" mətni.** Müəllim şagirdlərin diqqətini "Dünyanı dəyişmək istəyən qız" mətninə aid illüstrasiyaya yönəldərək soruşur:

*– Sizcə, mətn niyə belə adlanır?*

Şagirdlərin mülahizələri dinlənildikdən sonra mətnin məzmunu ilə tanış olmaq üçün onlara bir neçə dəqiqə vaxt verilir. Daha sonra bir neçə şagirdə mətni ucadan oxumaq tapşırılır.

### Oxuyub-qavrama

Müəllim mətnin məzmununun necə qavranıldığını yoxlamaq üçün suallar verir:

*– Balıqlar nə üçün sahildə idilər? Aygün balıqları xilas etmək üçün nə edirdi? Atası onun hərəkətini görüb nə dedi? O, Aygünün başını niyə sığallayıb gülümsədi?*

3-2.3.3 **Tapşırıq Ç (dərslik).** Mətnin məzmununun qavranılması ilə bağlı suallar cavablandırıldıqdan sonra şagirdlər mətnin ideyasını ifadə edirlər: *Hər bir insan toplum üçün bacardığını etməlidir.*

İdeyanın açılmasında Aygünün atasına söylədiyi fikir mühüm rol oynayır:

*– Yox, ata, mənim əziyyətim bax bu balıq üçün hər şeyi dəyişəcək.*

Şagirdlər belə qənaətə gəlməlidirlər ki, Aygünün minlərlə balığı dənizə atmağa gücü çatmasa da, onun etdiyi yaxşılıq, heç olmasa, bir neçə balığın yaşamasına səbəb olur. Biz də ətrafımızda baş verənlərə biganə qalmayıb əlimizdən gələn yaxşılıq çox kiçik olsa belə, onu əsirgəməməliyik.

**Diferensial təlim**

Mətnin ideyasını lakonik ifadə etmək ilkin mərhələdə şagirdlər üçün çətindir. Oxuyub-qavrama və fikirlərini ifadəetmə bacarığı yüksək olan şagirdlərə mətnin ideyasını bir cümlə ilə ifadə etmək tapşırıla bilər.

3-2.2.1 **Tapşırıq A (iş dəftəri).** Hekayə xəritəsi üzrə müstəqil iş şagirdlərin mətni nə dərəcədə qavradıqlarını öyrənməyə imkan verir.

3-2.4.4 **Tapşırıq B (iş dəftəri). Yazı ilə inteqrasiya.** "Dünyanı dəyişmək istəyən qız" mətninin ideyasının müəyyənləşdirilməsi şagirdlərə Kəpənək obrazının nitqini tamamlamağa kömək edəcək. Təxminən belə yaza bilərlər:

*– Eybi yox, əsas odur ki, mən də bacardığımı edirəm. Bunu sən də edə bilərsən. Əgər hamımız bacardığımızı etsək, köməyimiz çoxalar, yanğın tez sönər.*

### Söz ehtiyatı

3-4.4.2 **Tapşırıq D (dərslik).** Şagirdlər tapşırıqda verilmiş mənəvi dəyərlər haqqında həyatdan və yaxud 2-ci sinifdə oxuduqları mətnlərdən nümunələr gətirirlər. Tapşırıq şagirdlərin söz ehtiyatını, mücərrəd mənalı sözləri izahetmə bacarıqlarını inkişaf etdirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkli şərh etməklə mövzu üzrə danışır. | Tap. A, B, C (dərslik) |
| Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir. | Tap. Ç (dərslik) |
| Mətn üzrə hekayə xəritəsi tərtib edir. | Tap. A (iş dəftəri) |
| Oxuduğu mətnlərin ideya yaxınlığını müəyyən edir. | Tap. B (iş dəftəri) |
| Həyatdan nümunələr gətirməklə mənəvi dəyər bildirən sözləri izah edir. | Tap. D (dərslik) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə mətnin oxusu zamanı izahlı lüğətdən istifadə olunacaq.

# fəsil 1 DÜRÜSTLÜK

## 1-ci dərs. "Anaya məktub"

• Dərslik: səh. 8–9 • İş dəftəri: səh. 3

**Təlim məqsədləri**

• Ümumi məna və özəl əlamətləri göstərməklə anlayışı izah edir (st. 3-4.4.2).
• Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir (st. 3-2.4.2).
• Mətndəki obrazları xarakterizə edir (st. 3-2.3.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin sualı |
| 2 | **Danışma** | Dürüstlük haqqında söhbətin aparılması |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Anaya məktub" mətninin oxusu; yeni sözlərin mənimsədilməsi |
| 4 | **Oxuyub-qavrama** | Baş qəhrəmanın davranışlarının səciyyələndirilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sual verir:

– *Nə vaxtsa yalan danışmısınızmı? Bunu nə üçün etmisiniz? Kimsə sizə yalan danışıbmı? Həmin adamın yalan danışdığını biləndə özünüzü necə hiss etmisiniz?*

Şagirdlərin səmimi cavablar verməsinə çalışmaq lazımdır.

### Söz ehtiyatı. Oxu

3-4.4.2 **Tapşırıq A (dərslik).** Şagirdlər "dürüstlük" sözünü öz həyatlarında xatırladıqları hadisələr əsasında izah edirlər.

Müəllim sual verir:

– *İnsana dürüstlük fayda verər, yoxsa yalançılıq?*

Şagirdlər 2-ci sinifdə oxuduqları "Xəyalpərəstlər" mətnində İqorun davranışını xatırlaya bilərlər.

Söhbət zamanı "Yalan ayaq tutar, amma yeriməz", "Yalanın ömrü 40 gün olur" və s. atalar sözləri də müzakirə oluna bilər.

**"Anaya məktub" mətni.** Şagirdlər mətnin 1-ci hissəsini növbə ilə ucadan oxuyurlar. Müəllim oxu prosesini müəyyən hissələrdə dayandırıb oxunmuş hissəyə uyğun faktoloji suallar verməklə şagirdlərin diqqətini yoxlayır. Suallar: *Müəllim Elxana nə üçün irad tutdu? Elxan niyə məktubu anasına vermək istəmirdi?* və s.

**Söz boğçası.** Müəllim oxu zamanı şagirdlərə tanış olmayan sözlərin (pörtmək, rəsədxana, ekskursiya, maddi vəziyyət və s.) mənasını əvvəlcə şagirdlərdən soruşur. Sonra həmin sözlərin mənasını özü izah edir.

3-2.2.3 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq mətnin oxusu bitdikdən sonra yerinə yetirilir.

Şagirdlərin yeni sözləri mənimsədiklərini yoxlamaq üçün onlara həmin sözləri cümlədə işlətmək də tapşırıla bilər.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik). 1-ci sual:** Mətndə məlumat verilir ki, Elxanın ailəsinin maddi vəziyyəti yaxşı deyil. Buna görə də o, anasına ekskursiya haqqında heç nə demək istəməyib. Şagirdlər səbəb kimi Elxanın anasının xəstə olması faktını da səsləndirə bilərlər.

**2-ci sual:** Şagirdlər Elxanın ailəsi ilə bağlı analiz etdikləri faktları mətndən taparaq bir daha oxuyurlar:

*1. "Anam bu məktubu oxusa, hirslənəcək. O isə xəstədir. Ona əsəbiləşmək olmaz".*

*2. "Elxan da bu gəzintiyə getmək istəyirdi. Amma ailəsinin maddi vəziyyətinə görə anasına bu haqda heç nə demək istəmirdi".*

Şagirdlər bu cümlələrdən çıxış edərək baş qəhrəmanın xarakteri haqqında fikir yürüdürlər. Müəllim bu sualı şagirdlərin şəxsi müstəvisinə keçirmək üçün onlara sual verir:

– *Elxanın yerində siz olsaydınız, ekskursiyaya getmək istədiyinizi ananıza deyərdinizmi?*

3-2.3.2 **Tapşırıq C (dərslik).** Şagirdlər müəllifin baş qəhrəmanın emosional vəziyyətini daha qabarıq ifadə etmək üçün işlətdiyi "Bir tərəfdən də bu məktub..." cümləsini izah etməyə çalışırlar. Elxan düşünürdü ki, ekskursiyaya getmək istəyi indiki halda mümkün olmayacaq. Çünki bir tərəfdən maddi imkanlarının olmaması, anasının xəstə olması, digər tərəfdən də şikayət məktubunun ortaya çıxması onun bu istəyinə mane olurdu.

3-2.4.2 **Tapşırıq Ç (dərslik).** Şagirdlər oxuduqları hissədə Elxanın davranışlarını və düşüncələrini analiz etməklə mətnin davamını təxmin edə bilərlər. Mətndə Elxanın anasının sağlamlığını düşünməsi haqqında fikirlər qabarıq ifadə olunmuşdu.

Həmçinin sonuncu abzasda Elxanın davranışı və düşüncələri şagirdlərin sualın cavabını təxmin etmələri üçün əsas verir:

*Bunu deyəndə Elxan başını aşağı saldı. Öz-özünə düşündü: "Görəsən, müəllim niyə məktubu soruşur? Nəyin cavabını gözləyir ki?"*

Bu abzasdan oxucuya aydın olur ki, Elxan məktubu anasına çatdırmayıb və müəlliminə yalan danışıb.

**Tapşırıq D (dərslik).** Şagirdlər məktubun məzmununu təxmin edirlər. Bu təxminetmə mətnin davamının şagirdlər tərəfindən maraqla oxunmasını təmin edir.

Mətnin 2-ci hissəsi şagirdlər tərəfindən növbə ilə oxunur. Şagirdlər mətni oxuduqdan sonra mətnin məzmununu öz təxminləri ilə müqayisə edirlər.

3-2.2.1 **Tapşırıq E (dərslik).** Tapşırıqda verilmiş suallarla şagirdlərin mətnin 2-ci hissəsini oxuyub-qavraması yoxlanılır.

**Tapşırıq B (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər mətndəki hadisələr arasında səbəb-nəticə əlaqəsini müəyyən etməklə mətni qavradıqlarını nümayiş etdirirlər.

**Tapşırıq C (iş dəftəri).** Şagirdlərin həm oxuyub-qavrama, həm də şəklin məzmununu bir cümlə ilə lakonik ifadə etmək bacarığı inkişaf etdirilir.

*1. Elxan kədərlənir.*
*2. Elxan təəccüblənir.*
*3. Elxan peşman olur.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mənəvi dəyər bildirən sözləri izah edərkən həyatdan nümunələr gətirir. | Tap. A (dərslik) |
| Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir. | "Söz boğçası" rub. tap. A (iş dəftəri) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. B, E (dərslik), tap. B (iş dəftəri) |
| Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir. | Tap. Ç, D (dərslik) |
| Obrazın keçirdiyi hisslərin səbəbini başa düşür və nəticə çıxarır. | Tap. C (dərslik), tap. C (iş dəftəri) |

## 2-ci dərs. "Anaya məktub" mətninin təhlili. Epizod

• Dərslik: səh. 10 • İş dəftəri: səh. 4

### Təlim məqsədləri

• Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir (st. 3-2.3.3).
• Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır (st. 3-1.2.2).
• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 3-2.4.1).
• Mətni məzmununa və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır (st. 3-2.4.2).
• Mövzu ilə bağlı fakt və münasibət bildirən fikirləri yazıda əks etdirir (st. 3-3.2.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Anaya məktub" mətninin xatırlanması |
| 2 | **Oxuyub-qavrama** | Mətnin ideyasının atalar sözləri ilə ifadəsi |
| 3 | **Danışma** | Obraz haqqında şəxsi fikirlərin bildirilməsi |
| 4 | **Oxuyub-qavrama** | "Epizod" anlayışının mənimsədilməsi |
| 5 | **Yazı** | "Anaya məktub" mətni üzrə rəyin yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim "Anaya məktub" mətninin məzmununu xatırlatmaq üçün sual-cavab edir. Bir neçə şagirdə mətni nəql etməyi tapşırır.

### Oxuyub-qavrama

3-2.3.3 **Tapşırıq A (dərslik).** Bu dərsdə şagirdlər mətndəki hadisələri, obrazların davranışlarını, baş qəhrəmanın xarakterini təhlil edirlər.

Şagirdlər tapşırığa əsasən mətnin sonunda Elxanın keçirdiyi hissləri ifadə edən atalar sözünü *(Sonrakı peşmançılıq fayda verməz)* müəyyənləşdirib mətnə əsasən şərh edirlər. Ola bilər ki, bəzi şagirdlər mətnin məzmununa müəyyən qədər uyğun olan digər atalar sözlərini seçsinlər. Bu zaman müəllim onlara seçimlərini əsaslandırmağı, atalar sözlərinin işləndiyi situasiyaları müzakirə etməyi tapşırmalıdır. Həmçinin şagirdlərin söz ehtiyatını zənginləşdirmək üçün bu atalar sözləri

"söz boğçası"na salınmalı və ya şagirdlərin atalar sözləri üçün ayırdıqları dəftərə yazılmalıdır.

**Danışma**

3-1.2.2 **Tapşırıq B (dərslik).** Müəllim şagirdlərə tapşırıqdakı hər iki arqument haqqında düşünmək üçün müəyyən vaxt verir. Şagirdlər seçimlərini edirlər. Müəllim sinfə müraciət edir: *Kimlər 1-ci, kimlər isə 2-ci arqumenti seçib?*

Obrazın düşdüyü durum ziddiyyətli olduğu üçün şagirdlər fəal müzakirəyə qoşulur, öz fikirlərini bildirməyə, əsaslandırmağa can atırlar. Sinifdə səslənən fikirlər təxminən belə ola bilər:

1) "Elxan məktubu anasına çatdırmalı idi, çünki müəllim ona tapşırmışdı ki, məktubu anasına çatdırsın. Ona etibar etmişdi. Həm də anadan nəyisə gizlətmək düzgün deyil. O, anasına məktubu mütləq çatdırmalı idi".

2) "Elxan məktubu anasına çatdırmamaqla düzgün hərəkət etmişdi. O, anasının sağlamlığını düşünüb onun qanını qaraltmaq istəməmişdi".

**Oxuyub qavrama**

3-2.4.1 **Tapşırıq C (dərslik).** Şagirdlər Elxanın göstərilən davranışlarından çıxış edərək onun xarakterini təhlil etməyə çalışırlar.

1. Maddi vəziyyətləri yaxşı olmadığına görə anasına ekskursiya barədə heç nə demədi.

*– Elxan qayğıkeşdir. Anasını çətin vəziyyətə salmaq istəməmişdi.*

2. Müəllimə dedi ki, məktubu anasına çatdırıb.

*– Elxanın bu davranışı onun zəif xarakterini üzə çıxardı. Yalançılıq yaxşı xüsusiyyət deyil. O, dürüst və səmimi olub müəlliminə həqiqəti deməli idi.*

**Tapşırıq Ç (dərslik).** Tapşırıq "Yadda saxla" rubrikasında verilmiş məlumatların mənimsədilməsi üçün keçid xarakteri daşıyır.

**"Yadda saxla" rubrikası.** Şagirdlərə "epizod" anlayışının mənimsədilməsi mətnlərin oxunub təhlil olunmasını asanlaşdırır. Belə filoloji anlayışlar şagirdin nitqinə kömək edir.

3-2.4.2 **Tapşırıq D (dərslik).** Tapşırıq şagirdlərin yaradıcı təfəkkürünü inkişaf etdirir. Həmçinin şagirdlər yeni öyrəndikləri "epizod" anlayışını mənimsəyirlər. Sinfin səviyyəsindən asılı olaraq tapşırıq qruplarla iş formasında yerinə yetirilə bilər.

**Diferensial təlim**

Çətinlik çəkən şagirdlərə yeni epizodlar düşünməsi üçün istiqamət vermək olar. Məs.: *Elxan müəlliminə həqiqəti desə, müəllim Elxanın ekskursiyaya getməsi üçün nə edə bilər? Elxanın anası ekskursiya haqqında necə xəbər tuta bilər?* və s.

3-2.4.2 **Tapşırıq E (dərslik).** Mətn III şəxsin dilindən yazılmışdır. Şagirdlərə isə mətni baş qəhrəmanın (I şəxsin) dilindən nəql etmək tapşırılır. Şagirdlər mətni təxminən belə nəql edə bilərlər:

*– Tənəffüsdə məktəbin həyətində xeyli "qaçdı-tutdu" oynadım. Zəng vurulanda pörtmüş halda sinfə girdim. Müəllim məni görcək dedi...*

**Yazı**

3-3.2.3 **Tapşırıq A (iş dəftəri). Fəndaxili şaquli inteqrasiya (2-ci sinif (st. 3.1.4). Oxuduğu mətn haqqında rəy yazır).** Şagirdlərə 2-ci sinifdə mətn haqqında "rəy" yazmaq öyrədilmişdi. Bu tapşırıq vasitəsilə şagirdlərin bilikləri xatırladılır, sərbəst yazı bacarıqları inkişaf etdirilir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş atalar sözlərindən əsərin ideyasına uyğun gələnini seçir. | Tap. A (dərslik) |
| Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. B (dərslik) |
| Hadisələrə və dialoqlara görə obrazlar haqqında fikir yürüdür. | Tap. C (dərslik) |
| Təxəyyülünə əsasən mətnə yeni epizodlar əlavə edir. | Tap. D (dərslik) |
| Mətndəki hadisələri obrazın dilindən nəql edərkən onun daxili aləmini ifadə edir. | Tap. E (dərslik) |
| Oxuduğu mətn haqqında rəy yazaraq öz münasibətini bildirir. | Tap. A (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə şagirdlərin orfoqrafiya lüğəti ilə işləməsi üçün müəllimin hazırlıq görməsi tövsiyə olunur.

## **3-cü dərs.** Sözlərdə saitlərin yazılışı

• Dərslik: səh. 11 • İş dəftəri: səh. 5

**Təlim məqsədləri**

• Sözlərdə saitlərin düzgün yazılış qaydalarına əməl edir (st. 3-4.1.1).
• Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir (st. 3-3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Orfoqrafiya lüğətinin nümayişi |
| 2 | **Dil qaydaları** | Orfoqrafiya lüğəti üzrə iş, sözlərin düzgün yazılışının mənimsədilməsi |
| 3 | **Yazı** | Mətndəki orfoqrafik səhvlərin müəyyənləşdirilməsi |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Bu dərsdə 1-ci və 2-ci sinifdə "Sözlərin yazılışı" rubrikasında yer almış sözlərin düzgün yazılışı üzrə biliklər xatırladılır və şagirdlərin lüğətlə işləmək bacarıqları möhkəmləndirilir.

Müəllim gətirdiyi orfoqrafiya lüğətini şagirdlərə nümayiş etdirir və onun funksiyasını izah edir.

### Dil qaydaları

3-4.1.1 **Tapşırıq A (dərslik).** Şagirdlər tapşırıqda verilmiş sözlərin doğru variantını yazırlar. Sonra orfoqrafiya lüğəti vasitəsilə həmin sözün düzgün yazılışını dəqiqləşdirirlər.

**Sözlərin düzgün yazılışı:** *təəccüb, xahiş, kompot, zürafə, zəif.*

**"Bunları bilməliyik" rubrikası.** Şagirdlər rubrikadakı məlumatı oxuyurlar.

**Tapşırıq B (dərslik).** Şagirdlər sütunlarda verilmiş sözlərin düzgün yazılışını lüğət vasitəsilə yoxlayırlar.

Sözlərin düzgün yazılışı: *inşaat, səadət, şərait, ictimai.*

**Diferensial təlim**

Çətinlik çəkən şagirdlər həmin sözləri lüğətdən tapıb yaza bilərlər.

**Tapşırıq C (dərslik).** Tapşırığı cütlərlə və ya qruplarla iş formasında yerinə yetirmək olar. Şagirdlər cədvəldə verilmiş səhv yazılmış sözlərin düzgün yazılışına diqqət yetirib empirik olaraq qanunauyğunluğu müəyyənləşdirirlər. Məsələn, *cədvəldə göstərilib ki, "dayirə" sözü yanlış yazılıb və bu sözün düzgün yazılışı "dairə"dir. Odur ki daxilində bu cür "ayi" hərf birləşməsi olan sözlərin (ayilə, sayit, dayimi, şayir) yazılışı da səhvdir.* Şagirdlər bu qanunauyğunluğu müəyyənləşdirdikdən sonra sözləri düzgün şəkildə yazırlar.

**Tapşırıq Ç (dərslik.** Tapşırıqda verilmiş sözlərin düzgün yazılışı belədir: *ümid, müdir, kompüter, mübahisə, nümunə, həyəcan.*

**Tapşırıq A, B, C (iş dəftəri).** Şagirdlər tapşırıqları müstəqil yerinə yetirməklə orfoqrafik biliklərini nümayiş etdirirlər.

Sözlərin düzgün yazılışı:

A tapşırığı: *monitor, müşahidə, teatr, musiqi, velosiped, zürafə, müdir.*

B tapşırığı: *1 – b) şokolad; 2 – b) mübahisə; 3 – c) təəccüb.*

C tapşırığı: *xoşbəxt, akvarium, nümunə, muzey, eksponat, təbiət, müayinə, şərait, kombayn, mübarək, konsert, nümayəndə.*

### Yazı

3-3.1.2 **Tapşırıq D (dərslik), tapşırıq Ç (iş dəftəri).** Bu tapşırıqlar vasitəsilə şagirdlərdə ilkin korrektura bacarıqları inkişaf etdirilir. Şagirdlər D tapşırığı üzrə mətndə orfoqrafik səhvləri müəyyənləşdirib düzgün şəkildə köçürürlər. İş dəftərindəki Ç tapşırığı da eyni məqsədə xidmət edir.

Sözlərin düzgün yazılışı:

**Tapşırıq D (dərslik):**

*1. Nailə, müharibə, qəhrəmancasına;*
*2. saat, stadion;*
*3. avtomobil, sürətlə;*
*4. mübarək.*

**Tapşırıq Ç (iş dəftəri):** *mütaliə, şeir, şair, müalicə, Saidə.*

**Müəllimin nəzərinə!** Tapşırıqlarda əsasən 1-ci və 2-ci sinifdə mənimsədilmiş sözlərdən istifadə olunmuşdur. Buna baxmayaraq çətinlik çəkən şagirdlərin lüğətdən istifadə etməsinə şərait yaratmaq lazımdır. Bu, şagirdlərin lüğətlə işləmək vərdişinin formalaşmasına kömək edər.

Sonda müəllim şagirdlərə bu dərsdə bəhs edilən yazılışı və deyilişi fərqli olan sözlərlə bağlı imla yazdıra bilər. Şagirdlər imla yazdıqdan sonra müəllim onlara öz yazılarındakı səhvləri lüğətin köməyilə müəyyənləşdirib düzəltməyi tapşırır. Daha sonra şagirdlər bir-birinin yazısını yoxlayırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərin düzgün yazılışını müəyyən etmək üçün lüğətdən istifadə edir. | Tap. A, B, C, Ç (dərslik), tap. A, B, C (iş dəftəri) |
| Özünün və başqasının yazısında orfoqrafik səhvləri müəyyən edir. | Tap. D (dərslik), tap. Ç (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə plakat hazırlanması üçün müəllimə hazırlıq görməsi tövsiyə olunur.

# fəsil 2 DOSTLUQ

## 1-ci dərs. “Cəmil + Mahir” (I hissə)

• Dərslik: səh. 12–13 • İş dəftəri: səh. 6

### Təlim məqsədləri

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Mətni məzmun və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır (st. 3-2.4.2).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 3-2.4.1).
• Bədii mətndə hadisələrin ardıcıllığını müəyyən edir (st. 3-2.2.1).
• Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st. 3-2.4.4).
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 3-3.2.5).

### Dərsin qısa planı

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Fəslin mövzusu haqqında ümumi söhbətin aparılması |
| 2 | **Danışma** | Dostluq üçün müsbət keyfiyyətlərin analizi |
| 3 | **Oxu. Söz ehtiyatı** | “Cəmil + Mahir” mətninin oxunması |
| 4 | **Oxuyub-qavrama** | Mətndəki obrazların və epizodların təhlili |
| 5 | **Yazı** | Mövzuya uyğun plakatın hazırlanması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Şagirdlər 1-ci və 2-ci sinifdə dostluq münasibətləri haqqında bir çox mətnlərlə tanış olmuşlar. Müəllim həmin mətnləri (“Yöndəmsiz Timsah”, “Qar kraliçası” və s.) xatırladır.

### Danışma

3-1.3.3 **Tapşırıq A (dərslik).** Bu yaşda olan şagirdlər sinifdə ən çox ünsiyyət saxladığı yoldaşını özünə dost bilir, çətin işlərdə ona kömək edir, onunla məsləhətləşir, yeri gələndə onun tərəfini saxlayır, sirrini onunla bölüşür və s. Şagirdlərlə bu haqda (özlərinə aid mövzuda) söhbət etmək şagirdlə müəllim arasında səmimi ünsiyyətin yaranmasına, dərsə, məktəbə marağın artmasına kömək edir.

Mövzu ətrafında müzakirə etməklə dostluq üçün daha vacib olan müsbət xüsusiyyətlər analiz edilir.

### Oxu. Söz ehtiyatı

3-2.4.2 **“Cəmil + Mahir” mətni.** Müəllim şagirdlərə tapşırır ki, dərsliyin 12-ci, 13-cü və 14-cü səhifələrində mətnə çəkilmiş illüstrasiyalara nəzər salsınlar. Daha sonra şagirdlərin diqqətini mətnin adına yönəldir. Sual:

*– Sizcə, bu mətndə nədən danışılır?*

Şagirdlərin fərziyyələri dinlənildikdən sonra mətnin 1-ci hissəsi şagirdlər tərəfindən növbə ilə oxunur. Müəllim şagirdlərin oxusunu *“O, direktor müavini idi”* cümləsində dayandırır və soruşur:

*– Sizcə, bundan sonra hadisələr necə davam edəcək?*

Mətnin oxunması müəllimin bu cür yönəltməsi ilə davam etdirilir. Bu oxu üsulu şagirdlərin oxu fəallığını artırmağa kömək edir.

Oxu zamanı şagirdlərə tanış olmayan söz və ifadələr *(dəhliz, fürsət, müavin, zümzümə etmək, əl-ayağa düşmək)* müəyyən olunur və “söz boğçası”na salınır.

**Söz və ifadələrin izahı:** *dəhliz* – ev qapısı ilə otaqların qapıları arasında olan uzun aralıq; koridor;

*fürsət* – bir sözü demək və ya bir işi görmək üçün əlverişli an, münasib vaxt;

*müavin* – rəhbəri, direktoru işdə, vəzifədə əvəz edə biləcək şəxsin rəsmi adı;

*zümzümə etmək* – ahəstə səslə özü üçün do-

daqaltı oxumaq;

*əl-ayağa düşmək* – narahat olmaq, həyəcanlanıb işi tez həll etməyə çalışmaq.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Mətnin məzmunu ilə bağlı suallar şagirdlərin mətni diqqətlə oxuyub-qavradıqlarını yoxlamağa xidmət edir. Müəllim sualların sayını artıra bilər.

3-cü sual riyaziyyatla inteqrasiyanı təmin edir. Şagirdlər toplama əməlini və onun komponentlərini (toplanan, toplanan, cəm) xatırlayıb "Cəmil + Mahir = dostluq" nümunəsini izah edir, cümlə şəklində ifadə edirlər: Cəmil ilə Mahir dostdurlar.

Müəllim:

– Toplananları sözlər olan başqa bərabərliklər deyə bilərsinizmi? Məsələn: çay + şəkər = ? *(Şagirdlər şirin çay deyirlər.)* Başqa variantlar da söyləyirlər: meyvə + dondurma = meyvəli dondurma və s.

3-2.4.1 **Tapşırıq C (dərslik).** Şagirdlər Cəmilin xoşagəlməyən hərəkətlərini təhlil edir, bu hərəkətləri nə üçün yanlış hesab etdiklərini əsaslandırırlar.

<u>Cəmilin yanlış hərəkətləri:</u> Məktəbin divarlarını, partaların üstünü yazması, Kazım müəllimdən qaçıb gizlənməsi, Kazım müəllimin hirslənməsinə baxmayaraq yenidən divar və partaları yazması.

Tapşırıq şagirdlərdə oxuyub-qavrama, danışma bacarıqlarını inkişaf etdirməklə yanaşı, həm də fərd və toplum münasibətlərini ifadə edən (ictimai davranış qaydalarına riayət etmək, məsuliyyətli, nizam-intizamlı vətəndaş olmaq və s.) kompetensiyaları da formalaşdırmağa kömək edir.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər sual ətrafında düşünərək baş qəhrəmanın davranışının səbəbini izah edirlər.

3-2.2.1 **Tapşırıq D (dərslik).** Tapşırıq vasitəsilə şagirdlər müəyyən edirlər ki, mətndə Mahirin adı çəkilsə də, epizodlarda iştirak etməmişdir. Odur ki rollu oyun zamanı Mahir obrazını canlandırmaq üçün aktyora ehtiyac yoxdur.

**Doğru cavab:** B.

3-2.2.1 **Tapşırıq A (iş dəftəri).** Tapşırıqda şagirdlərdən mətn üzrə qeyri-ardıcıl verilmiş epizodların ardıcıllığını müəyyənləşdirmək tələb olunur. <u>Epizodların ardıcıllığı:</u> 5, 1, 3, 4, 2.

> **Müəllimin nəzərinə!** İş dəftərindəki A tapşırığının dərslikdəki D tapşırığından əvvəl yerinə yetirilməsi tövsiyə olunur. Şagirdlər bu tapşırıq vasitəsilə mətndəki epizodları ümumiləşdirir və bu epizodlarda Mahirin iştirak etmədiyini görürlər.

3-2.4.4 **Tapşırıq B (iş dəftəri).** Mətn üzrə təhlil bitəndən sonra şagirdlər iş dəftərindəki şeiri oxuyurlar. Müəllim suallar verir:

– *Cəmil və Fuadın yanlış hərəkəti nə idi? Cəmil niyə qaçıb ağaclıqda gizləndi? Bəs Fuad niyə pəncərəni xəritə ilə örtdü? Şair nə üçün şeirin adını "Adam" qoyub? Sizcə, biz etdiyimiz hərəkəti özümüzdən gizlədə bilərikmi?*

Şagirdlər "Cəmil + Mahir" mətninin baş qəhrəmanı Cəmil ilə "Adam" şeirinin baş qəhrəmanı Fuadın oxşar davranışlarını müəyyən edərək yazırlar: <u>Fuad da Cəmil kimi divarı və partanın üstünü yazır.</u>

<u>Fuad da Cəmil kimi etdiyi səhv hərəkəti gizlədir, elə bilir ki, onu heç kim görmür.</u>

Şagirdlər sonda belə bir nəticəyə gəlirlər ki, insanın hərəkətlərini heç kəs görməsə də, onun özü bunları bilir. Odur ki hər bir insan ilk növbədə öz vicdanı qarşısında cavabdeh olmalı, məsuliyyət daşımalıdır.

### Yazı

3-3.2.5 **Tapşırıq E (dərslik).** Şagirdlər 2-ci sinifdə plakat hazırladıqları üçün plakatın strukturu və hazırlanma qaydası ilə tanışdırlar.

**Qruplarla iş.** Tapşırıq şagirdlərin yaradıcı təfəkkürünün inkişafına yönəldiyi üçün qrup üzvlərinin düşünməsinə və şüar üçün uğurlu təkliflər verməsinə çalışmaq lazımdır. Odur ki əvvəlcə hər bir qrup üzvü qaralama vərəqdə mövzu ilə bağlı təkliflərini yazır. Birlikdə müzakirə edib plakat üçün uğurlu şüar seçirlər. Şüarı iri hərflərlə böyük vərəqin mərkəzinə yazırlar. Məsələn, *"Məktəb bizim ikinci evimizdir", "Məktəbimizi təmiz saxlayaq"* və s. Həmçinin qadağa işarələrindən də istifadə etmək olar. Məsələn, üstü yazılmış parta və ya divar şəklinin üzərindən qırmızı xətt çəkmək olar və s.

Sonda qrupların təqdimatı olur. Daha maraqlı və təsiredici plakat sinif otağının divarından asılır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəxsi həyatından nümunələr gətirməklə fikrini əsaslandırır. | Tap. A (dərslik) |
| Mətni oxuyarkən hadisələrin davamını təxmin edir. | MV – fəaliyyət |
| Bədii mətndəki obrazları, hadisə, zaman və məkanı müəyyənləşdirir. | Tap. B, D (dərslik) |
| Hərəkətlərə və dialoqlara görə obrazlar haqqında fikir yürüdür. | Tap. C, Ç (dərslik) |
| Epizodların mətndəki ardıcıllığını müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Oxuduğu mətnlər arasında oxşar epizodları müəyyən edir. | Tap. B (iş dəftəri) |

## **2-ci dərs.** "Cəmil + Mahir" (II hissə)

• Dərslik: səh. 14–15 • İş dəftəri: səh. 7

### Təlim məqsədləri

• Obrazların nitqini onların xarakterinə uyğun səsləndirir (st. 3-2.1.2).
• Kontekstdən çıxış edərək frazeoloji ifadənin mənasını müəyyənləşdirir (st. 3-2.2.3).
• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 3-2.4.1).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Müəyyən məqsədlə gündəlik yazır (st. 3-3.2.2).
• Dialoji mətni səhnələşdirərkən improvizələr edir (st. 3-2.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mətnin davamının təxmin edilməsi |
| 2 | **Oxu. Söz ehtiyatı** | Mətnin oxunması, yeni söz və ifadələrin mənimsədilməsi |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə sual-cavab |
| 4 | **Yazı** | Gündəliyin yazılması |
| 5 | **Oxuyub-qavrama** | Mətnin səhnələşdirilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Müəllim "Cəmil + Mahir" mətninin 1-ci hissəsi üzrə sual-cavab edir. Situasiya xatırladılır. Şagirdlərin təxminləri soruşulur:

– *Sizcə, Kazım müəllim divarı kimin yazdığını necə tapacaq?*

– *Cəmil səhvini etiraf edəcəkmi?*

– *Cəmil ilə Mahirin dostluq münasibətləri necə davam edəcək?*

### Oxu. Söz ehtiyatı

3-2.1.2 **"Cəmil + Mahir" mətni (II hissə).** Müəllim şagirdlərə mətni əvvəlcə səssiz oxumağı tapşırır. Şagirdlərə təlimat verir ki, mətni səsli oxuyarkən obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirsinlər. Bir neçə şagird mətni təlimata uyğun növbə ilə oxuyur. Mətnin bu üsulla oxunması rollu oyun zamanı şagirdlərə kömək edəcək.

3-2.2.3 **Tapşırıq B (dərslik).** Mətndəki frazeoloji ifadələr *(ürəyi düşmək, boynuna almaq, dayaq olmaq)* üzrə iş aparılır. "Söz boğçası" rubrikasındakı ifadələrin mənası müəyyənləşdirilir. Şagirdlər frazeoloji ifadələri cümlələrdə işlədirlər və yaxud da müəllim natamam cümlələr deyir, şagirdlər frazeoloji ifadə ilə tamamlayırlar. Yeni frazeoloji ifadələrlə bu və ya digər fəaliyyətin qurulması şagirdlərin nitqində bu ifadələrin istifadəsinə kömək edir.

### Oxuyub-qavrama

3-2.4.1 **Tapşırıq C, Ç (dərslik).** Bu tapşırıqlarda qoyulmuş sualların mətndə birbaşa cavabı yoxdur. Şagirdlər hadisələrdən, dialoqlardan nəticə çıxararaq bu suallara cavab verməlidirlər.

Kazım müəllim divardakı yazıda əks olunan Cəmil və Mahir adlı şagirdləri axtarırdı və qarşısına ilk olaraq Cəmil çıxdı. Onun xəttini müəyyənləşdirmək üçün Cəmilə adını və soyadını yazdırdı. Həmçinin ola bilər ki, Cəmilin həyəcanlı vəziyyəti Kazım müəllimdə şübhə yaratmışdı.

**Tapşırıq D (dərslik).** Şagirdlər mətndə fərqləndirilmiş cümlələri bir daha oxuyur və Mahirin düşdüyü vəziyyətə görə təxmin edirlər ki, Mahir Cəmilin xəttini tanıyır, ancaq dostunun adını verə bilməz, ona görə də başını aşağı salıb susur.

**Tapşırıq E (dərslik).** Şagirdlər özlərini Mahirin yerində təsəvvür edib fikirlərini bildirirlər: *"Mən Mahirin yerində olsaydım, Kazım müəllimə deyərdim ki, divarı da, partanın üstünü də mən yazmamışam"* və s.

3-2.2.1 **Tapşırıq A (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər sualları yazılı şəkildə cavablandırmaqla həm oxuyub-qavrama, həm də yazı bacarıqlarını inkişaf etdirirlər.

**Yazı**

3-3.2.2 **Tapşırıq B (iş dəftəri). Şaquli inteqrasiya.** Şagirdlərə 2-ci sinifdə gündəlik yazmaq öyrədilmişdir. Bu tapşırıq vasitəsilə şagirdlər fikirlərini yazılı şəkildə ifadə etmək bacarıqlarını inkişaf etdirirlər. Şagirdlər təxminən belə yaza bilərlər:

*20 oktyabr 2020-ci il.*

*Bu gün ən yaxın dostum Cəmildən bərk incidim. Cəmil divara, partanın üstünə ikimizin adını yazıb. Müəllim soruşanda da deyir ki, guya mən yazmışam. Axı dost belə olmaz. Cəmil dost olmağı bacarmırmış. O, vəfasız və etibarsızdır.*

**Yaradıcı iş**

3-2.1.2 **Tapşırıq Ə (dərslik).** Şagirdlər mətnin ikinci hissəsini səhnələşdirmək üçün əvvəlcə əsas epizodları, rolları, onların hərəkəti və dialoqlarını müəyyənləşdirməlidirlər. Ona görə də tapşırığın qruplarla yerinə yetirilməsi tövsiyə olunur. Qruplar bu barədə müzakirə apararaq görəcəkləri işi dəqiqləşdirirlər. Müəllim hər qrupa bir epizod verir və onlara məkanı, həmin epizodda iştirak edən rolları, dialoqları müəyyənləşdirməyi tapşırır.

**1-ci epizod:** Kazım müəllim Cəmildən adını soruşur, ad və soyadını vərəqə yazdırır.

Məkan: Sinif otağının qarşısında.

Rollar: Cəmil və Kazım müəllim.

**2-ci epizod.** Kazım müəllim Cəmildən partanın üstünü kimin yazdığını soruşur.

Məkan: Cəmilin partasının yanında.

Rollar: Cəmil və Kazım müəllim.

**3-cü epizod.** Kazım müəllim Mahirdən partanı kimin yazdığını soruşur və uşaqlara dostluqdan danışır.

Məkan: Cəmilin partasının yanında.

Rollar: Cəmil, Kazım müəllim, sinif uşaqları və Mahir.

**4-cü epizod.** Mahir Cəmilə kiçik kağız göndərir.

Məkan: Dərs vaxtı. Mahirin və Cəmilin partası.

Rollar: Mahir, Mahirin parta yoldaşı və Cəmil.

Şagirdlər həmçinin rolların emosional vəziyyətini nəzərə alıb uyğun jest və mimikaları da müəyyənləşdirirlər.

Sonda qrupların təqdimatı olur. Hər qrup onlara tapşırılan epizodu səhnələşdirir.

**Müəllimin nəzərinə!** Növbəti dərslərdə “ssenari” filoloji anlayışı haqqında şagirdlərə məlumat veriləcək. Bu tapşırıq həmin dərs üçün hazırlıq məqsədi daşıyır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirir. | Mətn |
| Kontekstdən çıxış edərək frazeoloji ifadənin mənasını müəyyənləşdirir. | Tap. B (dərslik) |
| Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir. | Tap. C, Ç, D (dərslik) |
| Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir | Tap. A (iş dəftəri) |
| Müəyyən məqsədlə gündəlik yazır. | Tap. B (iş dəftəri) |
| Dialoji mətni səhnələşdirərkən improvizələr edir. | Tap. Ə (dərslik) |

## 3-cü dərs. Epizod, xarakter, ideya

- Dərslik: səh. 16
- İş dəftəri: səh. 8

**Təlim məqsədləri**

- Mətndəki obrazları təhlil edir (st. 3-2.3.2).
- Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir (st. 3-2.3.3).
- Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st. 3-2.4.4).
- Mətni məzmununa və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır (st. 3-2.4.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Cəmil + Mahir" mətnində daha çox yadda qalan epizodların müzakirəsi |
| 2 | **Danışma** | Mətnin təxəyyülə görə davam etdirilməsi |
| 3 | **Oxuyub-qavrama** | Mətnin ideyasının müəyyənləşdirilməsi yolları |
| 4 | **Dinləmə** | Dinləmə mətni üzrə iş |
| 5 | **Danışma** | Mətnin məzmun və ideyasının təxəyyülə görə dəyişdirilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər "Cəmil + Mahir" mətnində onlara daha çox təsir edən, yadlarında qalan epizodları xatırlayırlar.

### Oxuyub-qavrama

3-2.3.2 **Tapşırıq B (dərslik).** Şagirdlər mətnin sonuncu epizodu haqqında danışdıqdan sonra mətndəki hadisələrdən çıxış edərək Cəmil və Mahirin dostluq münasibətlərinin necə davam edəcəyi haqqında fikirlərini söyləyirlər. Bu tapşırıq şagirdlərin təxəyyülünün inkişafına kömək edir.

3-2.3.3 **Tapşırıq C (dərslik).** Tapşırıq vasitəsilə mətndəki epizodlarda obrazların xarakterinin necə açıldığı təhlil olunur. Əvvəlcə tapşırıqda verilmiş xarakter bildirən sözlərin mənaları aydınlaşdırılır.

Tapşırıq cütlərlə iş formasında yerinə yetirilir.

Epizod və obrazın üzə çıxan xarakteri:

1-ci epizod: Cəmil məsuliyyətsizdir.
2-ci epizod: Cəmil qorxaqdır.
3-cü epizod: Cəmil böhtançıdır.
4-cü epizod: Mahir sədaqətlidir.
5-ci epizod: Mahir qətiyyətlidir.

Bu tapşırıq şagirdlərin təhlil aparmaq, şərh etmək, əsaslandırmaq kimi vacib bacarıqlarını inkişaf etdirir.

**Tapşırıq Ç (dərslik).** Tapşırıqda verilən hər iki fikir müəllifin oxucuya çatdırmaq istədiyi fikirlərdir. Ancaq ikinci fikir (*Dar ayaqda günahı dostun üstünə atmazlar*) mətnin ideyasını ifadə edir. Şagirdlər bu qənaətə gəlirlər ki, müəllif əsərdə oxuculara bir çox fikir çatdıra bilər. Ancaq mətnin ideyası, adətən, əsərin sonunda açılır. Məsələn, *Kazım müəllim, Cəmil və Mahirin dialoqunda müəllifin əsas məqsədi aydınlaşır.*

**"Yadda saxla" rubrikası.** Oxuyub-qavrama bacarığının əsas göstəricilərindən biri mətnin ideyasını müəyyənləşdirməkdir. Şagirdlər rubrikadakı məlumatları oxuyaraq tapşırıqlar boyu apardıqları təhlilləri ümumiləşdirirlər. Belə nəticəyə gəlirlər ki, oxu zamanı son epizodlarda baş qəhrəmanın xarakteri açılır və bu, ideyanın müəyyənləşməsində mühüm rol oynayır.

### Dinləmə

3-2.4.4 Şagirdlər "Yadda saxla" rubrikasında mətnin ideyasını müəyyənləşdirmək üçün vacib detalları öyrəndilər. Bu biliklər növbəti mərhələdə dinləmə mətni vasitəsilə tətbiq olunur. Müəllim mətni səsləndirir:

**Unudulmuş dost**

*Ad günümü evdə keçirirdik. Dəvət etdiyim dostlarımın hamısı gəlmişdi. Kimi gül, kimi hədiyyə gətirmişdi. Elələri oldu ki, sadəcə, bir açıqca ilə təbrik etdilər. Nə fərqi var?! Əsas o idi ki, dostlarımla maraqlı, əyləncəli bir gün keçirdim. Çoxlu rəqs etdik. Anam bişirdiyi tortu gətirdi. İşıqları söndürüb tortun üstündəki şamları yandırdıq. Hamı "Ad günün mübarək!" mahnısını oxumağa başladı. Mən üfürüb şamları söndürdüm.*

*Elə bu vaxt qapının zəngi çalındı. Qapıya yaxınlaşanda gözlərimə inanmadım. Bu, sinif yoldaşım Nigar idi. Onu dəvət etməmişdim. O, əlindəki qutunu mənə verib təbrik etdi. Donub-qaldım, nə edəcəyimi bilmədim. Özümü toplayıb boğuq səslə dilləndim:*

*– Gəl, Nigar, içəri keç.*

*– Yox, Günay, mən qala bilmərəm. Atam maşında məni gözləyir, – deyib sağollaşdı.*

*Nigar getdi, mən isə bir müddət əlimdə hədiyyə onun ardınca baxdım. Çox peşman olmuşdum.*

*Nigar çox sakit qız idi, başqaları ilə qaynayıb-qarışmırdı. Sinifdə onun varlığı, ya yoxluğu o qədər də bilinmirdi. Mən də ad günümə əyləncələri sevən, həmin günü səbirsizliklə gözləyən dostlarımı dəvət etmişdim. Ancaq kaş ki onu da çağırardım. Axşam qonaqlıq bitəndən sonra Nigarın hədiyyə etdiyi qutunu açdım. İçindən balaca miyovuldayan pişik çıxdı. Bu, həyatımda aldığım ən gözəl hədiyyəm oldu.*

*Xanım Qasımova*

Şagirdlər mətni dinlədikdən sonra müəllimin faktoloji suallarına cavab verirlər. Suallar: *Kimin ad günü idi? Ad günü harada keçirilirdi? Kimlər qonaq gəlmişdi? Günay nə üçün Nigarı ad gününə dəvət etməmişdi? Günay niyə peşmanlıq hissləri keçirdi?*

**Tapşırıq A (iş dəftəri).** Şagirdlərin epizodların

ardıcıllığını müəyyənləşdirməsi dərslikdəki D tapşırığının yerinə yetirilməsinə kömək edəcək. Belə ki, şagirdlər dinlədikləri mətndəki epizodlarla vizual olaraq tanış olurlar.

Epizodların ardıcıllığı: 4, 1, 3, 2.

**Tapşırıq D (dərslik).** Dinləmə mətninin məzmununa görə Günay adlı qız ad günündə başına gələn bir hadisə haqqında təəssüratlarını bölüşür. Mətndə bir neçə epizod təsvir olunmuşdur.

1. Dostların ad günü qonaqlığına gəlişi
2. Dostların rəqs edib əylənməsi
3. Ad günü tortunun kəsilməsi
4. Nigarın gəlişi
5. Günayın Nigarın verdiyi hədiyyəni açması

Sonuncu epizodlarda baş qəhrəmanın xarakteri açılır. Nigarın gəlişi epizodunda aydın olur ki, Günay Nigarı dəvət etmədiyinə görə peşmandır. Günayın Nigara qarşı diqqətsizlik, hörmətsizlik etməsi, dostları arasında ayrı-seçkilik salması aydın olur. Bu da mətnin ideyasını müəyyənləşdirir: *Dost dostu unutmaz. Dostlar arasında ayrı-seçkilik salmazlar.*

**Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq vasitəsilə şagirdlər həm oxuduqları, həm də dinlədikləri mətnlərdəki epizodlara əsasən obrazların xarakterlərini səciyyələndirirlər. Tapşırıq şagirdlərin təhliletmə, əsaslandırma bacarıqlarının inkişafına yönəlmişdir.

### Oxuyub-qavrama

3-2.4.2 **Tapşırıq E (dərslik).** Müəllim tapşırığın şərtini oxuyur. Şagirdlər həmin cümləni tapırlar və öz təxəyyüllərinə uyğun mətnin davamını deyişirlər.

Sözü gedən epizod mətnin əsas epizodudur. Bu epizodda Cəmil səhvini Mahirin boynuna atmışdır. Şagirdlər əksinə olaraq Cəmilin səhvini etiraf etməsi haqda epizod düşünə bilərlər və bu zaman mətnin ideyası belə ola bilər: “Səhvi etiraf etmək böyük hünərdir”.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki hadisələrin davamı ilə bağlı öz versiyasını təqdim edir. | Tap. B (dərslik) |
| Baş qəhrəmanın xarakterinə əsasən mətnin ideyasını müəyyənləşdirir. | Tap. C (dərslik) |
| Mətnin ideyasının açılmasına kömək edən faktları seçir. | Tap. Ç (dərslik) |
| Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir. | Tap. D (dərslik), tap. A, B (iş dəftəri) |
| Mətnin məzmun və ideyasını təxəyyülünə görə dəyişdirir. | Tap. E (dərslik) |

**Növbəti dərsə hazırlıq. 1.** Növbəti dərsin mövzusu sözlərin yazılışı ilə bağlıdır. Müəllimə şagirdlərin sayına uyğun kiçik vərəqlərdə bir səhv və ya bir düzgün söz yazması tövsiyə olunur; **2.** Növbəti dərsdə lüğətlərdən istifadə olunacaq.

## 4-cü dərs. Sözlərdə samitlərin yazılışı

• Dərslik: səh. 17 • İş dəftəri: səh. 9

**Təlim məqsədləri**

• B, c, d, g samitləri ilə bitən sözlərin düzgün yazılışını müəyyən edir (st. 3-4.1.1).
• Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir (st. 3-3.1.2).

• **Köməkçi vasitələr (təchizat):** Üzərinə səhv və düzgün söz yazılmış kiçik vərəqlər.

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Şagirdlərə təqdim olunmuş sözlərin düzgün yazılışının müəyyən olunması |
| 2 | **Dil qaydaları** | Sözlərin düzgün yazılışı |
| 3 | **Yazı** | Yazıda orfoqrafik səhvlərin müəyyənləşdirilməsi |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə bükülmüş vərəqlər paylayır və tapşırır ki, onları heç kim açmasın. Müəllim paylanma işini bitirəndən sonra söyləyir:

– İndi vərəqləri açın, vərəqdə yazılmış sözün yazılışını yoxlayın, səhvdirsə, düzgün yazın. Kim tez bitirsə və düzgün cavab versə, qalib olacaq.

**Müəllimin nəzərinə!** Dil qaydalarına həsr olunmuş dərslərdə şagirdlərin fəallığı nisbətən aşağı olur. Odur ki bu dərslərdə müxtəlif yarışların keçirilməsi şagirdlərin fəallaşmasına stimul verir.

Müəllim yarışın qalibini və ya dərsdə fəal-

lığına görə seçilən şagirdləri mükafatlandıra bilər. Məsələn, həmin şagirdlərə mükafat olaraq “Biləndər” adı verilə bilər. Həmin şagird dərs boyu bu adı qoruyub-saxlamalıdır. Əks halda bu adı itirə bilər.

**Dil qaydaları**

3-4.1.1 **Tapşırıq A (dərslik).** Bu tapşırıq “b, c, d, g” ilə bitən sözlərin yazılışı üzrə mənimsədiləcək dil qaydasına keçid xarakteri daşıyır. Şagirdlər qırmızı rənglə yazılmış sözlərin düzgün yazılışını mətndən tapıb dəftərlərinə yazırlar. Müəllim şagirdlərin yazdıqlarını yoxlayır və səhvləri ümumiləşdirir: Sözlərin tərkibində səhv yazılmış samitlər (p və k), əslində, b və g ilə yazılmalıdır.

**“Bunları bilməliyik” rubrikası.** Rubrikadakı məlumat şagirdlərə mənimsədilir.

**Tapşırıq B (dərslik).** Cütlər tapşırıqda verilmiş sözlərin düzgün yazılışını lüğətin köməyi ilə müəyyənləşdirirlər.

**Müəllimin nəzərinə!** Tapşırıq sinifdəki lüğət ehtiyatından asılı olaraq cütlərlə və ya qruplarla yerinə yetirilə bilər.

**Tapşırıq C (dərslik).** Bu tapşırıq “Faydalı məsləhət” rubrikasındakı məlumatı mənimsətmək üçün keçid xarakteri daşıyır. Şagirdlər əvvəlcə b, c, d, g samitləri ilə bitən sözləri oxuyur, bu samitlərin tələffüzünə diqqət yetirir. Göy rənglə verilmiş b, c, d, g samitlərinin sait önündə gələrkən olduğu kimi, samit önündə gələrkən isə müvafiq olaraq p, ç, t, k samitləri kimi tələffüz olunduğunu görürlər.

**“Faydalı məsləhət” rubrikası.** Rubrikadakı məlumat mənimsədilir.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər verilmiş sözlər içərisindən palıt (palıdın), Azat (Azada), qanat (qanadı), Murat (Murada) sözlərini seçib köçürürlər.

Bu tapşırıq şagirdlərin “Faydalı məsləhət” rubrikasından mənimsədikləri bilginin tətbiqinə yönəldilmişdir.

**Tapşırıq A, B, C (iş dəftəri).** Tapşırıqlar öyrədilən orfoqrafik qayda üzrə bilik və bacarıqların möhkəmləndirilməsi məqsədi daşıyır.

**Yazı**

3-3.1.2 **Tapşırıq Ç (iş dəftəri).** Şagirdlər cümlələrdə səhv yazılmış sözləri müəyyən edərək yenidən düzgün yazmaqla yeni öyrədilən orfoqrafik biliklərini nümayiş etdirirlər.

<u>Cümlədə səhv yazılmış sözlər:</u> *cavab, gənc, zavod, Cavad, ağacları, Murad.*

**Əlavə tapşırıq:** Dərs zamanı müəllim şagirdlərə b, c, d, g samitləri ilə bitən sözlərin işləndiyi imla mətni yazdıra bilər.

Şagirdlər imla yazdıqdan sonra müəllim onlara öz yazılarındakı səhvləri müəyyən edib düzəltmək üçün vaxt verir. Sonra şagirdlər bir-birinin imlasını yoxlayırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| B, c, d, g samitləri ilə bitən sözlərin düzgün yazılışını müəyyən edir. | Tap. A, B, C, Ç (dərslik), tap. A, B, C (iş dəftəri) |
| Özünün və başqasının yazısında orfoqrafik səhvləri müəyyən edir. | Tap. Ç (iş dəftəri) |

## fəsil 3 MƏRHƏMƏT

### 1-ci dərs. “İki alma”

• Dərslik: səh. 18–19 • İş dəftəri: səh. 10

**Təlim məqsədləri**

• Kontekstdən çıxış edərək tanış olmayan sözün mənasını müəyyən edir. (st. 3-2.2.3).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Kontekstdən çıxış edərək frazeoloji ifadənin mənasını müəyyənləşdirir (st. 3-2.2.3).
• Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir (st. 3-2.3.1).
• Mətni məzmununa və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır (st. 3-2.4.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mətnin davamının təxmin edilməsi |
| 2 | **Oxu** | “İki alma” mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmunu ilə bağlı sualların cavablandırılması |
| 4 | **Söz ehtiyatı** | Tanış olmayan söz və ifadələrin mənimsədilməsi; köhnəlmiş sözlər haqqında məlumatın verilməsi |
| 5 | **Oxuyub-qavrama** | Mətndəki hadisələrin uşağın dilindən yazılı nəql olunması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər tapşırıqdakı sualları cavablandırmaqla fəslin mövzusu ilə tanış olurlar.

### Oxu. Söz ehtiyatı

3-2.2.3 **"İki alma" mətni. Növbə ilə oxu.** Mətn daxilində şagirdlərə tanış olmayan xeyli sayda söz və ifadələr var. Odur ki mətn əvvəlcə səssiz oxunur. Şagirdlər onlara tanış olmayan söz və ifadələri dəftərlərində qeyd edirlər. Sonra şagirdlər onlar üçün yeni olan sözləri səsləndirirlər, müəllim lövhədə qeyd edir. (Sözlər təkrar olunmamalıdır!) Söz boğçasındakı siyahı ilə müqayisə olunur. Söz və ifadələrin mənaları üzrə iş aparıldıqdan sonra müəllim bir neçə şagirdə mətni ucadan oxumağı tapşırır.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Suallar vasitəsilə şagirdlərin mətnin məzmununu qavraması yoxlanılır.

### Söz ehtiyatı

3-2.2.3 **Tapşırıq C (dərslik). Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətni oxuduqca rast gəldikləri yeni söz və ifadələri izahları ilə uyğunlaşdırmaqla və cümlələrdə işlətməklə onları mənimsədiklərini nümayiş etdirirlər.

**"Yadda saxla" rubrikası.** Müəllim mətnin müəllifi Cəlil Məmmədquluzadə və onun yaşadığı dövr haqqında kiçik məlumat verir:

*C.Məmmədquluzadə təxminən 150 il bundan əvvəl (1869–1932-ci illərdə) yaşayıb. O, müəllim, jurnalist, yazıçı kimi xalqımızın maariflənməsində böyük xidmətlər göstərmişdir. "Molla Nəsrəddin" jurnalını yaradıb. Çoxlu məqalələrin, məşhur hekayələrin, əsərlərin müəllifidir.*

Şagirdlərin "İki alma" hekayəsinin yazıldığı dövrü təsəvvür etməsi köhnəlmiş sözlərin mahiyyətini anlamağa kömək edəcək.

"Yadda saxla" rubrikasında təqdim olunmuş məlumat oxunur. Müəllim *şahı* və *abbası* sözlərinin dəqiq mənasını diqqətə çatdırmalıdır. Çünki növbəti tapşırıq məhz bu sözlər üzərində qurulmuşdur.

**Müəllimin nəzərinə!** Köhnəlmiş sözlər haqqında məlumat verilməsi epizodik xarakter daşıyır və mövzudan irəli gəlir. Məqsəd şagirdlərin oxuyub-qavrama bacarığının inkişafı və söz ehtiyatının artırılmasıdır.

### Oxuyub-qavrama

3-2.3.1 **Tapşırıq Ç (dərslik). Riyaziyyatla inteqrasiya.** Bu tapşırıq şagirdlərdən diqqətli oxu bacarığı və məntiqi düşüncə tələb edir.

"Diqqət et" rubrikasında belə bir məlumat verilir: "...keçmişdə beşqəpiklik pul – şahı, iyirmiqəpiklik pul isə abbası adlanırdı".

Mətndə altından xətt çəkilmiş 1-ci cümlədə deyilir: "... hərəsi bir şahıya iki alma aldım". Deməli, ata 10 qəpik pul xərclədi. Altından xətt çəkilmiş 2-ci cümlədə bildirilir ki, almaları alandan sonra atanın cibində bir abbası, yəni iyirmi qəpik pul qalmışdı. Deməli, ata evdən çıxanda cibində 30 qəpik pul olmuşdur.

**Müəllimin nəzərinə!** Dərsdə əyani olaraq beşqəpiklik, onqəpiklik və iyirmiqəpiklikdən istifadə olunması tövsiyə olunur.

3-2.4.2 **Tapşırıq B (iş dəftəri). Yazı ilə inteqrasiya.** Tapşırıq şagirdlərin yaradıcı təfəkkürünün inkişafına xidmət edir və nisbətən çətin hesab olunur. Ona görə də tapşırığın əvvəlcə müəllimin köməyi ilə şifahi şəkildə yerinə yetirilməsi tövsiyə edilir. Mətndəki hadisələr atanın (1-ci şəxsin) dilindən nəql olunur və daha çox atanın hadisələrə münasibəti ifadə olunur. Bu tapşırıq vasitəsilə isə şagirdlər atanın deyil, oğulun hadisələrə münasibətini, hiss və düşüncələrini əks etdirməlidirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni oxuyarkən tanış olmadığı sözləri qeyd edir. | "İki alma" mətni |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. B (dərslik) |
| Kontekstə uyğun gələn frazeoloji ifadəni müəyyənləşdirir. | Tap. C (dərslik), tap. A (iş dəftəri) |
| Faktlardan istifadə etməklə mətndə birbaşa əks olunmayan məlumat əldə edir. | Tap. Ç (dərslik) |
| Mətndəki hadisələri obrazın dilindən nəql edərkən onun daxili aləmini ifadə edir. | Tap. B (iş dəftəri) |

## 2-ci dərs. Mətnin ideyasının müəyyənləşdirilməsi

• Dərslik: səh. 20 • İş dəftəri: səh. 11

**Təlim məqsədləri**

• Bədii mətni hadisələrin ardıcıllığına uyğun nəql edir (st. 3-1.3.1).
• Mətndəki obrazın davranışına münasibət bildirir (st. 3-2.4.1).
• Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir (st. 3-2.3.3).
• Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st. 3-2.4.4).
• Məktub yazaraq mövzu ilə bağlı münasibətini bildirir (st. 3-3.2.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mətnin xatırlanması |
| 2 | **Danışma** | Mətndəki əsas hadisələrin nəql olunması |
| 3 | **Oxuyub-qavrama** | Mətnin ideyasının müəyyənləşdirilməsi |
| 4 | **Dinləmə** | "Ən gözəl tamaşa" mətni üzrə iş |
| 5 | **Yazı** | Baş qəhrəmana məktubun yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Mətn xatırladılır.

### Danışma

3-1.3.1 **Tapşırıq A (dərslik).** Müəllim şagirdləri 4 qrupa ayırır. Qruplara mətnə çəkilmiş illüstrasiyaları müzakirə edib mətnin məzmununu danışmağı tapşırır. Mətndəki hadisələr ata obrazının dilindən verilmişdir. Qruplar isə mətndəki hadisələri III şəxsin dilindən nəql etməlidirlər. Məsələn: *"Axşamüstü gəzintiyə çıxanda hərdənbir balaca oğlumu da özümlə aparıram" şəklində deyil, "Bir gün ata (və ya Cəlil Məmmədquluzadə) gəzintiyə çıxarkən oğlunu da özü ilə aparmışdı..." kimi nəql olunur.*

Mətnin belə nəql olunması üçün qruplara hazırlıq məqsədilə vaxt verilir. Qrup üzvlərindən biri hər bir illüstrasiya üzrə danışdıqca digər qrup üzvləri ona məsləhət verirlər. Səhvlərini düzəldirlər. Qrupları təmsil edən üzvlər mətni nəql edirlər.

### Oxuyub-qavrama

3-2.4.1 **Tapşırıq B (dərslik).** Bu tapşırıq da qruplarla işin davamı kimi yerinə yetirilir. Müəllim hər bir qrupa tapşırıqda verilmiş bir epizod üzrə obrazın xarakter və davranışına münasibət bildirməyi tapşırır. Qruplar müvafiq epizodu müzakirə edib obrazın davranışına münasibət bildirirlər. Yaxşı olardı ki, qruplar yekun qərarlarını yazılı şəkildə təqdim etsinlər. Məsələn, qrup təmsilçisi obrazın davranışı haqqında gəldikləri nəticəni belə təqdim edə bilər:

*Bizim fikrimizcə, uşaq düzgün hərəkət etmir. Küçədə hər gördüyünü istəmək yaxşı hərəkət deyil. Əgər valideyn almırsa, demək ki, imkanı çatmır və ya almağı məsləhət bilmir. Buna görə valideynimizi məyus etməməliyik, öz yanlış hərəkətimizlə valideynimizi başqalarının yanında utandırmamalıyıq".*

**"Yadda saxla" rubrikası.** Müəllim növbəti tapşırıqlara keçməzdən öncə əsas və köməkçi epizodlar haqqında şagirdlərə məlumat verir.

3-2.3.3 **Tapşırıq C, Ç (dərslik).** Bu tapşırıqlar şagirdlərin mətnin ideyasını müəyyənləşdirmək bacarığının inkişafına xidmət edir. Tapşırıqların qruplarla işin davamı kimi yerinə yetirilməsi tövsiyə olunur.

Qruplar əvvəlcə C tapşırığına əsasən mətndəki baş qəhrəmanı müəyyənləşdirmək üçün müzakirə aparırlar. Müəllim qruplara kömək məqsədilə yönəldici sual verir:

*– Sizcə, nə üçün müəllif hekayəni "İki alma" adlandırıb?*

**Düzgün cavab:** Baş qəhrəman öz almasını dilənçi uşaqla bölüşən oğlandır. Müəllifin hekayəni yazmaqda məqsədi baş qəhrəmanın mərhəmətli davranışını oxuculara nümunə göstərməkdir. Mətnin adı, adətən, mətndəki əsas hadisə və baş qəhrəmanla bağlı olur. Bu hekayənin adının "İki alma" olması baş qəhrəmanın kim olmasını bariz göstərir.

**Tapşırıq Ç (dərslik).** Qruplar illüstrasiyalara baxaraq mətndəki əsas epizodu müəyyənləşdirmək üçün müzakirə aparırlar.

**Əsas epizod:** 4-cü illüstrasiya. *(Oğlan öz almasını dilənçi uşağa verir.)*

**Müəllimin nəzərinə!** Mətndə hadisələr atanın dilindən nəql olunduğu üçün bu epizod mətndə təsvir olunmamışdır. Lakin

atanın nitqindən aydın olur ki, onun oğlu öz almasını dilənçi uşağa verib.

Qruplar əsas epizodu seçdikdən sonra oğlanın müsbət xüsusiyyətini (mərhəmətli olması) və bunun əsasında mətnin ideyasını müəyyənləşdirirlər: "*Mərhəmətli olmaq gözəl xüsusiyyətdir*".

**Müəllimin nəzərinə!** Oxuyub-qavrama bacarığının mühüm göstəricilərindən biri də mətnin ideyasını müəyyənləşdirə bilməkdir. Şagirdlərdə bu bacarığın inkişaf etdirilməsi üçün onlara öyrətmək lazımdır ki, mətnlə iş zamanı aşağıdakı suallara cavab tapsınlar:

*1. Baş qəhrəman kimdir? 2. Əsas epizod hansıdır? 3. Əsas epizodda baş qəhrəmanın hansı xarakteri ortaya çıxır?*

Mətnin ideyasını, adətən, sonuncu epizodda baş qəhrəmanın davranışını xarakterizə etməklə müəyyənləşdirmək olar.

## Dinləmə

3-2.4.4 Müəllim şagirdlərə "İki alma" mətninin ideyası ilə səsləşən "Ən gözəl tamaşa" mətnini səsləndirir.

**Dinləmə mətni**

*Atamla sirkə getmişdik. Bilet almaq üçün kassanın qarşısında növbəyə durduq. Bizdən öndə ata, ana və 4 uşaqdan ibarət bir ailə dayanmışdı. Uşaqlar sevincdən atılıb-düşürdülər. Belə görünürdü ki, ilk dəfə idi, sirkə gəlmişdilər.*

*Birazdan növbə onlara çatdı. Ata satıcıdan biletin qiymətini soruşdu. Sonra kəkələməyə başladı. Dönüb həyat yoldaşının qulağına nə isə pıçıldadı. Hiss olunurdu ki, onların bilet almağa pulu çatmır. Qəfil atam cibindən 20 dollar çıxarıb yerə atdı. Sonra əli ilə kişinin çiyninə toxunaraq yerdəki pulu göstərdi:*

*– Pulunuz yerə düşdü, cənab, – dedi.*

*Kişi atama baxdı və gözləri doldu:*

*– Təşəkkür edirəm, – dedi.*

*Onlar bilet alıb içəri girdikdən sonra atam əlimdən tutub növbədən çıxdı. Çünki atamın o kişiyə verdiyi 20 dollardan başqa pulu yox idi. Mən atamla fəxr etdim. O iki dəqiqədə izlədiyim anlar həyatımda ən gözəl tamaşa idi.*

*Çarli Çaplin*

**Dinləyib-anlamanı yoxlayan suallar:**

*Çarli Çaplin atası ilə hara getmişdi? Onun atası cibindən pulunu çıxarıb niyə yerə atdı? Siz Çarlinin yerində olsaydınız, sirkə bilet almadığınıza görə atanızdan inciyərdinizmi? Sizcə, o, atası ilə niyə fəxr etdi?* və s.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər müstəqil olaraq tapşırığı yerinə yetirirlər.

Tapşırıqda verilən bütün fikirlər mətnlə bağlıdır. Ancaq bu fikirlərdən biri *(Elə yaxşılıq et ki, kömək etdiyin adam utanmasın)* mətnin ideyası ilə sıx bağlıdır.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin oxuduqları və dinlədikləri eyni mövzu və ideyalı mətnlər üzrə ümumiləşdirmə xarakteri daşıyır. Şagirdlər verilmiş fikirləri təsdiq edən epizodları təsvir etməklə həmçinin yazı bacarıqlarını da inkişaf etdirirlər.

1-ci fikrin aid olduğu mətn: "İki alma".

**Epizod:** Oğlan öz almalarından birini dilənçi uşağa verdi. Oğlunun mərhəmətli davranışı atanı sevindirdi.

2-ci fikrin aid olduğu mətn: "Ən gözəl tamaşa".

**Epizod:** Ata bilet almağa pulu çatmayan ataya kömək etmək istədi. Cibindən pulunu çıxarıb yerə atdı:

– Cənab, pulunuz yerə düşüb, götürün.

Oğlan atası ilə fəxr etdi.

## Yazı

3-3.2.3 **Tapşırıq D (dərslik).** Mətn təhlil olunandan sonra şagirdlər baş qəhrəmana məktub yazaraq onun mənfi *(hər gördüyünü istəməsi, valideynindən küsməsi)* və müsbət *(mərhəmətli, diqqətcil olması, paylaşmağı sevməsi)* davranışına münasibət bildirirlər.

**Müəllimin nəzərinə!** Şagirdlərə 2-ci sinifdə öyrəndikləri məktubun strukturu ilə bağlı biliklər xatırladılır.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin illüstrasiyalara uyğun epizodlarını nəql edir. | Tap. A (dərslik) |
| Mətnə istinad etməklə obrazın xarakteri və ya davranışı haqqında fikirləri əsaslandırır. | Tap. B (dərslik) |
| Baş qəhrəmanın xarakterinə əsasən mətnin ideyasını müəyyənləşdirir. | Tap. C, Ç (dərslik), tap. A (iş dəftəri) |

| | |
|---|---|
| Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir. | Tap. B (iş dəftəri) |
| Baş qəhrəmana məktub yazaraq onun davranışına münasibət bildirir. | Tap. D (dərslik) |

## 3-cü dərs. Sözün tərkibi

• Dərslik: səh. 21 • İş dəftəri: səh. 12

**Təlim məqsədləri**

• Sözü kök və şəkilçiyə ayırır (st. 3-4.2.1).
• Sözə şəkilçi artırmaqla yeni sözlər düzəldir (st. 3-4.2.1).
• Sözlər arasında məna əlaqəsini müəyyən etməklə söz birləşməsi və cümlələr qurur (st. 3-1.4.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Söz kökünün müəyyən olunması |
| 2 | **Dil qaydaları** | Sözün tərkibi üzrə biliklərin mənimsədilməsi və tətbiqi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Müəllim tapşırıqda verilmiş sözləri lövhədə yazır və şagirdlərə sual verir:

– *Sözlərdə təkrar olunan hissə hansıdır?*

Şagirdlər sözləri müqayisə edirlər. Sözlərdə təkrarlanan hissənin (meyvə) altından xətt çəkilir.

Müəllimin köməyi ilə şagirdlər bu qənaətə gəlirlər ki, bir sözə müxtəlif hissəciklər əlavə oluna bilər.

### Dil qaydaları

3-4.2.1 **"Bunları bilməliyik" rubrikası.** Bu dərsin məqsədi şagirdlərə sözün morfoloji tərkibinin, "kök" və "şəkilçi" terminlərinin mənimsədilməsidir. Müəllim rubrikada sxem şəklində verilmiş informasiyanı izah edir.

**Tapşırıq B (dərslik).** Tapşırıq dil qaydası üzrə möhkəmləndirmə məqsədi daşıyır. Şagirdlər sözlərə müxtəlif şəkilçilər artırmaqla köçürürlər. Məsələn: *pullu, pulsuz, pullar, puldan.*

**Tapşırıq C (dərslik). Cütlərlə iş.** Cütlər müəllimin izahatından sonra tapşırıqda verilmiş sözləri birlikdə analiz edərək sözlərin kökünü müəyyən edirlər.

**Tapşırıq Ç (dərslik).** Tapşırıqda verilmiş varlıq şəkillərini ifadə edən sözləri səsləndirirlər. *Əl – əlcək; gül – güldan.* Şəkilçiləri müəyyən edirlər. Müəllim yönəldici suallar verir:

– *Sizcə, nə üçün "əlcək" sözünün kökü "əl" hesab olunur? Sizcə, "güldan" sözündə "dan" hissəciyinin şəkilçi olduğunu necə bilirik?*

Şagirdlər bu sözlər arasında məna əlaqəsinə diqqət etməklə şəkilçilər vasitəsilə bir sözdən digər bir sözün yaranmasını əyani şəkildə görürlər.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər müstəqil şəkildə sözün tərkibini müəyyən edib cədvəli tamamlayırlar.

3-4.2.1 **Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq şagirdlərin həm yeni öyrədilən dil qaydası üzrə biliklərini, həm də söz ehtiyatını möhkəmləndirir. Bu tapşırığı yerinə yetirməklə şagirdlər yeni sözlərin yaranmasında şəkilçilərin rolunu dərk edirlər. Sözlər: *başçı, zəhmətkeş, iradəli, təmizkar.*

3-1.4.1 **Tapşırıq D (dərslik), tapşırıq C (iş dəftəri).** Şagirdlər cümlələrdə buraxılmış şəkilçiləri empirik şəkildə müəyyən edərək cümləni tamamlayırlar və cümlənin qurulmasında şəkilçilərin rolunu dərk edirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözü kök və şəkilçiyə ayırır. | Tap. A, C, Ç (dərslik), tap. A (iş dəftəri) |
| Sözə şəkilçi artırmaqla yeni sözlər düzəldir. | Tap. B (dərslik), Tap. B (iş dəftəri) |
| Uyğun şəkilçilərdən istifadə etməklə cümlələr qurur. | Tap. D (dərslik), tap. C (iş dəftəri) |

fəsil **4** **MƏSULİYYƏT**

## 1-ci dərs. "Balaca aktyor"

• Dərslik: səh. 22–23 • İş dəftəri: səh. 13

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Mətni sürətli, səlis, aydın səslə oxuyur (st. 3-2.1.1).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir (st. 3-2.3.1).
• Mətni məzmununa və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır (st. 3-2.4.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mətnin məzmununun təxmin edilməsi |
| 2 | **Danışma** | Rollu oyun haqqında söhbətin aparılması |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Balaca aktyor" mətninin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Mətnin ideyasının müəyyənləşdirilməsi; mətnin baş qəhrəmanın dilindən nəql olunması |
| 5 | **Yazı** | Sualların yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərin diqqətini mətnin adına və illüstrasiyalara yönəldir.

*– Sizcə, mətnin mövzusu nədir? Mətnin məzmununu təxmin edin.*

### Danışma

3-1.3.3 **Tapşırıq A (dərslik).** Şagirdlər tapşırıqda verilmiş suallar əsasında əvvəlki dərsləri xatırlayır və fikirlərini bildirirlər.

### Oxu. Söz ehtiyatı

3-2.1.1 **"Balaca aktyor" mətni.** Mətn şagirdlər tərəfindən növbəli şəkildə oxunur. "Söz boğçası" üzrə iş aparılır.

**Tapşırıq A (iş dəftəri).** Tapşırığı yerinə yetirməklə şagirdlər söz ehtiyatlarını inkişaf etdirirlər.

**Doğru cavab:** *1 – B, 2 – C, 3 – A.*

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Müəllim faktoloji suallar vasitəsilə şagirdlərin hekayənin məzmununu necə qavradıqlarını yoxlayır.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər hekayə xəritəsini tamamlamaqla mətni oxuyub-qavradıqlarını nümayiş etdirirlər.

Mətndə əsas epizod: Həsənin tamaşanın sonunda səhnədə yıxılması.

Mətnin ideyası: Hər bir kəs öz borcunu, vəzifəsini məsuliyyətlə yerinə yetirməlidir.

**Diferensial təlim**

Mətnin ideyasını müəyyənləşdirməkdə və ifadə etməkdə çətinlik çəkən şagirdlərə müəllim cümlələr təqdim edə bilər. Şagirdlər həmin cümlələr içərisindən mətnin ideyasını əks etdirən cümləni seçib yaza bilərlər.

3-2.3.1 **Tapşırıq C (dərslik).** Mətnin ilk abzasında məlumat verilir ki, Natiq Qasımov Qarabağ döyüşlərində şəhid olub. Sonrakı hissələrdən aydın olur ki, o, qəhrəmancasına döyüşüb və Xocalı sakinlərini xilas edib. Şagirdlər bu məlumatdan çıxış edərək fikirlərini əsaslandıra bilərlər: "Bayraq günü" tədbirləri Natiq Qasımov kimi qəhrəman oğulların xatirəsinə həsr olunmalıdır. Onlar vətənimizin, bayrağımızın uğrunda şəhid olmuşlar. Azərbaycan xalqı qəhrəmanlarını unutmamalıdır. Onların şərəfli həyat yolu hər kəsə nümunə olmalıdır.

**Diferensial təlim**

Bu sualı cavablandırmaqda çətinlik çəkən şagirdlərə müəllim mətnin birinci abzasını yenidən oxumağı tapşıra bilər.

3-2.4.2 **Tapşırıq Ç (dərslik).** Şagirdlər əvvəlki dərslərdə də mətnləri bu cür nəql ediblər. Müəllim şagirdlərə tapşırmalıdır ki, nəql edərkən Həsənin keçirdiyi hissləri ifadə etsinlər. Yaradıcı təfəkkürü inkişaf etmiş şagirdlər Həsənin fədakarlığını bir az da qabartmaq üçün əlavə epizodlar da düşünə bilərlər. Məsələn:

*...Pərdə arxasından zala baxdım. Zalı tamaşaçılarla dolu gördüm. Çox həyəcanlandım. Gözlərim qaraldı, özümü saxlaya bilməyib yıxıldım. Yoldaşlarım məni qaldırdılar. Su verdilər. Yaxşı ki Cabir müəllim yanımızda yox idi. Onlara bərk-bərk tapşırdım ki, Cabir müəllimə deməyin.*

*Öz-özümə düşünürdüm: "Axı mən Natiq Qasımovun rolunu oynayıram. Onun kimi olmalıyam.*

*O, vətən uğrunda canından keçib. Bir qızdırma nədir ki, mən ona dözməyim. Bu gün mən də öz borcumu yerinə yetirməliyəm!*

**Müəllimin nəzərinə!** Müəllim tapşırıq üzrə işi yekunlaşdırarkən metodik vəsaitdə təqdim edilmiş epizodu şagirdlər üçün səsləndirə bilər.

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər mətnin mövzu və məzmunu ilə bağlı onları maraqlandıran məqamları soruşmaqla həm də aldıqları informasiyanı dəqiqləşdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlar əsasında mövzu üzrə danışır. | Tap. A (dərslik) |
| Mətni sürətli, səlis, aydın səslə oxuyur. | “Balaca aktyor” mətni |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. B (dərslik) |
| Mətn üzrə hekayə xəritəsini tamamlayır. | Tap. B (iş dəftəri) |
| Mətndəki əlaqəli faktları tutuşdurmaqla nəticələr çıxarır. | Tap. C (dərslik) |
| Mətndəki hadisələri obrazın dilindən nəql edərkən onun daxili aləmini ifadə edir. | Tap. Ç (dərslik) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə “Bayraqdar əsgər” mətnindən bir parça səhnələşdirilməlidir. Bunun üçün sinfə bayraq gətirmək tövsiyə olunur.

## 2-ci dərs. Ssenari

• Dərslik: səh. 24 • İş dəftəri: səh. 14

**Təlim məqsədləri**

• Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st. 3-2.4.4).
• Kontekstə əsasən sözün mənasını müəyyən edir (st. 3-4.4.1).
• Ssenarini səciyyələndirən xüsusiyyətləri müəyyən edir (st. 3-2.4.3).
• Hər hansı hadisəni ssenari və ya dialoq şəklində yazılı təqdim edir (st. 3-3.2.1).
• Jest və mimikalarını nitqin məzmununa uyğunlaşdırır (st. 3-1.4.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Ssenari” sözünün təxmin edilməsi |
| 2 | **Dinləmə** | “Bayraqdar əsgər” mətni üzrə iş |
| 3 | **Oxu** | Ssenari haqqındakı məlumatın mənimsədilməsi |
| 4 | **Yazı** | Ssenarinin yazılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim suallar verməklə "Balaca aktyor" mətnini xatırladır:

– *Balaca aktyor kim idi? O hansı rolu ifa edirdi? Tamaşa hansı hadisəyə həsr olunmuşdur?* və s.

### Dinləmə

3-2.4.4 **Tapşırıq A (dərslik).** “Balaca aktyor” mətnində Həsən Natiq Qasımov rolunu oynayır. Şagirdlərdə Həsənin oynadığı rol haqqında ətraflı təsəvvür yaratmaq üçün müəllim mətn səsləndirir.

**Bayraqdar əsgər**

*1992-ci ildə Ağdamda yeddi əsgərimiz birlikdə döyüşürlər. Döyüşdə altı yoldaşı həlak olan Natiq mübarizəni təkbaşına davam etdirir. Ermənilər elə zənn edirlər ki, Natiqin döyüşdüyü yerdə çoxlu sayda əsgər var. Odur ki əsir və girov götürülmüş Xocalı sakinlərindən birini – Cəfər müəllimi çağırıb ona deyirlər ki, azərbaycanlı döyüşçülər təslim olmasalar, sizi güllələyəcəyik. Bu xəbərdarlığı çatdırmaq üçün Cəfər müəllimi ora göndərirlər. Cəfər müəllim Natiq olduğu yerə gəlir. Natiqin burada tək olduğunu görür. Ondan soruşur ki, niyə təkbaşına döyüşürsən? Niyə çıxıb getmirsən? Natiq yoldaşlarının şəhid olduğunu, özünün isə beş gündür, fasiləsiz döyüşdüyünü söyləyir. Sonra başının üzərindəki bayrağı göstərib cavab verir ki, bu bayrağı necə qoyub gedim?! Son nəfəsiməcən döyüşəcəyəm.*

*Cəfər müəllim Natiqə deyir ki, əgər o təslim olmasa, 22 nəfər Xocalı sakini güllələnəcək. Natiq bərk qəzəblənir. Razı olmur ki, ona görə həmvətənlərini öldürsünlər. Bayrağı götürüb sinəsinə basır, sonra onu başı üzərinə qaldırıb çölə çıxır. Düşmənlər irəli gəlməyə qorxurlar. Cəfər müəllimin işarəsindən sonra tökülüşüb gəlirlər, onun üst-başını axtarırlar, tək olduğuna inanmırlar. İçərini atəşə tuturlar. Heç kimin olmadığını görəndə daha da qəzəblənirlər. Başa düşürlər ki, günlərlə*

*onlara müqavimət göstərən elə bircə nəfər imiş. Onun qəhrəmanlığını Azərbaycan xalqı heç vaxt unutmayacaq.*

**Müəllimin nəzərinə!** Bu hadisədən sonra Natiq Qasımovun taleyi məlum olmur. Onun şəhid olması və ya sağ qalması haqqında dəqiq məlumat yoxdur. Fikrət Qocanın "Bayraq tutan oğullar", Alim Fərzəliyevin "Qeyrət qalası" poemaları Natiq Qasımova həsr olunub.

Müəllim mətnlə bağlı sual-cavab etməklə şagirdlərin dinləyib-anlamasını yoxlayır:

– *Cəfər müəllim kim idi? Ermənilər onu nə üçün Natiq Qasımovun yanına göndərdilər? O niyə tək qalmışdı? Nə üçün tək döyüşməyə davam edirdi?*

Sonra dinlədikləri mətni "Balaca aktyor" mətni ilə əlaqələndirirlər. Müəllim soruşur:

– *"Balaca aktyor" mətnindən aldığınız hansı məlumatlar dinlədiyiniz mətndə də əks olunub?*

**Cavab:** Natiq Qasımovun bayrağı götürüb düşmənin üzərinə getməsi və Xocalı sakinlərini xilas etməsi.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırığı yerinə yetirməklə dinlədikləri mətni qavradıqlarını nümayiş etdirirlər. Tapşırıq həm şagirdlərin dinləyib-qavrama, həm də yazı bacarıqlarını inkişaf etdirir.

## Oxu

3-4.4.1 **Tapşırıq B (dərslik).** Müəllim şagirdlərin diqqətini mətndə "ssenari" sözünün işləndiyi cümlələrə yönəldir. Şagirdlər həmin cümlələri oxuyaraq "ssenari" sözünü başa düşdükləri kimi izah edirlər.

**"Yadda saxla" rubrikası.** "Ssenari" anlayışını şagirdlərə mənimsətmək üçün müəllim onların rollu oyunla bağlı biliklərini xatırladır:

– İndiyəcən bir çox rollu oyunlar oynamısınız. Keçən dərs bu oyunları birlikdə xatırladıq. Rollu oyuna başlamaq üçün əvvəlcə hazırlaşırdıq. Kimin hansı rolu ifa edəcəyini, nə danışacağınızı, necə hərəkət edəcəyinizi müəyyənləşdirirdik.

Teatr tamaşaları, filmlər, tədbirlər və s. üçün ssenari mətnləri hazırlanır. Aktyorlar ssenarini oxuyub rollarına hazırlaşırlar. Bu mətnləri özümüz də tərtib edə bilərik. İndi gəlin rubrikada verilmiş nümunəni diqqətlə nəzərdən keçirək və ssenari mətninin quruluşu ilə tanış olaq.

Şagirdlər rubrikada izahlı şəkildə verilmiş nümunəni nəzərdən keçirirlər.

3-2.4.3 **Tapşırıq C (dərslik). Qruplarla iş.** Qruplar dərslikdə verilmiş ssenari parçasını oxuyub təhlil edirlər. Qruplara müzakirə və məşq üçün bir qədər vaxt verilir. Qrup üzvləri arasından iki aktyor seçilir. Hər birinin rolu, hərəkətləri qrup üzvləri tərəfindən müzakirə olunur. Aktyorların söyləyəcəkləri nitqi kiçik kağızlarda yazıb onlara verirlər.

3-1.4.2 Təqdimat zamanı digər qrupun üzvləri yoldaşlarının fəaliyyətini qiymətləndirməlidirlər. Bunun üçün müəllim lövhədə "Şagirdlərin bir-birini qiymətləndirməsi" cədvəli çəkə bilər:

| Meyarlar | Bəli | Qismən | Xeyr |
|---|---|---|---|
| Aydın səslə danışırdılar. | | | |
| Jest və mimikaları nitqlərinə uyğun idi. | | | |
| İfadəli və təsiredici danışırdılar. | | | |
| Ssenariyə uyğun hərəkət edirdilər. | | | |
| Dialoqları ssenariyə uyğun idi. | | | |

**Müəllimin nəzərinə!** Müəllim qruplara qiymətləndirmə cədvəlindəki meyarlarla tanış olmağı və ona uyğun hazırlaşmağı tapşırır. Aktyorlar məşq edərkən qrup üzvləri qiymətləndirmə cədvəlindəki meyarlar üzrə yoldaşlarına istiqamət verib onları təqdimata hazırlaşdırırlar.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş ssenari nümunəsini oxuyurlar. Şagirdlər ilk dəfə ssenari mətni ilə tanış olduqları üçün bu tapşırıq müəllimin köməyi ilə yerinə yetirilir. Müəllim kömək məqsədilə əvvəlcə mətnin məzmununu danışır. Şagirdlərdən tapşırıqda verilmiş ssenarinin quruluşu haqqında soruşur: *Hadisə harada baş verir? Dialoqda kimlər iştirak edir? Mətndə boş buraxılan hissələrdə nə yazılmalıdır? (Obrazların necə hərəkət edəcəyi)* və s.

Daha sonra şagirdlər mətndəki situasiyaya uyğun olaraq rolların (uşaq və sürücü) psixoloji vəziyyətini müəyyənləşdirib aid olduğu rolun qarşısında yazırlar.

– Uşaq *(qorxa-qorxa və ya ağlayaraq)*
– Sürücü *(qışqıraraq)*
– Uşaq *(ağlayaraq və ya qorxaraq)*
– Uşaq *(gülümsəyərək)*

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir. | Tap. A (dərslik), tap. A (iş dəftəri) |
| Ssenarini səciyyələndirən xüsusiyyətləri müəyyən edir. | Tap. C (dərslik) |
| Hər hansı hadisəni ssenari və ya dialoq şəklində yazılı təqdim edir. | Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllimə növbəti dərs üçün tövsiyə olunur ki, şagirdlərin sayına uyğun olaraq kiçik vərəqlər kəsib üzərində bir leksik və ya bir qrammatik şəkilçili söz yazsın. Bu zaman şagirdlərin yaş səviyyəsi nəzərə alınmalıdır. Şəkilçilər əsasən birhecalı və çox işlənən olmalıdır.

## 3-cü dərs. Sadə və düzəltmə sözlər

• Dərslik: səh. 25 • İş dəftəri: səh. 15

### Təlim məqsədləri

• Şəkilçiləri söz və cümlədəki funksiyalarına görə fərqləndirir (st. 3-4.2.1).
• Sözə şəkilçi artırmaqla yeni söz düzəldir (st. 3-4.2.1).
• Sözlər arasında məna əlaqəsini müəyyən etməklə söz birləşməsi və cümlələr qurur (st. 3-1.4.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sözlərin kök və şəkilçiyə ayrılması |
| 2 | **Dil qaydaları** | Şəkilçilərin növlərinin mənimsədilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə üzərinə şəkilçili sözlər yazılmış kiçik vərəqlər paylayır. Şagirdlər vərəqlərdə olan sözü kök və şəkilçiyə ayırırlar.

### Dil qaydaları

3-4.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlərə əvvəlki sinifdən *-çı* və *-lar* şəkilçiləri məlumdur. İndi onlar öz biliklərindən istifadə edib "tamaşaçı" və "aktyorlar" sözlərindəki şəkilçilərin rolunu müəyyən etməlidirlər. Bunun üçün əvvəlcə şagirdlər sözləri kök və şəkilçiyə ayırırlar.

Müəllim soruşur:

*– Tamaşa nədir? Bəs tamaşaçı? Bu sözlər hansı suallara cavab verirlər? Niyə bu sözlərin sualı fərqlidir? -Çı şəkilçisi tamaşa sözünə qoşulduqda hansı fərqi yaradıb?*

Şagirdlər belə qənaətə gəlirlər ki, -çı şəkilçisi tamaşa sözünə qoşulduqda sözün mənasını dəyişib və şəxs anlayışı verən yenimənalı söz yarandığı üçün kim? sualına cavab verir. Müəllim digər sözün təhlilinə keçir:

*– Bəs "aktyorlar" sözünün kökü hansıdır? Aktyor və aktyorlar sözlərini müqayisə edin. -Lar şəkilçisi sözdə məna fərqi yaradıbmı?*

**Müəllimin nəzərinə!** Şagirdlər -lar şəkilçisinin də sözə çoxluq mənası verməsini söyləyə bilərlər. Ancaq müəllim bu şəkilçinin yeni məna yaratmadığını sözün mənasını izah etməklə başa sala bilər. Məsələn, *aktyor* – tamaşada obrazı canlandıran şəxs. *Aktyorlar* – tamaşada obrazı canlandıran şəxslər. Gördüyünüz kimi, məna olduğu kimi qaldı, -lar$^2$ şəkilçisi, sadəcə, aktyorların çox olmasını nəzərə çatdırır.

Sonda müəllim ümumiləşdirmə aparır:

*– Deməli, şəkilçilərin hamısı yeni məna yaratmır.*

**"Bunları bilməliyik" rubrikası.** Şagirdlərə rubrikada sadə və düzəltmə sözlər və şəkilçilərin növləri ilə bağlı verilmiş məlumatlar izah edilib mənimsədilir. Sözdə yalnız əlaqə yaradan şəkilçilər varsa, belə sözlərin sadə söz adlandığı diqqətə çatdırılır.

Şagirdlər rubrikadakı nümunələr əsasında bəzi şəkilçilərin cümlədə sözlər arasında əlaqə yaratmasını, bəzilərinin isə yenimənalı söz düzəltməsini anlayırlar.

Daha sonra müəllim söyləyir:

*– Vərəqinizdə olan sözlərdəki şəkilçinin növünü müəyyən edin. Həmin şəkilçi yeni söz yaradıb, yoxsa yox?*

Şagirdlər vərəqlərindəki sözlərə qoşulan şəkilçinin funksiyasını müəyyənləşdirib təqdim edirlər.

**Tapşırıq B (dərslik).** Şagirdlər birinci cümlələrin məzmunundan çıxış edərək ikinci cümlələrdə buraxılmış şəkilçiləri (*-kar, -cıl, -qan*) müəyyənləşdirirlər. Şagirdlər bu şəkilçilərin varlığını söz ehtiyatlarının köməyi ilə aşkar edirlər.

3-4.2.1 **Tapşırıq C (dərslik).** Məqsəd şagirdlərin kök və şəkilçi üzrə biliklərindən istifadə

etməklə yeni öyrədilən dil qaydasını mənimsətməkdir. Şagirdlər *bağ* və *bağban, dəyirman* və *dəyirmançı* sözlərini kök və şəkilçiyə ayırmaqla, sözlər arasında məna fərqini və quruluşca növünü (sadə və düzəltmə) izah etməklə leksik şəkilçilərin mühüm rolunu aydınlaşdırırlar.

3-1.4.1 **Tapşırıq Ç (dərslik).** Bu tapşırıq şəkilçinin digər növünü – cümlədə sözlər arasında əlaqə yaradan şəkilçiləri şagirdlərə mənimsətmək məqsədi daşıyır. Şagirdlər dil daşıyıcıları olduqları üçün empirik şəkildə cümlədəki sözlər arasında rabitə qurmaq üçün hal və mənsubiyyət şəkilçilərindən istifadə edəcəklər. Bununla da şəkilçinin böyük bir qisminin (qrammatik şəkilçilərin) nitqimizdəki funksiyasını dərk edəcəklər.

**Müəllimin nəzərinə!** 3-cü sinifdə "leksik şəkilçi" və "qrammatik şəkilçi" terminlərindən istifadə olunması tövsiyə olunmur. Şagirdlərə şəkilçilərin adları çəkilmədən onların mahiyyətinin sadə şəkildə mənimsədilməsi kifayətdir.

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırıq vasitəsilə şagirdlər qrammatik şəkilçiləri fərqləndirdiklərini müstəqil şəkildə nümayiş etdirirlər.

3-4.2.1 **Tapşırıq D (dərslik).** Şagirdlər verilmiş sözlərə şəkilçilər artırıb sıra ilə yazırlar. Sonra yeni yaranan sözün altından xətt çəkirlər. Məsələn, *məktub – məktubdan, məktubun, məktublaş; dost – dostlar, dostluq, dostum* və s.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər hər bir sözün qarşısında mötərizədə verilmiş suala diqqət etməli və nöqtələrin yerinə elə şəkilçi seçməlidirlər ki, yaranan söz mötərizədəki suala cavab olsun. Tapşırığın quruluşu nisbətən mürəkkəbdir və şagirdlərdən diqqətli olmağı tələb edir.

**Diferensial təlim**

Tapşırığı yerinə yetirməzdən öncə şagirdlərə tapşırıqda verilən nümunəni izah etmək tövsiyə olunur.

**Tapşırıq C (iş dəftəri).** Müəllim əvvəlcə krossvordda verilən "çalışqan" sözünü diqqətə çatdıraraq sual verir:

*– Bu söz nə bildirir? Əlamət, say, ad, yoxsa hərəkət? Bəs bu sözün kökü nə bildirir?*

Şagirdlər "çalışqan" sözünün əlamət, "çalış" sözünün hərəkət bildirdiyini söylədikdən sonra tapşırıqda verilmiş sözləri də bu üsulla təhlil etməklə krossvordu həll edirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkilçiləri söz və ya cümlədəki funksiyalarına görə fərqləndirir | Tap. A, B, C, D (dərslik) |
| Uyğun şəkilçilərdən istifadə etməklə cümlələr qurur. | Tap. B, Ç (dərslik), tap. A (iş dəftəri) |
| Sözə şəkilçi artırmaqla yeni sözlər düzəldir. | Tap. D (dərslik), B, C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə şagirdlər mətnin oxusu zamanı izahlı lüğətdən istifadə etməlidirlər.

# fəsil 5 NİKBİNLİK

## 1-ci dərs. "Yeni dostlar"

• Dərslik: səh. 26–28 • İş dəftəri: səh. 16

**Təlim məqsədləri**

• Lüğətdən istifadə etməklə sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• Mətnin tərkib hissələrini, struktur elementlərini onun əsas məzmunu ilə əlaqələndirir (st. 3-2.4.3).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Məktub yazaraq mövzu ilə bağlı münasibətini bildirir (st. 3-3.2.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Futbol oyunu haqqında söhbət |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Yeni dostlar" mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə sualların cavablandırılması; mətnin nəql olunması |
| 4 | **Yazı** | Mətndəki hadisələrin uşağın dilindən yazılı nəql olunması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Futbol oyunları bu yaşda olan uşaqlar üçün

(xüsusilə də oğlanlar üçün) çox maraqlıdır. Odur ki şagirdlərin maraq dairəsindən çıxış edib onlarla bu oyun haqda söhbət etmək "Yeni dostlar" mətninin oxunmasına maraq oyadar.

### Oxuyub-qavrama. Söz ehtiyatı

3-2.2.3, 3-2.4.3 **Tapşırıq A (dərslik). Qruplarla oxu.** Oxu prosesi üçün aşağıda təklif olunan üsul mətnin məzmununun qısa müddət ərzində şagirdlər tərəfindən mənimsənilməsinə kömək edə bilər.

"Yeni dostlar" mətni 3 bitkin hissədən ibarətdir. Şagirdlər qruplara ayrılırlar. Hər qrupa bir ekspert və bir qiraətçi (oxucu) təyin edilir. Ekspert kimi seçilən şagirdin dinləmə və danışma bacarıqları yüksək səviyyədə olmalıdır. Qiraətçi isə deklamasiya (ifadəli oxu) bacarıqlarına malik olmalıdır. Hər bir qrupun qiraətçisi mətnin müvafiq hissəsini qrup yoldaşlarının eşidəcəyi səslə, digər qruplara mane olmadan oxuyur. Qrup üzvləri diqqətlə onu dinləyirlər. Ekspert oxunmuş hissənin məzmununu qrup yoldaşlarına nəql edir. Qrup üzvləri eksperti diqqətlə dinləyir, onun səhvlərini düzəltməyə çalışır, yaddan çıxan məqamları xatırladırlar.

Qruplar təqdimatı aşağıdakı ardıcıllıqla edirlər.

**1.** Oxu prosesi bitəndən sonra qruplar qeyd etdikləri tanış olmayan sözləri təqdim edirlər. Onlar lüğət vasitəsilə araşdırdıqları sözləri digər qrupların üzvlərinə də izah edirlər.

**2.** Bu mərhələdə hər bir qrupun eksperti ardıcıl olaraq "Yeni dostlar" mətninin müvafiq hissəsini nəql edir.

**3.** Hər qrup oxuduğu hissəni necə adlandırdığını söyləyir.

**4.** Son mərhələdə qruplar oxuduqları hissəyə uyğun tərtib etdikləri sualları təqdim edirlər. Digər qruplar sualları cavablandırır.

3-2.2.1 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin mətnin məzmununu mənimsədiyini yoxlamağa xidmət edir.

**Diferensial təlim**

Şagirdlər mətnin bütün hissələrini oxumadıqlarına görə (bəzi şagirdlər oxumadıqları hissəni yoldaşları nəql edərkən diqqətlə dinləmədikdə) tapşırığı yerinə yetirməkdə müəyyən qədər çətinlik çəkə bilərlər. Bu zaman müəllim tapşırıqda verilmiş fakt və hadisələrin mətndəki yerini tapıb oxumaqda və obrazı müəyyənləşdirməkdə şagirdlərə kömək etməlidir.

**Cümlələr:**

1. **Mehman** paravelosiped idman növü ilə məşğul olur.
2. Rəqibinin kobudluğuna görə **Yusifin** ayağı zədələnmişdi.
3. **Yusif** komandasına qələbə qazandırdı.
4. **Mehman** zədə alandan sonra beynəlxalq yarışların qalibi olub.
5. Yusif Mehmanla **tibb bacısının (Nərgizin)** köməyi ilə tanış olmuşdu.
6. Yusif xəstəxanada olarkən **Mehman** və **Nərgiz** ona dəstək oldular.

### Yazı

3-3.2.3 **Tapşırıq B (iş dəftəri).** Müəllim şagirdlərin diqqətini Mehmanın Yusifə yazdığı ilk məktuba yönəldir. Şagirdlər məktubu oxuyurlar. Daha sonra özlərini Yusifin yerində təsəvvür edib Mehmana məktub yazırlar.

Məktubun məzmunu təxmini belə ola bilər:

*Salam. Mən sizi tanımadım. Ancaq mənə göstərdiyiniz diqqət və qayğıya görə sizə təşəkkür edirəm. Siz kimsiniz? Məni haradan tanıyırsınız? Siz hansı idman növü ilə məşğul olursunuz?*

*Mən özümü yaxşı hiss etmirəm. Mənim aldığım zədə çox ağırdır. Heç bilmirəm sağala biləcəyəm, ya yox. Futbolçu üçün ayağın zədə alması bilirsiniz nə deməkdir?! Düzdür, həkimlər deyir, qorxma, sağalacaqsan. Ancaq inanmıram. Bu ayaqla mən hara, futbol hara?!*

*Nə isə, sizi məyus etmək istəmirəm. Sağ olun.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək sözün mənasını təxmin edir və lüğət vasitəsilə dəqiqləşdirir. | Tap. A (dərslik) |
| Mətnin hissələrini adlandırır. | Tap. A (dərslik) |
| Mətnin məzmunu ilə bağlı suallar tərtib edir. | Tap. A (dərslik) |
| Mətndəki məlumatlara əsasən cümlələri tamamlayır. | Tap. A (iş dəftəri) |
| Məqsədə uyğun olaraq məktub yazır. | Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə “Yeni dostlar” mətninin təhlil olunacağını nəzərə alıb şagirdlərə mətni evdə oxumağı tapşırmaq lazımdır. Müəllim həmçinin onlara tapşırır ki, mətndə tünd hərflərlə verilmiş söz və ifadələri, cümləri oxuyarkən müəllifin nəyə işarə etdiyi üzərində düşünsünlər.

## 2-ci dərs. “Yeni dostlar” mətninin təhlili

• Dərslik: səh. 29 • İş dəftəri: səh. 17

**Təlim məqsədləri**

• Bədii mətnlə bağlı faktoloji sualları cavablandırır (st. 3-2.2.1).
• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Oxuduğu mətnin sonluğunu təxmin edir (st. 3-2.4.2).
• Dinlədiyi mətnin qısa məzmununu yazır (st. 3-3.2.1).
• Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st. 3-2.4.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Yeni dostlar” mətni haqqında təəssüratların soruşulması |
| 2 | **Oxuyub-qavrama** | “Yeni dostlar” mətninə əlavə ediləcək epizodun mətndəki yerinin müəyyənləşdirilməsi |
| 3 | **Danışma** | Əlil insanlara edilən mənəvi dəstək haqqında söhbətin aparılması |
| 4 | **Dinləmə. Yazı** | “Dünyanın ən sürətli adamı” mətni üzrə iş |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim “Yeni dostlar” mətni haqqında şagirdlərin təəssüratlarını soruşur:

– *Mətndə sizə ən çox təsir edən hansı epizod oldu? Hansı obraz nikbin olması ilə yadınızda qaldı?*

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərə tapşırıqdakı epizodu oxumaq üçün vaxt verir. Şagirdlər oxuyub bitirdikdən sonra epizodun mətnin 2-ci hissəsinə uyğun olduğunu müəyyənləşdirirlər.

**Diferensial təlim**

Müəllim yüksək hazırlıqlı şagirdlərə belə bir tapşırıq verə bilər: Bu epizodu 2-ci hissədə hansı abzasdan sonra yerləşdirmək olar? İlk abzasda Nərgizin xarakterindən, Yusifə göstərdiyi qayğıdan söhbət açılır.

**Tapşırıq B (dərslik).** Bəzən mətndəki kiçik nüanslar mətnin sonluğunun təxmin olunması üçün əhəmiyyət kəsb edir. Məsələn, mətndə göstərilir ki, Yusif planşetinə gələn məktubu oxuyanda Nərgiz ona gözaltı baxırdı. Şagirddə belə bir təxmini fikir yarana bilər ki, Nərgizin həmin məktubdan xəbəri var. Belə təxminlər oxucunu mətni oxuyarkən sona qədər hadisələri diqqət mərkəzində saxlamağa vadar edir.

**Tapşırıq C (dərslik). Cütlərlə iş.** Mətnin ilk hissəsinə aid nümunə kollektiv şəkildə nəzərdən keçirilir. Cütlər görəcəkləri işi aydınlaşdırandan sonra növbəti iki hissəni eyni qaydada birlikdə müzakirə edərək yazırlar.

Təxminən belə yaza bilərlər:

**2-ci hissə – Nərgizin Yusifə qayğı göstərməsi**

1) Xəstəxana
2) Yusif və Nərgiz
3) Nərgiz Yusifi gələcəyə ümidləndirmək üçün çalışır. Yusif tanımadığı bir idmançı ilə məktublaşır.

**3-cü hissə – Mehmanla Yusifin görüşü**

1) Stadion
2) Yusif, Mehman və Nərgiz
3) Yusif Nərgizin Mehmanın həyat yoldaşı olduğunu öyrənir.

**Diferensial təlim**

Müəllim işini tez yekunlaşdırmış cütlərə mətndə 3 ulduz ilə ayrılan kiçik parçanın məzmununu da ümumiləşdirməyi tapşıra bilər.

Həkimlərin qərarı.
1) Xəstəxana
2) Yusif, həkimlər
3) Yusif 1 ay yataqda uzanmalıdır.

### Danışma. Söz ehtiyatı

3-1.3.3 **Tapşırıq Ç (dərslik).** Maddi dəstək və mənəvi dəstək. Şagirdlər mətndən və A tapşırığında təqdim edilmiş epizodda Nərgizin davranışlarından çıxış edib “mənəvi dəstək” ifadəsini izah edirlər. Məsələn: *Nərgiz tibb bacısı idi. Yusifin kədərli, bədbin olduğunu görüb etinasız qalmır. Onun kefini açmağa çalışır, onun həkimdən ica-*

*zəsiz hərəkətinə göz yummaqla ona dəstək olduğunu bildirir. Həmçinin Yusiflə Mehmanı tanış edir. Mehmanın uğurlarını ona göstərməklə Yusifdə özünəinam hissi yaradır. Yusifin get-gedə nikbinləşməsinə kömək edir və s. Bütün bunlara "mənəvi dəstək" deyilir.*

**Tapşırıq D (dərslik).** Şagirdlər Mehmanın uğur qazanmasının səbəbini aşağıdakı kimi izah edə bilərlər:

1. O, iradəli, dözümlü və nikbin insan idi.
2. Ona ətrafındakı insanların (valideynlərinin, dostlarının, Nərgizin və s.) mənəvi dəstəyi böyük kömək olmuşdur.

### Danışma

3-2.4.2 **Tapşırıq E (dərslik).** Şagirdlər baş qəhrəmanların sonrakı taleyini təxmin edib danışırlar. Şagirdlərin təxmini versiyalarından biri belə ola bilər:

Yusif təəccüblə Nərgizə dedi:

*– Demək, Mehmanla məni siz tanış etmisiniz. Bunu niyə əvvəlcədən demirdiniz?*

*– Nə bilim, dedim, sürpriz olsun.*

*Yusif gülümsədi. Bu, doğrudan da, Yusif üçün sürpriz olmuşdu. O, Mehmanı səbirsizliklə gözlədi. Mehmanla Nərgizi evlərinə dəvət etdi. Dostlar Yusifgilə getdilər. Yusifin anası Nərgizi tanısa da, Mehmanı ilk dəfə idi, görürdü. Ancaq Yusifdən onun haqqında çox eşitmişdi. Yusifin anası Mehmanı əlil arabasında görüb təəccübləndi:*

*– Oğlum, halal olsun sənə, Yusif mənə sənin uğurlarından çox danışıb. Sən çox güclü insansan.*

### Dinləmə. Yazı

3-3.2.1 **Tapşırıq A (iş dəftəri).** Tapşırığın məqsədi şagirdlərin ifadə yazmaq bacarıqlarının inkişaf etdirilməsidir. Müəllim dərsin mövzusu ilə birbaşa əlaqəsi olan mətn səsləndirir:

**"Dünyanın ən sürətli adamı"**

*Bir gün Amerikada məktəblərin birində partlayış baş verir. Həmin vaxt Qlen adlı 3-cü sinif şagirdi ağır xəsarət alır. Həkimlər deyirlər ki, Qlenin sağ qalması üçün onun ayaqlarını kəsmək lazımdır.*

*Lakin Qlen və valideynləri buna razı olmurlar. Onlar Qlenin sağalacağına ümid edirlər. Onun ayaqları iki ay sarğıda qalır. Sarğı açılandan sonra məlum olur ki, Qlenin ayaqları sağalmağa doğru gedir. Lakin onun bir ayağı digərindən 6 sm qısa idi və sol ayaqda, demək olar ki, barmaqlar qalmamışdı. Amma Qlen inadından dönmürdü. Ağrıları dözülməz olsa da, hər gün yataqda uzandığı halda idman hərəkətləri edirdi.*

*İkiillik əziyyətdən sonra Qlen müstəqil yeriməyə başlayır. Az sonra Qlen hətta başqalarından daha sürətlə qaçmağı bacarır. O, idman yarışlarına qatılır. Sonralar yaşadığı ölkədə qaçış üzrə çempion olur. 23 yaşında olimpiya yarışlarında iştirak edərək 4-cü yeri tutur. Bir neçə ildən sonra isə qaçış üzrə dünya rekorduna imza atır. Onu qazandığı uğurlarına görə dünyanın ən sürətli adamı adlandırırlar.*

Tapşırıqda yarımbaşlıqların verilməsi şagirdlərə kömək məqsədi daşıyır. Onları dinlədikləri mətnin məzmununu yazmaq üçün istiqamətləndirir.

**Diferensial təlim**

Çətinlik çəkən şagirdlər üçün müəllim əvvəlcə suallar verə bilər:

Suallar: *Qlen nə vaxt ağır xəsarət alır? Həkimlər Qlen haqqında hansı qənaətə gəlmişdilər? Qlen ayaqlarının sağalması üçün nə edirdi? O hansı idman növü ilə məşğul olmağa başladı? Onun hansı uğurları oldu?*

3-2.4.4 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər tapşırıq modeli ilə ilk dəfə tanış olduqları üçün çətinlik çəkə bilərlər. Bu zaman müəllimə tapşırığın quruluşunu izah etməsi, birini nümunə kimi göstərməsi tövsiyə olunur.

**Düzgün cavablar:** *1 – A, 2 – A, 3 – C, 4 – B.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Epizodların mətndəki ardıcıllığını müəyyən edir. | Tap. A (dərslik) |
| Obrazın davranışının və keçirdiyi hisslərin səbəbini izah edir. | Tap. B (dərslik) |
| Mətn və onun hissələri üzrə hekayə xəritəsi tərtib edir. | Tap. C (dərslik) |
| Mücərrəd mənalı sözləri izah edərkən həyatdan nümunələr gətirir. | Tap. Ç, D (dərslik) |
| Mətndəki hadisələrin davamı ilə bağlı öz versiyasını təqdim edir. | Tap. E (dərslik) |

| | |
|---|---|
| Plan əsasında dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır. | Tap. A (iş dəftəri) |
| Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir. | Tap. B (iş dəftəri) |

## 3-cü dərs. İki və dörd cür yazılan şəkilçilər

• Dərslik: səh. 30 • İş dəftəri: səh. 18

**Təlim məqsədləri**

• Ahəng qanununu gözləməklə sözə uyğun şəkilçilər artırır (st. 3-4.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Ahəng qanununun xatırlanması |
| 2 | **Dil qaydaları** | Şəkilçilərin ahəng qanununa uyğun yazılışının mənimsədilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Şagirdlərin “ahəng qanunu” mövzusu üzrə bilikləri xatırladılır. Müəllim lövhədə ahəng qanununa tabe olan və olmayan sözlər (*velosiped, maşın, avtobus, Yusif, Nərgiz* və s.) yazır və soruşur:

– *Hansı sözlər ahəng qanununa tabedir?*

3-4.1.3 **Tapşırıq A (dərslik).** Müəllim lövhədə “idmançı” sözünü yazır və tapşırığın şərtini oxuyur. Şagirdlər “çı” şəkilçisini müəyyən etdikdən sonra həmin şəkilçini digər sözlərə əlavə edirlər. Müəllim sözləri lövhədə yazır. Sözlərdəki şəkilçilərin altından xətt çəkir və soruşur:

– *İndi, sizcə, bu sözlərə “-çı” şəkilçisini nə üçün olduğu kimi əlavə edə bilmirik?*

Şagirdlərə bunun səbəbini müəyyənləşdirmək üçün vaxt verilir. Əgər şagirdlər şəkilçi dəyişməsinin səbəbini müəyyən etməkdə çətinlik çəkərlərsə, müəllim söyləyir:

– *Bəs nə üçün dərsin əvvəlində ahəng qanununu sizə xatırlatdım?*

Şagirdlərin cavabı dinlənildikdən sonra müəllim onların fikirlərini ümumiləşdirir:

*Deməli, ahəng qanunundan asılı olaraq “-çı” şəkilçisinin 4 cür yazılmasını gördük. Bu gün dərsimiz bu haqdadır.*

**Müəllimin nəzərinə!** Şəkilçilər sözlərin son saitindən asılı olaraq dəyişir. Əgər sözün son saiti incədirsə, incə saitli şəkilçi, qalındırsa, qalın saitli şəkilçi əlavə olunur. Həmçinin sözün son saitinin dodaqlanan və ya dodaqlanmayan olması da artırılan şəkilçi üçün əhəmiyyət daşıyır. Məsələn, “qapı” sözünün son saiti qalın və dodaqlanmayan olduğu üçün şəkilçi də buna uyğun (-çı) artırılmalıdır.

**“Bunları bilməliyik” rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları şagirdlərə izah edir. Sonra onlara tapşırır ki, rubrikadakı məlumatları səssiz formada oxusunlar.

**Tapşırıq B (dərslik).** Möhkəmləndirmə xarakterli bu tapşırıq şagirdlərə “Bunları bilməliyik” rubrikasından aldıqları bilikləri tətbiq etmək imkanı yaradır. Şagirdlər müvafiq şəkilçilər artırmaqla cümlələri tamamladıqca müəllim soruşur:

– *Niyə sözün qəbul etdiyi şəkilçi qalın (və ya incə) saitlidir?*

Beləliklə, şagirdlər indiyədək empirik yolla işlətdikləri şəkilçilərin mahiyyətini anlayır, ahəng qanunu üzrə biliklərinin tətbiqi məqamlarını öyrənirlər.

**Müəllimin nəzərinə!** Sözlərə şəkilçilərin artırılması zamanı ahəngin gözlənilməsi Azərbaycan dilinin özünəməxsus xüsusiyyətlərindən biridir. Müəllim bu məlumatı çatdıraraq “ahəng qanunu” ifadəsinin mahiyyətini də izah edə bilər.

3-4.1.3 **Tapşırıq C (dərslik). Qruplarla iş.** Müəllim qrupların görəcəyi işi izah edir və nümunə göstərir:

– *Məsələn, “göldə”. Bu sözdəki şəkilçinin tərkibində “ə” saiti var. Deməli, -də şəkilçisi iki cür yazılır. İki cür yazılan -da, -də şəkilçisinin işləndiyi sözlər yazın.*

Sözlər: *bağ**da**, məktəb**də***.

Cümlələr: *Uşaq **bağda** tək qalmışdı.*

***Məktəbdə** yarış keçiriləcək.*

Müəllim tapşırığı yerinə yetirmək üçün qruplara vaxt verir və tapşırır ki, əlavə sözlər yazarkən şəkilçinin neçə cür yazılmasına diqqət edib tam əhatə etsinlər.

Qrupların təqdimatı zamanı bu məqam qiymətləndirilib qalib qrup elan edilməlidir.

**Müəllimin nəzərinə!** Sinfin səviyyəsindən asılı olaraq tapşırıqda verilmiş sözlərin sayını artırıb qrupların fəaliyyətini genişləndirmək olar.

**"Diqqət et" rubrikası.** Rubrikada məlumat şagirdlərə izah olunur.

3-4.1.3 **Tapşırıq Ç (dərslik).** Şagirdlər "Diqqət et" rubrikası üzrə biliklərini bu tapşırıq vasitəsilə tətbiq edirlər.

**Doğru cavab:**

*1) bildi, toxudu;*

*2) çiyələkli, südlü;*

*3) kitabın, quşun.*

3-4.1.3 **Tapşırıq A (iş dəftəri).** Tapşırıqda birinci sütunda leksik, ikinci sütunda qrammatik şəkilçilər verilmişdir. Şagirdlər tapşırığı yerinə yetirən zaman sözə həm mənaca, həm də formaca uyğun gələn şəkilçiləri seçməlidirlər.

**Uyğunluq: 1-ci sütun** – *gücsüz, söhbətcil, sınıq, nikbinlik, telefonçu.*

**2-ci sütun** – *bülbülün, raketin, tülkünün, fincandan, qorudu.*

**Tapşırıq B, C (iş dəftəri).** Tapşırığı yerinə yetirməklə şagirdlər "Bunları bilməliyik" və "Diqqət et" rubrikalarından aldıqları bilikləri tətbiq edir, şəkilçinin xüsusi yazılış formasını mənimsədiklərini, sözün tələb etdiyi şəkilçini müəyyənləşdirə bildiklərini nümayiş etdirirlər.

**Tapşırıq C. Doğru cavab:** *1 – c, 2 – a, 3 – b, 4 – c, 5 – b, 6 – a.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Ahəng qanununu gözləməklə sözə uyğun şəkilçilər artırır. | Tap. A, B, C, Ç, E (dərslik), A (iş dəftəri) |

## Ümumiləşdirici təkrar

• Dərslik: səh. 31 • İş dəftəri: səh. 19

**Təlim məqsədləri**

• B, c, d, g samitləri ilə bitən sözlərin düzgün yazılışını müəyyən edir (st. 3-4.1.1).
• Ahəng qanununu gözləməklə sözə uyğun şəkilçilər artırır (st. 3-4.1.3).
• Sözü kök və şəkilçiyə ayırır (st. 3-4.2.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bölmə üzrə keçirilmiş mövzuların xatırlanması |
| 2 | **Dil qaydaları** | Bölmə üzrə keçirilmiş dil qaydalarının təkrarı |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

"Fərd və toplum" bölməsi üzrə sonuncu dərs olduğu üçün müəllim bu bölmədə keçirilən mövzuları, mətnləri sual-cavab üsulu ilə xatırladır. Şagirdlərin bölmə haqqında ümumi fikirləri, təəssüratları dinlənilir. Bölmənin tədrisində şagirdlərə bəzi orfoqrafik qaydalar və sözün tərkibi ilə bağlı biliklər mənimsədilmişdir. Bu dərsdə həmin biliklər üzrə ümumiləşdirmə aparılır.

3-4.1.1 **Tapşırıq A (dərslik), tapşırıq A (iş dəftəri).** Hər iki tapşırıqda məqsəd şagirdlərin b, c, d, g samitləri ilə bitən sözləri düzgün yazmaq bacarığının yoxlanılmasıdır. Şagirdlərə b, c, d, g samitləri ilə bitən sözlərin düzgün yazılışını müəyyənləşdirmək qaydası (sait əlavə etməklə düzgün yazılışı dəqiqləşdirmək) öyrədilib. Tapşırıqlar da məhz bu qaydanın tətbiqinə yönəlmişdir. Dərslikdəki A tapşırığı kollektiv şəkildə, iş dəftərindəki A tapşırığı isə müstəqil yerinə yetirilir.

**Tapşırıq B (dərslik).** Şagirdlər tapşırıqdakı şeir parçasını səssiz şəkildə oxuyurlar. Sonra kollektiv şəkildə tapşırıqdakı suallar cavablandırılır. Sözün tərkibi ilə bağlı bölmə boyu mənimsədilən biliklər xatırladılır.

3-4.2.1 **Tapşırıq C (dərslik).** Şagirdlər izahlara uyğun gələn sözləri müəyyənləşdirirlər: 1. qorxaq; 2. sulu; 3. bağban; 4. tamaşaçı; 5. otluq; 6. süpürgə.

Tapdıqları sözləri kök və şəkilçiyə ayıran şagirdlər şəkilçilərin yeni söz yaratdığını söyləyirlər.

3-4.1.3 **Tapşırıq Ç (dərslik).** Bu tapşırıq vasitəsilə şagirdlər cümlədə sözlər arasında əlaqə yaradan (qrammatik) şəkilçiləri xatırlayırlar.

3-4.2.1 **Tapşırıq D (dərslik). Cütlərlə iş.** Bu tapşırıq mürəkkəb quruluşlu olduğu üçün bəzi şagirdlər onu yerinə yetirməkdə çətinlik çəkə bilərlər. Odur ki müəllim tapşırıqda verilmiş nümunəni lövhədə yazaraq izah edir. Lazım gələrsə, bir neçə sözün təhlili kollektiv şəkildə yerinə yetirilə bilər. Tapşırıqda şagirdlərdən bir neçə bacarıq tələb olunur.

1. Sözü kök və şəkilçiyə ayırmaq;
2. Sözün başlanğıc formasının və kökünün sualını müəyyənləşdirmək;
3. Sözdəki şəkilçinin neçə cür yazılmasını müəyyən etmək.

Tapşırıq müəllimin izahatından sonra cütlərlə iş formasında yerinə yetirilir.

**Doğru cavablar:**

satıcı (kim?) = sat (nə et?) + -ıcı$^4$
meydança (hara?) = meydan (hara?) + -ça$^2$
yaxşılıq (nə?) = yaxşı (necə?) + -lıq$^4$
döyüş (nə?) = döy (nə et?) + -üş$^4$
səhvsiz (necə?) = səhv (nə?) + -siz$^4$
başla (nə et?) = baş (nə?) + -la$^2$
naxışlı (necə?) = naxış (nə?) + -lı$^4$

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər rəng bildirən sözləri kök və şəkilçiyə ayırmaqla bu sözlərin *(zoğalı, qızılı, bənövşəyi, qəhvəyi, şabalıdı, gümüşü)* yaranmasında şəkilçinin rolunu aydınlaşdırırlar.

**Tapşırıq C, Ç (iş dəftəri).** Hər iki tapşırıq şəkilçilərin iki və dörd cür yazılması ilə bağlı öyrədilən bilikləri ümumiləşdirir. C tapşırığında şagirdlərdən şəkilçiləri iki və dörd cür yazılmasına görə qruplaşdırmaq tələb olunur. Ç tapşırığında isə şagirdlər şəkilçilərin ayrılıqda yazılış qaydasına əməl etməlidirlər.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| B, c, d, g samitləri ilə bitən sözlərin düzgün yazılışını müəyyən edir. | Tap. A (dərslik), tap. A (iş dəftəri) |
| Sözə şəkilçi artırmaqla yeni sözlər düzəldir. | Tap. B, C (dərslik), tap. B (iş dəftəri) |
| Ahəng qanununu gözləməklə sözə uyğun şəkilçilər artırır. | Tap. Ç (dərslik) |
| Sözü kök və şəkilçiyə ayırır. | Tap. C, D (dərslik), tap. C, Ç (iş dəftəri) |

# bölmə 2 DÜNYAMIZI TANIYAQ

<table>
<tr><th colspan="2">Mövzu</th><th>Dünyamızı tanıyaq</th></tr>
<tr><td rowspan="4">Nitq bacarıqları</td><td>Şifahi nitq</td><td>Mövzu ilə bağlı əlavə məlumatlar almaq üçün sualların tərtibi, tərtib edilən suallar əsasında müsahibi ilə dialoq qurma, qrafik informasiya şəklində verilmiş məlumatların rabitəli mətn şəklində təqdim edilməsi, hər hansı bir mövzu ilə bağlı araşdırmanın təqdimatı</td></tr>
<tr><td>Söz ehtiyatı</td><td>Yeni sözlərin mənası haqqında təxminin izahlı lüğət vasitəsilə dəqiqləşdirilməsi: həmrəylik, bölgə, bürünc, var-gəl etmək, azarkeş, inşa etmək, mənbə, memar, bünövrə, mütəxəssis, bərpa etmək, centlmen, soyuqqanlı, klub, mister, paqoda, müqəddəs, ziyarətçi, məmnun, məbəd, ibadət, bir sıra xalq və ölkə adları</td></tr>
<tr><td>Oxu</td><td>Bədii və informativ mətnlərin oxunması zamanı müvafiq səs tonunun seçilməsi</td></tr>
<tr><td>Yazı</td><td>Məlumat vərəqinin tərtibi</td></tr>
<tr><td rowspan="2">Akademik biliklər</td><td>Dil qaydaları</td><td>İsim, ümumi və xüsusi isimlər, konkret və mücərrəd isimlər, söz və söz birləşməsi, ölkə və xalq adları yaradan leksik şəkilçilər</td></tr>
<tr><td>Filoloji anlayışlar</td><td>Söz, anlayış, informativ mətn, məlumat vərəqi, müsahibə</td></tr>
<tr><td colspan="2">Kompetensiyalar</td><td>Müxtəlif xalqların mədəniyyəti ilə tanışlıq, multikulturalizm, tolerantlıq və həmrəyliyin müasir cəmiyyətin inkişafında əhəmiyyətinin dərk edilməsi</td></tr>
</table>

Bu bölmədə şagirdlərə müxtəlif xalqların mədəniyyətindən bəhs edən bədii və informativ mətnlər təqdim olunur. Mətnlərdə müxtəlif xalqların adət-ənənələri, məşhur tarixi abidələr, maraqlı şəhərlər haqqında məlumatlar verilir. Əsas məqsəd şagirdlərin dünyagörüşünü artırmaq, bu mövzulardan istifadə etməklə dinləmə, danışma, yazı bacarıqlarını inkişaf etdirmək və söz ehtiyatlarını zənginləşdirməkdir.

**Öncədən vacib olan bilik və bacarıqlar:**

- Verilmiş mövzu ətrafında danışır və münasibət bildirir;
- Təqdimat zamanı vizual materialları şifahi şərhləri ilə müşayiət edir;
- Bədii və informativ mətnləri məzmun xüsusiyyətlərinə görə fərqləndirir;
- Təlimata əsasən yazılı təqdimat hazırlayır.

**Mənimsəmədə çətinlik doğuran məsələlər:**

- Məlumat vərəqində verilmiş məlumatların rabitəli mətn şəklində təqdim edilməsi;
- Araşdırmaların aparılması.

## Bölməyə giriş dərsi

• Dərslik: səh. 32–33 • İş dəftəri: səh. 20

**Təlim məqsədləri**

- Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir (st. 3-1.1.2).
- Şəkil, sxem, söz və söz birləşməsi ilə ifadə olunan məlumatları mənimsəyir.(st. 3-2.2.2).
- Əlavə biliklərindən istifadə etməklə mövzu üzrə təqdimat edir. (st. 3-1.3.3).
- Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir (st. 3-3.2.3).

• **Köməkçi vasitələr (təchizat):** qlobus, dünya xəritəsi, üzərində ölkə adları yazılmış kartlar.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin sualı üzrə müzakirə |
| 2 | **Dinləmə** | “Yer kürəsi bizim evimizdir” dinləmə mətni üzrə iş |
| 3 | **Söz ehtiyatı** | Xalq və ölkə adlarının uyğunlaşdırılması |
| 4 | **Danışma** | Səyahət etmək istədiyi ölkə haqqında müzakirə |
| 5 | **Yazı** | “Ölkəm və xalqım” adlı mətnin yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə qlobus və ya dünya xəritəsini nümayiş etdirir. Aşağıdakı suallarla şagirdləri müzakirəyə cəlb edir:

*– Yer planeti haqqında nə bilirsiniz? Sizcə, nə üçün “Yer kürəsi bizim evimizdir” deyirlər?*

### Dinləmə

3-1.1.2 Müəllim Yer planeti haqqında dinləmə mətni səsləndirir.

**Yer kürəsi bizim evimizdir**

*Yer planeti Günəş sistemində canlı orqanizmlərin yaşadığı yeganə planetdir. Diqqət etsəniz, xəritə və qlobusun çox hissəsi mavi rəngdədir. Mavi rəng suları göstərir. "Mavi planet" adı məhz buradan yaranıb. Yerin dörddəüç hissəsi su ilə örtülüb.*

*Yer kürəsinin quru sahəsi isə hissələrə, yəni materiklərə bölünür: Avrasiya, Afrika, Şimali Amerika, Cənubi Amerika, Avstraliya və Antarktida. Antarktidadan başqa, bütün digər yerlərdə insanlar məskunlaşıb.*

*Yer kürəsində türk, özbək, qazax, yunan, ispan, rus və müxtəlif başqa xalqlar yaşayır. Bu xalqlar özünəməxsus mədəniyyəti, dili, dini, adət-ənənəsi, yaşayış tərzi, milli paltarları, mətbəxi ilə bir-birindən fərqlənir. Hətta bu xalqların nümayəndələri saçlarının və dərilərinin rəngi, sifət quruluşları ilə də seçilirlər.*

*Bu müxtəlifliyə baxmayaraq Yer kürəsi bizim hamımızın evidir. Onun qayğısını çəkmək və qorumaq üçün həmrəy olmalıyıq. Bunun üçün isə bir-birimizin adət-ənənələrini tanımalı, hörmət etməliyik.*

Müəllim şagirdlərin dinləmə mətnini anladıqlarını yoxlamaq məqsədilə onlara faktoloji suallar verir:

*1. Biz hansı planetdə yaşayırıq?*
*2. Nə üçün Yer “Mavi planet” adlanır?*
*3. Yer kürəsində hansı materiklər var?*
*4. Hansı xalq adlarını bilirsiniz?*
*5. Xalqlar bir-birindən nə ilə fərqlənir?*

Müəllim yönəldici suallar vasitəsilə şagirdləri növbəti fəaliyyətə cəlb edir:

1. Dinləmə mətnindəki hansı məqamlar sizə aydın olmadı?
2. Bu haqda daha nələri öyrənmək istərdiniz?

Şagirdlər dinləmə mətnindəki məlumatlara aydınlıq gətirmək məqsədilə suallar tərtib edirlər. Daha sonra sualları səsləndirirlər və həmin suallar ətrafında müzakirələr aparılır. Bu tapşırıq mövzu ilə bağlı informasiyanı daha dərindən qavramağa imkan verir.

### Söz ehtiyatı

3-2.2.2 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini dərsliyin 32–33-cü səhifələrindəki dünya xəritəsinə yönəldir. Burada müxtəlif xalqların nümayəndələri milli geyimlərdə təsvir edilib. Şəkillərin altında onların mənsub olduqları xalqın adı yazılıb. Şagirdlər bu şəkillərə diqqət edir, xalqların adını oxuyur, daha sonra onların hansı ölkədə yaşadıqlarını təxmin edirlər. İstifadə üçün verilmiş ölkə adları tapşırığın asanlıqla yerinə yetirilməsinə kömək edəcək.

**Müəllimin nəzərinə!** Tapşırığın kollektiv şəkildə yerinə yetirilməsi daha məqsədəuyğundur. Bu məqsədlə üzərində ölkə ad-

ları yazılmış kartlardan istifadə etmək olar. Tapşırıqda verilmiş ölkə adları kartların üzərinə yazılaraq lövhədən asılır. Şagirdlər dərslikdəki xəritədə təsvir edilmiş hər hansı bir xalqın nümayəndəsinin şəklini seçir, mənsub olduğu xalqın adını oxuyur. Məsələn: *yunan.* Daha sonra lövhədə asılmış ölkə adlarına diqqət edir. "Yunan" sözü ilə başlayan ölkə adını, yəni "Yunanıstan" sözünü seçir.

**Düzgün cavablar:** yunan – Yunanıstan, türk – Türkiyə, ispan – İspaniya, qazax – Qazaxıstan, azərbaycanlı – Azərbaycan, həbəş – Həbəşistan, alman – Almaniya, rus – Rusiya, çinli – Çin, yapon – Yaponiya, hindli – Hindistan, meksikalı – Meksika, amerikalı – Amerika.

***Qeyd:*** *"Ərəb" sözünə uyğun gələn "Ərəbistan" sözü, əslində, coğrafi ərazidir, ölkənin adı Səudiyyə Ərəbistanıdır. Lakin bu mürəkkəb ad müvafiq yaş qrupu üçün çətinlik yarada bilər.*

Tapşırığın məqsədi şagirdlərin diqqətini ölkə və xalq adlarına cəlb etmək, bu sözlərin arasında məna əlaqəsini hiss etdirməkdir. Bu mövzu haqqında növbəti dərslərdə ətraflı məlumat veriləcək.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıqda milli geyimli uşaqların şəkilləri təqdim edilmişdir. Şagirdlər milli geyimlərə əsasən uşaqların hansı xalqa mənsub olduqlarını müəyyənləşdirəcək, həmin xalqların yaşadıqları ölkələrin adlarını krossvordun uyğun xanalarına yazacaqlar. İstifadə üçün verilmiş sözlər tapşırığın asanlıqla yerinə yetirilməsinə kömək edəcək.

**Düzgün cavablar:** 1. Türkiyə, 2. Yaponiya, 3. Yunanıstan, 4. Ərəbistan, 5. Azərbaycan, 6. Rusiya, 7. Çin, 8. Hindistan.

**Diferensial təlim**

Tapşırığın yerinə yetirilməsində çətinlik çəkən şagirdlər bölmənin titul səhifəsində verilmiş şəkildən və A tapşırığından istifadə edə bilərlər.

## Danışma

3-1.3.3 **Tapşırıq B (dərslik).** Şagirdlər tapşırıqda verilmiş sualı cavablandırırlar. Seçimlərinin səbəbini arqumentlər gətirməklə izah edirlər.

## Yazı

3-3.2.3 **Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin informativ mətnlər yazarkən daha vacib məlumatı seçmək və ardıcıllıqla təqdim etmək bacarığının inkişafına yönəlib. Tapşırığın icrasından əvvəl müəllim şagirdləri aşağıdakı suallar vasitəsilə müzakirəyə cəlb edir:

*– Yaşadığımız ölkəni və mənsub olduğumuz xalqı təqdim etmək üçün hansı məlumatları qeyd etmək daha vacibdir?*

Şagirdlər fikirlərini söyləyirlər, müəllim səslənən fikirləri lövhədə qeyd edir. Lövhədəki cümlələr oxunur, müqayisə edilir. Mətni yazarkən diqqət ediləcək əsas məqamlar müəyyənləşdirilir. Təxminən aşağıdakı məqamlar qeyd oluna bilər:

- Yaşadığınız ölkənin adı, paytaxtı;
- Ölkənizin təbiəti və maddi sərvətləri;
- Mənsub olduğunuz xalqın adı;
- Xalqınızın adət-ənənələri.

Hər bir şagird yazdığı mətni oxuyur. Məlumatların nə qədər lakonik və ardıcıl şəkildə yazılması müzakirə edilir.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətnin məzmununa uyğun olan fikir və faktları müəyyənləşdirir. | Dinləmə mətni əsasında |
| Kontekstdən çıxış edərək tanış olmayan sözün mənasını müəyyən edir. | Tap. A (dərslik), tap. A (iş dəftəri) |
| Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. B (dərslik) |
| Mövzu ilə bağlı fikirlərini məntiqi ardıcıllıqla yazıda ifadə edir. | Tap. C (dərslik) |

**Növbəti dərsə hazırlıq.** Müəllimə növbəti dərsdə nümayiş etdirmək üçün həmrəylik təcəssüm etdirən şəkillər hazırlamaq tövsiyə edilir.

fəsil 1 **BİZ AZƏRBAYCANLIYIQ**

## 1-ci dərs. Həmrəylik

Dərslik: səh. 34–36 • İş dəftəri: səh. 21

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Obrazların nitqini onların xarakterinə uyğun səsləndirir (st. 3-2.1.2).
• Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Müəyyən məqsədlə şüar yazır (st. 3-3.2.5).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Həmrəylik anlayışının izahı |
| 2 | **Danışma** | Atalar sözlərindəki əsas fikrin izahı |
| 3 | **Oxu** | "Həmrəylik" mətninin oxusu |
| 4 | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi |
| 5 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş |
| 6 | **Yazı** | Şüarın yazılması |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhədə həmrəylik təcəssüm etdirən şəkil nümayiş etdirir.



Şagirdlər şəkillə bağlı fikirlər səsləndirirlər, müəllim şəklin kənarında şaxələr çəkməklə həmin fikirləri qeyd edir. Şagirdlər təxminən aşağıdakı fikirləri söyləyə bilərlər: dostluq, yoldaşlıq, birlik, kömək, bir-birinə dəstək olmaq və sairə.

### Danışma

3-1.3.3 **Tapşırıq A (dərslik).** Şagirdlər atalar sözlərini oxuyur və mənalarını izah edirlər.

**Müəllimin nəzərinə!** Şagirdlərə aşağı siniflərdə oxuduqları mətnləri xatırlatmaq tövsiyə olunur. Şagirdlər həmin mətnlərdən tanış situasiyaları misal çəkməklə fikirlərini əsaslandıra bilərlər.

### Oxu

3-2.1.2 **"Həmrəylik" mətni üzrə iş. Rollu oxu.** Əvvəlcə şagirdlər onlara verilmiş vaxt ərzində "Həmrəylik" mətnini səssiz oxuyurlar. Bu zaman obrazların nitqinə diqqət edir, onların keçirdiyi hissləri təsəvvür etməyə çalışırlar. Müəllim obrazların nitqini şagirdlər arasında bölüşdürür. Bu dəfə şagirdlər mətni səsli oxuyurlar. Müəllim oxu zamanı şagirdlərin jest və mimikalardan düzgün istifadə etməsinə, obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə səsləndirməsinə diqqət edir.

### Söz ehtiyatı

**"Söz boğçası" rubrikası.** Müəllim şagirdlərdən tanış olmayan sözlərin (həmrəylik, bölgə, medal, bürünc, var-gəl etmək, azarkeş) təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını açıqlayır: *həmrəylik* – fikir birliyi; *bölgə* – ərazinin müəyyən bir hissəsi; *bürünc* – metal növü; *var-gəl etmək* – o başa-bu başa getmək; *azarkeş* – hər hansı idman növünün və ya idmançının qızğın həvəskarı. Şagirdlər sözləri müxtəlif cümlələrdə işlədirlər.

3-2.2.3 **Tapşırıq B (dərslik).** Şagirdlər mətndən "tatami" və "raund" sözlərinin iştirak etdiyi cümlələri bir daha oxuyur, kontekstə görə mənalarını təxmin edirlər. Daha sonra lüğət vasitəsilə həmin sözlərin mənasını dəqiqləşdirirlər.

**Düzgün cavablar:** *tatami* – cüdo xalçası, *raund* – döyüşün bir hissəsinin davam etdiyi müddət deməkdir.

**Tapşırıq C (dərslik).** Şagirdlər mətnin məzmununa əsasən "maita" sözünün mənasını təxmin edirlər.

**Düzgün cavab:** Cüdo yarışlarında idmançı əlini tatamiyə vurub "maita" deyə qışqırırsa, deməli, "Mən təslim oluram" demək istəyir. Bu zaman hakim rəqib idmançıya ippon balı, yəni yüksək bal verir.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər verilmiş izah-

lara uyğun sözləri söz boğçasından seçib qarşısında yazırlar.

**Oxuyub-qavrama**

3-2.2.1 **Tapşırıq Ç (dərslik).** Şagirdlər tapşırıqdakı faktoloji suallara cavab verməklə mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Tapşırıq D (dərslik).** Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyur, mətnin məzmununu əks etdirən fikirləri seçirlər. **Düzgün cavablar:** 2, 4.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş cümlələrin hissələrini uyğunlaşdırmaqla mətnin məzmununu qavradıqlarını nümayiş etdirirlər. **Düzgün cavablar:** 1 – ç, 2 – d, 3 – b, 4 – c, 5 – a.

**Yazı**

3-3.2.5 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər Rəşidi qələbəyə həvəsləndirən şüarlar düşünüb yazırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. A (dərslik) |
| Obrazların nitqini onların emosional vəziyyətinə uyğun səsləndirir. | “Həmrəylik” mətni |
| Kontekstdən çıxış edərək sözün mənasını təxmin edir və lüğət vasitəsilə dəqiqləşdirir. | Tap. B, C (dərslik), tap. A (iş dəftəri) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. Ç, D (dərslik), B (iş dəftəri) |

## 2-ci dərs. “Həmrəy olsun xalqımız”

Dərslik: səh. 36 • İş dəftəri: səh. 22

**Təlim məqsədləri**

- Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
- Dinlədiyi mətnin qısa məzmununu danışır (st. 3-1.3.1).
- Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (plakat) hazırlayır (st. 3-3.2.5).
- Məqsədə uyğun olaraq açıqça yazır (st. 3-3.2.3).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Suallar üzrə müzakirə |
| 2 | **Danışma** | Şüarın müzakirəsi |
| 3 | **Dinləmə** | “Həmrəy olsun xalqımız” dinləmə mətni üzrə iş |
| 4 | **Yazı** | 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr edilmiş plakatın hazırlanması; açıqça yazılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərə sual verir:

*– Ölkəmizdə hansı bayramlar qeyd olunur? Siz hansı bayramları daha çox sevirsiniz? Niyə? Fikrinizi əsaslandırın.*

**Danışma**

3-1.3.3 **Tapşırıq A (dərslik).** Şagirdlərin diqqəti tapşırıqda verilmiş şüara yönəldilir. *“Hamı bir nəfər üçün, bir nəfər hamı üçün”* şüarının mahiyyəti haqqında müzakirə aparılır. Müəllim şagirdlərə A.Dümanın “Üç muşketyor” əsərini (filmini) xatırlada bilər. Bu şüar əsərdə muşketyorların dilindən dəfələrlə səslənir. Sonda müəllim bu şüarı belə açıqlaya bilər: İstənilən kollektivdə hər bir şəxs kollektivin ümumi məqsədləri uğrunda əlindən gələni etməlidir. Həmin şəxs (fərd) çətinliyə düşdükdə isə kollektivin bütün üzvləri ona yardım əlini uzatmalıdırlar.

**Dinləmə**

3-1.3.1 **Tapşırıq B (dərslik).** Müəllim “Həmrəy

olsun xalqımız" adlı dinləmə mətnini səsləndirir.

**Müəllimin nəzərinə!** Müəllim əvvəlcədən şagirdlərin nəzərinə çatdırır ki, mətni dinlədikdən sonra onun məzmununu nəql etməlidirlər. Bu məqsədlə mətni diqqətlə dinləməyi, bəzi məlumatları: tarixləri, adları qeyd etməlidirlər.

**Həmrəy olsun xalqımız**

*Azərbaycan Respublikasının əhalisi 10 milyon nəfəri ötüb. Lakin bu yalnız Azərbaycan Respublikasında yaşayan azərbaycanlılardır. Dünya ölkələrində də çoxlu azərbaycanlı yaşayır. Azərbaycanlıların ən çox yaşadığı ölkə isə İran İslam Respublikasıdır. Çünki Azərbaycanın tarixi torpaqlarının və əhalisinin çox hissəsi (təqribən 35 milyon nəfərə yaxın) bugünkü İran dövlətinin ərazisindədir. Bundan əlavə, Rusiya Federasiyasında, Gürcüstan, Ukrayna, Belarus, Orta Asiya respublikalarında və digər ölkələrdə də xeyli soydaşımız yaşayır.*

*Respublikamız müstəqillik qazandıqdan sonra ölkəmizin qapıları dünyaya açıldı. İndi gənclərimiz dünyanın ən məşhur universitetlərində təhsil alırlar. Amma hər bir azərbaycanlının harada yaşamasından, işləməsindən və təhsil almasından asılı olmayaraq onlar həmişə Vətəni barədə düşünür, onun inkişafına kömək üçün əllərindən gələni etməyə çalışırlar.*

*1991-ci ildə ümummilli liderimiz Heydər Əliyev dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Bu gün dünyanın 70-dən çox ölkəsində yaşayan azərbaycanlılar tərəfindən bayram edilir. 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır.*

Şagirdlər mətni dinlədikdən sonra tapşırıqda verilmiş sualları cavablandırmaqla mətnin qısa məzmununu nəql edirlər.

**Tapşırıq C (dərslik), tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırıqlarda verilmiş cümlələri oxuyurlar. Dinləmə mətninin məzmununa uyğun olub-olmadığını müəyyənləşdirirlər. Bununla da mətni nə qədər diqqətlə dinlədiklərini nümayiş etdirirlər.

### Yazı

3-3.2.5 **Tapşırıq Ç (dərslik). Fənlərarası inteqrasiya (Təsviri incəsənət)**.

Şagirdlər qruplara bölünürlər. Hər qrupa vatman kağızı və ya A3 vərəqi təqdim olunur və mövzuya uyğun plakat hazırlamaq tapşırılır.

**Müəllimin nəzərinə!** Şagirdləri qruplara bölərkən hər bir qrupda rəsm çəkməyi bacaran bir şagirdin olmasına diqqət etmək lazımdır.

Tapşırıq təxminən aşağıdakı mərhələlərlə yerinə yetirilir:

1. Qrup üzvləri əvvəlcə mövzu ətrafında şüarlar düşünür, onları qeyd vərəqlərində yazırlar. Sonra qrup üzvləri ilə birlikdə həmin şüarları müzakirə edərək plakat üçün daha uğurlusunu müəyyən edirlər.

2. Plakatda çəkəcəkləri şəkli müzakirə edib uyğun şəkli müəyyənləşdirirlər. Şəkli və mətni plakatda necə yerləşdirəcəklərini qərarlaşdırırlar.

Şüarın plakat üzərində diqqəti cəlb etməsi üçün tünd rəngli markerlər seçilir. Şüar iri ölçüdə yazılır. Daha sonra qruplar hazırladıqları plakatı təqdim edirlər.

Sonda şagirdlər hər bir təqdimata aşağıdakı meyarlar üzrə münasibət bildirirlər:

1. Şüar maraqlı və təsirlidir.
2. Şəkil mövzuya uyğundur.
3. Plakat gözəl və cəlbedicidir.

Şagirdlər təqdimata hər bir meyar üzrə ulduz verməklə münasibətlərini bildirirlər: 3 ulduz – ən yüksək bal, 1 ulduz – ən aşağı bal.

3-3.2.3 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər aşağı siniflərdə açıqça tərtib etmək bacarığına yiyələniblər. Bu tapşırıq həmin bacarığın möhkəmləndirilməsi məqsədi daşıyır.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərə aşağı siniflərdə öyrəndikləri nitq etiketlərini və alqışları xatırladır. Nitq etiketlərinin və alqışların situasiyaya uyğun seçilməsinin vacibliyini vurğulayır.

**Diferensial təlim**

Bəzi şagirdlər sərbəst şəkildə açıqça yazmaqda çətinlik çəkə bilərlər. Bu zaman tapşırığı cütlərlə yerinə yetirmək olar. Müəllim sərbəst tapşırıq yerinə yetirmə bacarığı yüksək şagirdləri əməkdaşlığa cəlb edə bilər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. A (dərslik) |
| Məqsədə uyğun olaraq açıqça yazılır. | Tap. B (iş dəftəri) |
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır. | Tap. Ç (dərslik) |

## 3-cü dərs. Söz, anlayış

Dərslik: səh. 37 • İş dəftəri: səh. 23

**Təlim məqsədləri**
• Sözlərin ifadə etdiyi ümumi anlayışı (varlıq, əlamət, say, hərəkət) müəyyən edir (st. 3-4.2.1).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sözlə anlayışın uyğunlaşdırılması |
| 2 | **Dil qaydaları** | Anlayışların sözlə ifadəsi; verilmiş sözlərin ad, əlamət, say, varlıq anlayışı altında qruplaşdırılması; eyni anlayışların müxtəlif sözlərlə ifadə edilməsi; bir şəklə aid müxtəlif anlayışları ifadə edən sözlərin yazılması |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər "Həmrəylik" sözü ilə adlandıra biləcəkləri şəkli müəyyən edirlər. Bununla da şagirdlərin diqqəti anlayış və söz ifadələrinə cəlb edilir.

### Dil qaydaları

3-4.2.1 **"Bunları bilməliyik" rubrikası.** Müəllim söz və anlayış haqqında verilmiş məlumatları şərh edir.

**Müəllimin nəzərinə!** "Anlayış" dedikdə sözlərin ifadə etdiyi ümumi leksik məna (ad, əlamət, say, hərəkət) nəzərdə tutulur. Bu termin əsas nitq hissələrini müəyyənləşdirmək, gələcəkdə onları köməkçi nitq hissələrindən fərqləndirmək üçün vacibdir.

**Tapşırıq B (dərslik).** Şagirdlər şəkillərin altında yazılmış suallara əsasən hər şəkli bir sözlə adlandırırlar.

**Düzgün cavablar:** açar, dörd, yaşıl, üzmək.

Bu tapşırıq hər bir anlayışın söz vasitəsilə izah edildiyini bir daha vurğulayır.

**Tapşırıq C (dərslik).** Şagirdlər tapşırıqda verilmiş sözləri varlıq, əlamət, say, hərəkət adları altında qruplaşdırırlar.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər aşağı siniflərdə yaxınmənalı sözlər haqqında aldıqları biliklərə əsaslanaraq tapşırığı yerinə yetirirlər.

**Müəllimin nəzərinə!** Müəllim bəzən eyni anlayışın müxtəlif sözlərlə ifadə edildiyini şagirdlərin nəzərinə çatdırır. Məsələn: *eynək, gözlük; şir, aslan.*

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər yaxınmənalı sözləri seçib anlayışlar üzrə qruplaşdırmaqla aldıqları bilikləri möhkəmləndirirlər.

**Düzgün cavablar:**
Varlıq: *qüvvə, güc.*
Əlamət: *gənc, cavan.*
Hərəkət: *qaçmaq, yüyürmək.*
Say: *xeyli, çox.*

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər cədvəlin hər sütununda verilmiş sözləri oxuyur, onlara suallar verir, suallara əsasən həmin sözlərin hansı anlayışa aid olduğunu müəyyənləşdirirlər. Həmin anlayışa aid daha iki söz də özləri yazırlar.

**Düzgün cavablar:**
bayraq, xəritə *(nə?)* – varlıq
güclü, üçrəngli *(necə?)* – əlamət
on iki, üçüncü *(neçə?, neçənci?)* – say
qazanmaq, baxmaq *(nə etmək?)* – hərəkət

**Tapşırıq C (iş dəftəri).** Tapşırıq şagirdlərin söz və anlayış haqqında verilmiş məlumatları necə mənimsədiklərini yoxlamağa imkan verir.

**Tapşırıq Ç (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş şəklə diqqət edir, şəklə aid müxtəlif anlayışları ifadə edən sözlər yazırlar. Çətinlik dərəcəsi yüksək olan bu tapşırıq şagirdlərdə assosiativ təfəkkürü dəyərləndirməyə imkan yaradır.

**Cavablar təxminən belə ola bilər:**
Varlıq: *dostluq, uşaqlar.*
Əlamət: *vəfalı, şən, mehriban.*
Say: *çoxlu, yeddi.*
Hərəkət: *birləşmək, sevinmək.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar

və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Suallara əsasən ad, əlamət, say, hərəkət bildirən sözləri müəyyənləşdirir. | Tap. B (dərslik) |
| Mətndən ad, əlamət, say, hərəkət bildirən sözləri qruplaşdırır. | Tap. C (dərslik), A, B, C, Ç (iş dəftəri) |
| Eyni anlayış ifadə edən söz cütlərini müəyyən edir. | Tap. Ç (dərslik) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə nümayiş etdirmək üçün müxtəlif xalqların salamlaşma adətlərini əks etdirən şəkillər əldə etmək tövsiyə olunur.

# fəsil 2 DÜNYA XALQLARI

## 1-ci dərs. "Salamlaşma adətləri"

Dərslik: səh. 38–40 • İş dəftəri: səh. 24

**Təlim məqsədləri**

- Müvafiq mətnləri sürətli, səlis, aydın səslə oxuyur (st. 3-2.1.1).
- Mətnin tərkib hissələrini, struktur elementlərini onun əsas məzmunu ilə əlaqələndirir (st. 3-2.4.3).
- Verilmiş şəkillər əsasında mətn qurur (st. 3-3.2.1).

• **Köməkçi vasitələr:** müxtəlif xalqların salamlaşma adətlərinin təsvirinə aid şəkillər.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müxtəlif xalqların salamlaşma adətlərinə aid şəkillərin nümayişi |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Salamlaşma adətləri" mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətnə aid faktoloji sualların cavablandırılması; mətnin hissələrinin məzmununa görə fərqləndirilməsi; salamlaşmaya aid nitq etiketlərinin seçilməsi |
| 4 | **Yazı** | İnformativ mətndəki məlumatların yazıda əks etdirilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhədə müxtəlif xalqların salamlaşma adətlərini əks etdirən şəkillər nümayiş etdirir. Şagirdlər lövhədəki şəkillərə baxır və dərsin mövzusunu təxmin edirlər.

**Tapşırıq A (dərslik).** Müəllim şagirdlərə həmin sözləri oxumaq üçün vaxt verir. Daha sonra lövhəyə iki şagird dəvət olunur. Onlar nümunəyə uyğun olaraq seçdikləri dildə bir-birini salamlayırlar.

### Oxu. Söz ehtiyatı

3-2.1.1. **"Salamlaşma adətləri" mətni üzrə iş. Növbəli oxu.** Şagirdlər mətni növbə ilə oxuyurlar. Müəllim şagirdlərin oxu zamanı bir-birini izləməsini yoxlamaq məqsədilə hər abzasın məzmununa uyğun suallar verir. Oxu zamanı tanış olmayan sözlərin mənası izah edilir. Bu zaman sözləri əvvəlcə şagirdlər kontekstə əsaslanaraq izah etməyə çalışırlar, daha sonra isə müəllim dəqiq izahını verir.

**"Söz boğçası"ndakı sözlərin izahı:**

*əmin-amanlıq* – sülh, sakitlik;

*cəngavər* – məharətli döyüşçü;

*özünəməxsus* – yalnız özünə aid olan;

*niqab* – keçmişdə döyüşçülərin, cəngavərlərin tanınmamaq və qorunmaq üçün taxdıqları üz zirehi, üz örtüsü;

*gicgah* – kəllənin qulaqdan alın sümüyünə qədər olan hissəsi.

### Oxuyub-qavrama

**Tapşırıq B (dərslik).** Şagirdlər mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

3-2.4.3 **Tapşırıq C (dərslik).** Mətnin hissələri arasındakı fərqin müəyyənləşdirilməsi üçün şagirdlərin diqqəti yarımbaşlıqlara yönəldilir.

**Düzgün cavab:** Mətnin əvvəlki hissələrində müxtəlif xalqların salamlaşma adətləri haqqında məlumat verilir. Mətnin sonuncu hissəsində isə əksər xalqlarda qəbul edilmiş hərbi salamlaşma formasının tarixindən danışılır.

### Yazı

**Tapşırıq Ç (dərslik). Fəndaxili şaquli inteqrasiya. (2-ci sinif. Situasiyadan asılı olaraq nitqində müvafiq nitq etiketlərindən (salamlaşma, sağollaşma, üzrxahlıq) istifadə edir (st. 1.2.3)).**

3-3.2.1 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər şəkillərin hansı xalqın salamlaşma adətini əks etdirdi-

yini müəyyənləşdirirlər. Daha sonra “Salamlaşma adətləri” mətnindən aldıqları məlumatlara əsasən həmin xalqın salamlaşma adətini təsvir edirlər. Bu tapşırıq oxuyub-anlama ilə yanaşı, informativ xarakterli mətn yazmaq bacarığını da inkişaf etdirir.

**Diferensial təlim**
Şəkillərdə gördükləri xalqların salamlaşma adətlərini təsvir etməkdə çətinlik çəkən şagirdlər dərsliyin müvafiq səhifəsində verilmiş mətndən istifadə edə bilərlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. B (dərslik) |
| Mətnə aid məlumatları uyğun hissə və ya yarımbaşlıqlarla əlaqələndirir. | Tap. C (dərslik) |
| Oxuduğu informativ mətndəki əsas faktları yazıda əks etdirir. | Tap. A (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə şagirdlər cütlərlə salamlaşma forması təqdim edəcəklər. Bu məqsədlə müəllim şagirdləri cütlərə ayırır. Cütlər evdə bir-biri ilə əlaqə saxlayaraq salamlaşma forması hazırlayırlar. Tapşırıq eyni zamanda şagirdlərin məktəbdən kənarda da əməkdaşlıq etmək bacarığını formalaşdırır.

## 2-ci dərs. İnformativ mətnin tərkib hissələri

Dərslik: səh. 40 • İş dəftəri: səh. 25

**Təlim məqsədləri**
- Bədii və informativ mətnləri məzmun xüsusiyyətlərinə görə fərqləndirir (st. 3-2.4.4).
- Mətnin tərkib hissələrini, struktur elementlərini onun əsas məzmunu ilə əlaqələndirir (st. 3-2.4.3).

- **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Salamlaşma adətləri” mətninin xatırlanması; şagirdlərin hazırladığı salamlaşma formalarının təqdimatı |
| 2 | **Oxuyub-qavrama** | Elmi mətnlə bədii mətnin fərqləndirilməsi; elmi mətnin tərkib hissələrinin müəyyənləşdirilməsi; mətnin hissələrinə aid məlumatların müəyyən edilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə keçən dərs oxuduqları mətn haqqında suallar verir.

**Tapşırıq A (dərslik).** Keçən dərsdən müəyyənləşdirilmiş salamlaşma formasını sinfə təqdim edirlər. Əyləncəli xarakter daşıyan bu tapşırıq eyni zamanda yaradıcılıq, həmrəylik və əməkdaşlıq etmək bacarığını da formalaşdırır. Şagirdlər yalnız sinifdə deyil, sinifdən kənarda da əməkdaşlıq etməyin vacibliyini anlayırlar.

### Oxuyub-qavrama

3-2.4.4 **Tapşırıq B (dərslik).** Müəllim şagirdlərə aşağı siniflərdə öyrəndikləri bilikləri xatırladır.

**Düzgün cavab:** “Salamlaşma adətləri” mətni informativ mətndir, məlumat vermək məqsədilə yazılmışdır. Mətndə dünya xalqlarının salamlaşma adətləri haqqında məlumatlar verilir.

**“Yadda saxla” rubrikası.** Müəllim informativ mətnin tərkib hissələri haqqında məlumatları şərh edir.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərə aşağı sinifdə bədii mətnin tərkib hissələri haqqında aldıqları məlumatları xatırladır. Bu mətnlər üç hissədən ibarət olur: giriş, əsas və sonluq. Girişdə, əsasən, obrazların adı çəkilir, hadisələrin yeri və zamanı göstərilir. Əsas hissədə qəhrəmanların başına gələn hadisələrdən bəhs olunur. Sonluq hissədə isə nəticə göstərilir.
İnformativ mətn də giriş, əsas və sonluq hissələrdən ibarət olur.

3-2.4.3 **Tapşırıq C (dərslik).** Kollektiv formada yerinə yetirilir. Məqsəd informativ mətnin tərkib hissələri haqqında alınan biliklərin tətbiq edilməsidir. Müəllim şagirdlərin diqqətini tapşırıqda verilmiş sxemə cəlb edir. “Salamlaşma adətləri” mətni əsasında bu sxemi şərh edir:

– İnformativ mətnin giriş hissəsində mövzu

haqqında ümumi məlumat verilir. Gəlin birlikdə bu mətnin giriş hissəsini müəyyənləşdirək.

Şagirdlər fikirlərini söyləyir və əsaslandırırlar. Daha sonra müəllim "Salamlaşma adətləri" mətninin giriş hissəsini oxuyur.

**Düzgün cavab:**

Mətnin giriş hissəsi "Hər birimiz gün ərzində dəfələrlə əl sıxıb salamlaşırıq" cümləsi ilə başlayır, ""Salam" sözünün özü də sülh, əmin-amanlıq deməkdir" cümləsi ilə bitir.

**Əsaslandırma:**

Mətnin ilk abzasında salamlaşma adətlərinin tarixi haqqında ümumi məlumatlar verilir.

Müəllim yenə şagirdlərin diqqətini sxemə yönəldərək oxuyur:

– *İnformativ mətnin əsas hissəsində mövzuya uyğun məlumatlar və faktlar verilir. Gəlin birlikdə mətnin əsas hissəsini müəyyənləşdirək.*

Şagirdlər öz fikirlərini söyləyir, nə üçün belə düşündüklərini əsaslandırırlar.

**Düzgün cavab:**

Mətnin əsas hissəsində hind, türk, yapon xalqlarının salamlaşma adətləri, eləcə də hərbi salamlaşmanın yaranma tarixi haqqında məlumat və faktlar verilib.

Müəllim yenə şagirdlərin diqqətini sxemə yönəldərək oxuyur:

– *İnformativ mətnin sonluq hissəsində məlumatlar ümumiləşdirilir və nəticə çıxarılır. Gəlin mətnin sonluq hissəsini müəyyənləşdirək.*

Şagirdlər öz fikirlərini söyləyir, nə üçün belə düşündüklərini əsaslandırırlar. Daha sonra müəllim mətnin sonluq hissəsini oxuyur.

**Düzgün cavab:**

"Göründüyü kimi, salamlaşma adətləri müxtəlifdir. Amma onların məqsədi eynidir: görüşərkən qarşıdakı adama hörmət ifadə etmək".

**Tapşırıq Ç (dərslik). Düzgün cavab:** "Bir çox xalqların özünəməxsus salamlaşma adətləri də var".

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər "Səməni göyərtmək adəti" adlı mətnin giriş, əsas və sonluq hissələrini müəyyənləşdirməklə mətnin tərkib hissələri haqqında biliklərini yeni mətn üzərində tətbiq edirlər.

**Tapşırıq B (iş dəftəri). Düzgün cavab:** "Bəs səməni göyərtmək adəti nə ilə bağlıdır?"

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş sualları cavablandırmaqla informativ mətnin tərkib hissələrini fərqləndirdiklərini nümayiş etdirirlər.

**Düzgün cavab:**

1-ci sual: Səməni göyərtmək Novruz bayramının adətlərindən biridir.

2-ci sual: Səməni göyərtmək adətinin tarixi əkinçiliklə bağlıdır. Səməni bolluq rəmzidir.

3-cü sual: Adətlərimizin yaranma tarixini öyrənməli, onları qorumalıyıq.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii və informativ mətnləri məzmun və struktur xüsusiyyətlərinə görə müqayisə edir. | Tap. B (dərslik) |
| İnformativ mətnin tərkib hissələrini müəyyən edir. | Tap. C (dərslik), tap. A (iş dəftəri) |
| İnformativ mətnin tərkib hissələrini əlaqələndirən cümlələri müəyyən edir. | Tap. Ç (dərslik), tap. B (iş dəftəri) |

## 3-cü dərs. İsim – ad bildirən sözlər

Dərslik: səh. 41 • İş dəftəri: səh. 26

**Təlim məqsədləri**

- İsimlərin cavab verdiyi sualları (kim? nə? hara?) müəyyən edir (st. 3-4.2.1).
- Verbal və qrafik materialları (sxemi) şərh etməklə mövzu üzrə danışır (st. 3-1.3.2).
- Sözə şəkilçi artırmaqla yeni sözlər düzəldir (st. 3-4.2.1).
- Konkret və mücərrəd isimləri fərqləndirir (st. 3-4.2.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Ad bildirən sözlərin xatırlanması |
| 2 | **Dil qaydaları** | İsim haqqında məlumat |
| 3 | **Danışma** | İsim haqqında sxemin şərhi |
| 4 | **Dil qaydaları** | -çı⁴ şəkilçisi vasitəsilə kim? sualına cavab verən sözlərin düzəldilməsi; konkret və mücərrəd isimlərin fərqləndirilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhədə kim? nə? hara? sualları yazır. Şagirdlər hər suala cavab olan bir söz deyirlər. Müəllim bu sözlərin hansı anlayışa (ad, əlamət, say, hərəkət) aid olduğunu soruşur.

### Dil qaydaları

3-4.2.1 **Tapşırıq A (dərslik), tapşırıq A, B (iş dəftəri).** Tapşırıqlar şagirdlərin ad bildirən sözlər haqqında aşağı siniflərdə aldıqları biliklərin möhkəmləndirilməsinə yönəlib.

**Düzgün cavablar:**

Kim? *(Rəşid, idmançı, talış, Aslan, Seymur)*

Nə? *(cüdo, yarış, final, raund, döyüş, bayraq, qələbə)*

Hara? *(Bakı, Qazax, Quba, otaq)*

**"Bunları bilməliyik" rubrikası.** Müəllim isim haqqında məlumatları şərh edir. Şagirdlər birinci sinifdən ad bildirən sözlərlə tanış olmuşdurlar. İndi isə onların isim adlandırıldığını öyrənirlər.

### Danışma

3-1.3.2 **Tapşırıq B (dərslik).** Şagirdlər isim haqqında verilmiş sxemi şərh edirlər.

**Düzgün cavab:** İsim canlı və cansız varlıqların, yerin və məkanın adını bildirir. Cansız varlıqları bildirən sözlər nə? sualına cavab olur. Məsələn: *masa, ütü, dəmir.* Heyvanlar canlı varlıqlardır. Lakin heyvanları bildirən sözlər də nə? sualına cavab olur. Məsələn: *şir, delfin, bülbül.* İnsanları bildirən sözlər isə kim? sualına cavab olur. Məsələn: *həkim, əmi, Kamil.*

Yer və məkan adları bildirən sözlər isə hara? sualına cavab olur. Məsələn: *dağ, kənd, küçə.*

**Diferensial təlim**

Müəllim sxemi şərh etməkdə çətinlik çəkən şagirdlərə yönəldici suallarla kömək edə bilər:

*1. İsim nə bildirir?*

*2. Hansı sözlər kim? sualına cavab olur?*

*3. Hansı sözlər nə? sualına cavab olur?*

*4. Hansı sözlər hara? sualına cavab olur?*

3-4.2.1 **Tapşırıq C (dərslik).** Şagirdlər verilmiş sözlərə uyğun şəkilçilər artırmaqla kim? sualına cavab olan sözlər düzəldirlər. Onlar ikinci sinifdən -çı, -çi, -çu, -çü şəkilçiləri ilə tanışdırlar. Bilirlər ki, bu şəkilçilərin köməyi ilə müəyyən peşə sahibi olan insan bildirən sözlər düzəltmək mümkündür.

**"Diqqət et" rubrikası.** Müəllim şagirdlərə müraciət edir:

– Dəftərinizə alma şəkli çəkin.

Daha sonra deyir:

– İndi isə ağıl şəkli çəkin.

Müəllim bununla şagirdlərə aşağı sinifdə öyrəndikləri gözlə görünən və görünməyən varlıqlar haqqında məlumatları xatırladır. Daha sonra onlara konkret və mücərrəd isimlər haqqında məlumat verir.

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər artıq birinci bölmədə yeni sözlər yaradan şəkilçilər haqqında məlumat alıblar. Onlar sözün və sözün kökünün hansı suallara cavab olduğunu müəyyənləşdirirlər.

3-4.2.1 **Tapşırıq Ç (dərslik).** Şagirdlər yalnız mücərrəd isimləri bildirən sözləri seçib yazırlar. Sözlərin qarşısından hansı suala cavab olduğunu qeyd edirlər.

**Düzgün cavab:** həyəcan (nə?), yaxşılıq (nə?), ağıl (nə?), qorxu (nə?), qələbə (nə?).

Deməli, mücərrəd isimlər nə? sualına cavab olur.

**Tapşırıq Ç (iş dəftəri).** Tapşırıq şagirdlərin konkret və mücərrəd isim haqqında öyrəndikləri biliklərin möhkəmləndirilməsinə yönəlib.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Varlıq anlayışı bildirən sözləri suallara əsasən (kim? nə? hara?) qruplaşdırır. | Tap. A (dərslik), A, B (iş dəftəri) |
| Qrafik informasiya (sxem) şəklində verilmiş qaydaları şərh edir. | Tap. B (dərslik) |
| Sözə şəkilçi artırmaqla yeni sözlər düzəldir. | Tap. C (dərslik), tap. C (iş dəftəri) |
| Konkret və mücərrəd isimləri bildirən sözləri fərqləndirir. | Tap. Ç (dərslik), tap. Ç (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə nümayiş etdirmək üçün müxtəlif ölkələrə məxsus tarixi abidələrin şəkillərini hazırlamaq tövsiyə edilir.

fəsil 3 **TARİXİ ABİDƏLƏR**

## 1-ci dərs. Piza qülləsi

Dərslik: səh. 42–43 • İş dəftəri: səh. 27

**Təlim məqsədləri**
• Mövzu ilə bağlı dialoq qurmaq (müsahibə almaq) üçün suallar tərtib edir (st. 3-1.2.3).
• Oxuyarkən qabaqcadan müəyyən olunmuş sualların cavablarını mətndən seçir (st. 3-2.2.1).
• Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• İnformativ mətndəki əsas faktları müəyyən edir (st. 3-2.2.1).
• Tanış olduğu məlumatları yazıda əks etdirir (st. 3-3.2.1).

• **Köməkçi vasitələr:** müxtəlif ölkələrə məxsus tarixi abidələrin şəkilləri.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin sualı üzrə müzakirə |
| 2 | **Danışma** | Şirvanşahlar sarayı haqqında məlumat almaq məqsədilə sualların tərtibi |
| 3 | **Oxu** | "Piza qülləsi" mətninin oxusu |
| 4 | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi |
| 5 | **Oxuyub-qavrama** | Mətnin məzmununa aid olmayan sualların müəyyənləşdirilməsi; fakt və münasibət bildirən cümlələrin fərqləndirilməsi |
| 6 | **Yazı** | İnformativ mətndəki faktların yazıda əks edilməsi |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim müxtəlif ölkələrə məxsus tarixi abidələrin şəkillərini nümayiş etdirib soruşur:

– *Hansı abidələr sizə tanışdır? Bu abidələr haqqında nə bilirsiniz?*

### Danışma

3-1.2.3 **Tapşırıq A (dərslik).** Şagirdlər Şirvanşahlar sarayının şəklinə baxır, bu abidə haqqında bildiklərini söyləyirlər. Çox ehtimal ki, üçüncü sinif şagirdlərinin bu abidə haqqında məlumatları azdır və yaxud heç yoxdur. Tapşırığın məqsədi şagirdlərdə müəyyən mövzuya aid məlumat almaq üçün düzgün sual vermək bacarığının formalaşdırılmasıdır. Müəllim şagirdlərə sualları daha vacib məlumatları almaq istiqamətində tərtib etməyi tapşırır. Şagirdlər sualları verilmiş müəyyən vaxt ərzində (5-6 dəqiqə) tərtib etməlidirlər. Bu fəaliyyət auditoriya ilə beyin fırtınası (əqli həmlə) şəklində də qurula bilər. Şagirdlər sualları səsləndirirlər. Müəllim lövhədə yazır. Sonda aşağıdakı suallardan ibarət siyahı tərtib oluna bilər:

*1. Saray harada yerləşir?*
*2. Saray nə vaxt tikilib?*
*3. Sarayı kim tikib?*
*4. Saray nə məqsədlə tikilib?*
*5. İndi bu sarayda yaşayırlarmı?*
*6. Sarayda neçə otaq var?* və s.

### Oxu

3-2.2.1 **Piza qülləsi mətni üzrə iş. İstiqamətləndirilmiş oxu.** Oxudan əvvəl müəllim lövhədə suallar yazır:

*1. Piza qülləsi hansı ölkədə, hansı şəhərdə yerləşir?*
*2. Bu abidənin özəlliyi nədədir?*
*3. Piza qülləsinin memarı kimdir?*
*4. Piza qülləsinin tikilişi neçə il çəkib?*
*5. Piza qülləsinin quruluşu necədir?*

### Söz ehtiyatı

3-2.2.3 **"Söz boğçası" rubrikası. Tapşırıq B (dərslik), tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş izahları oxuyur, söz boğçasındakı sözlərlə uyğunlaşdırırlar. Tapşırıqlar vasitəsilə şagirdlərin yeni sözləri mənimsədikləri yoxlanılır.

Şagirdlər hər bir sözü cümlədə işlədirlər.

### Oxuyub-qavrama

İstiqamətləndirilmiş oxu üçün qoyulmuş suallar cavablandırılır. Şagirdlər, sadəcə, hər bir sualın cavabını tapıb mətndən oxuya bilərlər.

3-2.2.1 **Tapşırıq C (dərslik).** Bu tapşırıq vasitəsilə şagirdlərin mətni nə qədər diqqətlə oxuduqlarını yoxlamaq mümkündür. Şagirdlər tapşırıqda verilmiş sualları oxuyur, mətndən cavabını tapa bilmədikləri sualları seçirlər.

**Düzgün cavab:**
3. Piza qülləsi hansı məqsədlə tikilib?
5. Qüllə hansı materiallardan tikilib?

**Tapşırıq Ç (dərslik).** Şagirdlərin oxuyub-qav-

rama bacarıqlarının inkişafına yönələn tapşırıq eyni zamanda riyaziyyat fənni ilə inteqrasiya yaratmağa imkan verir.

**Düzgün cavab:**

1. Piza qülləsi silindrə bənzəyir.

2. Şagirdlər ikinci sualı cavablandırmaq üçün mətndən lazımi cümlələri seçərək oxuyub-qavrama bacarıqlarını nümayiş etdirirlər. (Qüllə 8 mərtəbədən ibarətdir. Hündürlüyü təxminən 56 metrdir.) Daha sonra bölmə əməlindən istifadə edərək birpilləli məsələ həll etmək yolu ilə suala cavab tapırlar: 56 : 8 = 7.

Qüllənin hər mərtəbəsinin hündürlüyü 7 metrdir.

**Tapşırıq D (dərslik).** Şagirdlər ikinci sinifdə fakt və münasibət bildirən cümlələri fərqləndirmək bacarığına yiyələniblər.

**Düzgün cavab:**

• Piza qülləsi İtaliyada yerləşir – **fakt;**

• Məncə, Piza qülləsi qeyri-adi tikilidir – **münasibət;**

• Mən də Piza qülləsini görmək istəyərdim – **münasibət;**

• Piza qülləsinə inşa edildiyi şəhərin adı verilib – **fakt.**

### Yazı

3-3.2.1 **Tapşırıq B (iş dəftəri).** Keçən dərslərdə şagirdlər hər hansı bir mövzu haqqında təqdimat hazırlayarkən daha vacib məqamların işıqlandırılması haqqında məlumat alıblar. Bu dərsdə isə müəllimin istiqamətləndirici suallarına əsasən “Piza qülləsi” haqqında mətni oxuyublar. İstiqamətləndirilmiş oxu şagirdlərin diqqətini mətndəki əsas məqamlara cəlb edir. Bu biliklərdən istifadə edərək şagirdlər Piza qülləsi haqqında turistlərə verəcəkləri məlumatları qeyd edirlər.

**Müəllimin nəzərinə!** Müəllim sinifdə kiçik bir tamaşa da hazırlaya bilər. Arzu edən şagirdlər bələdçi, digər şagirdlər isə turist rolunda iştirak edə bilərlər. Bələdçilər Piza qülləsini turistlərə tanıtmağa çalışırlar.

### Araşdırma (Ev layihə tapşırığı)

**Tapşırıq E (dərslik).** Şagirdlərin araşdırma bacarığının formalaşdırılmasına xidmət edir. Tapşırığın evdə icra edilməsi nəzərdə tutulub. Növbəti dərsdə şagirdlər sinifdə Qız qalası haqqında məlumat vərəqi hazırlamalıdırlar. Bu səbəbdən əvvəlcə Qız qalası haqqında araşdırma aparır, məlumat toplayırlar. Tapşırığı qruplarla yerinə yetirmək daha məqsədəuyğundur. Müəllim şagirdləri qruplara ayırır. Qız qalası haqqında araşdırma apararaq məlumat toplamağı tapşırır. Qrup üzvləri arasında əvvəlcədən iş bölgüsü aparılır. İnternetdən istifadə etmək imkanları olan şagirdlərə internet resurslarından istifadə üçün linklər verilir. İnternetdən istifadə imkanları olmayan şagirdlərə kitablar, jurnallar, ensiklopediyaların adı verilir. Onlar bu kitabları kitabxanadan əldə edə bilərlər. Müəllim araşdırma apararkən aşağıdakı suallara cavab tapmağı tövsiyə edir:

1. Qız qalası hansı ölkədə, hansı şəhərdə yerləşir?

2. Qız qalası nə vaxt tikilmişdir?

3. Memarı kim olub?

4. Qız qalasının quruluşu necədir? (hündürlüyü, neçə mərtəbədən ibarət olması və sairə)

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mövzu ilə bağlı məlumat almaq üçün suallar tərtib edir. | Tap. A (dərslik) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tap. B (dərslik), tap. A (iş dəftəri) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. C, Ç (dərslik) |
| Mətnlə bağlı fikirlərin fakt və ya münasibət olduğunu əsaslandırır. | Tap. D (dərslik) |
| Oxuduğu informativ mətndəki əsas faktları yazıda əks etdirir | Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** 1. Növbəti dərsin mövzusu məlumat vərəqinin tərtib edilməsidir. Dərslikdə Eyfel qülləsi haqqında məlumat vərəqi təqdim edilmişdir. Müəllimə şagirdlərə nümayiş etdirmək üçün Eyfel qülləsi haqqında təqdimat vərəqini çap etməyi tövsiyə edirik.
2. Müəllim şagirdlərə növbəti dərs üçün Piza qülləsinin şəklini gətirməyi tapşırır. Şagirdlər Piza qülləsinin şəklini çəkə də bilərlər.

## **2-ci dərs.** Məlumat vərəqinin hazırlanması

Dərslik: səh. 44 • İş dəftəri: səh. 28

**Təlim məqsədləri**

• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (məlumat vərəqi) hazırlayır (st. 3-3.2.5).
• Verbal və qrafik materialları (məlumat vərəqini) şərh etməklə mövzu üzrə danışır (st. 3-1.3.2).
• Yazılı təqdimatın məzmununa münasibət bildirir və təkliflərini verir (st. 3-3.2.5).

• **Köməkçi vasitələr:** Eyfel qülləsi haqqında təqdimat vərəqi.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin sualı üzrə müzakirə |
| 2 | **Yazı** | Piza qülləsi haqqında məlumat vərəqinin hazırlanması; Alov qüllələri haqqında məlumatların "Məlumat vərəqi"ndə yerləşdirilməsi |
| 3 | **Danışma. Oxuyub-qavrama** | Eyfel qülləsi haqqında məlumat vərəqindəki məlumatların analiz edilməsi |
| 4 | **Danışma** | Eyfel qülləsi haqqında məlumat vərəqindəki materialın rabitəli mətnə çevrilərək şifahi təqdimatı |
| 5 | **Yazı** | Qız qalası haqqında məlumat vərəqinin hazırlanması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə Eyfel qülləsi haqqında təqdimat vərəqini nümayiş etdirib soruşur:

– *Sizcə, bu vərəq hansı məqsədlə hazırlanıb?*

Şagirdlərin fikirləri dinlənilir.

### Yazı

3-3.2.5 **Tapşırıq A (dərslik).** Məqsəd şagirdlərə məlumat vərəqinin hazırlanmasını öyrətməkdir. Kollektiv formada yerinə yetirilməsi məqsədəuyğundur. Təlimatdakı göstərişlər yerinə yetirilir:

1. **Başlıq yazılır.** Piza qülləsi.
2. **Abidənin şəkli verilir.** Şagirdlər Piza qülləsinin şəklini yapışdırırlar.
3. **Nümunəyə uyğun cədvəl tərtib edin.** Şagirdlər cədvəli dəftərlərində çəkirlər.
4. **Məlumatları cədvəlin uyğun xanalarında yazın.** Şagirdlər mətndən aldıqları məlumatları cədvəlin uyğun xanalarında qeyd edirlər.

Yerləşdiyi ölkə – İtaliya
Yerləşdiyi şəhər – Piza
Tikilmə tarixi – 1174–1350-ci illər
Hündürlüyü – 56 metr
Memarı – Dəqiq məlum deyil.
Əlavə məlumatlar – Əyri durması səbəbindən "Yıxılan qüllə" kimi də tanınır.

5. **Məlumat vərəqini zövqünüzə uyğun bəzəyin.**

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərin hazırladıqları məlumat vərəqini "Piza qülləsi" mətni ilə müqayisə edir:
*1. Hansı material Piza qülləsi haqqında qısa və lakonik məlumat verir?*
*2. Hansı material Piza qülləsi haqqında geniş məlumat verir?*
*3. Hansı materialdan Piza qülləsi haqqında məlumatları qısa müddətdə əldə etmək olur?*
Beləliklə, şagirdlər məlumat vərəqinin nə məqsədlə hazırlandığını öyrənirlər.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər Alov qüllələri haqqında verilən məlumatları məlumat vərəqində yerləşdirərək onu tamamlayırlar.

### Danışma

3-1.3.2 **Tapşırıq B (dərslik).** Eyfel qülləsi haqqında məlumatlar analiz edilir. Məlumat vərəqində istifadə olunan simvolik işarələrin mənası açıqlanır, az yer tutduğuna görə belə işarələrdən istifadə edilməsi vurğulanır.

**Tapşırıq C (dərslik). Qruplarla iş.** A tapşırığında məlumat vərəqinin hazırlanması, bu tapşırıqda isə məlumat vərəqindəki məlumatların rabitəli mətn şəklində təqdim edilməsi öyrədilir. Tapşırıq qruplarla yerinə yetirilir. Qrup üzvləri Eyfel qülləsi haqqında məlumat vərəqindəki məlumatları rabitəli cümlələrə çevirərək abidə haqqında şifahi təqdimat hazırlayırlar. Təqdimat zamanı söyləyəcəkləri məlumatları dəftərdə qeyd edirlər. Sonra qrupdan təqdimatı təqdim edəcək bir nümayəndə seçirlər.

Təqdimat aşağıdakı məzmunda ola bilər:

*Eyfel qülləsi Fransanın paytaxtı Paris şəhərində, Sena çayının sahilində yerləşir. 1887–1889-cu*

*illərdə inşa edilən qülləyə onun memarı Qustavo Eyfelin adı verilib. Hündürlüyü 300 metr və 65 santimetrdir. Hər il milyonlarla turist Eyfel qülləsinə baxmağa gəlir.*

Hər qrup hazırladığı məlumatı təqdim edir.

**Yazı**

3-3.2.5 **Tapşırıq Ç (dərslik).** Keçən dərsdə şagirdlərə evdə Qız qalası haqqında araşdırma aparmaq tapşırılıb. Şagirdlər qruplara ayrılır. Qruplar topladıqları məlumatlar əsasında Qız qalası haqqında məlumat vərəqi hazırlayırlar. Bu tapşırıq həm nəzəri biliklərin tətbiqi üçün imkan yaradır, həm də şagirdlərdə sinifdən kənarda əməkdaşlıq etmək bacarığını formalaşdırır.

**Müəllimin nəzərinə!** Şagirdlərə hazırladıqları məlumat vərəqinin hansı meyarlara əsasən qiymətləndiriləcəyi barədə əvvəlcədən məlumat verilməlidir. Bu məqsədlə müəllim şagirdlərə aşağıdakı meyarlar cədvəlini təqdim etməlidir.

| Meyarlar | Bəli | Qismən | Xeyr |
|---|---|---|---|
| Mövzuya uyğun başlıq seçib. | | | |
| Mövzuya uyğun şəkil seçib. | | | |
| Məlumatları qrafik işarələrə uyğun yazıb. | | | |
| Abidə haqqında əsas məlumatları qeyd edib. | | | |
| Məlumat vərəqi səliqəli və aydın tərtib olunub. | | | |

Təqdim edilmiş meyarlar əsasında Qız qalası haqqında hazırlanan məlumat vərəqi bir daha yoxlanılır. Məlumat vərəqləri qruplar arasında dəyişdirilir. Qrup üzvləri eyni meyarlar əsasında digər qrupun hazırladığı məlumat vərəqini yoxlayırlar. Tapşırıq şagirdlərdə başqasının təqdimatına münasibət bildirmək bacarığını da formalaşdırır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əldə etdiyi məlumatlar əsasında məlumat vərəqi hazırlayır. | Tap. A, Ç (dərslik), A (iş dəftəri) |
| Qrafik informasiya şəklində verilmiş məlumatları rabitəli mətn şəklində təqdim edir. | Tap. C (dərslik) |
| Yazılı təqdimatın məzmununa münasibət bildirir və təkliflərini verir. | Tap. Ç (dərslik) |

## 3-cü dərs. Ümumi və xüsusi isimlər

Dərslik: səh. 45 • İş dəftəri: səh. 29

**Təlim məqsədləri**
- Ümumi və xüsusi isimləri fərqləndirir (st. 3-4.2.1).
- Cümlələrdə ümumi və xüsusi isimlərin yazılışı ilə bağlı səhvləri tapıb düzəldir. (st. 3-3.1.2).

- **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Üzərində xüsusi isimlər yazılmış kartlarla iş |
| 2 | **Dil qaydaları** | Xüsusi isimlərin qruplaşdırılması; kontekstə əsasən sözlərin kiçik və yaxud böyük hərflə yazılması |
| 3 | **Yazı** | Mətndəki səhvlərin düzəldilməsi |
| 4 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

**Tapşırıq A (dərslik).** Şagirdlərin aşağı siniflərdə şəxs və yer adları, heyvanlara verilən adlar haqqında aldıqları məlumat xatırladılır.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim rubrikadakı məlumatları izah edir.

**Dil qaydaları**

3-4.2.1 **Tapşırıq B (dərslik), tapşırıq A (iş dəftəri).** Tapşırıqlar ümumi və xüsusi isimlər haqqında biliyin möhkəmləndirilməsinə yönəlib.

**"Diqqət et" rubrikası.** Şagirdlər aşağı siniflərdən şəxs, yer və heyvanlara verilən adların ilk hərfinin böyük yazıldığını bilirlər. Bu sinifdə isə həmin sözlərin xüsusi isim olduğunu öyrənirlər.

3-3.1.2 **Tapşırıq C (dərslik), tapşırıq Ç (dərslik), tapşırıq B (iş dəftəri).** Şagirdlərin kontekstə görə sözlərin ümumi və yaxud xüsusi isim olduğunu müəyyənləşdirmək bacarığının inkişafına yönəlib.

**C tapşırığının doğru cavabı:** “Seymurla Aslan Rəşidi dəstəkləyir, onu alqışlayırdılar” cümləsində “aslan” sözü insan adı bildirdiyi üçün böyük hərflə yazılır. Digər cümlədə isə şir mənasında verilib.

**Ç tapşırığının doğru cavabı:** Ceyran, Yasəmən, Arzu, Zəfər sözləri kontekstə görə həm böyük, həm də kiçik yazıla bilər. Şagirdlər həmin sözləri cümlələrdə işlətməklə seçimlərini əsaslandırırlar. Məsələn:

- Atam Zəfərə yeni kompüter aldı.
- İgidlərimiz döyüşdə zəfər çaldılar.

### Yazı

3-3.1.2 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər cümlələrdəki səhvləri tapıb düzəltməklə ümumi və xüsusi isimlər haqqında bilikləri necə qavradıqlarını nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Ümumi və xüsusi isimləri fərqləndirir. | Tap. B (dərslik), A, B (iş dəftəri) |
| Xüsusi isimlərin böyük hərflə yazılış qaydalarına əməl edir. | Tap. C, Ç (dərslik) |
| Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir. | Tap. C (iş dəftəri) |

# fəsil 4 MİLLİ BAYRAMLAR

## 1-ci dərs. Müsahibə (I)

Dərslik: səh. 46–48 • İş dəftəri: səh. 30

**Təlim məqsədləri**

- Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
- İnformativ mətndəki əsas faktları müəyyən edir (st. 3-2.2.1).
- Mətnə aid məlumatları yarımbaşlıqlarla uyğunlaşdırır.(st. 3-2.4.3).
- Mövzu ilə bağlı dialoq qurmaq (müsahibə almaq) üçün suallar tərtib edir (st. 3-1.2.3).
- Mövzu ilə bağlı fikri əsaslandırmaq üçün faktlardan istifadə edir. (st. 3-3.2.3).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Tapşırıqda verilmiş suallar ətrafında müzakirə |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Müsahibə" mətninin oxusu. Söz boğçası üzrə iş |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmunu ilə bağlı sualların cavablandırılması; fikirlərin hansı yarımbaşlığa aid olduğunun müəyyənləşdirilməsi |
| 4 | **Danışma** | Holi bayramı və Şirlər rəqsi haqqında əlavə məlumat almaq məqsədilə sualların tərtibi |
| 5 | **Yazı** | Holi bayramı haqqında fakt və münasibət bildirən cümlələrin yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Motivasiya sualı ətrafında şagirdlərin fikirləri dinlənilir. Fikirlərini tam ifadə etmələri üçün yardımçı suallar da verilə bilər.

### Oxu. Söz ehtiyatı

3-2.2.3 **“Müsahibə” mətni üzrə iş. Səssiz oxu.** Müəllim şagirdlərə mətni oxumaq üçün müəyyən vaxt verir. Mətn səssiz oxunur. Şagirdlər mətndən tanış olmayan sözləri dəftərlərinə qeyd edirlər. Sonra onların və söz boğçasındakı sözlərin mənalarını kontekstə əsasən təxmin edir, daha sonra isə lüğət vasitəsilə dəqiqləşdirirlər.

**Söz boğçasındakı yeni sözlərin izahı:**

*müxbir* – yerlərdən xəbər yığıb göndərən jurnalist; qəzet, jurnal, radio, televiziya işçisi;

*cənab* – hörmət, sayğı məqamında işlədilən müraciət forması;

*festival* – incəsənətin hər hansı növü üzrə keçirilən ictimai tədbir; məsələn: *musiqi festivalı. teatr festivalı;*

*müsahib* – jurnalistə müsahibə verən, onun suallarını cavablandıran şəxs;

*müsahibə* – jurnalistin müəyyən məsələlər barədə hər hansı şəxslə söhbəti;

*süvari* – atlı əsgər;

*təbil* – zərb aləti; iri nağara.

Sözlərin mənası izah edildikdən sonra şagirdlər onları müxtəlif cümlələrdə işlədirlər.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər mətn

əsasında sualları cavablandırırlar, bununla da mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

3-2.4.3 **Tapşırıq A (iş dəftəri).** Fikirlərin hansı yarımbaşlığa aid olduğunu müəyyənləşdirməklə mətnin məzmununu qavradıqlarını göstərirlər.

**Doğru cavablar:** 1-ci, 4-cü, 5-ci fikirlər Holi bayramına, 2-ci, 3-cü, 6-cı fikirlər isə Şirlər rəqsinə aiddir.

**Danışma**

3-1.2.3 **Tapşırıq C (dərslik).** Şagirdlərdə hər hansı bir mövzu ilə əlaqədar məlumat almaq üçün sual vermək bacarığını formalaşdırır. Eyni zamanda tapşırıq şagirdlərdə jurnalistika peşəsi, müxbirlərin iş prinsipi haqqında təsəvvür yaradır. Şagirdlər onlara ayrılmış vaxt ərzində tərtib etdikləri sualları təqdim edirlər.

**Yazı**

3-3.2.3 **Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin ikinci sinifdə yiyələndikləri fakt və münasibət bildirən cümlələri fərqləndirmək bacarıqlarının möhkəmləndirilməsinə imkan yaradır. Şagirdlər Holi bayramı haqqında fakt və münasibət bildirən cümlələr yazırlar.

**Araşdırma**

**Tapşırıq Ç (dərslik).** Tapşırıq evdə yerinə yetirilmək üçün nəzərdə tutulub. Şagirdlərin araşdırma bacarığının inkişafına xidmət edir. Şagirdlərə Azərbaycan rəqsləri haqqında araşdırma apararaq məlumat toplamaq tapşırılır. Yaxşı olardı ki, konkret bir rəqs seçilsin: *Yallı rəqsi, Qazağı rəqsi, Cəngi rəqsi* və sairə.

İnternetdən istifadə etmək imkanları olan şagirdlərə internet resurslarından istifadə üçün linklər verilir. İnternetdən istifadə imkanları olmayan şagirdlərə kitablar, jurnallar, ensiklopediyaların adı verilir. Onlar bu kitabları kitabxanadan əldə edə bilərlər. Müəllim araşdırma apararkən aşağıdakı suallara cavab tapmağı tövsiyə edir:

1. *Rəqslərin yaranma tarixi*
2. *Rəqslərin mövzusu*
3. *Rəqslərin musiqisi*
4. *Rəqslərin ifa xüsusiyyətləri*

**Müəllimin nəzərinə!** Yaxşı olardı ki, həmin rəqslər ("Yallı", "Qazağı", "Cəngi") haqqında müəllim də araşdırma aparsın və məlumat toplasın. Növbəti dərsdə şagirdlər bu rəqslər haqqında suallar tərtib edəcək, müsahibəyə hazırlaşacaqlar. Ola bilər ki, şagirdlərdən bəziləri bu rəqslər haqqında məlumat toplaya bilməsin. Bu zaman müəllim hazır etdiyi məlumatları həmin şagirdə təqdim edir.

**Yallı rəqsi**

*"Yallı" ən qədim rəqs növlərindən biridir. Qobustan qayalarının üzərində təsvir edilmiş əl-ələ verib rəqs edən insan şəkilləri bu rəqsin çox qədim tarixi olduğunu sübut edir.*

*"Yallı" – həmrəylik rəmzidir. Bu rəqsdə insanlar kollektiv surətdə öz sevinclərini əks etdirirlər.*

*"Yal" sözünün mənası – cərgə, zəncir deməkdir. İştirakçılar cərgəyə düzülərək dəstə ilə rəqsi ifa edirlər. Rəqs zamanı yallıya kollektivin önündə gedən rəqqas rəhbərlik edir. Ona xalq arasında "yallıbaşı" deyirlər. Yallıbaşı hər bir hərəkətin bütün iştirakçılar tərəfindən eyni qaydada yerinə yetirilməsinə, rəqsin düzgün başlamasına və vaxtında sona yetməsinə nəzarət edir. Bu işdə yallıbaşıya ondan sonra gələn ikinci rəqqas, yəni "müavin" və dəstənin sonuncu rəqqası "ayaqçı" kömək edir. Yallını oynayarkən yallıbaşının və ayaqçının əlində yaylıq olmalıdır. Onlar əllərini yuxarı qaldıraraq yaylığı yellədir, bununla da dəstənin əvvəlinin və axırının harada olduğunu bildirirlər.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir. | "Müsahibə" mətni. Söz ehtiyatı üzrə iş |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. B (dərslik) |
| Mətnin hissə və epizodlarına uyğun yarımbaşlıqları müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Mövzu ilə bağlı məlumat almaq üçün suallar tərtib edir. | Tap. C (dərslik) |
| İnformativ mətnin mövzusu ilə bağlı fakt və münasibət bildirən fikirləri yazıda əks etdirir. | Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə şagirdlər Tailandda keçirilən Sonqkran bayramı haqqında suallar hazırlayacaqlar. Müəllimə həmin sualları cavablandırmaq üçün Sonqkran bayramı haqqında məlumat toplamaq tövsiyə edilir.

## 2-ci dərs. Müsahibə (II)

Dərslik: səh. 48 • İş dəftəri: səh. 31

**Təlim məqsədləri**

- Araşdırdığı məlumatlar və tərtib etdiyi suallar əsasında müsahibi ilə dialoq qurur (st. 3-1.2.3).
- Verilmiş izaha (əlamətlərə və ümumi mənaya) görə sözü müəyyən edir (st. 3-2.2.3).
- Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir (st. 3-1.1.2).

- **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin sualı üzrə müzakirə |
| 2 | **Danışma** | Sonqkran rəqsinə aid əlavə məlumat almaq üçün sualların tərtibi; Azərbaycan rəqsləri haqqında məlumat almaq məqsədilə sualların tərtibi |
| 3 | **Söz ehtiyatı** | Yeni sözlərin mənaları ilə uyğunlaşdırılması |
| 4 | **Dinləmə** | Nar bayramı haqqında dinləmə mətni üzrə iş |
| 5 | **Oxuyub-qavrama** | Nar bayramına aid əlavə məlumat almaq üçün sualların tərtibi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim aşağıdakı suallarla şagirdlərə müraciət edir:

*– Müxbir olsaydınız, hansı mövzuda müsahibə alardınız? Müsahibiniz kim olardı?*

Şagirdlərin cavabları dinlənilir. Müəllim ehtiyac olduqca şagirdlərə fikirlərini tam ifadə etmələri üçün yardımçı suallar da verə bilər.

### Danışma

3-1.2.3 **Tapşırıq A (dərslik).** Müəllim lövhədə ikisütunlu cədvəl çəkir. Sütunun birinə “Nə öyrəndim?”, digərinə isə “Daha nə bilmək istərdim?” başlıqlarını yazır. Şagirdlər həmin cədvəli dəftərlərinə çəkirlər. Tailandda keçirilən Yeni il bayramı haqqında qısa məlumata və şəklə əsasən cədvəlin “Nə bilirdim?” xanasında qeydlər edirlər.

Şagirdlər təxminən bu qeydləri yaza bilərlər:
– Bu bayram Sonqkran adlanır.
– Tailandda keçirilir.
– Bayram yeni il münasibətilə qeyd olunur.
– Bayramda insanlar bir-birinə su atırlar.
– Bayramda fillər də iştirak edir.
– Bayramda filləri xüsusi olaraq bəzəyirlər.

Daha sonra şagirdlər Sonqkran bayramı haqqında əlavə məlumat almaq üçün suallar tərtib edib cədvəlin “Daha nə bilmək istərdim?” sütununda yazırlar. Sonra sualları oxuyurlar.

**Müəllimin nəzərinə!** Yaxşı olardı ki, müəllim şagirdlərin suallarını cavablandırsın. Müəllim Tailanddan gələn müsahib, şagirdlər isə müsahibə götürən müxbir rolunu oynaya bilərlər. Müəllimə Sonqkran bayramı haqqında material təqdim edirik.

**Sonqkran bayramı**

*Dünyada su festivalı kimi tanınan bu bayram 13–15 aprel tarixlərində keçirilir. Sonqkran sözünün mənası “keçid” mənasını verir.*

*Tailand əhalisi ili üç fəslə ayırır: yağış fəsli, soyuq fəsil və isti fəsil. Sonqkran bayramı soyuq fəslin bitməsi və yağış fəslinin başlanması münasibətilə qeyd olunur. Yağış bərəkət rəmzidir. Bol yağış Tailand əhalisinin əkdiyi düyü sahələrinə can verir. Bol yağış bol məhsul deməkdir.*

*Bir-birinin üzərinə su atmaq bu bayramın adətlərindən biridir. İnsanlar suyun pis hadisələri, xəstəlikləri, çətinlikləri yuyub-aparmasına inanırlar.*

**“Faydalı məsləhət” rubrikası.** Hər hansı bir mövzu haqqında müsahibəyə hazırlaşmaqla bağlı tövsiyələr şərh edilir.

**Tapşırıq B (dərslik).** Şagirdlər evdə Azərbaycan rəqsləri haqqında araşdırma aparıb məlumatlar toplayıblar. Sinifdə isə həmin mövzu ilə bağlı məlumat almaq üçün suallar tərtib edirlər. Onların mövzu üzrə topladıqları məlumatlar məzmunlu suallar tərtib etməyə kömək edəcək.

**Müəllimin nəzərinə!** 1. Müəllim sinfə musiqi müəllimini dəvət edə bilər. Şagirdlər hazırladıqları sualları həmin şəxsə ünvanlaya bilərlər. Beləliklə, özlərini müxbir kimi təcrübədə sınamış olarlar.
2. Müəllim sinfi iki qrupa ayıra bilər. Bir qrup şagirdlər müsahib, digər qrup isə

müxbir rolunu oynaya bilərlər. Müxbirlər mövzuya dair sual verir, müsahiblər isə cavablandırırlar. Beləliklə də, müəllim şagirdlərin necə araşdırma aparmalarını, nə qədər ətraflı məlumat topladıqlarını müşahidə edə bilər.

**Söz ehtiyatı**

3-2.2.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər söz boğçasına daxil edilmiş sözləri izahları ilə uyğunlaşdıraraq bu sözlərin mənasını anladıqlarını nümayiş etdirirlər.

**Düzgün cavablar:** 1 – c, 2 – a, 3 – b.

**Dinləmə**

3-1.1.2 **Tapşırıq B (iş dəftəri).** Müəllim "Nar bayramı" adlı dinləmə mətnini səsləndirir.

**Müəllimin nəzərinə!** Müəllim əvvəlcədən bəzi məlumatları: tarixləri, adları qeyd etməyi məsləhət görür.

**Nar bayramı**

*Hər il noyabr ayının əvvəlində Göyçayda Nar bayramı qeyd olunur. Bayram ilk dəfə 2006-cı ildə keçirilib. Hazırda isə populyar festival sayılır. Festivala Azərbaycan vətəndaşları ilə yanaşı, xarici ölkələrdən qonaqlar da qatılırlar.*

*Bayram günü şəhər meydanı xüsusi olaraq bəzədilir, təşkil olunmuş sərgilərdə nardan hazırlanmış müxtəlif məhsullar nümayiş etdirilir. Bağbanlar hər kəsi yetişdirdikləri nar növləri ilə təəccübləndirmək istəyirlər. Nar məhsullarının – mürəbbə, şirə, narşərabların satışı üçün yarmarkalar təşkil edilir. Qonaqları əyləndirmək üçün müxtəlif müsabiqələr, oyunlar keçirilir.*

*Nar bayramının qeyd olunması qədim zamanlardan insanların bu meyvəyə verdiyi anlamla bağlıdır. Uzunömürlülük simvolu sayılan nar müqəddəs meyvə sayılır. Xarici görünüşünə görə tacı xatırladan nar "meyvələrin şahı" hesab olunur. Belə rəvayət edirlər ki, padşahların tacının quruluşu da məhz nara bənzədilib.*

Tapşırıqda mətnin məzmununa aid cümlələr verilib. Şagirdlər yaddaşlarına və götürdükləri qeydlərə əsasən cümlələrdə buraxılmış sözləri yerinə yazır, cümlələri tamamlayırlar.

**Düzgün cavablar:** *(Mətnə əlavə ediləcək sözlər sıra ilə göstərilib.)* Noyabr, mürəbbə, şirə, narşərab, yarmarkalar, tacı, uzunömürlülük.

**Müəllimin nəzərinə!** Tapşırığın icrasını asanlaşdırmaq üçün əvvəlcə mətnin məzmununa aid sual-cavab etmək tövsiyə edilir. Məsələn:

*1. Nar bayramı nə vaxt keçirilir?*
*2. Bayram necə keçirilir?*
*3. Nardan hansı məhsullar hazırlanır?*
*4. Nə üçün nar meyvələrin şahı hesab olunur?*

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər dinləmə mətnindən aldıqları məlumatlara əsasən cədvəlin "Nə öyrəndim?" xanasında qeydlər edirlər. Cədvəlin "Daha nə bilmək istərdim?" sütununda isə Nar bayramı haqqında əlavə məlumat almaq üçün suallar yazırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mövzu ilə bağlı məlumat almaq üçün suallar tərtib edir. | Tap. A (dərslik), tap. B (dərslik), tap. C (iş dəftəri) |
| Verilmiş izahın, əlamətlərin aid olduğu sözü müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Dinlədiyi mətndəki əsas məqamları yadda saxlayaraq mətni tamamlayır. | Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllimə üzərində söz, söz birləşməsi və cümlələr yazılmış kartlar hazırlamaq tövsiyə edilir.

## 3-cü dərs. Söz və söz birləşməsi

Dərslik: səh. 49 • İş dəftəri: səh. 32

**Təlim məqsədləri**

• Söz, söz birləşməsi və cümləni bir-birindən fərqləndirir (st. 3-4.2.2).
• Sözlər arasında məna əlaqəsini müəyyən etməklə söz birləşməsi və cümlələr qurur (st. 3-4.2.2).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Motivasiya tapşırığı üzrə iş |

| | | |
|---|---|---|
| 2 | **Dil qaydaları** | Söz cütlərindən söz birləşmələrinin yaradılması; söz birləşmələrinin birinci tərəfinin artırılması; söz, söz birləşməsi və cümlənin fərqləndirilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Motivasiya xarakterli bu tapşırıqda şagirdlərə şəkildə gördükləri maşınları təsvir etmək tapşırılır. Müəllim yönəldici suallar vasitəsilə şagirdlərə kömək edə bilər:

– Tapşırıqdakı şəkillərin üçü də maşın təsvirləridir. Bəs bu maşınları fərqləndirmək üçün hansı sözlərdən istifadə edərdiniz?

Şagirdlər təxminən belə cavab verə bilərlər:

1. Qırmızı maşın
2. Yaşıl maşın
3. Yük maşını

### Dil qaydaları

**"Bunları bilməliyik" rubrikası.** Müəllim söz birləşmələri haqqında verilmiş məlumatları şərh edir. "Söz" və "söz birləşməsi" arasındakı fərqi şagirdlərə nümunələr əsasında izah edir.

**Tətbiqi tapşırıq.** Müəllim "Bunları bilməliyik" rubrikasında verilmiş nəzəri biliklərin tətbiqi məqsədilə şagirdlərlə şifahi tapşırıq yerinə yetirə bilər.

Üzərində söz, söz birləşməsi və cümlələr yazılmış kartları masanın üzərinə düzür. Şagirdlər növbə ilə masaya yaxınlaşır, kartlardan birini seçib oxuyaraq söz, söz birləşməsi və yaxud cümlə olduğunu müəyyənləşdirirlər.

3-4.2.2 **Tapşırıq B (dərslik), tapşırıq A (iş dəftəri).** Bu tapşırıqlar "Bunları bilməliyik" rubrikasında aldıqları biliklərin tətbiqi üçün imkan yaradır. Şagirdlər tapşırıqda verilmiş söz cütlərindən söz birləşməsi düzəldirlər. Bu zaman uyğun şəkilçidən istifadə edirlər.

**Dərslikdə verilmiş B tapşırığının düzgün cavabları:** divar qəzeti, rəng festivalı, ölkə nümayəndəsi, bayram şənliyi.

**İş dəftərində verilmiş A tapşırığının düzgün cavabları:** qəzet müxbiri, dəniz sahili, xalq rəqsi, bayram xonçası, ana laylası.

**Tapşırıq C (dərslik).** Tapşırıq söz birləşməsi yaratmaq bacarığının inkişafına yönəlib. Tapşırıqda ad bildirən sözlər söz birləşmələrinin ikinci tərəfi kimi verilmişdir. Şagirdlər həmin söz birləşmələrinin birinci tərəfi kimi işlənə bilən sözləri təxmin edərək söz birləşməsi düzəldirlər. Məsələn: *maraqlı həyat, bacarıqlı müxbir, qədim şəhər, üçrəngli bayraq, sıx meşə, həzin musiqi.*

**"Diqqət et" rubrikası.** Müəllim bəzi söz birləşmələrini yaradarkən sözlərə müəyyən şəkilçilər əlavə olunduğunu izah edir. Dil daşıyıcıları öz nitqlərində bu şəkilçilərdən asanlıqla istifadə edirlər. Onlara bu şəkilçilərin adı, funksiyası haqqında əlavə məlumat verməyə ehtiyac yoxdur. 1-ci bölmədə bu barədə məlumat verilib.

**Tapşırıq Ç (dərslik), tapşırıq C (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş şəkillərə aid söz birləşmələri yazırlar. Bununla da söz birləşmələrinin yaranması haqqında aldıqları bilikləri tətbiq edirlər. İş dəftərində təqdim edilmiş tapşırıqda isə şagirdlər verilmiş şəkilləri təsvir edə biləcək söz, söz birləşməsi və cümlə yazırlar. Bununla da söz birləşmələrini digər sintaktik vahidlərdən fərqləndirdiklərini nümayiş etdirirlər.

**İş dəftərində verilmiş C tapşırığının cavabları belə ola bilər:**

***1-ci şəkil***

Söz: bayraq

Söz birləşməsi: üçrəngli bayraq

Cümlə: Əsgərlər üçrəngli bayrağı başları üzərinə qaldırdılar.

***2-ci şəkil***

Söz: nəvə

Söz birləşməsi: sevimli nəvə

Cümlə: Nənə nəvələrinə nağıl oxuyurdu.

3-4.2.2 **Tapşırıq D (dərslik).** Şagirdlər tapşırıqda verilmiş cümlələrin tərkibindən söz birləşmələrini seçib yazırlar. Bununla da söz birləşmələrini digər sintaktik vahidlərdən fərqləndirdiklərini nümayiş etdirirlər.

Düzgün cavablar:

1. Qədim abidələr
2. Gənc müxbirlər
3. Məlumat vərəqi

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər aşağı siniflərdə cümlə haqqında ilkin biliklər alıblar. Cümlənin bitmiş fikir bildirdiyini artıq bilirlər. Bu tapşırıq şagirdlərə söz, söz birləşməsi və cümləni müqayisə etmək imkanı yaradır.

| | Söz | Söz birləşməsi | Cümlə |
|---|---|---|---|
| 1 | Əli | Əlinin komandası | Əlinin komandası qalib gəldi. |

| | | | |
|---|---|---|---|
| 2 | karandaş | rəngli karandaş | Rəngli karandaş aldım. |
| 3 | kitab | maraqlı kitab | Mən maraqlı kitab oxudum. |
| 4 | vətən | doğma vətən | Azərbaycan doğma vətənimdir. |

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümləni söz və ya söz birləşməsindən fərqləndirir. | Tətbiqi tapşırıq (MV) |
| Sözlər arasında məna əlaqəsini müəyyənləşdirərək söz birləşmələri yaradır. | Tap. B (dərslik), tap. A (iş dəftəri) |
| Uyğun şəkilçilərdən istifadə etməklə söz birləşməsi və cümlələr qurur. | Tap. C, Ç (dərslik), tap. C (iş dəftəri) |
| Cümləni təşkil edən söz və söz birləşmələrini müəyyən edir. | Tap. D (dərslik), tap. B (iş dəftəri) |

## fəsil 5 SƏYAHƏT

## 1-ci dərs. “Səksən gün dünya ətrafında” (I hissə)

Dərslik: səh. 50–51 • İş dəftəri: səh. 33

**Təlim məqsədləri**

- Obrazların nitqini onların xarakterinə uyğun səsləndirir (st. 3-2.1.2).
- Obraz haqqında fikirləri mətndəki fakt və hadisələrlə əsaslandırır (st. 3-2.3.2).
- Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir (st. 3-2.3.1).
- Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).

- **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Tapşırıqda verilmiş suallar ətrafında müzakirə |
| 2 | **Oxu. Söz ehtiyatı** | “Səksən gün dünya ətrafında” mətninin I hissəsinin oxusu; söz boğçası üzrə iş |
| 3 | **Oxuyub-qavrama** | Obraz haqqında fikirlərin əsaslandırılması; illüstrasiyaya əsasən sualın cavablandırılması; mətnin məzmununa əsasən sualların cavablandırılması; mətndəki məlumatlara əsasən nəticə çıxarması |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Tapşırıqda verilmiş motivasiya sualı ətrafında müzakirə aparılır, şagirdlərin fikirləri dinlənilir. Müəllim ehtiyac olduqca fikirlərini tam ifadə etmələri üçün şagirdlərə yardımçı suallar da verə bilər.

### Oxu. Söz ehtiyatı

3-2.1.2 **“Səksən gün dünya ətrafında” mətninin I hissəsi üzrə iş. Rollu oxu.** Əvvəlcə şagirdlər onlara verilmiş vaxt ərzində “Səksən gün dünya ətrafında” mətninin I hissəsini səssiz oxuyurlar. Müəllim şagirdlərə oxu zamanı əsas obrazın xarakterinə diqqət etməyi tapşırır.

Şagirdlər səssiz oxu zamanı obrazların nitqinə diqqət edir, onların keçirdiyi hisslərlə tanış olurlar. Daha sonra müəllim obrazların nitqini şagirdlər arasında bölüşdürür. Bu dəfə şagirdlər mətni səsli oxuyurlar. Müəllim oxu zamanı şagirdlərin obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirmələrinə diqqət yetirir.

### Söz ehtiyatı

**“Söz boğçası” rubrikası.** Müəllim şagirdlərdən tanış olmayan sözlərin təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını açıqlayır:

*centlmen* – nəzakət qaydalarına və əxlaq normalarına riayət edən, ciddi, zövqlü geyimi, incə davranışı ilə fərqlənən, sözünün yiyəsi olan, nəzakətli, tərbiyəli kişi;

*soyuqqanlı* – hər cür şəraitdə özünü sakit, səbirli, təmkinli, dözümlü aparan;

*klub* – eyni maraq dairəsinə mənsub şəxslərin birgə istirahət etdiyi, əyləndiyi yer;

*mister* – kişilərə müraciət məqamında işlənən söz; cənab.

Şagirdlər sözlərin izahından sonra onları cümlələrdə işlədirlər.

### Oxuyub-qavrama

3-2.3.2 **Tapşırıq B (dərslik).** Bu tapşırığı yerinə yetirməklə şagirdlər mətni nə qədər diqqətlə oxuduqlarını nümayiş etdirirlər. Şagirdlər mətnin uyğun hissələrini oxumaqla tapşırıqda mister Foqun xarakterini təsvir edən cümlələri əsaslandırırlar.

**Düzgün cavablar:**

1. Mister Foq hər şeyi dəqiq planlaşdırmağı sevirdi.

**Mətndən uyğun hissə:** Mister Foq çox dəqiq adam idi: hər gün səhər saat səkkizdə oyanar, doqquza qalmış səhər yeməyini yeyərdi. Saat on ikinin yarısında üzvü olduğu "Dostluq" klubuna gedərdi.

2. O, təmkinli və soyuqqanlı idi.

**Mətndən uyğun hissə:** Klubda hamı onu soyuqqanlı, bir qədər qaraqabaq adam kimi tanıyırdı.

3. Qətiyyətli və özünə inamlı idi.

**Mətndən uyğun hissə:** Foq həmişəki kimi təmkinlə, lakin qətiyyətli səslə dilləndi.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin obrazı təsvir etmək bacarıqlarını möhkəmləndirir.

3-2.2.1 **Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərə sualları cavablandırarkən təkcə mətnin məzmununa deyil, eyni zamanda mətnə çəkilmiş illüstrasiyalara da diqqət etməyin vacibliyini nümayiş etdirir. Tapşırıqda verilmiş sualın cavabı mətndə yoxdur. Bu sualı cavablandırmaq üçün mətnə çəkilmiş illüstrasiyaya diqqət etmək lazımdır.

**Düzgün cavablar:** Mister Foq səyahət zamanı qatar, gəmi, hava balonu kimi nəqliyyat vasitələrindən istifadə etməyi planlaşdırırdı.

3-2.2.1 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş sualları cavablandırır, mətndən cavab tapa bilmədikləri sualları seçirlər.

**Düzgün cavablar:**

- Mister Foqun neçə yaşı var?
- Mister Foq hansı şəhərdə yaşayırdı?
- Paspartu kim idi?
- Mister Foq hansı fəsildə səyahət etməyi planlaşdırırdı?
- Hadisələr neçənci ildə baş verib?

**Müəllimin nəzərinə!** Tapşırıq şagirdlərin mətni nə qədər diqqətlə oxuduqlarını yoxlamaqla yanaşı, dərindən düşünmək, analiz etmək bacarıqlarını da inkişaf etdirir. Tapşırıqda elə suallar var ki, cavabı mətndə birbaşa verilməmişdir. Lakin mətnin bəzi cümlələrini analiz edərək sualı cavablandırmaq mümkündür.

Məsələn: "Paspartu kim idi?" sualını cavablandırmaq üçün "Paspartu təəccüblənsə də, ağasının əmrini yerinə yetirməyə başladı" cümləsindən aydın olur ki, mister Foq Paspartunun ağasıdır. Deməli, Paspartu mister Foqun xidmətçisidir.

"Mister Foq hansı fəsildə səyahət etməyi planlaşdırırdı?" sualını cavablandırmaq üçün "Bu gün oktyabrın 2-də mən Yer ətrafına səyahətə çıxıram. Dekabrın 21-də burada, bu klubda sizinlə görüşərik" cümləsindəki bəzi məqamlara diqqət etmək lazımdır. Mister Foq 2 oktyabr – 21 dekabr tarixlərində səyahət etmək fikrindədir. Oktyabr, noyabr və 21 dekabr tarixinə qədər olan vaxtlar payız fəslini əhatə edir. Mətnə çəkilən illüstrasiyadan görünür ki, mister Foqun səyahətə çıxdığı məntəqə London şəhəridir və sonda da o məhz bu şəhərə qayıdır. Deməli, o, London şəhərində yaşayır.

Ola bilər ki, bəzi şagirdlər bu məqamlara diqqət yetirib mətndə cavabı olmayan sualların sayını azaltsın. Bu halda müəllim onları təqdir etməli, fikirlərini əsaslandırmağı tapşırmalıdır. Tapşırıq müəllimə daha diqqətli şagirdləri fərqləndirmək imkanı yaradır.

3-2.3.1 **Tapşırıq Ç (dərslik).** Şagirdlər mətndə fərqləndirilmiş cümləni oxuyaraq tapşırıqdakı sualı cavablandırmağa çalışırlar. Tapşırıq şagirdlərin mətndə verilmiş məlumatlara əsasən nəticə çıxarmaq bacarığını inkişaf etdirir.

**Düzgün cavab:** "Qatar, hava balonu meydana çıxdıqdan sonra dünya xeyli balacalaşıb" cümləsindən anlamaq olar ki, artıq hava balonu və qatar kimi nəqliyyat vasitələri ixtira edilib. Hamıya məlumdur ki, nəqliyyat vasitələri məsafələri qısaldır, bir yerə daha tez çatmağa imkan verir. Yer kürəsi isə günü-gündən balacalaşa bilməz. Mister Foq "Dünya xeyli balacalaşıb" deməklə "Artıq dünya ətrafında daha az müddətə səyahət etmək olar" fikrini söyləmək istəyir.

**Tapşırıq D (dərslik).** Tapşırıq şagirdlərin verilmiş məlumatları analiz etmək, nəticə çıxarmaq

bacarığının inkişafına yönəlib. "Mister Foq neçənci ildə səyahət etmişdir?" sualını cavablandırmaq üçün nəqliyyat vasitələrinin ixtiraları haqqında cədvələ diqqətlə baxmaq, bəzi məqamları analiz edib nəticə çıxarmaq lazımdır.

**Düzgün cavab:** Şagirdlər artıq mister Foqun səyahət zamanı gəmi, qatar və hava balonundan istifadə etdiyi haqqında məlumat alıblar. Mister Foq 1801-ci ildə səyahət edə bilməzdi. Çünki bu ildə hələ qatar ixtira edilməmişdi. Əgər onun səyahət etdiyi illərdə avtomobil və təyyarə ixtira edilsəydi, yəqin ki, mister Foq onlardan da istifadə edərdi. Deməli, mister Foq 1898-ci ildə səyahət etməyib. Belə nəticəyə gəlmək olur ki, mister Foq 1872-ci ildə səyahət edib.

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər əyləncə xarakterli bu tapşırığı yerinə yetirməklə mətnin ikinci hissəsində mister Foqun səyahət edəcəyi ölkələrdən birinin adını öyrənirlər.

**Düzgün cavab:** Yaponiya.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirir. | "Səksən gün dünya ətrafında" mətninin oxusu |
| Faktlardan istifadə etməklə mətndə birbaşa əks olunmayan məlumat haqda nəticəyə gəlir. | Tap. B, Ç, D (dərslik), A (iş dəftəri) |
| İllüstrasiyaya əsasən mətnin məzmununa aid sualları cavablandırır. | Tap. C (dərslik) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. B (iş dəftəri) |

## 2-ci dərs. "Səksən gün dünya ətrafında" (II hissə)

Dərslik: səh. 52–53 • İş dəftəri: səh. 34

### Təlim məqsədləri

- Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
- Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir (st. 3-2.3.1).
- Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
- Məlumatları qrafik informasiya (məlumat vərəqi) şəklində təqdim edir (st. 3-3.2.5).

- **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Tapşırıqda verilmiş suallar ətrafında müzakirə |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Səksən gün dünya ətrafında" mətninin II hissəsinin oxusu; söz boğçası üzrə iş |
| 3 | **Oxuyub-qavrama** | Mətndəki faktlara əsasən məlumatların uyğunlaşdırılması; mətndə səyahət edilmiş ölkələrin ardıcıllığının müəyyənləşdirilməsi |
| 4 | **Yazı** | Məlumat vərəqinin yazılması; səyahət planının cədvəl şəklində hazırlanması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Tapşırıqda verilmiş motivasiya sualı ətrafında müzakirə aparılır, şagirdlərin fikirləri dinlənilir. Müəllim ehtiyac olduqca fikirlərini tam ifadə etmələri üçün şagirdlərə yardımçı suallar da verə bilər.

### Oxu. Söz ehtiyatı

3-2.2.3 **"Səksən gün dünya ətrafında" mətninin II hissəsi üzrə iş.** Əvvəlcə şagirdlər onlara verilmiş vaxt ərzində "Səksən gün dünya ətrafında" mətninin II hissəsini səssiz oxuyurlar. Müəllim mətnin oxusundan əvvəl şagirdlərə mister Foqun səyahət etdiyi yerlərin ardıcıllığına diqqət etməyi tapşırır.

### Söz ehtiyatı

**"Söz boğçası" rubrikası.** Müəllim şagirdlərdən tanış olmayan sözlərin *(paqoda, ziyarətçi, məmnun, məbəd, ibadət)* təxmini mənasını soruşur.

Sonra sözlərin dəqiq mənasını (*paqoda* – Uzaq Şərq ölkələrində buddizmə aid dini tikilidir. Dini əşyaları saxlamaq üçün inşa olunan paqoda memorial xarakterli tikilidir və "müqəddəs yer" sayılır. Paqoda eramızın ilk əsrlərində Çində meydana gəlib, daha sonra isə Vyetnam, Koreya, Yaponiya və s. ölkələrə yayılıb. O, müxtəlif formalarda (çoxyaruslu pavilyon, qüllə və s.) olur, kvadrat və ya 6, 8, 12 bucaqlı planda inşa edilir; *ziyarətçi* – ziyarət edən adam, ziyarətə gedən (gələn) adam; *məmnun* – razı olan; *məbəd* – dindarların ibadət etdikləri və dini ayinləri yerinə yetirdikləri bina; məscid, kilsə, paqoda, sinaqoq; *ibadət* – dua oxuma, namaz qılma şəklində icra edilən dini ayin) açıqlayır. Şagirdlər sözlərin dəqiq izahından sonra onları müxtəlif cümlələrdə işlədirlər. Bununla da sözlərin mənasını anladıqlarını nümayiş etdirirlər.

### Oxuyub-qavrama

3-2.3.1 **Tapşırıq B (dərslik).** Müəllim mətnin oxusundan əvvəl şagirdlərə mister Foqun səyahət etdiyi yerlərin ardıcıllığına diqqət etməyi tapşırmışdı. Şagirdlər mətndə verilmiş bəzi faktları tutuşdurur, gəldikləri nəticəyə əsasən tapşırığı yerinə yetirirlər. Məsələn, şagirdlər bu cümlələrdəki faktlara diqqət etməlidirlər:

– Cənab, sanki yuxudayam. **Dünən Fransada idik, bu gün** isə artıq **Misirdəyik.**

– Bəli, Paspartu, macəralara hazır ol. **Dünən Avropadaydın, bu gün Afrikada.** İndi isə yolumuz Bombey şəhərinədir – Hindistana. Yəni bir neçə gündən sonra Asiyada olacağıq.

Bu cümlələrdən belə nəticəyə gəlmək olar ki, Fransa Avropada, Misir Afrikada, Bombey isə Asiyada yerləşir. Bu tapşırığı yerinə yetirməklə şagirdlər mətni nə qədər diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Düzgün cavablar:** 1 – Ç, 2 – C, 3 – A, 4 – B.

3-2.2.1 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər mister Foqun səyahət etdiyi ölkələrin adını ardıcıllıqla yazmaqla mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər. Tapşırıqda istifadə üçün verilmiş ölkə adları şagirdlərə tapşırığı asanlıqla yerinə yetirməyə kömək edəcək.

**Düzgün cavablar:** Fransa, Misir, Hindistan, Yaponiya, Amerika, İngiltərə.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq mətnin məzmununa əsasən hadisələrin səbəbini müəyyənləşdirmə bacarığının möhkəmləndirilməsinə yönəlib.

**Düzgün cavablar:**

1. Mister Foq çox məmnun idi, çünki hər şey planlaşdırdığı kimi gedirdi.
2. Camaat Paspartunu paqodadan çıxardı, çünki müqəddəs yer olduğu üçün paqodaya ayaqqabı ilə girmək olmazdı.
3. Paspartunu polis idarəsindən buraxdılar, çünki mister Foq bunun üçün cərimə ödəmişdi.

### Yazı

3-3.2.5 **Tapşırıq C (iş dəftəri).** Tapşırıq aldığı məlumatlardan istifadə edərək hər hansı formada olan məlumat vərəqlərinin hazırlanması bacarığını inkişaf etdirir. Şagirdlər "Səksən gün dünya ətrafında" mətnindən aldıqları məlumatlara əsasən paqoda haqqında məlumat vərəqini tamamlayırlar.

**Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin çatdırmaq istədikləri məlumatları qrafik informasiya şəklində təqdim etmək bacarıqlarını inkişaf etdirir. Şagirdlər səyahət etmək istədikləri ölkələr haqqında səyahət planı hazırlayırlar. Bu zaman tapşırıqda təqdim olunmuş cədvəldən nümunə kimi istifadə edirlər.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərə təkcə xarici ölkələrə deyil, vətənimizin müxtəlif bölgələrinə səyahəti də nəzərə almağı tapşırır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək sözün mənasını təxmin edir. | Söz boğçası üzrə iş |
| Faktlardan istifadə etməklə mətndə birbaşa əks olunmayan məlumat əldə edir. | Tap. B (dərslik) |
| Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir. | Tap. A, B (iş dəftəri) |
| Məlumatları qrafik informasiya şəklində təqdim edir. | Tap. C (dərslik), tap. C (iş dəftəri) |

## 3-cü dərs. Ölkə və xalq adlarının yaranması

Dərslik: səh. 54 • İş dəftəri: səh. 35

**Təlim məqsədləri**
• Sözə şəkilçi artırmaqla yeni sözlər düzəldir (st. 3-4.2.1).
• Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir (st. 3-3.1.2).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | A apşırığı üzrə iş |
| 2 | **Dil qaydaları** | Uyğun şəkilçilər vasitəsilə ölkə adlarının düzəldilməsi; ölkə və xalq adlarının yazılışı |
| 3 | **Yazı** | Mətndəki səhvlərin müəyyənləşdirilməsi |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər bölmədə rast gəldikləri xalq, şəhər, ölkə adlarını cədvəlin uyğun sütunlarında yazırlar.

### Dil qaydaları

3-4.2.1 **"Bunları bilməliyik" rubrikası.** Müəllim xalq adları bildirən sözlərə bəzi sözdüzəldici (leksik) şəkilçilər artırmaqla ölkə adlarının yaranması qaydasını nümunələrlə izah edir.

Ölkə adları yaratmaq üçün bəzi xalq adlarına -stan, bəzilərinə isə -iya$^2$ şəkilçisini əlavə etmək lazımdır. Hansı sözlərə məhz hansı şəkilçinin artırılması haqqında isə xüsusi bir qayda yoxdur. Şagirdlərin bu iki şəkilçi arasından seçimi onların dil duyumu, söz ehtiyatı, çox mütaliə etmələri ilə inkişaf etdirilə bilər.

Nəzərə alsaq ki, bu bölmədə şagirdlər müxtəlif xalq, ölkə adları ilə rastlaşıblar, bölmənin giriş dərsi də məhz bu mövzuya həsr edilib, o zaman demək olar ki, şagirdlər bu qaydaya aid tapşırıqları asanlıqla yerinə yetirəcəklər.

Müəllim ölkə adlarının böyük, xalq adlarının isə kiçik hərflə yazılmasını şagirdlərin nəzərinə çatdırır.

**Tapşırıq B (dərslik), tapşırıq A (iş dəftəri).** Möhkəmləndirmə xarakterli bu tapşırıqlar "Bunları bilməliyik" rubrikasında aldıqları biliklərin tətbiqi üçün şagirdlərə imkan yaradır. Şagirdlər uyğun leksik şəkilçi artırmaqla xalq adlarından ölkə adları düzəldirlər. Daha sonra müəllimin köməyilə yazdıqları sözlərin düzgün yazılışını dəqiqləşdirirlər.

__Cavab:__ Türkiyə, Almaniya, Macarıstan, Çexiya, Türkmənistan, Bolqariya, Tacikistan, İspaniya, Qazaxıstan, Rumıniya.

**"Diqqət et" rubrikası.** Müəllim şagirdlərin diqqətini "Diqqət et" rubrikasına cəlb edərək burada verilmiş məlumatları şərh edir. Bəzən ölkə adlarına -lı$^4$ şəkilçisi artırmaqla xalq adları düzəlir. Məsələn: Çin – çinli.

**Müəllimin nəzərinə!** Şagirdlər aşağı siniflərdə artıq -lı$^4$ şəkilçisi ilə tanış olublar. Onlar bu şəkilçi vasitəsilə ad bildirən sözlərdən əlamət bildirən sözlərin yarandığını bilirlər. Müəllim əlamət bildirən sözlərin *necə?*, xalq adlarının isə *kim?* sualına cavab verdiyini şagirdlərin nəzərinə çatdırmalıdır.

**Tapşırıq C (dərslik), tapşırıq B (iş dəftəri).** Şagirdlər artıq xalq adlarının kiçik, ölkə adlarının isə böyük hərflə yazıldığını bilirlər. Bu tapşırıqlar həmin qaydanın tətbiqi üçün imkan yaradır. İş dəftərindəki B tapşırığında verilmiş ölkə adları məqsədyönlü olaraq kiçik hərflə verilmişdir.

3-3.1.2 **Tapşırıq Ç (dərslik), tapşırıq C (iş dəftəri).** Möhkəmləndirmə xarakterli bu tapşırıqlarda şagirdlər ölkə və xalq adlarının yazılışı ilə bağlı səhvləri tapıb düzəldirlər. Beləliklə, qaydaları mənimsədiklərini nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bəzi leksik şəkilçilərin sözə qoşularaq yaratdığı mənanı müəyyənləşdirir. | Tap. B (dərslik), tap. A (iş dəftəri) |
| Ümumi və xüsusi isimləri fərqləndirir. | Tap. C (dərslik), tap. B (iş dəftəri) |
| Özünün və başqasının yazısında orfoqrafik səhvləri müəyyən edir. | Tap. Ç (dərslik), tap. C (iş dəftəri) |

## **4-cü dərs.** Ümumiləşdirici təkrar

Dərslik: səh. 55 • İş dəftəri: səh. 36

**Təlim məqsədləri**

- Mövzu ilə bağlı dialoq qurmaq (müsahibə almaq) üçün suallar tərtib edir (st. 3-1.2.3).
- Qrafik informasiyanı yazıda rabitəli cümlələr şəklində təqdim edir (st. 3-3.2.1).
- Əks anlayışı ifadə edən söz cütlərini müəyyən edir (st. 3-4.4.1).
- Konkret və mücərrəd isimləri fərqləndirir (st. 3-4.2.1).
- Sözlər arasında məna əlaqəsini müəyyən etməklə söz birləşməsi və cümlələr qurur (st. 3-4.2.2).
- Mətnin giriş, əsas və sonluq hissələrini fərqləndirir (st. 3-2.4.3).

- **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Motivasiya tapşırığı üzrə iş |
| 2 | **Danışma** | Maraqlandığı ölkə haqqında məlumat almaq məqsədilə sualların tərtibi |
| 3 | **Yazı** | Qrafik informasiya şəklində verilmiş məlumatların rabitəli təqdim edilməsi |
| 4 | **Dil qaydaları** | Əks anlayışı ifadə edən söz cütlərinin müəyyən edilməsi; düzəltmə sözlə söz kökünün mənalarının müqayisəsi; konkret və mücərrəd isimlərin fərqləndirilməsi; söz birləşməsinin yaradılması; varlıq, əlamət, say, hərəkət bildirən sözlərin qruplaşdırılması; ümumi və xüsusi isimlərin fərqləndirilməsi; ölkə adlarının düzəldilməsi |
| 5 | **Oxuyub-qavrama** | İnformativ mətnin tərkib hissələrinin müəyyənləşdirilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim bölmədəki mövzuları xatırlatmaq məqsədilə suallar verir:

*– Bu bölmədə hansı mövzular haqqında oxudunuz? Hansı mövzularda mətnlər dinlədiniz? Hansı mövzular haqqında araşdırmalar apardınız? Hansı mövzularda təqdimatlar hazırladınız? Sizin üçün hansı mövzu daha maraqlı oldu?*

### Danışma

3-1.2.3 **Tapşırıq A (dərslik).** Şagirdlər hər hansı bir ölkə haqqında onları maraqlandıran məlumatları almaq üçün suallar tərtib edirlər.

### Yazı

3-3.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər bu bölmədə məlumat vərəqinin hazırlanması, oxunması, buradakı məlumatların rabitəli mətnə çevrilərək təqdim edilməsi haqqında bir çox tapşırıqlar yerinə yetiriblər. Şagirdlər vətənimiz haqqında məlumat vərəqindəki məlumatları rabitəli cümlələrə çevirərək Azərbaycan haqqında yazılı təqdimat edirlər.

**Təqdimat təxminən aşağıdakı məzmunda ola bilər:**

Azərbaycan Avrasiya materikində yerləşir. Vətənimizin paytaxtı Bakı şəhəridir. Azərbaycanın ərazisi 86 min km$^2$, əhalisinin sayı isə 10 milyondan çoxdur.

Dövlət atributlarından biri olan bayrağımız mavi, qırmızı və yaşıl zolaqlardan ibarətdir. Qırmızı zolağın üzərində aypara və səkkizguşəli ulduz əks olunub. Azərbaycanın dövlət dili Azərbaycan dilidir. Dövlətimizin pul vahidi manatdır.

### Dil qaydaları

3-4.4.1 **Tapşırıq C (dərslik).** Şagirdlər əksmənalı sözlər haqqında aldıqları biliklərini nümayiş etdirirlər.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər bu tapşırıqla sözün kökünü müəyyən etmək bacarıqlarını, nitq hissələri haqqında aldıqları bilikləri nümayiş etdirirlər.

3-4.2.1 **Tapşırıq D (dərslik).** Şagirdlər bu tapşırıqla konkret və mücərrəd isimləri fərqləndirə bildiklərini nümayiş etdirirlər.

3-4.2.2 **Tapşırıq E (dərslik).** Şagirdlər tapşırıqda verilmiş söz cütlərindən söz birləşməsi yaradaraq bu dil qaydası haqqında aldıqları bilikləri tətbiq edə bildiklərini nümayiş etdirirlər.

### Oxuyub-qavrama

3-2.4.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər bu bölmədə informativ mətnlərin tərkib hissələri haqqında məlumat alıblar. Bu tapşırıqda Azərbaycan bayrağı haqqında informativ mətn təqdim

edilib. Şagirdlər mətni oxuyur, mətnin tərkib hissələrini, yəni giriş, əsas və sonluq hissələrini əks etdirən cümlələri bayrağın rənglərinə uyğun boyayırlar. Bununla da informativ mətnlərin tərkib hissələrini fərqləndirdiklərini nümayiş etdirirlər.

### Dil qaydaları

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər A tapşırığında Azərbaycan bayrağı haqqında verilmiş mətndən cədvəlin sütunlarına uyğun varlıq, hərəkət, əlamət, say bildirən sözlər seçib yazaraq bu dil qaydaları haqqında biliklərini nümayiş etdirirlər.

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər A tapşırığında Azərbaycan bayrağı haqqındakı mətndə verilmiş xalq adlarından ölkə adları düzəldib yazırlar.

3-4.2.1 **Tapşırıq Ç (iş dəftəri).** Şagirdlər bu tapşırığı yerinə yetirməklə konkret və mücərrəd isimləri fərqləndirdiklərini nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mövzu ilə bağlı dialoq qurmaq (müsahibə almaq) üçün suallar tərtib edir. | Tap. A (dərslik) |
| Qrafik informasiya şəklində verilmiş məlumatları rabitəli mətn şəklində təqdim edir. | Tap. B (dərslik) |
| Əks anlayışı ifadə edən söz cütlərini müəyyən edir. | Tap. C (dərslik) |
| Düzəltmə sözlə söz kökünün mənalarını müqayisə edir. | Tap. Ç (dərslik) |
| Konkret və mücərrəd isimləri fərqləndirir. | Tap. D (dərslik), tap. Ç (iş dəftəri) |
| Uyğun şəkilçilərdən istifadə etməklə söz birləşməsi və cümlələr qurur. | Tap. E (dərslik) |
| İnformativ mətnlərin tərkib hissələrini müəyyən edir. | Tap. A (iş dəftəri) |
| İfadə etdiyi ümumi anlayışa görə (varlıq, əlamət, say, hərəkət) sözləri qruplaşdırır. | Tap. B (iş dəftəri) |

bölmə **3**

# QƏRİBƏ HEYVANLAR

| **Mövzu** | | **Qəribə heyvanlar** |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | • Şəkil və ya xəritə əsasında danışma<br>• Şifahi təqdimat |
| | Söz ehtiyatı | • Verilmiş izah, əlamətə uyğun sözün müəyyən olunması;<br>• Yeni sözlər: mamont, begemot, nəsil, morj, üzgəc, oyuq, buzlaq, delfinari, qəlsəmə, ağ ciyər, pulcuq. |
| | Oxu | • İnformativ mətnin struktur və məzmun xüsusiyyətlərinin təhlili<br>• Obrazların nitqinin məzmununu nəzərə alaraq mətnin oxunması<br>• Dialoqlarda obrazların nitqinin fərqləndirilməsi<br>• Qrafik simvolların təsviri |
| | Yazı | • Hekayə xəritəsinə və şəkillərə əsasən bədii mətnin yazılması<br>• Araşdırma işi<br>• Araşdırma əsasında informativ mətnin yazılması |
| Akademik biliklər | Dil qaydaları | • Söz ortasında k, t, p, q samitlərinin yazılışı<br>• Söz, söz birləşməsi, cümlə<br>• Cümlənin məqsədə görə növləri<br>• Sifət |
| | Filoloji anlayışlar | Haşiyə, bədii və informativ mətndə yarımbaşlıq, mülahizə, şərh |
| Kompetensiyalar | | Təbiətdəki varlıqlara dəyər verilməsi, canlıların həyatının bir-biri ilə sıx bağlı olması, heyvanlara qayğı, xeyirxahlıq |

Bu bölmədə müxtəlif heyvanlardan bəhs edən bədii və informativ mətnlər təqdim olunur. Əsas məqsəd şagirdlərin maraq dairəsində olan mövzulardan istifadə etməklə onların dinləmə, danışma, oxu və yazı bacarıqlarını inkişaf etdirmək, söz ehtiyatını zənginləşdirməkdir.

**Öncədən vacib olan bilik və bacarıqlar:**

• Bədii və informativ mətnləri fərqləndirir, sadə formada təhlil edir.
• Verilmiş mövzu ilə bağlı araşdırma aparır, şifahi təqdimat hazırlayır.

**Mənimsəməkdə çətinlik doğuran məqamlar:**

• İnformativ mətn yazma və mülahizələri təhliletmə

**Diferensial təlim**

Bu bölmənin tədrisi zamanı araşdırma materiallarının toplanmasında, şifahi və yazılı təqdimatların dəyərləndirilməsində şagirdlərin fəaliyyətinə fərdi, diferensial yanaşma faydalı ola bilər.

**Bu bölmədə nəzərdə tutulan köməkçi vasitələr:** *iş vərəqləri, heyvan şəkilləri, heyvanlar haqqında məlumat vərəqləri* və s.

## Bölməyə giriş dərsi

• Dərslik: səh. 56–57 • İş dəftəri: səh. 37

**Təlim məqsədləri**

• Mətni oxuyarkən tanış olmadığı sözləri qeyd edir (st. 3-2.2.3).
• Ümumi məna və özəl əlamətləri göstərməklə anlayışı izah edir (st. 3-4.4.2).
• Verilmiş izaha (əlamətlərə və ümumi mənaya) görə sözü müəyyən edir (3-2.2.3).
• Verbal və qrafik materialları (xəritə) şərh etməklə mövzu üzrə danışır (st. 3-1.3.2).
• Sonu b, c, d, g ilə bitən sözləri orfoqrafik normalara uyğun yazır (st. 3-4.1.1).

• **Köməkçi vasitələr (təchizat):** heyvan şəkilləri (dəvəquşu, qaranquş, balıq, balina).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin sualları üzrə müzakirə |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Qəribə heyvanlar" şeirinin oxusu; yeni sözlərin mənimsədilməsi |
| 3 | **Danışma** | Bölmə titulundakı xəritə üzrə danışma |
| 4 | **Dil qaydaları** | Əlifba üzrə biliklərin möhkəmləndirilməsi |
| 5 | **Yazı** | Sözün düzgün yazılışı üzrə iş |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim yönəldici suallarla diqqəti bölmənin adına yönəldir: *"Qəribə" sözünü necə izah edərdiniz?* Şagirdlər "qeyri-adi, fərqli olan" cavabını təxmin edirlər.

Sonra müəllim dəvəquşu və qaranquş şəkli nümayiş etdirir və soruşur: *Hər ikisinin aid olduğu ümumi məna qrupu hansıdır?* (Şagirdlər quş olduğunu bildirirlər.) *Bəs onları fərqləndirən xüsusiyyətlər hansılardır?* (Şagirdlər dəvəquşunun çəkisinin böyük olduğunu və uça bilmədiyini qeyd edirlər.)

Müəllim suallar verməklə müxtəlif heyvan şəkilləri nümayiş etdirir və hər bir heyvanın fərqli xüsusiyyətləri müzakirə edilir.

### Oxu. Söz ehtiyatı

3-2.2.3 **Növbəli oxu.** "Qəribə heyvanlar" şeirinin oxusuna keçməzdən əvvəl diqqət şeirin başlığına yönəldilir: *Sizcə, bu şeirdə hansı heyvanlardan bəhs edilir?*

Müəllim şeiri bir dəfə oxuyur, şagirdlər mətni kitabdan izləyir, tanış olmayan sözləri qeyd edirlər. Sonra isə *manqust, okapi, tenrek* sözlərinin həmin səhifədə verilmiş izahları ilə tanış olurlar. Şagirdlərin diqqətinə çatdırılır ki, bu heyvanlar haqqında növbəti fəsillərdə ətraflı məlumat veriləcəkdir.

Daha sonra şagirdlər bənd-bənd şeiri oxuyur və şeirdə verilən heyvanların xüsusiyyətlərini müzakirə edirlər.

3-4.4.2 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq oxuyub-qavrama və söz ehtiyatı üzrə bilik və bacarıqların möhkəmlənməsinə xidmət edir. Şagirdlər şeirin oxusundan və təhlilindən sonra şeirdə verilmiş heyvanların oxşar əlamətlərini müəyyən edib yazırlar.

**Doğru cavablar:** koala və kenquru – kisəsi var, zebr və pələng – zolaqları var, pinqvin və dəvəquşu – uça bilmir.

3-2.2.3 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər şeirdən öyrəndikləri heyvanlara aid əlamətləri oxuyur və həmin əlamətlərə uyğun canlıların adlarını yazırlar.

**Doğru cavablar:** dəvəquşu, okapi, pinqvin, zürafə.

### Danışma

3-1.3.2 **Tapşırıq A, B (dərslik).** Xəritə və suallar əsasında danışma fəaliyyəti yerinə yetirilir. Tapşırıq iki mərhələdə həyata keçirilir:

1. Şagirdlərin diqqəti yenidən şeirə yönəldilir. Şeirdə verilmiş heyvanların adları xatırlanır.

2. Müəllim aşağıdakı suallarla şagirdləri müzakirəyə cəlb edir:

– Xəritədə nə görürsünüz?

– Xəritəyə baxaraq bu heyvanların Yer kürəsində necə yayıldığı haqqında nə deyə bilərsiniz?

– Hansı heyvanlara Yer kürəsində daha çox rast gələ bilərik?

– Azərbaycanda hansı heyvanlar təsvir edilib?

– Hansı heyvanlar soyuq ərazilərdə yaşayırlar?

– Şeirdə adıçəkilən heyvanlar xəritədə hansı materiklərin üzərindədir?

– Bu heyvanların hansı xüsusiyyətləri var?

**Tapşırıq C (dərslik).** Müəllim danışma üzrə fəaliyyəti yekunlaşdırmaq üçün sual verir:

– *Bəs siz hansı heyvanlarda qəribə xüsusiyyətlər görmüsünüz? Hansı heyvanlar haqqında öyrənmək istərdiniz?*

### Dil qaydaları

**Tapşırıq C (iş dəftəri). Fəndaxili şaquli inteqrasiya (2-ci sinif. Daxili əlifbaya görə sözləri sıralayır (st. 4.1.4)).** Tapşırıq daxili əlifba sırasına uyğun sözlərin düzülməsi üzrə biliklərin möhkəmlənməsinə xidmət edir. Şagirdlər şeirdə adıçəkilən heyvanları əlifba sırası ilə nömrələyirlər.

**Doğru cavab:** 1 – bəbir, 2 – canavar, 3 – ceyran, 4 – kenquru, 5 – koala, 6 – manqust, 7 – maral, 8 – okapi, 9 – pələng, 10 – pinqvin, 11 – zebr, 12 – zürafə.

**Diferensial təlim**
Müəllim çətinlik çəkən şagirdlərin əlifba sırasını xatırlaması üçün şərait yarada bilər.

### Yazı

3-4.1.1 **Tapşırıq Ç (iş dəftəri).** Tapşırıq söz sonunda b, d, g, c samitlərinin düzgün yazılış qaydasının tətbiqinə yönəlib. Şagirdlər bu tapşırıqda *pələng, rəngbərəng, ağac* sözlərinin düzgün yazılışını müəyyən edir və cümlədə işlədirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şeirdəki tanış olmayan sözləri müəyyən edir. | “Qəribə heyvanlar” şeiri |
| Əldə etdiyi məlumatlar əsasında varlıqların oxşar xüsusiyyətlərini müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Verilmiş izahın aid olduğu sözü müəyyən edir. | Tap. B (iş dəftəri) |
| Əldə etdiyi məlumatlar əsasında xəritəni şərh edir. | Tap. A, B (dərslik) |
| B, c, d, g samitləri ilə bitən sözlərin düzgün yazılışını müəyyən edir. | Tap. C (iş dəftəri) |

fəsil 1

# MAMONT VƏ FİL

## 1-ci dərs. Mamont balası

• Dərslik: səh. 58–59 • İş dəftəri: səh. 38

**Təlim məqsədləri**
• Müzakirə zamanı mövzuya uyğun fikirlər bildirir (st. 3-1.2.1).
• Obrazların nitqini onların xarakterinə uyğun səsləndirir (st. 3-2.1.2).
• Mətndə açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir (st. 3-2.2.1).

• **Köməkçi vasitələr (təchizat):** Mamont və fil şəkli, nəsli kəsilmiş heyvan haqqında məlumat.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mamont və fil haqqında sual-cavab |
| 2 | **Danışma** | Mövzu üzrə danışma |
| 3 | **Oxu. Söz ehtiyatı** | “Mamont balası” mətninin oxusu; “söz boğçası” üzrə iş |
| 4 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə mamont və filin şəklini nümayiş etdirir və bu heyvanlar haqqında bildiklərini soruşur.

### Danışma

3-1.2.1 **Tapşırıq A (dərslik).** Müəllim suallarla şagirdləri müzakirəyə cəlb edir:

*– Bəzi heyvanları niyə nəsli kəsilmiş heyvanlar adlandırırlar?*

*– Hansı nəsli kəsilmiş heyvanları tanıyırsınız?*

*– Sizcə, heyvanların nəslinin kəsilməsinə nə səbəb olur?*

*– Bunun qarşısını almaq üçün nə etmək olar?*

### Oxu. Söz ehtiyatı

3-2.1.2 **“Söz boğçası” rubrikası.** Müəllim şagirdlərin diqqətini “söz boğçası”na yönəldir və şagirdlər sözlərin mənasını təxmin edirlər. Sonra isə müəllim sözləri dəqiq izah edir. Müəllim izah zamanı heyvanların şəkillərini nümayiş etdirir.

**“Mamont balası” mətni. Rollu oxu.** Şagirdlər

onlara verilmiş vaxt ərzində “Mamont balası” mətnini səssiz oxuyurlar. Bu zaman obrazların nitqinə diqqət edir, onların keçirdiyi hisslərlə tanış olurlar. Müəllim obrazların nitqini şagirdlər arasında bölüşdürür. Mətnin I hissəsində müəllif, mamont balası, ayı balası və morj, II hissəsində isə mamont balası, meymun, begemot və fil obrazlarının nitqi verilmişdir. Bu dəfə şagirdlər mətni səsli oxuyurlar. Müəllim oxu zamanı şagirdlərin jest və mimikalardan yerində istifadə etməsinə, obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə səsləndirməsinə diqqət yetirir.

**Müəllimin nəzərinə!** Bu cür mətnləri “Rollu oxu” üsulu ilə oxumaq şagirdlərdə dinləyərək mətni izləmək, durğu işarələrinin köməyi ilə müəllif nitqini obrazların nitqindən fərqləndirmək kimi bacarıqları inkişaf etdirir.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər mətnlə bağlı sualları cavablandırmaqla mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

3-2.2.1 **Tapşırıq C (dərslik).** Şagirdlər baş qəhrəmanın rastlaşdığı obrazları hadisələrin ardıcıllığına uyğun sıralayırlar.

3-2.2.1 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırıqda mətnin hər iki hissəsinə aid məkan, obrazlar və əsas hadisələri yazırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş mövzu ətrafında fikirlərini şərh edir və əsaslandırır. | Tap. A (dərslik) |
| Mətni intonasiya ilə oxuyur. | “Mamont balası” mətni |
| Mətnin məzmunu ilə bağlı faktoloji sualları cavablandırır. | Tap. B (dərslik) |
| Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tap. C (dərslik) |
| Mətn və onun hissələri üzrə hekayə xəritəsi tərtib edir. | Tap. A (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq. Tapşırıq Ç (dərslik). Araşdırma. Qruplarla iş.** Layihə tapşırığının evdə yerinə yetirilməsi nəzərdə tutulub. Müəllim şagirdləri 4 qrupa ayırır. Şagirdlərə heyvanlar haqqında kitab və ya jurnallardan, ensiklopediya və ya internet resurslarından istifadə edərək məlumat toplamaq tapşırılır. Qrup üzvləri evdə bir-biri ilə əlaqə saxlayaraq tapşırığı birlikdə yerinə yetirir, növbəti dərsdə təqdim edirlər. Bu tapşırıq şagirdlərdə sinifdən kənarda da əməkdaşlıq etmək bacarığını formalaşdırır.

**Diferensial təlim**

Müəllim növbəti dərsdə C tapşırığının icrası üçün araşdırma imkanı olmayan qruplara məlumat vərəqi hazırlaya bilər.

**<u>Ağ ayı və qonur ayı</u>**

***Ağ ayı*** – Şimal Buzlu okeanın sahillərində yaşayır. Quruda yaşayan yırtıcı heyvanlar arasında ən böyüyüdür; orta çəkisi 400 kq-a yaxındır. Əsasən, suitilərlə qidalanır. O, yaxşı üzür, balıq tuta bilir.

***Qonur ayı*** – yırtıcı məməli heyvandır. Meşələrdə yaşayır. Çəkisi 340 kq-a çatır. Balaca quyruğu var. Tükü qalın, qəhvəyi-boz rəngdədir.

Qonur ayı mağaralarda yuva qurur. Adətən, tək həyat tərzi sürür. Ağaca dırmaşıb arıların yuvalarını dağıdır. Hər şey yeyir: meyvə gilələri, bal, həşərat, ət, yabanı taxıl bitkiləri və s. Qışda qonur ayı uzunmüddətli qış yuxusuna gedir.

**<u>Morj və begemot</u>**

***Morj*** – Şimal Buzlu okeanının, həmçinin Atlantik okeanının sahillərində yaşayır. Sarımtıl rəngli qalın dərisi var. Ağırlığı 1,5 tona çatır.

Qidasının əsasını kiçik dəniz heyvanları təşkil edir. Bəzən suitilərə də hücum edir.

***Begemot*** – quruda yaşayan ən iri heyvanlardan biridir. Afrikada yaşayır. Çəkisi bəzən 4 tonadək olur. Dərisi çox qalındır. Bədəninə nisbətən başı çox böyükdür. Ağzı 120 santimetrədək açılır. İri bir timsahı yarıya bölə bilir. 3 həftə yeməksiz qala bilir. 40 ildən çox yaşayır.

**<u>Şimpanze və qorilla</u>**

***Şimpanze*** – Asiya və Afrikada yaşayır. Əlləri uzun, ayaqları isə gödək olur. Boyu 135–150 sm, çəkisi isə 45–70 kq-a qədərdir.

Şimpanzelər ünsiyyət zamanı mimika və jestlərdən istifadə edir, 30-dək səs çıxarırlar. Onlar əllərini bir-birinin belinə və yaxud çiyninə vurub qucaqlaşaraq “salamlaşırlar”.

Şimpanze hətta sadə alətlər də düzəldə bilir. Əl və dişlərinin köməyi ilə iti çubuqlar düzəldir, iri yarpaqdan "fincan" kimi istifadə edib su içir.

***Qorilla*** – güclü və iri meymundur. Bu meymuna yalnız Afrikada rast gəlmək mümkündür. Qorillanın boyu 180–200 sm-ə, çəkisi isə 200 kq-a çatır. Dərisi və saçları qara rəngdədir. Yarpaq və meyvə ilə qidalanır.

Qorillalar sürü şəklində yaşayırlar. Təhlükəli heyvan kimi tanınır. Amma narahat etməsələr, insanlara hücum etməz. Təbiətdə əsas düşməni bəbirdir.

**<u>Dinozavr və ixtiozavr</u>**

***Dinozavr*** – uşaqların "Dino" adlandırdığı dinozavrlar cizgi filmlərində, adətən, xeyirxah qəhrəman kimi təsvir olunur. Təxminən 225 milyon il əvvəl yaşamış dinozavrlar planetimizdə ən böyük canlılar idi. Həmin dövrdə insanlar hələ mövcud deyildilər. Bu nəhəng sürünənlərin bəziləri bitkilərlə qidalanan təhlükəsiz dinozavrlar, digərləri isə qorxunc yırtıcılar idi.

***İxtiozavr*** – iri yırtıcı heyvan olub. Onun uzunluğu 12 m-ə çatırmış. Əvvəl quruda, sonra isə dənizdə yaşamışdır. Suya uyğunlaşdığı üçün ixtiozavrın bədəni balıq şəklinə düşmüş, burnu uzanmış, boynu itib getmişdi. Balıqlar və molyusklarla qidalanmışlar.

## **2-ci dərs.** Varlıqların müqayisəsi

• Dərslik: səh. 60 • İş dəftəri: səh. 39

**Təlim məqsədləri**

• Sətiraltı fikir və informasiyanı izah edir (st. 3-2.3.1).
• Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir (st. 3-2.3.1).
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 3-3.2.5).

• **Köməkçi vasitələr (təchizat):** araşdırma materialları.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müzakirə |
| 2 | **Danışma** | Suallar üzrə müzakirə |
| 3 | **Oxu** | Məlumatları oxumaq və varlıqları müqayisə etmək |
| 4 | **Oxuyub-qavrama** | Əldə olunan məlumatların müqayisəsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sual verir:

– *"Mamont balası" mətnində fil və mamont balasını fərqləndirən xüsusiyyətlər nə idi?*

Şagirdlər mətndə filin sözlərinə və şəklə istinad edərək *(Sən mənə oxşayırsan. Amma tüklüsən.)* suala cavab verirlər.

### Danışma

3-1.3.1 **Tapşırıq A (dərslik).** Şagirdlər mətndən fillə mamont balasının dialoqunu yenidən oxuyurlar. Müəllim sual verir: *"Əslində, ikimiz də eyni nəsildənik" ifadəsi ilə fil nə demək istəyir?* Tapşırıq şagirdlərin mətndə açıq şəkildə verilməyən informasiya haqqında düşünmək və fikir söyləmək bacarıqlarını inkişaf etdirir. Şagirdlər *nəsil* sözünün mənasını əvvəlki dərsdən öyrəniblər. Müəllim sözün mənasını yenidən yada salır. Şagirdlər müəyyən fərqləri olsa da, fillə mamont balasının oxşar olduqlarını bildirirlər. Müəllim şagirdlərin diqqətinə çatdırır ki, fillər tüklü mamontların nəslindən törəyib. Xüsusilə Asiya filinin mamontlarla qohum olduğu nəzərə çatdırılır.

### Oxu

3-2.3.1 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin oxuyub-qavrama, müqayisəli təhlil bacarıqlarının inkişafına xidmət edir. Şagirdlər müəyyən vaxt ərzində Afrika fili və tüklü mamont haqqında verilmiş məlumatları səssiz oxuyub vərəqdə heyvanlara xas olan cəhətləri qeyd edirlər. Sonra məlumatlardan istifadə edərək hər iki heyvanın oxşar və fərqli xüsusiyyətlərini müqayisəli təhlil edirlər.

**Doğru cavab:** <u>Oxşar xüsusiyyətlər:</u> hər ikisi sürü halında yaşayır, otyeyən heyvanlardır, güclü xortumları var, hündürlükləri təxminən eynidir. <u>Fərqli xüsusiyyətlər:</u> fillər isti ərazilərdə yaşayır, dərisi tüksüzdür, mamontlar nəsli kəsilmiş heyvanlardır, soyuq ərazilərdə yaşayıblar, çəkisi fildən daha çoxdur, dərisi isə tüklüdür.

**"Yadda saxla" rubrikası.** Şagirdlər varlıqların müqayisəsi haqqında rubrikada verilmiş məlumatları oxuyur, müqayisə cədvəli ilə tanış olurlar.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırıqda leylək və qaranquş haqqında verilmiş məlumatları oxuyub cədvəl üzrə qruplaşdırırlar. Tapşırıq şagirdlərin müqayisəli təhlil bacarıqlarının möhkəmləndirilməsinə xidmət edir.

**Doğru cavab:** Leyləyə aid xüsusiyyətlər: *Dimdiyi, ayaqları uzun və qırmızıdır. Evlərin damında və elektrik dirəklərində yuva qurur.*

Qaranquşa aid xüsusiyyətlər: *Ayaqları və dimdiyi qısadır, quyruğu haçalanmış formadadır. Evlərin eyvanında yuva qurur.*

Ortaq xüsusiyyətlər: *Hər ikisi köçəri quşdur, rəngi ağ və qara rənglərdən ibarətdir, həşərat və böcəklərlə qidalanır.*

### Yazı

3-3.2.5 **Tapşırıq C (dərslik). Qruplarla iş.** Tapşırıq şagirdlərin araşdırma və təqdimetmə bacarıqlarını inkişaf etdirir. Bu tapşırıq səhifə 59-da tapşırıq Ç-də verilmiş araşdırma nəticəsində əldə olunmuş materiallar əsasında həyata keçirilir. Şagirdlər qruplara ayrılaraq evdə müxtəlif heyvanlar haqqında araşdırma aparıblar. Onlar yenidən eyni tərkibdə qruplara bölünürlər. Araşdırma nəticəsində əldə etdikləri məlumatları müzakirə edib ümumiləşdirmə aparırlar. Sonra isə bu məlumatlar əsasında müqayisə cədvəli tərtib edirlər. Qrup işi bitdikdən sonra müqayisə cədvəlləri təqdim olunur.

Müəllim qruplar işə başlamazdan öncə şagirdlərə aşağıdakı qiymətləndirmə rubrikini təqdim edir:

| Meyarlar | Bəli | Qismən | Xeyr |
|---|---|---|---|
| Aydın səslə danışırdı. | | | |
| Cümlələri anlaşıqlı idi. | | | |
| Mövzudan kənara çıxmırdı. | | | |
| “Adı nədir”, “şey...” kimi yersiz ifadələrə yol vermirdi. | | | |

Müəllim rubrikə əlavə meyarlar da yaza bilər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəyyən fikirlərlə bağlı öz mövqeyini bildirir və əsaslandırır. | Tap. A (dərslik) |
| Əldə etdiyi məlumatlar əsasında varlıqların xüsusiyyətlərini təhlil edir. | Tap. B (dərslik), tap. A (iş dəftəri) |
| Əldə etdiyi məlumatlar əsasında müqayisə cədvəli tərtib edir. | Tap. C (dərslik) |

**Növbəti dərsə hazırlıq.** Şagirdlərin sayına uyğun kiçik vərəqlərdə b, d, g, c samitləri ilə bitən söz (bəzi vərəqlərdə yanlış, bəzilərində düzgün) yazılması tövsiyə olunur.

## 3-cü dərs. Söz ortasında k, t, p, q samitlərinin düzgün yazılışı

• Dərslik: səh. 61 • İş dəftəri: səh. 40

### Təlim məqsədləri

• Söz ortasında yanaşı gələn samitlərin düzgün yazılışını müəyyən edir (st. 3-4.1.1).
• Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir (st. 3-3.1.2).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sözlərin yazılışındakı səhvlərin müəyyən edilməsi |
| 2 | **Dil qaydaları** | Söz ortasında k, t, p, q samitlərinin düzgün yazılış qaydasının mənimsədilməsi |
| 3 | **Yazı** | Cümlələrin orfoqrafik normalara uyğun yazılması |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə hazırladığı vərəqləri paylayır. Şagirdlər vərəqlərdəki sözün düzgün yazılışını yoxlayırlar. Müəllim soruşur:

– *Kimin vərəqindəki söz yanlışdır?*

Həmin şagirdlər ayağa qalxıb sözün düzgün yazılışını izah edib əsaslandırırlar. Bununla da şagirdlər söz sonunda bəzi samitlərin düzgün yazılış qaydasını xatırlayırlar.

### Dil qaydaları

3-4.1.1 **Tapşırıq A (dərslik).** Tapşırıq şagirdlərin diqqətini söz ortasında bəzi samitlərin düzgün yazılışına yönəltmək məqsədi daşıyır. Şagirdlər mətnə əsasən cümlələrdə səhv yazılmış sözlərin düzgün yazılışını müəyyən edirlər.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim söz ortasında yanaşı gələn samitlərin (k, t, p, q) düzgün yazılış qaydası haqqında məlumatları şərh edir. Nümunələr təhlil olunur.

**Tapşırıq B, C (dərslik).** Tapşırıqlar söz ortasında yanaşı gələn eynicinsli qoşa samitlərin yazılışı ilə bağlı mənimsədilmiş dil qaydasının möhkəmləndirilməsinə xidmət edir. Tapşırıqların kollektiv müzakirə ilə yerinə yetirilməsi tövsiyə edilir.

### Yazı

3-3.1.2 **Tapşırıq A, C (iş dəftəri).** Şagirdlər səhv yazılmış sözləri müəyyənləşdirməklə dil qaydasını mənimsədiklərini nümayiş etdirirlər.

Doğru cavab: **Tap. A:** 1 – C, 2 – Ç, 3 – B, 4 – C.

**Tap. C:** xəstə, bitki, haqqında, Rüstəm, cikkilti, bostan.

**Müəllimin nəzərinə!** Bu tipli tapşırıqların yoxlanmasına şagirdlərin özlərini cəlb etmək onların biliklərinin möhkəmlənməsinə kömək edir. Şagirdlər özlərinin və ya bir-birinin yazılarını lüğət vasitəsilə yoxlaya bilərlər.

**Tapşırıq Ç (dərslik).** Tapşırığın əsas məqsədi söz ortasında yanaşı işlənən fərqli samitlərin yazılışına dair biliklərin möhkəmləndirilməsidir.

Doğru cavab: şaftalı, həftəsonu, səpgi, itki, nöqsan, məqsəd.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər dil qaydasına əsasən sözlərin düzgün yazılışını müəyyən edib nöqtələrin yerinə uyğun hərfləri yazırlar.

Doğru cavab: *doqquz, isti, taqqıltı, şappıldadıb, quqquluqu, Məstan, guppultu, diqqətlə, çaqqal.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz ortasında qoşa samitlərin düzgün yazılışını müəyyən edir. | Tap. B (dərslik), A, B (iş dəftəri) |
| Söz ortasında fərqli samitlərin düzgün yazılışını müəyyən edir. | Tap. Ç (dərslik) |
| Başqasının yazısında orfoqrafik səhvləri müəyyən edir və yazır. | Tap. C (dərslik), tap. C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə dərslikdə D tapşırığının yerinə yetirilməsi üçün A3 vatman kağızı, rəngli markerlər lazım olacaq.

# fəsil 2 NADİR MEŞƏ HEYVANLARI

## 1-ci dərs. "Koala"

• Dərslik: səh. 62–63 • İş dəftəri: səh. 41

**Təlim məqsədləri**

- Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
- Mətni intonasiya ilə oxuyur (st. 3-2.1.1).
- Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
- Mətnin tərkib hissələrini, sturuktur elementlərini onun əsas məzmunu ilə əlaqələndirir (st. 3-2.4.3).
- Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 3-3.2.5).

• **Köməkçi vasitələr (təchizat):** A3 vatman kağızı, rəngli markerlər.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Meşə heyvanları haqqında sual-cavab |
| 2 | **Danışma** | Koala haqqında söhbət |
| 3 | **Oxu** | "Koala" mətninin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş |
| 5 | **Danışma** | Koalaların qorunması haqqında müzakirə |
| 6 | **Yazı** | Mövzuya uyğun plakatın hazırlanması |
| 7 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Müəllim sual verir:

*– Nadir meşə heyvanları dedikdə nə başa düşürsünüz?*

**Danışma**

3-1.3.3 **Tapşırıq A (dərslik).** Müəllim “Qəribə heyvanlar” şeirini yada salır:

*– Şeirdə hansı kisəli heyvanların adları çəkilmişdi? Niyə onları belə adlandırırlar?*

Şagirdlər kisəli heyvanlar haqqında bildiklərini danışırlar.

**Oxu**

3-2.1.1 **“Koala” mətni. Növbəli oxu.** Şagirdlərin diqqəti şəklə yönəldilir:

*– Koala haqqında nə bilirsiniz?*

“Koala” mətni növbəli şəkildə oxunur. Mətn oxunduqdan sonra müəllim suallar verir:

*– Koala haqqında nə öyrəndiniz?*

*– Hansı məlumat maraqlı oldu?*

**Oxuyub-qavrama**

3-2.2.1 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin mətni oxuyub-qavrama bacarıqlarını inkişaf etdirir. Şagirdlər mətn əsasında doğru və yanlış məlumatları müəyyən edirlər.

Doğru cavab: 1 – D, 2 – Y, 3 – D, 4 – D, 5 – Y, 6 – Y.

**Tapşırıq A (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər mətndən öyrəndikləri məlumatlar əsasında suallara cavab yazmaqla həm oxuyub-qavrama, həm də yazı bacarıqlarını inkişaf etdirirlər.

3-2.4.3 **Tapşırıq B (iş dəftəri).** Tapşırığın əsas məqsədi mətn strukturu ilə bağlı biliklərin möhkəmləndirilməsidir. Şagirdlər artıq əvvəlki dərslərdən informativ mətnin hissələri ilə tanışdırlar. Müəllim sual verməklə informativ mətn və hissələri üzrə bilikləri yada salır:

*– Mətn bədii, yoxsa informativ mətndir?*

*– İnformativ mətnin hansı hissələri var?*

*– “Koala” mətninin hər bir hissəsində nədən danışılır?*

Müzakirədən sonra şagirdlər tapşırığın icrasına başlayırlar. Bir daha mətnin giriş hissəsi oxunur və sonra tapşırıqda verilmiş cümlələr içərisindən bu hissəyə uyğun fikirlər seçilir.

Doğru cavab: Avstraliyada müxtəlif kisəli heyvanlar yaşayır. Koala Avstraliyada yaşayan kisəli heyvanlardan biridir.

**Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin nəticə çıxarma bacarığının və yaradıcı təfəkkürünün inkişafına xidmət edir. Tapşırıq üç mərhələdə həyata keçirilir:

1. Şagirdlər əvvəlcə illüstrasiya və şüar arasındakı əlaqəni müəyyənləşdirib müzakirə aparırlar.

Birinci plakatda ağacda oturan ana koalanın kisəsində balası təsvir edilmişdir. “Balalarımızı qoruyaq” şüarı ana məsuliyyətini və qayğıkeşliyini ifadə edir.

İkinci plakatda koala balalarının bir-birinə dəstək olduqları göstərilir.

Üçüncü plakatı şagirdlər təxminən belə izah edə bilərlər:

– Koalalar evkalipt ağacında yaşayır və bu ağacın yarpaqları ilə qidalanırlar. İnsanların ağacları qırması onların yaşayış yerini itirməsinə və ac qalmasına səbəb olur.

Beləliklə, şagirdlər verilmiş şüarlar və təsvirləri əlaqələndirərək ümumi mənanı izah edirlər.

2. Sonra şagirdlərin diqqəti mətnin son abzasına yönəldilir. Bu abzas yenidən oxunur və koalaların məhvolma səbəbləri müzakirə edilir.

3. Sonuncu abzasın məzmununa uyğun olan plakat müzakirə edilir.

Doğru cavab: 3-cü plakat.

**Danışma**

**Tapşırıq Ç (dərslik).** Şagirdlərin diqqəti koalaların məhvolma səbəblərinə yönəldilir:

*– Koalanın məhv olmasına səbəb nədir?*

*– Meşə yanğınları nə üçün baş verir?*

*– Kütləvi ovlanma nədir?*

*– Koalaların məhv olmasının qarşısını necə almaq olar? Onların sayını necə artıra bilərik?*

**Müəllimin nəzərinə!** Şagirdlərin 2-ci sinifdə ətraf mühit mövzusunda əldə etdikləri məlumatları xatırlatmaq tövsiyə olunur.

**Yazı**

3-3.2.5 **Tapşırıq D (dərslik). Qruplarla iş.** Tapşırığı qruplarla iş formasında yerinə yetirmək tövsiyə olunur. Hər qrupa vatman kağızı və ya A3 vərəqi təqdim olunur və mövzuya uyğun plakat hazırlamaq tapşırılır.

**Müəllimin nəzərinə!** Şagirdləri qruplara bölərkən hər bir qrupda rəsm çəkməyi bacaran bir şagirdin olmasına diqqət etmək lazımdır.

**Tapşırıq təxminən aşağıdakı mərhələlərlə yerinə yetirilir:**

1. Qrup üzvləri əvvəlcə mövzu ətrafında şüarlar düşünüb yazırlar. Təklif olunan şüarları müzakirə edib daha uğurlu olanını seçirlər.

2. Plakatda mövzuya uyğun çəkəcəkləri şəkli müzakirə edirlər. Plakat üçün uyğun şəkli müəyyənləşdirirlər. Şəkli və mətni plakatda necə yerləşdirəcəklərini qərarlaşdırırlar.

Müzakirələr bitdikdən sonra qruplar işə başlayırlar. Şüarın plakat üzərində diqqəti cəlb etməsi üçün tünd rəngli markerlər seçilir. Şüar iri hərflərlə yazılır. Daha sonra qruplar hazırladıqları plakatları təqdim edirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi mövzu üzrə danışır. | Tap. A (dərslik) |
| Mətnlə bağlı faktoloji sualları cavablandırır. | Tap. B (dərslik), tap. A (iş dəftəri) |
| Mətnin giriş hissəsinə uyğun məlumatları seçir. | Tap. B (iş dəftəri) |
| Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. C (dərslik) |
| Verilmiş mövzuda plakat hazırlayır. | Tap. D (dərslik) |

## **2-ci dərs.** Mətnə uyğun yarımbaşlıqların yazılması

• Dərslik: səh. 63–64 • İş dəftəri: səh. 42

**Təlim məqsədləri**

• Mətnə aid məlumatları hissə və ya yarımbaşlıqlarla uyğunlaşdırır (st. 3-2.4.3).
• Mətnin abzaslarını uyğun yarımbaşlıqlarla adlandırır (st. 3-2.4.3).
• Araşdırma materialları əsasında kiçikhəcmli informativ mətn yazır (st. 3-3.2.3).

• **Köməkçi vasitələr (təchizat):** Oxlu kirpi haqqında araşdırma materialları.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | İnformativ mətnin strukturunun təhlili |
| 2 | **Oxu** | “Zolaqlı tenrek” mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətnin hissələrinə və yarımbaşlıqlarına uyğun məlumatların müəyyən olunması |
| 4 | **Yazı** | Araşdırma materialları əsasında informativ mətnin yazılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim əvvəlki dərsdə müzakirə edilən “Koala” mətninin giriş, əsas və sonluq hissələrindəki məlumatları xatırladır.

### Oxuyub-qavrama

3-2.4.3 **Tapşırıq A (dərslik). Kollektiv iş.** Şagirdlər verilmiş cümlələri oxuyurlar. Verilən əlavə məlumatların hansı hissəyə uyğun olduğu müəyyən edilir.

**Doğru cavab:**
1-ci cümlə – əsas hissə
2-ci cümlə – giriş
3-cü cümlə – əsas hissə
4-cü cümlə – sonluq

**“Yadda saxla” rubrikası.** Müəllim şagirdlərin diqqətini mətndə verilən yarımbaşlıqlara yönəldir. Yarımbaşlıqlarla həmin hissədə verilən məlumatlar arasında məzmun əlaqəsi təhlil edilir.

**Diferensial təlim**

“Koala” mətnində yarımbaşlıqların sual cümləsi şəklində ifadə olunması şagirdlərin diqqətinə çatdırılır. Yüksək nailiyyətli şagirdlərə cümlələrin aid olduğu yarımbaşlıqları söz birləşməsi şəklində ifadə etməyi tapşırmaq olar. Şagirdlər təxmini olaraq aşağıdakı cavabları verə bilərlər: *Koalanın görünüşü; Koalanın vətəni; Koalanın yaşayış tərzi; Koalanın qidalanması.*

**Tapşırıq B (dərslik).** Tapşırığın məqsədi şagirdlərə yarımbaşlıqların mətndəki rolunu mənimsətməkdir: *yarımbaşlıqlar oxucuya lazım olan məlumatı tez tapmağa kömək edir.* Şagirdlər hər bir suala cavab tapmaq üçün müraciət edəcəkləri uyğun yarımbaşlığı müəyyən edirlər. Doğru cavab: 1 – Koala nə ilə qidalanır?; 2 – Koalanın görünüşü necədir?; 3 – Koala harada yaşayır?; 4 – Koalanın görünüşü necədir?; 5 – Koala necə yaşayır?

3-2.4.3 **Tapşırıq C (dərslik). Səssiz oxu.** Tapşırıq şagirdlərin mətn strukturu üzrə bilik və bacarıqlarının möhkəmləndirilməsinə xidmət edir.

**Cütlərlə iş.** Şagirdlər mətnlə tanış olduqdan sonra cütlərə ayrılaraq mətndə verilmiş abzasları uyğun yarımbaşlıqlarla adlandırırlar.

Şagirdlərin cavabları təxminən belə ola bilər:
1-ci abzas – Zolaqlı tenrek harada yaşayır?
2-ci abzas – Zolaqlı tenrekin bədən ölçüləri

necədir?

3-cü abzas – Zolaqlı tenrekin görünüşü necədir?

4-cü abzas – Zolaqlı tenrek ətraf mühitə necə uyğunlaşır?

5-ci abzas – Zolaqlı tenrek nə ilə qidalanır?

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər öz yazdıqları variantlarla burada verilən variantları müqayisə edirlər. Müəllim şagirdlərə sual verir:

*– Bu yarımbaşlıqları söz birləşməsi şəklində necə ifadə edə bilərsiniz?*

Müəllim şagirdlərin fikirlərini dinləyir, lövhədə mətn üçün uyğun hesab etdiyi yarımbaşlıqları söz birləşməsi şəklində yazır.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər əvvəlki dərslərdə təqdim olunmuş yeni məlumatları mətnin hissələri ilə uyğunlaşdırırdılarsa, bu tapşırıqda isə yeni məlumatları mətnin yarımbaşlıqları ilə uyğunlaşdırırlar. Burada diqqət cümlələrin məzmununa və açar sözlərə yönəldilir.

**Doğru cavab:**

1-ci cümlə – Tenrekin qidalanması

2-ci cümlə – Tenrekin yaşayışı

3-cü cümlə – Tenrekin görünüşü

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər yaquar haqqındakı məlumatlarla tanış olduqdan sonra hər bir hissəyə uyğun yarımbaşlıq yazırlar. Tapşırıq fərdi olaraq yerinə yetirilir.

Şagirdlərin cavabları belə ola bilər: *Yaquar necə heyvandır? Yaquarın görünüşü necədir? Yaquar necə qidalanır? Yaquar necə yaşayır?*

**Yazı**

3-3.2.3 **Tapşırıq D (dərslik).** Şagirdlərdən oxlu kirpi haqqında topladıqları məlumatlar əsasında informativ mətn yazmaq tələb edilir.

Tapşırıq üç mərhələdə yerinə yetirilir:

1. Şagirdlərin yaş səviyyələri nəzərə alınaraq informativ mətnin giriş və sonluq hissələrinə uyğun cümlələr tapşırıqda təqdim edilmişdir. Şagirdlər seçim yolu ilə yazacaqları informativ mətnin giriş və sonluğu üçün cümlələri müəyyən edirlər.

**Doğru cavab: Giriş hissə:** Azərbaycanda rast gəlinən nadir heyvanlardan biri də oxlu kirpidir. Oxlu kirpi məməli heyvandır.

**Sonluq hissə:** Son dövrdə sayı xeyli azalmışdır. Nəsli kəsilmək üzrə olduğundan ovlanması qadağan edilmişdir.

2. Şagirdlər oxlu kirpi haqqında araşdırdıqları məlumatları yarımbaşlıqlar altında qruplaşdırmaqla mətnin əsas hissəsini müəyyənləşdirirlər.

3. İnformativ mətn yazılır və təqdim edilir.

Müəllim təqdimatdan əvvəl mətnin yazılmasının yoxlanmasına uyğun rubrik təqdim edir. Rubrik müzakirə edilir. Şagirdlər verilmiş meyarlar əsasında mətnlərini yoxlayırlar və müzakirə edirlər.

| Meyarlar | Bəli | Qismən | Xeyr |
|---|---|---|---|
| Məlumatlar mövzuya uyğun toplanmışdır. | | | |
| Mətndə yarımbaşlıqlar yazılmışdır. | | | |
| Məlumatlar yarımbaşlıqlara uyğun yazılmışdır. | | | |
| Mətnin giriş və sonluq hissələri yazılmışdır. | | | |

**Şagirdlərin qurduqları mətn təxmini belə ola bilər:**

**Giriş hissə:** Azərbaycanda rast gəlinən nadir heyvanlardan biri də oxlu kirpidir. Oxlu kirpi məməli heyvandır.

**Oxlu kirpinin görünüşü necədir?**

Oxlu kirpinin uzunluğu təqribən 80 santimetr, çəkisi 13 kiloqramdır. Bədəni iynələrlə örtülüb. İynələrin uzunluğu bəzən yarım metrə çatır. Oxlu kirpi iynələri ilə özünü müdafiə edir. İynələri ona suyun üzündə qalmağa kömək edir.

**Oxlu kirpi necə qidalanır?**

Bu heyvanların dişləri çox möhkəmdir. O, müxtəlif bitkilərin kökü, habelə alma, itburnu, yemişanla qidalanır.

**Oxlu kirpi harada yaşayır?**

Əsasən, gecə həyatı sürür. Oxlu kirpilər Avropa, Afrika, Hindistan, Amerikada yaşayır. Azərbaycan meşələrində də oxlu kirpilərə rast gəlinir.

**Sonluq hissə:** Son dövrdə sayı xeyli azalmışdır. Nəsli kəsilmək üzrə olduğundan ovlanması qadağan edilmişdir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin hissələrinə uyğun əlavə məlumatları müəyyən edir. | Tap. A (dərslik) |

| | |
|---|---|
| Suala cavab vermək üçün uyğun yarımbaşlığa müraciət edir. | Tap. B (dərslik) |
| Mətnin abzaslarına uyğun yarımbaşlıqları sual cümləsi və ya söz birləşməsi ilə ifadə edir. | Tap. C (dərslik), tap. B (iş dəftəri) |
| Mətnin abzasları ilə yarımbaşlıqları uyğunlaşdırır. | Tap. A (iş dəftəri) |
| Verilən məlumatlarla yarımbaşlıqları uyğunlaşdırır. | Tap. Ç (dərslik) |
| Araşdırma materialları əsasında kiçikhəcmli informativ mətn yazır. | Tap. D (dərslik) |

## **3-cü dərs.** Söz, söz birləşməsi və cümlə

• Dərslik: səh. 65 • İş dəftəri: səh. 43

**Təlim məqsədləri**

• Söz, söz birləşməsi və cümləni bir-birindən fərqləndirir (st. 3-4.2.2).
• Sözlər arasında məna əlaqəsini müəyyən etməklə söz birləşməsi və cümlələr qurur (st. 3-4.2.2).
• Plan quraraq nəqli xarakterli mətn yazır (st. 3-3.2.2).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Cümlələrin müəyyən edilməsi |
| 2 | **Dil qaydaları** | Söz birləşməsi və cümləni fərqləndirmə; cümlə qurma |
| 3 | **Yazı** | Mətn yazma |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini tapşırıqda verilmiş söz sıralarına yönəldir və soruşur:

*– Hansı söz sırası koala haqqında məlumat verir? (C və D) Sonlarında nə üçün nöqtə qoyulmuşdur? Bu cür söz sırasını nə adlandırırıq? (Cümlə)*

### Dil qaydaları

**“Bunları bilməliyik” rubrikası.** Müəllim rubrikadakı məlumat əsasında söz, söz birləşməsi və cümlə anlayışlarını şərh edir, onlar arasındakı fərqli əlamətləri sadalayır.

3-4.2.2 **Tapşırıq B (dərslik). Kollektiv iş.** Müəllim lövhədə cədvəli çəkir. Şagirdlər verilmiş söz sıralarından söz birləşməsi və cümlələri fərqləndirib cədvəlin xanaları üzrə qruplaşdırırlar.

**“Diqqət et” rubrikası.** Şagirdlər 1-ci bölmədə öyrəndilər ki, qrammatik şəkilçilərin əsas funksiyası cümlədə sözlər arasında əlaqə yaratmaqdır. İndi isə söz birləşməsi və cümlə qurmaq üçün bu şəkilçilərin rolunu bir daha xatırlayırlar. Dil qaydaları arasında inteqrasiya yaratmaq müvafiq bilik və bacarıqların möhkəmləndirilməsinə kömək edir.

3-4.2.2 **Tapşırıq C (dərslik).** Tapşırıq “Diqqət et” rubrikasında verilmiş biliklərin mənimsədilməsinə xidmət edir.

Şagirdlər verilmiş söz və ya söz birləşmələrinə uyğun şəkilçilər artıraraq cümlələr qururlar.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər verilmiş sözlərə məna uyğunluğu olan sözlər artıraraq söz birləşmələri düzəldirlər.

**Tapşırıq B (iş dəftəri).** Tapşırığın məqsədi şagirdlərin cümlə qurmaq bacarıqlarının inkişafına yönəlmişdir. Şagirdlər nisbətən çətin olan bu tapşırığı iki mərhələdə yerinə yetirirlər.

1. Cümlə qurmaq üçün ilkin olaraq söz və ya söz birləşmələrinin düzgün sırasını müəyyən edirlər.

2. Söz və ya söz birləşmələrinə uyğun şəkilçilər artırmaqla cümlələr qurur və yazırlar.

### Yazı

3-3.2.2 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər tapşırığı iki mərhələdə yerinə yetirirlər:

1. Şagirdlər empirik olaraq onlara verilmiş söz və ya söz birləşmələri arasında məna və qrammatik əlaqə yaradıb cümlələr qururlar.

2. Qurduqları cümlələri məntiqi ardıcıllıqla sıralayaraq mətn yazırlar.

Mətn təxmini belə ola bilər:

*Kəndimizin kənarında sıx meşə var. Meşədə dovşan, sincab, ağacdələn, turac kimi heyvanlar və quşlar yaşayır. Kəndimizin uşaqları dərsdən sonra meşəyə gedirlər. Onlar meşədə dincəlir, oyun oynayırlar.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümləni söz və ya söz birləşməsindən fərqləndirir. | Tap. B (dərslik) |
| Sözlər arasındakı məna əlaqəsinə əsasən söz birləşməsi yaradır. | Tap. A (iş dəftəri) |
| Verilmiş söz və ya söz birləşməsinə uyğun şəkilçilər artırmaqla cümlə qurur. | Tap. C (dərslik), tap. B (iş dəftəri) |
| Verilmiş açar söz və söz birləşmələrindən istifadə edərək mətn yazır. | Tap. C (iş dəftəri) |

## fəsil 3 MANQUST

## 1-ci dərs. Rikki-Tikki-Tavi (I hissə)

• Dərslik: səh. 66–67 • İş dəftəri: səh. 44

**Təlim məqsədləri**

• Şəkildə təqdim olunan məlumatları şərh edərək mövzu üzrə rabitəli danışır. (st. 3-1.3.2).
• Mətni sürətli, səlis, aydın səslə oxuyur (st. 3-2.1.1).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Mətnin tərkib hissələrini, sturuktur elementlərini onun əsas məzmunu ilə əlaqələndirir (st. 3-2.4.3).
• Tanış olduğu məlumatları yazıda əks etdirir (st. 3-3.2.1).
• Mətni məzmun və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır (st. 3-2.4.2).

• **Köməkçi vasitələr:** dərziquşu şəkli.
• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | İlan haqqında söhbət |
| 2 | **Danışma** | Şəkillər üzrə danışma |
| 3 | **Oxu** | “Rikki-Tikki-Tavi” mətninin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş |
| 5 | **Yazı** | Epizodların təsvir edilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Suallar: *Heç ilan görmüsünüzmü? Nə üçün insanlar ilandan qorxur? “İlanın ağına da lənət, qarasına da” atalar sözünü necə başa düşürsünüz?*

### Danışma

3-1.3.2 **Tapşırıq A (dərslik).** Müəllim sual verir:

– *Şəkildə hansı heyvanları görürsünüz? “Qəribə heyvanlar” şeirində manqust haqqında hansı məlumatı öyrənmişdiniz?*

Sonra şagirdlər şəklə baxaraq kirpi və manqustun ilanla döyüşə bilməsi haqqında danışırlar.

### Oxu

3-2.1.1 **“Rikki-Tikki-Tavi” mətni. Növbəli oxu.** Müəllim əvvəlcə şagirdlərin diqqətini mətnin adına və şəkillərə yönəldir.

– *Sizcə, Rikki-Tikki-Tavi nə adıdır? Mətndə hansı heyvandan danışılır?*

Şagirdlər mətni növbəli oxuyurlar. Giriş hissə oxunduqdan sonra müəllim dərziquşu şəklini nümayiş etdirir və soruşur:

– *Sizcə, bu quşun adı nə üçün dərziquşudur? Dərzi nə deməkdir?*

Sonra isə məlumat verir.

*Dərziquşu Hindistanda yaşayır. Dərziquşuları dimdiklərindən iynə kimi istifadə edirlər. Böyük bir yarpaq parçasının kənarında iti dimdiyi ilə deliklər açaraq bitki liflərini deliklərdən keçirir və digər yarpaqlarla bir-birinə tikir. İç hissəsini isə növbənöv ot, saman kimi maddələrlə örtərək yuvasını tikir.*

Sonra mətnin davamı oxunur. “Bu, qara rəngli, qəddar baxışlı, nəhəng bir kobra* idi” cümləsinə qədər oxunur və müəllim sual verir:

– *Kobra haqqında nə bilirsiniz?*

Kobra haqqında verilmiş haşiyə və mətnin davamı oxunur.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin oxuyub-qavrama bacarıqlarını inkişaf etdirir.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər obrazları müəyyən etməklə mətni qavradıqlarını nümayiş etdirirlər.

3-2.4.3 **Tapşırıq C (dərslik).** Tapşırıq vasitəsilə şagirdlərin diqqəti mətnin kənarında verilmiş əlavə məlumatlara yönəldilir.

3-2.4.2 **Tapşırıq Ç (dərslik).** Şagirdlərin yaradıcı təfəkkürünün inkişafına xidmət edir. Şagirdlər mətndə baş verən hadisələrə və obrazların davranışına uyğun olaraq mətnin davamını təxmin edib danışırlar.

**"Yadda saxla" rubrikası.** Müəllim rubrikada haşiyə haqqında verilmiş məlumatı şərh edir.

**Müəllimin nəzərinə!** "Haşiyə" anlayışını şagirdlərə mənimsətmək üçün ensiklopediya və jurnallardan müxtəlif haşiyə nümunələrini şagirdlərə nümayiş etdirmək olar.

### Yazı

3-3.2.1 **Tapşırıq B (iş dəftəri).** Müəllim suallar verir:

– *Mətndə hansı epizod sizə daha maraqlı gəldi? Hansı epizodu əsas hesab edirsiniz? Mətnin son epizodunda nə baş verdi?* Sonra şagirdlər tapşırıqdakı şəkillərə uyğun epizodları təsvir edib yazırlar.

**Diferensial təlim**

Çətinlik çəkən şagirdlər mətndə həmin hissələri tapıb oxuya və mətndəki cümlələrdən istifadə edə bilərlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkil əsasında mövzu üzrə danışır. | Tap. A (dərslik) |
| Mətni oxuyarkən müvafiq səs tonu seçir. | "Rikki-Tikki-Tavi" mətni |
| Mətndəki məlumatlarla bağlı suallara cavab verir. | Tap. B (dərslik) |
| Verilmiş nitqin hansı obraza aid olduğunu müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Mətnin epizodlarını öz sözləri ilə yazır. | Tap. B (iş dəftəri) |
| Mətnin davamını təxmin edir. | Tap. Ç (dərslik) |

## 2-ci dərs. Rikki-Tikki-Tavi (II hissə)

• Dərslik: səh. 68–69 • İş dəftəri: səh. 45

**Təlim məqsədləri**

• Mətni məzmun və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır (st. 3-2.4.2).
• Mətnin məzmununa uyğun hekayə xəritəsini tamamlayır. (st. 3-2.2.1).
• Mətnin tərkib hissələrini, sturuktur elementlərini (yarımbaşlıqları) onun əsas məzmunu ilə əlaqələndirir (st. 3-2.4.3).
• Xüsusi isimlərin böyük hərflə yazılış qaydasına əməl edir (st. 3-3.1.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mətnin davamı ilə bağlı təxminlərin xatırlanması |
| 2 | **Oxu** | "Rikki-Tikki-Tavi" mətninin davamının oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətnin hissələrinə uyğun yarımbaşlıqların müəyyən edilməsi |
| 4 | **Dil qaydaları** | Xüsusi isimlərin düzgün yazılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Ötən dərsdə şagirdlər mətnin davamı ilə bağlı öz versiyalarını irəli sürmüşdülər. Müəllim şagirdlərin təxminlərini yada salır.

### Oxu

3-2.4.2 **Tapşırıq A (dərslik). Proqnozlaşdırılmış oxu.** Şagirdlər mətnin oxusuna başlayırlar. Mətn "Gecə vaxtı Naqla Naqaynanın söhbətini eşidən Çuçundra tez Rikkinin yanına qaçdı" cümləsinə qədər oxunur. Müəllim soruşur:

– *Sizcə, Çuçundra ilanların planının qarşısını ala biləcəkmi?*

Şagirdlər öz təxminlərini irəli sürürlər. Mətnin davamı "Bunu görən Rikki onun üstünə tullandı" cümləsinə qədər oxunur. Müəllim soruşur:

– *Sizcə, Rikki ilana qalib gələ biləcəkmi?*

Şagirdlər öz təxminlərini irəli sürürlər. Mətn "O, Rikkini də sürüyərək yuvasına apardı" cümləsinə qədər oxunur. Müəllim sual verir:

– *Sizcə, Rikki sağ qalacaqmı?*

Mətn sona qədər oxunur.

Şagirdlərin mətni oxuyub-qavramalarını yoxlamaq üçün suallar: *Kobralar niyə qəzəblənmişdi? Qisas almaq üçün necə plan qurdular? Kobraların planını kim pozdu? Döyüşün sonunda kim qalib gəldi?*

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik). İnteqrasiya dil qaydası.** Şagirdlər heyvanlara uyğun obrazların adlarını müəyyən edirlər. Nəyə görə böyük hərflə yazıldığını qeyd edirlər.

3-2.2.1 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətndə hadisənin baş verdiyi məkanı, baş qəhrəmanı və digər obrazları, hər iki hissəyə uyğun əsas epizodları müəyyən edərək hekayə xəritəsini tamamlayırlar.

**Doğru cavab:** Məkan – çayın qırağında evdə; baş qəhrəman – Rikki; obrazlar: Teddi və atası, Darsi, Çuçundra.

1-ci hissə üzrə epizodlar: *Teddinin ailəsinin Rikkini xilas etməsi; Rikki ilə Teddinin dost olması; Naqın Darsinin balasını yeməsi; Rikki ilə Naqın qarşılaşması.*

2-ci hissə üzrə epizodlar: *Naq və Naqaynanın intiqam planı; Çuçundranın plandan xəbər tutması; Naqın evə girməsi; Rikkinin Naqı öldürməsi; Naqayna ilə Rikkinin döyüşü; Rikkinin qalib gəlməsi.*

3-2.4.3 **Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin oxuyub-qavrama və yarımbaşlıq üzrə bilik və bacarıqlarının möhkəmləndirilməsinə xidmət edir. Tapşırıq mətnin birinci və ikinci hissələri üzrə ümumiləşdirici xarakterlidir. Ona görə də əvvəlcə mətnin hər iki hissəsi suallarla xatırlanır:

– *Mətnin giriş hissəsində nədən danışılır?*
– *Mətnin sonluğu necə yekunlaşır?*
– *Mətnin əsas hissəsində hansı epizodlar var?*

Şagirdlər mətnin hissələrini və epizodlarını yarımbaşlıqlarla uyğunlaşdırırlar.

**Doğru cavab:** *Giriş – ç, 1-ci epizod – e, 2-ci epizod – a, 3-cü epizod – d, 4-cü epizod – c, sonluq – b.*

### Dil qaydaları

3-3.1.2 **Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin xüsusi isimlərin yazılışı haqqında biliklərinin tətbiqinə yönəlmişdir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu mətndə hadisələrin davamını təxmin edir. | Tap. A (dərslik) |
| Mətnin hissə və epizodlarına uyğun yarımbaşlıqları müəyyən edir. | Tap. B (dərslik) |
| Mətn və onun hissələrinə uyğun hekayə xəritəsini tamamlayır. | Tap. A (iş dəftəri) |
| Xüsusi isimlərin böyük hərflə yazılış qaydasına əməl edir. | Tap. B (iş dəftəri) |

## 3-cü dərs. Munqo

• Dərslik: səh. 70 • İş dəftəri: səh. 46

**Təlim məqsədləri**

- İnformativ mətndəki əsas faktları müəyyən edir (st. 3-2.2.1).
- Mətnin tərkib hissələrini, sturuktur elementlərini onun əsas məzmunu ilə əlaqələndirir (st. 3-2.4.3).
- Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir (st. 3-2.3.1).
- Dinlədiyi mətnin ideyasını, məzmun, sturuktur və bədii xüsusiyyətlərini şərh edir (st. 3-1.1.2).
- Fakt, hadisə və fikirləri mətnin abzas və hissələri üzrə strukturlaşdırır (st. 3-3.1.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | BİBÖ üsulu ilə müzakirə |
| 2 | **Oxu** | "Munqo" mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | "Munqo" mətni əsasında yarımbaşlıqların müəyyən olunması |
| 4 | **Dinləmə** | Dinləmə mətninə uyğun yarımbaşlıqların tərtibi |
| 5 | **Yazı** | Yarımbaşlıqlar əsasında informativ mətnin yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Müəllim lövhədə BİBÖ cədvəli çəkir. Cədvəlin birinci xanasına şagirdlərin

manqust haqqında bildiklərini yazır, ikinci xanasında daha nələr öyrənmək istədikləri qeyd olunur. Cədvəlin üçüncü xanası boş saxlanılır.

### Oxu

3-2.2.1 **Tapşırıq B (dərslik). Səssiz oxu.** Tapşırıq şagirdlərin oxuyub-qavrama, qeyd götürmə bacarıqlarının inkişafına xidmət edir. Şagirdlər müəyyən vaxt ərzində mətni səssiz oxuyurlar. Mətn oxunduqca vərəqdə öyrəndikləri yeni məlumatları qeyd edirlər. Sonra müzakirə nəticəsində əldə edilmiş yeni məlumatlar BİBÖ cədvəlinin üçüncü xanasına əlavə edilir.

**"Yadda saxla" rubrikası.** Rubrikadakı məlumat müəllim tərəfindən şərh edilir. Məqsəd şagirdlərin bədii və informativ mətnlərin xüsusiyyətlərini ayırd edə bilməsidir.

### Oxuyub-qavrama

3-2.4.3 **Tapşırıq C (dərslik). Cütlərlə iş.** Tapşırıq mətnin strukturu üzrə bilik və bacarıqların möhkəmləndirilməsinə xidmət edir. Şagirdlər tapşırığı yerinə yetirərkən əvvəlcə sual şəklində verilmiş yarımbaşlıqlarla tanış olurlar. Sonra isə həmin yarımbaşlıqları "Munqo" mətninin abzasları ilə uyğunlaşdırırlar. Müzakirə nəticəsində doğru cavablar müəyyən edilir.

**Doğru cavab:** *A – 5 , B – 3, C – 6, Ç – 1, D – 2, E – 4.*

3-2.3.1 **Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərin mətni təhliletmə bacarıqlarının formalaşmasına xidmət edir.

**Doğru cavab:** "Rikki-Tikki-Tavi" mətninin məzmunundan aydın olur ki, manqust siçovul ilə dostluq edir. Ancaq "Munqo" mətninin 4-cü abzasında siçovulla qidalanması öz əksini tapır. Bu isə o deməkdir ki, siçovul manqust ilə dost ola bilməz.

### Dinləmə

3-1.1.2 **Tapşırıq D (dərslik). Qruplarla iş.** Müəllim dinləmə mətnini səsləndirməzdən öncə şagirdlərin nəzərinə çatdırır ki, mətni diqqətlə dinləməlidirlər ki, mətnin məzmununa uyğun yarımbaşlıqlar yaza bilsinlər.

*Kobralar, əsasən, Asiya, Avstraliya və Afrikanın çöllərində yaşayırlar. Zəhəri öldürücü olduğuna görə Hindistanda minlərlə insanın ölümünə səbəb olur.*

*Onların uzunluğu 1–6 metr arasında dəyişir. Bu ilanlar qırmızı, qaraşın və sarı rəngdə olurlar.*

*Kobralar başlarını yuxarı qaldıraraq hücum edirlər. Qəzəbləndə boyunlarını şişirə bilirlər. Bununla onlar rəqiblərinin gözündə daha böyük görünürlər. Kobralar insana yalnız təhlükə hiss etdikdə hücum edirlər.*

*Kobraların bəzən rəqs etdiyini görmək olar. Əslində, rəqs edə bilmirlər. Onlar kardırlar. Sadəcə, musiqiçinin ifa etdiyi fleytanın – musiqi alətinin ritminə uyğun hərəkət edirlər.*

Şagirdlər mətni dinlədikdən sonra müəllim məzmuna uyğun suallar verir:

– *Kobralar harada yaşayırlar?*
– *Kobraların görünüşü necədir?*
– *Kobralar rəqibinə necə hücum edir?*
– *Kobralar necə rəqs edirlər?*

Suallar şagirdlərə mətnin məzmununu yadda saxlamağa kömək edəcək və eyni zamanda yarımbaşlıq yazmaq üzrə istiqamətləndirəcək.

Mətn dinləmə mətni olduğu üçün şagirdlərə yarımbaşlıq yazmaq nisbətən çətin ola bilər. Ona görə də tapşırığın qruplarla yerinə yetirilməsi məqsədəuyğundur.

### Yazı

3-3.1.1 **Tapşırıq A (iş dəftəri).** Tapşırığın əsas məqsədi informativ mətn yazmaq bacarığının formalaşdırılmasıdır. Tapşırıqda yarımbaşlıq və açar sözlərin verilməsi şagirdlərin kiçikhəcmli informativ mətn yazmalarına kömək edir. Yaxşı olardı ki, sonda şagirdlər yazdıqlarını mətn halında səsləndirsinlər.

**Şagirdlərin qurduqları mətn təxmini belə ola bilər:**

*Dəvəquşular Afrikada sürü halında yaşayır.*

*Dəvəquşu ən böyük quşdur. Çəkisi 130 kq-dır. 2 m-dən çox hündürlüyü, uzun ayaqları və qısa, yastı dimdiyi var.*

*Dəvəquşu öz yumurtasını qumda gizlədir. 3–8 yumurta qoyur. Yumurtasının çəkisi 1 kiloqram yarım olur.*

*Dəvəquşu ot, bitki, həşərat, kiçik məməli və ilanla qidalanır.*

*Dəvəquşular 50 ildən çox ömür sürürlər.*

3-2.2.1 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər şeiri oxuyur və A tapşırığında verilmiş yarımbaşlıqlara uyğun məlumatları müəyyən edirlər.

**Doğru cavab:** b, b, b, a, a, d, ç.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndə verilmiş yeni məlumatları müəyyən edir. | Tap. B (dərslik) |
| Mətnin abzaslarına uyğun yarımbaşlıqları müəyyən edir. | Tap. C (dərslik) |
| Oxuduğu informativ mətnə istinad etməklə bədii mətndəki məlumatların həqiqətə uyğunluğunu dəyərləndirir. | Tap. Ç (dərslik) |
| Dinlədiyi məlumatları uyğun yarımbaşlıqlarla adlandırır. | Tap. D (dərslik) |
| Yarımbaşlıqlara uyğun mətn yazır. | Tap. A (iş dəftəri) |

## 4-cü dərs. Cümlənin məqsədə görə növləri

• Dərslik: səh. 71 • İş dəftəri: səh. 47

**Təlim məqsədləri**

• Cümlənin məqsəd və intonasiyaya görə növlərini fərqləndirir. (st. 3-4.2.2).
• Məqsəddən asılı olaraq cümlələrin sonunda müvafiq durğu işarələrindən istifadə edir (st. 3-4.2.2).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Cümlə növlərinin xatırlanması |
| 2 | **Dil qaydaları** | Cümlənin məqsədə görə növlərinin qruplaşdırılması; nəqli, sual və əmr cümlələrinin qurulması |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim "Rikki-Tikki-Tavi" mətninin məzmununa aid sual verir və sualını lövhədə yazır:

– *Rikkini kim xilas etmişdi?*

Şagirdlərdən nəqli cümlə şəklində aldığı cavabı lövhədə yazır:

*Rikkini Teddinin ailəsi xilas etmişdi.*

Müəllim hər iki cümlənin növünü müəyyənləşdirməyi tapşırır. Bununla da şagirdlərin cümlənin növləri üzrə bilikləri xatırlanır.

### Dil qaydaları

**Tapşırıq A (dərslik). Kollektiv iş.** Şagirdlərə söz birləşməsi şəklində verilmiş yarımbaşlıqları nəqli və sual cümləsi ilə ifadə etmək tapşırılır. Müəllim əvvəlcə tapşırıqda verilmiş nümunəni şərh edir. Sonra şagirdlər səhifə 69-da C tapşırığında verilmiş yarımbaşlıqları bir-bir oxuyub onların aid olduğu hissəni xatırlayırlar. Şagirdlər bəzi yarımbaşlıqlara aid cümlələr qurmaqda çətinlik çəkə bilərlər. Bu zaman müəllim mətndə həmin yarımbaşlığın aid olduğu hissəni başqa cür adlandırmağı tapşıra bilər. Məsələn, "Əsərin qəhrəmanı haqqında ümumi məlumat" yarımbaşlığını sual və nəqli cümlə şəklində belə ifadə etmək olar: 1. Əsərin qəhrəmanı kimdir? 2. Əsərin qəhrəmanı Rikki adlı manqustdur.

**"Bunları bilməliyik" rubrikası.** Şagirdlərin cümlənin məqsədə görə növləri haqqında bilikləri genişləndirilir.

3-4.2.2 **Tapşırıq B (dərslik).** Tapşırıq "Diqqət et" rubrikasında verilmiş biliklərin mənimsənilməsinə xidmət edir. Şagirdlər məqsədə görə cümlənin növlərini qruplaşdırırlar.

**Düzgün cavab:** Nəqli cümlə: *Sevil məktəbə tələsir. Səma dərslərini həvəslə öyrənir. Leyla üçüncü sinifdə oxuyur.*

Sual cümləsi: *Aysel nə vaxt gələcək? Aydın harada yaşayır?*

Əmr cümləsi: *Oturan zaman kürəyini düz saxla. Kitabın vərəqlərini əzmə. Dərsə gecikməyin.*

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər məqsədə görə cümlənin növlərini müəyyən edirlər.

**Tapşırıq C (dərslik).** Müəllim əvvəlcə tapşırıqda verilmiş nümunəni izah edir. Daha sonra kollektiv olaraq 1-ci söz sırasından nəqli, sual və əmr cümlələri qurulur. Müəllim şagirdlərə sual cümləsi qurarkən sual sözlərindən və ya intonasiyadan istifadə olunmasını xatırladır. Şagirdlər müxtəlif sual sözləri səsləndirirlər. Növbəti söz sıralarından cümlələr qurmaq şagirdlərə tapşırılır. Tapşırıq cütlərlə iş formasında da yerinə yetirilə bilər.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər söz və ya söz birləşmələrindən nəqli, sual, əmr cümləsi qurub yazırlar.

**Düzgün cavab:** Uşaqlar quşlara dənlik düzəltdilər. Uşaqlar quşlara dənlik düzəltdilər? Uşaqlar, quşlara dənlik düzəldin.

3-4.2.2 **Tapşırıq C (iş dəftəri). Fəndaxili şaquli inteqrasiya (1-ci sinif. Cümlənin məqsəd və into-**

**nasiyasından asılı olaraq onu müvafiq durğu işarəsi ilə tamamlayır (st. 4.1.7)).** Tapşırıq şagirdlərin cümlənin sonunda durğu işarələri üzrə biliklərini möhkəmləndirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlələri məqsədinə görə qruplaşdırır. | Tap. B (dərslik), tap. A (iş dəftəri) |
| Nəqli, sual, əmr cümlələri qurur. | Tap. A, C (dərslik), tap. B (iş dəftəri) |

## fəsil 4 ANTARKTİDA SAKİNLƏRİ

## 1-ci dərs. Pinqvin balası

• Dərslik: səh. 72–74 • İş dəftəri: səh. 48

**Təlim məqsədləri**

• Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• Qeyd götürməklə mətni oxuyur (st. 3-2.2.1).
• Bədii mətndə hadisələrin ardıcıllığını müəyyən edir (st. 3-2.2.1).
• Mətnin məzmununa uyğun hekayə xəritəsini tamamlayır. (st. 3-2.2.1).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin sualları üzrə Antarktida sakinləri haqqında müzakirə |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Pinqvin balası" mətninin oxusu; yeni sözlərin mənimsədilməsi |
| 3 | **Oxuyub-qavrama** | Mətn üzrə iş |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim suallarla şagirdlərin diqqətini fəslin adına yönəldir:

– *Hansı materikləri tanıyırsınız? Antarktida materiki isti, yoxsa soyuq materikdir? Orada insanlar yaşayırmı? "Antarktida sakinləri" söz birləşməsini necə başa düşürsünüz?*

**Tapşırıq A (dərslik).** Şagirdlər pinqvin haqqında bildiklərini söyləyirlər və daha nələr bilmək istədiklərini deyirlər.

### Oxu. Söz ehtiyatı

3-2.2.3 3-2.2.1 **"Pinqvin balası" mətni. Qruplarla oxu.** Müəllim şagirdləri 3 qrupa bölür və hər qrupa mətnin bir hissəsini oxumağı və pinqvin haqqında öyrəndikləri yeni məlumatları müzakirə edib iş vərəqində yazmağı tapşırır.

Qruplar mətndə rast gəldikləri yeni sözlərin mənalarını kontekstə əsasən müəyyənləşdirir, lüğət vasitəsilə dəqiqləşdirirlər. Qrupların təqdimatı dinlənilir. Pinqvin haqqında əldə olunan yeni məlumatlar ümumiləşdirilir.

**Müəllimin nəzərinə!** Şagirdlərə oxu fəaliyyətindən öncə tapşırılır ki, oxu zamanı üzərində ulduz işarəsi olan cümlələrlə rastlaşdıqda haşiyəyə diqqət etsinlər.

**Tapşırıq A (iş dəftəri).** Yeni sözlərin mənimsədilməsinə xidmət edir.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını yoxlamaq məqsədi daşıyır. Doğru cavab: *Ç, E, A, D, B, C.*

3-2.2.1 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər mətnə əsasən hekayə xəritəsini tamamlamaqla mətni qavradıqlarını nümayiş etdirirlər. Mətn böyük olduğu üçün epizodların məzmununu yarımbaşlıq şəklində yazmaq tövsiyə edilir. Bununla şagirdlər yarımbaşlıq yazmaq bacarıqlarını da möhkəmləndirirlər.

**Diferensial təlim**

Çətinlik çəkən şagirdlərə hekayə xəritəsindəki epizodlar yerinə dərslikdəki B tapşırığındakı cümlələri ardıcıl yazmaq tapşırıla bilər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndən yeni məlumatları seçir. | "Pinqvin balası" mətni |
| Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tap. B (dərslik) |
| Verilmiş izaha uyğun sözləri müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Mətn üzrə hekayə xəritəsini tamamlayır. | Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllim növbəti dərsdə dərslikdəki C tapşırığının (səh. 74) yerinə yetirilməsi üçün şagirdlərə Antarktidanın təbiəti və heyvanat aləmi haqqında araşdırma aparmağı tapşırır.

**Diferensial təlim**

Müəllim araşdırma aparmaq imkanı olmayan şagirdlərə kömək üçün aşağıda verilmiş məlumatları təqdim edib təqdimata hazırlaşmağı tapşıra bilər.

**Antarktida sakinləri**

Antarktida ən soyuq və küləkli materikdir. Qalın buz qatı ilə örtülüb. Burada yaşayış üçün heç bir şərait yoxdur. Hətta heyvanların sayı da azdır. Burada əsasən suitilər və balinalar yaşayır. Ən iri yırtıcı heyvanı isə su bəbiridir.

***Balina*** – Yer kürəsinin ən nəhəng məməlisidir. Balinalar sürətlə böyüyür, bir saatda təxminən 3 kiloqram artırlar. Balinaların balıqdan fərqi onların hava ilə nəfəs almasıdır. Ona görə də suyun altında daim qala bilmirlər, iki saatdan bir suyun səthinə qalxırlar ki, ağ ciyərlərinə hava yığsınlar. Əsasən, balıqla qidalanırlar. Balinalar balalarını süd ilə bəsləyirlər.

Göy balina Yer üzündə indiyədək yaşamış ən böyük canlıdır. Onların çıxardığı səslər melodikdir, sanki mahnı oxuyurlar.

***Su bəbiri*** – sürüşkən bədəni ona suda sürətlə üzməyə imkan verir. Uzunluğu 3–4 metr olur. Çəkisi 270–400 kq-dır. Yuxarı hissəsi tünd-boz, aşağı nahiyəsi isə gümüşü-ağ rəngə malikdir. Başında boz ləkələr var.

Su bəbiri suiti və pinqvinlərlə qidalanır. Onlar tənha yaşayır, 26 il ömür sürürlər.

***Pinqvin*** – quşlar sinfinə aid olsalar da, uça bilmirlər, ancaq yaxşı üzürlər. Onlar həmçinin qayğıkeş “valideynlərdir”. Antarktida kimi soyuq yerdə yumurtadan bala çıxarmaq asan iş deyil. Yumurtaları şaxtadan qorumaq vəzifəsi erkək pinqvinlərin üzərinə düşür. Onlar yumurtaları ayaqları arasında yerləşdirir və üstünü isə qarınları ilə örtürlər.

Pinqvinlər həyatlarının yarısını suda keçirirlər. Onlar çətinliklə gəzirlər. Təhlükədən uzaqlaşmaq üçün üzüüstə uzanır və qanadlarının köməyi ilə buzun üstündə sürüşürlər. Bu zaman elə sürətlə hərəkət edirlər ki, onlara çatmaq qeyri-mümkün olur. Ağ-qara rəngdə olmaları isə onlara həm quruda, həm də suda yırtıcılardan gizlənməyə kömək edir.

***Suiti*** – təxminən 4 metr uzunluğa malik olur. Su altında 60 dəqiqə qala bilir. Bəzi suiti növləri payızda yeni yaranan buzları qazıb özlərinə yer düzəldirlər.

## 2-ci dərs. Şərh

• Dərslik: səh. 74 • İş dəftəri: səh. 49

**Təlim məqsədləri**

• Mətni məzmun və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır (st. 3-2.4.2).
• Mətnlə bağlı faktoloji sualları cavablandırır (st. 3-2.2.1).
• Kontekstdən çıxış edərək frazeoloji ifadənin mənasını müəyyənləşdirir (st. 3-2.2.3).
• Lüğətdən istifadə etməklə sözün mənasını izah edir (st. 3-4.4.1).
• Mövzu üzrə apardığı araşdırmaların nəticələrini təqdim edir (st. 3-1.3.4).

• **Köməkçi vasitələr (təchizat):** araşdırma materialları və izahlı lüğət.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin sualları üzrə müzakirə |
| 2 | **Oxuyub-qavrama** | Mətn qurma; mətnə aid məlumatların müəyyən edilməsi; “şərh” anlayışının mənimsədilməsi |
| 3 | **Söz ehtiyatı** | Sözlərin izahının müəyyən olunması |
| 4 | **Danışma** | Araşdırma materialları əsasında şifahi təqdimat |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərin diqqətini “Pinqvin balası” mətnindəki haşiyəyə yönəldir və soruşur:

*– Mətndəki haşiyələrdən hansı məlumatları əldə etdiniz?*

### Oxuyub-qavrama

**“Yadda saxla” rubrikası.** Oxuyub-qavrama və danışma bacarığının inkişafı üçün şagirdlərə bu və ya digər anlayışların mənimsədilməsi vacibdir.

Şagirdlər rubrikada şərh haqqında verilən məlumatı oxuyurlar.

3-2.4.2 **Tapşırıq A (dərslik). Qruplarla iş.** Tapşırıq şagirdlərin yaradıcı təfəkkürünün inkişafına xidmət edir.

Müəllim şagirdləri qruplara ayırır. Şagirdlər əldə etdikləri məlumatlara və təxəyyüllərinə əsasən pinqvin balasının itməsi epizodunu genişləndirirlər. 2-ci haşiyədə verilmiş "Bəzən iri buz parçaları qayalardan qopur və okean sularında üzür" məlumatı şagirdlərin mətn qurmasına kömək edir.

Qrupların təqdimatı dinlənilir və aşağıdakı meyarlar əsasında qurulan mətnlər qiymətləndirilir.

1. Mətndəki hadisələr məntiqi ardıcıllıqla sıralanır.
2. Qurulan mətnlə "Pinqvin balası" mətnindəki məlumatlar bir-birini tamamlayır.

3-2.2.1 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin analiz etmə bacarıqlarını inkişaf etdirir.

**Doğru cavab:** 1-ci, 3-cü, 4-cü, 6-cı cümlədəki fikirlər mətndən alınan məlumatlardır. 1-ci və 2-ci cümlədəki məlumatlar mətndəki haşiyədə verilmişdir.

### Söz ehtiyatı

3-2.2.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlərin frazeoloji ifadələr üzrə söz ehtiyatının artırılmasına xidmət edir.

**Doğru cavab:** 1 – ç, 2 – c, 3 – b, 4 – a.

**Diferensial təlim**

Çətinlik çəkən şagirdlərə həmin sözlərin işləndiyi cümlələri tapıb oxumaq tövsiyə olunur.

3-4.4.1 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər mətni oxuyur, lüğətdən istifadə edərək *hürgüc, səhra* və *yovşan* sözlərinin mənasını yazırlar. Tapşırıq həmçinin haşiyə və şərh anlayışı üzrə biliklərin möhkəmləndirilməsinə xidmət edir.

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər bilməcəni həll edir və izahlara uyğun sözləri müəyyən edib yazırlar.

**Doğru cavab:** karvan, sarvan.

### Danışma

3-1.3.4 **Tapşırıq C (dərslik).** Tapşırığa əsasən şagirdlər araşdırma aparıb əldə etdikləri məlumatları təqdim etməlidirlər. Müəllim şagirdlərə təqdimatdan öncə şifahi təqdimatı qiymətləndirmə rubrikini təqdim edir və onlar təqdimat zamanı bu məqamları göz önündə saxlayırlar. Şifahi təqdimat rubrikində aşağıdakı meyarlar öz əksini tapa bilər.

| Meyarlar | Bəli | Qismən | Xeyr |
|---|---|---|---|
| Aydın səslə danışırdı. | | | |
| Nitqi anlaşıqlı idi. | | | |
| Mövzudan kənara çıxmırdı. | | | |
| Təqdimat zamanı mövzuya uyğun şəkillər nümayiş etdirirdi. | | | |

Sonda qrupların təqdimatı dinlənilir və qurulan mətnlər tövsiyə olunan meyarlar əsasında qiymətləndirilir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əldə etdiyi məlumatlara və ya təxəyyülünə əsasən mətnə yeni epizodlar əlavə edir. | Tap. A (dərslik) |
| Mətnin məzmununun zənginləşdirilməsində haşiyənin rolunu müəyyən edir. | Tap. B (dərslik) |
| Lüğətdən istifadə etməklə sözün mənasını izah edir. | Tap. B (iş dəftəri) |
| Araşdırma materialları əsasında şifahi təqdimat edir. | Tap. C (dərslik) |

## 3-cü dərs. Sifət

• Dərslik: səh. 75 • İş dəftəri: səh. 50

**Təlim məqsədləri**
• Əlamət və keyfiyyət bildirən sifətləri fərqləndirir (st. 3-4.2.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Necə? sualına cavab verən sözlərin xatırlanması |
| 2 | **Dil qaydaları** | Sifət haqqında məlumat; əlamət və keyfiyyət bildirən sözlərin müəyyənləşdirilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Tapşırıq şagirdlərin əlamət bildirən sözlər haqqında aşağı siniflərdə aldıqları biliklərin təkrarına yönəlib. Şagirdlər necə? sualına cavab verən sözləri müəyyən edirlər.

### Dil qaydaları

**“Bunları bilməliyik” rubrikası.** Şagirdlər aşağı siniflərdən əlamət bildirən sözlər üzrə ilkin biliklərə yiyələniblər. İndi isə bu söz qrupunun “sifət” adlandığını öyrənir və sifət haqqında bilikləri dərinləşdirilir. Əlamət və keyfiyyət bildirən sifətləri fərqləndirmək üzrə yeni biliklər verilir.

3-4.2.1 **Tapşırıq B (dərslik). Tapşırıq A (iş dəftəri).** Tapşırıqlar şagirdlərin “Bunları bilməliyik” rubrikasında sifət haqqında aldıqları biliklərin mənimsənilməsinə yönəlib. Şagirdlər B tapşırığında keyfiyyət bildirən sifətləri, iş dəftərindəki A tapşırığında isə əlamət bildirən sifətləri seçərək cümlələri tamamlayırlar.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər əlamət və keyfiyyət bildirən sözləri fərqləndirir və cədvəlin uyğun xanalarına yazırlar.

**Düzgün cavab:**

| Əlamət bildirən sifətlər | Keyfiyyət bildirən sifətlər |
|---|---|
| kiçik, əyri, enli, yoğun, nazik, yumru | gözəl, mərd, cəsur, təmizkar, sevimli, səmimi |

**Tapşırıq C (iş dəftəri).** Tapşırıq şagirdlərin həm sifət, həm də əksmənalı sözlərlə bağlı biliklərinin möhkəmləndirilməsinə xidmət edir.

**Düzgün cavab:** ağıllı – ağılsız, yaxın – uzaq, qaranlıq – işıqlı.

Şagirdlər tapşırıqda verilmiş atalar sözlərini müzakirə edib öyrənə bilərlər. Bu onların söz ehtiyatının artırılmasına kömək edər.

**Tapşırıq C (dərslik).** Tapşırıq iki mərhələdə icra edilir:

1. Şagirdlər əvvəl cümlələri oxuyur və cümlədəki keyfiyyət bildirən sifətləri seçirlər.
2. Sonra keyfiyyət bildirən sifətin aid olduğu varlığı müəyyən edib ona uyğun əlamət bildirən söz seçməlidirlər. Məsələn, 1-ci cümlədə “dadlı” sözü almanın keyfiyyətini bildirir və bu sözü əlamət bildirən sözlə əvəz etmək üçün “alma” sözünə diqqət etmək lazımdır. Verilmiş sözlər içərisində “alma” sözünə uyğun gələn “qırmızı” sözüdür.

**Düzgün cavab:** 1. dadlı – qırmızı; 2. şirin – yumru; 3. ağıllı – gözəl; 4. ucaboy – cəsarətli; 5. acgöz – boz.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əlamət və keyfiyyət bildirən sifətləri fərqləndirir. | Tap. B (dərslik), A, B (iş dəftəri) |
| Varlıq bildirən sözlərə uyğun əlamət və ya keyfiyyət bildirən sifətlər seçir. | Tap. C (dərslik), tap. C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə şagirdlərə ensiklopediyaların nümayiş etdirilməsi (şərait varsa, dərsin kitabxanada keçirilməsi) tövsiyə olunur.

fəsil 5 DELFİN

## 1-ci dərs. Delfinlər

• Dərslik: səh. 76–77 • İş dəftəri: səh. 51

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• İnformativ mətndəki əsas faktları müəyyən edir (st. 3-2.2.1).
• Mətnin tərkib hissələrini, sturuktur elementlərini onun əsas məzmunu ilə əlaqələndirir (st. 3-2.4.3).

• **Köməkçi vasitələr (təchizat):** ensiklopediya kitabları və izahlı lüğət.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Delfin haqqında sual-cavab |
| 2 | **Danışma** | Mövzu üzrə müzakirə |
| 3 | **Oxu** | Şəkil və yarımbaşlıqların köməyi ilə mətnin məzmununun təxmin edilməsi |
| 4 | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi |
| 5 | **Oxuyub-qavrama** | Mətn üzrə iş |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sual verir:

*– "Pinqvin balası" mətnində pinqvinin balasını kim xilas etdi? Heç delfin görmüsünüzmü? Delfin haqqında nə bilirsiniz? Sizcə, delfin balıqdır, ya məməli?*

### Danışma

3-1.3.3 **Tapşırıq A (dərslik).** Şagirdlər delfinin insanları xilas edə bilməsi fikrinə münasibət bildirirlər. Müəllim bu haqda çəkilmiş filmlərdən kiçik fraqmentlər də nümayiş etdirə bilər.

**Tapşırıq B (dərslik).** *Delfinlər haqqında söylədiyiniz məlumatları haradan əldə etmisiniz?* Cavablar dinlənildikdən sonra müəllim şagirdlərin diqqətini "Yadda saxla" rubrikasına yönəldir.

**"Yadda saxla" rubrikası.** Şagirdlər indiyə qədər bir çox araşdırma tapşırıqları yerinə yetiriblər. Bu zaman müxtəlif mənbələrdən istifadə ediblər. İndi isə müəllim araşdırma işində daha etibarlı mənbə olan ensiklopediyalarla şagirdləri tanış edir. Ensiklopediyanın struktur elementlərini mənimsədir.

### Oxu

**Tapşırıq C (dərslik). Səssiz oxu.** Şagirdlərin diqqəti ensiklopediyadan verilmiş iki səhifədəki şəkillərə, yarımbaşlıqlara yönəldilir. Şagirdlər növbə ilə sual şəklində ifadə olunmuş yarımbaşlıqları oxuyur, həmin sualların cavabını təxmin edərək danışırlar.

Şagirdlər mətni səssiz oxuyur və öyrəndikləri yeni məlumatları dəftərlərində qeyd edirlər. Sonra əldə etdikləri yeni məlumatlar haqqında danışırlar. Tapşırıq şagirdlərin oxuyub-qavrama bacarıqları ilə yanaşı, təqdimetmə bacarıqlarını da inkişaf etdirir.

### Söz ehtiyatı

3-2.2.3 **"Söz boğçası" rubrikası.** Oxu fəaliyyəti bitəndən sonra müəllim şagirdlərdən tanış olmayan sözlərin təxmini mənasını soruşur. Yeni sözlər "söz boğçası"na əlavə olunur.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq yeni sözlərin *(delfinari, qəlsəmə, ağ ciyər)* mənimsədilməsinə xidmət edir.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərin fikrini izahetmə, əsaslandırma bacarıqlarını möhkəmləndirir. Şagirdlər mətndən əldə etdikləri məlumatlar əsasında balıq və delfinin fərqli xüsusiyyətləri haqqında danışırlar.

**Düzgün cavab:** 1. Balığın pulcuğu var, delfinin dərisi hamardır. 2. Balıq qəlsəmələrlə, delfin ağ ciyərləri ilə nəfəs alır. 3. Balıq kürü qoymaqla çoxalır, delfin bala dünyaya gətirir.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq Ç-dəki danışma fəaliyyəti bu tapşırığın sərbəst işlənməsinə imkan yaradır.

**Düzgün cavab:** Suda yaşayır, üzgəcləri var, cəld və sürətlə üzür – həm balığa, həm də məməliyə aiddir. Ağ ciyərləri ilə nəfəs alır, dünyaya bala gətirməklə çoxalır, balasını südlə bəsləyir – ancaq məməlilərə aiddir.

**Tapşırıq D (dərslik).** Tapşırıq şagirdlərin oxuyub-qavramasını yoxlayır. Şagirdlər faktoloji sualları cavablandırır və mətndə cavabı olmayan sualları müəyyən edirlər.

**Düzgün cavab:** Delfinlər nə ilə qidalanırlar? Delfinlər neçə il yaşayırlar?

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər mətnin məzmununa uyğun məlumatların doğru və ya yanlış olduğunu müəyyən edirlər.

**Düzgün cavab:** 1) doğru, 2) yanlış, 3) doğru, 4) doğru, 5) yanlış, 6) doğru, 7) doğru.

3-2.4.3 **Tapşırıq E (dərslik).** Şagirdlər mətndəki yarımbaşlıqların məzmununa uyğun yeni məlumatları müəyyən edirlər. Tapşırıq mətnin məzmunu və strukturu üzrə bilik və bacarıqların möhkəmlənməsinə xidmət edir. Tapşırığı qruplarla iş formasında yerinə yetirmək olar.

**Düzgün cavab:**

| Cümlə | Yarımbaşlıq |
|---|---|
| Delfin hər dəfə bir bacarığını nümayiş etdirdikdə məşqçi tərəfindən xırda balıqla mükafatlandırılır. | Delfini əhliləşdirmək olarmı? |
| Beyninin ölçüsünə görə delfin insandan o qədər də fərqlənmir. | Balıq, yoxsa məməli heyvan? |
| Delfin balıqçılara sürü halında toplaşan balıqların yerini nişan verir. | Nəyə görə delfini insanın dostu hesab edirlər? |
| Delfinlər 14000 səs siqnalından istifadə edirlər. | Delfin danışa bilirmi? |

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlar əsasında mövzu üzrə danışır. | Tap. A, B (dərslik) |
| Mətndəki yeni məlumatları əvvəl bildikləri ilə əlaqələndirir. | Tap. C (dərslik) |
| Kontekstdən çıxış edərək sözün mənasını təxmin edir və lüğət vasitəsilə dəqiqləşdirir. | Tap. A (iş dəftəri) |
| Mətndəki məlumatlarla bağlı suallara cavab verir. | Tap. Ç, D (dərslik), tap. B, C (iş dəftəri) |
| Yarımbaşlıqlara uyğun olan məlumatları müəyyən edir. | Tap. E (dərslik) |

**Növbəti dərsə hazırlıq. Araşdırma.** Müəllim növbəti dərsdə dərslikdə səhifə 78-də C tapşırığının yerinə yetirilməsi üçün şagirdlərə "Dinozavrların nəsli niyə kəsildi?" mövzusunda araşdırma aparmağı tapşırır. Şagirdlərə bildirir ki, məlumat toplamaq üçün heyvanlar haqqında kitab və ya jurnallardan, ensiklopediya və ya internet resurslarından istifadə edə bilərsiniz.

**Diferensial təlim**

Araşdırma imkanı olmayan şagirdlərə aşağıdakı mətni təqdim edib təqdimata hazırlaşmağı tapşırmaq olar.

***Dinozavrların nəsli niyə kəsildi?***

*Dinozavrlar təxminən 65 milyon il əvvəl yox olublar. Onların yox olması haqqında müxtəlif fikirlər səsləndirilir.*

*Mülahizələrdən biri belədir ki, Yer kürəsinə böyük bir asteroid düşmüşdür. Bu, böyük bir partlayışa səbəb olmuşdur. Nəticədə dinozavrların nəsli kəsilmişdir.*

*Başqa bir fikrə görə, hava temperaturunun kəskin soyuması dinozavrların məhvinə səbəb oldu.*

*Bəzi alimlər isə dinozavrların nəslinin kəsilməsini təbiətdə baş verən dəyişikliklərə görə qida ehtiyatının tükənməsi ilə əlaqələndirirlər.*

*Bütün bunlar hamısı sübut olunmamış fikirlərdir. Alimlər hələ də dinozavrların məhvolma səbəblərini araşdırırlar.*

## 2-ci dərs. Delfin insanları nə üçün xilas edir?

- Dərslik: səh. 78
- İş dəftəri: səh. 52

**Təlim məqsədləri**

- Qeyd götürməklə mətni oxuyur (st. 3-2.2.1).
- Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır (st. 3-2.2.1).
- Mövu üzrə apardığı araşdırmaların nəticələrini təqdim edir ( st. 3-1.3.4).

- **Köməkçi vasitələr (təchizat):** araşdırma ma-

terialları.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Ötən dərsin xatırlanması |
| 2 | **Oxu** | Mətnin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Delfin haqqında mülahizələr üzrə müzakirə |
| 4 | **Danışma** | Araşdırma materialları əsasında təqdimat |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər delfinlə bağlı öyrəndikləri maraqlı və qəribə məlumatlar haqqında təəssüratlarını bölüşürlər.

### Oxu

3-2.2.1 **"Delfin insanları nə üçün xilas edir?" mətni. Səssiz oxu.** Şagirdlər mətni müəllimin verdiyi vaxt ərzində səssiz oxuyur, delfinlər haqqında öyrəndikləri yeni məlumatları qeyd edirlər. Sonra yeni məlumatlar müzakirə edilir.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Müəllim lövhədə cədvəl çəkir və soruşur:

– *Mətndə delfinlərin insanları xilas etmələri haqqında hansı mülahizələr verilmişdir?*

Şagirdlər mülahizələri səsləndirdikcə müəllim cədvəldə qeyd edir:

| | | |
|---|---|---|
| Delfin bunu yardım məqsədilə edir. | Delfin əyləncə üçün edir. | Delfin qidasını qorumaq üçün edir. |

Şagirdlər hansı mülahizə ilə razı olduqlarını söyləyib fikirlərini əsaslandırırlar.

**"Yadda saxla" rubrikası.** Bölmənin aparıcı xətti şagirdlərin araşdırma bacarıqlarının inkişafıdır. Rubrikada verilən məlumatlar da araşdırma mətnləri ilə bağlıdır. Əvvəlki dərslərdə informativ mətnin strukturu ilə tanış olan şagirdlər indi informativ mətnlərin məzmun müxtəlifliyi haqqında məlumat alırlar. Belə ki, bəzi informativ mətnlər "mülahizələr" əsasında qurulur. Şagirdlər bu dərsdə mülahizələrdən ibarət mətn nümunəsi ilə tanış oldular. Müəllim bu cür mətnlərin necə yazılması haqqında şagirdlərə məlumat verir.

1. Belə mətnlər, əsasən, hər kəsi maraqlandıran, mübahisə doğuran bir mövzu haqqında olur.
2. Mövzu üzrə konkret sual qoyulur və sual ətrafında araşdırma aparılır.
3. Araşdırmaların nəticəsində ortaya çıxan müxtəlif fikirlər ümumiləşdirilir və mətn halına salınır. Bu mətnlər də giriş, əsas və sonluq hissədən ibarət olur.
4. Belə mətnlərin sonunda mətni yazan şəxsin mövzu ilə bağlı fikirləri, münasibəti əks olunur.

Müəllim şagirdlərin diqqətini "Delfin insanları nə üçün xilas edir?" mətninin strukturuna yönəldir. Mətnin giriş, əsas və sonluq hissələri müəyyən edilir.

> **Müəllimin nəzərinə!** Şagirdlər müxtəlif mənbələrdən araşdırma apararkən zidd fikirlərlə qarşılaşa bilərlər. Bu zaman onlar həmin məlumatları mətndə mülahizə şəklində əks etdirə bilərlər. Müəllim həmçinin belə mətnlər üçün xarakterik olan sabit ifadələri şagirdlərin diqqətinə çatdırır. Məsələn, *... fikrinə görə; deyilənə görə; ... adlı jurnalda göstərilir ki, ...; bəzi araşdırmaçılar deyirlər ki, ...; digər fikir budur ki, ...* və s.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıqda şagirdlərə "Tutuquşu danışırmı?" adlı informativ mətn təqdim olunur. Məqsəd şagirdlərin oxuyub-qavrama, yazı bacarıqlarının inkişaf etdirilməsi ilə yanaşı, onları mülahizələrdən ibarət mətnlə daha yaxından tanış etməkdir. Şagirdlər əvvəlcə tutuquşu haqqında bildiklərini, sonra tutuquşu haqqında bilmək istədiklərini yazırlar. Daha sonra tutuquşu haqqında verilmiş mətni oxuyaraq yeni öyrəndikləri məlumatları seçib yazırlar.

### Danışma

3-1.3.4 **Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərin araşdırma və təqdimetmə bacarıqlarını inkişaf etdirir. Şagirdlər mövzu ilə bağlı əldə etdikləri məlumatları təqdim edirlər. Təqdimat zamanı istifadə etdikləri mənbələr barədə də məlumat verirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndən əldə etdiyi yeni məlumatları müəyyən edir. | Tap. A (dərslik) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. B (dərslik), tap. A (iş dəftəri) |
| Araşdırma materialları əsasında şifahi təqdimat edir. | Tap. C (dərslik) |

## 3-cü dərs. Ümumiləşdirici təkrar

• Dərslik: səh. 79 • İş dəftəri: səh. 53

**Təlim məqsədləri**

• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st.3-3.2.5).
• Əlamət və keyfiyyət bildirən sifətləri fərqləndirir (st. 3-4.2.1).
• Söz, söz birləşməsi və cümləni bir-birindən fərqləndirir (st. 3-4.2.2).
• Məqsəddən asılı olaraq nəqli, sual, əmr cümlələri qurur (st. 3-4.2.2).
• Məqsəddən asılı olaraq cümlələrin sonunda müvafiq durğu işarələrindən istifadə edir (st. 3-4.2.2).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sual-cavab |
| 2 | **Yazı** | Məlumat vərəqi əsasında müqayisə cədvəlinin tərtib edilməsi |
| 3 | **Dil qaydaları** | Əlamət və keyfiyyət bildirən sifətlər; söz birləşməsi və cümlə; cümlənin məqsədə görə növləri |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sual verir:

*– Ceyran və maral haqqında nə bilirsiniz?*

### Yazı

3-3.2.5 **Tapşırıq A (dərslik). Cütlərlə iş.** Tapşırıq şagirdlərin oxuyub-qavrama və məlumatları cədvəl şəklində təqdimetmə bacarıqlarını inkişaf etdirir.

Cütlər məlumat vərəqini oxuyub maral ilə ceyranın oxşar və fərqli xüsusiyyətlərini müəyyənləşdirirlər. İş vərəqində müqayisə cədvəli tərtib edib məlumatları cədvəlin uyğun hissələrində yazırlar. Sonda cütlər tərtib etdikləri cədvəli təqdim edirlər.

### Dil qaydaları

3-4.2.1 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin orfoqrafik biliklərini möhkəmləndirmək məqsədi daşıyır. Şagirdlər fərqləndirilmiş sözlərin düzgün yazılışını müəyyən etməklə cümlələri köçürürlər. Sonra lüğət vasitəsilə yazılarını yoxlayırlar.

**Sözlərin düzgün yazılışı:** Məstan, guppultu, tüstüsü, bitkiləri, haqqında, istəyirdilər, həftəsonu, mürəkkəb, Səftər, hətta, iştaha.

3-4.2.2 **Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin sifət haqqında öyrəndikləri biliklərin möhkəmləndirilməsinə yönəlib. Şagirdlər əlamət bildirən sifətləri seçib *(mavi, qısa, çəhrayı, yaşıl, ağ)* cümlədə işlədirlər.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıqda şagirdlərdən əlamət və keyfiyyət bildirən sifətləri fərqləndirmək tələb olunur. Şagirdlər hər bir sıradakı fərqli sifəti müəyyən edirlər.

**Düzgün cavab:** ç, b, a, ç.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər cümlələrdəki boşluqların yerinə uyğun sifətlər yazmaqla cümlələri tamamlayırlar.

**Uyğun cavablar:** *İsti havada nazik paltar geyinmək lazımdır.*

*Uca dağların başı ağappaq qarla örtülmüşdü.*

*Günel ağıllı və çalışqan qızdır.*

*Cəsur əsgər hiyləgər düşmənə qalib gəldi.*

3-4.2.2 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər cədvəlin sütunlarında uyğun olmayan məlumatı müəyyən etməklə söz birləşməsi və cümləni fərqləndirə bildiklərini nümayiş etdirirlər. Tapşırıq yerinə yetirildikdən sonra şagirdlərin seçimlərini əsaslandırması tövsiyə olunur.

**Düzgün cavab:** "Delfin ağ ciyəri ilə nəfəs alır" cümlədir və "söz birləşməsi" sütununda yerləşə bilməz.

"İlqarın şəkilli ensiklopediyası" söz birləşməsidir. Cədvəlin "cümlə" sütununda yer ala bilməz.

3-4.2.2 **Tapşırıq Ç (iş dəftəri).** Şagirdlər verilmiş söz birləşmələrindən nəqli, sual və əmr cümləsi qurub yazırlar.

**Düzgün cavab:** Nəqli cümlə: *Uşaqlar ətraf mühiti çirklənmədən qoruyurlar.*

Sual cümləsi: *Uşaqlar ətraf mühiti çirklənmədən necə qoruyurlar?*

Əmr cümləsi: *Uşaqlar, ətraf mühiti çirklənmədən qoruyun.*

3-4.2.2 **Tapşırıq Ç (dərslik).** Şagirdlərin cümlənin məqsədə görə növləri üzrə bilikləri möhkəmləndirilir. Tapşırıq iki mərhələdə icra edilir:

1. Şagirdlər cümlələri köçürdükdən sonra oxuyur və cümlənin növünü müəyyən edirlər.
2. Cümləyə uyğun durğu işarəsini yazırlar.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| İki varlıq arasında oxşar və fərqli xüsusiyyətləri cədvəl vasitəsilə təqdim edir. | Tap. A (dərslik) |
| Əlamət və keyfiyyət bildirən sözləri fərqləndirir. | Tap. B (dərslik), tap. A, B (iş dəftəri) |
| Söz birləşməsi və cümləni fərqləndirir. | Tap. C (iş dəftəri) |
| Verilmiş söz və söz birləşmələrindən nəqli, sual, əmr cümlələri qurur. | Tap. Ç (iş dəftəri) |
| Məqsəddən asılı olaraq cümlələrin sonunda müvafiq durğu işarələrindən istifadə edir. | Tap. Ç (dərslik) |

# bölmə 4 TƏBİİ FƏLAKƏTLƏR

| Mövzu | | Təbii fəlakətlər |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | • Oxunan mətnin təxəyyülə uyğun davam etdirilməsi<br>• Şifahi təqdimat üçün mətnin hazırlanması |
| | Söz ehtiyatı | • Verilmiş izah, əlamətə uyğun sözün müəyyən olunması<br>• Yeni sözlər: tir, şax, artırma, təlaşla, yeganə, ləngərləmək, səviyyə, leysan, komissiya, diktor, təlatüm, estakada, nasazlıq, bal, buruq, kəskinləşmək, qasırğa, sinoptik, proqnoz, şığımaq, şahid, qamarlamaq. |
| | Oxu | • Bədii və informativ mətnlərin fərqləndirilməsi<br>• Obrazların nitqindəki hiss-həyəcanın müxtəlif səs çalarları ilə ifadəsi<br>• Dialoqlarda obrazların nitqinin fərqləndirilməsi<br>• Qrafik informasiyanın oxunması |
| | Yazı | • Hadisə yerindən xəbərin (məlumatın) yazılması<br>• Müəyyən epizoda aid dialoqun yazılması<br>• Müsahibənin yazılması<br>• Qrafik təsvirin (cədvəlin) rabitəli mətnə çevrilməsi<br>• Dinləmə mətninə aid faktların qrafik təsvir (cədvəl) şəklində verilməsi<br>• Şeirin yazılması |
| Akademik biliklər | Dil qaydaları | • Mürəkkəb sözlərin tərkibinin müəyyən edilməsi<br>• Mürəkkəb sözlərin düzgün yazılışı<br>• Şəxs adlarının yaranması |
| | Filoloji anlayışlar | Fakt və təxəyyül, istinad (informativ mətndəki faktlara istinad etməklə bədii mətndəki faktların müəyyən edilməsi) |
| Kompetensiyalar | | Təbii fəlakətlə təbiət hadisələrinin fərqləndirilməsi; adi fəlakətlə təbii fəlakət arasındakı fərqin müəyyən edilməsi |

Bu bölmədə təbii fəlakətlərdən bəhs edən bədii və informativ mətnlər təqdim olunur. Əsas məqsəd şagirdlərin maraq dairəsində olan mövzulardan istifadə etməklə onların dinləmə, danışma, oxu və yazı bacarıqlarını inkişaf etdirmək, mövzu ilə bağlı söz ehtiyatını zənginləşdirməkdir.

**Öncədən vacib olan bilik və bacarıqlar:**

• Bədii və informativ mətnləri fərqləndirir, sadə formada təhlil edir.
• Verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır.

**Mənimsəməkdə çətinlik doğuran məqamlar:**

• Rabitəli mətnin qrafik təsvirə çevrilməsi;
• Qafiyə və ritmi gözləməklə şeirin yazılması;
• Hadisə yerindən olan xəbərin mətn tələblərinə uyğun yazılması.

**Diferensial təlim**

Bu bölmənin tədrisində mürəkkəb sözlərin mənimsədilməsi prosesində diferensial yanaşma müsbət nəticə verər.

**Bu bölmədə nəzərdə tutulan köməkçi vəsaitlər:** *iş vərəqləri, təbii fəlakətlərə aid illüstrasiyalar, mövzuya aid məlumat vərəqləri* və s.

## Bölməyə giriş dərsi

• Dərslik: səh. 80–81 • İş dəftəri: səh. 54

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Lüğətdən istifadə etməklə sözün mənasını müəyyən edir (st. 3-4.2.2).
• Verilmiş izaha (əlamətlərə və ümumi mənaya) görə sözü müəyyən edir (st. 3-2.2.3).
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 3-3.2.5).

• **Köməkçi vasitələr (təchizat):** müxtəlif təbii fəlakətlərə aid illüstrasiyalar.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| **1** | **Mövzuya yönəltmə** | Təbii fəlakətlər haqqında söhbət |
| **2** | **Oxuyub-qavrama** | Tapmacaların oxusu və açmasının müəyyən edilməsi |
| **3** | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi |
| **4** | **Dil qaydaları** | Yaxınmənalı isimlərin və əksmənalı sifətlərin müəyyən edilməsi |
| **5** | **Yazı** | Yazılı təqdimat mətninin hazırlanması |
| **6** | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhəyə **yanğın**, **zəlzələ** sözlərini yazıb şagirdləri müzakirəyə cəlb edir:

*1. Sizcə, zəlzələ və ya yanğın olacağını əvvəlcədən bilmək mümkündürmü?*

*2. Bu hadisələr zamanı insanlar hansı təhlükələrlə üzləşə bilərlər?*

*3. Başqa hansı hadisələr insan həyatı üçün təhlükəlidir?*

*4. Necə düşünürsünüz, insanlar bu hadisələrin qarşısını ala bilərlərmi?*

Müzakirənin məqsədi **fəlakət** sözünün mənasını anlatmaqdır. Şagirdlərin fikirləri dinlənilir. Şagirdlər ehtiyatsızlıq üzündən baş verən hadisələrin adını çəkə bilərlər. Bu zaman vurğulanır ki, insan zəlzələnin baş verməsinin qarşısını ala bilməz. Evdə baş verən yanğının isə qarşısını almaq olar. Hər iki hadisə – həm zəlzələ,həm də yanğın zamanı insan həyatını itirə bilər.. Sonda o qənaətə gəlinir ki, canlı itkisinə səbəb olan istənilən hadisə **fəlakətdir.**

### Danışma

3-1.3.3 **Tapşırıq A (dərslik).** Şagirdlər təbii fəlakətlər haqqında bildiklərini söyləyirlər. Bu zaman adi təbiət hadisələrinin də adları çəkilə bilər. Müəllim söhbəti elə aparmalıdır ki, şagirdlər təbii fəlakətlə *(tufan, qasırğa, zəlzələ)* adi təbiət hadisəsinin *(yağış, qar, külək)* fərqini anlasınlar.

Müəllim yağış – sel, külək – qasırğa, qar – boran arasındakı oxşar və fərqli cəhətləri izah edir. Şagirdlərə aydın olur ki, təbii fəlakət insanın gücündən və iradəsindən asılı olmayaraq baş verir, insan həyatı üçün təhlükə yaradır.

### Söz ehtiyatı

3-4.2.2 Şagirdlər söz boğçasındakı sözlərin mənasını söyləyirlər. Sonra onların izahını lüğətdən oxuyurlar.

3-2.2.3 **Tapşırıq B (dərslik).** Tapmacalar müxtəlif şagirdlər tərəfindən ifadəli oxunur. Hər tapmacanın son iki misrası xorla oxunur.

Oxunun bu cür təşkili tapmacanın açmasının müəyyənləşdirilməsində bütün şagirdlərin aktivliyini yüksəldir.

*Boran* və *fırtına* sözləri söz boğçasında verildiyinə görə 1-ci tapmacanın cavabını (**fırtına**) şagirdlər asanlıqla müəyyən edə bilərlər.

2-ci tapmacanın açması bəzi şagirdlərə çətinlik yarada bilər. Çünki bu təbii fəlakət bizim iqlim şəraiti üçün xarakterik deyil. Televiziya proqramlarını izləyən, mütaliəyə həvəs göstərən şagirdlər söhbətin **sunamidən** getdiyini anlayacaqlar. “Söz boğçası”ndakı fəaliyyət də buna kömək edəcək.

3-cü tapmacanı şagirdlər, sadəcə, yanğın deyə cavablandıra bilərlər. Müəllim onları istiqamətləndirməlidir ki, söhbət təbii fəlakətdən gedirsə, bu, adi yanğın yox, **meşə yanğınıdır.**

4-cü tapmacanın cavabını (**vulkan**) tapmağa həm təsvir, həm də mətn kömək edəcək.

5-ci tapmacanın mətnindəki məlumatlardan (dağ başındakı qarın əriməsi, onun çaya tökülməsi, çayın coşması və s.) çıxış edən şagirdlər cavabın **daşqın** və ya **sel** olduğunu deyəcəklər.

6-cı tapmacanın mətninin (silkələnmə, titrəyiş, ayaq altdan yer qaçır) tufana heç bir aidiyyəti olmadığına görə cavabın **zəlzələ** olması müəyyənləşəcək.

Bundan sonra müəllim lövhədə cədvəl çəkir, şagirdləri dəvət edir, onlar öz fikirlərini yazırlar.

| Bilirdim | Öyrəndim |
|---|---|
| Zəlzələ nəticəsində evlərin uçmasını | Zəlzələ təbii fəlakətdir. |
| | |

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırıq üç mərhələdən ibarətdir. 1-ci və 2-ci mərhələlərdə krosvordlar həll edilir, 3-cü mərhələdə verilmiş izahlar krosvordlarda alınan sözlərlə uyğunlaşdırılır.

**1-ci mərhələ.** Düzgün cavab:

Sürətli – asta, tənbəl – qoçaq, kök – arıq, dar – geniş, nazik – qalın, əyri – düz, isti – soyuq. Çəhrayı xanalarda "tornado" sözü alınır.

**2-ci mərhələ.** Düzgün cavab:

Həvəs – maraq, soyğunçu – quldur, bostan – dirrik, yaz – bahar, qüsur – nöqsan, zəka – ağıl, kömək – yardım, say – miqdar. Sarı xanalarda "quraqlıq" sözü alınır.

**3-cü mərhələdə** birinci izahın altında **tornado**, ikinci izahın altında **quraqlıq** sözləri yazılır.

### Yazı

3-3.2.5 **Tapşırıq C (dərslik). Qruplarla iş.** Müəllim şagirdləri üç qrupa ayırır. Hər qrup iki təbii fəlakət haqqında təqdimat hazırlamalıdır:

Təqdimat hazırlamaq üçün titul səhifəsində verilmiş tapmacalardan, eləcə də onlara çəkilmiş illüstrasiyalardan istifadə edilməlidir.

**Nümunə:** *Fırtına çox güclü küləkdir. O, dənizdən başlayır, güclü dalğalar yaranır. Bu dalğalar gəmilər, dənizdə çalışan insanlar üçün çox təhlükəlidir. Fırtına quruda da dağıntılar törədir.*

*Meşələrdə yanğın quraqlıqdan, ildırım çaxarkən ağaclara qığılcım düşməsindən, insanların ehtiyatsızlığından baş verə bilər. Yanğın nəticəsində yaşıllıq məhv olur, heyvanlar tələf olur. Yaxın ərazilərdə yaşayan insanlar da ziyan çəkə bilərlər.*

Tapşırıq şagirdlərdə verbal və vizual məlumatları ümumiləşdirərək yazıya çevirmək və təqdimat hazırlamaq bacarığını formalaşdırır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəyyən fikirlə bağlı mövqeyini bildirir və onu əsaslandırır. | Tap. A (dərslik) |
| Yeni sözlərin mənasını təxmin edərək lüğətlə dəqiqləşdirir. | Tap. B (dərslik) |
| Sözün yaxınmənalı və əksmənalı qarşılığını müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Əldə etdiyi verbal və vizual məlumatları ümumiləşdirərək təqdimat üçün mətn hazırlayır. | Tap. C (dərslik) |

## fəsil 1 SEL

## 1-ci dərs. Xilaskar

• Dərslik: səh. 82–83 • İş dəftəri: səh. 55

**Təlim məqsədləri**

- Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır (st. 3-1.2.2).
- Obrazların nitqini onların xarakterinə uyğun səsləndirir (st. 3-2.1.2).
- Verilmiş izaha (əlamətlərə və ümumi mənaya) görə sözü müəyyən edir (st. 3-2.2.3).
- Sözləri cümlədə mənasına uyğun işlədir (st. 3-2.2.3).
- Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
- Mətndəki obrazları xarakterizə edir (st. 3-2.3.2).
- Dinlədiyi mətnin əsas məqamlarını qeyd edir və məzmuna uyğun plan tərtib edir (st. 3-1.1.1).

• **Köməkçi vasitələr (təchizat):** Kür çayının ilin müxtəlif fəsillərində təsviri.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Çayların xüsusiyyətləri ilə bağlı söhbət |
| 2 | **Danışma** | "Dəli Kür" ifadəsi ilə bağlı müzakirə |
| 3 | **Oxu** | "Xilaskar" mətninin oxusu |
| 4 | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi |

| | | |
|---|---|---|
| 5 | **Oxuyub-qavrama** | "Xilaskar" mətninin məzmunu üzrə iş |
| 6 | **Dinləmə** | "Amansız Kür" mətninin dinlənilməsi, plan tərtib edilməsi və nəqli |
| 7 | **Oxuyub-qavrama** | "Xilaskar" və "Amansız Kür" mətnlərinin müqayisəli təhlili |
| 8 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Çayların qışda bəzən donmasının, yazda bəzən daşmasının, yayda suyunun azalmasının, hətta qurumasının səbəbləri müzakirə edilir.

### Danışma

3-1.2.2 **Tapşırıq A (dərslik).** Şagirdlər tapşırıqda verilmiş "dəli Kür" ifadəsinin mənasını izah edirlər. Bu ifadənin Kür çayının tez-tez daşması, insanların həyatına təhlükə yaratması ilə əlaqəli olduğu vurğulanır.

**Müəllimin nəzərinə!** Kür sahili ərazilərdə yaşayan və ya qonaq olan şagirdlər Kürün daşmasının şahidi ola bilərlər. Onları bu haqda danışdırmaq tövsiyə edilir.

### Oxu

3-2.2.1 **"Xilaskar" mətni üzrə iş. İfadəli oxu.** Əvvəlcə şagirdlər "Xilaskar" mətnini səssiz oxuyurlar, sonra mətn səsli oxunur. Bu zaman müəllim şagirdlərin obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirmələrinə diqqət yetirməlidir.

### Söz ehtiyatı

3-2.2.3 **Tapşırıq A (iş dəftəri).** Düzgün cavab: *ağac budağı – şax; budaqları kəsilmiş iri ağac gövdəsi – tir; eyvan, balkon – artırma.*

3-2.2.3 **Tapşırıq B (iş dəftəri).** Düzgün cavab:
*Uşaqlar ildırım çaxmasına **tələşla** baxırdılar.*
*Körpə beşiyində **xumarlanırdı.***
*Həmid ailənin **yegana** övladı idi.*

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər sualları cavablandırmaqla mətni qavradıqlarını nümayiş etdirirlər.

3-2.3.2 **Tapşırıq C (dərslik).** Şagirdlər obrazın nitqindən onun keçirdiyi hissləri müəyyən etməlidirlər. Şagirdlər təxmin edirlər ki, Gilas xala həm oğlu üçün, həm də daxmadakılar üçün narahatdır. Oğlunun getməsinə və ya qalmasına qərar verə bilmir.

**Tapşırıq Ç (dərslik).** Ana obrazının vasitəsilə dəyanət, mətinlik, qonaqpərvərlik və s., Rizvan obrazı vasitəsilə isə insansevərlik, mərdlik, cəsarət, mərhəmət və s. kimi mənəvi dəyərlər diqqətə çatdırılır.

**Tapşırıq C (iş dəftəri). Şaquli inteqrasiya (2-ci sinif). Cümlədəki fikrə uyğun olan məlumatları müəyyənləşdirir (st. 4.1.6).** 2-ci və 4-cü cümlələrdə ifadə olunan fikirlər cümlənin məzmunundan çıxan nəticə hesab edilə bilməz.

3-2.3.1 **Tapşırıq Ç (iş dəftəri).**

Rizvan ("Xilaskar") xeyirxahdır, özünü təhlükəyə ataraq dəyirmançının ailəsini xilas edir.

Gilas xala ("Xilaskar") qonaqpərvərdir, yaxından tanımadığı bir ailəni evinə qonaq aparır.

Ata ("Amansız Kür") fədakardır, iti xilas etmək üçün öz həyatını qurban verir.

### Dinləmə

3-1.1.1 Dərsin növbəti mərhələsində müəllim tərəfindən "Amansız Kür" mətni oxunur.

**Müəllimin nəzərinə!** Müəllim əvvəlcədən dinləmə mətninin məzmununu nəql edəcəklərini şagirdlərin nəzərinə çatdırır. Bu məqsədlə mətni diqqətlə dinləməyi, qeydlər götürməyi tövsiyə edir.

#### Amansız Kür

*Gecəyarısı çayın uğultusuna və şimşək səsinə yuxudan oyandım. Anam həyəcanla pəncərədən baxırdı. Elə bu vaxt atam içəri girib anama dedi ki, Kür daşıb, kəndi su basır. Mən cəld ayağa qalxıb otağın küncündə atılıb qalmış gəlinciyimi götürmək istədim. Lakin atam imkan vermədi, cəld məni qucağına aldı. Üç yaşlı qardaşımı bağrına basan anam qiymətli şeylər saxladığı sandığa yaxınlaşanda atam onun qarşısını kəsib qapıya tərəf çəkdi. Biz çölə çıxıb yaxınlıqdakı təpəyə tərəf qaçdıq. Təpənin başına bir az qalmış atam ayaq saxlayıb anamdan soruşdu:*

*– Alaşın zəncirini açmışdın?*

*– Yox, – deyə anam titrəyə-titrəyə cavab verdi.*

*Atam məni qucağından yerə qoyub:*

*– Qızım, özün get, daha qorxma, – dedi və anamın fəryadına əhəmiyyət verməyib bir andaca qaranlıqda gözdən itdi.*

*O gündən mən atamı görmədim. Atam ov itimizi, vəfalı dostunu xilas etmək üçün özünü qurban vermişdi.*

Mətn oxunduqdan sonra mətnin məzmununa uyğun plan tərtib edilir. Plan təxminən bu şəkildə ola bilər:

1. Qorxunc səslər
2. Atanın gətirdiyi xəbər
3. Ailənin evi tərk etməsi
4. Atanın evə dönməsi və bir daha qayıtmaması

Sonra "Amansız Kür" mətni şagirdlər tərəfindən plana uyğun nəql edilir.

**Tapşırıq D (dərslik).** Kür çayı ilə bağlı bu mətnlərin əsas mövzusu seldir. "Xilaskar" mətnində Rizvan bir ailəni fəlakətdən xilas edir. Xoşbəxtlikdən həm dəyirmançının ailəsi, həm də özü salamat qalır. "Amansız Kür" mətnində ailə başçısı itini xilas etmək üçün özünü təhlükəyə atır, lakin sel onun həyatına son qoyur. Ən çətin və gözlənilməz vəziyyətdə belə özünü deyil, başqalarını düşünmək cəsurluqdur. Tapşırığı yerinə yetirməklə şagirdlər mövzu, məzmun və ideyanı müəyyən etmək vərdişini inkişaf etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəyyən fikirlə bağlı mövqeyini bildirir və onu əsaslandırır. | Tap. A (dərslik) |
| Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə səsləndirir. | "Xilaskar" mətni |
| Verilmiş izahın, əlamətlərin aid olduğu sözü müəyyən edir. | Tap. A, B (iş dəftəri) |
| Obrazları xarakterizə edir. | Tap. C, Ç (dərslik), tap. Ç (iş dəftəri) |
| Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir. | Tap. D (dərslik) |

## 2-ci dərs. Xəbər – hadisə haqqında məlumat

• Dərslik: səh. 84 • İş dəftəri: səh. 56

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• Mətnin giriş, əsas və sonluq hissələrini fərqləndirir (st. 3-2.4.3).
• Şahid olduğu və ya iştirak etdiyi hadisə haqqında məlumat (xəbər) yazır (st. 3-3.2.1).
• Yazılı təqdimatın məzmununa münasibət bildirir və təkliflərini verir (st. 3-3.1.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sual ətrafında söhbət |
| 2 | **Danışma** | Mövzu ilə əlaqədar sualların müzakirəsi |
| 3 | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi |
| 4 | **Oxu** | "Kürün törətdiyi fəlakət" mətni üzrə iş |
| 5 | **Yazı** | Mətnin məzmununun ardıcıllıqla yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

*– Sizcə, hər hansı bir hadisə haqqında ətraflı məlumatı insanlara necə çatdırmaq olar?*

### Danışma

3-1.3.3 **Tapşırıq A (dərslik).** Suallar ətrafında müzakirə zamanı şagirdlər fikirlərini əsaslandırmalıdırlar. Diqqəti mətnin sonundakı yazıya (Abdulla Şaiq "Xatirələrim") yönəltmək lazımdır. Şagirdlərə izah olunmalıdır ki, xatirə onu yazan adamın gördükləri və yaşadıqlarıdır, həqiqətən olmuş əhvalatdır, müəllif bu hadisənin şahidi olub. Buna görə mətndəki hadisə onu öz gözü ilə görən şəxsin – Abdulla Şaiqin dilindən çatdırılır.

**"Yadda saxla" rubrikasında** xəbər – hadisə haqqında məlumat tipli yazı mətnlərində başlıq yazılmasının, giriş, əsas, sonluq olmaqla tərkib hissələrinə ayrılmasının, həmin hissələrdə uyğun məlumatların çatdırılmasının vacibliyi vurğulanır.

### Söz ehtiyatı

Şagirdlər söz boğçasında verilən sözlərin mənasını təxmin etdikdən sonra təxminlərini lüğətlə dəqiqləşdirirlər. Bundan sonra iş dəftərindəki tapşırığın icrasına başlanıla bilər.

3-2.2.3 **Tapşırıq A (iş dəftəri).** Sözlər arasındakı məntiqi əlaqəni müəyyən etməklə cümləni müvafiq sözlə tamamlayır.

1-ci cümləyə **səviyyə**, 2-yə **komissiya**, 3-ə isə **leysan** sözləri əlavə olunur.

### Oxu

3-2.4.3 **Tapşırıq B (dərslik).** "Kürün törətdiyi fəlakət" mətni səssiz oxunur.

**Müəllimin nəzərinə!** Oxu zamanı mətnin tərkib hissələrinə diqqət yetirilməlidir.

Oxu prosesi bitdikdən sonra şagirdlər informativ mətni tərkib hissələrinə ayırırlar. Şagirdlər giriş, əsas, nəticə hissələrini adlandıra da bilərlər:

Giriş: Kür çayının daşması

Əsas: 1. Kənd əhalisinə dəyən ziyan

2. Həsən Mürşüdovun dedikləri

Nəticə: Dövlət komissiyasının yaradılması

### Yazı

3-3.2.1 **Tapşırıq B (iş dəftəri).** Şagirdlərdə hadisə yerindən xəbər – məlumat yazmaq bacarığının yaradılmasına yönəlmişdir.

**Nümunə:**

***Hadisə haqqında ümumi məlumat:*** *Havalar isindiyinə görə dağların başındakı qar əriyərək çaylara tökülür. Tez-tez leysan yağışlar yağır. Son günlər Kür çayının səviyyəsi xeyli qalxmışdır. Bəzi ərazilərdə çay yatağından çıxaraq daşqın törətdi.*

***Hadisə ilə bağlı əsas faktlar:*** *Yüzlərlə ev su altında qaldı. Çoxlu qoyun-quzu, mal-qara tələf oldu. Bəzi evlər uçdu. Əkin sahələrini su basdı.*

***Hadisə şahidinin dedikləri:*** *Sel qəflətən gecə gəldi. İnsanlar əşyalarını götürməyə imkan tapmadılar. Altı inəyi sel apardı.*

***Problemi aradan qaldırmaq üçün görülən tədbir:*** *Selin törətdiyi fəsadları aradan qaldırmaq üçün komissiya yaradıldı. Komissiya üzvləri hadisə baş vermiş ərazilərə göndərildilər.*

Növbəti tapşırıq bu bacarığı daha da möhkəmləndirməyə yönəlib.

**Tapşırıq C (dərslik).** Şagirdlər iştirak etdikləri tədbirdən xəbər – məlumat yazmalıdırlar.

**Müəllimin nəzərinə!** Əvvəlcə şagirdləri hər hansı tədbir, maraqlı hadisə, müşahidə etdikləri ekstremal vəziyyət və s. barədə danışdırmaq olar. Şifahi formada xəbər çatdırdıqdan sonra onu yazıya çevirmək bacarığını daha rahat və səmərəli şəkildə formalaşdırmaq mümkündür.

Məlumatı yazarkən mətnin tərkib hissələrinin ardıcıllığı gözlənilməlidir.

**Nümunə: İncinin ad günündə**

*Dünən qonşumuz İncinin ad günü idi. İnci ən yaxın qonşuları olan Aygün, Səlim, Nəzrin, Fuad və məni ad gününə dəvət etmişdi.*

*İnci bizi mehribanlıqla qarşıladı. Biz otağa keçdik. Otaq şarlarla, rəngli şəkillərlə bəzədilmişdi. Süfrəyə müxtəlif şirniyyatlar düzülmüşdü.*

*Mən aldığım "Hekayələr kitabı"nı İnciyə təqdim etdim. Nəzrin, Aygün və Səlim də öz hədiyyələrini ona təqdim etdilər. İnci çox sevinirdi, hədiyyələr çox xoşuna gəlmişdi.*

*Fuad hədiyyəsini evdə unutmuşdu. Üzr istəyib dedi: "İndi gəlirəm". O, İncigilin qapı qonşusudur. İki dəqiqə keçməmiş Fuad gəldi. Əlindəki çərçivədə İncinin rəsmi var idi. Fuadın gözəl rəsm çəkmək qabiliyyəti var. İncinin portretini də çox qəşəng çəkmişdi. Hamı rəsmi bəyəndi.*

*Günümüz çox şən və maraqlı keçdi.*

3-3.1.2 Bu mərhələdə şagirdlər (məsələn, yanaşı oturan) bir-birinin yazısını oxuyub münasibət bildirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəyyən fikirlə bağlı mövqeyini bildirir və onu əsaslandırır. | Tap. A (dərslik) |
| Kontekstdən çıxış edərək sözün mənasını müəyyənləşdirir. | Tap. A (iş dəftəri) |
| İnformativ mətnlərin tərkib hissələrini müəyyən edir. | Tap. B (dərslik) |
| Şahid olduğu hadisə haqqında məlumat (xəbər) yazır. | Tap. C (dərslik) |

## 3-cü dərs. Mürəkkəb sözlər

• Dərslik: səh. 85 • İş dəftəri: səh. 57

**Təlim məqsədləri**

• Sözlər arasında uyğunluğu müəyyən edərək mürəkkəb sözlər düzəldir (st. 3-4.2.1).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Gördüyü əşyaları ifadə edən sözlərdən mürəkkəb sözlərin yaradılması |
| 2 | **Dil qaydaları** | Mürəkkəb sözün tərkibinə daxil olan sözlərin müəyyən edilməsi, onların mənasına görə fərqləndirilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sinifdə olan müxtəlif əşyaları göstərir. Şagirdlər onları ifadə edən sözləri səsləndirirlər və həmin sözlərdən mürəkkəb sözlər yaradırlar. (qapı-pəncərə, dəftər-kitab, stol-stul, qələmqabı, qələmyonan və s.) Şagirdlərin geyimlərini (şalvar-köynək, ayaqqabı və s.), bədən üzvlərini (qaş-göz, baş-ayaq, ağız-burun, əl-qol və s.) göstərmək olar.

3-4.2.1 **Tapşırıq A (dərslik).** Mürəkkəb sözlərin tərkibindəki sözlər müəyyən edilir.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim mürəkkəb sözlərin yaranma qaydasını izah edir.

**Tapşırıq B (dərslik).** Şagirdlər cümlələrdəki mürəkkəb sözlərin tərkibini müəyyən edirlər: balıqqulağı – balıq + qulaq; üçrəngli – üç + rəng; toz-torpaq – toz + torpaq; itburnu – it + burun; rəngbərəng – rəng + bə + rəng.

**"Diqqət et" rubrikası.** Bu rubrikada ayrılıqda mənası olmayan sözlərin iştirakı ilə yaranan mürəkkəb sözlərdən danışılır.

**Tapşırıq C (dərslik).** Şagirdlərin mürəkkəb sözü tərkib hissələrinə ayırmaq bacarığını möhkəmləndirir.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər aşağı siniflərdə yaxın və əksmənalı sözlərlə bağlı öyrəndiklərinin əsasında mürəkkəb sözlər yaradırlar.

**Tapşırıq A (iş dəftəri).** Alınan mürəkkəb sözlər: *İtburnu, dəvəquşu, balıqqulağı.*

**Tapşırıq B (iş dəftəri).** Alınan mürəkkəb sözlər: Gözmuncuğu, gözaltı, acgöz, gözucu, göz-qaş, qaş-göz, gözüaçıq, qaragöz. Məqsəd bu sözlərin düzgün yazılışını öyrətməkdir.

**Tapşırıq C (iş dəftəri).** Alınan mürəkkəb sözlər: *Kağız-kuğuz, əyri-üyrü, yalan-palan, qab-qacaq, artıq-urtuq.*

**Tapşırıq Ç (iş dəftəri).** Düzgün cavab: *Dəvədabanı – isim + isim; ürəyitəmiz – isim + sifət; suiti – isim + isim; qırxayaq – say + isim; toz-torpaq – isim + isim; üçbucaq – say + isim.*

**Diferensial təlim**

Çətinlik çəkən şagirdlər, sadəcə, mürəkkəb sözləri tərkib hissələrinə ayırmaqla tapşırığı yerinə yetirə bilərlər.

Şagirdlərin qazandıqları bilik və bacarıqları daha da möhkəmləndirmək məqsədilə onlara sözlərdən ibarət seçmə imla yazdırmaq olar.

***Seçmə imla***

*Moruq, qaragilə, çaytikanı, qarağat, bənövşə, ev-eşik, hasar, mal-qara, tövlə, meşə, meşəbəyi, əlüzyuyan, kosmos, ipəkqurdu.*

**Müəllimin nəzərinə!** Şagirdlər dəftərdə iki sütun ayırırlar. Müəllim sözləri oxuyur. Şagirdlər müəllimin oxuduğu sözlərin sadə və ya mürəkkəb olduğunu müəyyən edərək uyğun sütunda yazırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mürəkkəb sözün tərkibindəki sözləri müəyyən edir. | Tap. A, B (dərslik) |
| Mürəkkəb sözün tərkibinə daxil olan sözləri mənasına görə fərqləndirir. | Tap. C (dərslik) |
| Yaxın və ya əksmənalı sözlərdən mürəkkəb sözlər düzəldir. | Tap. D (dərslik) |
| Şəkildə gördüyü təsvirləri ifadə edən sözlərdən mürəkkəb sözlər düzəldir. | Tap. A (iş dəftəri) |
| Sözlər arasında uyğunluğu müəyyən edərək mürəkkəb sözlər düzəldir. | Tap. B (iş dəftəri) |
| Mürəkkəb sözlərin yaranmasında iştirak edən nitq hissələrini fərqləndirir. | Tap. C (iş dəftəri) |

fəsil 2 **MEŞƏ YANĞINLARI**

## 1-ci dərs. İki ana (I hissə)

• Dərslik: səh. 86–87 • İş dəftəri: səh. 58

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Mətni intonasiya ilə oxuyur (st. 3-2.1.1).
• Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Fikirlərini fakt və hadisələrə istinad etməklə əsaslandırır (st. 3-2.3.2).
• Konkret və mücərrəd isimləri fərqləndirir (st. 3-4.2.1).

• **Köməkçi vasitələr (təchizat):** müxtəlif meşə yanğınlarına həsr olunmuş illüstrasiyalar.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Yanğın haqqında söhbət |
| 2 | **Danışma** | Meşə yanğınlarının baş vermə səbəbləri haqqında müzakirə |
| 3 | **Oxu. Söz ehtiyatı** | "İki ana" mətninin oxusu; yeni sözlərin mənimsədilməsi |
| 4 | **Oxuyub-qavrama** | Mətnə aid faktoloji sualların cavablandırılması və mətndəki əsas epizodun müəyyən edilməsi |
| 5 | **Dil qaydaları** | Konkret və mücərrəd isimlərin fərqləndirilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sinfə müraciət edir: *Aşağı siniflərdə keçdiyimiz yanğından bəhs edən mətni xatırlayın. Sizcə, evdə hansı səbəbdən yanğın baş verə bilər?*

### Danışma

3-1.3.3 **Tapşırıq A (dərslik).** Sual ətrafında söhbət aparılır. Şagirdlər mülahizələrini söyləyirlər. Səbəblər müxtəlif ola bilər: ehtiyatsızlıq üzündən, ildırım çaxmasından, qalanmış ocaq tam söndürülmədiyinə görə və s. İkinci sualı cavablandırarkən şagirdlər öz fikirlərini "insan tələfatı baş verərsə və ya digər canlılar yanğın nəticəsində məhv olarsa" fikri ilə əsaslandırırlar.

### Oxu

3-2.1.1 **"İki ana" (I hissə) mətni üzrə iş. Növbəli oxu.** Şagirdlər mətni növbə ilə müvafiq səs tonu seçərək oxuyurlar. Bu oxu üsulundan istifadə etməyin səbəbi şagirdlərin emosiyalarını düzgün ifadə etmək bacarığını inkişaf etdirməkdir. Müəllim şagirdlərin oxu zamanı bir-birini izləməsini yoxlamaq məqsədilə hər abzasın sonunda oxunu dayandırır və suallar verir:

**1-ci abzas:**
– *Hadisə ilin hansı fəslində baş vermişdi?*
– *Niyə meşəyə yağış yağmırdı?*

**2-ci abzas:**
– *Koala harada və necə yaşayırdı?*
– *Koalanın xoşbəxt olmasının səbəbi nə idi?*

**3-cü abzas:**
– *Əhvalat nə zaman baş verdi?*
– *Meşənin işıqlanmasının səbəbi nə idi?*

**4-cü və 5-ci abzaslar:**
– *Koala ağacdan enəndə nə gördü?*
– *Kenqurunu təsvir edin.*

**6-cı abzas:**
– *Kenquru koala haqqında nə düşündü?*
– *Heyvanların meşədən qaçması epizodunu danışın.*

### Söz ehtiyatı

3-2.2.3 Oxu zamanı şagirdlər tanış olmayan sözləri qeyd edirlər, sonra onların mənasını kontekstə əsaslanaraq izah edirlər. Sonda müəllim həmin sözlərin dəqiq izahını verir. Yeni sözlərin mənimsədilməsi prosesi iş dəftərində davam etdirilir.

**Tapşırıq A (iş dəftəri). (1-ci sinif (st. 2.1.3)).** Tapşırığın şərtinə əsasən yeni sözlər yaxınmənalı qarşılıqları ilə uyğunlaşdırılır:

1 – b (əhvalat – hadisə), 2 – c (amansızlıq – qəddarlıq), 3 – ç (vahiməli – qorxunc), 4 – a (sıçrayış – hoppanma).

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər faktoloji suallara cavab verməklə mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Tapşırıq C (dərslik).** Tapşırığı yerinə yetirməklə şagirdlər epizodları bir-birindən fərqləndirə bildiklərini nümayiş etdirirlər.

<u>Düzgün cavab:</u> 2-ci abzasdakı epizodda yan-

ğının vahiməli təsviri verilib.

**"Yadda saxla" rubrikası.** Şagirdlərə izah edilir ki, müxtəlif mənbələrə istinad etməklə müəyyən fikri təsdiqləmək mümkündür.

3-2.3.2 **Tapşırıq Ç (dərslik).** Bu tapşırıq iki sualdan ibarətdir.

1-ci sualı cavablandırmaq üçün Venn diaqramı və ya cədvəl üsulundan istifadə etmək olar.

| Koalaya aid olan cəhətlər | Kenquruya aid olan cəhətlər | Hər ikisinə aid cəhətlər |
|---|---|---|
| Kiçik heyvandır, tənbəldir, sürətlə qaça bilmir. | Hündürboyludur, iri sıçrayışla qaçır, cəlddir, bədənində yanıq izləri var. | Avstraliya meşələrində yaşayırlar, kisəli heyvandırlar, hər ikisi anadır. |

2-ci sualı cavablandırarkən şagirdlər kenqurunu müsbət obraz kimi dəyərləndirəcəklər. Çünki kenquru koalanın onun köməyinə ehtiyacı olduğunu başa düşür. O, sürətlə qaçsa da, arxaya dönüb koalanı gözləyir.

**Müəllimin nəzərinə!** Mətnin 2-ci hissəsinin oxusundan sonra bu sual ətrafında debat qurmaq olar. Çünki bəzi şagirdlər kenqurunu qınaya bilərlər. Fikirlərini söyləmək və əsaslandırmaq şagirdlərin fikir yürütmə bacarığını inkişaf etdirir.

3-2.3.2 **Tapşırıq B (iş dəftəri).** Verilən fikirlərin həqiqətə uyğunluğunu mətnə istinad etməklə əsaslandırmaq tələb olunur. ***Şimşəyin əvvəlcə işığı görünür, sonra səsi eşidilir*** *fikri öz təsdiqini bu cümlələrdə tapır:* ***Qəflətən meşə süd kimi ağ işığa qərq oldu. Bu, şimşəyin işığı idi. Bunun ardınca möhkəm şaqqıltı ilə göy guruldadı.***

***Kenquru koalaya nisbətən daha sürətlə qaçır*** *fikri belə ifadə olunub:* ***Kenquru iri sıçrayışlarla qaçır, sonra arxaya dönüb koalanı gözləyirdi.***

Bu tapşırıq şagirdlərin məntiqi təfəkkürünü, diqqətli oxusunu inkişaf etdirir.

### Dil qaydaları

3-4.2.1 **Tapşırıq C (iş dəftəri).** *Meşə, koala, ağac, yarpaq, alov* isimləri konkret, *təhlükə, ehtiyac, kömək* isimləri mücərrəddir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. A (dərslik) |
| Sözlərin yaxınmənalı qarşılığını müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. B (dərslik) |
| Mətndəki hadisələrə görə obrazlar haqqında fikir yürüdür. Mətndəki obrazların davranışlarına münasibət bildirir. | Tap. Ç (dərslik) |
| Mətnə istinad etməklə verilmiş fikirləri əsaslandırır. | Tap. B (iş dəftəri) |
| Konkret və mücərrəd isimləri fərqləndirir. | Tap. C (iş dəftəri) |

## 2-ci dərs. İki ana (II hissə)

• Dərslik: səh. 88–89 • İş dəftəri: səh. 59

### Təlim məqsədləri

• Mətni intonasiya ilə oxuyur (st. 3-2.1.1).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Obrazların keçirdiyi hisslərin səbəbini onların düşdüyü situasiya ilə izah edir. (st. 3-2.3.1).
• Mətni məzmun və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır (st. 3-2.4.2)
• Sözü kök və şəkilçiyə ayırır, sözdüzəldici və sözdəyişdirici şəkilçiləri funksiyalarına görə fərqləndirir. (st. 3-4.2.1)

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "İki ana" mətninin sual-cavab vasitəsilə xatırlanması |
| 2 | **Oxu** | "İki ana" mətninin davamının oxusu |
| 3 | **Oxuyub-qavrama** | Obrazlar haqqında fikir yürüdülməsi; hekayə xəritəsinin tərtib edilməsi |
| 4 | **Dil qaydaları** | Şəkilçilərin söz və cümlədəki funksiyalarına görə fərqləndirilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

## Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər hadisələrin davamını təxmin edirlər.

## Oxu

3-2.1.1 **“İki ana” (II hissə) mətni üzrə iş. Növbəli oxu.** Mətn şagirdlər tərəfindən növbə ilə düzgün intonasiya ilə oxunur.

**Müəllimin nəzərinə!** Bədii mətnin emosionallığını artırmaq, şagirdlərin düzgün səs tonu seçərək mətni uyğun intonasiya ilə oxumaları üçün oxu prosesi müəllimin köməyi ilə həyata keçirilir.

## Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Suallar təxminən belə cavablandırıla bilər:

1. İnsanlar meşə heyvanlarını yanğından xilas etmək üçün gəlmişdilər.
2. Kenquru insanları görəndə anladı ki, onlar koalanı xilas edəcəklər. Buna görə də öz balasının həyatını qurtarmaq üçün qaçaraq meşədən çıxdı.
3. Kenquru yanğın zolağını keçə bildi.
4. Vertolyot su səpərək yanğın zolağında dəhliz açdı, insanlar koalanı meşədən çıxardılar.

3-2.2.1 **Tapşırıq C (dərslik).** Şagirdlər hekayə xəritəsində zaman, məkan, obrazlar və s. göstərməli, hadisələri yarımbaşlıqlara bölməlidirlər.

*Zaman – 2019-cu ilin oktyabr ayı*
*Məkan – Avstraliya meşələri*
*Əsas obrazlar – koala və kenquru*
*Digər obrazlar – insanlar*
*Koala necə yaşayırdı?*
*Meşədə yanğın necə baş verdi?*
*Koala və kenquru nə etdilər?*
*İnsanlar gələndən sonra hadisələr necə dəyişdi?*

3-2.3.1 **Tapşırıq Ç (dərslik).** Bu tapşırıqda şagirdlər obrazların hansı situasiyada necə davranacaqları, nə deyəcəkləri ilə bağlı fikirlər yürüdürlər.

***Nə üçün kenquru koalaya günahkar nəzərlərlə baxdı?***

*Kenquru gördü ki, insanlar onları xilas etməyə gəliblər, ona görə də balasını qurtarmaq üçün qaçmaq qərarına gəldi. Amma yenə də vicdan əzabı çəkdi. Düşündü ki, mən sürətlə qaça bilirəm, amma koala qaça bilmir, mən də onu burda qoyub gedirəm. Kenquru danışa bilsəydi, koalaya deyərdi ki, qorxma, insanlar səni və balanı xilas edəcəklər. Əgər belə olmasaydı, mən səni burda qoyub getməzdim. Amma indi əminəm ki, həyatınıza təhlükə yoxdur. Məni bağışla, mən də anayam, balamı xilas etməliyəm.*

3-2.3.1 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətndən nümunələr gətirməklə obrazların yaşadığı hisslər barədə fikirləri əsaslandırırlar.

***Ana məhəbbəti:*** *Koala və kenquru balalarını xilas etmək üçün özlərini yanğının içinə atırlar. Koala otların arasından yazıq-yazıq kenquruya baxırdı. Kenquru isə günahkar nəzərlərlə koalaya, sonra isə balasına baxdı. O, var gücünü toplayıb alovun üstündən tullandı.*

***Qorxu:*** *Adətən, koala və kenquru insanlardan qaçırlar. Amma indi yanğının qorxusundan insanlara yaxın olmaqdan çəkinmədilər. Ana koalanın qorxduğunu sanki balası hiss edirdi: Nə olub, anacan. Sən niyə qorxursan?*

***Mərhəmət:*** *Kenqurunun koalaya rəhmi gəlir. O özü sürətlə qaçıb canını da, balasını da qurtara bilərdi. Amma mərhəmət hissi onu saxlayırdı.*

3-2.4.2 **Tapşırıq D (dərslik).** Şagirdlər koala və kenqurunun sonrakı taleyi ilə bağlı fikir yürüdürlər. Adətən, şagirdlərin təxmini mətnin sonrakı hissəsi ilə müqayisə edilir. Bu tapşırığa qədər mətn bitdiyinə görə şagirdlər mətni istədikləri kimi bitirmək fürsəti qazanırlar.

## Dil qaydaları

3-4.2.1 **Tapşırıq B (iş dəftəri).** Məqsəd sözün kökü, leksik və qrammatik şəkilçiləri təkrar etməklə qazanılmış bilikləri möhkəmlətməkdir. Məsələn:

| Sözün kökü | Şəkilçi yeni söz yaradır. | Şəkilçi sözlər arasında əlaqə yaradır. |
|---|---|---|
| ətir | ətirli | |
| çiçək | | çiçəklər |

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki hadisələrin davamı ilə bağlı öz versiyasını təqdim edir. | Tap. A, D (dərslik) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. B (dərslik) |

| | |
|---|---|
| Mətndəki hadisələrə və dialoqlara görə obrazlar haqqında fikir yürüdür. | Tap. Ç (dərslik) |
| Mətn və onun hissələri üzrə hekayə xəritəsi tərtib edir. | Tap. C (dərslik) |
| Mətnə istinad etməklə obrazın keçirdiyi hisslərlə bağlı fikirləri əsaslandırır. | Tap. A (iş dəftəri) |
| Şəkilçiləri söz və cümlədəki funksiyalarına görə fərqləndirir. | Tap. B (iş dəftəri) |

## 3-cü dərs. Təxəyyül və fakt

• Dərslik: səh. 89–90 • İş dəftəri: səh. 60

**Təlim məqsədləri**

• Mətnlərin bədii, poetik xüsusiyyətlərini müəyyənləşdirir və ekspressiv təsirini izah edir (st. 3-2.4.3).
• Mətndə müəllif mövqeyini faktlardan, təxəyyülü real hadisədən fərqləndirir (st. 3-2.2.1).
• Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st. 3-2.4.4).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | İndiyə qədər oxuduqları informativ mətnlərin xatırlanması |
| 2 | **Oxuyub-qavrama** | Verilən fikirlərin fakt və ya təxəyyül olmasının müəyyən edilməsi və faktların həqiqətə uyğunluğunun müəyyənləşdirilməsi; qrafik informasiyanın rabitəli cümlələr şəklində oxunması |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sinfə sualla müraciət edir:

– *İndiyə qədər oxuduğunuz mətnləri xatırlayın. Onlardan hansı informativ mətndir? Sizcə, niyə?*

### Oxuyub-qavrama

3-2.4.3 **Tapşırıq A (dərslik).** Şagirdlər fikirlərini belə əsaslandıra bilərlər: “Koala və kenquru bədii mətndə insan kimi düşünə və danışa bilir. Amma informativ mətndə bu, mümkün deyil”.

**“Yadda saxla” rubrikası.** Müəllim fakt və təxəyyülün fərqini nümunələrlə izah edir. Faktın həqiqət olması, təxəyyülün isə insanın öz istəyinə uyğun beyin məhsulu olmasını sadə yolla izah edir. Bu nümunələrin tanış mətnlərdən olması daha məqsədəuyğundur. Məsələn: “Xilaskar” mətnində Kür çayının tez-tez daşması faktdır, çünki bu, həqiqətən də, belədir. Gilas xalanın mehriban olması, Rizvanın seldən qorxmaması isə yazıçının təxəyyülüdür.

3-2.2.1 **Tapşırıq B (dərslik).** Bu tapşırıqda 1-ci, 2-ci, 4-cü, 5-ci, 7-ci cümlələr fakt, 3-cü və 6-cı cümlələr isə təxəyyülü ifadə edib.

3-2.4.4 **Tapşırıq C (dərslik).** Bu tapşırıqda şagirdlər **“Meşə yanğınları”** və **“Kenquru”** başlıqlı məlumat vərəqlərindən öyrəndikləri informasiyaları cümlələr şəklində ifadə edirlər:

**I “Meşə yanğınları” məlumat vərəqi:**

1. Avstraliyanın cənub-şərqində meşə yanğınları baş verib.
2. Meşə yanğınları 2019-cu ilin sentyabr ayında başlayıb. Dekabr ayında söndürülüb.
3. Meşə yanğınlarının səbəbi quraqlıq və ildırımlar olub.
4. Yanğın nəticəsində 2500-dən artıq bina yanıb, 27 insan həyatını itirib, milyonlarla heyvan tələf olub.
5. Avstraliya meşələrində koala və kenquru yaşayır. Yanğınlar nəticəsində bu heyvanlar nəsli kəsilmək təhlükəsi ilə üzləşiblər.
6. Meşə yanğınları zamanı insanlar minlərlə koalanı xilas ediblər.

“Kenquru” məlumat vərəqindəki şərti işarələr (simvollar) əvvəlki bölmələrdən şagirdlərə tanışdır. Müəllim bir daha bu işarələri izah etsə, şagirdlərə məlumat vərəqini oxumaq və cümlələr şəklində yazmaq asan olar. Simvolların izahı:

1. Nə qədər yaşaması;
2. Həyat tərzi (tək və ya sürü şəklində yaşaması);
3. Boyu;
4. Çəkisi;
5. Nə ilə qidalanması.

**II “Kenquru” məlumat vərəqi:**

1. Kenquru Avstraliyada yaşayır.
2. Kenquru kisəli heyvandır.
3. 12 metr uzununa, 3 metr hündürlüyə tullanır.
4. 23 ilə qədər yaşayır.
5. Sürü şəklində yaşayır.
6. 1,4 metrə yaxın boyu var.
7. 90 kiloqram çəkisi var.
8. Otyeyən heyvandır.

Əldə edilən məlumatlar “İki ana” mətni ilə müqayisə olunur.

**Tapşırıq Ç (dərslik).** Tapşırıqda təqdim olunan nümunəyə əsaslanmaqla digər məlumatların həqiqiliyini yoxlamaq olar:

1. “Meşə yanğınları” məlumat vərəqində olan faktlar (Avstraliyada quraqlıq, meşə yanğınları, 2019-cu ildə baş verən dəhşətli meşə yanğını, insanların heyvanları yanğından xilas etməsi) “İki ana” mətnində də var. Deməli, “İki ana” mətnində təsvir olunan hadisələr həqiqətə uyğundur.

2. “İki ana” mətnində kenqurunun Avstraliya meşələrində yaşaması, balasını kisəsində gəzdirməsi, 12 metr uzununa, 3 metr hündürlüyə tullanması faktları var. “Kenquru” məlumat vərəqində də bu faktlar var. Deməli, “İki ana” mətnində təsvir olunanlar həqiqətə uyğundur.

3-2.4.4 **Tapşırıq D (dərslik).** Aşağıdakı məlumatlar “İki ana” mətnində yoxdur:

**“Meşə yanğınları” məlumat vərəqi:** 2500-dən artıq binanın yanması, 27 nəfərin həlak olması, milyonlarla heyvanın tələf olması, kenquruların insanlar yaşayan kəndlərə gəlməsi və s.

**“Kenquru” haqqında məlumat vərəqi:** Kenqurunun sürü şəklində yaşaması, 23 ilə qədər yaşaması, hündürlüyünün 1,4 metr, çəkisinin 90 kiloqrama qədər olması, otyeyən heyvan olması və s.

**Tapşırıq A, B (iş dəftəri).** Verilən cədvəllərdə “İki ana” mətni ilə “Meşə yanğınları” məlumat vərəqindəki informasiyalar uyğunlaşdırılmalıdır.

A tapşırığındakı boş xanalarda məlumatlar bu ardıcıllıqla yazılmalıdır:

*1. Bu əhvalat 2019-cu ilin oktyabr ayında baş vermişdi.*

*2. İnsanlar heyvanları xilas etmək üçün əllərindən gələni etdilər.*

*3. Artıq neçə ay idi ki, bu ərazilərdə dəhşətli quraqlıq davam edirdi.*

B tapşırığındakı boş xanalarda məlumatlar bu ardıcıllıqla yazılmalıdır:

*1. Kenquru 12 metr uzununa, 3 metr hündürlüyə tullanır.*

*2. Koala meşədə bir kenquru gördü.*

*3. Ana kenquru balasını kisəsində bəsləyir.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii və informativ mətnləri məzmun xüsusiyyətlərinə görə müqayisə edir. | Tap. A (dərslik) |
| Mətnlə bağlı fikirlərin fakt və ya təxəyyül olduğunu müəyyən edir. | Tap. B (dərslik) |
| Qrafik informasiyanı oxumaqla məlumatları anladığını nümayiş etdirir. | Tap. C (dərslik) |
| Oxuduğu mətnə istinad etməklə fakt və ya mülahizələrin həqiqətə uyğunluğunu əsaslandırır. | Tap. C (dərslik), A, B (iş dəftəri) |
| Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir. | Tap. D (dərslik) |

## **4-cü dərs.** Mürəkkəb sözlərin yazılışı

• Dərslik: səh. 91 • İş dəftəri: səh. 61

### Təlim məqsədləri

• Mürəkkəb sözlərin tərkibini müəyyən edir. (st. 3-4.2.1).

• Mürəkkəb sözləri tərkib hissələri arasındakı məna əlaqəsindən çıxış edərək düzgün yazır (st. 3-4.1.2).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | İndiyə qədər oxuduqları informativ mətnlərin xatırlanması |
| 2 | **Dil qaydaları** | Mürəkkəb sözün tərkib hissələri arasındakı məna əlaqəsinin müəyyən edilməsi; mürəkkəb sözün tərkib hissələri arasında məna əlaqəsindən çıxış edərək onun düzgün yazılışının müəyyən edilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhəyə şagirdlərə tanış olan üç mürəkkəb söz yazır:

*Yanğınsöndürən, kitab-dəftər, gecə-gündüz.*

Şagirdlərin diqqəti əvvəl bu sözlərin yazılışına, sonra tərkibindəki sözlərin mənasına yönəldilir.

## Dil qaydaları

3-4.2.1 **Tapşırıq A (dərslik).** Mətndəki mürəkkəb sözlər aşağıdakı kimi qruplaşdırılmalıdır.

1) yaxınmənalı sözlərin birləşməsində yaranan mürəkkəb sözlər: *çığır-bağır, qollu-budaqlı.*

2) əksmənalı sözlərin birləşməsində yaranan mürəkkəb sözlər: *ora-bura, sağa-sola.*

3) müxtəlifmənalı sözlərin birləşməsindən yaranan mürəkkəb sözlər: *ikiayaqlı, yanğınsöndürən, axşamtərəfi.*

Bundan sonra müəllim mürəkkəb sözlərin “Bunları bilməliyik” rubrikasında verilən yazılış qaydalarını izah edir.

**Tapşırıq B (dərslik).** Şagirdlər yanaşı işlənən sözlərdən mürəkkəb sözlər düzəldirlər: *gül-çiçək, doğru-dürüst, tozsoran, günəbaxan, açıq-aydın, dost-tanış, addımbaşı, dağ-dərə, göyqurşağı, gecə-gündüz, səhər-axşam, meşəbəyi, kəklikotu, ev-eşik, eniş-yoxuş.*

3-4.1.2 **Tapşırıq C (dərslik).** Bu tapşırıqda şagirdlər səhv yazılmış mürəkkəb sözləri müəyyən etməli, sonra isə nümunəyə uyğun cədvəli tamamlamalıdırlar. Məsələn:

| Yazılıb | Yazılmalıdır | Əsaslandırma |
|---|---|---|
| səsküy | səs-küy | səs və küy yaxınmənalı sözlərdir. |
| azçox | az-çox | az və çox əksmənalı sözlərdir. |

3-4.2.1 **Tapşırıq A (iş dəftəri).** Tapşırığın şərtinə görə yaxınmənalı və əksmənalı isimlərin birləşməsindən yaranan mürəkkəb sözlər qruplaşdırılır.

Yaxınmənalı isimlərin birləşməsindən yarananlar: *adət-ənənə, kağız-qələm, qab-qaşıq, meyvə-tərəvəz.*

Əksmənalı isimlərin birləşməsindən yarananlar: *baş-ayaq, yer-göy, gecə-gündüz, dərə-təpə.*

Bu tapşırıqda mürəkkəb sözlər düzgün yazıldığı üçün şagirdlərdən yalnız onların tərkibinə daxil olan sözlərin mənasını müəyyənləşdirmək tələb olunur.

**Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq iki mərhələdən ibarətdir. Şagirdlər həm mürəkkəb sözlərin tərkibindəki sözləri mənalarına görə fərqləndirməli, həm də onları orfoqrafik qaydalara uyğun yazmalıdırlar.

Yaxınmənalı sözlərdən yarananlar: *dost-tanış, bağ-bostan, qohum-qardaş, dadlı-tamlı.*

Əksmənalı sözlərdən yarananlar: *gediş-gəliş, sual-cavab, pis-yaxşı, əvvəl-axır.*

Müxtəlifmənalı sözlərdən yarananlar: *yerfındığı, meşəbəyi, ipəkqurdu, dağkeçisi.*

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mürəkkəb sözün tərkibinə daxil olan sözləri mənasına görə fərqləndirir. | Tap. A (dərslik), tap. A (iş dəftəri) |
| Yaxın və ya əksmənalı sözlərin birləşməsindən mürəkkəb sözlər düzəldir. | Tap. B (dərslik) |
| Müxtəlifmənalı sözlərin birləşməsindən mürəkkəb sözlər düzəldir. | Tap. B (dərslik) |
| Müxtəlifmənalı sözlərin birləşməsindən yaranan mürəkkəb sözləri orfoqrafik normalara uyğun yazır. | Tap. C (dərslik), tap. B (iş dəftəri) |
| Yaxın və ya əksmənalı sözlərin birləşməsindən yaranan mürəkkəb sözləri orfoqrafiya normalarına uyğun yazır. | Tap. C (dərslik), tap. B (iş dəftəri) |

fəsil 3 **DƏNİZDƏ FIRTINA**

## 1-ci dərs. "Neft Daşlarında" (I hissə)

• Dərslik: səh. 92–93 • İş dəftəri: səh. 62

**Təlim məqsədləri**

• Əlavə biliklərindən istifadə etməklə mövzu üzrə təqdimat edir. (st. 3-1.3.3).
• Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• Obrazların nitqini onların xarakterinə uyğun səsləndirir (st. 3-2.1.2).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Mətni təxəyyülünə uyğun davam etdirir. (st. 3-2.4.2).
• Mətnin məzmunundan çıxış edərək hadisənin səbəbini və nəticəsini müəyyən edir (st. 3-2.3.1).
• Məqsəddən asılı olaraq sual cümlələri qurur (st. 3-4.2.2).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Dənizdə şəhər" şeirindən bir parçanın oxusu |
| 2 | **Danışma** | "Neft Daşları" haqqında söhbət |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Neft Daşlarında" mətninin oxusu; "söz boğçası" üzrə iş |
| 4 | **Oxuyub-qavrama** | Mətn üzrə iş |
| 5 | **Dil qaydaları** | Sual cümlələrinin qurulması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim aşağıdakı şeir parçasını oxuyur:

**Dənizdə şəhər**

Bir gün evdə atamdan
Soruşdum ki, söylə bir,
Sizin suda eviniz,
İdarəniz necədir?

Atam güldü, söylədi:
– Getsən əgər ora sən,
Neçə canlı əfsanə,
Neçə nağıl görərsən.

Göy suların qoynunda
Balaca bir şəhər var.
Orda yaşaya bilər
Ancaq qoçaq adamlar.

Oğlum, heç bir şəhərə
Bənzəməyir bu şəhər.
Onun ayaqlarıdır
Uzun, dəmir dirəklər...

*Emin Mahmudov*

### Danışma

3-1.3.3 **Tapşırıq A (dərslik).** *"Sizcə, şeirdə hansı şəhər haqqında danışılır? Neft Daşları haqqında nə bilirsiniz?* sualları ilə şagirdlər 1-ci sinifdə "Möcüzələr adası" mətnindən öyrəndiklərini xatırlayıb danışırlar.

### Oxu. Söz ehtiyatı

**Səssiz oxu.** Şagirdlər səssiz oxu prosesinə cəlb edilirlər. Müəllim tapşırır ki, oxu zamanı tanış olmayan sözləri qeyd etsinlər. Mətnin birinci hissəsi şagirdlər tərəfindən səssiz oxunur.

Oxudan sonra həm şagirdlərin seçdikləri tanış olmayan sözlər, həm də söz boğçasındakı sözlər müzakirə olunur. Müəllimin köməyi ilə şagirdlər yeni sözlərin mənasını izah edirlər. Yeni sözlərin mənimsədilməsi ilə bağlı fəaliyyət həm dərslikdə, həm də iş dəftərində aparılır.

3-2.2.3 **Tapşırıq B (dərslik).** Şagirdlər verilən izahlara uyğun olan sözləri müəyyən etməklə yeni sözləri mənimsədiklərini nümayiş etdirirlər.

Doğru cavab: 1 – diktor; 2 – təlatüm; 3 – estakada.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər yeni sözləri cümlələrdə nöqtələrin yerinə yazmaqla mənalarını anladıqlarını nümayiş etdirirlər.

Doğru cavab: 1 – kəskinləşirdi; 2 – buruğun; 3 – nasazlığı.

3-2.1.2 **Rollu oxu.** Şagirdlər mətnin 1-ci hissəsinin məzmunu və söz ehtiyatı ilə tanış olduqdan sonra rollu oxu üsulu tətbiq edilir. Mətndə üç obrazın nitqi verilmişdir: diktor, usta və neftçi. Şagirdlər müəllifin və obrazların nitqini səsləndirən zaman uyğun səs tonundan, jest və mimikalardan istifadə edirlər.

**Müəllimin nəzərinə!** Rollu oxu zamanı şagirdlər bir-birinin oxusunu müşahidə edib müvafiq meyarlar əsasında qiymətləndirə bilərlər.

### Oxuyub-qavrama

**3-2.2.1** **Tapşırıq C (dərslik). Kollektiv iş.** Bu tapşırığı yerinə yetirməklə şagirdlər oxuyub-qavrama bacarıqlarını nümayiş etdirirlər.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər sualları sərbəst şəkildə cavablandırıb ustanın adı haqqında mətndə heç bir məlumatın olmadığını müəyyənləşdirirlər.

<u>Doğru cavab:</u> 2-ci sual.

**3-2.4.2** **Tapşırıq Ç (dərslik).** Şagirdlər əvvəlcə mətndəki problem və problemin həlli yollarını analiz etməklə mətnin bitməməsi haqqında fikir yürüdə bilərlər.

Sonra isə Arif və Səmədin son aqibəti barədə mətndə məlumatın olmamasını müəyyənləşdirirlər.

Sonda şagirdlər mətni təxəyyüllərinə uyğun davam etdirməlidirlər. Tapşırıq şagirdlərin yaradıcı təfəkkürünün inkişafına yönəlmişdir.

**3-2.3.1** **Tapşırıq C (iş dəftəri).** Şagirdlər verilmiş hadisələrin səbəbini və nəticəsini müəyyən edib cədvəli təxminən bu şəkildə tamamlamalıdırlar:

| Səbəb | Hadisə | Nəticə |
|---|---|---|
| Arif və Səməd buruğa qalxanda fırtına başladı. | Usta narahat oldu. | Usta və neftçilər onlara kömək etmək üçün buruğa sarı yollandılar. |
| Neftçilərin həyatı təhlükədə idi. | Xilasedicilər köməyə gəldilər. | Neftçilər qayığa minərək xilas oldular. |

### Dil qaydaları

**3-4.2.2** **Tapşırıq Ç (iş dəftəri).** Şagirdlər verilmiş sual əvəzliklərindən istifadə etməklə sual cümlələri qururlar:

**Neftçilər çətinliklə qayığa mindilər.**

*1. Kim qayığa mindi?*
*2. Neftçilər qayığa necə mindilər?*
*3. Neftçilər nəyə mindilər?*
*4. Neftçilər nə etdilər?*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə səsləndirir. | Tap. A (dərslik) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tap. B (dərslik), tap. A (iş dəftəri) |
| Mətnin məzmunu ilə bağlı faktoloji sualları cavablandırır. | Tap. C (dərslik) |
| Obrazların davranış və düşüncələrini analiz edərək mətnin davamını təxmin edir. | Tap. Ç (dərslik) |
| Mətnin məzmunundan çıxış edərək hadisənin səbənini və nəticəsini müəyyən edir. | Tap. C (iş dəftəri) |
| Nəqli cümlələrdən sual cümləläri düzəldir. | Tap. Ç (iş dəftəri) |

## 2-ci dərs. “Neft Daşlarında” (II hissə)

• Dərslik: 94–95 • İş dəftəri: səh. 63

**Təlim məqsədləri**

• Obrazların nitqini onların xarakterinə uyğun səsləndirir (st. 3-2.1.2).
• Verilmiş izaha (əlamətlərə və ümumi mənaya) görə sözü müəyyən edir (st. 3-2.2.3).
• Çoxmənalı sözün və ya omonimin kontekstə uyğun mənasını müəyyən edir (st. 3-2.2.3).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Mətndəki obrazları xarakterizə edir (st. 3-2.3.2).

• **Köməkçi vasitələr (təchizat):** izahlı lüğət.
• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sual-cavab |
| 2 | **Oxu. Söz ehtiyatı** | “Neft Daşlarında” mətninin II hissəsinin oxusu; tanış olmayan sözlərin mənimsədilməsi |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş |
| 4 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Müəllim ötən dərsdə şagirdlərin "Neft Daşlarında" mətninin davamı ilə bağlı söylədikləri fikirləri xatırladır.

**Oxu. Söz ehtiyatı**

3-2.1.2 **Tapşırıq A (dərslik).** Mətnin birinci hissəsi üzrə tətbiq olunan oxu üsulu (səssiz oxu və rollu oxu) təkrarlanır. Oxu prosesi bitdikdən sonra şagirdlər oxuduqlarını öz təxminləri ilə müqayisə edirlər. Təxminləri mətnin məzmunu ilə üst-üstə düşən şagirdlər seçilir.

3-2.2.3 Müəllim şagirdlərin diqqətini "söz boğçası"na yönəldir. Şagirdlərdən bu sözlərin təxmini izahını soruşur. Sonra isə yeni sözləri şagirdlərə izah edir.

***qasırğa*** – şiddətli, iti külək; tufan, boran;

***sinoptik*** – havanın necə olacağını qabaqcadan xəbər verən mütəxəssis;

***proqnoz*** – hər hansı prosesin, hadisənin və s.-nin nəticəsi haqqında əvvəlcədən söylənilən fikir.

Şagirdlər sözlərin mənasını dəqiq aydınlaşdırdıqdan sonra onları müxtəlif cümlələrdə işlədirlər. Bununla da onlar yeni sözlərin mənasını mənimsədiklərini nümayiş etdirirlər.

**Tapşırıq B (dərslik).** Bu tapşırıq şagirdlərin qazandıqları biliklərin tətbiq edilməsinə və möhkəmləndirilməsinə xidmət edir.

Şagirdlər öyrəndikləri yeni sözləri onlara aid izahlara uyğunlaşdırmalıdırlar.

1 – *sinoptik;* 2 – *proqnoz;* 3 – *qasırğa.*

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin həm oxuyub-qavrama, həm də söz ehtiyatını inkişaf etdirir.

Doğru cavab: 1. Güclü fırtına, 25–28 metr
2. Şiddətli fırtına, 11
3. 32 metrdən çox, 12 bal
4. 8, 17–20 metr

3-2.2.3 **Tapşırıq C (dərslik).** Tapşırığı yerinə yetirmək üçün şagirdlər izahları diqqətlə oxuyub mətndə işlənən "bal" sözünün uyğun izahını müəyyənləşdirirlər: ***Təbiət hadisələrinin (küləyin, zəlzələnin və s.-nin) gücünün ölçü vahidi.*** Sonra isə şagirdlər "bal" sözünə aid bütün şərhləri izahlı lüğətin köməyi ilə dəqiqləşdirirlər.

**Oxuyub-qavrama**

3-2.2.1 **Tapşırıq Ç (dərslik).** Mətndəki obraz və hadisələrə aid faktoloji sualları cavablandırmaqla şagirdlər oxuduqları mətnin məzmununu qavradıqlarını nümayiş etdirirlər.

**Tapşırıq D (dərslik).** Elşadın atasına olan sevgisi mətnin əsas hissəsində iki epizodda və sonluq hissədə öz əksini tapıb. Bu epizodlar aşağıdakılardır:

1. Elşadın kompüterdə "fırtına" sözünü axtarışa verməsi (Elşad atasına görə çox narahatlıq keçirir. Həyəcanla *fırtına* sözünün mənasını öyrənir.);

2. Elşadın anası ilə söhbəti (Elşad atasından danışanda səsi titrəyir, onu ağlamaq tutur, amma atasının sözlərini xatırlayıb özünü ələ alır.);

3. Elşadın atasını qarşılamağa hazırlaşması (Elşad eşidir ki, atası gəlir, ürəyi qürurla döyünür.).

3-2.3.2 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər mətn boyunca obrazların davranış və düşüncələrini analiz etmək yolu ilə tapşırıqda onlar haqqında verilmiş fikirləri əsaslandırmalıdırlar.

Doğru cavab:

*1. Arif fədakardır – O, başqalarının həyatını xilas etmək üçün öz həyatını təhlükəyə atır.*

*2. Ana qayğıkeşdir – O özü narahat olsa da, nənəni və Elşadı sakitləşdirməyə çalışır.*

*3. Elşad həssasdır – Televizordan eşitdiyi məlumat onu çox həyəcanlandırdı. Tez fırtına haqqında ətraflı məlumat əldə etməyə başladı.*

*4. Usta məsuliyyətlidir – O, fırtınadan öncə buruğu təmir etdirmək tapşırığı verir. Fırtına zamanı özü də buruğa qalxmaq istəyir.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirir. | Tap. A (dərslik) |
| Verilmiş izahın aid olduğu sözü müəyyən edir. | Tap. B (dərslik), tap. A (iş dəftəri) |
| Omonimlərin kontekstə görə mənasını müəyyən edir. | Tap. C (dərslik) |
| Mətnin məzmunu ilə bağlı faktoloji sualları cavablandırır. | Tap. Ç, D (dərslik) |
| Mətnə istinad etməklə obrazın xarakteri haqqında fikirləri əsaslandırır. | Tap. B (iş dəftəri) |

## 3-cü dərs. "Neft Daşlarında" mətni üzrə iş

• Dərslik: səh. 96 • İş dəftəri: səh. 64

**Təlim məqsədləri**

• Debatda səslənən fikirlərdən birinə münasibət bildirir və mövqeyini arqumentlərlə əsaslandırır. (st. 3-1.2.2).
• Şahid olduğu və ya iştirak etdiyi hadisə haqqında məlumat (xəbər) yazır (st. 3-3.2.1).
• Tərtib etdiyi suallar əsasında müsahibi ilə dialoq qurur (st. 3-1.2.3)
• Mövzu ilə bağlı təxəyyülünə uyğun dialoq yazır (st. 3-3.2.2).
• Dialoqda durğu işarələrindən düzgün istifadə edir (st. 3-4.3.1).
• Söz, söz birləşməsi və cümləni bir-birindən fərqləndirir (st. 3-4.2.2).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Neft Daşlarında" mətninin xatırlanması |
| 2 | **Danışma** | Mətndəki epizodla bağlı müzakirə |
| 3 | **Yazı** | Xəbərin hazırlanması |
| 4 | **Danışma** | Müsahibənin təşkili |
| 5 | **Dil qaydaları** | Söz birləşmələrinin müəyyənləşdirilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər sualı cavablandırarkən Elşadın atasına olan sevgisindən danışırlar, bununla da ötən dərsdə öyrəndiklərini xatırlayırlar.

### Danışma

3-1.2.2 **Tapşırıq B (dərslik).** Tapşırığı debat təşkil etməklə yerinə yetirmək olar. Müəllim lövhədə debat üçün iki fikir yazır:

*1. Elşadın anasının həqiqəti nənədən gizlətməsi düzgün idi.*

*2. Elşadın anasının həqiqəti nənədən gizlətməsi düzgün deyildi.*

Müəllim hər iki fikrin qarşısında həmin fikirlə razılaşan şagirdlərin adlarını yazır. Sonra şagirdlər nə üçün həmin fikirlə razılaşdıqlarını söyləməklə fikirlərini əsaslandırırlar.

**Tapşırıq C (dərslik).** Şagirdlər hər bir şəkildə təsvir olunmuş peşə sahibi haqqında (*geyimi, ləvazimatları, gördüyü işlər* və s.) danışırlar.

**Yönəldici suallar:** *Yanğınsöndürənin geyimi necə olur? O nə üçün xüsusi geyim geyinir? Sizcə, o, işində hansı təhlükə ilə üzləşə bilər? Bəs polislər özləri təhlükə ilə rastlaşa bilərlərmi? Üçüncü şəkildə hansı peşə sahibi təsvir olunmuşdur? Gəmi kapitanı nə işlə məşğuldur? Bəs gəmi kapitanı iş vaxtı hansı təhlükələrlə üzləşə bilər?* və s.

### Yazı

3-3.2.1 **Tapşırıq Ç (dərslik).** Bu tapşırıq şagirdlərin xəbər məzmunlu mətn yazmaq bacarığını formalaşdırır. Artıq şagirdlər əvvəlki dərslərdən bu tipli mətn nümunəsi ilə tanışdırlar. Şagirdlərin yazacaqları mətn təxminən belə ola bilər:

*Fırtına günorta baş verdi. Külək dənizin dalğalarını çox hündürə qaldırırdı. Bütün estakada suyun içində idi. Neftçilər qorunmaq üçün otaqlara girirdilər. İki nəfər neftçi isə bu vaxt buruqda idi. Onlar nasazlığı aradan qaldırmağa çalışırdılar. Fırtına vaxtı buruqda olmaq çox təhlükəli idi. Onları xilas etmək lazım idi. Neftçilər bir-birinin qolundan yapışıb onların köməyinə getdilər. Elə bu vaxt xilasedici qayıq da gəldi. Neftçilər çox çətinliklə buruqdan enib qayığa mindilər.*

### Danışma

3-1.2.3 **Tapşırıq D (dərslik). Qruplarla iş.** Şagirdlər qruplara ayrılırlar. Müəllim şagirdlərin müsahibə ilə bağlı biliklərini xatırladır. Qrup üzvləri müsahibə üçün suallar hazırlamağa başlayırlar.

Hər bir qrup müsahibəni təqdim etmək üçün jurnalist və müsahibini seçir. Jurnalist və müsahib bir dəfə məşq edirlər. Bu zaman digər qrup üzvləri sual-cavab vaxtı öz irad və təkliflərini verməklə yoldaşlarını təqdimata hazırlaşdırırlar.

**Şagirdlərin təqdimatlarının məzmunu təxminən belə ola bilər:**

**1. Neftçi Ariflə müsahibə:**

*– Salam. Necəsiniz?*

*– Çox sağ olun, şükür, indi yaxşıyam.*

*– Siz buruğa qalxanda fırtına başlamışdı?*

*– Xeyr, amma başlayacağını bilirdim. Yaxşı ki biz işimizi qurtaranda fırtına başladı. Çətinliklə aşağı enə bildik. Külək o qədər güclü idi ki, az qala bizi yerə atacaqdı.*

*– Bəs qorxmadınız?*

*– Artıq öyrəşmişik. Bu bizim işimizdir. Amma arada Səməd büdrədi, güclə dəmirlərdən tutub dayandı. Onda çox qorxdum.*

*– Çox şadıq ki, hər şey yaxşı qurtardı. Biz sizin kimi fədakar neftçilərimizlə fəxr edirik. Müsahibəyə görə təşəkkür edirik.*

**2. Usta ilə müsahibə:**

*– Salam. Necəsiniz, usta?*

*– Çox sağ olun, indi yaxşıyam.*

*– Dənizdə fırtına olacağını bilirdiniz?*

*– Bəli. Biz hər gün sinoptiklərin məlumatını izləyirik. Amma buruqdakı nasazlıq qəflətən baş verdi.*

*– Buruq təmir edilməsəydi, nə baş verərdi?*

*– Qırılıb yerə düşə bilərdi, neftçilər xəsarət ala bilərdilər... Yaxşı ki vaxtında qarşısını ala bildik.*

*– Təşəkkür edirik!*

**3. Elşadla müsahibə:**

*– Dənizdə fırtına olacağından xəbərin var idi?*

*– Yox, bilmirdim. Bu barədə televiziyadan xəbər aldım.*

*– Eşidəndə ki atan böyük bir fəlakətin qarşısını alıb, hansı hissləri keçirdin?*

*– Mən həmişə atamla fəxr etmişəm. İndi də atamla qürur duydum.*

*– Böyüyəndə neftçi olmaq istəyərsənmi?*

*– Bəli. Bu mənim arzumdur.*

*– Müsahibəyə görə təşəkkür edirik.*

**Yazı**

3-3.2.2 3-4.3.1 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin yazılı formada dialoq qurmaq bacarığını möhkəmləndirir.

**Dialoqun məzmunu təxminən belə ola bilər:**

*– Salam, ata. Nə yaxşı ki gəldin!*

*– Necəsən? Hələ yatmamısan?*

*– Yox, səni gözləyirdim. De görüm, fırtına olacağını bilə-bilə niyə buruğun başına qalxmışdın?*

*– Düşündük ki, fırtına başlayana qədər işimizi bitirərik. Əslində, elə bitirdik də, amma yerə düşməyə gecikdik.*

*– Səndən çox narahat qaldıq. Gərək xəbər verəydin.*

*– Elşad, axı sən bilirsən ki, mən neftçiyəm. Belə havada evə zəng edə bilmirəm.*

*– Bilirəm, mənim qəhrəman atam!*

**Dil qaydaları**

3-4.2.2 **Tapşırıq B (iş dəftəri).** Söz birləşməsi üzrə biliklərin möhkəmləndirilməsi məqsədi daşıyır.

Doğru cavab: 1) hündür dalğalar; 2) güclü yağış; 3) dəniz kənarı; 4) qızmar Günəş; 5) küçənin işıqları.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. B (dərslik) |
| Şahid olduğu və ya iştirak etdiyi hadisə haqqında məlumat (xəbər) yazır. | Tap. Ç (dərslik) |
| Tərtib etdiyi suallar əsasında müsahibi ilə dialoq qurur. | Tap. D (dərslik) |
| Mətndəki epizoda uyğun dialoq qurub yazır. | Tap. A (iş dəftəri) |
| Cümləni təşkil edən söz və söz birləşmələrini müəyyən edir. | Tap. B (iş dəftəri) |

## 4-cü dərs. Mürəkkəb sözlərin yazılışı

• Dərslik: səh. 97 • İş dəftəri: səh. 65

**Təlim məqsədləri**

• Sözlər arasında uyğunluğu müəyyən edərək mürəkkəb sözlər düzəldir (st. 3-4.2.1).
• Mürəkkəb sözləri tərkib hissələri arasındakı məna əlaqəsindən çıxış edərək düzgün yazır (st. 3-4.1.2).
• Söz, söz birləşməsi və cümləni bir-birindən fərqləndirir (st. 3-4.2.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mürəkkəb sözlərin oxşar və fərqli xüsusiyyətləri haqda müzakirə |
| 2 | **Dil qaydaları** | Mürəkkəb sözlərin yazılışı |
| 3 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Müəllim lövhədə "hava", "bir", "su" sözlərini yazır və deyir:

*– Hansı sözü iki dəfə təkrarlasaq, yeni söz yarada bilərik?*

**Cavab:** bir – bir-bir.

Müəllim "bir" və "bir-bir" sözlərini cümlədə işlədib sözlər arasındakı məna fərqini izah edir.

3-4.2.1 **Tapşırıq A (dərslik).** Tapşırıq iki mərhələdə yerinə yetirilir:

1. Əvvəlcə şagirdlər həmin sözlərin oxşar xüsusiyyətlərini, yəni eyni sözün təkrarından yarandığını müəyyən edirlər.

2. İkinci mərhələdə şagirdlər müəyyənləşdirirlər ki, təkrarlanan sözlərin arasına *a, ba, bə, ha* hissəcikləri əlavə olunursa, bu yolla yaranan mürəkkəb sözlər bitişik yazılır.

**"Bunları bilməliyik" rubrikası.** Şagirdlər rubrikada verilmiş mürəkkəb sözlərin yazılış qaydasını oxuyur və nümunələrlə tanış olurlar.

3-4.1.2 **Tapşırıq B (dərslik). Kollektiv iş.** Məqsəd şagirdlərə mürəkkəb sözlərin yazılışı ilə bağlı qaydanı mənimsətməkdir.

Müəllim tapşırıqdakı cədvəli lövhədə çəkir. Şagirdlər müzakirə yolu ilə bitişik və defislə yazılan mürəkkəb sözləri cədvəldə qruplaşdırırlar.

**Tapşırıq C (dərslik), tapşırıq A (iş dəftəri).** Bu tapşırıqları yerinə yetirməklə şagirdlər eyni sözün təkrarından yaranan mürəkkəb sözlərin yazılış qaydasını mənimsədiklərini nümayiş etdirirlər.

<u>Doğru cavablar:</u> Tapşırıq C (dərslik) – *ilbail, yaza-yaza, ildən-ilə, rəngbərəng, vurhavur.*

Tapşırıq A (iş dəftəri) – *gülə-gülə, sözbəsöz, təkbətək, ağır-ağır, qovhaqov, iç-içə.*

**Tapşırıq Ç (dərslik). Cütlərlə iş.** Cütlər hərəkət bildirən sözlərdən mürəkkəb sözlər düzəldib iş vərəqlərində düzgün şəkildə yazırlar. Sonra isə həmin sözləri cümlələrdə işlədirlər.

**Tapşırıq D (dərslik), B (iş dəftəri).** Hər iki tapşırıq şagirdlərin mürəkkəb sözlərin yazılış qaydaları üzrə biliklərini möhkəmləndirmək məqsədi daşıyır.

3-4.2.2 **Tapşırıq C (iş dəftəri).** Müəllim əvvəlcə tapşırıqda verilmiş nümunəni şagirdlərə izah edir. Yaxşı olar ki, müəllim həmin sözlərin mənasını şagirdlərə izah etsin. Bu zaman mürəkkəb sözün daxilindəki sözlərlə söz birləşmələri arasında məna əlaqəsinin olmamasını aydınlaşdırırlar. Sonra şagirdlər nümunə əsasında söz birləşməsi düzəldib cümlədə işlədirlər. Nəticədə şagirdlər empirik olaraq mürəkkəb sözün söz birləşməsindən fərqini qavrayırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mürəkkəb sözün tərkibindəki sözləri müəyyən edir. | Tap. A (dərslik) |
| Eyni sözün təkrarından yaranan mürəkkəb sözləri düzgün yazır. | Tap. B, C, Ç, D (dərslik), A, B (iş dəftəri) |
| Mürəkkəb sözləri və söz birləşmələrini fərqləndirir. | Tap. C (iş dəftəri) |

## fəsil 4 SUNAMİ

### 1-ci dərs. "Okeanın qəzəbi"

• Dərslik: səh. 98–99 • İş dəftəri: səh. 66

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Mətni intonasiya ilə oxuyur (st. 3-2.1.1).
• Lüğətdən istifadə etməklə sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir (st. 3-2.3.1).
• Mətnin hissələrini uyğun yarımbaşlıqlarla adlandırır. (st. 3-2.4.3).
• Tanış olduğu məlumatları yazıda əks etdirir (st. 3-3.2.3).

• **Köməkçi vasitələr (təchizat):** Sunamiyə aid təsvirlər.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Su ilə bağlı təbii fəlakətlərin xatırlanması |
| 2 | **Danışma** | Sunami və daşqın barədə söhbət |
| 3 | **Oxu** | "Okeanın qəzəbi" mətninin oxusu |
| 4 | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi |
| 5 | **Oxuyub-qavrama** | Mətn üzrə iş |

## 6 Formativ qiymətləndirmə

### Mövzuya yönəltmə

Müəllim sinfə müraciət edir:

– *Hansı təbii fəlakətlər su ilə bağlıdır?*

### Danışma

3-1.3.3 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərə bölmənin əvvəlində sunami haqqında olan tapmacanı xatırladır:

– *Tapmacada sunami haqqında hansı məlumatları öyrəndiniz? Sunaminin daşqınla oxşar və fərqli cəhətləri haqqında nə demək olar?*

Müəllim lövhədə Venn diaqramı və ya cədvəl çəkir, şagirdlər sunami və daşqını müqayisə edirlər.

| Sunamiyə aid xüsusiyyətlər | Daşqına aid xüsusiyyətlər | Hər ikisinə aid ortaq xüsusiyyətlər |
|---|---|---|
| Okean və dənizdə baş verir. | Çaylarda yaranır. | Su ilə bağlı təbii fəlakətdir. |
| Zəlzələ nəticəsində yaranır. | Dağlardan əriyən qarın çaya tökülməsi nəticəsində baş verir. | İnsan itkisinə səbəb ola bilir. |

### Oxu

3-2.1.1 **"Okeanın qəzəbi" mətni.** Şagirdlər mətni növbə ilə oxuyurlar. Müəllim hər abzasın oxusundan sonra şagirdlərə yönəldici suallar verir. Bu üsulla müəllim mətnin diqqətlə və müvafiq səs tonu ilə oxunmasına nəzarət edir.

### Söz ehtiyatı

3-2.2.3 **"Söz boğçası" rubrikası.** Müəllim şagirdlərdən tanış olmayan sözlərin (şığımaq, şahid, qamarlamaq, fəsad) təxmini mənasını soruşur. Sonra özü sözlərin dəqiq mənasını lüğətdən oxuyaraq açıqlayır:

*şığımaq* – sürətlə enərək hədəfə hücum etmək;

*şahid* – hadisəni, əhvalatı öz gözü ilə görən adam;

*qamarlamaq* – əlləri ilə bir şeydən bərk-bərk yapışmaq;

*fəsad* – ağır, qorxulu nəticə.

Şagirdlər sözləri cümlələrdə işlədirlər.

**Tapşırıq A (iş dəftəri). Şaquli inteqrasiya. Sözlər arasındakı məntiqi əlaqəni müəyyən etməklə cümləni müvafiq sözlə tamamlayır (st. 2.1.2).**

Tapşırıq şagirdlərin söz boğçasındakı sözləri necə mənimsədiklərini yoxlamağa imkan verir. Şagirdlər verilmiş cümlələri oxuyur, uyğun sözləri söz boğçasından seçib nöqtələrin yerinə yazırlar: 1 – şığımaq; 2 – qamarlamaq; 3 – şahid; 4 – fəsad.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər tapşırıqdakı faktoloji suallara cavab verir, bununla da mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər mətnin məzmunu ilə bağlı doğru və yanlış fikirləri seçməklə oxuyub-qavrama bacarıqlarını inkişaf etdirirlər.

<u>Doğru cavablar:</u> 1, 4. <u>Yanlış cavablar:</u> 2, 3

3-2.3.1 **Tapşırıq C (iş dəftəri).** Sillogizm xarakterli tapşırıq şagirdlərin məntiqi təfəkkürünü inkişaf etdirir. Tapşırıq yeni tipli olduğu üçün şagirdlər bir qədər çətinlik çəkə bilərlər. Bu zaman müəllimin köməyi vacibdir.

**Doğru cavab:** Nəticə: Yaponiyada 7 baldan yuxarı zəlzələ olub.

3-2.4.3 **Tapşırıq C (dərslik).** Tapşırıq iki mərhələdən ibarətdir:

**I mərhələ:** Şagirdlər mətnin tərkib hissələrini müəyyən edirlər:

*Giriş hissə* – 1-ci və 2-ci abzaslar;

*Əsas hissə* – 3-cü, 4-cü və 5-ci abzaslar;

*Sonluq* – 6-cı abzas.

**II mərhələ:** Hissələri yarımbaşlıqlarla adlandırırlar.

*Giriş hissə* – Sunaminin yaranması;

*Əsas hissə* – Alyaska və Yaponiyada baş vermiş sunami;

*Sonluq* – İnsanın təbii fəlakət qarşısında aciz qalması.

Tapşırığın məqsədi şagirdlərin mətnin tərkib hissələri haqqında biliklərinin möhkəmləndirilməsi, eləcə də mətnin hissələrini yarımbaşlıqlarla ifadə etmək bacarığının inkişaf etdirilməsidir.

**Diferensial təlim**

Çətinlik çəkən şagirdlər yarımbaşlıqları sual cümlələri şəklində ifadə edə bilərlər: *Sunami necə yaranır? Dünyada ən dəhşətli sunamilər harada baş verib? İnsan təbii fəlakətin qarşısını ala bilərmi?*

### Yazı

3-3.2.3 **Tapşırıq Ç (iş dəftəri).** Şagirdlər mətndən sunaminin qorxunc fəlakət olduğunu təsdiq edən cümlələri seçib yazırlar.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlar əsasında mövzu üzrə danışır. | Tap. A (dərslik) |
| Cümləni müvafiq sözlə tamamlayır. | Tap. B (dərslik) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. B (dərslik) |
| Mətnin hissə və epizodlarını uyğun yarımbaşlıqlarla adlandırır. | Tap. C (dərslik) |
| Faktlardan istifadə etməklə mətndə birbaşa əks olunmayan məlumatı müəyyənləşdirir. | Tap. C (iş dəftəri) |
| Oxuduğu informativ mətndəki əsas faktları yazıda əks etdirir. | Tap. Ç (iş dəftəri) |

## 2-ci dərs. Qrafik təsvirin mətnə çevrilməsi

• Dərslik: səh. 99 • İş dəftəri: səh. 67

**Təlim məqsədləri**
• Qrafik informasiyanı yazıda rabitəli cümlələr şəklində təqdim edir (st. 3-3.2.5).
• Məlumatları qrafik informasiya (məlumat vərəqi, cədvəl, diaqram) şəklində təqdim edir (st. 3-3.2.5).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Zəlzələ və sunamiyə aid tapmacaların xatırladılması |
| 2 | **Yazı** | Qrafik informasiyanın rabitəli cümlələr şəklində yazılması; dinlənilən və oxunulan mətnin qrafik informasiyaya çevrilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Bu dərsdə sunami, zəlzələ və vulkan təbii fəlakətləri mövzularından istifadə etməklə şagirdlərin dinləmə, danışma, oxuyub-qavrama və yazı üzrə bacarıqları inkişaf etdirilir. Ona görə də müəllim sunami, zəlzələ və vulkan təsvirlərini şagirdlərə göstərir və soruşur:

*– Şəkillərdə hansı təbii fəlakətlər əks olunmuşdur?*

### Yazı

3-3.2.5 **Tapşırıq A (dərslik)**. Artıq şagirdlər əvvəlki dərslərdən (məlumat vərəqi əsasında) bu tapşırıq modeli ilə tanışdırlar. Şagirdlər cədvəldəki hər bir informasiyanı cümləyə çevirib yazmalıdırlar. Tapşırığın əvvəlcə şifahi olaraq kollektiv yerinə yetirilməsi tövsiyə olunur.

Şagirdlər təxminən belə yaza bilərlər:

*1. 1976-cı ildə Filippində sunami baş verdi. Dalğaların hündürlüyü 14 metrə qədər idi. Sunami nəticəsində 11 min insan həyatını itirdi.*

*2. Yaponiyada 2011-ci ildə sunami baş verdi. Dalğaların hündürlüyü 10 metrdən çox idi. Fəlakət nəticəsində 14 min insan həlak oldu.*

*3. 1960-cı ildə Çilidə baş verən sunamidə dalğaların hündürlüyü 25 metrə çatırdı. 6000 insan bu sunaminin qurbanı oldu.*

**Diferensial təlim**

Nitqini düzgün qurmağı və onu yazıya çevirməyi bacaran şagirdlərə qrafik informasiyanı informativ mətnin strukturuna uyğun (giriş, əsas və sonluq hissədən ibarət) şəkildə yazmağı tapşırmaq olar.

3-3.2.5 **Tapşırıq B (dərslik). Dinləmə ilə inteqrasiya.** Bu tapşırıq şagirdlərdə dinlədikləri mətni qrafik informasiyaya çevirmək bacarığı formalaşdırır. Tapşırığın kollektiv və ya qruplarla iş formasında yerinə yetirilməsi tövsiyə olunur.

**Qruplarla iş.** Müəllim şagirdləri qruplara ayırır və qruplara tapşırıqdakı cədvəli iş vərəqində çəkməyi tapşırır.

Müəllim mətni səsləndirməzdən öncə lövhədə suallar yazır və deyir ki, mətni dinlədikcə bu suallara cavab olan məlumatları qeyd edin.

*– Harada baş verib?*
*– Nə vaxt baş verib?*
*– Neçə bal gücündə olub?*
*– İnsan itkisi nə qədər olub?*

**Dinləmə mətni**

*Tarixboyu ölkəmizdə müxtəlif dağıdıcı zəlzələlər olub.*

*Güclü zəlzələlərdən biri 1139-cu ildə Gəncədə baş verib. 9 ballıq zəlzələ nəticəsində Kəpəz dağı uçaraq Ağsu çayının qarşısını kəsib və səkkiz göl yaranıb. Onların içərisində ən məşhurları Göygöl*

*və Maralgöldür. Gəncə zəlzələsi zamanı 300 minə yaxın insan həlak olub.*

*Ölkəmizdə ən çox zəlzələ baş verən bölgə Şamaxıdır. Ən dəhşətli Şamaxı zəlzələlərindən biri 1902-ci ildə baş verib. 9 ballıq gücü olan zəlzələ zamanı qədim Şamaxı şəhəri, demək olar ki, tamamilə dağılıb. 2000-ə qədər insan həyatını itirib.*

*2000-ci ildə Bakı şəhərində baş verən zəlzələ də sakinlərin yaddaşında dəhşətli fəlakət kimi qalıb. Zəlzələnin gücü 6 baldan çox olub. Çoxlu binalar ziyan çəkib. 30 nəfər həyatını itirib.*

Dinləmə mətni bitdikdən sonra qruplar götürdükləri qeydlər əsasında cədvəlin boş xanalarını doldururlar. Sonra müəllim mətni yenidən səsləndirir. Qruplar cədvələ yazdıqları məlumatları yoxlayırlar. Sonda qruplar cədvəl əsasında dinlədikləri mətni nəql edirlər.

| Zəlzələnin olduğu şəhər | Zaman | Zəlzələnin gücü | İnsan itkisi |
|---|---|---|---|
| Gəncə | 1139-cu il | 9 bal | 300 minə yaxın |
| Şamaxı | 1902-ci il | 9 bal | 2000 |
| Bakı | 2000-ci il | 6 baldan yuxarı | 30 |

**Tapşırıq A (iş dəftəri). İnteqrasiya.** Bu tapşırıq şagirdlərdə oxuduqları mətni qrafik informasiyaya çevirmək bacarığı formalaşdırır. Şagirdlər müstəqil şəkildə cədvəli aşağıdakı kimi tamamlayırlar.

| Vulkanın adı | Vulkanın yeri | Vulkanın hündürlüyü | Əlavə məlumatlar |
|---|---|---|---|
| Böyük İşıqlı | Azərbaycan – Laçın rayonu | 3552 metr | Sönmüş vulkandır. Yamacında qoruq var. |
| Hekla | İslandiya | 1481 metr | 20 dəfə püskürüb, sonuncusu 2000-ci ildə olub. |
| Vezuvi | İtaliya | 1280 metr | Pompey şəhərini yox edib. |
| Kalbuko | Çili | 2003 metr | 6000 insan vulkan səbəbindən yaşadığı yeri tərk edib. |

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Məlumatları qrafik informasiya (cədvəl) şəklində təqdim edir. | Tap. A (dərslik), tap. A (iş dəftəri) |
| Qrafik informasiyanı rabitəli cümlələr şəklində təqdim edir. | Tap. B (dərslik) |

## fəsil 5 "Daşqın

## 1-ci dərs. "Daşqının təəccübü"

• Dərslik: səh. 100 • İş dəftəri: səh. 68

**Təlim məqsədləri**

• Mətni intonasiya ilə oxuyur (st. 3-2.1.1).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Kontekstdən çıxış edərək frazeoloji ifadənin mənasını müəyyənləşdirir (st. 3-2.2.3).
• Oxunulmuş mətnin məzmununu ssenari şəklində yazır (st. 3-3.2.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Şagirdlərin adlarının müzakirəsi |
| 2 | **Oxu** | "Daşqının təəccübü" şeirinin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş |
| 4 | **Yazı** | Ssenarinin yazılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlərlə *"Evdə dərsə hazırlaşarkən sizə daha çox kim kömək edir?"* sualı ətrafında müzakirə aparılır.

### Oxu

3-2.1.1 **"Daşqının təəccübü" şeiri.** Müəllim şagirdlərə şeiri ifadəli, uyğun intonasiya ilə oxuya bilmələri üçün müvafiq təlimat verir. Şagirdlər

şeiri əvvəlcə səssiz oxuyurlar. Sonra hər bir şagird şeirin dörd misrasını obrazların hiss və duyğularına uyğun intonasiya ilə ifadəli şəkildə oxuyur. Bu üsulla onlar şeiri ifadəli oxumaqla yanaşı, həm şeirin əsas vahidi olan misraları fərqləndirirlər, həm də oxu növbələrini gözlədikləri üçün həmin hissəni izləyirlər.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin şeiri nə dərəcədə diqqətli oxuduqlarını yoxlamaq məqsədi daşıyır.

Doğru cavab: 1) fəlakət; 2) vulkan, uçqun, zəlzələ, sunami, tornado, daşqın; 3) birinci. Son sualın cavabı bu misralarda öz əksini tapıb:

*Məni ilk nənə edən*
*Şirin nəvə payımsan.*

Müəllim şeirin mövzusunu şagirdlərin həyatı ilə əlaqələndirmək üçün sual verir:

*– Kim öz adının mənasını bilir?*

Şagirdlər müəllimin köməyi ilə öz adlarının mənasını izah etməyə çalışırlar.

### Söz ehtiyatı

3-2.2.3 **Tapşırıq C (dərslik).** Müəllimin köməyi ilə şagirdlər şeirdə işlənən "ipə-sapa yatmamaq" ifadəsinin mənasını izah edirlər:

**İpə-sapa yatmamaq** – nizam-intizama əməl etməmək, nəsihətə qulaq asmamaq, yola gəlməmək; söz eşitməmək.

Şagirdlər bu ifadənin dəcəl, sözə baxmayan uşaqlar haqqında işlədilməsini söyləyə bilərlər.

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırıq oxuyub-qavramanı möhkəmləndirir. Şagirdlər şeirin verilmiş misralarını necə anladıqlarını öz sözləri ilə izah edirlər.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər bilməcənin köməyi ilə atalar sözlərini tamamlayır və söz ehtiyatlarını möhkəmləndirirlər.

Doğru cavab: 1. Qar; 2. Sel; 3. Yağış, dolu.

### Yazı

3-3.2.1 **Tapşırıq Ç (dərslik).** Dərsliyin birinci bölməsində şagirdlərin ssenari haqqında əldə etdikləri biliklər (dərslik, səh. 24.) xatırladılır. Tapşırıq bir neçə mərhələdə yerinə yetirilir:

1. Şagirdlər əvvəlcə şeirin məzmununu nəql edirlər. Bu üsul ssenari yazmaq işini bir qədər asanlaşdırır.

2. Ssenaridə olan struktur elementləri (məkan, rolların adları, onların nitqi, hərəkəti) kollektiv şəkildə müzakirə olunur. Məsələn, müəllim sual verir:

*– Nənə ilə Daşqının olduğu məkanı necə təsvir edərsiniz? Sizcə, nənə ilə Daşqın söhbət zamanı hansı hisslər keçirə bilərlər?* (*Təəccüblə, mehribanlıqla, sevinclə, qürurla* sözlərinin lövhədə yazılması tövsiyə olunur.)

3. Şagirdlər cütlərlə və ya qruplarla iş formasında ssenari yazmağa başlayırlar. Yaxşı olar ki, müəllim ssenarinin strukturuna aid nümunə versin.

Ssenari təxminən bu şəkildə olacaq:

**Evdə**

*Daşqın evdə masa arxasında oturub. Qarşısında – masanın üzərində çoxlu kitab-dəftər var. Nənə isə divanda oturub kitab oxuyur.*

***Daşqın*** *(nənəyə müraciətlə): Nənə, fəlakət nədir? Mənə bu sözün mənasını izah et.*

***Nənə*** *(mehribanlıqla gülümsəyərək): Gəl, yaxın otur. Həyatda elə şeylər var ki, insanın onlara gücü çatmır. Uçqun, vulkan, zəlzələnin qarşısını insan ala bilməz. Çünki bunlar təbii fəlakətlərdir. Sunami su ilə, tornado küləklə fəlakət yaradır. Daşqın daşı da yuyub-aparır.*

***Daşqın*** *(təəccüblə): Nənə, özün deyirsən ki, daşqın təbii fəlakətdir. Bəs mənim adımı niyə Daşqın qoymusan?*

***Nənə*** *(sevinclə): Sən mənim günəşimsən, ayımsan! Sən olmasan, mən nənə olmazdım. Sən dünyaya gələndə mənim sevincim yerə-göyə sığmadı, aşdı-daşdı. Sevincim aşıb-daşdığına görə də sənin adını Daşqın qoydum. Görürsən, bu ad sənə necə yaraşır?!*

*(Sonra nənə Daşqını qucaqlayıb bağrına basır.)*

Daha sonra cütlər və ya qruplar təqdimat edirlər.

**Müəllimin nəzərinə!** Şagirdlər növbəti sərbəst dərsdə ssenari əsasında tamaşa göstərə bilərlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şeiri oxuyarkən müəllifin hiss və həyəcanını intonasiya və səs tonu ilə ifadə edir. | "Daşqının təəccübü" şeiri |

| | |
|---|---|
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. B (dərslik) |
| Kontekstdən çıxış edərək frazeoloji ifadənin mənasını müəyyənləşdirir. | Tap. C (dərslik) |
| Mətndəki epizoda uyğun ssenari qurub yazır. | Tap. Ç (dərslik) |

## 2-ci dərs. "Adilin şeiri"

• Dərslik: səh. 101 • İş dəftəri: səh. 69

**Təlim məqsədləri**

• Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır (st. 3-1.2.2).
• Mətnlərin bədii, poetik xüsusiyyətlərini müəyyənləşdirir və ekspressiv təsirini izah edir (st. 3-2.4.3).
• Fikir və təxəyyülü əsasında qafiyə və ritmə uyğun kiçikhəcmli şeir yazır (st.3-3.2.2).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Keçirilən şeirlərin xatırlanması |
| 2 | **Danışma** | Şeir yazmaq haqqında söhbət |
| 3 | **Oxu** | "Adilin şeiri" mətninin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş |
| 5 | **Yazı** | Şeirin yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim soruşur:

*– İndiyə qədər keçdiyimiz hansı şeirləri xatırlayırsınız? Sizcə, bu şeirlərin yadda qalmasının səbəbi nə ola bilər?*

### Oxu

**Tapşırıq A (dərslik).** Şagirdlər "Gicitkən" şeirini səssiz oxuyurlar. Sonra isə tapşırıqdakı sualları cavablandırırlar:

**Qafiyələnən sözlər:** *tala-taladı, daladı, gicitkən, incidirsən.*

**"Yadda saxla" rubrikası.** Şagirdlərin qafiyə haqqında bilikləri xatırladılır, "ritm" haqqında məlumat verilir. Bunların şeiri digər mətnlərdən fərqləndirən xüsusiyyətlər (qafiyə, ritm) olduğu diqqətə çatdırılır.

### Danışma

3-1.2.2 **Tapşırıq B (dərslik).** Şagirdlər şeir yazmağın çətinliyi haqqında müzakirə edirlər.

**Müəllimin nəzərinə!** Ola bilər ki, sinifdə şeir yaza bilən şagird var. Müəllim həmin şagirdi şeirini yoldaşlarına təqdim etməsi üçün həvəsləndirməlidir.

### Oxu

**"Adilin şeiri" mətni.** Şagirdlər mətni səssiz oxuyurlar. Sonra müəllim lövhədə "Bizim balaca Gülər, İdman edir səhər-səhər" və "Bizim balaca Gülər, Hər gün göstərir hünər" misralarını yazır və aydın intonasiya ilə elə oxuyur ki, şagirdlər "İdman edir səhər-səhər" misrasında ritmin pozulduğunu duysunlar. Belə olan halda şagirdlər şeirdə ritmin vacib şərt olduğunu daha dəqiq anlayacaqlar.

3-2.4.3 **Tapşırıq C (dərslik).** Şagirdlər şeirin misralarındakı hecaları sayıb ritmin pozulmasını müəyyənləşdirirlər:

Bi-zim ba-la-ca Gü-lər *(7 heca)*
İd-man e-dir sə-hər-sə-hər *(8 heca)*

Misraların birində 7, digərində 8 heca olduğu üçün ritm pozulub. Amma "Hər gün göstərir hünər" misrasında 7 heca var. Ona görə də bu misranı Adil əlavə edəndə ritm pozulmur.

**Tapşırıq A, B, C (iş dəftəri).** Tapşırıqlar şagirdlərin şeirin əlamətlərini anlamasına, onlarda şeir yazmaq həvəsi və bacarığının formalaşmasına yönəlib. Aşağıda tapşırıqların düzgün cavabları verilmişdir.

Natamam verilmiş şeirləri şagirdlər aşağıdakı kimi tamamlamalıdırlar:

*Taqqataq yağır* ***dolu***
*Kəsir cığırı,* ***yolu****.*
*Bu necə möcüzədir?*
*Özü daş, canı* ***sulu****.*

*Nədir belə* ***ulayan****,*
*Qorxulu səslər* ***yayan****?*

*Çaqqaldır, ya **canavar**,*
*Kimdir bundan **xəbərdar**?*

*Bu ulayan **küləkdir**,*
*Təbii **fəlakətdir**.*
*Onun adı **tufandır**,*
*Uçurub-**dağıdandır**.*

*Budaqlarda gəzən **quş***
*Özünə yuva **qurmuş**.*
*Ağzında yem gətirib*
*Balaların **doyurmuş**.*

### Yazı

3-3.2.2 **Tapşırıq Ç (dərslik). Qruplarla iş.** Bu tapşırıq vasitəsilə şagirdlərin yaradıcı təfəkkürü inkişaf etdirilir.

Qruplar ilkin olaraq mövzu seçimi edirlər. Daha sonra ilk misra fikirləşib tapırlar. Hər kəs növbəti misra üçün qafiyə təklif edir və təklif olunan qafiyələrdən istifadə edib yeni misralar yaradırlar.

Sonda qrupların təqdimatı dinlənilir. Şeirin qafiyəsi və ritmi müzakirə olunur.

**Müəllimin nəzərinə!** Tapşırıq modeli yeni olduğu üçün əksər şagirdlər çətinlik çəkə bilərlər. Müəllim hər qrupa nümunə üçün bir misra təqdim edə bilər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. B (dərslik) |
| Şeirdə ritmin yaranmasında misralardakı heca sayının rolunu izah edir. | Tap. C (dərslik), tap. B, C (iş dəftəri) |
| Şeir yazarkən nəzm əsərlərinə xas əsas poetik xüsusiyyətləri (qafiyə, ritm) nəzərə alır. | Tap. Ç (dərslik) |

## 3-cü dərs. Şəxs adlarının yaranması

• Dərslik: səh. 102 • İş dəftəri: səh. 70

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Həm ümumi, həm də xüsusi isim kimi işlənə bilən sözləri müəyyən edir (st. 3-4.2.1).
• Şəxs adları kimi işlənən sözlərin aid olduğu nitq hissəsini müəyyən edir (st. 3-4.2.1).
• Xüsusi isimlərin böyük hərflə yazılış qaydasına əməl edir (st. 3-3.1.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Daşqının təəccübü” şeirinin xatırlanması |
| 2 | **Danışma** | Şəxs adlarının yaranması haqqında söhbət |
| 3 | **Dil qaydaları** | Şəxs adlarının yaranması və düzgün yazılışı |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər nənənin nəvəsini Daşqın adlandırmasının səbəbini şeirdən nümunələr gətirməklə izah edirlər və müəyyənləşdirirlər ki, *daşqın* əvvəlcə ümumi isim kimi yaranmışdır.

### Danışma

3-1.3.3 **Tapşırıq B (dərslik).** Şagirdlər şəxs adlarının necə yaranması ilə bağlı fikirlərini bildirirlər.

### Dil qaydaları

**“Bunları bilməliyik” rubrikası.** Rubrikada xüsusi isimlərin (əsasən, şəxs adlarının) bəzən ümumi isimlərdən, bəzən isə sifətlərdən yarandığı diqqətə çatdırılır.

3-4.2.1 **Tapşırıq C (dərslik).** Şagirdlər xüsusi isim kimi işlənə bilən ümumi isimləri seçirlər: *dəniz, damla, cəsarət, səfər, nərgiz*.

3-4.2.1 **Tapşırıq Ç (dərslik).** Xüsusi isim kimi işlənə bilən sifətlər bunlardır: *mehriban, şirin, kamil, qəribə, ülvi, nadir, qorxmaz, göyçək, zərif.*

**Tapşırıq D (dərslik).** Şagirdlər xatırladıqları adamların adlarının hansının ümumi isimdən yaranmasını müəyyənləşdirirlər.

**Tapşırıq E (dərslik). Kollektiv iş.** Şagirdlər şəxs adlarının necə yaranmasını müəyyən etməklə

qruplaşdırırlar.

Konkret isimdən yarananlar: *Yasəmən, Pərvanə, Reyhan, Nazir, Şahin, Zümrüd.*

Mücərrəd isimdən yarananlar: *Nicat, Vüqar, Arzu, Xəyal, İlham, İradə.*

Əlamət bildirən sifətdən yarananlar: *Qara, Güllü.*

Keyfiyyət bildirən sifətdən yarananlar: *Mətin, Coşqun, Vurğun, Bəxtiyar, Mahir.*

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər *Sevda, Xəyal, Uğur* sözlərinin altından xətt çəkməlidirlər.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər sifətlərdən yaranan şəxs adlarını *(Şirin, Mətin, Zərif, Sadiq, Gözəl)* seçib onları cümlədə işlədirlər.

3-3.1.2 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər tapşırığı yerinə yetirməklə ümumi və xüsusi isimləri fərqləndirmək və düzgün yazmaq bacarıqlarını nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. A, B (dərslik) |
| Həm ümumi, həm də xüsusi isim kimi işlənə bilən sözləri müəyyən edir. | Tap. C (dərslik), tap. A, B (iş dəftəri) |
| Şəxs adları kimi işlənən sözlərin aid olduğu nitq hissəsini müəyyən edir. | Tap. Ç, E (dərslik), tap. A, B (iş dəftəri) |
| Xüsusi isimləri düzgün yazır. | Tap. C (iş dəftəri) |

## 4-cü dərs. Ümumiləşdirici təkrar

• Dərslik: səh. 103 • İş dəftəri: səh. 71

### Təlim məqsədləri

• Mətndə müəllif mövqeyini faktlardən, təxəyyülü real hadisədən fərqləndirir (st. 3-2.4.1).
• Mürəkkəb sözün tərkibindəki sözləri müəyyən edir (st. 3-4.1.2).
• Mürəkkəb sözləri tərkib hissələri arasındakı məna əlaqəsindən çıxış edərək düzgün yazır (st. 3-4.1.2).
• Xüsusi isimlərin böyük hərflə yazılış qaydasına əməl edir (st. 3-3.1.2).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bölmə üzrə sual-cavab |
| 2 | **Oxuyub-qavrama** | Fakt və ya təxəyyülün müəyyən edilməsi |
| 3 | **Dil qaydaları** | Mürəkkəb sözlərin düzgün yazılışı |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Şagirdlər bölmədəki mətnlərlə bağlı təəssüratlarını bölüşürlər.

### Oxuyub-qavrama

3-2.4.1 **Tapşırıq A (dərslik). Kollektiv iş.** Şagirdlərə məlumdur ki, fakt həqiqət, təxəyyül isə uydurma, dəqiq olmayan fikirdir. Bu bilikləri xatırlayan şagirdlər 1-ci, 3-cü, 4-cü, 7-ci cümlələrin fakt, 2-ci, 5-ci, 6-cı cümlələrin isə təxəyyül olmasını müəyyənləşdirirlər.

### Dil qaydaları

3-4.1.2 **Tapşırıq B (dərslik). Kollektiv iş.** Şagirdlər növbə ilə tapşırıqda verilmiş mürəkkəb sözlərin hansı nitq hissələrinin birləşməsindən yarandığını müəyyənləşdirirlər.

1. isim + isim: *qəndqabı, tozağacı,* yerfındığı.
2. isim + sifət: *dilişirin, diliuzun, əliəyri, gözüyaşlı.*
3. sifət + isim: *qaragöz, enlikürək, hazırcavab.*
4. sifət + sifət: *yastı-yastı, dadsız-duzsuz, səsli-küylü.*

3-4.1.2 **Tapşırıq C (dərslik).** Şagirdlər cümlələrin tərkibindəki səhv yazılan mürəkkəb sözləri

müəyyən etməli və onları orfoqrafik normaya uyğun köçürməlidirlər.

Doğru cavab: 1. bağayarpağı; 2. sətirbəsətir, öz-özünə; 3. mer-meyvə, üst-baş; 4. əyri-üyrü, üz-göz; 5. adbaad; 6. dost-tanış, üzüağ, gecə-gündüz.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlərin mürəkkəb sözləri fərqləndirmək bacarığı yoxlanılır. Cümlələrə bu sözlər əlavə edilməlidir: *1) günorta; 2) kəklikotu; 3) gülərüz; 4) hazırcavab.*

3-4.1.2 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər mürəkkəb sözləri orfoqrafik qaydaya uyğun yazırlar: *iynə-sap, iynəyarpaqlı; tozsoran, toz-torpaq.*

**Tapşırıq C (iş dəftəri).** Bu tapşırıqda verilmiş sözlərə onların əksmənalı qarşılığını artıraraq mürəkkəb sözlər düzəltmək və onları orfoqrafik qaydaya uyğun yazmaq lazımdır.

Doğru cavab: Eniş-yoxuş, ordan-burdan, əvvəl-axır, aşağı-yuxarı, sağ-sol.

**Tapşırıq Ç (iş dəftəri).** Şagirdlər cümlələri uyğun mürəkkəb sözlərlə tamamlamaqla oxuyub-qavrama, söz ehtiyatı, həmçinin orfoqrafik bilik və bacarıqlarını nümayiş etdirirlər. Sözlər bu ardıcıllıqla yazılır: *1) kəklikotu; 2) qohum-əqrəba; 3) ayaqqabı; 4) tozsoran; 5) toz-torpaq.*

3-3.1.2 **Tapşırıq Ç (dərslik).** Hər bir cümlədə həm ümumi, həm də xüsusi isim kimi işlənə bilən sözlər var. Şagirdlər cümlədə şəxs adlarını fərqləndirməli və onların ilk hərfini böyük yazaraq cümlələri köçürməlidirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Fakt və təxəyyülü fərqləndirir. | Tap. A (dərslik) |
| Mürəkkəb sözün tərkibindəki sözləri müəyyən edir. | Tap. B (dərslik), tap. A (iş dəftəri) |
| Mürəkkəb sözün düzgün yazılışını müəyyən edir. | Tap. C (dərslik), B, C, Ç (iş dəftəri) |
| Xüsusi isimləri düzgün yazır. | Tap. Ç (dərslik) |

bölmə **5** 

# İXTİRALAR

<table>
<tr><th colspan="2">Mövzu</th><th>İxtiralar</th></tr>
<tr><td rowspan="4">Nitq bacarıqları</td><td>Şifahi nitq</td><td>• Qeydlər əsasında danışma<br>• Dinləmə bacarığı</td></tr>
<tr><td>Söz ehtiyatı</td><td>• Verilmiş izah, əlamətə uyğun sözün müəyyən olunması<br>• <u>Yeni sözlər:</u> göz işlədikcə, bir göz qırpımında, zəka, mühəndis, işgüzar, diribaş, gözə dəymək, qasırğa, sərnişin, bərəlmək, siferblat, gil, yosun, mexanizm, təkmilləşdirmək, köndələn, təkan vermək, texnika, bədbəxt, məhrum olmaq, qabiliyyət, qabarıq, şrift, emalatxana, itki, istehsal, dəst</td></tr>
<tr><td>Oxu</td><td>• Bədii və elmi mətnlərdən qeydlər götürmək</td></tr>
<tr><td>Yazı</td><td>• Mövzu üzrə təlimata uyğun hekayə yazma<br>• Mətndən qeydlər yazmaq<br>• Yaddaş xəritəsi tərtib etmə</td></tr>
<tr><td rowspan="2">Akademik biliklər</td><td>Dil qaydaları</td><td>• Söz sonunda “k”, “q” samitlərinin düzgün yazılışı<br>• “l” samiti ilə başlanan -lar$^{2}$, -lı$^{4}$, -lıq$^{4}$ şəkilçilərinin düzgün yazılışı<br>• Say, sayların yazılışı</td></tr>
<tr><td>Filoloji anlayışlar</td><td>• Hekayə yazma, qeydgötürmə, yaddaş xəritəsi tərtib etmə, dinləmə bacarığı</td></tr>
<tr><td colspan="2">Kompetensiyalar</td><td>• Müxtəlif ixtiralarla tanışlıq, dünyagörüşün inkişafı, yeni ideyaların dəstəklənməsi, yaradıcılığın inkişafı</td></tr>
</table>

Bu bölmədə müxtəlif ixtiralarla bağlı mövzulardan bəhs edən bədii və informativ mətnlər təqdim olunur. Əsas məqsəd şagirdlərin maraq dairəsində olan mövzulardan istifadə etməklə onların dinləmə, danışma, oxu və yazı bacarıqlarını inkişaf etdirmək, mövzu ilə bağlı söz ehtiyatını zənginləşdirməkdir.

**Öncədən vacib olan bilik və bacarıqlar:**

• Bədii və informativ mətnləri fərqləndirmək;
• Mətnlərdən açar sözləri seçmək;
• Sayları müəyyən etmək, -ıncı$^{4}$ şəkilçisinin rəqəmlərlə yazılışını müəyyən etmək;
• Təxəyyülünə uyğun mətn yazmaq.

**Mənimsəmədə çətinlik doğuran məsələlər:**

• Qeydləri qruplaşdırmaq və yaddaş xəritəsi tərtib etmək.

**Diferensial təlim**

Bölmədəki dinləmə mətnlərindən qeydgötürmə zamanı uşaqlar üçün çətinlik yarana bilər. Bu bacarıq aşılanarkən şagirdlərin fəaliyyətinə diferensial yanaşma tövsiyə edilir. Bu məqamlarla bağlı tövsiyələr dərslərin şərhlərində verilmişdir.

**Bu bölmədə nəzərdə tutulan köməkçi vəsaitlər:** *Məlumat vərəqləri, araşdırma materialları, “Sirli ada”, “Robinzon Kruzo” kitabı.*

## **Giriş dərsi.** Bölmənin mövzusu ilə tanışlıq

• Dərslik: səh. 6–7 • İş dəftəri: səh. 3

**Təlim məqsədləri**
• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Mövzu ilə bağlı fakt və münasibət bildirən fikirləri yazıda əks etdirir (st.3-3.2.3).
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 3-3.2.5).

**Köməkçi vasitələr:** köhnə, uzaqdan idarə edilməyən, pultsuz televizor şəkli.

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Şəkil üzrə danışma |
| 2 | **Danışma** | Şəkillərdə verilmiş əşyaların yaranma səbəbləri haqqında müzakirə; ixtira etmək istədiyi əşya haqqında danışma və fikirlərini əsaslandırma |
| 3 | **Yazı** | Fikirlərini yazıda ifadə etmə; məlumat vərəqini tamamlama |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim yönəldici suallarla diqqəti bölmənin adına yönəldir: *"İxtira" sözünü necə izah edərdiniz?*

**Müəllimin nəzərinə!** Müəllim kömək üçün şagirdlərin yadına "kəşf" sözünü salır. Onlar artıq I sinifdən müxtəlif kəşflər haqqında məlumatlara sahibdirlər. Şagirdlərdən *ixtira* və *kəşf* sözlərini fərqləndirmək tələb edilmir. Əsas məqsəd şagirdlərin diqqətini *yeni bir şey yaratmaq, tapmaq* anlayışına yönəltməkdir.

### Danışma

3-1.3.3 **Tapşırıq A (dərslik).** Tapşırığı yerinə yetirməklə şagirdlər əvvəlki siniflərdən öyrəndikləri müxtəlif ixtira və kəşfləri (od, ipək, Morze əlifbası) yada salırlar. Müəllim yönəldici suallarla şagirdləri danışma fəaliyyətinə cəlb edir:

*– Od nə üçün yaranmışdır?*
*– İpək necə kəşf edildi?*
*– Morze əlifbası hansı məqsədlə yaradıldı?*
*– Bu ixtira və kəşflərin həyatımızda hansı faydaları var?*

**Diferensial təlim**
Şagirdlərin səviyyəsindən asılı olaraq müəllim bu tapşırıq vasitəsilə *kəşf* və *ixtira* anlayışlarını sadə şəkildə izah edə bilər. Burada odun təbiətdə mövcud olduğunu, insanlar tərəfindən kəşf edildiyini, ipəyin və Morze əlifbasının isə insan tərəfindən yaradıldığını, ixtira olduğunu izah edə bilər.

3-1.3.3 **Tapşırıq B (dərslik).** Tapşırıqda insanların gündəlik həyatda istifadə etdikləri məişət əşyaları təsvir edilmişdir. Şagirdlər bu əşyaların nə üçün yaranması və faydası haqqında danışırlar. Tapşırıq vasitəsilə şagirdlər gündəlik həyatda öyrəndikləri məlumatlar əsasında fikirlərini şərh edirlər.

**Müəllimin nəzərinə!** Bu şəkillər arasında pult təsvir edilmişdir. Müasir uşaqlar pult və onun idarə etdiyi cihazı vahid qurğu kimi qəbul edirlər. Müəllim pult icad olunmamışdan əvvəl istifadə edilən televizor, kondisioner şəkilləri göstərir. Beləliklə, pultun nə üçün ixtira olunduğu haqda (rahatlıq üçün məsafədən idarə etmək) şagirdlərin müəyyən qənaətlərə gəlməsinə kömək edir.

Müzakirələr nəticəsində şagirdlər belə bir nəticəyə gəlirlər ki, hər bir ixtira insanın həyatını daha rahat və asan etmək, insan əməyini yüngülləşdirmək məqsədi güdür.

### Yazı

3-3.2.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər dərslikdəki şəkillər üzrə danışarkən müxtəlif əşyaların ixtirası haqqında fikirlərini şərh etmişdilər. Bu tapşırıq vasitəsilə şifahi nitqdə ümumiləşdirdikləri fikirlərini fərdi şəkildə yazıda ifadə edirlər.

Tapşırıq şagirdlərin fikirlərini yazıda ifadə etmək, əsaslandırmaq bacarığını inkişaf etdirir.

### Danışma

3-1.3.3 **Tapşırıq C (dərslik).** Tapşırığı yerinə yetirmək üçün müəllim şagirdlərə müəyyən vaxt verir. Onlar hansı əşyaların ixtirası haqqında məlumat əldə etmək istədiklərini və bunun səbəbini izah edirlər.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər ixtira etmək istədikləri əşya, onun faydası, həmin əşyanın ixtirası üçün lazım olan bilik və materiallar haqqında fikirlərini şifahi şəkildə ifadə edirlər. Tapşırıq şa-

girdlərin yaradıcı bacarıqlarının inkişafına xidmət edir, onlarda özlərinə qarşı inam hissinin formalaşmasına, rastlaşdıqları problemi təhlil etməyə və həll yolu düşünməyə təşviq edir.

**Yazı**

3-3.2.5 **Tapşırıq B (iş dəftəri).** Dərslikdəki C tapşırığının davamı olaraq şagirdlər fikirlərini ümumiləşdirir və yazıda ifadə edirlər. Beləliklə, məlumat vərəqini tamamlamaqla yeni ideyanı təqdim etmək bacarığı formalaşdırılır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlar əsasında mövzu üzrə danışır. | Tap. A (dərslik) |
| Müəyyən fikirlə bağlı mövqeyini bildirir və əsaslandırır. | Tap. B, C, Ç (dərslik) |
| Müəyyən mövzu ilə bağlı fikirlərini yazıda ifadə edir. | Tap. A (iş dəftəri) |
| Verilmiş məlumatlara əsasən məlumat vərəqini tamamlayır. | Tap. B (iş dəftəri) |

## fəsil 1 ZƏKA VƏ İXTİRA

### 1-ci dərs. "Mister Smitin ixtirası" (I hissə)

• Dərslik: səh. 8–9 • İş dəftəri: səh. 4

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Mətni sürətli, səlis, aydın səslə oxuyur (st. 3-2.1.1).
• Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Şəkli şərh etməklə mövzu üzrə danışır (st. 3-1.3.2).

**Köməkçi vasitələr:** Jül Vernin "Sirli ada" kitabı.

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Situasiya üzrə danışma |
| 2 | **Danışma** | Mövzu üzrə müzakirə |
| 3 | **Söz ehtiyatı** | "Söz boğçası" üzrə iş |
| 4 | **Oxu** | "Mister Smitin ixtirası" mətninin oxusu |
| 5 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş |
| 6 | **Danışma** | Şəkil üzrə danışma, fikrini əsaslandırma |
| 7 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Müəllim yönəldici suallarla şagirdlərin diqqətini fəslin adına yönəldir:

*– "Zəka" sözünü necə izah edərdiniz?*

*– İnsan zəkası ilə ixtira arasında nə əlaqə var?*

*– İnsanın yeni bir şey ixtira etməsi üçün ona hansı bilik və bacarıqlar gərəklidir?*

**Danışma**

3-1.3.3 **Tapşırıq A (dərslik).** Şagirdlər verilmiş situasiya ilə bağlı fikir bildirir və əsaslandırırlar. Bu tapşırıq şagirdlərin mətndəki hadisələri daha yaxşı mənimsəməsinə və ixtiraların necə yaranması haqqında fikirlərinin formalaşmasına kömək edir.

**Oxu. Söz ehtiyatı**

3-2.1.1 **Mister Smitin ixtirası. Səsli oxu.**

**"Söz boğçası" rubrikası.** Müəllim şagirdlərin diqqətini söz boğçasına yönəldir və şagirdlər sözlərin mənasını təxmin edirlər. Sonra isə müəllim sözləri lüğətə əsasən izah edir.

Mətnin oxusuna keçməzdən əvvəl şagirdlərin diqqəti illüstrasiyaya və mətnin adına yönəldilir: *Sizcə, mətndəki obrazların başına hansı hadisələr gəlib? Onlar hansı problemlə üzləşiblər? Mətn niyə belə adlanır?* Sonra isə şagirdlər mətni səsli oxuyurlar.

3-2.2.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər söz boğçasında öyrəndikləri sözləri verilmiş cümlələrdə yerinə yazırlar.

**Oxuyub-qavrama**

3-2.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər mətn əsasında sualları cavablandırırlar, bununla da mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər. Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını

müəyyən etmək məqsədi daşıyır.

**Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq modeli mətndəki bütün informasiya materialını bir daha nəzərdən keçirməyə, mətndə verilməyən məlumatlar haqqında da düşünməyə sövq edir. Tapşırıq oxuyub-qavrama üzrə bilik və bacarıqların möhkəmlənməsinə xidmət edir.

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər bilməcəni həll edərək oxuduqları mətnin hansı əsərdən götürülmüş parça olduğunu müəyyən edirlər.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərə həmin kitabı nümayiş etdirə bilər. Mətnin oxusu və kitabın nümayişi şagirdləri mütaliəyə həvəsləndirə bilər.

### Danışma

3-1.3.3 **Tapşırıq C (dərslik).** Şagirdlərin diqqəti mətndə Conatanın tonqal qalamaq təklifi ilə bağlı abzasa yönəldilir. Onlar mövzu ilə bağlı fikirlərini bildirir və əsaslandırırlar.

**Müəllimin nəzərinə!** Müəllim II sinifdə keçdikləri "Ünsiyyət nədir" bölməsində "Qədim Oğuz eli" mətnini şagirdlərin yadına sala bilər. Orada insanların hansı məqsədlərlə tonqal qaladıqlarını xatırlada bilər.

3-1.3.2 **Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərin dərsin əvvəlində müzakirə etdikləri məlumatları mövzuya uyğun ümumiləşdirməyə kömək edir. Burada şagirdlər şəkillər vasitəsilə mətn qəhrəmanlarının rastlaşacaqları problemlər və onların həlli yolları haqqında danışırlar.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq D (dərslik).** Tapşırıq əsərin baş qəhrəmanını digər obrazlardan fərqləndirmək bacarığını formalaşdırır. Müəllim şagirdlərin diqqətini obrazlar haqqında verilmiş məlumatlara yönəldir. Mətnin 3-cü abzasında mister Smitin xüsusiyyətləri və mətnin başlığı əsasında baş qəhrəmanın mister Smit olduğunu müəyyən edirlər.

Müəllim şagirdlərin nəzərinə çatdırır ki, bədii əsərdə ideyanın açılmasında baş qəhrəmanın rolu daha böyük olur. Buna görə də onun xarakteri və davranışlarına xüsusi diqqət yetirmək lazımdır. Tapşırıq sonrakı dərslərdə hekayə yazmaq bacarığının formalaşmasına kömək edəcəkdir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş mövzu ətrafında fikirlərini şərh edir və əsaslandırır. | Tap. A (dərslik) |
| Mətni sürətli, səlis, aydın səslə oxuyur. | "Mister Smitin ixtirası" mətni |
| Cümləni tamamlamaq üçün kontekstə uyğun gələn sözü müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Mətnin məzmunu ilə bağlı faktoloji sualları cavablandırır. | Tap. B (dərslik), tap. B (iş dəftəri) |
| Bildiyi məlumatlar əsasında mövzu üzrə danışır. | Tap. C (dərslik) |
| Şəkli şərh etməklə mövzu üzrə danışır. | Tap. Ç (dərslik) |
| Mətnə istinad etməklə baş qəhrəmanı müəyyən edir. | Tap. D (dərslik) |

## 2-ci dərs. "Mister Smitin ixtirası" (II hissə)

• Dərslik: səh. 10–11 • İş dəftəri: səh. 5

### Təlim məqsədləri

• Oxuduğu mətnin mövzu və məzmununa yaradıcı yanaşmaqla danışır (st. 3-1.3.1).
• Mətni sürətli, səlis, aydın səslə oxuyur (st. 3-2.1.1).
• Bədii mətndəki hadisələrin ardıcıllığını müəyyən edir (st. 3-2.2.1).
• Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir (st. 3-2.3.1).
• Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st. 3-2.4.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mətnin davamını təxmin etmə |
| 2 | **Oxu. Söz ehtiyatı** | Söz boğçası üzrə iş."Mister Smitin ixtirası" (II hissə) mətninin oxunması; yeni sözlərin mənimsədilməsi |

| 3 | Oxuyub-qavrama | Mətnin məzmunu üzrə iş; mətnlərin müqayisəsi |
|---|---|---|
| 4 | Formativ qiymətləndirmə | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər mister Smitin tapılması, tapılsa, problemləri necə həll edəcəyi haqqında fikirlərini bildirirlər. Müəllim şagirdlərin diqqətini illüstrasiyaya yönəldərək şagirdlərin hadisələri təxmin etməsinə kömək edə bilər. Şəkildə şagirdlər onun tonqal qaladığını görəcəklər. Müəllim sual verə bilər: *Sizcə, o bunu necə edəcək?*

### Oxu. Söz ehtiyatı

3-2.1.1 **“Mister Smitin ixtirası” (II hissə).**

Şagirdlər mətni səsli oxuyurlar.

**“Söz boğçası” rubrikası.** Müəllim şagirdlərin diqqətini söz boğçasına yönəldir və şagirdlər sözlərin mənasını təxmin edirlər.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər mətn əsasında sualları cavablandırırlar, bununla da mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər. Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır.

3-2.2.1 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq oxuyub-qavrama üzrə bilik və bacarıqların möhkəmlənməsinə xidmət edir. Şagirdlər burada mətnin hər iki hissəsində verilən hadisələrin ardıcıllığını müəyyən edib yazırlar.

*<u>Doğru cavab:</u>*

1. Hava balonu qəzaya uğradı.
2. Sərnişinlər adaya düşdülər.
3. Qəzadan sonra mühəndis yoxa çıxdı.
4. Dənizçi tonqal qalamağı təklif etdi.
5. Sərnişinlər mister Smiti tapdılar.
6. Dənizçi və dostları qida axtarmağa getdilər.
7. Mister Smit tonqal yandırdı.

3-2.3.1 **Tapşırıq C (dərslik).** Müəllim şagirdlərin diqqətini yenidən mətnin illüstrasiyasına və mühəndisin ixtirası ilə bağlı məlumatlara yönəldir:

– *Smit bu ixtirası üçün nələrdən istifadə etdi?*

– *O niyə saat şüşəsindən istifadə etdi?*

Burada məqsəd şagirdlərin diqqətini böyüdücü şüşəyə cəlb etməkdir. Sonra tapşırıqda verilmiş əşyalardan hansının Smitin ixtirasını xatırlatdığı haqqında müzakirə aparılır.

*<u>Doğru cavab:</u>* Lupa.

3-2.2.1 **Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin söz boğçasında öyrəndikləri sözlərin daha dərindən mənimsənilməsinə, obrazın xüsusiyyətlərinin təhlili bacarıqlarının formalaşmasına xidmət edir. Şagirdlər həm də kontekstdən çıxış edərək mister Smitin nümunəsində bir sıra mənəvi və əqli keyfiyyətləri yenidən təhlil edir və uyğunluğu müəyyən edirlər.

*<u>Doğru cavab:</u>* 1 – B, 2 – Ç, 3 – A, 4 – C.

3-2.4.4 **Tapşırıq Ç (dərslik). Səssiz oxu.** Şagirdlər müəyyən vaxt ərzində verilmiş mətni oxuyurlar. Mətnə uyğun başlıqlar təklif edirlər. Sonra isə mister Smitin və Arximedin ixtiraları müqayisə edilir. Hər iki ixtirada şüşədən istifadə edilməsi, istilik alınması kimi məqamlar qeyd olunur. Fərq isə ondadır ki, mister Smit lupanın ondan keçən şüanı bir nöqtəyə cəmləşdirmək xüsusiyyətindən istifadə etmişdi. Arximed isə güzgünün şüanı əks etdirmək, qaytarmaq xüsusiyyətini əsas götürmüşdür. Tapşırıq şagirdlərin oxuyub-qavrama, təhlil və analizetmə bacarıqlarının inkişafına xidmət edir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki hadisələrin davamını təxmin edir. | Tap. A (dərslik) |
| Mətni aydın, səlis oxuyur. | “Mister Smitin ixtirası” mətni (II hissə) |
| Mətnin məzmunu ilə bağlı suallara cavab verir. | Tap. B (dərslik) |
| Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tap. A (iş dəftəri) |
| İllüstrasiya və mətndəki məlumatlardan istifadə edərək fikrini əsaslandırır. | Tap. C (dərslik) |
| Mətndəki obrazları xarakterizə edir. | Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq. Tapşırıq D (dərslik). Layihə tapşırığı.** Müəllim şagirdlərə kibritin ixtirası haqqında kitab və ya jurnallardan, ensiklopediya və ya internet resurslarından istifadə edərək məlumat toplamağı tapşırır.

## 3-cü dərs. Hekayənin yazılması

• Dərslik: səh. 12 • İş dəftəri: səh. 6

**Təlim məqsədləri**

• Mətnlərin bədii, poetik xüsusiyyətlərini müəyyənləşdirir və ekspressiv təsirini izah edir (st. 3-2.4.3).
• Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir (st. 3-2.3.3).
• Mətni məzmununa və janrın tələbinə uyğun dəyişir, genişləndirir və ya tamamlayır (st. 3-2.4.2).
• Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətn yazır (st. 3-3.2.2).

**Köməkçi vasitələr:** araşdırma materialları, "Robinzon kruzo" əsəri haqqında məlumat.

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bədii və informativ mətni fərqləndirmə |
| 2 | **Oxuyub-qavrama** | Təxəyyülə əsaslanaraq mətnə yeni epizod əlavə etmə; mətnin məzmunu ilə bağlı sualları cavablandırma |
| 3 | **Yazı** | Araşdırma materialları əsasında hekayə yazma; plan əsasında hekayə yazma |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sual verir: *Bədii və informativ mətnlər hansı xüsusiyyətlərinə görə fərqlənirlər? Hansı hissələrdən ibarət olurlar?*

### Oxuyub-qavrama

3-2.4.3 **Tapşırıq A (dərslik).** Şagirdlər "Mister Smitin ixtirası" mətninin bədii, yoxsa informativ mətn olması haqqında fikir yürüdür və əsaslandırırlar.

**Müəllimin nəzərinə!** Şagirdlər 2-ci sinifdə və 3-cü sinfin 1-ci yarımilində hər iki mətn tipi, onların məzmun və struktur xüsusiyyətləri haqqında məlumatlara yiyələniblər. Xatırlatmaq lazımdır ki, bədii mətnlərdə əsas hissə çox zaman qəhrəmanın rastlaşdığı problemlə başlanır. İnformativ mətnlərdə də çox zaman hər hansı suala cavab axtarılır və sualın yarandığı məqam girişdən əsas hissəyə keçidi təşkil edir. Burada mətn varlıq və hadisə haqqında məlumatlara görə hissələrə bölünür. Bu biliklərdən istifadə edərək şagirdlər oxuduqları mətnin bədii mətn olduğu qənaətinə gəlirlər.

3-2.3.3 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin epizod, mətnin məzmun və strukturu üzrə biliklərinin möhkəmlənməsinə xidmət edir. Şagirdlər mətndəki epizodları sadalayır, yarımbaşlıqlarla ifadə edirlər. Əsas epizodu, baş qəhrəmanın xarakterinin açıldığı epizodları qeyd edirlər. Mətni yazmaqda müəllifin məqsədi müəyyən olunur.

3-2.4.2 **Tapşırıq C (dərslik).** Mətndəki epizodlar sadalandıqdan sonra şagirdlər öz təxəyyüllərinə uyğun olaraq mətnə yeni epizod əlavə edirlər. Bunun üçün tapşırıqda şagirdlərə ipucu verilir.

Tapşırıq şagirdlərin yaradıcı bacarıqlarının inkişafına xidmət edir.

### Danışma

3-3.2.2 **Tapşırıq Ç (dərslik).** Şagirdlər kibritin ixtirası haqqında araşdırma materialları və verilmiş təlimat əsasında hekayə qururlar. Əvvəlki siniflərdə şagirdlər şəkillər və verilmiş mövzu üzrə bədii mətn qurmaq bacarığına yiyələniblər. İndi isə onlara hekayə yazmaq bacarığı aşılanır.

**"Faydalı məsləhət" rubrikası.** Rubrikada şagirdlərə hekayə yazmaq üçün tövsiyələr verilmişdir. Müəllim rubrikada verilmiş məlumatları şərh edir. Şagirdlər araşdırma materialları, şəkillər və təlimat əsasında şifahi şəkildə hekayə qururlar.

**Diferensial təlim**

Şagirdlərin səviyyəsindən asılı olaraq müəllim fəaliyyəti qrup və ya fərdi təşkil edə bilər. Əgər şagirdlər tam mətn qurmaqda çətinlik çəkərlərsə, mətnin hər bir hissəsi yazıldıqca müzakirə edilə, tövsiyələr verilə bilər.

Şagirdlərin araşdırması üçün imkan olmayan siniflərdə müəllim aşağıdakı məlumatları təqdim edə bilər.

*Həkim Volker əslən ingilis idi. O, gününün çox hissəsini dərman hazırlamaqla keçirirdi. Bir gün*

*yenə laboratoriyada təcrübə aparırdı. Bu dəfə o, tezalışan maddələrdən istifadə edirdi. Bir neçə maddəni qabın içərisinə tökür və çubuqlarla qarışdırırdı. Çubuqların ucu qarışığa dəyir və quruyurdu. O, çubuqları divara sürtür ki, təmizləsin. Bu zaman çubuqlar alışmağa başlayır. Bunu görən Volker təəccüblənir. O, istifadə etdiyi maddələri tez qeyd edir və qarışdıraraq kibrit hazırlamağa başlayır.*

*Con Volkerin ixtirası təsadüf nəticəsində yaranır. Buna baxmayaraq bütün dünyada tanınır. Bütün insanların gündəlik istifadə etdiyi məişət əşyasına çevrilir.*

### Yazı

3-3.2.2 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin hekayə yazmaq bacarıqlarını nümayiş etdirməsinə imkan yaradır. Fəaliyyətə keçməzdən əvvəl müəllim şagirdlərə Daniel Defonun "Robinzon Kruzo" əsəri və baş qəhrəman haqqında məlumat verir.

**"Robinzon Kruzo" əsəri haqqında məlumat:** *Məşhur ingilis yazıçısı Daniel Defo XVII–XVIII əsrlərdə yaşamışdır. O, bir çox əsərlərin müəllifidir. Onun ən məşhur əsəri isə "Robinzon Kruzo" olmuşdur.*

*Yazıçı bu əsərdə qəza nəticəsində adaya düşən bir insanın adadakı həyatından bəhs edir. Əsərin qəhrəmanı Robinzon Kruzodur. O, iradəli, dözümlü, yaradıcı insandır. Əsər Robinzon Kruzonun adada rastlaşdığı problemlərdən, onları necə həll etdiyindən, 28 il adada yaşayandan sonra oradan xilas olub öz vətəninə qayıtmasından bəhs edir.*

Verilmiş məlumatlar və plan əsasında şagirdlər hekayəni yazırlar. Əsər məzmun baxımından "Mister Smitin ixtirası" mətni ilə oxşar olduğundan şagirdlər üçün hekayəni yazmaq asanlaşır.

Şagirdlərin hekayə yazmasına kömək və qiymətləndirmək məqsədilə müəllim meyarlar təqdim edə bilər. Bu meyarlar şagirdlərin öz yazılarını qiymətləndirməsinə imkan yaradır.

| Meyarlar | Bəli | Qismən | Xeyr |
|---|---|---|---|
| Mətnin giriş hissəsində baş qəhrəman təsvir edilmişdir. | | | |
| Əsas hissədə baş qəhrəmanın başına gələn hadisələr, problemlərin həlli təsvir edilmişdir. | | | |
| Mətnin sonluq hissəsi yazılmışdır. | | | |

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii mətnin xüsusiyyətlərini izah edir. | Tap. A (dərslik) |
| Təxəyyülünə uyğun olaraq mətnə yeni epizod əlavə edir. | Tap. C (dərslik) |
| Araşdırma materialları və təlimat əsasında hekayə qurur. | Tap. Ç (dərslik) |
| Verilmiş plan əsasında hekayə yazır. | Tap. A (iş dəftəri) |

## 4-cü dərs. Sözlərdə *k-y* əvəzlənməsi

• Dərslik: səh. 13 • İş dəftəri: səh. 7

**Təlim məqsədləri**

• K samiti ilə bitən sözlərin düzgün yazılışını müəyyən edir (st. 3-4.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sözlərin yazılışındakı səhvləri müəyyən etmə |
| 2 | **Dil qaydaları** | Sözlərə şəkilçilər artıraraq köçürmək; nöqtələrin yerinə sözü dəyişərək yazmaq; saitlə başlanan şəkilçi artırdıqda *k-y* əvəzlənməsi baş verməyən halları müəyyən etmək |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər cümlələrdə səhv yazılmış sözlərin düzgün yazılışını müəyyən edirlər.

**"Bunları bilməliyik" rubrikası.** Şagirdlər artıq söz sonunda bəzi samitlərin düzgün yazılış qaydaları ilə tanışdırlar. İndi isə müəllim söz sonunda *"k"* samitinin düzgün yazılış qaydası haqqında məlumatları şərh edir. Nümunələr təhlil olunur.

Həmin sözlərə saitlə başlanan şəkilçi artırdıqda *k* samitinin *y* samiti ilə əvəz olunması haqqında məlumat verir.

**Dil qaydaları**

3-4.1.1 **Tapşırıq B (dərslik).** Şagirdlər verilən sözlərə uyğun şəkilçilər artıraraq yazırlar. Bu zaman *k-y* əvəzlənməsini bir daha nəzərdən keçirir və "Bunları bilməliyik" rubrikasında öyrəndikləri məlumatları möhkəmləndirirlər. Tapşırıq dil qaydasının mənimsənilməsinə xidmət edir.

**Tapşırıq C (dərslik).** Şagirdlər "yelləncək" sözünü cümlələrə uyğun dəyişib şəkilçilər artırmaqla yazırlar. Tapşırıq dil qaydasının möhkəmləndirilməsinə xidmət edir.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlər dil qaydasını mənimsədiklərini nümayiş etdirirlər.

3-4.1.1 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər "dibçək" sözünü cümlələrə uyğun dəyişib şəkilçilər artırmaqla yazırlar.

**"Diqqət et" rubrikası.** Məlumdur ki, *k* samiti ilə bitən bəzi sözlərdə bu samitin tələffüzü ilə yazılışı arasında fərq olmur. Bu sözlərə şəkilçi artırarkən *k-y* əvəzlənməsi baş vermir. Bu rubrikada həmin sözlər haqqında məlumat və nümunələr verilir.

**Tapşırıq Ç (dərslik).** Tapşırığın məqsədi "Diqqət et" rubrikasında verilmiş məlumatları mənimsətməkdir. Şagirdlər tapşırıqda verilmiş sözlərə şəkilçi artıraraq hansı sözdə *k-y* əvəzlənməsinin baş vermədiyini müəyyən edirlər.

*Doğru cavab:* təbrik, türk, iştirak.

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş sözlərə şəkilçi artıraraq hansı sözdə *k-y* əvəzlənməsinin baş vermədiyini müəyyən edirlər.

*Doğru cavab:* lək.

**Tapşırıq Ç (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlər *k-y* əvəzlənməsi ilə bağlı biliklərini yazıda tətbiq edirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz sonunda *k* samitinin düzgün yazılışını müəyyən edir. | Tap. B, C, Ç (dərslik), tap. A, B, C, Ç (iş dəftəri) |

fəsil 2

# ƏN MÜHÜM İXTİRA

## 1-ci dərs. Təkərin ixtirası

• Dərslik: səh. 14–15 • İş dəftəri: səh. 8

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Mətni intonasiya ilə oxuyur (st. 3-2.1.1).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir (st. 3-2.3.1).
• Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır (st. 3-3.2.3).
• Yazılı təqdimatın məzmununa münasibət bildirir və təkliflərini verir (st. 3-3.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Şəkil üzrə danışma |
| 2 | **Oxu** | "Təkərin ixtirası" mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş |
| 4 | **Danışma** | Fikirlərini əsaslandırmaqla müzakirə |
| 5 | **Yazı** | İnformativ mətn yazma |
| 6 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərin diqqətini fəslin adına yönəldir: *"Ən mühüm ixtira" dedikdə nə başa düşürsünüz? Sizcə, hansı ixtiralar bizim üçün daha gərəklidir?*

**Danışma**

3-1.3.3 **Tapşırıq A (dərslik).** Şagirdlərin diqqəti tapşırıq A-da verilmiş şəkillərə yönəldilir. Burada hansı ixtiranın daha əvvəl yarandığı üzərində müzakirə aparılır. Müzakirə nəticəsində şagirdlər bu qənaətə gəlirlər ki, çox zaman mühüm bir ixtira özündən sonrakı digər ixtiralara yol açır.

**Oxu**

3-2.1.1 **"Təkərin ixtirası" mətni. Növbəli oxu.** "Təkərin ixtirası" mətninin oxusuna keçməmişdən əvvəl şagirdlərin diqqəti şəklə yönəldilir:

*Sizcə, insanlar qədim dövrdə ağır yükləri necə daşıyırdılar? Necə düşünürsünüz, təkər necə yaranıb?*

Sonra şagirdlər mətni informativ mətnə müvafiq intonasiya ilə oxuyurlar. Mətn oxunduqca yeni sözlər izah edilir.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Suallar faktoloji səciyyə daşısa da, birinci suala cavab vermək üçün şagirdlər mətnin bir hissəsini məntiqi ardıcıllıqla nəql etməlidirlər. Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır.

3-2.3.1 **Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin açar sözlər və şəkillər üzrə danışma bacarığının inkişafına xidmət edir. Bu sözlər və şəkillər şagirdlərə mətnin mövzusu ilə bağlı yeni məlumatlar verir. Onlardan istifadə edərək qədim dövrdən bu günə qədər təkərin təkmilləşməsi haqqında danışır, onun nədən hazırlandığı barədə məlumat əldə edirlər.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər motivasiya tapşırığında gəldikləri qənaəti (bir ixtira digər ixtiraların yaranmasına imkan verir) təkər üzərində praktiki olaraq müzakirə edirlər. Burada müxtəlif əşyaların mexanizmində təkərdən istifadə edilməsi müzakirə olunur. Bu tapşırıq şagirdlərin şifahi nitqlərinin inkişafına xidmət edir.

### Danışma

3-1.3.3 **Tapşırıq D (dərslik).** Tapşırığın əsas məqsədi mətnin strukturunda müvafiq informasiyanın yerini müəyyən etməkdir. Beləliklə, şagirdlər fikirlərini əsaslandırmaq üçün mətndəki müvafiq informasiyaya istinad edirlər.

### Yazı

3-3.2.3 **Tapşırıq A (iş dəftəri).** Burada mətni yazarkən məlumatı seçmək və ardıcıllıqla təqdim etmək bacarığı inkişaf etdirilir. Şagirdlərin məlumatları ümumiləşdirmə və qruplaşdırma bacarıqları möhkəmləndirilir. Tapşırıq şagirdlərin informativ mətn yazmaq bacarığının möhkəmlənməsinə xidmət edir.

Tapşırığın icrasından əvvəl müzakirə aparılması məqsədəuyğundur. Müəllim informativ mətnin hissələri ilə bağlı şagirdlərin biliklərini yada salır. Sonra məlumat vərəqi oxunur və təhlil edilir.

3-3.1.1 Müəllim yazıdan əvvəl mətnin məzmun və strukturunu qiymətləndirmək üçün meyarlar təqdim edir. Şagirdlər yazılarını meyarlar əsasında qiymətləndirirlər.

| Meyarlar | Bəli | Qismən | Xeyr |
|---|---|---|---|
| Mətnin giriş hissəsi ümumi məlumat verir. | | | |
| Əsas hissəyə uyğun məlumatlar doğru yazılmışdır. | | | |
| Mətnin sonluq hissəsində uyğun nəticə çıxarılmışdır. | | | |

**Şagirdlərin qurduqları mətn belə ola bilər:**

*Giriş hissə:* İnsanlar bir çox nəqliyyat vasitələrindən istifadə edirlər. Bu vasitələrdən biri də avtomobildir. “Avtomobil” sözünün mənası *özü hərəkət edən* deməkdir.

Bəs avtomobil necə yaranmışdır?

*Əsas hissə:* İlk avtomobil 1885-ci ildə Almaniyada yaradılmışdır. İxtiranın sahibi alman alimi Karl Benz olmuşdur. Onun ixtira etdiyi avtomobil üçtəkərli idi. Bu avtomobil bir saatda 16 kilometr yol qət edirdi.

Sonralar isə bu gün gündəlik həyatımızda istifadə etdiyimiz dördtəkərli avtomobillər yarandı. İlk belə avtomobil 1893-cü ildə ixtira edilmişdir.

*Sonluq hissə:* Nəqliyyat vasitələrinin ixtirası insanların həyatını asanlaşdırdı. Avtomobil insanlara uzaq məsafəni qısa müddətdə qət etməyə imkan verdi.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlar əsasında şəkil üzrə danışır. | Tap. A (dərslik) |
| Mətnin məzmunu ilə bağlı suallara cavab verir. | Tap. B (dərslik) |
| Şəkil və açar sözlər əsasında mətnin məzmununa aid əlavə məlumatlar əldə edir. | Tap. C, D (dərslik) |
| Müəyyən fikirlə bağlı mövqeyini əsaslandırır. | Tap. Ç (dərslik) |
| Məlumat vərəqi əsasında kiçikhəcmli informativ mətn yazır. | Tap. A (iş dəftəri) |

## **2-ci dərs.** Qeydgötürmə

• Dərslik: səh. 16 • İş dəftəri: səh. 9

**Təlim məqsədləri**

• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Dinlədiyi mətni nəql edir (st. 3-1.3.1).
• Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır (st. 3-3.2.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Açar sözlər haqqında xatırlama |
| 2 | **Oxu** | "İlk metro" mətninin oxusu və açar sözləri seçmə |
| 3 | **Dinləmə-danışma** | Dinləmə mətni və qeydlər əsasında mövzu üzrə danışma |
| 4 | **Yazı** | Qeydlər əsasında informativ mətn yazma |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə suallar verməklə açar sözlər haqqında xatırlatma edir.

### Oxu

3-2.2.1 **Tapşırıq A (dərslik). "İlk metro". Səssiz oxu.** Şagirdlər artıq əvvəlki siniflərdən açar sözlər haqqında biliklərə yiyələniblər. Bu tapşırıqda həmin biliklərdən istifadə edərək "İlk metro" mətnini oxuyur və açar sözləri seçib yazırlar.

**"Faydalı məsləhət" rubrikası.** Müəllim rubrikada qeydlər haqqında verilmiş məlumatları şərh edir. "İlk metro" mətnindən verilmiş qeyd vərəqi təhlil edilir.

### Danışma

3-1.3.1 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin qeydlər haqqında biliklərinin mənimsənilməsinə xidmət edir. Müəllim dinləmə mətnini səsləndirir:

**"Beynəlxalq İşıqfor Günü"**

*Əvvəllər iri şəhərlərin küçələrində avtomobildən çox at qoşulmuş arabalar görmək olardı. Arabaların çoxluğu şəhərin küçələrində tıxac yaradırdı. İnsanlar uzun müddət səkidə dayanıb at qoşulmuş arabaların keçməsini gözləyirdilər. Yol hərəkəti qaydalarını tənzimləmək üçün işıqfor yox idi.*

*İlk dəfə 1914-cü il avqust ayının 5-də Amerikanın Klivlend şəhərində işıqfor quraşdırıldı. İxtiranın sahibi isə amerikalı ixtiraçı Ceyms Hoq idi.*

*İlk işıqforun iki – qırmızı və yaşıl rəngli işıqları var idi. İşıqfor yeni olduğu üçün insanlar hələ buna öyrəşməmişdilər. Ona görə də sürücülərin diqqətini cəlb etmək üçün rəngini dəyişəndə həm də səs çıxarırdı. Sarı rəngi isə polislərin fiti əvəz edirdi.*

*Məhz həmin tarix işıqforun ad günü sayılır. Hər il avqust ayının 5-i dünyada "Beynəlxalq İşıqfor Günü" kimi qeyd edilir.*

Mətni dinlədikdən sonra həmin mətndən verilmiş qeydlər əsasında mətni nəql edirlər.

### Yazı

3-3.2.3 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin qeydgötürmə üzrə bacarıqlarının möhkəmlənməsinə və tətbiqinə xidmət edir. Eyni zamanda informativ mətn yazmaq bacarıqlarının möhkəmlənməsinə imkan verir. Tapşırıq iki mərhələdə icra edilir:

1. Müəllim dinləmə mətnini səsləndirir. Şagirdlər müəllimin səsləndirdiyi dinləmə mətni əsasında qeydlər götürürlər.

2. Şagirdlər mətndən götürdükləri qeydlər əsasında informativ mətn yazırlar.

**Dinləmə mətni:**

**"İlk üçrəngli işıqforun tarixçəsi"**

*Əvvəllər insanlar əllə idarə edilən və ikirəngli işıqfordan istifadə edirdilər. Sarı rəngi isə polis fitləri əvəz edirdi. Bu isə sürücülərin diqqətinin yayınmasına səbəb olurdu. Bəs bu gün istifadə etdiyimiz üçrəngli işıqfor nə zaman yaranmışdır?*

*1923-cü ildə amerikalı mühəndis Qarret Morqan bugünkü mükəmməl işıqforu ixtira etdi. Bu işıqforda yaşıl rəng yuxarıda, qırmızı isə aşağıda idi. Sonralar yerləri dəyişdirildi.*

*Bəs niyə üç rəngdən istifadə edildi?*

*Qırmızı rəng – təhlükəni bildirən rəng hesab edilir. Təsadüfi deyil ki, yanğınsöndürən maşınlar da qırmızı rəngdədir. Bu rəng gecə vaxtı, yağışda, dumanda da yaxşı görünür. Maşınlara hərəkəti qadağan edir, sanki "Dayan! Yol bağlıdır!" deyir.*

*Yaşıl rəng isə tamamilə qırmızıdan seçilir və onları qarışdırmaq mümkün deyil. Ona görə də hərəkəti qadağan etmir və "Yol açıqdır! Cəsarətlə irəli!" deyir.*

*Bu iki rəngin ortasında olan sarı rəng isə sürücüləri və piyadaları diqqətli olmağa çağırır və*

*“Diqqət! Tezliklə hərəkətə ya icazə veriləcək, ya da qadağa qoyulacaq” deyir.*

**Müəllimin nəzərinə!** İnformativ mətn yazma iki mərhələdə icra edilə bilər:
1. Şagirdlər qeydlərini onlara təqdim olunmuş yarımbaşlıqlar üzrə qruplaşdıra bilərlər.
2. Yarımbaşlıqlara uyğun olaraq mətni yaza bilərlər.
Hər bir şagird yazdığı mətni oxuyur.

**Diferensial təlim**
Müəllim şagirdlərin səviyyəsindən asılı olaraq fəaliyyəti təşkil edə bilər. Daha fəal siniflərdə mətn tam səsləndirilə bilər. Çətinlik çəkən siniflərdə isə mətni abzas-abzas səsləndirə və şagirdlərin qeydgötürməsinə nəzarət edə bilər.

**Formativ qiymətləndirmə**
Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndən açar sözləri seçir. | Tap. A (dərslik) |
| Dinləmə mətnindən götürülmüş qeydlər əsasında mövzu üzrə danışır. | Tap. B (dərslik) |
| Mətndən götürülmüş qeydlər əsasında kiçikhəcmli informativ mətn yazır. | Tap. A (iş dəftəri) |

## **3-cü dərs.** Sözlərdə *q-ğ* əvəzlənməsi

• Dərslik: səh. 17 • İş dəftəri: səh. 10

**Təlim məqsədləri**
• Q samiti ilə bitən sözlərin düzgün yazılışını müəyyən edir (st. 3-4.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sözlərin yazılışındakı səhvləri müəyyən etmə |
| 2 | **Dil qaydaları** | Sözlərə şəkilçilər artıraraq köçürmək; nöqtələrin yerinə sözü dəyişərək yazmaq; saitlə başlanan şəkilçi artırdıqda *q-ğ* əvəzlənməsi baş verməyən halları müəyyən etmək |
| 3 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**
**Tapşırıq A (dərslik).** Şagirdlər cümlələrdə səhv yazılmış sözlərin düzgün yazılışını müəyyən edirlər.

**Dil qaydaları**
3-4.1.1 **“Bunları bilməliyik” rubrikası.** Şagirdlər artıq söz sonunda bəzi samitlərin düzgün yazılış qaydaları ilə tanışdırlar. İndi isə müəllim söz sonunda *q* samitinin düzgün yazılış qaydası haqqında məlumatları şərh edir. Nümunələr təhlil olunur. Həmin sözlərə saitlə başlanan şəkilçi artırdıqda *q* samitinin *ğ* samiti ilə əvəz olunması haqqında məlumat verir.

**Tapşırıq B (dərslik).** Şagirdlər sözlərə şəkilçilər artıraraq yazırlar. “Q” samitinin düzgün yazılışını mənimsəyirlər. Tapşırıq dil qaydasının mənimsənilməsinə xidmət edir.

**Tapşırıq C (dərslik).** Şagirdlər “otaq” sözünü cümlələrə uyğun şəkilçilər artırmaqla yazır, bu zaman *q-ğ* əvəzlənməsinə dair qaydaya riayət edirlər. Tapşırıq dil qaydasının möhkəmlənməsinə xidmət edir.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlər dil qaydasını mənimsədiklərini nümayiş etdirirlər.

**“Diqqət et” rubrikası (dərslik).** Söz sonunda *q-ğ* əvəzlənməsinin baş vermədiyi hallar müəllim tərəfindən şərh edilir.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər tapşırıqda verilmiş sözlərə şəkilçi artıraraq hansı sözdə *q-ğ* əvəzlənməsinin baş vermədiyi halları müəyyən edirlər və həmin sözləri cümlədə işlədirlər. Tapşırığın məqsədi “Diqqət et” rubrikasında verilmiş məlumatları mənimsətməkdir.

*Doğru cavab:* məntiq, şəfəq, xalq, dialoq.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş sözlərə şəkilçi artıraraq son samiti dəyişən və dəyişməyən sözləri müəyyən edib yazırlar. Tapşırıq şagirdlərin keçilmiş dil qaydası üzrə biliklərini nümayiş etdirməsinə xidmət edir.

**Tapşırıq C (iş dəftəri).** Tapşırıq həm dil qaydasının, həm də cümlə qurmaq vərdişinin möhkəmlənməsinə xidmət edir.

**Formativ qiymətləndirmə**
Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz sonunda *q* samitinin düzgün yazılışını müəyyən edir. | Tap. B, C (dərslik), A, B, C (iş dəftəri) |

# fəsil 3 İXTİRAÇI UŞAQLAR

## 1-ci dərs. Brayl şrifti

• Dərslik: səh. 18–19 • İş dəftəri: səh. 11

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 3-3.2.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Suallar üzrə müzakirə |
| 2 | **Oxu** | “Brayl əlifbası” mətninin oxusu; “Söz boğçası” üzrə iş |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş |
| 4 | **Söz ehtiyatı** | Sözlərə uyğun izahı müəyyən etmə |
| 5 | **Yazı** | Müqayisə cədvəli tərtib etmə |
| 6 | **Danışma** | Mövzu üzrə fikir bildirmə; fikrini mimika və jestlə ifadə etmə |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sual verir: *Dostlarınız və ya qohumlarınız arasında elə birisi varmı ki, nəsə ixtira etmiş olsun? Sizcə, uşaqlar da nə isə ixtira edə bilərlərmi?*

### Danışma

3-1.3.3 **Tapşırıq A (dərslik).** Tapşırıq şagirdlərin ikinci sinifdə keçdiyi mövzuları yada salır. Şagirdlər hərflərin nə üçün ixtira edildiyi haqqında danışırlar.

**Müəllimin nəzərinə!** Şagirdlərin II sinifdə “Ünsiyyət nədir” bölməsinin 2-ci fəsli olan “Şəkillərdən hərflərə” fəslində öyrəndikləri məlumatlar əsasında müzakirəni genişləndirmək olar:

*– Hərflər olmayanda insanlar necə ünsiyyət qururdular? İlk hərflər necə yarandı? Əlifba necə yarandı?*

**Tapşırıq B (dərslik).** Şagirdlərin müxtəlif əlifbalar haqqında öyrəndikləri biliklər yada salınır: *Morze əlifbası nə üçün yarandı? Hansı işarələrdən istifadə edilirdi?*

### Oxuyub-qavrama

3-2.2.1 **“Brayl əlifbası” mətni. Proqnozlaşdırılmış oxu.** Mətnin oxusuna keçməzdən əvvəl müəllim diqqəti mətnin başlığına və illüstrasiyalara yönəldir: *Sizcə, nə üçün mətn belə adlanır? Bu əlifba nə üçün yaranıb?* Müzakirədən sonra mətnin oxusu başlanır. Şagirdlər “Buna baxmayaraq Luis də başqa uşaqlar kimi oxumaq, təhsil almaq istəyirdi” cümləsinə kimi mətni oxuyurlar və sualların cavabını təxmin edirlər: *Luis hansı problemlə qarşılaşmışdı? Sizcə, o bu problemi necə həll edəcəkdi? O nə ixtira edəcək?*

Növbəti oxu prosesi “Onlar daha yaxşı eşidirlər, dəriləri daha həssas olur” cümləsinə qədər davam edir və müəllim sual verir: *Onun əlifbasında hərflər necə işarələnəcək? İnsanlar hərfləri necə oxuyacaqlar?* Sonra isə mətnin davamı oxunur.

3-2.2.1 **Tapşırıq C (dərslik).** Şagirdlər mətn əsasında sualları cavablandırırlar, bununla da mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər. Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır.

### Söz ehtiyatı

**“Söz boğçası” rubrikası.** Müəllim diqqəti söz boğçasına yönəldir və şagirdlər oxuduqları mətndən çıxış edərək sözlərin mənasını təxmin edirlər. Sonra isə müəllim sözləri dəqiq izah edir.

3-2.2.3 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin yeni sözləri necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır. Şagirdlər söz boğçasındakı yeni sözlərə uyğun izahları müəyyən edirlər.

*Doğru cavab:* *Hərfin qrafik təsviri* – şrift; *istedad, qavrama bacarığı* – qabiliyyət; *hamar olmayan, çıxıntılı* – qabarıq; *itirmək, əlindən çıxmaq* – məhrum olmaq.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər Brayl əlifbası ilə verilmiş sözdən yeni sözlər yaradır və Brayl şriftləri ilə yazırlar.

Bu tapşırıq Brayl əlifbasında hərflərin şriftlər olduğunu şagirdlərin diqqətinə çatdırmaq məqsə-

di daşıyır. Eyni zamanda şagirdlərin Brayl əlifbası haqqında öyrəndikləri məlumatları möhkəmləndirməsinə imkan yaradır.

Doğru cavab: Azər, ay, zər, an, can, baca, ara, yara, ana, nar, az və s.

**Müəllimin nəzərinə!** Tapşırığın cütlərlə iş şəklində təşkili tövsiyə edilir. Şagirdlərdən biri yeni sözlər haqqında düşünür, digəri isə həmin sözü Brayl əlifbası ilə yazır.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər Brayl şriftləri ilə verilmiş hərflərə baxaraq sözləri yazırlar. Tapşırıq Brayl əlifbası ilə bağlı öyrəndikləri məlumatların möhkəmlənməsinə xidmət edir.

Doğru cavab: ixtira, icad, kəşf.

**Tapşırıq C (iş dəftəri). Fənlərarası inteqrasiya. İnformatika. Mətnlərdə hərflərin ölçüsünü, formasını, rəngini dəyişir (st. 3.4.2).** Şagirdlər "B" hərfinin müxtəlif şriftlərlə nümunəsinə baxaraq özləri yeni bir şriftlə "B" hərfini yazırlar. Tapşırıq şagirdlərin mətndəki məlumatı daha dərindən mənimsəməsinə kömək edir. "Şrift" anlayışının mənimsənilməsinə və şagirdlərin yaradıcı bacarıqlarının inkişafına xidmət edir.

**Müəllimin nəzərinə!** Kompüter vasitəsilə müxtəlif şriftlər şagirdlərə nümayiş etdirilə bilər.

### Yazı

3-3.2.5 **Tapşırıq D (dərslik). Qruplarla iş.** Tapşırıq şagirdlərin əldə etdikləri məlumatları müqayisəetmə bacarıqlarının möhkəmlənməsinə xidmət edir.

Müəllim şagirdləri 3 qrupa bölür. Şagirdlər təyin edilmiş vaxt ərzində məlumatları oxuyurlar. Hər bir qrup öz tapşırığına uyğun məlumatı seçir və müqayisə cədvəli tərtib edir. Qrup işi bitdikdən sonra tərtib etdikləri cədvəli təqdim edirlər.

Doğru cavablar:

*1-ci qrup*: Morze əlifbasına aid məlumat: iki işarədən – nöqtə və tiredən istifadə edilir, uzaq məsafəyə məlumat göndərmək üçün istifadə edilir. Brayl əlifbasına aid məlumat: qabarıq nöqtələrin müxtəlif düzülüşündən istifadə olunur, görmə qabiliyyətindən məhrum insanlar üçün yaradılıb. Ortaq məlumat: hər hərfin öz cizgisi var.

*2-ci qrup:* Azərbaycan əlifbasına aid məlumat: böyük və kiçik hərflərin müxtəlif ölçüləri və formaları var. Brayl əlifbasına aid məlumat: qabarıq nöqtələrin müxtəlif düzülüşündən istifadə olunur, görmə qabiliyyətindən məhrum insanlar üçün yaradılıb. Ortaq məlumat: hər hərfin öz cizgisi var.

*3-cü qrup:* Azərbaycan əlifbasına aid məlumat: böyük və kiçik hərflərin müxtəlif ölçüləri və formaları var. Morze əlifbasına aid məlumat: iki işarədən – nöqtə və tiredən istifadə edilir, uzaq məsafəyə məlumat göndərmək üçün istifadə edilir. Ortaq məlumat: hər hərfin öz cizgisi var.

***Qeyd:*** "4. Hər bir hərf müəyyən səsi bildirir" xüsusiyyəti bütün əlifbalara aiddir.

### Danışma

3-2.2.3 **Tapşırıq E (dərslik).** Şagirdlər artıq müəyyən qabiliyyətindən məhrum olan insanlarda duyğu üzvlərinin necə inkişaf etdiyi haqqında məlumata yiyələniblər. Mətndəki informasiyanın nə qədər mənimsənildiyini yoxlamaq məqsədilə müzakirə aparılır.

**Müəllimin nəzərinə!** Müzakirədən sonra şagirdlərə bu barədə məlumat verilə bilər. Bu cür insanlarda görmə daha yaxşı inkişaf etdiyindən onlar jestlərdən istifadə edərək ünsiyyət qururlar. Müəyyən televiziya verilişlərində, xəbərlərdə diktor nitqinin surdo əlifbası ilə təqdim olunmasını nümayiş etdirə bilər. Bu əlifbanın "barmaq əlifbası" da adlandığı vurğulana bilər.

**Tapşırıq Ə (dərslik).** Bu tapşırıqda şagirdlər mimika və jestlərdən istifadə edərək cümlələri yoldaşlarına izah edirlər. Müəllim əlavə cümlələrlə oyunu davam etdirə bilər.

**Müəllimin nəzərinə!** Son dövrlərdə cəmiyyətdə inklüziv təhsilə keçid, hər hansı qabiliyyətini itirmiş insanların cəmiyyətə qazandırılması üçün müəyyən tədbirlər görülür. Ümumilikdə bu dərs və verilən tapşırıqlar şagirdlərdə bu bacarıqların, həssaslığın formalaşmasına xidmət edir. Tapşırığın oyun şəklində verilməsi şagirdlərin psixoloji olaraq yüklənməsinin qarşısını alır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlar əsasında mövzu üzrə danışır. | Tap. A, B (dərslik) |

| | |
|---|---|
| Mətnin davamını təxmin edir. | “Brayl əlifbası” mətni |
| Yeni sözlərə uyğun izahı müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Mətndəki məlumatlarla bağlı suallara cavab verir. | Tap. C (dərslik) |
| Verilmiş məlumatlar əsasında müqayisə cədvəli tərtib edir. | Tap. D (dərslik) |

## 2-ci dərs. Dinləmə bacarığı

• Dərslik: səh. 20 • İş dəftəri: səh. 12

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Obrazların nitqini onların xarakterinə uyğun səsləndirir (st. 3-2.1.2).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Dinlədiyi mətnin mövzu və məzmununa yaradıcı yanaşmaqla danışır (st. 3-1.3.1).
• Dinlədiyi mətnin məzmununa uyğun olan (olmayan) fikir və faktları müəyyənləşdirir (st. 3-1.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Suallar üzrə müzakirə |
| 2 | **Oxu** | Rollu oxu; “Uşaqların nağılı” mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş |
| 4 | **Dinləmə-danışma** | “Eşitmək və dinləmək” dinləmə mətni; mətn əsasında suallara cavab vermə |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sual verir: *İnsanlara bir-biri ilə ünsiyyət qurmaq üçün hansı bacarıqları kömək edir? İnsan fikirlərini digər insanlara necə çatdırır?*

### Danışma

3-1.3.3 **Tapşırıq A (dərslik).** Şagirdlər *eşitmək* və *dinləmək* anlayışlarını müqayisə edirlər. Müəllimin yönəldici sualları ilə onlar “*Dinləmək* – eşitdiyinin fərqinə varmaq, onu anlamaq deməkdir” qənaətinə gəlirlər.

### Oxu

3-2.1.2 **“Uşaqların nağılı” mətni. Rollu oxu.**

Şagirdlər onlara verilmiş vaxt ərzində “Uşaqların nağılı” mətnini səssiz oxuyurlar. Bu zaman obrazların nitqinə diqqət edir, onların keçirdiyi hisslərlə tanış olurlar. Müəllim obrazların nitqini şagirdlər arasında bölüşdürür. Mətndə 4 obrazın – Gülnar, İlqar, Aysel və Anarın nitqi verilmişdir. Bu dəfə şagirdlər mətni səsli oxuyurlar. Müəllim oxu zamanı şagirdlərin obrazların nitqini onların emosional vəziyyətinə uyğun səsləndirməsinə diqqət edir.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq C (dərslik).** Şagirdlər mətn əsasında sualı cavablandırırlar, bununla da mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

*Doğru cavab:* Səhv edən Anardır (Bağbanın bir oğlu, bir qızı var idi. O, qardaşlar dedi. Uşaqlar ərik ağacı əkmişdilər. Anar armud dedi).

**“Faydalı məsləhət” rubrikası.** Müəllim dinləmə bacarığı ilə əlaqədar məlumatları şərh edir.

### Dinləmə-danışma

3-1.3.1 **Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərin dinləmə bacarığının formalaşmasına xidmət edir. Tapşırıq iki mərhələdə icra edilir:

1. Müəllim dinləmə mətnini səsləndirir. Şagirdlər mətni dinləyir və verilmiş açar sözlər əsasında mətni nəql edirlər.

**“Eşitmək və dinləmək”**

*Elşən Azərbaycan dilindən ev tapşırıqları ilə məşğul idi. Atası isə divanda oturub qəzet oxuyurdu. Birdən Elşən atasına sarı dönüb soruşdu:*

*– Ata, eşitmək və dinləmək eynimənalı sözlərdir?*

*Ata qəzeti kənara qoyub dedi:*

*– Ətrafdakı səslərə qulaq as. Nə eşidirsən?*

*Elşən bir az susub qulaq asdı. Sonra dedi:*

*– Mətbəxdən qab-qacaq səsi gəlir... O biri otaqdan televizorun səsini eşidirəm... Həyətdən uşaqların səsi gəlir... Bir də yoldan keçən maşınların səsi...*

*– Afərin! İndi isə gözlərini yum və hər bir səsi ayrılıqda dinləməyə çalış. Eşitdiyin səslər haqqında təəssüratını danış.*

*Elşən gözlərini yumdu. Birazdan danışmağa başladı:*

*– Televizorda, deyəsən, cizgi filmi göstərirlər...*

*Hə, hə, "Tom və Cerri"dir. Günayın sevimli cizgi filmi.*

*– Yaxşı, sonra?*

*– Yoldan keçən maşınların səsi bir-birinə qarışıb. Bir maşının səsi lap bərkdən gəlir. Yaqin ki, yük maşınıdır. Özü də yüklə doludur, zorla gedir. Bir neçə maşın siqnal verir. Görünür, yük maşını arxadan gələnlərə yol vermir.*

*– Əla! Davam et.*

*– Həyətdə uşaqlar futbol oynayırlar. Həmişəki kimi, ən çox qışqıran Vüsaldır. Özü heç kimə top ötürmür, amma ona topu verməyəndə səs-küy salır. Qoy bir dərslərimi qurtarım. Düşüb futbol oynamağı ona göstərərəm!*

*– Fikrini yayındırma. Mətbəxdəki səslər barədə nə deyə bilərsən?*

*Elşən gözlərini açmadan bir az da qulaq asdı və dedi:*

*– Anam qabları yuyur. Özü də nə isə danışır. Elə bil nədənsə narazıdır. Hə, hə, deyəsən, şikayətlənir ki, sən ona qabyuyan maşın almırsan.*

*– Yaxşı, yaxşı, bəsdir. İndi bildin ki, eşitməklə dinləmək arasında nə fərq var? Bayaqdan müxtəlif səslər eşidirdin, amma onların fərqinə varmırdın. Həmin səsləri dinləyəndə ətrafında baş verən bir çox şeylər sənə məlum oldu. Başa düşdün?*

*– Hə... – Elşən hələ də nəyə isə qulaq asırdı. – Ata, bir səs də eşidirəm.*

*– Nə səsdir elə?*

*– Fit səsi, küləyin vıyıltısı. Nə vaxtdır anam deyir ki, pəncərələrin taxtaları aralanıb. Ona görə də bayırda külək olanda evdə fit səsi eşidilir.*

*– Elşən, daha bəsdir. Dərslərinlə məşğul ol.*

*Rafiq İsmayılov*

2. Dinləmə mətnindən dinləmə bacarığı ilə bağlı verilən tövsiyəni müəyyən edirlər. Bu fəaliyyət dinləmə zamanı hansı qaydalara əməl etməli olduqlarının möhkəmlənməsinə xidmət edir.

3-1.1.1 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlər mətni nə qədər diqqətlə dinlədiklərini nümayiş etdirirlər.

<u>*Doğru cavab:*</u> 1. Azərbaycan dili, 2. atasından, 3. Qəzet oxuyurdu, 4. Uşaqların səsini, maşınların səsini, 5. Mətbəxdə, 6. Qabyuyan maşının olmamasından.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəyyən fikirlə bağlı mövqeyini əsaslandırır. | Tap. A (dərslik) |
| Mətni intonasiya ilə oxuyur. | Tap. B (dərslik) |
| Mətndəki məlumatlarla bağlı suallara cavab verir. | Tap. C (dərslik) |
| Dinlədiyi mətni açar sözlər əsasında nəql edir. | Tap. Ç (dərslik) |
| Dinlədiyi mətnlə bağlı suallara cavab verir. | Tap. A (iş dəftəri) |

## 3-cü dərs. "L" samiti ilə başlanan şəkilçilər

• Dərslik: səh. 21 • İş dəftəri: səh. 13

**Təlim məqsədləri**

• Sözlərdə samitlərin düzgün yazılış qaydasına əməl edir (st. 3-4.1.1).

• Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir (st. 3-3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sözlərin düzgün yazılışını müəyyən etmə |
| 2 | **Dil qaydaları** | -lar$^2$ , -lı$^4$, -lıq$^4$ şəkilçilərinin düzgün yazılışını müəyyən etmə |
| 3 | **Yazı** | Orfoqrafik səhvlərin müəyyənləşdirilməsi |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər verilmiş sözlərdəki şəkilçiləri müəyyən edir, sözləri kök və şəkilçiyə ayırırlar. Sonra səhv yazılmış şəkilçiləri tapırlar.

**"Bunları bilməliyik" rubrikası.** Şagirdlər artıq müəyyən şəkilçilərlə tanışdırlar. İndi isə deyilişi və yazılışı fərqlənən -lar$^2$, -lı$^4$, -lıq$^4$ şəkilçilərinin düzgün yazılış qaydasını öyrənəcəklər. Müəllim qaydaları şərh edir. Nümunələr təhlil olunur.

### Dil qaydaları

3-4.1.1 **Tapşırıq B, C (dərslik).** Şagirdlər sözlərə şəkilçilər artıraraq yazırlar. Sözlərin deyilişi və yazılışı arasındakı fərqi müəyyən edirlər. Tapşırıq dil qaydasının mənimsənilməsinə xidmət edir.

### Yazı

3-3.1.2 **Tapşırıq A, B (iş dəftəri), Ç (dərslik).** Tapşırıqları yerinə yetirən şagirdlər konkret orfoqrafik qayda ilə bağlı korrektə bacarıqlarını nümayiş etdirirlər.

**Tapşırıq D (dərslik).** Tapşırıq iki mərhələdə icra edilir:

1. Mətni oxuyur və səhv yazılmış sözləri müəyyən edirlər.
2. Həmin sözlərin düzgün yazılış qaydasını müəyyən etməklə mətni köçürürlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| "L" hərfi ilə başlanan şəkilçilərin düzgün yazılışını müəyyən edir. | Tap. B, C (dərslik) |
| Başqasının yazısında orfoqrafik səhvləri müəyyən edir və yazır. | Tap. A, B (iş dəftəri), tap. Ç, D (dərslik) |

## fəsil 4 ÖZÜN DÜZƏLT

## 1-ci dərs. "Əsrin oyuncağı"

• Dərslik: səh. 22–23 • İş dəftəri: səh. 14

### Təlim məqsədləri

- Mətni intonasiya ilə oxuyur (st. 3-2.1.1).
- Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
- Mətndəki obrazları xarakterizə edir (st. 3-2.3.2).
- Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
- Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
- Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 3-3.2.5).

**Köməkçi vasitələr:** Leqo dəsti.

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin sualları üzrə müzakirə |
| 2 | **Oxu** | "Əsrin oyuncağı" mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə tapşırıqların işlənməsi |
| 4 | **Söz ehtiyatı** | Yeni sözlərin izahı; cümlə qurma |
| 5 | **Yazı** | Məlumat vərəqini tamamlama |
| 6 | **Danışma** | Mövzu üzrə danışma |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Tapşırıqda verilmiş suallar əsasında şagirdlərin fikirləri dinlənilir.

### Oxu. Söz ehtiyatı

3-2.1.1 **"Əsrin oyuncağı" mətni. Növbəli oxu.**

Oxu fəaliyyəti zamanı diqqət mətnin başlığına yönəldilir: *Sizcə, mətn niyə belə adlanır? Hansı oyuncaq əsrin oyuncağı hesab edilir?* Sonra isə mətn intonasiya ilə oxunur. Mətn oxunduqca şagirdlər rast gəldikləri yeni sözlərin mənasını təxmin edir və müəllimin köməyi ilə aydınlaşdırırlar.

**Müəllimin nəzərinə!** Şagirdlərə oxu fəaliyyətindən öncə tapşırılır ki, oxu zamanı

üzərində ulduz işarəsi olan sözlə rastlaşdıqda əlavə məlumata diqqət etsinlər.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıqda şagirdlər obrazın peşəsinə (dülgər) uyğun illüstrasiyanı müəyyən edirlər. Tapşırıq şagirdlərin mətndən öyrəndikləri məlumatı genişləndirir. Eyni zamanda şagirdlər müxtəlif peşə adları ilə tanış olurlar.

3-2.3.2 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər obrazın xarakterini mətnə istinad edərək əsaslandırırlar. Tapşırıq şagirdlərin obrazı təhliletmə və dəyərləndirmə bacarıqlarının inkişafına xidmət edir.

*Doğru cavab:*

**Qənaətcil idi:** Dülgər düşündü ki, itkiyə gedən taxta parçalarından oyuncaqlar hazırlayıb sata bilər.

**Yeniliyi qəbul edirdi:** Olie Qotfredin fikrini bəyəndi və onu dəstəklədi.

### Söz ehtiyatı

3-2.2.3 **Tapşırıq C (dərslik).** Şagirdlər verilmiş izahlara uyğun olaraq oxu fəaliyyəti zamanı öyrəndikləri sözlərin mənalarını müəyyən edirlər. Tapşırıq şagirdlərin söz ehtiyatını mənimsəməsinə xidmət edir.

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər öyrəndikləri yeni sözləri nitqdə tətbiq edirlər. Tapşırıq eyni zamanda şagirdlərin cümlə qurmaq vərdişinin möhkəmlənməsinə kömək edir.

### Danışma

3-1.3.3 **Tapşırıq Ç (dərslik).** Şagirdlər digər oyuncaqlarla leqo oyuncağını müqayisə edirlər. Tapşırıq şagirdlərin fikir bildirmə, təhlil və müqayisə etmə bacarıqlarının formalaşmasına xidmət edir.

### Yazı

3-3.2.5 **Tapşırıq D (dərslik).** Şagirdlər leqo haqqında əldə etdikləri məlumatlardan istifadə edərək nümunə əsasında məlumat vərəqi tərtib edirlər. Tapşırıq əldə edilmiş məlumatların sistemləşdirilməsi və vizuallaşdırılması bacarıqlarını inkişaf etdirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni oxuyarkən müvafiq səs tonu seçir. | "Əsrin oyuncağı" mətni |
| Mətnin məzmunu ilə bağlı sualları cavablandırır. | Tap. B (dərslik), tap. A (iş dəftəri) |
| Obrazın davranışına uyğun mətndən cümlələr seçib əsaslandırır. | Tap. B (iş dəftəri) |
| Verilmiş izaha uyğun sözləri müəyyən edir. | Tap. C (dərslik) |
| Yeni sözlərdən cümlələr qurur. | Tap. C (iş dəftəri) |
| Mətndən əldə etdiyi məlumatlar əsasında məlumat vərəqi tərtib edir. | Tap. D (dərslik) |

## 2-ci dərs. Yaddaş xəritəsi

• Dərslik: səh. 24 • İş dəftəri: səh. 15

### Təlim məqsədləri

• İnformativ mətndəki əsas faktları qeyd edir (st. 3-2.2.1).
• Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya və s.) onun əsas məzmunu ilə əlaqələndirir (st. 3-2.4.3).
• Dinlədiyi mətnin mövzu və məzmununa yaradıcı yanaşmaqla danışır (st. 3-1.1.3).
• Qeyd götürməklə dinləyir (st. 3-1.1.1).
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (yaddaş xəritəsi) hazırlayır (st. 3-3.2.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Qeydgötürmənin faydası haqqında xatırlama |
| 2 | **Oxuyub-qavrama** | Mətnin oxunması və şəkillərə uyğun məlumatların müəyyən edilməsi |
| 3 | **Danışma** | Qeydlər əsasında mövzu üzrə danışma |
| 4 | **Yazı** | Yaddaş xəritəsinin hazırlanması |
| 5 | **Formativ qiymətləndirmə** | |

## Mövzuya yönəltmə

Müəllim şagirdlərlə qeydgötürmənin faydaları haqqında müzakirə aparır.

## Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq A (dərslik). "Sehrli kub" mətni. Səssiz oxu.** Şagirdlər mətni oxuduqca ayrıca bir vərəqdə açar sözləri seçib yazırlar. Tapşırıq şagirdlərin qeydgötürmə bacarığının formalaşdırılmasına xidmət edir. Müəllim bildirir ki, onlar mətni diqqətlə oxumalı, hər bir vacib informasiyanı söz və ya söz birləşməsi ilə qeyd etməlidirlər.

Sonra mətn səsli oxunur, şagirdlər fərdi olaraq seçdikləri açar sözləri müqayisə edirlər. Ümumi müzakirə yolu ilə düzgün seçilmiş sözlər müəyyənləşdirilir və lövhədə yazılır.

3-2.4.3 **Tapşırıq B (dərslik).** Şagirdlər mətndə verilmiş Rubik kubunun təsvirinə aid cümlələri seçirlər. Bununla mətni nə dərəcədə qavradıqlarını nümayiş etdirirlər.

*Doğru cavab:*

1-ci şəkil – Rubik kubunun üzlərinin hərəsi bir rəngdə olur və bu üzlər fırlana bilir.

2-ci şəkil – Onları fırlatmaqla kiçik kubların yerini dəyişmək – bir üzdən o biri üzünə aparmaq olur. Bu zaman kubun üzündəki rənglər qarışır.

3-cü şəkil – Oyunçu kubu elə yığmalıdır ki, hər üz bir rəngdə olsun.

**"Faydalı məsləhət" rubrikası.** Müəllim şagirdlərə şifahi təqdimat zamanı qeydlərdən istifadə edə bildiklərini bir daha vurğulayır. Rubrikada yaddaş xəritəsi haqqında məlumatları şərh edir.

## Danışma

3-1.1.3 **Tapşırıq C (dərslik). Cütlərlə iş.** Tapşırıq "Faydalı məsləhət" rubrikasında verilmiş məlumatların şagirdlər tərəfindən daha dərindən mənimsənilməsinə xidmət edir. Eyni zamanda şagirdlərin şifahi nitq bacarığının inkişafına kömək edir. Bu tapşırıqda şagirdlər "yaddaş xəritəsi"nin nümunəsini görürlər. Praktiki olaraq biliklərini möhkəmləndirirlər. Tapşırığın icrası iki mərhələdə təşkil edilir:

1. Yaddaş xəritəsinin strukturu üzərində iş aparılır. Burada şagirdlər mövzu ilə bağlı qeydlərin müxtəlif başlıqlar altında qruplaşmasını görürlər. Bu cür qruplaşma mövzuya aid məlumatları ardıcıllıqla təqdim etməyə imkan verir. Burada mövzudan asılı olaraq qeydlər üzrə qruplaşmaların sayı dəyişə bilər.

2. Yaddaş xəritəsinin məzmunu üzərində iş aparılır. Şagirdlər cütlərlə işləyirlər. "Sehrli kub" mətnindən Rubik kubu haqqında qeydlər götürmüşdülər. İndi isə kubun ixtirası haqqında qeydlər verilmişdir. Şagirdlər qeydlərlə tanış olur və öz qeydləri ilə birləşdirərək kubun ixtirası haqqında şifahi təqdimat edirlər.

**Müəllimin nəzərinə!** Bu cür qruplaşdırma şagirdin araşdırma zamanı əldə etdiyi məlumatları həm məntiqi, həm də məzmun ardıcıllığı ilə təqdim etməsinə kömək edir. Bu bacarıq şagirdə yazılı nitqində də lazım olur. Belə ki, esse, informativ və ya bədii mətn yazarkən məlumatları mətnin giriş, əsas və sonluq hissələrinə uyğun qruplaşdırmasına imkan yaradır. Beləliklə, yaddaş xəritəsi şagirdlərin müxtəlif mənbələrdən əldə etdikləri qeydləri şifahi və yazılı nitqində tətbiqinə kömək edir.

## Dinləmə

3-1.1.1 **Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərin qeydgötürmə üzrə bacarıqlarının möhkəmlənməsinə xidmət edir. Bu dəfə şagirdlər dinləmə mətni əsasında qeydlər götürürlər. Müəllim mətni səsləndirir:

**Teddi ayı**

*Uşaqlar yumşaq oyuncaqlarla oynamağı çox sevirlər. Belə oyuncaqlardan biri də oyuncaq ayı Teddidir. Kiçikyaşlı uşaqların sevimli ayıcığı olan Teddinin çox maraqlı tarixçəsi var.*

*Amerika prezidenti Teodor Ruzvelt ov etməyi çox sevirdi. Bir gün o, yenə dostları ilə birlikdə ayı ovuna çıxır. Nə qədər gəzsə də, heç nə ovlaya bilmir. Onun hirsləndiyini görən dostları balaca bir ayı balasını tutub ağaca bağlayırlar. Teodor ayının ağaca bağlandığını görəndə daha çox qəzəblənir.*

*Hadisənin şahidi olan jurnalistlərdən biri 1902-ci il noyabrın 16-da qəzetə məqalə yazır və hadisə zamanı çəkilmiş şəkli də dərc edir. Şəkil çox məzəli alınır: hirsli prezident və yanında qəhvəyi rəngli, yekəqulaq ayı balası.*

*Amerikanın Bruklin şəhərində şam mağazasının sahibi olan Moris Miçtom bu şəkli görür və ağlına yeni bir ideya gəlir. O öz həyat yoldaşından xahiş edir ki, parçadan belə bir oyuncaq ayı tiksin. Sonra qəzetdəki şəkillə birlikdə mağazasının vitrininə qoyur. Yanında isə "Teodorun ayısı" yazır. Mağazanın qarşısından keçən insanlar oyuncağa*

*çox böyük maraq göstərirlər. Bunu görən Moris oyuncağın satışı ilə məşğul olmağa başlayır. Ayının adı isə "Teddi ayı" kimi tarixə düşür.*

**Diferensial təlim**

Qeydgötürmə bacarığı yeni olduğu üçün bəzi şagirdlərdə çətinlik yarada bilər. Sinif səviyyəsindən asılı olaraq müəllim mətni abzas-abzas səsləndirə və hər dəfə qeydlərin doğruluğunu müzakirə edə bilər.

### Yazı

3-3.2.5 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər "Teddi ayı" mətnindən verilmiş qeydlər əsasında yaddaş xəritəsini tamamlayırlar. Tapşırığı yerinə yetirməklə şagirdlər qeydləri qruplaşdıraraq yaddaş xəritəsini tərtib etmək bacarıqlarını nümayiş etdirirlər.

*Doğru cavab:*

İxtiranın adı: Teddi ayı.

İxtiranın tarixçəsi: Amerika prezidenti, Teodor Ruzvelt, ov etmək, jurnalist.

Zaman və məkan: 1902-ci il, noyabrın 16-sı.

İxtiraçı: Moris Miçtom, şam mağazasının sahibi, Teodorun ayısı.

Oyuncağın təsviri: oyuncaq ayı, ayı balası, yekəqulaq, qəhvəyi.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu mətndən açar sözləri seçir. | Tap. A (dərslik) |
| Mətndən şəklə uyğun cümlələri seçir. | Tap. B (dərslik) |
| Qeydlər əsasında mövzu üzrə danışır. | Tap. C (dərslik) |
| Dinlədiyi mətndən qeydlər götürür. | Tap. Ç (dərslik) |
| Qeydlər əsasında yaddaş xəritəsini tamamlayır. | Tap. A (iş dəftəri) |

## 3-cü dərs. Say

• Dərslik: səh. 25 • İş dəftəri: səh. 16

**Təlim məqsədləri**

• Miqdar və sıra saylarını morfoloji əlamətinə görə fərqləndirir (st. 3-4.2.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Cümlədəki sayı müəyyən etmə |
| 2 | **Dil qaydaları** | Say haqqında məlumat; miqdar və sıra sayını fərqləndirmə; miqdar sayından sıra sayı düzəltmə; dəqiq və təxmini sayları müəyyən etmə |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Tapşırıqda şagirdlər cümlələri oxuyur və sayları müəyyən edirlər. Tapşırığın məqsədi say bildirən sözlər haqqında aşağı siniflərdə əldə etdikləri biliklərin təkrarına yönəlib.

### Dil qaydaları

3-4.2.1 **"Bunları bilməliyik" rubrikası.** Şagirdlər aşağı siniflərdə say bildirən sözlər üzrə ilkin biliklərə yiyələniblər. İndi isə bu söz qrupunun "say" adlandığını öyrənirlər, bununla da onların say haqqında bilikləri dərinləşir.

**Tapşırıq B (dərslik).** Şagirdlər verilmiş sayları miqdar və sıra sayları olaraq qruplaşdırırlar. Tapşırıq şagirdlərin "Bunları bilməliyik" rubrikasında say haqqında aldıqları biliklərin mənimsənilməsinə yönəlib.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər hər bir saya uyğun sualı qeyd edirlər. Tapşırıq şagirdlərin dil qaydaları üzrə öyrəndikləri biliklərin möhkəmlənməsinə yönəlib.

**Tapşırıq C (dərslik).** Şagirdlər tapşırıqda verilmiş miqdar saylarına *-ıncı*$^4$ şəkilçisi artırmaqla sıra sayları düzəldirlər. Tapşırıq say haqqında biliklərin tətbiqinə xidmət edir.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər miqdar saylarından sıra sayları düzəldir, söz və rəqəmlə yazırlar. Tapşırığı yerinə yetirməklə şagirdlər say haqqında öyrəndikləri bilikləri necə qavradıqlarını nümayiş etdirirlər.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər verilmiş saylar arasından dəqiq miqdar bildirən sayları seçirlər.

Tapşırıq şagirdlərin miqdar sayları üzrə biliklərinin dərinləşməsinə xidmət edir.

**“Diqqət et” rubrikası.** Müəllim təxmini miqdar bildirən saylarla bağlı məlumatları şərh edir.

**Tapşırıq D (dərslik).** Şagirdlər cümlələrdən təxmini sayları seçib yazırlar. Tapşırıq şagirdlərin təxmini və dəqiq miqdar bildirən saylar üzrə öyrəndiklərinin möhkəmlənməsinə xidmət edir.

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər məzmuna uyğun olaraq saylar əlavə edib cümlələri tamamlayırlar. Bununla da say haqqında əldə etdikləri bilikləri nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Miqdar saylarından sıra sayları düzəldir. | Tap. C (dərslik), tap. B (iş dəftəri) |
| Dəqiq və təxmini miqdar bildirən sayları fərqləndirir. | Tap. Ç, D (dərslik), tap. C (iş dəftəri) |

## fəsil 5 RƏQƏMLƏRİN TARİXİ

## 1-ci dərs. “Rəqəmlərin yaranması” (I hissə)

• Dərslik: səh. 26–27 • İş dəftəri: səh. 17

**Təlim məqsədləri**

• İnformativ mətndəki əsas faktları müəyyən edir (st. 3-2.2.1).
• Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir (st. 3-2.3.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin sualları üzrə müzakirə |
| 2 | **Oxu** | “Rəqəmlərin yaranması” mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətn əsasında tapşırıqların işlənməsi; mətndən qeydlər götürmə |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Tapşırıq şagirdlərin mövzu üzrə ilkin biliklərinin öyrənilməsinə xidmət edir.

### Oxu. Oxuyub-qavrama

3-2.2.1 **“Rəqəmlərin yaranması” mətni. Səssiz oxu.** Mətnin oxusu iki mərhələdə təşkil edilir. Əvvəl şagirdlər mətnin birinci hissəsində (“İlk rəqəmlər necə yarandı?”) verilən məlumatları oxuyurlar. Müəllim şagirdlərə müəyyən vaxt verir. Şagirdlər mətni səssiz oxuyurlar. Oxuduqca yeni öyrəndikləri məlumatları qeyd edirlər. Sonra şagirdlərin qeyd etdikləri məlumatlar təhlil edilir və müzakirə təşkil edilir.

Mətnin daha dərindən mənimsənilməsi üçün şagirdlərə əlavə tapşırıqlar verilə bilər.

**Əlavə tapşırıq 1.** Şagirdlərin diqqəti “Bu, maraqlıdır” rubrikasına yönəldilir. Şagirdlər məlumatı oxuyur və mətnə əsasən rəqəmlərin yarandığı dövrdən əvvələ və ya sonraya aid olması ilə bağlı müzakirə aparırlar.

**Əlavə tapşırıq 2.** Mətnin oxusundan sonra şagirdlər illüstrasiyalarda verilmiş məlumatlarla mətndəki məlumatları uyğunlaşdırırlar.

Sonra mətnin ikinci yarımbaşlığı – “Niyə məhz onluq say sistemi?” oxunur. Müəllim məlumatın

daha yaxşı mənimsənilməsi üçün şagirdlərə əlavə tapşırıq verir.

**Əlavə tapşırıq 3.** Lövhədə üçrəqəmli ədədlər yazılır. Şagirdlər üç-üç lövhəyə çıxaraq yazılmış ədədləri əyani şəkildə (barmaqlarını qatlamaqla) nümayiş etdirirlər.

**Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır.

3-2.3.1 **Tapşırıq C (dərslik).** Mətndə verilmiş şəklə baxaraq Misir rəqəmləri ilə 114 rəqəmini yazırlar. Tapşırıq şagirdlərin mətndən əldə etdikləri bilikləri əyani tətbiq etmək bacarığını formalaşdırır.

**Tapşırıq Ç (dərslik).** Çətinlik dərəcəsi bir qədər yüksək olduğu üçün müəllik şagirdlərin diqqətini mətnin sonuncu abzasına yönəldir. Həmin abzasdan məlum olur ki, birinci adam təkliyi – 7, ikinci adam onluğu – 50, üçüncü adam yüzlüyü – 200 işarə edir. Doğru cavab: 257.

3-2.2.1 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətni səssiz oxuyur və qeydlər götürürlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndən əsas faktları seçir. | “Rəqəmlərin yaranması” mətni, tap. A (iş dəftəri) |
| Mətndəki məlumatlarla bağlı suallara cavab verir. | Tap. B (dərslik) |
| İllüstrasiyadan istifadə etməklə mətnin məzmunu ilə bağlı suallara cavab verir. | Tap. C, Ç (dərslik) |

## 2-ci dərs. “Rəqəmlərin yaranması” (II hissə)

• Dərslik: səh. 28–29 • İş dəftəri: səh. 17

**Təlim məqsədləri**

• Mətni sürətli, səlis, aydın səslə oxuyur (st. 3-2.1.1).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Tanış olduğu məlumatları yazıda əks etdirir (st. 3-3.2.1).
• Sayları söz və rəqəmlə düzgün yazır (st. 3-4.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sxem üzrə danışma |
| 2 | **Oxu** | Mətnin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş |
| 4 | **Dil qaydaları** | Araşdırma materialları əsasında mətn yazma |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Verilmiş sxem şərh edilir. Tapşırıq Azərbaycan dili və riyaziyyat fənlərinin inteqrasiyasına imkan yaradır. Eyni zamanda verilmiş sxem əsasında şagirdlərin verbal-qrafik informasiyanı şərh etmək bacarığı yoxlanılır.

### Oxu

3-2.1.1 **Səsli oxu.** Mətn oxunur. Şagirdlər mətni oxuduqca qavrama üçün çətinlik yaradan məqamlar şərh edilir.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər mətnə əsasən doğru fikirləri müəyyən edirlər. Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır.

*Doğru cavab:*

1. Ərəb rəqəmlərində ədədləri ifadə etmək üçün 0-dan 9-a qədər rəqəmlərdən istifadə olunur.
2. Ərəb rəqəmləri Hindistanda yaranmışdır.
3. Xarəzmi ərəb rəqəmlərinin başqa xalqlar arasında yayılmasına nail olmuşdur.

### Yazı

**3-3.2.1** **Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətnin hər iki hissəsində verilmiş məlumatlara əsasən rəqəmlərin yaranma ardıcıllığını müəyyən edirlər. Həmin ardıcıllığı təsdiq edən cümlələri mətndən seçib yazırlar. Tapşırıq şagirdlərin mətndəki məlumatları tətbiq etmək bacarıqlarını formalaşdırır.

*Doğru cavab:* 1. Misir rəqəmləri, 2. Roma rəqəmləri, 3. Ərəb rəqəmləri.

İlk rəqəmlər qədim Misirdə yaranmışdır. Ərəb rəqəmləri ilə tanış olana qədər avropalılar Roma rəqəmlərindən istifadə edirdilər. Roma rəqəmləri ərəb rəqəmlərindən min il əvvəl yaranmışdır.

### Dil qaydaları

**3-4.1.3** **Tapşırıq C (dərslik).** Şagirdlər mətndə verilmiş Roma rəqəmlərinin yazılışından istifadə edərək ərəb rəqəmləri ilə yazılmış sayları Roma rəqəmləri ilə ifadə edirlər. Tapşırıq şagirdlərin mətndən əldə etdikləri məlumatların tətbiqinə xidmət edir.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər Roma rəqəmləri haqqında əldə etdikləri biliklərdən istifadə edərək bu rəqəmlərlə yazılmış sayları ərəb rəqəmləri və sözlə ifadə edib yazırlar. Tapşırıq şagirdlərin mətndən əldə etdikləri məlumatların möhkəmlənməsinə xidmət edir.

**Tapşırıq D (dərslik).** Tapşırıq iki mərhələdə icra edilir:

1. Şagirdlər cümlələrdəki sayları sözlə ifadə edib cümlələri köçürürlər.
2. Hansı cümlədəki sayın ifadəsində sözün daha çox olduğunu müəyyən edirlər.

**Tapşırıq E (dərslik).** Tapşırıq sayların söz və rəqəmlə ifadəsi ilə bağlı şagirdlərin biliklərinin yoxlanmasına xidmət edir.

*Doğru cavab:* B.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| İnformativ mətni düzgün, aydın oxuyur. | "Rəqəmlərin yaranması" |
| Mətnin məzmunu üzrə suallara cavab verir. | Tap. B (dərslik) |
| Hadisələrin düzgün ardıcıllığını müəyyən edən cümlələri mətndən seçib yazır. | Tap. A (iş dəftəri) |
| Sayları Roma rəqəmləri ilə yazır. | Tap. C (dərslik) |
| Roma rəqəmləri ilə verilmiş sayları ərəb rəqəmləri ilə yazır. | Tap. Ç, D, E (dərslik) |

## 3-cü dərs. Sayların yazılışı

• Dərslik: səh. 30 • İş dəftəri: səh. 18

**Təlim məqsədləri**
• Sayları söz və rəqəmlə düzgün yazır (st. 3-4.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sayın yazılışını yada salma |
| 2 | **Dil qaydaları** | Sayların sözlə, rəqəmlə yazılışının müəyyən edilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər cümlələrdə sayları və yazılış formasını müəyyən edirlər. Tapşırıq şagirdlərin sayların yazılışı ilə bağlı biliklərinin xatırlanmasına xidmət edir.

### Dil qaydaları

**3-4.1.3** **"Bunları bilməliyik" rubrikası.** Şagirdlər aşağı siniflərdə sayların yazılışı ilə bağlı ilkin məlumatlara yiyələniblər. İndi isə sayların yazılışı ilə bağlı məlumatlar dərinləşdirilir. Burada həm ərəb, həm Roma rəqəmləri, həm də sözlə sayların yazılışı üzrə biliklərə yiyələnirlər. Müəllim məlumatları şərh edir.

**Tapşırıq B (dərslik).** Şagirdlər rəqəmlə verilmiş miqdar və sıra saylarını sözlə ifadə edib yazırlar. Tapşırıq şagirdlərin "Bunları bilməliyik" rubrikasında sayların yazılışı haqqında aldıqları biliklərin mənimsənilməsinə yönəlib.

**Tapşırıq C (dərslik).** Şagirdlər sözlə verilmiş sayları ərəb rəqəmləri ilə yazırlar. Sıra saylarının yazılışı ilə bağlı şagirdlərin ikinci sinifdə öyrəndikləri biliklər (*-ıncı*[4] şəkilçisinin rəqəmlərlə yazılışı) xatırlana bilər. Tapşırıq şagirdlərin dil qaydaları üzrə öyrəndikləri biliklərin möhkəmlən-

məsinə yönəlib.

**Tapşırıq Ç (dərslik). Riyaziyyatla inteqrasiya.** Şagirdlər riyaziyyat fənnindən öyrəndikləri məlumatlar əsasında suallara cavab yazır, sayları rəqəmlə ifadə edirlər.

**Tapşırıq A (iş dəftəri).** Tapşırığı yerinə yetirməklə şagirdlər say haqqında öyrəndikləri bilikləri necə qavradıqlarını nümayiş etdirirlər.

**"Yadda saxla" rubrikası.** Müəllim tərəfindən şərh edilir. Şagirdlərin diqqəti sıra saylarının Roma rəqəmləri ilə yazılışına yönəldilir.

**Tapşırıq D (dərslik).** Tapşırıq şagirdlərin sıra saylarını Roma rəqəmləri ilə ifadə etməsinə aid biliklərinin mənimsənilməsinə xidmət edir.

**Müəllimin nəzərinə!** Nəzərə almaq lazımdır ki, Roma rəqəmlərinin *-ıncı*[4] şəkilçisi ilə işlənməsi yazıda tez-tez təsadüf olunan xətalardan biridir. Burada müəllim Roma rəqəmlərinin daha çox sadalamanı, əsrləri, sinifləri ifadə etmək məqsədilə işləndiyini vurğulaya bilər.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlər sayların Roma rəqəmləri ilə yazılışı qaydalarını nə dərəcədə mənimsədiklərini nümayiş etdirirlər.

*Doğru cavab:*

1. Avtomobil XIX əsrdə ixtira edilmişdir.
2. Xarəzmi IX əsrdə yaşamışdır.
3. Ərəb rəqəmləri XVI əsrdən geniş istifadə olunmuşdur.
4. İlk üçrəngli işıqfor XX əsrdə icad edilmişdir.

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər 10 dairəsində verilmiş rəqəmləri cədvəldəki nümunələrdən istifadə edərək yazırlar. Tapşırıq şagirdlərin sayların yazılışı ilə bağlı biliklərini ümumiləşdirməyə və yoxlamağa xidmət edir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sayı sözlə düzgün yazır. | Tap. B (dərslik) |
| Sayı ərəb rəqəmləri ilə düzgün yazır. | Tap. C, Ç (dərslik), tap. A (iş dəftəri) |
| Sıra sayını Roma rəqəmləri ilə düzgün yazır. | Tap. D (dərslik), tap. B, C (iş dəftəri) |

## Ümumiləşdirici təkrar

• Dərslik: səh. 31 • İş dəftəri: səh. 19

**Təlim məqsədləri**

• Özünün və başqasının yazısını dil qaydaları baxımından təkmilləşdirir (st. 3-3.1.2).
• Sözlərdə samitlərin düzgün yazılış qaydalarına əməl edir (st. 3-4.1.1).
• Miqdar saylarının dəqiq və təxmini miqdar bildirdiyini müəyyən edir (st. 3-4.2.1).
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 3-3.2.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sayın yazılışını yada salma |
| 2 | **Dil qaydaları** | Sayların sözlə, rəqəmlə yazılışının müəyyən edilməsi |
| 3 | **Yazı** | Yaddaş xəritəsi tərtib etmə |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim bölmə üzrə sözlərin və şəkilçilərin düzgün yazılışı ilə bağlı qaydaları yada salır.

### Yazı

3-3.1.2 **Tapşırıq A (dərslik).** Tapşırıq vasitəsilə şagirdlər sözlərin düzgün yazılışı ilə bağlı bu bölmədə öyrəndikləri dil qaydalarını nə dərəcədə mənimsədiklərini nümayiş etdirirlər.

*Doğru cavab: Qarlı-şaxtalı qış gəlmişdi. Qışın öz gözəllikləri var: dağlar, təpələr, düzlər pambıq kimi ağ qarla örtülmüşdü. Ağacların budaqları qara bürünmüşdü. Arabir buludların arasından günəşin ılıq şüaları gözləri qamaşdırırdı.*

### Dil qaydaları

3-4.1.1 **Tapşırıq B (dərslik).** Şagirdlər mötərizədə verilmiş sözləri cümlələrə uyğun şəkildə dəyişərək yazırlar. Tapşırıq vasitəsilə söz sonunda *k-y*, *q-ğ* əvəzlənməsi ilə bağlı şagirdlərin bilik və bacarıqları yoxlanılır.

3-4.2.1 **Tapşırıq C (dərslik).** Şagirdlər təxmini miqdar bildirən sayları müəyyən edirlər. Tapşırıq vasitəsilə şagirdlər müəyyən və qeyri-müəyyən miqdar saylarını fərqləndirmək bacarıqlarını nümayiş etdirirlər.

*Doğru cavab:* çoxlu, bir az, xeyli.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər verilmiş sayları dəqiq, təxmini miqdar bildirən və sıra sayları olaraq qruplaşdırırlar. Tapşırıq sayın məna növləri ilə bağlı mənimsənilmiş biliklərin şagirdlərin təsəvvüründə sistemləşməsinə xidmət edir.

*Doğru cavab:*

1. Varlığın dəqiq sayını bildirir: yüz, əlli.
2. Varlığın təxmini sayını bildirir: yeddi-səkkiz, onlarla, minlərlə, çoxlu, az-çox.
3. Varlığın sırasını bildirir: on birinci, qırxıncı, doqquzuncu.

**Tapşırıq D (dərslik).** Şagirdlər cümlələrin məzmununa uyğun gələn sayları müəyyən edirlər. Tapşırıq eyni zamanda riyaziyyat və həyat bilgisi ilə inteqrasiyaya xidmət edir.

### Yazı

3-3.2.5 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər bu bölmədə mənimsədikləri qeydgötürmə və qeydlər əsasında yaddaş xəritəsi tərtibetmə bacarıqlarını nümayiş etdirirlər.

Tapşırıq iki mərhələdə icra edilir:

1. Şagirdlər açar sözlərin altından xətt çəkirlər.
2. Qeydlərini yaddaş xəritəsində verilmiş başlıqlar altında qruplaşdırıb yazırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Başqasının yazısında orfoqrafik səhvləri müəyyən edib düzgün yazır. | Tap. A (dərslik) |
| Sonu *k* və *q* samitləri ilə bitən sözlərə şəkilçilər əlavə edərək düzgün yazır. | Tap. B (dərslik) |
| Sayın növlərini müəyyən edir. | Tap. C, Ç, D (dərslik) |
| Mətndən götürdüyü qeydlər əsasında yaddaş xəritəsini tamamlayır. | Tap. A (iş dəftəri) |

bölmə 6

# UNUDULMAZ QƏHRƏMANLAR

| **Mövzu** | | **Qəhrəmanlar unudulmur** |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | • Bildiyi məlumatlar əsasında mövzu üzrə danışma<br>• Tərtib etdiyi suallar əsasında dialoq qurma<br>• Qrafik informasiya şəklində verilmiş məlumatları rabitəli mətn şəklində təqdim etmə |
| | Söz ehtiyatı | Yeni sözlər: hökmranlıq, xidmət, məqbərə, zülmkar, şücaət, əsirlik, hərəkat, təltif etmək, məğlub etmək, kəşfiyyatçı, yağmalamaq, talamaq, yapıncı, öymək, handan-hana, əsir, bahadır, yasa batmaq, bəsləmək, yabı, çəlimsiz, qulun, kəhər, niqab, hasil olmaq, qurşaq tutmaq, əlverişli, önəmli, pənah gətirmək, himayə, satqınlıq, göydəndüşmə, şirnikləndirmək, bürc, müqavimət, başsağlığı, çərkəzi, yavər, əbədiləşdirmək, türbə, əfsanə, möhtəşəm, ərən, yağı, örüş, saygı, əzəmət, lərzəyə gətirmək, məruzə etmək, pilot, rəşadətli, əmin, dron. |
| | Oxu | • Mətndəki obrazların nitqinin onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirilməsi<br>• Mətn üzrə obrazlar xəritəsinin tərtib edilməsi<br>• Tarixi mətnlərin oxusu |
| | Yazı | • Qrafik təsvirin (cədvəlin) rabitəli mətnə çevrilməsi<br>• Verbal və vizual məlumatlardan ibarət təqdimatın hazırlanması |
| Akademik biliklər | Dil qaydaları | • Mürəkkəb cümlənin tərkib hissələrinin müəyyən edilməsi<br>• Cümlənin tərkib hissələri arasında məna əlaqələrinə görə uyğun gələn bağlayıcıların müəyyən edilməsi<br>• Bağlayıcıların vergüllə işlənməsi |
| | Filoloji anlayışlar | • Qəhrəmanlıq dastanı<br>• Obrazlar xəritəsi<br>• Bağlayıcı<br>• Mürəkkəb cümlə |
| Kompetensiyalar | | Vətənpərvərlik hissinin aşılanması, Vətən torpaqlarının qorunması, Vətən uğrunda canından keçən el igidləri haqqında məlumatların zənginləşdirilməsi |

Bu bölmənin mövzusu vətənpərvərlik, Vətən torpaqlarının qorunması, Vətən uğrunda canından keçən el igidlərinin şücaətləri ilə bağlıdır. Şagirdlər tarixboyu Azərbaycan torpaqlarının bütövlüyü uğrunda canından keçən qəhrəmanları tanıyır, onlar haqqında məlumat alırlar. Bu mövzuda təqdim olunmuş bədii mətnlər vasitəsilə şagirdlərin dinləmə, danışma, oxu və yazı bacarıqları inkişaf etdirilir, söz ehtiyatı zənginləşdirilir, bir sıra mənəvi dəyərlər aşılanır.

**Öncədən vacib olan bilik və bacarıqlar:**
- Mövzu ətrafında danışır və münasibət bildirir;
- Fakt və münasibət bildirən cümləleri fərqləndirir;
- Məlumat almaq üçün suallar tərtib edir;
- Cümləni söz və söz birləşməsindən fərqləndirir;
- İfadə etdiyi ümumi anlayışa görə (varlıq, əlamət, say, hərəkət) sözləri qruplaşdırır.

**Mənimsəmədə çətinlik doğuran məsələlər:**
- Məlumat vərəqində verilmiş məlumatların rabitəli mətn şəklində təqdim edilməsi;
- Tarixi hadisələrlə zəngin mətnləri dinləyərkən lazımi qeydlərin aparılması.

## Giriş dərsi. Bölmənin mövzusu ilə tanışlıq

• Dərslik: səh. 32–33 • İş dəftəri: səh. 20

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır (st. 3-1.3.2).
• Sətiraltı fikir və informasiyanı izah edir (st. 3-2.3.1).
• Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya və s.) onun əsas məzmunu ilə əlaqələndirir (st. 3-2.4.3).

**Köməkçi vasitələr:** Azərbaycanın qəhrəman oğulları haqqında hazırlanmış videoçarx, şəkillər, qəhrəmanlıq mövzusunda mahnılar.

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin sualı üzrə müzakirə |
| 2 | **Danışma** | Bölmənin mövzusu üzrə müzakirə |
| 3 | **Söz ehtiyatı** | "Söz boğçası"ndakı sözlərin izahı və möhkəmləndirilməsi |
| 4 | **Danışma** | Qəhrəmanlar haqqında məlumat vərəqindəki məlumatların rabitəli mətnə çevirərək şifahi təqdimatı |
| 5 | **Oxuyub-qavrama** | Əsas fikrin müəyyənləşdirilməsi; fikirlərin hansı yarımbaşlığa aid olduğunun müəyyənləşdirilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə Azərbaycanın qəhrəman oğulları haqqında hazırlanmış videoçarx, şəkillər nümayiş etdirir və yaxud qəhrəmanlıq mövzusunda mahnılardan birini dinlədir. Aşağıdakı suallarla şagirdləri müzakirəyə cəlb edir:

*– Sizcə, bu bölmənin mövzusu nə olacaq?*

*– Hansı qəhrəmanları tanıyırsınız? Onlar hansı hərəkətləri ilə sizin yaddaşınızda qalıblar?*

### Danışma

3-1.3.3 **Tapşırıq A (dərslik).** Şagirdlər tapşırıqda verilmiş sualları cavablandırırlar. Oxuduqları mətnlərdən nümunələr gətirməklə fikirlərini izah edirlər.

### Söz ehtiyatı

3-2.2.3 **"Söz boğçası" rubrikası.** Müəllim şagirdlərdən tanış olmayan sözlərin *(hökmranlıq, xidmət, məqbərə, zülmkar, şücaət, əsirlik, təltif etmək, məğlub etmək, kəşfiyyatçı)* təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını açıqlayır:

*hökmranlıq* – hakimiyyət, hökmran olmaq;
*xidmət* – qulluq etmə, işləmə;
*məqbərə* – qəbirlərin üzərində xüsusi tikili;
*zülmkar* – zalım, qəddar;
*şücaət* – döyüş meydanında göstərilən igidlik;
*əsirlik* – əsir düşmüş adamın hal və vəziyyəti;
*təltif etmək* – xidmətlərinə görə orden, medal vermək;
*məğlub etmək* – qalib gəlmək;
*kəşfiyyatçı* – düşmənin yerini və sayını müəyyənləşdirən əsgər və ya zabit.

Şagirdlər sözlərin dəqiq izahından sonra onları müxtəlif cümlələrdə işlədirlər.

**Tapşırıq A (iş dəftəri).** Söz ehtiyatının möhkəmləndirilməsinə xidmət edir.

### Danışma

3-1.3.2 **Tapşırıq B (dərslik). Qruplarla iş.** Bu tapşırığın qruplarla yerinə yetirilməsi tövsiyə edilir.

Tapşırığı yerinə yetirmək üçün qruplara müəyyən vaxt verilir. Qrup üzvləri məlumat vərəqindəki məlumatları genişləndirərək qəhrəmanlar haqqında şifahi təqdimata hazırlaşırlar. Əlbəttə, şifahi təqdimat zamanı fikirlərini ardıcıllıqla, rabitəli şəkildə ifadə etmək üçün qeydlər aparmaq lazımdır. Qrup üzvləri təqdimat zamanı söyləyəcəkləri məlumatları dəftərdə qeyd edə bilərlər. Daha sonra qrup üzvləri təqdimat üçün nümayəndə seçirlər.

**Təqdimat təxminən aşağıdakı məzmunda ola bilər:**

*I qrup*

**Cavad xan**

Cavad xan böyük Azərbaycan sərkərdəsi, dövlət xadimi, Gəncə xanlığının hökmdarı idi. Cavad xan 1748-ci ildə Gəncə şəhərində doğulub. 1804-cü ilə qədər Gəncədə yaşayıb. 1786-cı ildən Gəncə xanlığına hökmranlıq edib. Gəncəni müdafiə etmək üçün rus qoşunlarına qarşı mübarizə aparıb. Oğlu Hüseynqulu xanla birlikdə Gəncə uğrun-

da döyüşlərdə iştirak edib. Cavad xan 1804-cü ildə Gəncə uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Cavad xanın xatirəsini əbədiləşdirmək üçün onun qəbri üzərində məqbərə tikilib.

*II qrup*

**Koroğlu**

Koroğlu Azərbaycanın xalq qəhrəmanıdır. O, 16-cı əsrin sonu – 17-ci əsrin əvvəllərində yaşayıb və zülmkar ağalara qarşı mübarizə aparıb. Bu mübarizədə iştirak etmək üçün onun dəstəsinə yeddi min yeddi yüz yetmiş yeddi igid qoşulmuşdu. Koroğlu öz dəstəsi ilə Çənlibel qalasında məskən salmışdı. O, Qıratın belində, əlində Misri qılınc, yeddi min yeddi yüz yetmiş yeddi igidi ilə kasıb insanların haqqını qorumaq üçün döyüşürdü. Koroğlunun və igidlərinin döyüşlərdə göstərdiyi şücaətlər "Koroğlu" dastanında təsvir edilir.

*III qrup*

**Raquf Orucov**

Polkovnik-leytenant Raquf Orucov Azərbaycan ordusunun təcrübəli kəşfiyyatçısı idi. O, Azərbaycan dövlətinin erməni işğalçılarına qarşı apardığı mübarizədə iştirak edib. İşğal edilmiş torpaqlar uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşub. Başçılıq etdiyi kəşfiyyat qrupu ilə birlikdə dəfələrlə erməni əsirliyində olan əsgərlərimizi xilas edib. Murovdağda göstərdiyi belə qəhrəmanlıqlarına görə onu "Murov qartalı" deyə çağırırdılar. "İgidliyə görə" medalı ilə təltif edilib. 2016-cı il Aprel döyüşləri zamanı şəhid olub.

*IV qrup*

**Salatın Əsgərova**

Salatın Əsgərova jurnalist idi. Qarabağ müharibəsi zamanı cəbhə bölgələrindən reportajlar hazırlayırdı. O, 1991-ci ilin yanvar ayında Şuşaya gedir. Burada döyüşən əsgərlərimizlə görüşüb müsahibə hazırlamaq istəyir. Lakin Qaladərəsi kəndi yaxınlığında şəhid olur. İndi həmin kənd qəhrəman jurnalistin şərəfinə Salatınkənd adlandırılır. Göstərdiyi şücaətə görə Salatın Əsgərova Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

Hər qrup hazırladığı məlumatı təqdim edir.

### Oxuyub-qavrama

3-2.3.1 **Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin əsas fikri müəyyənləşdirmək bacarığının inkişafına yönəlib. Şagirdlər tapşırıqda verilmiş atalar sözlərini B tapşırığında verilmiş məlumat vərəqindəki uyğun məlumatlarla əlaqələndirərək izah edirlər. Məsələn:

1. ***İgid oğul düşmənə əyilməz***. Cavad xan hakimi olduğu Gəncə şəhərini sona qədər müdafiə etmişdi. Düşmənə boyun əyməmiş, Gəncə uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdu.
2. ***Aslanın erkəyi, dişisi olmaz***. Salatın Əsgərova qadın olmasına baxmayaraq mərd və igid jurnalist idi. O, reportaj hazırlamaq üçün cəbhə bölgəsinə yollanmışdı. Qorxu bilmədən daim qızğın döyüş gedən rayonlara getmiş, hazırladığı müsahibələri xalqa çatdırmışdı.
3. ***Şəhidlər ölməz, Vətən bölünməz.*** Raquf Orucov, Salatın Əsgərova kimi qəhrəmanlarımız Azərbaycanın bütövlüyü uğrunda mübarizə aparmış, şəhidlik zirvəsinə ucalmışlar. Xalq öz qəhrəmanlarını unutmur. Onların adını daim əbədiləşdirir.

3-2.4.3 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş fikirlərin hansı yarımbaşlığa aid olduğunu müəyyənləşdirməklə məlumat vərəqlərindəki məlumatları qavradıqlarını nümayiş etdirirlər.

*Doğru cavablar:* 1-ci, 5-ci fikirlər Koroğlu, 3-cü, 6-cı fikirlər Cavad xan, 2-ci, 8-ci fikirlər Raquf Orucov və 4-cü, 7-ci fikirlər Salatın Əsgərovaya aiddir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlar əsasında mövzu üzrə danışır. | Tap. A (dərslik) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | "Söz boğçası", tap. A (iş dəftəri) |
| Qrafik informasiya şəklində verilmiş məlumatları rabitəli mətn şəklində təqdim edir. | Tap. B (dərslik) |
| Mətndəki detalları əsas fikirlə əlaqələndirir. | Tap. C (dərslik) |
| Mətnə aid məlumatları uyğun yarımbaşlıqlarla əlaqələndirir. | Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllim növbəti dərsdə nümayiş etdirmək üçün Dədə Qorqudun və qopuz alətinin şəklini əldə edir.

## fəsil 1 HÜNƏR GÖSTƏR, AD QAZAN

### 1-ci dərs. "Qaraca çoban"

• Dərslik: səh. 34–36 • İş dəftəri: səh. 21

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Obrazların nitqini onların xarakterinə uyğun səsləndirir (st. 3-2.1.2).
• Lüğətdən istifadə etməklə sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Bədii mətndə hadisələrin ardıcıllığını müəyyən edir (st. 3-2.2.1).
• Mətndəki obrazları xarakterizə edir (st. 3-2.3.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Dədə Qorqudun şəklinin nümayişi |
| 2 | **Danışma** | Dədə Qorqud və Oğuz eli haqqında məlumatın xatırlanması |
| 3 | **Oxu** | "Qaraca çoban" mətninin oxusu |
| 4 | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi |
| 5 | **Oxuyub-qavrama** | Mətnə aid faktoloji sualların cavablandırılması; mətndəki epizodların və obrazların təhlili |
| 6 | **Formativ qiymətləndirmə** | |

#### Mövzuya yönəltmə

Müəllim Dədə Qorqudun şəklini nümayiş etdirir.

#### Danışma

3-1.3.3 **Tapşırıq A (dərslik).** Şagirdlər 2-ci sinifdə Oğuz eli və Dədə Qorqud haqqında (Azərbaycan dili dərsliyi I hissə, səhifə 21-də "Yadigar adlar" şeiri və səhifə 22-də Dədə Qorqud haqqında kiçik mətn) məlumat alıblar. Müəllim şagirdlərə bu mətnləri xatırladır. Şagirdlər Dədə Qorqud və Oğuz eli haqqında bildikləri məlumatları sinif yoldaşları ilə bölüşürlər.

#### Oxu. Söz ehtiyatı

3-2.1.2 **"Qaraca çoban" mətni üzrə iş. Rollu oxu.** Əvvəlcə şagirdlər müəyyən vaxt ərzində "Qaraca çoban" mətnini səssiz oxuyurlar. Bu zaman obrazların nitqinə diqqət edir, onların keçirdiyi hissləri təsəvvür edirlər.

Daha sonra müəllim obrazların nitqini şagirdlər arasında bölüşdürür. Bu dəfə şagirdlər mətni səsli oxuyurlar. Müəllim oxu zamanı şagirdlərin jest və mimikalardan yerində, düzgün istifadə etmələrinə diqqət yetirir, obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə necə səsləndirmələrini müşahidə edir.

#### Söz ehtiyatı

**"Söz boğçası" rubrikası.** Müəllim şagirdlərdən tanış olmayan sözlərin *(yağmalamaq, talamaq, yapıncı, öymək, sayıqlıq, handan-hana)* təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını lüğət vasitəsilə dəqiqləşdirirlər:

*yağmalamaq* – soymaq, qarət eləmək;
*talamaq* – var-yoxunu güclə əlindən almaq;
*yapıncı* – basılmış keçi yunundan (keçədən) hazırlanan plaşa oxşar qolsuz, uzun, enli geyim;
*öymək* – tərifləmək;
*sayıqlıq* – işində, hərəkətində sayıq, ehtiyatlı, diqqətli olma;
*handan-hana* – sonradan.

3-2.2.3 **Tapşırıq B (dərslik).** Şagirdlər mətndən "sapand" sözünün iştirak etdiyi cümləni bir daha oxuyur, kontekstə görə və mətnə çəkilmiş şəklə əsasən mənasını təxmin edirlər. Daha sonra müəllim həmin sözün dəqiq mənasını izah edir: *sapand* – "daş atmaq üçün qədim silah" deməkdir.

#### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq C (dərslik).** Mətnin məzmunu ilə bağlı suallar şagirdlərin mətni diqqətlə oxuyub-qavradıqlarını yoxlamağa xidmət edir. Müəllim sualların sayını artıra da bilər.

3-2.2.1 **Tapşırıq A (iş dəftəri).** Tapşırıqda şagirdlərdən qeyri-ardıcıl verilmiş epizodların mətnə uyğun ardıcıllığını müəyyənləşdirmək tələb olunur.

Epizodların ardıcıllığı: 4, 3, 1, 6, 2, 5, 7.

3-2.3.2 **Tapşırıq Ç (dərslik).** Tapşırıq vasitəsilə mətndəki epizodlarda Qaraca çobanın xarakterinin necə açıldığı təhlil olunur. Əvvəlcə tapşırıqda verilmiş xarakter səciyyələndirən sözlərin *(sədaqətli, ayıq-sayıq, güclü-qüvvətli)* mənaları aydınlaşdırılır. Daha sonra həmin xarakterlərin açıldığı epizodlar müəyyənləşdirilir.

*Doğru cavablar:*

1. *Sədaqətli:* Qazan xan el-obasını xilas etmək üçün düşmən üstünə gedəndə çoban: "Oğuz eli-

nin qisası mənim də qisasımdır", – deyib onu tək qoymur.

2. *Ayıq-sayıq:* Çoban gecə pis yuxu görür. Sanki ona pis bir hadisə baş verəcəyi əyan olur. Üç yerdə təpə boyda daş yığır. Sapandını əlinə alıb gözləyir.

3. *Güclü-qüvvətli:* Qazan xan çobanı bir ağaca möhkəm sarıyır. Amma çoban ağacı kökündən qoparıb belinə alır, Qazan xanın arxasınca yola düzəlir.

Daha sonra şagirdlər tapşırıqda verilmiş atalar sözlərini həmin epizodlarla uyğunlaşdırırlar. Beləliklə, mətnin ideyası müəyyənləşdirilir. Bu tapşırıq şagirdlərin təhlil aparmaq, şərh etmək, əsaslandırmaq kimi vacib bacarıqlarını inkişaf etdirir.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərdə münasibət bildirmək, əsaslandırmaq kimi vacib bacarıqları inkişaf etdirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlar əsasında mövzu üzrə danışır. | Tap. A (dərslik) |
| Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə səsləndirir. | "Qaraca çoban" mətni |
| Kontekstdən çıxış edərək sözün mənasını təxmin edir və lüğət vasitəsilə dəqiqləşdirir. | Tap. B (dərslik) |
| Mətndə açıq şəkildə ifadə edilmiş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. C (dərslik) |
| Epizodların mətndəki ardıcıllığını müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Mətnə istinad etməklə obrazın xarakteri haqqında fikirləri əsaslandırır. | Tap. Ç (dərslik), tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllim növbəti dərsdə nümayiş etdirmək üçün "Dədə Qorqud" filmindən çobanın düşmənləri dəf etməsi, Qazan xanın çobanı ağaca sarıması səhnələrini əldə edir.

## 2-ci dərs. Qəhrəmanlıq dastanı

• Dərslik: səh. 36 • İş dəftəri: səh. 22

**Təlim məqsədləri**

• Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• İllüstrasiyadan istifadə etməklə mətnin sonluğunu yazır (st. 3-3.2.1).
• Dinlədiyi mətnlə bağlı faktoloji sualları cavablandırır (st. 3-1.1.1).
• Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st. 3-2.4.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Dədə Qorqud" filmindən bəzi, səhnələrin nümayişi |
| 2 | **Söz ehtiyatı** | "Qaraca" sözünün mənasının təxmin edilməsi |
| 3 | **Dinləmə. Yazı** | "Dirsə xan oğlu Buğac" dinləmə mətninin üzrə iş |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə "Dədə Qorqud" filmindən çobanın düşmənləri dəf etməsi səhnəsini nümayiş etdirir.

### Söz ehtiyatı

3-2.2.3 **Tapşırıq A (dərslik).** Tapşırıqda "Qarabağ" sözünün izahı verilmişdir. Müəllim şagirdlərin diqqətini "qara" sözünün izahına yönəldir və şagirdlər bu izahdan çıxış edərək çobanın adının mənasını təxmin edirlər.

**"Yadda saxla" rubrikası.** Bu rubrikada "Qəhrəmanlıq dastanı" haqqında məlumat verilib. Qəhrəmanlıq dastanlarında xalqın azadlığı uğrunda mübarizə aparan igidlərin şücaətindən bəhs olunur. Müəllim Qazan xan və Qaraca çobanı nümunə gətirməklə fikrini əsaslandırır.

### Dinləmə. Yazı

3-3.2.1 **Tapşırıq B (dərslik).** Müəllim dinləmə mətninin yalnız giriş və əsas hissəsini səsləndirir. Şagirdlər tapşırıqda verilmiş şəkillərə əsasən mətnin sonluğunu təxmin edib yazırlar. Bu fəaliyyətdən sonra müəllim mətnin sonluğunu oxuyur. Şagirdlər mətnin sonluğunu öz təxminləri ilə müqayisə edirlər.

**Diferensial təlim**

Müəllim şəkillərə istinad edərək mətnin sonluğunu yazmaqda çətinlik çəkən şagirdlərə istifadə üçün açar sözlər verə bilər: *atılmaq, yapışmaq, çəkişmək, buynuz, güc vermək, qalib gəlmək, xilas etmək, alqışlamaq, Dədə Qorqud, qəhrəmanlıq, ad vermək.*

**"Dirsə xan oğlu Buğac" dinləmə mətni**

*Oğuz xanlarından Dirsə xanın uzun illərdən sonra bir oğlu dünyaya gəldi. Bu oğlan böyüyüb yetkin yaşa çatmışdı. Lakin hələ ona ad qoyulmamışdı. Oğuz elinin bir adəti vardı, uşaq doğulanda ona ad qoymazdılar. O gərək özü hünər göstərib ad qazanaydı.*

*Deyilənə görə, Oğuz elinin başçısı xanlar xanı Bayandır xanın bir döyüşkən buğası vardı. Bu buğa o qədər güclü idi ki, daşa buynuz vursaydı, daşı un kimi üyüdərdi. İldə bir dəfə – Novruz bayramında buğanı meydana çıxarardılar.*

*Bir dəfə yenə yazda buğanı tövlədən çıxardılar. Dəmir zəncirli buğanı üç kişi sağdan, üç kişi də sol yandan tutmuşdu. Onu darta-darta zor-güc ilə meydanın ortasına gətirdilər. Camaat buğanın tamaşasına durmuşdu. Bayram meydanına toplaşmış qızların al-qırmızı geyimləri buğanın diqqətini cəlb etdi. Zəncirini kişilərin əlindən çıxarıb onlara hücum elədi. Meydana çaxnaşma düşdü. Hərə bir tərəfə qaçdı. Buğa Bayandır xanın qızı Burla xatunun qarşısında dayandı. Qızarmış gözlərini ona zilləyib ayağını yerə döydü. Hər kəs nəfəsini içinə çəkib həyəcanla onlara baxırdı.*

*Bu vaxt Dirsə xanın oğlu buğanın qarşısına atıldı. Əllərini atıb onun buynuzlarından yapışdı. Ayaqlarını yerə elə möhkəm dayadı ki, dizə qədər torpağa batdı. Oğlanla buğa xeyli çəkişdilər. Nə o buna güc gələ bildi, nə də bu ona. Dirsə xanın oğlu öz-özünə düşündü:*

*– Evi dirək saxlayar. Mən niyə buna dirək olmuşam? Mənə söykənib daha möhkəm güc verir.*

*O, qəfildən əlini buğanın buynuzlarından çəkdi. Buğa dizləri üstə yerə çökdü. Öküzü gətirən kişilər gəlib tez buğanı yenidən zəncirlədilər.*

*Hamı gəncin gücünə-qüvvətinə heyran oldu. Alqış səsləri göyə ucaldı. Dədə Qorqud göstərdiyi qəhrəmanlığa görə gəncə Buğac adı verdi.*

3-1.1.1 **Tapşırıq C (dərslik).** Şagirdlər "Dirsə xan oğlu Buğac" mətni üzrə hekayə xəritəsi tərtib edirlər. Bununla da mətnin məzmununu qavradıqlarını nümayiş etdirirlər.

3-2.4.4 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin mətnləri nə qədər diqqətlə dinlədiklərini və oxuduqlarını yoxlamağa imkan verir.

*Doğru cavablar:* 1 – A, 2 – B, 3 – C, 4 – B, 5 – A, 6 – C.

3-1.1.1 **Tapşırıq B (iş dəftəri).** Tapşırığı yerinə yetirməklə şagirdlər dinləmə mətnindəki məlumatları qavradıqlarını nümayiş etdirirlər. Tapşırıq eyni zamanda onların söz ehtiyatını zənginləşdirməyə imkan verir. Sonda şagirdlər daha bir Oğuz igidinin adını öyrənirlər.

*Doğru cavablar:*

Yuxarıdan aşağı: 1. Buğac, 2. Bayandır, 4. möhkəm.

Soldan sağa: 3. meydan, 5. Dirsə. 6. hünər.

İgidin adı: Beyrək.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir. | Tap. A (dərslik) |
| İllüstrasiyadan istifadə etməklə mətnin sonluğunu yazır. | Tap. B (dərslik) |
| Mətn və onun hissələri üzrə hekayə xəritəsi tərtib edir. | Tap. C (dərslik) |
| Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir. | Tap. A (iş dəftəri) |
| Mətndə açıq şəkildə ifadə edilmiş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. B (iş dəftəri) |

## **3-cü dərs.** Köməkçi sözlər

• Dərslik: səh. 37 • İş dəftəri: səh. 23

**Təlim məqsədləri**

• Köməkçi sözləri əsas nitq hissələrindən fərqləndirir (st. 3-4.2.1).
• Cümlənin ifadə etdiyi fikrə əsasən müvafiq köməkçi sözlərdən istifadə edir (st. 3-4.2.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Verilmiş sözlərin ad, əlamət, say, varlıq anlayışı altında qruplaşdırılması |
| 2 | **Dil qaydaları** | Köməkçi sözlərin fərqləndirilməsi; cümlələrdə buraxılmış köməkçi sözlərin bərpası |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər tapşırıqda verilmiş sözləri cədvəl üzrə qruplaşdırırlar. Bəzi sözlər *(bəh-bəh, amma, və, axı, uf, çünki)* cədvəlin heç bir sütununa uyğun gəlmir.

**Müəllimin nəzərinə!** Birinci yarımildə şagirdlərə *söz* və *anlayış* haqqında geniş məlumat verilib. Şagirdlər “anlayış” dedikdə sözlərin ifadə etdiyi ümumi leksik mənanı *(ad, əlamət, say, hərəkət)* anlayırlar. Lakin bəzi sözlər anlayış bildirmir. İbtidai siniflərdə bu sözlər “köməkçi sözlər” adı ilə təqdim edilir.

### Dil qaydaları

**“Bunları bilməliyik” rubrikası.** Müəllim şagirdlərin diqqətini “Bunları bilməliyik” rubrikasına yönəldir. Köməkçi sözlər haqqında verilmiş məlumatları şərh edir.

3-4.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyur, hər bir sözə sual verməklə anlayış ifadə edib-etmədiyini müəyyənləşdirirlər.

3-4.2.1 **Tapşırıq C, Ç (dərslik).** Şagirdlər cümlələrdə buraxılmış köməkçi sözləri məzmuna əsasən bərpa edirlər. Bununla da köməkçi sözlərin cümlədəki rolunu anladıqlarını nümayiş etdirirlər.

**Tapşırıq D (dərslik).** Tapşırıq şagirdlərin anlayış bildirən və bildirməyən sözləri fərqləndirmə bacarığını inkişaf etdirməyə xidmət edir.

İş dəftərində verilmiş tapşırıqlar şagirdlərin köməkçi sözləri fərqləndirmək bacarığının inkişafına yönəlib.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Köməkçi sözləri əsas nitq hissələrindən fərqləndirir. | Tap. A, B, D (dərslik), tap. A, B, Ç (iş dəftəri) |
| Cümlələrin məzmununa əsasən buraxılmış köməkçi sözləri əlavə edir. | Tap. C, Ç (dərslik), tap. C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllim növbəti dərsdə nümayiş etdirmək üçün Qazan xan, Qaraca çoban və Buğacın şəklini əldə edir.

## fəsil 2 EL İGİDLƏRİ İLƏ TANINAR

### 1-ci dərs. "Səgrəyin dastanı" (I hissə)

• Dərslik: səh. 38–39 • İş dəftəri: səh. 24

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Danışarkən fəal leksikadan istifadə edir (st. 3-4.4.1).

**Köməkçi vasitələr:** Oğuz igidlərindən Qazan xan, Qaraca çoban və Buğacın şəkli.

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müxtəlif Oğuz qəhrəmanlarının şəkillərinin nümayişi |
| 2 | **Danışma** | Tanış olduqları Oğuz qəhrəmanlarının şücaətləri haqqında söhbət |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Səgrəyin dastanı" mətninin I hissəsinin oxusu; "Söz boğçası" üzrə iş |
| 4 | **Oxuyub-qavrama** | Mətnə aid faktoloji sualların cavablandırılması; səbəb-nəticə əlaqəli cümlələrin tamamlanması; mətnin məzmunu ilə bağlı sualların tərtib edilməsi |
| 5 | **Danışma** | Alqışlardan yerli-yerində istifadə edilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

#### Mövzuya yönəltmə

Müəllim Qazan xan, Qaraca çoban və Buğacın şəklini nümayiş etdirir. Şagirdlər bu şəkillərə baxır, dərsin mövzusunu təxmin edirlər.

#### Danışma

3-1.3.3 **Tapşırıq A (dərslik).** Şagirdlər keçən dərslərdə bir neçə Oğuz igidi haqqında məlumat alıblar. Onlar həmin igidləri xatırlayır, onların göstərdikləri şücaətlər haqqında danışırlar.

#### Oxu. Söz ehtiyatı

3-2.2.3 **"Səgrəyin dastanı" mətninin I hissəsi üzrə iş. Növbə ilə oxu.** Şagirdlər mətni növbə ilə oxuyurlar. Müəllim şagirdlərin oxu zamanı birbirini izləməsini yoxlamaq məqsədilə hər abzasın məzmununa uyğun suallar verir. Oxu zamanı tanış olmayan sözlərin mənası izah edilir. Şagirdlər əvvəlcə sözləri kontekstə əsaslanaraq izah etməyə çalışır, daha sonra isə lüğət vasitəsilə dəqiqləşdirirlər.

**"Söz boğçası"ndakı sözlərin düzgün izahı:**

*əsir* – müharibədə ələ keçirilən düşmən əsgəri, zabiti və s.;

*dustaq* – həbs olunmuş, yaxud dustaqxanada saxlanılan adam;

*bahadır* – igid, cəsur, qəhrəman, pəhləvan;

*yasa batmaq* – çox kədərlənmək, qəmlənmək.

**Tapşırıq B (dərslik).** Şagirdlər mətndə rast gələn yeni sözlərin mənalarını mənimsədiklərini nümayiş etdirirlər.

#### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq C (dərslik).** Şagirdlər tapşırıqdakı faktoloji suallara cavab verir, bununla da mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Tapşırıq A (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər mətndəki hadisələr arasında səbəb-nəticə əlaqəsini müəyyən etməklə mətni qavradıqlarını nümayiş etdirirlər.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş sual əvəzliklərindən istifadə edərək mətnin məzmunu ilə bağlı suallar tərtib edirlər.

#### Danışma

3-4.4.1 **Tapşırıq Ç (dərslik).** Müəllim şagirdlərə ikinci sinifdə alqışlarla bağlı öyrəndikləri məlumatları xatırladır. Bu tapşırıq şagirdlərin aşağı siniflərdə qazandıqları nitq etiketlərindən situasiyaya uyğun istifadə etmək bacarığının möhkəmlənməsinə xidmət edir. Onlar eyni zamanda özləri də alqışlar düşünüb deyə bilərlər.

**Tapşırıq D (dərslik). Araşdırma (Ev-layihə tapşırığı).** Şagirdlərin araşdırma bacarığının inkişafına xidmət edir. Bu cür tapşırıqların evdə icra edilməsi tövsiyə olunur. Şagirdlər növbəti dərsdə qopuz aləti haqqında təqdimat hazırlayacaqlar. Buna görə də əvvəlcədən bu alət haqqında araşdırma aparır, məlumat toplayırlar. Yaxşı olardı ki, internetdən istifadə etmə imkanları olan şagirdlərə internet resurslarından istifadə üçün linklər verilsin. İnternetdən istifadə edə bilməyənlərə isə kitab, jurnal, ensiklopediya adları verməк olar. Şagirdlərə kömək məqsədilə konkret suallar da təqdim etmək olar:

*– Qopuz necə alətdir?*

*– Quruluşu necədir?*

*– Bu musiqi aləti hansı xalqa mənsubdur?*

*– "Qopuz" dedikdə hansı dastan qəhrəmanları yada düşür?*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlar əsasında mövzu üzrə danışır. | Tap. A (dərslik) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tap. B (dərslik) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. C (dərslik), tap. A (iş dəftəri) |
| Mətnin məzmunu ilə bağlı suallar tərtib edir. | Tap. B (iş dəftəri) |
| Şifahi nitqində standart ifadələrdən yerli-yerində istifadə edir. | Tap. Ç (dərslik) |

## **2-ci dərs.** "Səgrəyin dastanı" (II hissə)

• Dərslik: səh. 39–40 • İş dəftəri: səh. 25

### Təlim məqsədləri

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).

• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).

• Tanış olduğu məlumatları yazıda əks etdirir (st. 3-3.2.1).

• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 3-3.2.5).

### Dərsin qısa planı

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Səgrəyin dastanı" mətninin I hissəsinin xatırlanması |
| 2 | **Danışma** | Tapşırıqda verilmiş sual ətrafında müzakirə |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Səgrəyin dastanı" mətninin II hissəsi üzrə iş |
| 4 | **Oxuyub-qavrama** | Səbəb-nəticə əlaqəli cümlələrin tamamlanması; nitqin hansı obraza aid olduğunu müəyyənləşdirmək |
| 5 | **Yazı** | Mövzu ilə bağlı məlumatların məntiqi ardıcıllıqla yazılması; qopuz aləti haqqında təqdimatın hazırlanması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə keçən dərs oxuduqları "Səgrəyin dastanı" mətninin I hissəsi haqqında suallar verir. Bununla da keçmiş dərs yenidən xatırlanır.

### Danışma

3-1.3.3 **Tapşırıq A (dərslik).** Bəzən mətnlərdə kiçik detallar olur ki, oxucu diqqətindən kənarda qalır. Lakin hadisələrin sonrakı gedişində məlum olur ki, bu əşyalar əsərin ideyasının, baş qəhrəmanın xarakterinin açılmasında və yaxud onun problemlərinin həll olunmasında böyük rol oynayır. Bu tapşırıqda verilmiş sualı cavablandırmaqla şagirdlərin diqqəti belə məqamlardan birinə yönəldilir. *Dədə Qorqud nə üçün Səgrəyə qopuz verir? Niyə məhz qopuz?* Bu tip tapşırıqlar şagirdlərin həm öz mövqeyini bildirmə, əsaslandırma kimi vacib bacarıqlarını inkişaf etdirir, həm də diqqətli oxucu kimi formalaşmalarına xidmət edir.

### Oxu. Söz ehtiyatı

**"Səgrəyin dastanı" mətninin II hissəsi üzrə iş.** Şagirdlər mətnin II hissəsini oxuyur, tanış olmayan sözləri dəftərlərinə qeyd edirlər. Daha sonra lüğət vasitəsilə həmin sözlərin mənası araşdırılır.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər mətndəki hadisələr arasında səbəb-nəticə əlaqəsini müəyyən etməklə mətni qavradıqlarını nümayiş etdirirlər.

**Tapşırıq C (dərslik).** Şagirdlər tapşırıqda verilmiş şeir parçasını oxuyur, bu sözlərin hansı obrazın nitqinə aid olduğunu müəyyənləşdirirlər. Mətndən uyğun epizoda istinad edərək fikirlərini əsaslandırırlar.

*Doğru cavab:* Şeir parçası Əgrəyin nitqinə aiddir.

*Uyğun epizod:* Əgrək ilə Səgrək arasındakı dialoq zamanı Əgrəyin nitqinə aid ola bilər. Əgrək

qarşısında dayanan igidin onun doğma qardaşı olduğunu anlayanda həmin sözləri söyləyir.

**Yazı**

3-3.2.1 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər bir neçə dərsdir ki, "Kitabi-Dədə Qorqud" dastanı əsasında işlənmiş mətnlərlə tanış olurlar. Bu mətnlərdə Oğuz igidlərinin qəhrəmanlıqlarından bəhs edilir. Onların göstərdikləri şücaətlər haqqında şagirdlərin müəyyən məlumatları var. Həmin məlumatları cədvəlin uyğun bölmələrində məntiqi ardıcıllıqla yazırlar. Beləliklə, həm məzmunu mənimsədiklərini, həm də yazı bacarıqlarını nümayiş etdirirlər.

3-3.2.5 **Tapşırıq Ç (dərslik).** Şagirdlər qopuz aləti haqqında apardıqları araşdırma nəticəsində əldə etdikləri məlumatlardan və şəkillərdən istifadə edərək təqdimat hazırlayırlar.

**Diferensial təlim**

Təqdimatlar üçün müxtəlif formalar seçmək olar: A4 ölçülü kağızlar üzərində, PowerPoint proqramı vasitəsilə və s.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. A (dərslik) |
| Mətni oxuyarkən tanış olmadığı sözləri qeyd edir. | "Səgrəyin dastanı" mətninin II hissəsi |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. B (dərslik) |
| Dialoji mətndə nitqin hansı obraza aid olduğunu müəyyən edir. | Tap. C (dərslik) |
| Mövzu ilə bağlı fikirlərini məntiqi ardıcıllıqla yazıda ifadə edir. | Tap. A (iş dəftəri) |
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır. | Tap. Ç (dərslik) |

## 3-cü dərs. Mürəkkəb cümlə

• Dərslik: səh. 41 • İş dəftəri: səh. 26

**Təlim məqsədləri**

• Sadə cümlələr arasında uyğunluğu müəyyən edərək mürəkkəb cümlə qurur (st. 3-4.2.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Cümlə haqqında biliklərin (bitkin fikir bildirməsi) xatırlanması |
| 2 | **Dil qaydaları** | Mürəkkəb cümlə haqqında məlumatın şərhi; mürəkkəb cümlələrin fərqləndirilməsi; mürəkkəb cümlələrin tərkib hissələrinin müəyyənləşdirilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

**Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini tapşırıqda verilmiş söz sıralarına yönəldir və soruşur:

*– Hansı bənddə verilmiş söz sırasında fikir ifadə olunub? (Doğru cavab: Ç)*

*– Bitmiş fikir ifadə edən söz sırasına nə deyilir? (Cümlə)*

**Dil qaydaları**

**"Bunları bilməliyik" rubrikası.** Müəllim bu rubrikada mürəkkəb cümlə haqqında verilmiş məlumatları şərh edir. Şagirdlər aşağı siniflərdə cümlə anlayışı ilə tanış olmuşlar. Cümlənin fikir ifadə etdiyini bilirlər. Bu dərsdə isə bəzi cümlələrdə bir deyil, bir neçə fikrin ifadə olunduğu haqda məlumat alırlar.

3-4.2.2 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin "Bunları bilməliyik" rubrikasında mürəkkəb cümlə haqqında aldıqları biliklərin möhkəmləndirilməsinə yönəlib. Şagirdlər qarışıq verilmiş cümlələr içərisindən mürəkkəb cümlələri seçməklə onu fərqləndirə bildiklərini nümayiş etdirirlər.

Doğru cavablar: 1, 3, 4.

**Müəllimin nəzərinə!** Mürəkkəb cümlənin tərkibindəki fikirləri ayırmaq bacarığını formalaşdırmaq üçün ilk tapşırıqları kollektiv şəkildə, cümlələri lövhəyə yazaraq izah etmək məqsədəuyğundur. Məsələn: *1. Yaz gəldi, bağçada güllər açdı. Bu cümlədə iki fikir var: 1. Yaz gəldi. 2. Bağçada güllər açdı.*

**Tapşırıq C (dərslik).** Şagirdlər müxtəlif sütunlarda verilmiş fikirlərlə tanış olur, məzmunca uyğun gələnləri bir cümlədə birləşdirərək mürəkkəb cümlə yaradırlar.

<u>*Doğru cavablar:*</u> 1 – b, 2 – a, 3 – ç, 4 – c.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər tapşırıqda verilmiş fikirlərə daha bir fikir əlavə edərək mürəkkəb cümlə yaradırlar.

Məsələn:

*1. Külək əsir, yarpaqlar yerə tökülür.*

*2. Müəllim sual verir, şagirdlər onu cavablandırırlar.*

*3. İşıqforun yaşıl işığı yandı, maşınlar hərəkət etdi.*

*4. Nihadın yeddi yaşı oldu, dostu onu təbrik etdi.*

*5. Mina dərslərini bitirdi, atası onu parka apardı.*

**Tapşırıq A, B, C, Ç (iş dəftəri).** İş dəftərində verilmiş tapşırıqlar şagirdlərin mürəkkəb cümlə haqqında öyrəndikləri biliklərin möhkəmləndirilməsinə yönəlib.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mürəkkəb cümləleri fərqləndirir. | Tap. A (dərslik), tap. A (iş dəftəri) |
| Mürəkkəb cümlənin tərkib hissələrini müəyyən edir. | Tap. B (iş dəftəri) |
| Cümlələrin məzmunu arasında uyğunluğu müəyyən edərək mürəkkəb cümlə yaradır. | Tap. C (dərslik), tap. C (iş dəftəri) |
| Verilmiş fikrin məzmununa uyğun daha bir fikir əlavə edərək mürəkkəb cümlə yaradır. | Tap. Ç (dərslik), tap. Ç (iş dəftəri) |

fəsil 3

# İGİD DÖYÜŞDƏ BƏLLİ OLAR

## 1-ci dərs. “Ağ atlı oğlan” (I hissə)

• Dərslik: səh. 42–43 • İş dəftəri: səh. 27

### Təlim məqsədləri

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Obrazların nitqini onların xarakterinə uyğun səsləndirir (st. 3-2.1.2).
• Lüğət dən istifadə etməklə sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Məqsədə uyğun olaraq məktub yazır (st. 3-3.2.3).
• Oxuduğu mətn haqqında rəy yazır (st. 3-3.2.3).

### Dərsin qısa planı

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin sualı üzrə müzakirə |
| 2 | **Danışma** | Tapşırıqda verilmiş fikirlə bağlı münasibətin bildirilməsi |
| 3 | **Oxu. Söz ehtiyatı** | “Ağ atlı oğlan” mətninin I hissəsinin oxusu; söz ehtiyatı üzrə iş |
| 4 | **Oxuyub-qavrama** | Səbəb-nəticə əlaqəli cümlələrin tamamlanması; mətnə aid faktoloji sualların cavablandırılması |
| 5 | **Yazı** | Mətndəki bir obrazın dilindən digər obraza məktub yazılması; “Ağ atlı oğlan” mətninin I hissəsi üzrə rəy yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə aşağı sinifdə oxuduqları nağılları xatırladıb soruşur:

– *Hansı nağıl qəhrəmanlarını tanıyırsınız? Hansı nağıl qəhrəmanı Vətəninin, el-obasının dar günündə köməyə çatır, ağlı, gücü hesabına Vətəni xilas edir?* (2-ci sinif. “Biləndərin nağılı”)

### Danışma

3-1.3.3 **Tapşırıq A (dərslik).** Şagirdlər tapşırıqda verilmiş “İgid döyüşdə bəlli olar” ifadəsini izah etməyə, bu fikir haqqında öz mövqe-

lərini bildirməyə çalışırlar. Oxuduqları, dinlədikləri mətnlərdən, müşahidə etdikləri hadisələrdən nümunələr gətirməklə öz fikirlərini əsaslandırırlar. Müəllim şagirdlərə fikirlərini tam izah edə bilmələri üçün əlavə yönəldici suallar da verə bilər:

*– Qəhrəmanlıq nədir? Eşitdiyiniz, oxuduğunuz əsərlərdən nümunələr gətirin.*

*– Bəzən kimsə başqasının qəhrəmanlığını öz adına çıxmaq istəyir. Buna münasibətinizi bildirin.*

### Oxu. Söz ehtiyatı

3-2.1.2 **"Ağ atlı oğlan" mətni üzrə iş. Rollu oxu.** Əvvəlcə şagirdlər müəyyən vaxt ərzində "Ağ atlı oğlan" mətnini səssiz oxuyurlar. Bu zaman obrazların nitqinə diqqət edir, onların keçirdiyi hissləri təsəvvür edirlər. Daha sonra müəllim obrazların nitqini şagirdlər arasında bölüşdürür: müəllif, mehtər, Xanbala, Nərbala, Daşgüvar şah. Bu dəfə şagirdlər mətni səsli oxuyurlar. Müəllim oxu zamanı şagirdlərin jest və mimikalardan yerində, düzgün istifadə etmələrinə diqqət edir, obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə necə səsləndirmələrini müşahidə edir.

### Söz ehtiyatı

**"Söz boğçası" rubrikası.** Şagirdlər əvvəlcə "Söz boğçası"ndakı sözlərin *(bəsləmək, yabı, çəlimsiz, qulun, köhlən, hasil olmaq, qurşaq tutmaq)* mənasını kontekstə əsasən təxmin edirlər. Daha sonra isə təxminlərini lüğət vasitəsilə dəqiqləşdirirlər.

Sözlərin izahı:

*bəsləmək* – qulluq etmək;
*yabı* – arıq, əldən düşmüş, yaraşıqsız at;
*çəlimsiz* – arıq, bədəncə zəif;
*qulun* – körpə at balası;
*köhlən* – yaxşı bəslənmiş at;
*hasil olmaq* – əldə etmək;
*qurşaq tutmaq* – güləşmək.

Qeyd: Sonuncu ifadə frazeologizmdir. Müəllim bu ifadəni izah edərkən "qurşaq" sözünü izah edir və güləşçilərin çox zaman qurşaqdan yapışaraq güləşdiklərini bildirir.

3-2.2.3 **Tapşırıq B (dərslik).** Şagirdlər lüğətdən istifadə edərək tapşırıqda verilmiş "qulun", "kəhər", "madyan", "dayça" və "yabı" sözlərinin mənalarını araşdırır və müqayisə edirlər.

*Qulun* – körpə at balası;
*Kəhər* – açıq-şabalıdı rəngli at;
*Madyan* – dişi at;
*Dayça* – bir yaşlı erkək at balası;
*Yabı* – arıq, əldən düşmüş, yaraşıqsız at.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq C (dərslik).** Şagirdlər mətndəki hadisələr arasında səbəb-nəticə əlaqəsini müəyyən etməklə mətni qavradıqlarını nümayiş etdirirlər.

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırıq vasitəsilə şagirdlərin mətni nə qədər diqqətlə oxuduqlarını yoxlamaq mümkündür. Şagirdlər tapşırıqda verilmiş sualları oxuyur, mətndən cavabını tapa bilmədikləri sualları seçirlər.

*– Mehtərin adı nə idi?*
*– Hadisələr hansı ölkədə baş verir?*
*– Nərbala atını necə adlandırmışdı?*

**Müəllimin nəzərinə!** Mətndə "*Nərbala döyüşə niyə niqabla çıxdı?*" sualının da birbaşa cavabı yoxdur. Lakin məzmundan çıxış edərək şagird bu sualın cavabını təxmin edə bilər.

### Yazı

3-3.2.3 **Tapşırıq Ç (dərslik).** 2-ci sinifdə şagirdlər əməli yazı nümunəsi ilə, məktubla tanış olublar. Bu dərsdə müəllim şagirdlərin diqqətini Səlim şahın Daşgüvar şaha göndərdiyi xəbərə yönəldir: "Bir gün qonşu ölkənin hökmdarı Səlim şah hücum çəkib şəhərin yaxınlığında düşərgə qurdu. Daşgüvar şaha xəbər göndərdi ki, pəhləvan yarışı keçirsinlər. Kimin pəhləvanı qalib gəlsə, şəhər onun olsun". Yönəldici suallarla şagirdlərin diqqətini mətndəki əsas məqamlara cəlb edir.

*– Səlim şahın məqsədi nədir?*
*– Səlim şah nə istəyir?*
*– Səlim şahın şərti nədir?*

Bu suallar şagirdlərə məktubun mətnini (məzmununu) təsəvvür etməyə kömək edəcək. Şagirdlər mətnin tərkib hissələrinin ardıcıllığına əməl etməklə Səlim şahın dilindən Daşgüvar şaha məktub yazırlar.

**Diferensial təlim**

Müəllim çətinlik çəkən şagirdlərə məktubun məzmununa aid hazır cümlələri qeyri-ardıcıl şəkildə təqdim edə bilər. Şagirdlər həmin cümlələrin düzgün ardıcıllığını bərpa edərək məktub yaza bilərlər.

3-3.2.3 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər artıq 2-

ci sinifdə dinlədikləri və yaxud oxuduqları mətn haqqında rəy yazmaq bacarığına yiyələnmişlər. Bu tapşırıq vasitəsilə həmin bacarıq möhkəmləndirilir, daha da inkişaf etdirilir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəyyən fikirlə bağlı öz münasibətini bildirir və onu əsaslandırır. | Tap. A (dərslik) |
| Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə səsləndirir. | "Ağ atlı oğlan" mətninin I hissəsi (dərslik) |
| Lüğətdən istifadə etməklə sözün mənasını izah edir. | Tap. B (dərslik) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. C (dərslik), tap. A (iş dəftəri) |
| Məqsədə uyğun olaraq məktub yazır | Tap. Ç (dərslik) |
| Oxuduğu mətn haqqında rəy yazaraq öz münasibətini bildirir. | Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllimə lövhədə nümayiş etdirmək üçün dərsliyin 44-cü səhifəsində verilmiş obrazlar xəritəsini iri formatda hazırlamaq tövsiyə edilir.

## 2-ci dərs. "Ağ atlı oğlan" (II hissə)

• Dərslik: səh. 44 • İş dəftəri: səh. 28

### Təlim məqsədləri

• Mətnə istinad etməklə obrazın xarakteri və ya davranışı haqqında fikirləri əsaslandırır (st. 3-2.4.1).
• Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir (st. 3-2.3.3).

**Köməkçi vasitələr:** Lövhədə nümayiş etdirmək üçün iri formatda obrazlar xəritəsi.

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin sualı üzrə müzakirə |
| 2 | **Oxuyub-qavrama** | "Ağ atlı oğlan" mətninə istinad edərək Xanbala obrazının təhlili |
| 3 | **Dinləmə** | "Ağ atlı oğlan" mətnindən "Ov səhnəsi" |
| 4 | **Oxuyub-qavrama** | Obrazlar xəritəsinin tərtib edilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə keçən dərs oxuduqları "Ağ atlı oğlan" mətninin I hissəsi haqqında suallar verir. Bununla da keçmiş dərs yenidən xatırlanır.

### Oxuyub-qavrama

3-2.4.1 **Tapşırıq A (dərslik).** Tapşırıq vasitəsilə obrazların xarakteri və davranışları müzakirə edilir, "Ağ atlı oğlan" mətninin I hissəsindən uyğun epizodlar xatırlanmaqla fikirlər əsaslandırılır.

***Xanbala kobud və təkəbbürlüdür.***

Uyğun epizod**:** Mehtər boz rəngli bir qulunu göstərib dedi:

– Bircə il bu quluna yaxşı qulluq olunsa, cıdırda ona çatan at olmaz.

– Bu yabını oğlun Nərbalaya saxla, – deyə Xanbala başqa at seçdi.

Əsaslandırma: Xanbala özünü mehtərin oğlundan üstün tutur, özünə yaraşdırmadığını ona layiq görür. Xanbala özündən böyük insanla kobudcasına danışır.

***Padşah ədalətsizdir.***

Uyğun epizod: Pəhləvan yarışının keçiriləcəyini eşidən Nərbala padşahın hüzuruna gəlib baş əydi:

– Qibleyi-aləm, icazə verin, sabahkı döyüşə mən çıxım.

– Şir kimi oğlanlarıma nə gəlib ki, ölkəmi mehtər oğlu xilas eləsin, – deyə şah dilləndi.

Əsaslandırma: Padşah ədalətsiz qərar verir, insanlar arasında ayrı-seçkilik qoyur. Nərbalanın mehtər oğlu olduğu üçün yarışda iştirak etməsinə icazə vermir.

***Nərbala vətənpərvərdir.***

Uyğun epizod: Ağ atlı oğlan Daşgüvar padşaha yaxınlaşdı, niqabını üzündən açdı:

– Qibleyi-aləm, məni qəhrəmanlığa layiq görməsən də, Vətən torpaqlarımızı təhlükəyə ata

bilməzdim. Qəhrəmanlıq var-dövlətlə, taxt-tacla alınmır, döyüş meydanında qazanılır.

Əsaslandırma: Padşah Nərbalaya mehtər oğlu olduğu üçün yarışda iştirak etməsinə icazə verməsə də, o, üzünü gizlədib döyüş meydanına girir. Vətən torpaqlarını işğaldan azad edir.

**"Yadda saxla" rubrikası.** Bu rubrikada obrazlar xəritəsi haqqında məlumat verilib ki, bu da obrazları təhlil etməyə kömək edir. Mətndə iştirak edən obrazların düzgün səciyyələndirilməsi oxuyub-qavrama bacarığının əsas göstəricilərindən biridir. Bu bacarıq mətnin ideyasının düzgün müəyyənləşdirilməsində mühüm rol oynayır.

3-2.3.3 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərdə obrazlar xəritəsinin hazırlanması bacarığının formalaşdırılmasına xidmət edir. Öyrədici tapşırıq olduğu üçün kollektiv formada yerinə yetirilməsi daha məqsədəuyğundur. Müəllim şagirdlərin diqqətini tapşırıqda verilmiş cümlələrə yönəldir. Daşgüvar şah haqqında verilmiş cümlələr oxunur və obrazlar xəritəsinin uyğun bölməsinə əlavə edilir.

1. *Obrazın təqdimatı:* Daşgüvar hökmdardır.
2. *Xüsusiyyəti:* Daşgüvar şah ədalətsizdir.

*Əsaslandırılması:* Mehtər oğlu olduğu üçün Nərbalaya döyüşmək üçün icazə vermədi.

3. *Keçirdiyi hisslər:* Qəzəblənir.

*Əsaslandırılması:* Oğlanlarının uduzduğunu görən şah qəzəbdən dodaqlarını çeynəyirdi.

4. *Yadda qalan sözləri:* Şir kimi oğlanlarıma nə gəlib ki, ölkəmi mehtər oğlu xilas eləsin!

### Dinləmə. Oxuyub-qavrama

3-2.4.1 **Tapşırıq C (dərslik).** Şagirdlər "Yadda saxla" rubrikasında obrazlar xəritəsi haqqında məlumat aldıqdan sonra bu bacarıq dinləmə mətni vasitəsilə tətbiq olunur. Müəllim "Ağ atlı oğlan" mətnindən ov səhnəsini təsvir edən abzası səsləndirir:

**"Ağ atlı oğlan" mətnindən "Ov səhnəsi"**

*Şahzadələr, Xanbala və Bəybala tez-tez ova çıxırdılar. Mehtərin oğlu Nərbalanı da özləri ilə götürürdülər ki, onlara qulluq eləsin: vurulan heyvanları gətirsin, çadır qursun, ocaq qalasın, yemək bişirsin.*

*Bir dəfə, necə oldusa, qəfildən kolların arasından bir şir çıxıb Xanbalanın üstünə atıldı. Şir nəhəng pəncələri ilə Xanbalanın boğazından yapışdı. Bu zaman Nərbala uzaqda idi: ocaq qalamaq üçün odun toplayırdı. Bəybala isə Xanbalanın yaxınlığında idi. Amma şiri görən kimi qardaşını qoyub qaçdı. Xanbala elə qışqırırdı ki, səsi bütün meşəyə əks-səda salırdı. Xanbalanın səsini eşidən Nərbala özünü köməyə yetirdi. Şirlə əlbəyaxa oldu. Xanbalanı ölümdən xilas etdi.*

*Xanbala çaşıb-qalmışdı. Doğma qardaşı onu atıb qaçmışdı. Bəyənmədiyi, yuxarıdan aşağı baxdığı mehtər oğlu isə özünü ona görə təhlükəyə atmışdı. Fikirləşəndə ki bu hadisəni eşidən hər kəs Nərbalanın qəhrəmanlığından danışacaq, paxıllıqdan ürəyi partlayırdı. Odur ki üzünü Nərbalaya tutub dedi:*

*– Bura bax, mehtər oğlu, bu hadisədən heç kimin xəbəri olmamalıdır. Onsuz da yazıq bir mehtər oğlunun şahzadəni xilas etməsinə heç kim inanmaz.*

*Özü isə şirin dərisini soyub çiyninə aldı, qalibanə şəkildə saraya tərəf yollandı.*

*Şəhərdə hamı Xanbalanı alqışladı, onun cəsarətinə əhsən dedi.*

Dərslikdəki tapşırıq şifahi şəkildə yerinə yetirilir. Müəllim yönəldici suallarla şagirdlərə kömək edir:

*– Xanbala kim idi?*

*– Xanbalanın xarakteri necə idi? Dinlədiyiniz abzasdakı hansı epizodla bunu əsaslandıra bilərsiniz?*

*– Xanbala hansı hissləri keçirdi? Hansı epizodla bunu əsaslandıra bilərsiniz?*

*– Dinlədiyiniz abzasda Xanbalanın hansı sözləri diqqətinizi daha çox cəlb etdi, yadınızda qaldı?*

*– Xanbala obrazına münasibətiniz necədir? Niyə? Fikrinizi əsaslandırın.*

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər dərslikdə təqdim edilmiş C tapşırığını şifahi yerinə yetirdikdən sonra iş dəftərindəki tapşırığı sərbəst şəkildə yazırlar. İş dəftərindəki tapşırıq şagirdlərin obrazlar xəritəsi ilə bağlı qazandıqları bilikləri yoxlamağa imkan verir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnə istinad etməklə obrazın xarakteri və ya davranışı haqqında fikirləri əsaslandırır. | Tap. A, C (dərslik) |
| Mətn və onun hissələri üzrə obrazlar xəritəsi tərtib edir. | Tap. B (dərslik), tap. A (iş dəftəri) |

## **3-cü dərs.** Mürəkkəb cümlədə vergül və bağlayıcılar

• Dərslik: səh. 45 • İş dəftəri: səh. 29

| Təlim məqsədləri |
|---|
| • Cümlənin ifadə etdiyi fikrə əsasən müvafiq köməkçi sözlərdən istifadə edir (st. 3-4.2.1).<br>• Mürəkkəb cümlənin tərkib hissələri arasında vergül işarəsindən istifadə edir (st. 3-4.3.2). |

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Buraxılmış sözləri əlavə etməklə cümlənin bərpa edilməsi |
| 2 | **Dil qaydaları** | Mürəkkəb cümlənin tərkib hissələrini bir-birinə bağlamağa kömək edən sözlər haqqında məlumatın verilməsi; *ki, amma, ancaq, lakin, çünki* bağlayıcıları işlənən cümlələrdə vergülün yerinin müəyyənləşdirilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini tapşırıqda verilmiş cümlələrə yönəldir. Şagirdlər cümlələri oxuyur və buraxılmış köməkçi sözləri bərpa edirlər. Beləliklə, şagirdlərin diqqəti bu sözlərə yönəlir.

### Dil qaydaları

**"Bunları bilməliyik" rubrikası.** Şagirdlər artıq "mürəkkəb cümlə" anlayışı ilə tanış olmuşlar. Müəllim bu rubrikada mürəkkəb cümlənin tərkib hissələrini bir-birinə bağlamağa kömək edən sözlər haqqında məlumat verir. Belə sözlərin *bağlayıcı* adlandığını izah edir. Mürəkkəb cümlənin tərkib hissələri arasında həm vergüldən, həm də bağlayıcıdan istifadə edilməsi nümunələr əsasında şərh olunur.

Məsələn: "Göy guruldadı, yağış yağdı" mürəkkəb cümləsinin tərkib hissələri arasında yalnız vergüldən istifadə edilib. "Göy guruldadı və yağış yağdı", "Həsən dərsi izah etdi, lakin Səlim anlamadı", "Günəş ətrafı əvvəlki kimi isitmirdi, çünki qış gəlmişdi" cümlələrində isə *və, lakin, çünki* bağlayıcılarından istifadə edilib.

3-4.2.1 **Tapşırıq B (dərslik), tapşırıq A (iş dəftəri).** Tapşırıqlar şagirdlərin bağlayıcılar haqqında aldıqları məlumatların möhkəmləndirilməsinə yönəlib.

*Doğru cavablar:*

Dərslikdəki B tapşırığının düzgün cavabları: 2-ci və 3-cü cümlələr.

İş dəftərindəki A tapşırığının düzgün cavabları: 2-ci, 4-cü, 5-ci və 6-cı cümlələr.

3-4.2.1 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər cümlələri oxuyur və cümlənin məzmununa əsasən buraxılmış bağlayıcıları artırırlar.

*Doğru cavablar:* 1. Çünki; 2. Amma, ancaq, lakin bağlayıcılarından biri; 3. Və; 4. Çünki; 5. Və; 6. Amma, ancaq, lakin bağlayıcılarından biri.

**"Diqqət et" rubrikası (dərslik).** Şagirdlərin diqqəti bağlayıcıların vergüllə işlənməsi qaydalarına yönəlir. Nümunələr əsasında vergül işarələrinin cümlədə yeri izah edilir.

3-4.3.2 **Tapşırıq C (dərslik), tapşırıq C (iş dəftəri).** Şagirdlər cümlələrdə buraxılmış bağlayıcıları bərpa edir, uyğun yerlərdə vergül işarəsini qoyurlar. Bu tapşırıqlar şagirdlərdə mürəkkəb cümlənin tərkib hissələri arasında vergülün yerini düzgün müəyyənləşdirmək bacarığını inkişaf etdirir.

Dərslikdəki C tapşırığının düzgün cavabları: 1. Və; 2. Ona görə də; 3. Amma, ancaq, lakin bağlayıcılarından biri; 4. Çünki; 5. Ona görə də.

İş dəftərindəki C tapşırığının düzgün cavabları: *Günəş artıq az-az görünür, çünki payız gəlib. Payızda Yer Günəşdən uzaqlaşır, ona görə də istilik azalır. Soyuq küləklər əsir və tez-tez yağışlar yağır. Bəzi quşlar isti ölkələrə köçür, amma sərçə öz Vətənini tərk etmir.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Tərkib hissələri arasında bağlayıcı işlənən mürəkkəb cümlələri seçir. | Tap. B (dərslik), tap. A (iş dəftəri) |
| Cümlənin tərkib hissələri arasında məna əlaqəsinə görə uyğun gələn bağlayıcını müəyyən edir. | Tap. B (iş dəftəri) |

| | |
|---|---|
| *Ki, amma, ancaq, lakin, çünki* bağlayıcıları işlənən cümlələrdə vergülün yerini müəyyən edir. | Tap. C (dərslik), tap. C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Bölmənin giriş dərsində Cavad xan haqqında təqdim edilmiş məlumat vərəqini iri formatda hazırlamaq tövsiyə edilir.

fəsil 4

# QƏHRƏMANLAR UNUDULMUR

## 1-ci dərs. "Cavad xan" (I hissə)

• Dərslik: səh. 46–48 • İş dəftəri: səh. 30

**Təlim məqsədləri**

• Mətni sürətli, səlis, aydın səslə oxuyur (st. 3-2.1.1).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya və s.) onun əsas məzmunu ilə əlaqələndirir (st. 3-2.4.3).
• Lüğətdən istifadə etməklə sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir (st. 3-2.3.3).

**Köməkçi vasitələr:** Lövhədə nümayiş etdirmək üçün Cavad xan haqqında iri formatda məlumat vərəqi.

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Cavad xan haqqında məlumat vərəqinə əsasən Cavad xan haqqında məlumatların xatırlanması |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Cavad xan" mətninin I hissəsinin oxusu; söz ehtiyatı üzrə iş |
| 3 | **Oxuyub-qavrama** | Mətnə aid faktoloji sualların cavablandırılması; mətnin abzasları ilə yarımbaşlıqların uyğunlaşdırılması |
| 4 | **Oxu. Söz ehtiyatı** | "Cavad xan" mətninin II hissəsinin oxusu; söz ehtiyatı üzrə iş |
| 5 | **Oxuyub-qavrama** | Mətndə cavabı olmayan sualların müəyyənləşdirilməsi |
| 6 | **Söz ehtiyatı** | Yeni sözlərin mətnə çəkilmiş illüstrasiyalarla uyğunlaşdırılması |
| 7 | **Oxuyub-qavrama** | Obrazlar xəritəsinin tərtibi |
| 8 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim bölmənin giriş dərsində Cavad xan haqqında təqdim edilmiş məlumat vərəqini bir

daha şagirdlərə nümayiş etdirir. Yönəldici suallar verməklə Cavad xan haqqında öyrəndikləri məlumatları xatırladır.

**Tapşırıq A (dərslik).** Müəllim lövhədə ikisütunlu cədvəl çəkir. Sütunun birinə "Nə öyrəndim?", digərinə isə "Daha nə bilmək istərdim?" başlıqlarını yazır. Şagirdlər bölmənin giriş dərsində Cavad xan haqqında verilmiş məlumat vərəqinə istinad edərək Cavad xan haqqında öyrəndikləri məlumatları cədvəlin "Nə öyrəndim?" bölməsinə qeyd edirlər. Daha sonra şagirdlər Cavad xan haqqında əlavə məlumat almaq üçün suallar tərtib edib cədvəlin "Daha nə bilmək istərdim?" bölməsinə yazırlar. Sonra sualları oxuyurlar.

### Oxu. Söz ehtiyatı

3-2.1.1 **"Cavad xan" mətninin I hissəsi üzrə iş.** Şagirdlər növbə ilə "Cavad xan" mətninin I hissəsini ucadan, aydın səslə oxuyurlar.

**"Söz boğçası" rubrikası.** Şagirdlər əvvəlcə "Söz boğçası"ndakı sözlərin *(əlverişli, önəmli, pənah gətirmək, himayə, satqınlıq, göydəndüşmə, şirnikləndirmək)* mənasını kontekstə əsasən təxmin edirlər. Daha sonra isə təxminlərini lüğət vasitəsilə dəqiqləşdirirlər. Sözlərin dəqiq mənası:

*əlverişli* – yararlı, uyğun;
*önəmli* – vacib, mühüm;
*pənah gətirmək* – kömək, imdad istəmək;
*himayə* – daha zəif olanı qoruma; qayğı;
*satqınlıq* – namərdlik, xainlik;
*göydəndüşmə* – təsadüfi, gözlənilməz;
*şirnikləndirmək* – daha da həvəs oyatmaq.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər tapşırıqdakı faktoloji suallara cavab verir, bununla da mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

3-2.4.3 **Tapşırıq C (dərslik).** Şagirdlər tapşırıqda verilmiş yarımbaşlıqları oxuyur və mətnin nömrələnmiş abzasları ilə uyğunlaşdırırlar. Tapşırıq yarımbaşlıqların mətndəki rolunu müəyyənləşdirmək bacarığını inkişaf etdirməyə yönəlib.

**"Cavad xan" mətninin II hissəsi üzrə iş.** Şagirdlər növbə ilə "Cavad xan" mətninin II hissəsini ucadan, aydın səslə oxuyurlar.

**"Söz boğçası" rubrikası.** Şagirdlər əvvəlcə "Söz boğçası"ndakı sözlərin *(bürc, müqavimət, başsağlığı, çərkəzi, əbədiləşdirmək, türbə)* mənasını kontekstə əsasən təxmin edirlər. Daha sonra isə təxminlərini lüğət vasitəsilə dəqiqləşdirirlər. Sözlərin dəqiq mənaları:

*müqavimət* – hücuma, təzyiqə, təsirə qarşı güc göstərmə;

*başsağlığı* – yaxın adamı ölmüş bir şəxsə, ya ailəyə təsəlli vermə, səbir vermə;

*çərkəzi* – Qafqaz xalqlarının geydikləri döşü vəznəli uzun kişi geyimi (milli paltarı);

*əbədiləşdirmək* – daim nəsillərin xatirəsində yaşatmaq, həmişəlik xatirə qoymaq;

*türbə* – böyük şəxslərin qəbirləri üzərində tikilən və sonradan çox vaxt ziyarətgah olan bina; məqbərə, mavzoley.

3-2.2.1 **Tapşırıq Ç (dərslik).** Şagirdlər tapşırıqda verilmiş sualları cavablandırmaqla mətni nə qədər diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Qeyd:** "Ruslar Gəncəyə neçənci ildə hücum ediblər?" sualının cavabı mətnin 1-ci hissəsindədir. (Mətnin əvvəli: "1804-cü il idi. Rusiya Azərbaycanı ələ keçirməyə çalışırdı".)

### Söz ehtiyatı

3-2.2.3 **Tapşırıq D (dərslik).** Şagirdlər yeni öyrəndikləri sözləri mətnə çəkilmiş illüstrasiyalarla uyğunlaşdırır və bununla da sözlərin mənasını anladıqlarını nümayiş etdirirlər.

3-2.3.3 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərdə obrazlar xəritəsinin hazırlanması bacarığının möhkəmləndirilməsinə xidmət edir. Şagirdlərin cavabları təxminən belə ola bilər:

1. *Obrazın təqdimatı:* Cavad xan 1786–1804-cü illərdə Gəncə xanı olub.

2. *Xüsusiyyəti:* Cavad xan cəsurdur, vətənpərvərdir.

*Əsaslandırılması:* Gəncəni son nəfəsinə qədər rus qoşunundan müdafiə edir. Vətən uğrunda şəhid olur.

3. *Keçirdiyi hisslər:* Qəzəblənir.

*Əsaslandırılması:* Sisyanovun Gəncəni təslim etmək haqqında məktubu oxuyarkən qəzəblənir.

4. *Yadda qalan sözləri:* Bu xəyaldan əl çək! Gəncəyə yalnız meyitimin üstündən keçə bilərsən! Mən öləndən sonra, özgə cür yox!

### Araşdırma (Ev-layihə tapşırığı)

**Tapşırıq E (dərslik).** Tapşırıq evdə yerinə yetirmək üçün nəzərdə tutulub. Şagirdlərin araş-

dırma bacarığının inkişafına xidmət edir. Müəllim şagirdləri dörd qrupa ayırır. Hər bir qrup bir mövzu haqqında araşdırma aparır:

*I qrup:* Gəncə qapıları
*II qrup:* Gəncə xanlığı
*III qrup:* Gəncə qalası
*IV qrup:* General Sisyanov

Şagirdlər növbəti dərsdə sinifdə topladıqları məlumatlar əsasında faktlar xəritəsi hazırlayacaqlar. Buna görə də əvvəlcədən müəyyənləşdirilmiş mövzular haqqında araşdırma aparır, məlumat toplayırlar. Yaxşı olardı ki, internetdən istifadə etmə imkanları olan şagirdlərə internet resurslarından istifadə üçün linklər verilsin. İnternetdən istifadə edə bilməyənlərə isə kitab, jurnal, ensiklopediya adları vermək olar. Şagirdlərə kömək məqsədilə yönəldici suallar da vermək olar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mövzu ilə bağlı məlumat almaq üçün suallar tərtib edir. | Tap. A (dərslik) |
| Mətni sürətli, səlis, aydın səslə oxuyur. | "Cavad xan" mətni (dərslik) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. B, Ç (dərslik) |
| Mətnə aid məlumatları uyğun hissə və ya yarımbaşlıqlarla əlaqələndirir. | Tap. C (dərslik) |
| Kontekstdən çıxış edərək sözün mənasını təxmin edir və lüğət vasitəsilə dəqiqləşdirir. | Tap. D (dərslik) |
| Mətn və onun hissələri üzrə obrazlar xəritəsi tərtib edir. | Tap. A (iş dəftəri) |

## 2-ci dərs. "Cavad xan" (II hissə)

• Dərslik: səh. 48 • İş dəftəri: səh. 31

**Təlim məqsədləri**

• Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir (st. 3-1.1.2).
• Mövzu üzrə apardığı araşdırmaların nəticələrini təqdim edir (st. 3-1.3.4).
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 3-3.2.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Keçən dərsdə oxunmuş mətnlərin xatırlanması |
| 2 | **Danışma** | "Ağ atlı oğlan" və "Cavad xan" mətnlərinin müqayisəsi; mövzu ilə bağlı şifahi təqdimat |
| 3 | **Yazı** | II Qarabağ müharibəsi haqqında faktlar xəritəsinin tərtib edilməsi |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə keçən dərsdə oxuduqları "Cavad xan" və "Ağ atlı oğlan" mətnlərinin məzmunu haqqında suallar verir. Bununla da həmin mətnlər yenidən xatırlanır.

### Danışma

3-1.1.2 **Tapşırıq A (dərslik).** Tapşırıqda verilmiş sualları cavablandırmaqla "Cavad xan" və "Ağ atlı oğlan" mətnləri müqayisə edilir. Tapşırığın məqsədi şagirdlərin diqqətini hadisələrin dəqiq vaxtı, yeri göstərilən mətnə yönəltməkdir.

Bu dərsdə tarixi faktlarla zəngin mətnlərin oxusu haqqında məsləhətlər verilir. Belə mətnləri oxuyarkən hadisələrin baş verdiyi yer və zaman, hadisələrin iştirakçısı olan tarixi şəxsiyyətlər haqqında araşdırma apararaq əlavə məlumatlar toplamaq olar.

3-1.3.4 **Tapşırıq B (dərslik).** Keçən dərs şagirdlər "Cavad xan" mətnini oxuyublar. Bu mətndə Gəncənin işğal edilməsi tarixi hadisəsi əks edilib. Şagirdlərə bu tarixi hadisəni daha dəqiq təsəvvür etmək üçün hadisələrin baş verdiyi yer – Gəncə xanlığı, Gəncə qalası, Gəncə qapıları və hadisənin iştirakçısı olan Sisyanov haqqında araşdırma aparmaq tapşırılıb. Qruplar topladıqları məlumatlara

əsasən Gəncənin işğalı haqqında yaddaş xəritəsi tərtib edəcəklər.

**Müəllimin nəzərinə!** Bu tapşırığı kollektiv şəkildə yerinə yetirmək tövsiyə edilir. Müəllim lövhədə aşağıdakı yarımbaşlıqları qeyd edə bilər:

1. *Tarixi hadisənin adı:* Gəncənin işğalı
2. *Hadisənin baş verdiyi ərazi:* Gəncə xanlığı, Gəncə qapıları, Gəncə qalası
3. *Hadisənin iştirakçıları olan tarixi şəxsiyyətlər:* Cavad xan, Sisyanov

Daha sonra şagirdlərə araşdırdığı məlumatları bu hadisə ilə əlaqələndirmək üçün yönəldici suallar verə bilər:

*1. Gəncə xanlığı haqqında hansı əlavə məlumatlar topladınız?*

*2. Gəncə qapıları, Gəncə qalası haqqında nə bilirsiniz?*

*3. Sisyanov haqqında hansı məlumatlarınız var?*

## Dinləmə. Yazı

3-3.2.5 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər tarixi faktlarla zəngin mətnlərlə işləmək haqqında məlumat alıblar. Eyni zamanda onlar I bölmədə mətni dinləyərkən qeyd götürmək bacarığına yiyələniblər. Bu bilik və bacarıqlar növbəti mərhələdə dinləmə mətni üzrə iş zamanı tətbiq olunur. Müəllim "Dəmir yumruq" mətnini bir dəfə səsləndirir. Daha sonra şagirdlərin diqqətini tapşırıqdakı cədvələ yönəldir. Şagirdlər cədvəlin bölmələri ilə tanış olurlar. Hansı yarımbaşlıqlara aid qeyd götürəcəklərini müəyyənləşdirirlər. Bundan sonra müəllim dinləmə mətnini bir daha asta-asta oxuyur. Şagirdlər cədvəlin bölmələrinə uyğun qeydlər götürürlər.

### "Dəmir yumruq" mətni üzrə iş

*Təbii sərvətlərlə zəngin olan Qarabağ Azərbaycanın ən qədim guşələrindən biridir. Mənfur qonşumuz Ermənistan əsrlər boyu bu torpaqlara göz dikib, əl uzadıb. 1992-ci ilin fevral ayından başlayaraq 1993-cü ilin oktyabrın 10-a kimi Dağlıq Qarabağ və ona bitişik 7 rayonumuzu işğal edib.*

*Azərbaycan dövləti heç zaman müharibə tərəfdarı olmayıb. İşğal olunmuş Azərbaycan torpaqlarını geri qaytarmaq üçün ulu öndər Heydər Əliyev, sonralar isə prezident İlham Əliyev daim sülh danışıqları aparıb. Lakin işğalçı Ermənistan sülh yolunu deyil, müharibəni seçib.*

*2020-ci il sentyabrın 27-si Ermənistan tərəfi Azərbaycanın sərhəd rayonlarını yenidən atəşə tutdu. Bu, səbir kasasının daşması üçün sonuncu damla idi. Azərbaycan prezidenti İlham Əliyev işğal olunmuş torpaqları geri qaytarmaq üçün hərbi əməliyyata başlamaq əmrini verdi. Bu əməliyyat "Dəmir yumruq" adlandı.*

*Hər bir Azərbaycan vətəndaşı Vətən uğrunda yumruq kimi birləşdi. Sentyabr ayının 27-dən başlayan II Qarabağ müharibəsi noyabr ayının 10-da Azərbaycan ordusunun qələbəsi ilə bitdi. 44 gün davam edən müharibə ərzində oktyabrın 4-ü Cəbrayıl, oktyabrın 17-si Füzuli, oktyabrın 20-si Zəngilan, oktyabrın 25-i Qubadlı, noyabrın 8-i Şuşa, noyabrın 20-si Ağdam, noyabrın 25-i Kəlbəcər və dekabrın 1-i Laçın rayonu işğaldan azad edildi.*

*Azərbaycanın döyünən qəlbi Şuşa şəhəri uğrunda gedən döyüşləri xarici ölkələrin jurnalistləri belə təsvir edirlər: "Azərbaycan əsgərləri Şuşaya çatmaq üçün sıldırım qayaları aşırdılar. Onlar Şuşanı tanksız, topsuz, dronsuz, sadəcə, əlbəyaxa döyüşlə aldılar". Şuşa uğrunda gedən döyüşlərdə, əsasən, Azərbaycanın Xüsusi Təyinatlı Qüvvələri iştirak edirdilər. Bu qüvvələrə Hikmət Mirzəyev, Zaur Məmmədov, Tehran Mənsimov kimi komandanlar rəhbərlik edirdilər. Şuşanın işğaldan azad edildiyi gün, yəni noyabrın 8-i Azərbaycanda Zəfər Günü elan edildi.*

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir. | Tap. A (dərslik) |
| Mövzu ilə bağlı araşdırmalar apararaq təqdimatlar edir. | Tap. C (dərslik) |
| Məlumatları qrafik informasiya (məlumat vərəqi, cədvəl, diaqram) şəklində təqdim edir. | Tap. A (iş dəftəri) |

## 3-cü dərs. Bağlayıcıların növləri

• Dərslik: səh. 49 • İş dəftəri: səh. 32

**Təlim məqsədləri**

• Cümlənin ifadə etdiyi fikrə əsasən müvafiq köməkçi sözlərdən istifadə edir (st. 3-4.2.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Buraxılmış bağlayıcıları əlavə etməklə cümlənin bərpa edilməsi |
| 2 | **Dil qaydaları** | Bağlayıcıların məna növləri haqqında məlumatların şərhi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini tapşırıqda verilmiş cümlələrə yönəldir. Şagirdlər cümlələri oxuyur və buraxılmış bağlayıcıları bərpa edirlər. Beləliklə, şagirdlər başa düşürlər ki, bağlayıcının seçimi cümlənin tərkib hissələri arasındakı məna əlaqəsindən asılıdır.

### Dil qaydaları

**"Bunları bilməliyik" rubrikası.** Şagirdlər artıq *bağlayıcı* termini ilə tanışdırlar. *Və, amma, ancaq, lakin, çünki, ona görə də* bağlayıcılarından nitqlərində istifadə edirlər. Bu dərsdə isə "Bunları bilməliyik" rubrikasında bağlayıcıların mürəkkəb cümlənin tərkib hissələri arasında məna əlaqəsinə uyğun istifadə edilməsi haqqında məlumatlar şərh edilir.

Məsələn: *"Payız gəldi və yarpaqlar saraldı"* mürəkkəb cümləsinin tərkibindəki fikirlər bir-birinin davamı kimi verilib. *"Payız gəldi, amma yarpaqlar hələ saralmamışdı"* cümləsində fikirlər qarşılaşdırılır, *"Yarpaqlar saralmışdı, çünki payız gəlmişdi"* cümləsində isə fikirlər arasında səbəb-nəticə əlaqəsi var.

3-4.2.1 **Tapşırıq B (dərslik), tapşırıq A (iş dəftəri).** Tapşırıqlar şagirdlərin "Bunları bilməliyik" rubrikasından bağlayıcıların növləri haqqında öyrəndikləri biliklərin tətbiqinə imkan yaradır.

<u>*Doğru cavablar:*</u> B tapşırığı (dərslik):
*Birləşdirir* – 1-ci və 5-ci cümlələr
*Qarşılaşdırır* – 2-ci cümlə
*Səbəbini ifadə edir* – 3-cü və 4-cü cümlələr

<u>*Doğru cavablar:*</u> A tapşırığı (iş dəftəri):
*Birləşdirir* – 2-ci və 4-cü cümlələr
*Qarşılaşdırır* – 3-cü və 5-ci cümlələr
*Səbəbini ifadə edir* – 1-ci və 6-cı cümlələr.

3-4.2.1 **Tapşırıq C (dərslik), tapşırıq B (iş dəftəri).** Şagirdlər həm mürəkkəb cümlələrin tərkib hissələrini müəyyənləşdirir, həm də tərkib hissələri arasında uyğun bağlayıcılardan istifadə edirlər.

<u>*Doğru cavablar:*</u> C tapşırığı (dərslik):
1 – c: *Yaz gəldi və buzlar əridi.*
2 – a: *Müəllim bir də izah etdi, çünki Sara yaxşı anlamamışdı.*
3 – b: *Qar yağmışdı, amma hava soyuq deyildi.*

<u>*Doğru cavablar:*</u> B tapşırığı (iş dəftəri):
1 – c: *İldırım çaxdı və hər tərəf işıqlandı.*
2 – a: *Hava soyuq deyildi, amma uşaq üşüyürdü.*
3 – b: *Telefonları söndürdük, çünki tamaşa başlamışdı.*

3-4.2.1 **Tapşırıq Ç (dərslik).** Tapşırıq mürəkkəb cümlənin tərkib hissələri arasında məna əlaqəsinə uyğun bağlayıcılardan istifadə etmək bacarığını möhkəmləndirir.

**Tapşırıq C (iş dəftəri).** Tapşırıqda mürəkkəb cümlənin tərkib hissəsi olan bir fikir verilib. Şagirdlər istifadə olunan bağlayıcıya əsasən daha bir fikir artıraraq mürəkkəb cümlə yaradırlar. Beləliklə, bağlayıcıların məna növlərini anladıqlarını nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bağlayıcıları növlərinə görə qruplaşdırır. | Tap. B (dərslik), tap. A (iş dəftəri) |
| Cümlənin tərkib hissələri arasında məna əlaqəsinə görə uyğun gələn bağlayıcını müəyyən edir. | Tap. C, Ç (dərslik), tap. B (iş dəftəri) |
| Bağlayıcının növünə əsasən mürəkkəb cümlə qurur. | Tap. C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllimə prezident İlham Əliyevin Qarabağ müharibəsi haqqında çıxışlarından kadrlar hazırlamaq tövsiyə edilir.

## fəsil 5 MÖHTƏŞƏM DÖNÜŞ

### 1-ci dərs. "Bura Vətəndir!" (I və II hissə)

• Dərslik: səh. 50–52 • İş dəftəri: səh. 33

**Təlim məqsədləri**
- Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
- Mətni intonasiya ilə oxuyur (st. 3-2.1.1).
- Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
- Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
- Sətiraltı fikir və informasiyanı izah edir (st. 3-2.3.1).
- Mətndə müəllif mövqeyini faktlardan, təxəyyülü real hadisədən fərqləndirir (st. 3-2.2.1).
- Tanış olduğu məlumatları yazıda əks etdirir (st. 3-3.2.1).

**Köməkçi vasitələr:** Prezident İlham Əliyevin Qarabağ müharibəsi haqqında çıxışlarından hazırlanmış kadrlar.

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Prezident İlham Əliyevin Qarabağ müharibəsi haqqında çıxışlarından hazırladığı kadrların nümayişi |
| 2 | **Danışma** | Şagirdlərin Qarabağ müharibəsi, müharibə iştirakçıları haqqında bildiklərini danışması |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Bura Vətəndir!" mətninin I və II hissəsinin oxusu; söz ehtiyatı üzrə iş |
| 4 | **Oxuyub-qavrama** | Mətnə aid faktoloji sualların cavablandırılması; mətndəki detalların əsas fikirlə əlaqələndirilməsi; bədii mətnlərdə verilmiş tarixi hadisələrin müəyyənləşdirilməsi |
| 5 | **Yazı** | Mətndən seçilmiş epizodların yazıda əks edilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

#### Mövzuya yönəltmə

Müəllim prezident İlham Əliyevin Qarabağ müharibəsi haqqında çıxışlarından hazırladığı kadrları nümayiş etdirir.

#### Danışma

3-1.3.3 **Tapşırıq A (dərslik).** Şagirdlər tapşırıqda verilmiş sualı cavablandırır, oxuduqları, dinlədikləri mətnlərdən, müşahidə etdikləri hadisələrdən nümunələr gətirməklə Qarabağ müharibəsi iştirakçıları haqqında bildiklərini danışırlar.

#### Oxu. Söz ehtiyatı

3-2.1.1 **"Bura Vətəndir" mətninin I və II hissəsi üzrə iş.** Əvvəlcə müəllim "Bura Vətəndir!" mətnini uca səslə oxuyur. Mətni ifadəli oxumaq, təsir gücünü artırmaq üçün xüsusi səs tonu seçir, lazım olan yerlərdə pauzalardan istifadə edir. Məsələn: *1993-cü il (pauza) avqust ayı (pauza) Füzuli rayonu (pauza).*

*"Belə danışırlar ki, (pauza) keçmiş zamanlarda (pauza) düşmənlər Vətənimizə basqın edibmişlər. Ərənlərimiz silahlanıb düşmən qarşısına çıxırlar. İgidlərdən biri kəndə yaxınlaşan düşmən ordusunu görüb Allaha dua edir: (pauza) "Allahım, (pauza) məni bir dağa çevir, ordunun qarşısını kəsim. Yağı düşmənin ayağı torpağımıza dəyməsin. Elə bu vaxt igid hündür bir dağa çevrilir. (pauza) Deyirlər ki, hətta günəş də sanki bu dağa sayğı göstərir. İlk şüalarını onun üzərinə salır, əvvəlcə onu isindirir. Camaat (pauza) bu dağı (pauza) Ərgünəş adlandırır. Bu dağ əzəmət, yenilməzlik rəmzi sayılır".*

Daha sonra şagirdlər növbə ilə "Bura Vətəndir" mətninin I və II hissəsini oxuyurlar.

3-2.2.3 **"Söz boğçası" rubrikası.** Şagirdlər əvvəlcə "Söz boğçası"ndakı sözlərin (*əfsanə, möhtəşəm, ərən, yağı, örüş, sayğı, əzəmət, lərzəyə gətirmək*) mənasını kontekstə əsasən təxmin edirlər. Daha sonra isə təxminlərini lüğət vasitəsilə dəqiqləşdirirlər. Sözlərin dəqiq mənaları:

*əfsanə* – nəsillərdən nəsillərə ağızda dolaşan və çox zaman sehrli hadisələrdən bəhs edən hekayə;

***Qeyd:*** 7-ci bölmədə şagirdlər əfsanə janrı haqqında daha geniş məlumat alacaqlar.

*möhtəşəm* – insanı valeh edən, əzəmətli;
*ərən* – igid;
*yağı* – düşmən;
*örüş* – mal-qara otarılan yer, geniş otlaq;
*sayğı* – hörmət;
*əzəmət* – böyüklük, möhtəşəmlik;
*lərzəyə gətirmək* – titrətmək.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər söz boğçasın-

dan tapşırıqda verilmiş sözlərə yaxınmənalı olanları seçirlər. Bununla da bu sözlərin mənasını anladıqlarını nümayiş etdirirlər.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər tapşırıqdakı faktoloji suallara cavab verir, bununla da mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Tapşırıq C (dərslik).** Şagirdlər mətndə Ərgünəş dağı haqqında verilmiş əfsanəni nəql edirlər.

3-2.3.1 **Tapşırıq Ç (dərslik).** Bəzən mətnlərin əvvəlində bəzi varlıqlar haqqında epizodik məlumatlar verilir. Lakin daha sonra aydın olur ki, bu varlıqlar əsərin ideyasının, baş qəhrəmanın xarakterinin açılmasında və yaxud onun problemlərinin həll olunmasında böyük rol oynayır. Bu tapşırıqda verilmiş sualı cavablandırmaqla şagirdlərin diqqəti belə məqamlardan birinə yönəldilir: *Mətndə nə üçün məhz dağ haqqında əfsanə danışılır?*

Mətnin növbəti epizodlarında isə müəllifin nə üçün məhz dağ haqqında əfsanə verməsinin səbəbi aydın olur. Mətnin baş qəhrəmanı çətin anlarda öz kəndlərini həmin dağa tapşırır. Bu tip tapşırıqlar şagirdlərin həm öz mövqelərini bildirmə, əsaslandırma kimi vacib bacarıqlarını inkişaf etdirir, həm də diqqətli oxucu kimi formalaşmalarına xidmət edir.

3-2.2.1 **Tapşırıq D (dərslik).** Bu tapşırıqda verilmiş suala cavab verməklə şagirdlərin diqqəti mətndəki tarixi faktlara yönəldilir. Şagirdlər artıq keçən dərsdə tarixi faktlarla zəngin mətnlərin oxusu haqqında məlumat almışlar. Bu dərsdə isə bəzən bədii mətnlərdə də tarixi faktların verilməsi haqqında məlumat verilir.

**Tapşırıq E (dərslik).** Şagirdlər "Bura Vətəndir!" mətninə aid həqiqi hadisələri əks etdirən cümlələri seçirlər.

*<u>Doğru cavablar:</u>*

- Füzuli rayonu 1993-cü ildə işğal olunub.
- 1999-cu ildə Bərdə şəhərində qaçqın şəhərciyi olub.
- El-obasından köçkün düşənlər qaçqın şəhərciyində məskunlaşıblar.

### Yazı

3-3.2.1 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər "Bura Vətəndir!" mətnindən seçilmiş epizodları öz sözləri ilə yazırlar. Bununla həm öyrəndikləri məlumatları, həm də yazı bacarıqlarını nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. A (dərslik) |
| Mətnin ekspressiv təsirini artırmaq üçün pauzalardan istifadə edir. | "Bura Vətəndir" mətni (dərslik) |
| Yeni sözləri yaxınmənalı sözlərin köməyi ilə izah edir. | Tap. A (iş dəftəri) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. B (dərslik) |
| Mətndəki detalları əsas fikirlə əlaqələndirir. | Tap. Ç (dərslik) |
| Bədii mətndəki məlumat və hadisələrin fakt və ya təxəyyül olduğunu müəyyən edir. | Tap. D, E (dərslik) |
| Mətndən seçilmiş epizodu yazıda əks etdirir. | Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə şagirdlər Azərbaycan əsgəri ilə müsahibə təqdim edəcəklər (Dərslik: səh 53, tapşırıq D). Şagirdlər artıq müsahibə hazırlamaq haqqında məlumatlanıblar. Onlar müsahibəyə əvvəlcədən hazırlaşmağın vacibliyini bilirlər. Bu səbəbdən müəllim şagirdlərə müsahiblərinə verəcəkləri sualları evdə hazırlamağı tapşırır.

## **2-ci dərs.** "Bura Vətəndir!" (III hissə)

• Dərslik: səh. 52–53 • İş dəftəri: səh. 34

**Təlim məqsədləri**

• Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır (st. 3-1.3.2).
• Lüğətdən istifadə etməklə sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• Mətnin tərkib hissələrini, struktur elementlərini (yarımbaşlıq) onun əsas məzmunu ilə əlaqələndirir (st. 3-2.4.3).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Məqsədə uyğun olaraq şüar yazır (st. 3-3.2.5).
• Araşdırdığı məlumatlar və tərtib etdiyi suallar əsasında müsahibi ilə dialoq qurur (st. 3-1.2.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Keçən dərsdə oxunmuş "Bura Vətəndir!" mətninin I və II hissələrinin xatırlanması |
| 2 | **Danışma** | Şəkli şərh etməklə Azərbaycan torpaqlarının işğaldan azad olunması haqqında söhbət |
| 3 | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi |
| 4 | **Oxuyub-qavrama** | Mətnin hissələrinin uyğun yarımbaşlıqlarla adlandırılması; mətnin hissələrinə aid məlumatların müəyyənləşdirilməsi; mətndə açıq şəkildə ifadə olunmuş məlumatlara əsasən cümlələrin tamamlanması |
| 5 | **Yazı** | Şüarların yazılması |
| 6 | **Danışma** | Azərbaycan əsgəri ilə müsahibə |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə keçən dərsdə oxuduqları "Bura Vətəndir" mətninin birinci iki hissəsi haqqında suallar verir. Bununla da keçmiş dərs yenidən xatırlanır.

### Danışma

3-1.3.2 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini tapşırığa çəkilmiş şəklə yönəldir. Şəkildə II Qarabağ müharibəsi iştirakçısı topçu Vüsal Şahkərəmov təsvir edilib. Şagirdlər şəkli şərh etməklə mövzu üzrə danışırlar. Azərbaycan torpaqlarının işğaldan azad olunması haqqında bildikləri məlumatları yoldaşları ilə bölüşürlər.

### Oxu. Söz ehtiyatı

**"Bura Vətəndir!" mətninin III hissəsi üzrə iş.** Şagirdlər növbə ilə "Bura Vətəndir!" mətninin III hissəsini ucadan, aydın səslə oxuyurlar.

**"Söz boğçası" rubrikası.** Şagirdlər əvvəlcə "Söz boğçası"ndakı sözlərin *(məruzə etmək, rəşadətli, əmin olmaq, dron)* mənasını kontekstə əsasən təxmin edirlər. Daha sonra isə təxminlərini lüğət vasitəsilə dəqiqləşdirirlər.

Sözlərin izahı:

*məruzə etmək* – mövzu və ya tapşırılmış işin icrası barədə nitq söyləmək; hesabat vermək;

*rəşadətli* – igid, qoçaq;

*əmin olmaq* – arxayın olmaq;

*dron* – foto, videoçəkilişlər etmək, müşahidə aparmaq və ya havadan zərbə endirmək üçün məsafədən idarə edilən pilotsuz uçuş aparatı.

3-2.2.3 **Tapşırıq B (dərslik).** Şagirdlər mətnin məzmununa və tapşırıqda verilmiş açar sözlərə əsasən *pilot, dron, proqramçı* sözlərinin mənasını təxmin edir, daha sonra lüğət vasitəsilə dəqiqləşdirirlər.

### Oxuyub-qavrama

3-2.4.3 **Tapşırıq C (dərslik).** Şagirdlər mətnin müxtəlif günlərdə oxuduqları hissələrinin məzmununu nəql etməklə mətni bitkin formada qavrayırlar. Bu tapşırıq vasitəsilə şagirdlərin mətnin hissələrini yarımbaşlıqlarla ifadə etmək bacarığı da möhkəmləndirilir.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş suallara mətnin hansı hissəsində cavab tapa biləcəklərini müəyyənləşdirirlər. Tapşırıq şagirdlərin mətnin hissələrinə aid məlumatları necə qavradıqlarını yoxlamağa imkan verir.

3-2.2.1 **Tapşırıq Ç (dərslik).** Bu tapşırıqda verilmiş suala cavab verməklə şagirdlərin diqqəti mətndəki tarixi faktlara yönəldilir. Şagirdlər II Qarabağ müharibəsinə aid həqiqi hadisələri əks etdirən cümlələri seçirlər.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər "Bura Vətəndir" mətnindəki tarixi faktlara istinad edərək tapşırıqda verilmiş cümlələri tamamlayırlar.

### Yazı

3-3.2.5 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər artıq 2-

ci sinifdə müəyyən mövzu üzrə çağırış xarakterli cümlələrin, yəni şüarların yazılması haqqında məlumat alıblar. Bu tapşırıqda Azərbaycan ordusunun II Qarabağ müharibəsində qazandığı qələbəsi mövzusunda şüarlar yazacaqlar.

### Danışma

3-1.2.3 **Tapşırıq D (dərslik).** Şagirdlər II Qarabağ müharibəsində Azərbaycan ordusunun qələbəsi, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi haqqında onları maraqlandıran məsələlər haqqında suallar tərtib edirlər. Azərbaycan əsgərindən müsahibə alırlar.

**Müəllimin nəzərinə!** Müəllim sinfə II Qarabağ müharibəsi qazilərini dəvət edə bilər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkli şərh etməklə mövzu üzrə danışır. | Tap. A (dərslik) |
| Konteksdən çıxış edərək sözün mənasını təxmin edir və lüğət vasitəsilə dəqiqləşdirir. | Tap. B (dərslik) |
| Mətnin hissə və epizodlarını uyğun yarımbaşlıqlarla adlandırır. | Tap. C (dərslik) |
| Mətnin hissələrinə aid məlumatları müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlara əsasən sualları cavablandırır. | Tap. Ç (dərslik) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlara əsasən cümləni tamamlayır. | Tap. B (iş dəftəri) |
| Tərtib etdiyi suallar əsasında müsahibi ilə dialoq qurur. | Tap. D (dərslik) |

## 3-cü dərs. Bağlayıcıların bir-birini əvəz etməsi

• Dərslik: səh. 54 • İş dəftəri: səh. 35

**Təlim məqsədləri**

• Cümlənin ifadə etdiyi fikrə əsasən müvafiq köməkçi sözlərdən istifadə edir (st. 3-4.2.1).
• Sadə cümlələr arasında uyğunluğu müəyyən edərək mürəkkəb cümlə qurur (st. 3-4.2.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Cümlədəki bağlayıcının digər bağlayıcı ilə əvəz edilməsi |
| 2 | **Dil qaydaları** | Bir-birini əvəz edən bağlayıcılar haqqında məlumatların şərhi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini tapşırıqda verilmiş cümləyə yönəldir. Şagirdlər cümlədə işlənmiş bağlayıcının növünü müəyyənləşdirirlər. Həmin bağlayıcını uyğun gələn digər bağlayıcı ilə əvəz edirlər. Bununla da şagirdlərin diqqəti dərsin əsas məqsədinə, yəni bəzi bağlayıcıların bir-birini əvəz edə bilməsinə yönəlir.

### Dil qaydaları

**"Bunları bilməliyik" rubrikası.** Müəllim "Bunları bilməliyik" rubrikasındakı məlumatları şərh edir. Bir-birini əvəz edə bilən bağlayıcıları cümlədə işlədərək nümunələr göstərir, fikrini əsaslandırır.

3-4.2.1 **Tapşırıq B (dərslik).** Dərslikdə verilmiş B tapşırığı şagirdlərin "Bunları bilməliyik" rubrikasından öyrəndikləri biliklərin tətbiqinə imkan yaradır.

**"Diqqət et" rubrikası.** Müəllim bu rubrikada verilmiş məlumatları şərh etmək üçün lövhəyə aşağıdakı cümlələri yazır:

*1. Yusif və Murad idmançıdırlar.*

*2. Yusif qapını açdı və Murad içəri daxil oldu.*

Şagirdlərə aşağıdakı suallarla müraciət edir:

*– Hansı cümlədə "və" bağlayıcısı cümlələri deyil, sözləri bir-birinə bağlayıb?*

*– Hansı cümlədə "və" bağlayıcısını "ilə" bağlayıcısı ilə əvəz etmək olar?*

Şagirdlər *və* bağlayıcısını *ilə* bağlayıcısı ilə əvəz edib cümlələri yenidən oxuyurlar. Müəllim belə bir izahat verir:

– Əgər *və* bağlayıcısını *ilə* bağlayıcısı ilə əvəz edə bilirsinizsə, deməli, o, sözləri bir-birinə bağlayıb.

3-4.2.2 **Tapşırıq C (dərslik), tapşırıq C (iş dəftəri).** Tapşırıqlar "Diqqət et" rubrikasında aldıqları məlumatları tətbiq etmək üçün imkan yaradır. Şagirdlər "və" bağlayıcısının sözləri, yoxsa mürəkkəb cümlənin tərkib hissələrini bağladığını müəyyənləşdirirlər.

**Tapşırıq A, B (iş dəftəri).** İş dəftərindəki tapşırıqlar şagirdlərin bağlayıcıların növləri haqqında öyrəndikləri bilikləri yoxlamağa imkan verir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlənin tərkib hissələri arasında məna əlaqəsinə görə uyğun gələn bağlayıcını müəyyən edir. | Tap. B, Ç (dərslik), tap. A, B (iş dəftəri) |
| Mürəkkəb cümlənin tərkib hissələrini müəyyən edir. | Tap. C (dərslik), tap. C (iş dəftəri) |

## Ümumiləşdirici təkrar

• Dərslik: səh. 55 • İş dəftəri: səh. 36

**Təlim məqsədləri**

• Cümlənin ifadə etdiyi fikrə əsasən müvafiq köməkçi sözlərdən istifadə edir (st. 3-4.2.1).
• Sadə cümlələr arasında uyğunluğu müəyyən edərək mürəkkəb cümlə qurur (st. 3-4.2.2).
• Mürəkkəb cümlənin tərkib hissələri arasında vergül işarəsindən istifadə edir (st. 3-4.3.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bölmə üzrə keçilmiş mövzuların xatırlanması |
| 2 | **Dil qaydaları** | Bölmə üzrə keçilmiş dil qaydalarının xatırlanması |
| 3 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

"Qəhrəmanlar unudulmur" bölməsi üzrə sonuncu dərs olduğu üçün müəllim bu bölmədə keçirilən mövzuları, mətnləri sual-cavab üsulu ilə xatırladır. Şagirdlərin bölmə haqqında ümumi fikirləri, təəssüratları dinlənilir. Bölmənin tədrisində şagirdlərə mürəkkəb cümlələr və köməkçi sözlərlə bağlı biliklər mənimsədilmişdir. Bu dərsdə həmin biliklər üzrə ümumiləşdirmə aparılır.

3-4.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər cümlələrdə buraxılmış köməkçi sözləri məzmuna əsasən bərpa edirlər. Bununla da köməkçi sözlərin cümlədəki rolunu anladıqlarını nümayiş etdirirlər.

3-4.2.2 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq mürəkkəb cümlə haqqında məlumatların necə qavranıldığını yoxlayır. Şagirdlər mürəkkəb cümlələrin tərkibindəki fikirləri müəyyənləşdirməklə onları sadə cümlələr şəklində yazırlar.

3-4.2.2 **Tapşırıq B (dərslik), tapşırıq C (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş fikirlərə daha bir fikir əlavə edərək mürəkkəb cümlə yaradırlar.

3-4.2.1 **Tapşırıq C, Ç, D (dərslik), tapşırıq B, Ç (iş dəftəri).** Mürəkkəb cümlənin tərkib hissələri arasında işlənən bağlayıcılar həmin hissələr arasında məna əlaqəsini vurğulayır: qarşılaşdırma, birləşdirmə, səbəb-nəticə və s. Bu tapşırıqlarda şagirdlər empirik olaraq həmin məna əlaqələrini müəyyənləşdirir, onlara uyğun bağlayıcıdan istifadə edirlər.

3-4.3.2 **Tapşırıq E (dərslik).** Tapşırıq mürəkkəb cümlədə vergüldən istifadə bacarığını inkişaf etdirir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlənin ifadə etdiyi fikrə əsasən müvafiq köməkçi sözlərdən istifadə edir. | Tap. A, C, Ç, D (dərslik), tap.B, Ç (iş dəftəri) |
| Mürəkkəb cümlənin tərkib hissələrini müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Sadə cümlələr arasında uyğunluğu müəyyən edərək mürəkkəb cümlə qurur. | Tap. B (dərslik), tap. C (iş dəftəri) |
| *Ki, amma, ancaq, lakin, çünki* bağlayıcıları işlənən cümlələrdə vergülün yerini müəyyən edir. | Tap. E (dərslik) |

bölmə **7** # ODLAR YURDU

<table>
<tr><th colspan="2">Mövzu</th><th>Odlar yurdu</th></tr>
<tr><td rowspan="4">Nitq bacarıqları</td><td>Şifahi nitq</td><td>• Mövzu üzrə danışma<br>• Tanış mövzu haqqında danışma (müxtəlif ölkələrə aid simvollar, tarixi abidələr, tarixi şəxsiyyətlər və s. haqqında)<br>• Qrafik informasiyanın rabitəli mətn şəklində nəql edilməsi<br>• Dinləmə mətninin tərtib edilmiş suallar əsasında nəql edilməsi<br>• Təxəyyülə uyğun qurulmuş əfsanənin nəql edilməsi<br>• Məlumat vərəqlərinin köməyi ilə mətnin genişləndirilərək nəql edilməsi</td></tr>
<tr><td>Söz ehtiyatı</td><td>Yeni sözlər: arif, boynunu vurmaq, sal, ilxı, tayfa, mənfur, kip, səhəng, ah-nalə, didərgin salmaq, zəbt etmək, cah-calal, duyuq düşmək, karvanbaşı, zınqırov, ləhləmək, ecazkar, mənzilbaşı, intiqam, pərən-pərən düşmək, qatran, əzəmətli, sıldırım, oyuq.</td></tr>
<tr><td>Oxu</td><td>• Bədii və informativ mətnlərin fərqləndirilməsi<br>• Qrafik informasiyanın oxunması<br>• Əfsanənin janr xüsusiyyətlərinin müəyyən edilməsi<br>• Rəvayətin janr xüsusiyyətlərinin müəyyən edilməsi</td></tr>
<tr><td>Yazı</td><td>• Əfsanənin yazılması<br>• Yaddaş xəritəsinin tərtib edilməsi<br>• Rəvayətin yazılması<br>• Qrafik təsvirin (cədvəlin) rabitəli mətn şəklində yazılması</td></tr>
<tr><td rowspan="2">Akademik biliklər</td><td>Dil qaydaları</td><td>• Şəxs əvəzlikləri<br>• Feil haqqında ümumi məlumat<br>• Feilin şəxsə və zamana görə dəyişməsi</td></tr>
<tr><td>Filoloji anlayışlar</td><td>Əfsanə, bənzətmə, sözün həqiqi və məcazi mənası, rəvayət</td></tr>
<tr><td colspan="2">Kompetensiyalar</td><td>Əfsanə və rəvayətin fərqləndirilməsi; tarixi mətnlə rəvayətin fərqləndirilməsi; bədii təsvir vasitələrinin (bənzətmə) müəyyən edilməsi; həqiqi və məcazi mənalı sözlərin fərqləndirilməsi</td></tr>
</table>

Bu bölmədə Odlar diyarının sərhədlərindən, tarixi abidələrindən, qalalarından, tarixi şəxsiyyətlərindən bəhs edən bədii və informativ mətnlər təqdim olunur.

**Öncədən vacib olan bilik və bacarıqlar:**
- Bədii və informativ mətnləri fərqləndirir, sadə formada təhlil edir;
- Verilmiş mövzu ətrafında fikirlərini sərbəst şəkildə ifadə edir;
- Hüsnxət normalarına uyğun sərbəst yazır.

**Mənimsəməkdə çətinlik doğuran məqamlar:**
- Tanış olmayan janra aid mətnin yazılması;
- Cümlə daxilindəki feillərin zamanını dəyişmək.

**Diferensial təlim:**

Əfsanə və rəvayət yazılması prosesində şagirdlərin fəaliyyətinə fərdi, diferensial yanaşma. (Bu məqamlarla bağlı tövsiyələr dərslərin şərhində verilmişdir.)

**7-ci bölmədə nəzərdə tutulan köməkçi vəsaitlər:** *simvolların əks olunduğu illüstrasiyalar, Azərbaycanın xəritəsi, qalalara aid şəkillər, mövzuya aid məlumat vərəqləri* və s.

## **Giriş dərsi.** Bölmənin mövzusu ilə tanışlıq

• Dərslik: səh. 56–57 • İş dəftəri: səh. 37

**Təlim məqsədləri**

• Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır (st. 3-1.3.2).
• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• İnformativ mətndə fikir və arqumentlər arasındakı məntiqi əlaqəni müəyyən edir (st. 3-2.3.3).
• Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 3-2.2.3).

**Köməkçi vasitələr:** mövzuya aid illüstrasiyalar.

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müxtəlif ölkələrin simvolları haqqında söhbət |
| 2 | **Danışma** | Məlumat vərəqi və şəkillər üzrə danışma |
| 3 | **Oxu. Oxuyub-qavrama** | Kiçikhəcmli mətnlərin oxusu; mətndən verilən məlumatın aid olduğu varlıq və ya anlayışın müəyyən edilməsi |
| 4 | **Söz ehtiyatı** | Verilmiş izahlar əsasında anlayışın müəyyən edilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə onlara tanış olan *rəmz (simvol)* sözünü xatırladır. Aşağıdakı suallarla şagirdləri müzakirəyə cəlb edir: *Rəmz nədir?*

Müəllimin yönəldici sualları və kollektiv müzakirə yolu ilə suala cavab tapılır: *Rəmz hər hansı bir fikri və ya anlayışı ifadə edən varlıq, rəsm, işarədir.*

Müəllim "rəmz" anlayışını əyani şəkildə izah etmək üçün Azərbaycan gerbini nümayiş etdirir. Gerbimizdə əks olunan rəmzlərin mənalarını soruşur:

*Qalxan* – güc, qüdrət rəmzi;
*Səkkizguşəli ulduz* – Günəş, əbədilik rəmzi;
*Alov* – odlar diyarı;
*Palıd budağı* – möhkəmlik, dayanıqlıq;
*Sünbül* – bərəkət.

### Danışma

Müzakirə açmaqda əsas məqsəd *rəmz* sözünün mənasını xatırlatmaqdır. Şagirdlərin fikirləri dinlənilir. Onlar rəmzlərin ölkələri, şəhərləri və s. tanıtması haqqında danışırlar. Şagirdlər tanıdıqları müxtəlif tikililərin adını çəkə bilərlər. Lakin hər adıçəkilən tikilinin, həqiqətən, rəmz olub-olmaması müzakirə zamanı dəqiqləşdirilir.

Sonda şagirdlər belə bir qənaətə gəlirlər ki, hər bir ölkənin tarixi keçmişi ilə bağlı rəmzi var və bu onu dünyaya tanıdır.

3-1.3.2 **Tapşırıq A (dərslik).** Tapşırıqda müxtəlif ölkələrin ən məşhur simvolları haqqında məlumat vərəqləri verilib. Şagirdlər məlumat vərəqində verilən şəkillərlə tanış olur və məlumatlara əsaslanmaqla ölkələrin rəmzləri haqqında danışırlar.

Nümunə:

**1-ci məlumat vərəqi:**

*Bu abidə Kolizey adlanır. Kolizey İtaliyanın paytaxtı Roma şəhərində yerləşir. Abidənin tikintisi 72–80-ci illərə aiddir. Bəzi divarları uçub-dağılıb. Salamat qalmış ən hündür divarı 48 metrdir. Bu gün Kolizey səmada açıq muzey kimi qorunub saxlanılır. Kolizeyin təsvirini görən hər kəsin gözünün önündə İtaliya canlanır. Çünki Kolizey İtaliyanın simvoludur.*

**2-ci məlumat vərəqi:**

*Aya Sofya məbədi Türkiyənin ən böyük şəhəri olan İstanbulda yerləşir. Məbəd 532–537-ci illər ərzində inşa edilib. Məbədin dörd qülləsi var. Ən hündür qülləsi 83 metrdir. Aya Sofya əvvəllər muzey olub. İstanbula gələn turistlər həvəslə ora gedir, bu möhtəşəm tikili ilə yaxından tanış olurdular. İndi isə Aya Sofya məscid kimi fəaliyyət göstərir. Hazırda müsəlmanların ibadət yeridir.*

**3-cü məlumat vərəqi:**

*Biq Ben qülləsi İngiltərənin paytaxtı London şəhərində yerləşir. Qüllə 1859-cu ildə inşa olunub. Biq Ben qülləsi çox hündür və əzəmətli görünür. Onun hündürlüyü 96 metrdir. Qüllənin üzərində nəhəng saat var. Bu saat dünyanın ən nəhəng saatlarındandır.*

**4-cü məlumat vərəqi:**

*Kreml Rusiyanın ən məşhur tarixi abidəsidir. O, Rusiyanın paytaxtı Moskva şəhərində yerləşir. Bu möhtəşəm abidənin tikintisi 13 il davam edib. Kremlin tikintisi 1482-ci ildə başlanıb 1495-ci ildə başa çatıb. Kremlin kərpicdən tikilən 20 qülləsi var. Ən böyük qüllənin hündürlüyü 80 metrə çatır.*

*Bir zamanlar Kreml müdafiə məqsədilə tikilsə də, indi Rusiyanın simvolu kimi məşhur olan tarixi abidədir.*

3-1.3.3 **Tapşırıq B (dərslik).** Bu tapşırıqda Azərbaycanın iki məşhur binası təqdim olunur: keçmişin yadigarı olan Qız qalası və müasir Alov qüllələri.

Hər iki bina şagirdlərə tanışdır. Şagirdlər bildiklərini xatırlayaraq bu haqda danışırlar. Hansı binanı Azərbaycanın rəmzi hesab etmələri barədə öz fikirlərini söyləyir və niyə belə düşündüklərini izah edirlər.

### Oxu

3-1.3.3 **Tapşırıq C (dərslik).** Bu tapşırıqda Azərbaycanın nə üçün "Odlar yurdu" adlandırılması haqqında şagirdlərin fikri soruşulur. Şagirdlər bu haqda düşündüklərini danışırlar, sonra Yanardağ və Atəşgah haqqında olan kiçik mətnləri oxuyurlar. Öz danışdıqlarını mətnlərdəki məlumatlarla müqayisə edirlər.

**Müəllimin nəzərinə!** Hər iki mətndə şagirdlərin diqqəti yerin altından çıxan qazın yanmasına yönəldilir. Sonda müəllim Azərbaycanın Odlar yurdu adlandırılmasına aydınlıq gətirir. Məsələn: *Azərbaycan həmişə neft və qazla zəngin olub. Keçmişdə bu təbii sərvətlər o qədər çox olub ki, müxtəlif ərazilərdə yerin altından çıxaraq alovlanıb yanırmış. Bunu möcüzə zənn edən insanlar hətta bu yanan alova, oda sitayiş edirmişlər. Ona görə də Azərbaycanı Odlar yurdu adlandırıblar.*

### Oxuyub-qavrama

3-2.3.3 **Tapşırıq A (iş dəftəri).** Tapşırıqda məlumat vərəqlərindəki tarixi abidələrə aid informasiya verilir. Şagirdlər bu məlumatların hansı abidəyə aid olduğunu müəyyən etməlidirlər.

<u>Cavab:</u> 1. Kreml; 2. Aya Sofya; 3. Kolizey; 4. Biq Ben; 5. Atəşgah.

Bu tapşırıq şagirdlərin öyrəndiklərini tətbiq etməklə qazandıqları biliklərin möhkəmləndirilməsinə xidmət edir.

3-2.2.3 **Tapşırıq B (iş dəftəri).** Bu tapşırıqda təqdim olunan kriptoqramlar şagirdlər üçün yenidir. Kriptoqramları həll etməklə onlar Azərbaycanda olan daha iki tarixi abidənin adını öyrənəcəklər.

<u>Kriptoqram 1</u>

Şagirdlər verilmiş izahları oxuyur, həmin izahlara aid sözü tapırlar. Həmin sözlərin neçə hərfdən ibarət olmasını izahın qarşısında verilmiş rəqəmlərin sayına görə müəyyən etmək olur.

1. Şeir yazmaq qabiliyyəti olan şəxs – *şair*
2. Atın ayağının altına vurulan dəmir – *nal*
3. Dənizin, çayın və s. kənarı – *sahil*
4. Pulsuz, ödənişsiz – *havayı*

Sonra hərfləri kriptoqramda uyğun rəqəmlər olan xanalara yazırlar. Nəticədə axtarılan abidə adını oxumaq mümkün olur.

<u>Cavab:</u> Şirvanşahlar sarayı.

<u>Kriptoqram 2</u>

Bu kriptoqramın cavabını şagirdlər riyazi biliklərini yoxlamaqla tapırlar.

1. L Roma rəqəminin sözlə ifadəsi – *əllinci*
2. Bölmə əməlində artıq qalan – *qalıq*
3. Əl-Xarəzminin riyaziyyata gətirdiyi rəqəm adının ilk hərfi – *s (sıfır)*

<u>Cavab:</u> Əlincə qalası.

Bu kriptoqramlar əyləncəli olmaqla yanaşı, şagirdlərə əlavə məlumat öyrənməyə və biliklərini möhkəmləndirməyə kömək edir.

### Danışma

3-1.3.2 **Tapşırıq Ç (dərslik).** Bu tapşırıqda Azərbaycan Respublikasının sərhədləri, çayları, gölləri, dağları haqqında məlumat vərəqi verilmişdir. Şagirdlər məlumat vərəqində verilmiş informasiyadan istifadə etməklə rabitəli mətn qurmalıdırlar. Bu tapşırıq şagirdlərin şifahi nitq bacarığını inkişaf etdirməyə yönəlib.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Qrafik informasiya şəklində verilmiş məlumatı rabitəli mətn şəklində təqdim edir. | Tap. A, Ç (dərslik) |
| Bildiyi məlumatlar əsasında mövzu üzrə danışır. | Tap. B (dərslik) |
| Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. C (dərslik) |
| Məlumat vərəqində verilmiş informasiyanı mənimsədiyini nümayiş etdirir. | Tap. A (iş dəftəri) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tap. B (iş dəftəri) |

**fəsil 1** ODLAR OĞLU

## 1-ci dərs. "Aldədə əfsanəsi"

• Dərslik: səh. 58–60 • İş dəftəri: səh. 38

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Mətni intonasiya ilə oxuyur (st. 3-2.1.1).
• Lüğətdən istifadə etməklə sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Verbal və qrafik materialları (xəritə) şərh etməklə mövzu üzrə danışır (st. 3-1.3.2).
• Mətndəki obrazları xarakterizə edir (st. 3-2.3.2).

**Köməkçi vasitələr:** izahlı lüğət.

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə. Danışma** | Azərbaycanın coğrafi obyektlərinin xatırlanması; Azərbaycandakı dağlar haqqında söhbət |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Aldədə əfsanəsi" mətninin fasiləli oxusu; yeni sözlərin mənimsədilməsi |
| 3 | **Oxuyub-qavrama** | "Aldədə əfsanəsi" mətninin məzmunu üzrə iş |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim keçən dərsdə öyrənilən coğrafi obyektləri xatırladır.

### Danışma

3-1.3.3 **Tapşırıq A (dərslik).** Şagirdlər bildikləri dağlar haqqında danışırlar. Bu dağların Azərbaycanın hansı ərazisində olması, əgər bilirlərsə, hündürlüyü və s. haqqında söhbət açırlar.

**Müəllimin nəzərinə!** Ola bilər ki, şagirdlər Azərbaycanda olmayan hansısa dağın adını çəksinlər. Bu zaman həmin dağın Azərbaycana aid olmaması şagirdlərə xatırladılmalıdır. Çünki məqsəd Azərbaycan ərazisini tanıtmaqdır.

### Oxu

**"Aldədə əfsanəsi" mətni üzrə iş. Fasiləli oxu.**

Müəllim oxu prosesini səlis oxuya bilən bir neçə şagird vasitəsilə həyata keçirə bilər. Şagirdlərdən biri oxuya başlayır.

*"O, inandığı adamlardan üç nəfəri yanına çağırıb dedi..."* cümləsindən sonra oxu prosesi dayandırılır. Şagirdlərin təxminləri soruşulur: *Bağdad xəlifəsi adamlarına nə deyə bilər?* Şagirdlər müxtəlif versiyalar söyləyirlər, sonra oxu davam etdirilir, əslində, xəlifənin nə deməsi aydın olur. Oxu prosesi davam edir. *"Aldədə isə hündür bir daşın üstündə oturub"* cümləsindən sonra oxu dayandırılır. *Bundan sonra nə baş verə bilər?* sualı ilə sinfə müraciət olunur. Yenə də şagirdlərin təxminləri dinlənilir.

Bu qaydada aşağıdakı cümlələrdən sonra oxu prosesi dayandırılır və şagirdlərin təxminləri dinlənilir:

*...Onlar yurdda bir təndir qaladılar...*

*...Xəlifənin adamları təndirin ağzını açanda gözlərinə inanmadılar...*

*...Xəlifənin adamları çox sevindilər...*

*...Gərək əməl edəsiniz...*

Mətni fasiləli şəkildə oxutdurmaqda məqsəd şagirdlərdə hadisələrin gedişinə maraq yaratmaq, onların fikrini bütünlüklə oxuya cəlb etməkdir.

### Söz ehtiyatı

Yeni sözlərin mənimsədilməsi iş dəftərində iki tapşırıq (A, B) vasitəsilə həyata keçirilir.

3-2.2.3 **Tapşırıq A (iş dəftəri).** Tapşırıqda verilmiş cümlələrdə fərqləndirilmiş ifadələrin yerinə söz boğçasından uyğun gələn sözləri taparaq lüğətlə dəqiqləşdirmək və uyğun boşluqlarda yazmaq lazımdır:

At sürüsü – *ilxı*; hər şeyi anlayan – *arif*.

3-2.2.3 **Tapşırıq B (iş dəftəri).** Bu tapşırığın tələbinə görə yeni sözlərin təxmini mənasını müəyyən etmək və lüğətlə dəqiqləşdirmək lazımdır. Bunun üçün cümlələrdə ifadə olunan fikri tamamlamaq məqsədilə yeni sözləri lüğətlə dəqiqləşdirərək uyğun nöqtələrin yerinə yazmaq lazımdır: *1. boynunu vurmaq, 2. sal.*

Hər iki tapşırığın əsas məqsədi odur ki, şagirdlər öyrəndikləri yeni sözləri kontekstə uyğun olaraq işlətmək bacarığını inkişaf etdirsinlər.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Mətnin sonunda məzmunla bağlı faktoloji suallar təqdim olunur. Şagirdlər bu sualları ətraflı şəkildə cavablandırmaqla mətni qavradıqlarını nümayiş etdirirlər.

3-1.3.2 **Tapşırıq C (dərslik).** Bu tapşırıqda şagirdlərə Azərbaycanın xəritəsi təqdim olunub. Şagirdlər xəritədən mətndə adıçəkilən dağları

(Ağrıdağ, Şahdağ, Savalan) tapmalı və onlar haqqında bildiklərini danışmalıdırlar.

**Müəllimin nəzərinə!** Şagirdlərə əlavə məlumat vermək olar:
1. *Ağrıdağ* Türkiyədə ən hündür dağ hesab olunur. Azərbaycan, Türkiyə, İran və Ermənistanın sərhədində yerləşir. Hündürlüyü 5000 metrdən artıqdır.
2. *Şahdağ* Qusar rayonu ərazisində yerləşir. Hündürlüyü 4000 metrdən çoxdur. Hazırda dağın ətrafında eyniadlı turizm mərkəzi fəaliyyət göstərir.
3. *Savalan* Cənubi Azərbaycanın Ərdəbil şəhəri yaxınlığında İran ərazisində yerləşir. Hündürlüyü 5000 metrə yaxındır. Alpinizm idman növü üçün əlverişlidir.

3-2.3.2 **Tapşırıq C (iş dəftəri).** Bu tapşırıqda əfsanənin əsas obrazı olan Aldədənin əsas xüsusiyyətləri sadalanır. Şagirdlər mətnə istinad etməklə bu fikirləri əsaslandırırlar.

*1. Aldədə möcüzələr yaradır. O, ocaqda, bağlı təndirin içində yanmır. Əksinə, saqqalından buz sallanır. Atdığı çubuqların hər biri uca dağların zirvələrinə düşür.*

*2. Aldədə vətənpərvərdir. O, Bağdad xəlifəsinin adamlarından vətəninin toxunulmazlığını istəyir. Torpağını göz bəbəyi kimi qoruyur.*

*3. Aldədə müdrikdir. O, Bağdad xəlifəsinin adamlarının nə üçün gəldiklərini anlayır. Onlarla münaqişəyə girmir.*

Tapşırıq mətndəki obrazları tanımağa, onların xarakterini mətndən nümunələr gətirməklə əsaslandırmağa yönləndirir.

3-2.3.2 **Tapşırıq Ç (iş dəftəri).** Tapşırığın tələbinə görə şagirdlər obrazlar haqqında sərbəst fikir yürüdürlər.

*Bağdad xəlifəsi:* Bağdad xəlifəsi haqqında "ədalətlidir" deyə bilərlər. Çünki o, adamlarına tapşırır ki, xalqı aldadırsa, cəzalansın, doğrudan da, möcüzələr yaradırsa, bütün istəyi yerinə yetirilsin.

*Xəlifənin adamları:* Sözlərinin üstündə durandırlar. Söz verdikləri üçün Aldədənin nə özünə, nə də torpağına zərər verdilər. Odlar yurdu yadların hücumuna məruz qalmadı.

Bu tapşırıq şagirdlərin oxuyub-qavrama bacarığını möhkəmləndirir. Onlar hər bir obraz haqqında sərbəst fikir yürüdərək öz fikirlərini əsaslandırırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlar əsasında mövzu üzrə danışır. | Tap. A (dərslik) |
| Bədii mətni oxuyarkən müvafiq səs tonu seçir. | Tap. A (dərslik) |
| Kontekstdən çıxış edərək sözün mənasını təxmin edir və lüğət vasitəsilə dəqiqləşdirir. | Tap. A, B (iş dəftəri) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. B (dərslik) |
| Xəritəni şərh etməklə mövzu üzrə danışır. | Tap. C (dərslik) |
| Mətnə istinad etməklə obrazın xarakteri haqqında fikirləri əsaslandırır. | Tap. C, Ç (iş dəftəri) |

## 2-ci dərs. Əfsanə

• Dərslik: səh. 60 • İş dəftəri: səh. 39

### Təlim məqsədləri

• Mətndə müəllif mövqeyini faktlardan, təxəyyülü real hadisədən fərqləndirir (st. 3-2.2.1).
• Mətnlərin bədii, poetik xüsusiyyətlərini müəyyənləşdirir və ekspressiv təsirini izah edir (st. 3-2.4.3).
• Mətndəki obrazları xarakterizə edir (st. 3-2.3.2).
• Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətn yazır (st. 3-3.2.2).
• Oxuduğu və ya dinlədiyi mətnin mövzu və məzmununa yaradıcı yanaşmaqla danışır (st. 3-1.3.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Həqiqətə uyğun olan və olmayan məqamların fərqləndirilməsi istiqamətində söhbət |

| | | |
|---|---|---|
| 2 | **Oxuyub-qavrama** | Dinləmə mətninin nəqli; əfsanə janrının xüsusiyyətlərinin müəyyənləşdirilməsi |
| 3 | **Yazı** | Janr xüsusiyyətlərini nəzərə almaqla əfsanə yazılması |
| 4 | **Danışma** | Şəkillər üzrə əfsanənin qurulması |
| 5 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Şagirdlər VI bölmədə, "Bura Vətəndir" mətnində Ərgünəş əfsanəsi ilə tanış olublar. Həmin mətndə və tapşırıqlarda "əfsanə" sözündən istifadə edilmişdir. Müəllim şagirdlərə bu əfsanəni xatırladır. Aşağıdakı suallarla müraciət edir:

*– Sizcə, insan dağa çevrilə bilərmi?*

*– Sizcə, nə üçün "Bura Vətəndir" mətni hekayə, Ərgünəş haqqında mətn isə əfsanə adlanır?*

Suallarla bağlı təşkil olunan müzakirənin məqsədi mətnlərdə real və irreal hadisələr haqqında təsəvvür yaratmaqdır.

**Oxuyub-qavrama**

3-2.2.1 **Tapşırıq A (dərslik).** Tapşırıqda "Aldədə əfsanəsi"ndən Aldədə obrazına aid hərəkətlər verilib. Şagirdlər bu hərəkətlərin həqiqi, yoxsa xəyali olduğunu müəyyən edirlər.

Cavab: qoyun otarması, torpağını sevməsi, müdrik danışması – real (həqiqi); odda yanmaması, çubuqları dağın başına atması, saqqalından buz sallanması – irreal (xəyali) məqamlardır.

Bu tapşırığın əsas məqsədi şagirdlərdə əfsanə janrının ən vacib xüsusiyyəti – bu mətnlərdə bir çox hadisələrin həqiqətə uyğun olmaması (insanın quşa çevrilməsi, canlının daşa dönməsi, quşların, heyvanların dil açıb danışması və s.) haqqında təsəvvür yaratmaqdır.

**"Yadda saxla" rubrikasında** əfsanə haqqında məlumat verilir.

3-2.4.3 **Tapşırıq B, C (dərslik).** Dinləmə ilə inteqrasiya. Məqsəd şagirdlərə əfsanə janrının məzmun xusiyyətlərini mənimsətməkdir. Şagirdlər B tapşırığı əsasında dinləmə mətninin məzmununu şərh edir, C tapşırığı üzrə əfsanə janrına aid xüsusiyyətləri əsaslandırır. Müəllim "Ayla Günəşin əfsanəsi" dinləmə mətnini oxuyur.

**Müəllimin nəzərinə!** Şagirdlərə mətnin oxusu zamanı diqqətli olmaq, lazımi qeydlər götürmək tövsiyə olunur. Onlara mətni nəql edəcəkləri xatırladılır.

**Dinləmə mətni: "Ayla Günəşin əfsanəsi"**

*Lap qədim zamanlarda göylərdə bir oğlanla bir qız dostluq edirmişlər. Oğlanın adı Ay, qızın adı Günəş imiş.*

*Günəşin gur, qaynar saçları varmış. O, gecələr saçlarını yığar, gündüzlər isə açıb çiyinlərinə tökərmiş. Günəş saçlarını ətrafa səpələyəndə kimsə ona yaxın düşə bilməzmiş. Ona görə də dostu Aydan başqa heç kim Günəşi yaxından görməyibmiş.*

*Ayın işıqlı üzü güzgü kimi parıldayırmış. Onun yanağında qapqara xal varmış. Günəş bu xala görə Aya həsəd aparırmış, amma Ay bundan xəbərsizmiş.*

*Günlərin bir günü Günəş Aya deyir:*

*– Kaş ki sənin xalın məndə olaydı. Sən o xalı qoparıb mənə versən, bilərəm ki, əsl dostsan.*

*Ay bir qədər düşünür, sonra üzündəki xalı qoparıb Günəşə verir. Günəş cəld xalı öz üzünə yapışdırır.*

*Xalın yerindən axan qan Ayın üzündə iri ləkə kimi qalır. Amma onun bundan xəbəri yox idi. Dostunu sevindirdiyi üçün çox xoşbəxt idi.*

*Birdən Günəşin gözü Ayın üzünə sataşdı. O, ucadan güldü:*

*– Üzündəki ləkəyə bax. Sən çirkin oldun, amma mən gözəlləşdim.*

*Ay üzünü silməyə başladı. Amma ləkə getmirdi. Qan donub-qalmışdı. Ay çox pərt olmuşdu. Günəşin qəhqəhələri isə ara vermirdi. Dostunun hərəkətindən inciyən Ay kor-peşman halda oradan uzaqlaşdı. O gündən Ayla Günəşi bir yerdə görən olmadı. Günəş batanda Ay səmada göründü, Günəş çıxanda Ay qaçıb gizləndi.*

Oxu başa çatdıqdan sonra şagirdlər mətnə aid suallar tərtib edirlər. Suallar təxminən belə ola bilər:

*1. Dostlar harada yaşayırdılar?*

*2. Günəş Aydan nə istədi?*

*3. Niyə Ay Günəşin sözünü yerə salmadı?*

*4. Günəş Ayın sədaqətini necə dəyərləndirdi?*

*5. Niyə Ayla Günəş heç vaxt görüşmədilər?*

Sonra isə bu suallardan istifadə edərək mətni nəql edirlər. Bu tapşırıq şagirdlərdən mətni dinləyərkən diqqətli olmağı, mətndəki əsas hadisələri yadda saxlamağı tələb edir; dinlədiyi mətni nəql etmək bacarığını möhkəmləndirir.

**Tapşırıq C (dərslik)**. Dərslikdəki C tapşırığı üzrə şagirdlər dinlədikləri mətnin əfsanə olmasını əsaslandırırlar. Doğru cavab:

*1. Səma cisimlərinin insan kimi danışması*

*2. Ayın üzündə xal olması*

*3. Ayın üzündən qan axması*

*4. Günəşin Ayı pərt etməsi*

*5. Ayın insan kimi küsüb getməsi və s.*

3-2.3.2 **Tapşırıq A (iş dəftəri).** Tapşırığın tələbinə əsasən şagirdlər obrazların davranışının səbəbini mətnin məzmununa əsaslanmaqla izah edirlər.

*Cavab:*

1. Ay, çətin də olsa, Günəşin istəyini yerinə yetirdi, çünki Ay çox sədaqətli dost idi və öz dostunu çox istəyirdi. Ona görə də onun sözünü yerə salmadı.

2. Ay xalını qopardı, ona görə də xalın yeri qanadı. Qan Ayın üzündə donaraq ləkə əmələ gətirdi.

3. Ay çox pərt oldu, çünki düşünürdü ki, dostu da onu çox istəyir. O, Günəşdən belə münasibət gözləmirdi.

4. Ay küsüb getdi. Beləliklə, bir daha dostları bir yerdə görən olmadı. Günəş batanda Ay səmada göründü, Günəş çıxanda Ay qaçıb gizləndi.

Tapşırıq şagirdlərin oxuyub-qavrama bacarığını möhkəmləndirir.

### Yazı

3-3.2.2 **Tapşırıq B (iş dəftəri).** Bu tapşırıqda şagirdlərə süjetli illüstrasiya təqdim olunur. Verilən üç şəklin məzmunundan istifadə edərək çobanyastığı haqqında əfsanə yazmaq tələb olunur. Bu çiçəyin niyə belə adlandırılması şagirdlərdə maraq doğura bilər. Onlar təxəyyüllərinə uyğun (şəkillərdən istifadə etməklə) əfsanə yazırlar. Çiçəyi insan kimi danışdıra bilərlər.

*Nümunə:* Çobanyastığı əfsanəsi

*Qədim zamanlarda bir çoban vardı. O, həmişə qoyun sürüsünü dağın ətəyinə çıxarardı. Dağın ətəyi yamyaşıl otlarla dolu olardı. Sürü orada otlayar, çoban da daşın üstündə dincələrdi.*

*Günlərin birində sürü otlayan zaman çobanın möhkəm yuxusu gəlir. Başını dincəldiyi daşın üstünə qoyub bir az gözünün acısını almaq istəyir. Nə qədər çalışsa da, gözünə yuxu getmir. Bunu görən ağ ləçəkli çiçəklər çobanı səsləyir:*

*– Çoban, bizi dər, başının altına qoy. Rahat olarsan.*

*Çoban ayağa qalxır, ağ çiçəklərdən iri dəstə yığıb başının altına qoyaraq yatır. Çiçəklərin ortası məxmər kimi tüklü, yastıq kimi yumşaq olduğundan çoban şirin yuxuya gedir.*

*O vaxtdan bu çiçəyə çobanyastığı deyirlər.*

Tapşırıq şagirdlərdə janr xüsusiyyətlərini nəzərə almaqla əfsanə yazmaq bacarığını formalaşdırır.

### Danışma

3-1.3.1 **Tapşırıq Ç (dərslik).** Bu tapşırıqda maral və qızılgül şəkilləri verilib. Maral qeyri-adi buynuzları ilə başqa heyvanlardan, qızılgül isə tikanları ilə digər çiçəklərdən seçilir. Tapşırığın tələbinə əsasən şagirdlər bu anlayışlarla bağlı təxəyyüllərinə uyğun əfsanə düşünüb danışmalıdırlar. Əfsanələrini adlandırsalar, daha yaxşı olar. Bu məqamda müəllim şagirdləri əfsanə yazmaqla bağlı verilən "Faydalı məsləhət"ə yönəldir. Faydalı məsləhət həm dərslikdəki bu tapşırığa, həm də iş dəftərindəki əfsanə yazmaq bacarığını formalaşdıran B tapşırığına aydınlıq gətirir. Şagirdlər öz əfsanələrini təqdim etdikdən sonra müəllim də öz versiyasını şagirdlərə danışır.

*Nümunə:* Buynuzlu maral əfsanəsi

*Dağların qoynunda bir maral yaşayırdı. Onun gözəl xalları, qapqara gözləri, ox kimi kirpikləri var idi. Amma buynuzu yox idi. Buynuzunun olmaması maralı çox darıxdırırdı. Sıldırım qayalarda tez-tez rastlaşdığı dağkeçisini görəndə fikirləşirdi ki, necə möhkəm buynuzları var; onların hesabına başqa heyvanlardan qoruna bilir. Kaş mənim də belə buynuzum olaydı.*

*Bir gün maral dağın ətəyindəki meşəyə enir. O, ac idi. Maral ağacların arası ilə qaça-qaça ot axtarır. Birdən sürətlə qaçan maralın başı iri bir ağacın budağına keçir. Nə qədər çalışır, budağı başından çıxara bilmir. Bir dəfə də möhkəm dartınanda budaq qırılıb maralın başında qalır. Beləcə, maral ən böyük arzusuna çatır.*

*O vaxtdan maralın başında ağac budağına oxşar buynuz var.*

*Nümunə:* Tikanlı gül əfsanəsi

*Qədim zamanlarda bir düzənlikdə çoxlu güllər bitirmiş. Bu güllərin hamısı al-əlvan, gözəl imiş. Həmişə quşlar, böcəklər, kəpənəklər bu düzənlikdə ora-bura uçuşur, çiçəkdən çiçəyə qonur, sonda bir çiçəyin üstündə dayanırdılar. Bu çiçəyin adı qızılgül idi. Qızılgülün qalın ləçəklərinin üstü həşəratlarla dolu olardı. Həm yumşaq ləçəkləri, həm də ətrafı bürüyən gözəl ətri bütün canlıları qızılgülün başına toplayırdı. Artıq bu vəziyyətdən qızılgül təngə gəlmişdi.*

*Bir gün yenə quşlar, cücülər ona hücum çəkəndə qızılgül dillənir: "Ləçəklərimi əzirlər, budaqlarımı qırırlar. Axı mən buna dözə bilmirəm. Kaş elə bir şey baş verəydi ki, hamı qorxaydı, mənə yaxın düşə bilməyəydi".*

*Elə bu zaman gülün gövdəsi möhkəm titrəyir,*

*hər tərəfindən çıxıntılar görünür. Yavaş-yavaş onlar uzanaraq şiş uclu tikana çevrilirlər. Qızılgülün bütün gövdəsi, budaqları tikanla dolur, quşların, böcəklərin bədəninə batmağa başlayır. Canlılar arasına çaxnaşma düşür. Bir andaca qızılgüldən uzaqlaşırlar.*

*O gündən qızılgül şax dayanır, hamı onunla ehtiyatlı davranır. O, tikanlarına görə bütün çiçəklərdən seçilir və "güllərin şahı" adlandırılır.*

Tapşırığın əsas məqsədi şifahi nitq bacarığını inkişaf etdirməklə yanaşı, təxəyyülü və eyni zamanda əfsanə janrının xüsusiyyətlərinə uyğun mətn qurmağı inkişaf etdirməkdir.

**Diferensial təlim**

Əfsanə yazmaqda çətinlik çəkən şagirdlərə mövzuya uyğun suallar tərtib etmək tapşırığı verilə bilər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii mətnlərdə real və irreal məqamları fərqləndirir. | Tap. A (dərslik) |
| Dinlədiyi mətni tərtib etdiyi suallar əsasında nəql edir. | Tap. B (dərslik) |
| Bədii mətnlərin janrlarını səciyyələndirən xüsusiyyətləri müəyyən edir. | Tap. C (dərslik) |
| Obrazın davranışının və keçirdiyi hisslərin səbəbini izah edir. | Tap. A (iş dəftəri) |
| Janr xüsusiyyətlərini nəzərə almaqla mətn qurub danışır. | Tap. Ç (dərslik) |
| Janr xüsusiyyətlərini nəzərə almaqla mətn yazır. | Tap. B (iş dəftəri) |

## 3-cü dərs. Şəxs əvəzliyi

• Dərslik: səh. 61 • İş dəftəri: səh. 40

**Təlim məqsədləri**

• Şəxs əvəzliklərinin qrammatik xüsusiyyətlərini müəyyən edir (st. 3-4.2.1).
• Verbal və qrafik materialları (sxem) şərh etməklə mövzu üzrə danışır (st. 3-1.3.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Şəxs əvəzliklərinin fərqləndirilməsi |
| 2 | **Dil qaydaları** | Şəxs əvəzliklərinin cümlələrdə işlənməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim kiçik şeir parçası oxuyur:

*Özümə "mən" deyirəm,*
*Əliyə "sən" deyirəm.*
*Boylanıb sağa-sola,*
*"O" deyirəm Erola.*
*Bütün dostlar "onlar"dır.*
*"Siz" Əliylə Anardır.*
*Birləşsək hər birimiz,*
*O zaman oluruq "biz".*

Müəllim bu nümunədə işlənən əvəzliklər haqqında izahat verir. Şagirdlərdə şəxs əvəzlikləri ilə bağlı ilkin təsəvvür yaranır.

### Dil qaydaları

3-4.2.1 **Tapşırıq A (dərslik).** Bu tapşırıqda iki cümlə verilib: *Şəbnəm üçüncü sinifdə oxuyur. O, dərs əlaçısıdır.* Şagirdlərdən "o" əvəzliyinin hansı sözün yerində işləndiyi soruşulur.

Cavab: O – Şəbnəm.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim şagirdlərin diqqətini "Bunları bilməliyik" rubrikasına yönəldir. Bu rubrikada şəxs əvəzliyi sadə yolla izah edilir.

3-4.2.1, 3-1.3.2 **Tapşırıq B (dərslik).** Bu tapşırıqda şagirdlərə cədvəl təqdim olunur. Cədvəldə şəxs əvəzlikləri haqqında məlumat öz əksini tapıb. Cədvəldə verilən məlumatı nümunə əsasında şərh etmək tələb olunur.

Cavab: Şəxs əvəzlikləri təkdə və cəmdə olur. Birinci şəxsin təki "mən" əvəzliyidir. İkinci şəxsin təki isə "sən" əvəzliyidir. Üçüncü şəxsin təki "o" əvəzliyidir. Birinci şəxsin cəmi "biz" əvəzliyidir. İkinci şəxsin cəmi siz, üçüncü şəxsin cəmi "onlar" əvəzliyidir. Tapşırıq qrafik informasiyanı rabitəli mətnə çevirmək bacarığını inkişaf etdirir.

**Tapşırıq C (dərslik).** Tapşırıqda şagirdlərə cümlələr təqdim olunur. Onlar bu cümlələrdə işlənən əvəzliklərin neçənci şəxsə aid olduğunu müəyyən etməlidirlər:

Cavab: 1. Sən – II şəxsin təki; 2. Biz – I şəxsin cəmi; 3. Mən – I şəxsin təki; 4. Biz – I şəxsin cəmi,

sizi – II şəxsin cəmi; 5. Onlar – III şəxsin cəmi, sənə – II şəxsin təki; 6. O – III şəxsin təki, mənim – I şəxsin təki; 7. sizdən – II şəxsin cəmi.

**Tapşırıq Ç (dərslik).** Tapşırığın tələbinə əsasən cümlələrdəki nöqtələrin yerinə uyğun şəxs əvəzlikləri yazmaq lazımdır. Əvəzliklər cümlənin xəbərinin şəxs sonluğuna uyğun olaraq müəyyən edilir.

*Cavab:* 1. mən; 2. biz; 3. sən; 4. siz; 5. o; 6. onlar.

**Tapşırıq D (dərslik).** Verilmiş kiçik mətndə şəxs əvəzliklərinin hansı sözü əvəz etdiyi müəyyən edilir.

*Nümunə:* O – Fərhad.

*Cavab:* Sən – Səlim; onu – qələmi; biz – Səlim və Fərhad; mən – Fərhad; onlar – uşaqlar.

İş dəftərində də eynitipli tapşırıqlar verilib. Bu tapşırıqlar qazanılmış biliklərin möhkəmləndirilməsinə xidmət edir.

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırıqda cümlələrdəki nöqtələrin yerinə uyğun şəxs əvəzlikləri yazmaq tələb olunur. Şagirdlər bunu cümlədə xəbərin şəkilçisinə görə müəyyən edirlər.

*Cavab:* 1. mən; 2. sən; 3. siz; 4. biz; 5. onlar; 6. o.

**Tapşırıq B (iş dəftəri).** Tapşırığın tələbinə əsasən verilmiş əvəzlik və məsdər formasında olan feillərdən cümlə qurmaq lazımdır. Məqsəd cümlədə əvəzlikləri və feilləri düzgün uzlaşdırmaq bacarığını möhkəmlətməkdir.

Məsələn:

*Mən inşa yazıram.*
*Sən yuxudan vaxtında oyandın.*
*Onlar gəzintiyə gedəcəklər.*
*Siz bu gün maraqlı filmə baxacaqsınız.*
*O, yavaş-yavaş baş verənləri xatırlayırdı.*

**Tapşırıq C (iş dəftəri).** Bu tapşırıq qazanılmış biliklərin möhkəmləndirilməsinə xidmət edir.

Verilmiş mətndə şəxs əvəzlikləri işlənib. Şagirdlərdən həmin əvəzliklərin hansı sözü əvəz etdiyini müəyyənləşdirmək tələb olunur. Onlar bu sözləri müəyyənləşdirib uyğun sətirlərdə yazmalıdırlar.

*Cavab:* Onun – sincabın; sizi – dovşan balalarını; sən – sincab; o – qoza; bizim – dovşan balalarının; ona – sincaba; onu – kökü; onlar – dovşan balaları və sincab.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəxs əvəzliklərinin qrammatik xüsusiyyətlərini müəyyən edir. | Tap. A, C, Ç, E (dərslik), tap. C (iş dəftəri) |
| Əldə etdiyi məlumatlar əsasında qrafik informasiyanı şərh edir. | Tap. B (dərslik) |
| Cümlədə şəxs əvəzlikləri ilə feilləri qrammatik baxımdan uzlaşdırır. | Tap. A, B (iş dəftəri) |

## fəsil 2 GÖYÇƏ GÖLÜ

### 1-ci dərs. "Göyçə gölü əfsanəsi"

• Dərslik: səh. 62–63 • İş dəftəri: səh. 41

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• İnformativ mətndəki fakt və fikirlərə münasibət bildirir (st. 3-2.4.1).
• Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st. 3-2.4.4).

**Köməkçi vasitələr:** izahlı lüğət.

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Gölün digər su hövzələrindən fərqi haqqında söhbət |
| 2 | **Danışma** | Bildiyi məlumatlar haqqında söhbət |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Göyçə gölü əfsanəsi" və "Göyçə mahalı" mətnlərinin oxusu; yeni sözlərin mənimsədilməsi |
| 4 | **Oxuyub-qavrama** | Mətnlərin məzmununun mənimsədilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sinfə aşağıdakı suallarla müraciət edir:

*1. Hansı su hövzələrini tanıyırsınız?*

*2. Gölün dənizdən və çaydan fərqi nədir?*

*3. Sizcə, göl necə yarana bilər?*

Müzakirədən sonra şagirdlərdə göllər, onların yaranması haqqında müəyyən fikir formalaşır.

### Danışma

3-1.3.3 **Tapşırıq A (dərslik).** Şagirdlər bildikləri göllərin adını çəkirlər. Əgər göllər haqqında hər hansı bir məlumatları varsa, bu haqda danışırlar.

Tapşırığın əsas məqsədi şagirdlərin onlara tanış olan mövzu ətrafında danışmaq, öz fikirlərini ifadə etmək bacarığını inkişaf etdirməkdir.

### Oxu

Əfsanənin oxusu növbəli şəkildə həyata keçirilir. Şagirdlər mətni aydın, səlis şəkildə növbə ilə oxuyurlar. Oxu prosesi bitdikdən sonra yeni sözlərin mənimsədilməsi başlanır. Bu proses iş dəftərində öz əksini tapıb.

3-2.2.1 **Tapşırıq B (dərslik).** Mətn oxunduqdan sonra şagirdlərə faktoloji suallar təqdim olunur. Şagirdlər bu sualları cavablandırmaqla mətni oxuyub-qavradıqlarını nümayiş etdirirlər.

### Söz ehtiyatı

3-2.2.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər yeni tanış olduqları sözlərlə onların izahlarını uyğunlaşdırırlar.

Cavab: 1 – b, 2 – c, 3 – ç, 4 – a.

**Tapşırıq B (iş dəftəri).** Bu tapşırığın tələbinə görə şagirdlər verilmiş sözləri məna və qrammatik baxımdan uyğunlaşdıraraq söz birləşməsi yaratmalıdırlar. Tapşırıq şagirdlərin sözləri kontekstə uyğun işlətmək bacarığını inkişaf etdirir.

Cavab: bulaq suyu, tayfa başçısı, səhəngi götürmək, kip bağlamaq.

### Oxu

**Tapşırıq C (dərslik).** Müəllim uşaqlara mətni səssiz oxumağı tapşırır. Şagirdlər mətni oxuyarkən əsas faktları qeyd edirlər.

### Oxuyub-qavrama

3-2.4.1 **Tapşırıq Ç (dərslik).** Tapşırıqda şagirdlər oxuduqları informativ mətndəki faktlara əsasən "Göyçə gölü əfsanəsi"ndəki məlumatların həqiqətə uyğun olub-olmamasını müəyyən edirlər. Əfsanədəki bir çox məlumatlar informativ mətndə də öz əksini tapıb. Ortaq məlumatlar aşağıdakılardır:

*Göyçənin tarixən Azərbaycan torpağı olması, Göyçə mahalında Göyçə gölünün olması, əhalinin əkinçilik və maldarlıqla məşğul olması, yadelli düşmənlərin bu torpağa göz dikməsi.*

3-2.4.1 **Tapşırıq D (dərslik).** Şagirdlər Göyçənin qədim Azərbaycan torpağı olması faktının min illər bundan əvvəl yaranmış "Kitabi-Dədə Qorqud" dastanında öz əksini tapdığını söyləməlidirlər. Tapşırıq informativ mətndən hər hansı fikri əsaslandıran arqumenti tapmaq bacarığını inkişaf etdirir.

3-2.4.4 **Tapşırıq E (dərslik).** Şagirdlər Göygölün yaranmasından bəhs edən mətni oxuyaraq onun məzmununu "Göyçə gölü əfsanəsi" ilə müqayisə edirlər. Mətnlərin xarakterindən asılı olaraq oxşar varlıqların yaranması fərqli təqdim olunur. Göygölün yaranması tarixi faktla izah olunur, çünki bu mətn informativ xarakter daşıyır. Bədii mətndəki Göyçə gölünün yaranması isə uydurmadır, həqiqətə uyğun deyil, çünki bu mətn əfsanə janrında yazılmışdır.

3-2.2.1 **Tapşırıq C (iş dəftəri).** Bu tapşırıqda şagirdlərdən verilən sualları cavablandırmaq və onların hansı mətnə aid olduğunu müəyyən etmək tələb olunur.

Cavab: 1. Təxminən 100 il əvvəl Göyçə gölü Sevan adlandırıldı. *(Göyçə mahalı)*

2. Göyçə əhalisi əkinçilik və maldarlıqla məşğul idi. *(hər iki mətn)*

3. İnsanlar suyun daşmaması üçün iri qapaq düzəltdilər. *("Göyçə gölü əfsanəsi")*

4. "Kitabi-Dədə Qorqud" dastanında Göyçə gölü haqqında məlumat var. *(Göyçə mahalı)*

Tapşırığın əsas məqsədi eyni mövzuda yazılmış müxtəlif tipli mətnləri məzmuna görə müqayisə etmək bacarığını inkişaf etdirməkdir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlar əsasında mövzu üzrə danışır. | Tap. A (dərslik) |
| Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir. | Tap. A, B (iş dəftəri) |

| | |
|---|---|
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. B (dərslik), tap. C (iş dəftəri) |
| Oxuduğu mətnə istinad etməklə fakt və ya mülahizələrin həqiqətə uyğunluğunu əsaslandırır. | Tap. Ç, D (dərslik) |
| Bədii və informativ mətnləri məzmun və struktur xüsusiyyətlərinə görə müqayisə edir. | Tap. E (dərslik) |

## 2-ci dərs. Bənzətmə

• Dərslik: səh. 64 • İş dəftəri: səh. 42

**Təlim məqsədləri**

• Mətndəki obrazlı ifadələri fərqləndirir və izah edir (st. 3-2.4.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bənzətmənin izahı və mənimsədilməsi |
| 2 | **Söz ehtiyatı** | Bənzəyən və bənzədilənin fərqləndirilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhəyə aşağıdakıları yazır:

*Bibər çox acı idi. Bibər zəhər kimi acı idi.*

Sonra sinfə müraciət edir:

*– Hansı cümlədə bibərin acılığı daha təsirli ifadə olunub? Bibər acılığına görə nəyə bənzədilib?*

Müzakirə nəticəsində şagirdlərə aydın olur ki, bibərin acılığını təsəvvürdə daha aydın canlandırmaq üçün o, zəhərə bənzədilib.

3-2.4.3 **Tapşırıq A (dərslik).** Tapşırıqda "Göyçə gölü əfsanəsi"ndən cümlə verilib. *Bulağın suyu buz kimi soyuq idi.* Şagirdlərdən bulağın suyunun nəyə bənzədilməsi soruşulur.

**"Yadda saxla" rubrikasında** bənzətmə haqqında məlumat verilib. Nümunə əsasında bənzəyən və bənzədilən şagirdlərə izah olunub. *Lalə quş kimi uçurdu* nümunəsində *Lalənin* bənzəyən, *quşun* isə bənzədilən olması diqqətə çatdırılır.

### Oxuyub-qavrama

**Tapşırıq B (dərslik).** Tapşırıqda verilən cümlələrdə altından xətt çəkilmiş ifadələri uyğun bənzətmələrlə əvəz etmək tələb olunur.

Cavab: *1. Qarpızın bal kimi dadı var. 2. O, qartal kimi düşmənin üstünə şığıdı. 3. Maşının mühərriki saat kimi işləyir. 4. Şəhərin yolları şüşə kimi idi. 5. Uşağın üzü qorxudan qar kimi olmuşdu.*

**Tapşırıq C (dərslik).** Cümlələrdə bənzədilən sözün altından xətt çəkilib. Şagirdlər uyğun bənzəyənləri nöqtələrin yerinə yazmalıdırlar. Bununla da onlarda obrazlı ifadə yaratmaq bacarığı formalaşdırılır.

Cavab: *1. Mənim atamın polad kimi iradəsi var. 2. Məktəbin həyəti qazan kimi qaynayırdı. 3. Üçrəngli bayrağımız dəniz kimi dalğalanırdı. 4. Bulağın suyu göz yaşı kimi dumduru idi.*

**Tapşırıq Ç (dərslik).** Bu tapşırıqda tərkibində bənzəyən və bənzədilən olan cümlələr verilib. Şagirdlər onları müəyyən etməli və köçürərək altından xətt çəkməlidirlər.

Cavab: *1. İgidlərimiz – dağ; 2. Firuz baba – uşaq; 3. Məstan – pələng; 4. Günelin yanaqları – lalə; 5. Külək – qurd; 6. Körpənin saçları – ipək.*

**Tapşırıq A (iş dəftəri).** Tapşırığın tələbinə əsasən cümlələrdə qoyulan boşluqlara uyğun bənzədilənləri yazmaq lazımdır.

Cavab: *1. gül kimi; 2. yarpaq kimi; 3. ipək kimi; 4. daş kimi; 5. ox kimi.*

Bu tapşırıq şagirdlərin qazandıqları yeni biliklərin möhkəmləndirilməsinə xidmət edir.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər cümlələrdəki bənzəyən və bənzədiləni seçib cədvəlin uyğun xanasında yazırlar.

Cavab:

Bənzəyən – *yanaqlar*; bənzədilən – *alma*

Bənzəyən – *üz*; bənzədilən – *ay*

Bənzəyən – *iradə*; bənzədilən – *dəmir*

Bənzəyən – *gözlər*; bənzədilən – *muncuq*

**Tapşırıq C (iş dəftəri).** Bu tapşırıqda bənzəyənləri seçib cümlələrdəki boşluqlara yazmaq tələb olunur.

Cavab: *1. balaca müğənni; 2. burnumun ucu; 3. xırda daşlar; 4. şehli çəmən; 5. suyun üzü.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bənzətmə yaratmaq üçün müvafiq sözlər seçir. | Tap. A, B (dərslik), tap. A (iş dəftəri) |

| | |
|---|---|
| Rast gəldiyi bənzətmələrdə bənzəyən və bənzədiləni fərqləndirir. | Tap. C, Ç (dərslik), tap. B, C (iş dəftəri) |

## 3-cü dərs. Feil

• Dərslik: səh. 65 • İş dəftəri: səh. 43

**Təlim məqsədləri**

• Feilin ümumi qrammatik xüsusiyyətlərini müəyyən edir (st. 3-4.2.1).
• Sözü kök və şəkilçiyə ayırır (st. 3-4.2.1).
• Cümlədəki sözlər arasındakı əlaqədən çıxış edərək feili uyğun qrammatik formada işlədir (st. 3-4.2.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Hərəkət bildirən sözlərin xatırlanması |
| 2 | **Dil qaydaları** | Feilin ümumi qrammatik xüsusiyyətlərinin müəyyən edilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sözlər səsləndirir və şagirdlərə bunlara hərəkət bildirən sözlər əlavə etməklə cümlə qurmaq tapşırığını verir.

*Məktəb, dərs; uşaqlar, meşə, çiyələk; Anar, su, soyuq.*

Şagirdlər feillər artırmaqla müxtəlif cümlələr qururlar.

*Məktəbdə dərslər başlandı. Uşaqlar meşədən çoxlu çiyələk yığdılar. Anar soyuq su içdi.*

### Dil qaydaları

3-4.2.1 **Tapşırıq A (dərslik).** Tapşırıqda “Aldədə əfsanəsi”ndən cümlələr verilib. Şagirdlər həmin cümlələrin tərkibindən hərəkət bildirən sözləri seçməli və onlara sual verməlidirlər.

Cavab: 1. Aldədə möcüzə yaradır. *(nə edir?)*
2. Xəbər Bağdad xəlifəsinə çatdı. *(nə etdi?)*
3. Ərəblər təəccübləndilər. *(nə etdilər?)*
4. Bu çubuqların hərəsini bir tərəfə atacağam. *(nə edəcəyəm?)*

Tapşırıq şagirdlərdə hərəkət bildirən sözləri seçmək və onlara sual vermək bacarığını formalaşdırır.

**“Bunları bilməliyik” rubrikasında** feil haqqında məlumat verilir. Şagirdlərə onların tanıdıqları hərəkət bildirən sözlərin feil adlanması sadə dildə izah olunur. Feillərin müxtəlif suallara cavab verməsi, eləcə də şəkilçilər qəbul edərək formaca dəyişə bilməsi şagirdlərin nəzərinə çatdırılır.

3-4.2.1 **Tapşırıq B (dərslik).** Bu tapşırıqda şagirdlər onlara təqdim olunan feilləri kök və şəkilçiyə ayırmalıdırlar. Tapşırığın əsas məqsədi feillərin kökünü və onları formaca dəyişən şəkilçiləri müəyyən etməklə feillərin dəyişməsini müşahidə etməkdir.

Cavab: Danış-ır, oyna-dı, gül-əcək, soruş-du, get-di, sev-ir, yaz-acaq, qoru-yar, böyü-dü, sus-acaq, saxla-yar, gör-dü, yoxla-yır, keç-di, aç-ır.

**Tapşırıq A (iş dəftəri).** Tapşırığın modeli fərqli olsa da, eyni məqsədə xidmət edir.

Cavab: Saxla-dı, barış-ır, gətir-əcək, darıx-dı.

3-4.2.1 **Tapşırıq C (dərslik).** Şagirdlər boşluqlara uyğun gələn təsdiq və ya inkar feilləri yazmaqla verilmiş cümlələri köçürürlər. Bu zaman onlar kontekstdən – cümlənin ifadə etdiyi fikirdən və bəzi sözlərdən *(heç vaxt, heç nə, hamısı və s.)* çıxış edirlər.

Cavab: *1. Əsəd həmişə düzgün danışır.*
*2. Vətən öz igid oğullarını unutmaz.*
*3. Bu maraqlı işi bütün uşaqlar bəyəndi.*
*4. Ləman bilsə də, heç nə deməyəcək.*
*5. O utandığından başını aşağı saldı.*

3-4.2.1 **Tapşırıq B (iş dəftəri).** Atalar sözlərində nöqtələrin yerinə cümlənin semantikasına uyğun olaraq təsdiq və ya inkar feil yazılmalıdır.

Cavab: 1. Acgözün qarnı *doyar*, gözü *doymaz*.
2. Ağıllı düşməndən *qorxma*, ağılsız dostdan *qorx*.
3. Qılınc yarası *sağalar*, söz yarası *sağalmaz*.

Hər iki tapşırıq şagirdlərin təsdiq və inkar feillər haqqında öyrəndiklərini möhkəmləndirməyə xidmət edir.

Bu mərhələdə şagirdlərə “Diqqət et” rubrikası təqdim olunur.

**Müəllimin nəzərinə!** Müəllim əlavə olaraq şagirdlərin nəzərinə çatdıra bilər ki, hər bir feilin kökü əmr bildirir: *get, oxu, dinlə.* Lakin *-maq²* şəkilçisi ilə işləndikdə feil hərəkətin adını bildirir: *Oxumaq (nə?) insanın dünyagörüşünü artırır.*

3-4.2.1 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər bu sıralardan feilin lüğətdə verilən formasını (məsdər formasını) müəyyən etməlidirlər. Tapşırıq “Diqqət et” rubrikasında verilmiş biliyin möhkəmləndi-

rilməsinə xidmət edir.

*Cavab:* 1 – b; 2 – c; 3 – c.

3-4.2.1 **Tapşırıq Ç (dərslik).** Şagirdlər məsdər formasında verilən feillərə uyğun şəkilçilər artırıb boşluqlara yazmaqla cümlələri tamamlayır və dəftərlərinə köçürürlər.

*1. Aydın üçüncü sinifdə oxuyur.*
*2. Sinif otağımız ikinci mərtəbədə yerləşir.*
*3. Bağçadakı güllərin ətri hər tərəfə yayılır.*
*4. Göyərçin yuvasına qondu.*

**Tapşırıq C (iş dəftəri).** Bu tapşırığın tələbinə əsasən şagirdlər verilmiş feillərə uyğun şəkilçilər artırmaqla cümlə qurub yazmalıdırlar.

Nümunə:

*1. Mən nənəmlə parkda gəzirəm.*
*2. Biz dərs oxumaqdan yorulmuruq.*
*3. Atam bağda çoxlu ağac əkdi.*
*4. Babam torpağı şumlayır.*

Feillərin şəxsə və zamana görə dəyişməsi haqda növbəti fəsillərdə məlumat veriləcək. Bu dərsdə isə şagirdlər feilləri cümlədə kontekstə uyğun işlətmək bacarıqlarını nümayiş etdirirlər. Bu zaman onlar, sadəcə, empirik olaraq dil duyumundan çıxış edirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən asılı olaraq feilin qrammatik formasını müəyyən edir. | Tap. A, Ç (dərslik), tap. Ç (iş dəftəri) |
| Sözü kök və şəkilçiyə ayırır. | Tap. B (dərslik), tap. A (iş dəftəri) |
| Təsdiq və inkar feilləri fərqləndirir. | Tap. C (dərslik), tap. B (iş dəftəri) |
| Feilin başlanğıc formasını müəyyən edir. | Tap. C (iş dəftəri) |

fəsil 3

# AZƏRBAYCAN MUSİQİSİ

## 1-ci dərs. “Çahargah əfsanəsi”

• Dərslik: səh. 66–67 • İş dəftəri: səh. 44

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Lüğətdən istifadə etməklə sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• Mətni intonasiya ilə oxuyur (st. 3-2.1.1).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Əfsanə janrını səciyyələndirən xüsusiyyətləri müəyyən edir (st. 3-2.4.3).
• Mətndəki obrazları xarakterizə edir (st. 3-2.3.2).
• Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir (st. 3-1.1.2).

**Köməkçi vasitələr:** S.Hacıbəyovun “Karvan” süitası, izahlı lüğət.

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Soltan Hacıbəyovun “Karvan” süitasının səsləndirilməsi |
| 2 | **Danışma** | Muğamlarımız və xalq mahnılarımız haqqında söhbət |
| 3 | **Oxu. Söz ehtiyatı** | “Çahargah əfsanəsi”nin oxusu; yeni sözlərin mənimsədilməsi |
| 4 | **Oxuyub-qavrama** | “Çahargah əfsanəsi”nin məzmunu üzrə iş |
| 5 | **Dinləmə** | “Muğamlarımız” dinləmə mətni üzrə iş |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim Soltan Hacıbəyovun “Karvan” süitasını səsləndirir.

**Müəllimin nəzərinə!** Şagirdlərin diqqətini bu musiqinin ahəngdar, axıcı olmasına yönəltmək olar: musiqini dinlədikcə sanki dəvələrin ağır-ağır yerişi göz önündə canlanır, zınqırovların səsi eşidilir.

### Danışma

3-1.3.3 **Tapşırıq A (dərslik). Fənlərarası inteqrasiya.** Şagirdlərdən hansı xalq mahnılarımızın, muğamlarımızın adını eşitdikləri soruşulur.

Şagirdlər tanıdıqları xalq mahnılarının adlarını çəkirlər. Müəllim də şagirdlərə yardım edərək bir neçə xalq musiqimizi xatırladır ("Küçələrə su səpmişəm", "Pəncərədən daş gəlir" xalq mahnıları, 30 il sonra Şuşada Kənan Bayramlının ifasında səsləndirilən "Bayatı-Şiraz muğamı" və s.). Tapşırığın əsas məqsədi şagirdlərin diqqətini mövzuya yönəltməkdir.

### Söz ehtiyatı

3-2.2.3 Müəllim şagirdlərin diqqətini söz boğçasına yönəldir. Onlar sözləri bir-bir oxuyur, mənasını təxmin edir, sonra izahlı lüğətlə dəqiqləşdirirlər.

*cah-calal* – dəbdəbə, təmtəraq, var-dövlət;

*duyuq düşmək* – baş verəcək bir hadisəni qabaqcadan hiss etmək;

*karvanbaşı* – karvana başçılıq edən adam;

*zınqırov* – heyvanların boynuna taxılan xırda zəng;

*ecazkar* – qeyri-adi, hər kəsi heyrətə salan;

*ləhləmək* – tez-tez və ağır nəfəs almaq, tövşümək (heyvan haqqında);

*mənzilbaşı* – yola çıxarkən gediləcək son ünvan.

3-2.1.1 **Növbəli oxu.** Oxu prosesində müəllimin seçdiyi hər şagird mətndən müəyyən hissəni oxuyur.

> **Müəllimin nəzərinə!** Bədii mətnin emosionallığını artırmaq məqsədilə şagirdlərin düzgün səs tonu seçmələri, hadisələrin dramatikliyini nəzərə çarpdırmaq üçün mətni uyğun intonasiya ilə oxumaları üçün oxu prosesi müəllimin köməyi ilə həyata keçirilir. Məqsəd şagirdlərin aydın, düzgün, səlis oxu bacarığını inkişaf etdirməkdir.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Tapşırıqda şagirdlərə faktoloji suallar təqdim olunur. Onlar mətnə əsaslanmaqla bu sualları cavablandırırlar. Bəzi suallar ətrafında əhatəli danışmaq tələb olunur. Şagirdlərə öz fikirlərini sərbəst şəkildə ifadə etmək üçün şərait yaradılır.

**Tapşırıq C (dərslik).** Bu tapşırıq şagirdlərin məntiqi düşüncəsini yoxlayır: *Sizcə, karvanda dəvələrin boynuna zınqırovlar nə məqsədlə asılır?* Bu haqda şagirdlərin cavabları dinlənilir.

<u>Cavab:</u> Dəvələrin səhralıqda itməməsi üçün onların boynuna zınqırov taxılır. Dəvə karvandan ayrı düşərsə, zınqırovun səsinə görə onun yerini müəyyən etmək olur.

3-2.4.3 **Tapşırıq Ç (dərslik).** Tapşırıqda şagirdlərə bu sualla müraciət olunur: *Hansı epizoddan mətnin əfsanə olduğunu demək mümkündür?*

Mətndə belə bir epizod var: *Musiqiçi görür ki, dəvələr çox yorulublar. Onlar qalxıb getmək istəmirlər. Bu zaman gözü dəvələrin boynundakı zınqırovlara sataşan musiqiçi onları çıxarır, müəyyən ardıcıllıqla yenidən yerlərini dəyişərək dəvələrin boynuna taxır. Bəzi zınqırovu tarım çəkir, bəzisini isə boş bağlayır. Dəvələr durub yeriməyə başlayırlar. Bu zaman zınqırovlardan çıxan ecazkar musiqi ətrafa yayılır.*

Bu epizoddakı uydurma (zınqırov səsindən ecazkar musiqinin yaranması) mətnin əfsanə olduğunu deməyə imkan verir.

Tapşırıq şagirdlərin yeni öyrəndikləri əfsanə janrının xüsusiyyətlərini bir daha xatırladaraq qazanılmış bilikləri möhkəmləndirir.

**Tapşırıq A (iş dəftəri). Şaquli inteqrasiya 2-ci sinif.** Mətnin məzmununa uyğun olan (olmayan) fikirləri müəyyənləşdirir (st. 2.2.4).

Bu tapşırıqda mətnə aid cümlələr verilib. Şagirdlər cümlələrdə verilən fikirlərin doğru və ya yanlış olduğunu müəyyən etməlidirlər.

1. Padşah musiqiçini saraya dəvət etdi. – *D*
2. Musiqiçi padşahın təklifini qəbul etmədi. – *D*
3. Vəzir musiqiçi ilə başqa ölkəyə yollandı. – *Y*
4. Musiqiçi dəvə karvanına rast gəldi. – *D*
5. Karvana yaxınlaşan musiqiçi eşitdiyi zınqırov səslərinə heyran oldu. – *Y*
6. Bütün dəvələrin boynundakı zınqırovlar bir yerə toplandı. – *Y*
7. Hamı yaranan musiqiyə valeh oldu. – *D*

Bu tapşırığın köməyi ilə şagirdlər oxuduqları mətni qavradıqlarını nümayiş etdirirlər.

3-2.3.2 **Tapşırıq B (iş dəftəri).** Tapşırıqda əfsanədəki obrazların nitqindən nümunələr verilib. Şagirdlər bu nümunələrin hansı obraza aid olduğunu müəyyən etməlidirlər. Sonra isə həmin obrazlara öz münasibətlərini bildirməlidirlər.

<u>*Cavab: (nümunə)*</u>

**1-ci nümunə musiqiçinin nitqindəndir.**

*Musiqiçi xalqını sevir, ona görə də saray həyatını qəbul etmir. O, istedadlıdır, gözəl musiqilər bəstələyir. Ağıllıdır, çətin vəziyyətdən çıxmağı bacarır.*

**2-ci nümunə vəzirin nitqindəndir.**

*Vəzir istedadlı insanlara dəyər verir. Musiqiçi istedadlı olduğuna görə şahın onu cəzalandırmasına razı olmadı və musiqiçini zindandan xilas etdi.*

**3-cü nümunə padşahın dilindəndir.**

*Padşah insanlara dəyər vermir, lovğadır, zalımdır, ədalətsizdir. O istəyir ki, istedadlı musiqiçi ancaq ona mahnılar həsr eləsin. Razı olmayanda da musiqiçini zindana atdırır.*

Bu tapşırıq oxuyub-qavrama bacarığının inkişafına, obrazları təhliletmə qabiliyyətinin möhkəmlənməsinə xidmət edir.

### Dinləmə

3-1.1.2 **Tapşırıq D (dərslik).** Bu tapşırıq dinləmə mətni əsasında yerinə yetirilir.

**Müəllimin nəzərinə!** Mətni oxuyarkən şagirdlərə qeydlər götürmək tövsiyə olunur. Mətni aramla oxumaq lazımdır ki, şagirdlər qeyd götürə bilsinlər.

**“Muğamlarımız”**
(dinləmə mətni)

*Azərbaycan xalq musiqisinin ən sevilən növü muğamdır. Muğamın müəllifi yoxdur. O, xalqın yaratdığı musiqi əsəridir.*

*Azərbaycan muğamının 7 əsas növü var: Rast, Şur, Segah, Çahargah, Bayatı-Şiraz, Şüştər, Humayun.*

*Muğam oxuyan adam xanəndə adlanır. Muğam çox zaman tar, kamança və qavalın müşayiəti ilə – üçlük şəklində ifa olunur. Tarzən tarı, kamançaçı kamançanı çalır. Xanəndə isə muğam oxuya-oxuya qavalı çalır.*

*Azərbaycanın görkəmli muğam ustaları var. Məsələn: Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Zülfü Adıgözəlov, İslam Rzayev, Rübabə Muradova və s. Sadıqcan, Qurban Pirimov, Əhsən Dadaşov və başqaları məşhur tarzənlərimizdir.*

*Məşhur kamança ustamız Habil Əliyev də muğam sənətinin inkişafına xidmət edən sənətkardır.*

*Müasir dövrdə Alim Qasımov muğamı dünyaya tanıdıb.*

*Bu gün də Azərbaycan muğamı sevilə-sevilə dinlənilir.*

Mətnin oxusu başa çatdıqdan sonra şagirdlər qeydlər əsasında cədvəli tamamlayırlar.

Tapşırıq muğam haqqında məlumat verməklə yanaşı, şagirdlərin dinlədiyi mətndən qeyd götürmək bacarığını təkmilləşdirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlar əsasında mövzu üzrə danışır. Kontekstdən təxmin etdiyi məna ilə sözün lüğəvi mənasını müqayisə edir. | Tap. A, C (dərslik) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. B (dərslik) |
| Bədii mətnlərin janrlarını səciyyələndirən xüsusiyyətləri müəyyən edir. | Tap. Ç (dərslik) |
| Mətnin məzmununa uyğun olan (olmayan) fikirləri müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Mətndəki hadisələrə və dialoqlara görə obrazlar haqqında fikir yürüdür. | Tap. B (iş dəftəri) |
| Dinlədiyi mətnin məzmununa uyğun olan (olmayan) fikir və faktları müəyyənləşdirir. | Tap. D (dərslik) |

## 2-ci dərs. Sözün həqiqi və məcazi mənası

- Dərslik: səh. 68 • İş dəftəri: səh. 45

**Təlim məqsədləri**

- Çoxmənalı sözün kontekstə görə mənasını müəyyən edir (st. 3-2.2.3).
- Sözün həqiqi və məcazi mənaları arasındakı bağlılığı müəyyən edir (st. 3-2.2.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Həqiqi və məcazi məna haqqında söhbət |
| 2 | **Söz ehtiyatı** | Çoxmənalı sözün mənimsədilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhəyə bir neçə ifadə yazır: *adamın* ***boğazı*** *– çəkmənin* ***boğazı****;* ***daş*** *bina –* ***daş*** *ürək; kitab* ***vermək*** *– yol* ***vermək****.* İfadələrdə fərqləndirilmiş sözlərin mənaları arasındakı fərq müzakirə olunur.

### Oxu

3-2.2.3 **Tapşırıq A (dərslik).** Tapşırıqda iki cümlə verilib: *1. Ramilin ayağı əzildi. 2. Stolun ayağı təmir olundu.* Eyni zamanda cümlələrə aid təsvirlər də var.

Şagirdlər hər iki ifadədə "ayaq" sözünün mənasını müəyyən etməli, hansının daha əvvəl yaranması barədə fikirlərini söyləməlidirlər.

> **Müəllimin nəzərinə!** Şagirdlər cavab verməkdə çətinlik çəksələr, onlara izah olunmalıdır ki, ayaq insanın aşağı ətrafıdır. Bu ifadə əvvəl yaranıb və həqiqi mənada işlənib. Cansız əşyaların da aşağı hissələri buna bənzədilərək ayaq adlandırılıb. Stolun aşağı hissəsinə sonradan "stolun ayağı" deyilib. Burada həmin söz məcazi mənada işlənib.
>
> Tapşırığın əsas məqsədi şagirdlərdə sözün məcazi mənası haqqında ilkin təsəvvür yaratmaqdır.

**"Yadda saxla" rubrikasında** sözün həqiqi və məcazi mənası haqqında məlumat verilir. Nümunə əsasında sözün hər iki mənası izah olunur.

**Tapşırıq B (dərslik).** Bu tapşırıqda eyni söz hər iki mənada işlənib. Şagirdlər sözün hansı cümlədə həqiqi, hansında məcazi mənada işləndiyini müəyyən edirlər.

<u>Cavab:</u> 1 – a; 2 – b; 3 – b; 4 – b.

**Tapşırıq C (dərslik).** Tapşırıqda sözün lüğətdə verilən mənalarından məcazi olanını seçmək lazımdır. Tapşırığı düzgün yerinə yetirmək üçün şagirdlər verilən izahları diqqətlə oxumalı, sözün məcazi mənasını dəqiqləşdirməlidirlər.

<u>Cavab:</u> 1. yumşaq – xoş, mülayim. *Yumşaq xasiyyət.*

2. qızıl – çox dəyərli, çox gözəl. *Qızıl əllər.*

Bu tapşırıq şagirdlərin həqiqi və məcazi mənalı sözləri fərqləndirmək bacarığını möhkəmləndirir.

**Tapşırıq Ç (dərslik).** Bu tapşırıqda şagirdlər verilmiş cümlələrdə nöqtələrin yerinə elə sözlər seçib yazmalıdırlar ki, cümlədəki feil məcazi məna ifadə etsin. Çətin tapşırıq olsa da, şagirdlərdə dil duyumunun inkişafına xidmət edir.

<u>*Cavab:*</u> *1. Vaxt uçur. 2. Yarpaqlar pıçıldaşırdı. 3. Təbiət yazın gəlişinə sevinir. 4. Həyat qaynayır. 5. Vətən bizi çağırır.*

3-2.2.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər tərkibində məcazi mənalı söz işlənmiş cümlələri işarələməli, sonra müvafiq sözün altından xətt çəkməlidirlər.

<u>*Cavab:*</u> *1. Çayın üzü; 3. Meşə geyinmişdi; 4. Təbiət oyanırdı; 6. Kəndin ayağı; 7. Bulağın gözü.*

2-ci və 5-ci cümlələrdə məcazi mənalı söz işlənməyib.

3-2.2.3 **Tapşırıq B (iş dəftəri).** Dərslikdəki Ç tapşırığı ilə eyni xarakterlidir. Bu tapşırıqda da cümlələrə elə söz artırılmalıdır ki, məcazi məna ifadə olunsun.

<u>*Cavab:*</u> *1. Söyüdün yarpaqları pıçıldaşır.*

*2. Yazda meşə, çöl, çəmən sevinir.*

*3. Yazın gəlişi ilə təbiət oyandı.*

*4. Bu sözün dərin mənası var.*

*5. Mahirin xasiyyəti çox yumşaqdır.*

Şagirdlər bu tapşırığı yerinə yetirməklə sözün kontekstə görə həqiqi və məcazi mənasını müəyyən etmək vərdişi qazanırlar.

**Tapşırıq C (iş dəftəri).** Bu tapşırıqda hər cümləyə aid iki söz verilib. Şagirdlər elə söz seçib əlavə etməlidirlər ki, cümlədə altından xətt çəkilmiş söz məcazi məna ifadə etsin.

<u>*Cavab:*</u>

1. Saat qəflətən susdu.
2. Ayaqqabının burnu stola dəydi.
3. Arzular qanad açıb uçdu.

**Tapşırıq Ç (iş dəftəri).** Bu tapşırıqda şagirdlər eyni sözü həm həqiqi, həm də məcazi mənada işlətməlidirlər.

| Sözlər | Həqiqi məna | Məcazi məna |
|---|---|---|
| ətək | paltarın ətəyi | dağın ətəyi |
| qol | insanın qolu | pencəyin qolu |
| acı | acı bibər | acı dil |
| ağır | ağır çanta | ağır söz |
| dil | körpənin dili | pianonun dili |

Bu tapşırıq sözün həqiqi və məcazi mənasını düzgün müəyyən etmək üçün şagirdlərin qazandıqları bilik və bacarıqları möhkəmləndirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözün həqiqi və məcazi (törəmə) mənaları arasındakı bağlılığı müəyyən edir. | Tap. A, B, C (dərslik), tap. A, Ç (iş dəftəri) |
| Çoxmənalı sözün kontekstə görə mənasını müəyyən edir. | Tap. C (dərslik), tap. B, C (iş dəftəri) |

## 3-cü dərs. Feilin şəxsə görə dəyişməsi

• Dərslik: səh. 69 • İş dəftəri: səh. 46

**Təlim məqsədləri**

• Cümlədəki sözlər arasındakı əlaqədən çıxış edərək feili uyğun qrammatik formada işlədir (st. 3-4.2.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Feilin müxtəlif qrammatik formada işlədilməsinin mənimsədilməsi |
| 2 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhəyə "gülmək" sözünü yazır. Sonra sinfə müraciət edərək bir-bir şəxs əvəzliklərini sadalamağı tapşırır. Daha sonra *gülmək* sözünü həmin əvəzliklərə uyğun dəyişirlər.

Şagirdlər qaydaları bilməsələr belə, dil daşıyıcıları olduqları üçün tapşırığın öhdəsindən gələcəklər.

### Dil qaydaları

3-4.2.1 **Tapşırıq A (dərslik).** Tapşırıqda üç cümlə verilib. Cümlələrin tərkibindəki *oxumaq* sözü şəkilçilər qəbul edərək dəyişir. Sual olunur ki, bu dəyişmənin səbəbi nədir?

<u>Cavab:</u> Bu dəyişmənin səbəbi şəxs əvəzlikləridir. Şəxs əvəzlikləri dəyişdikcə feil də müvafiq şəkilçilər qəbul edərək dəyişir.

**"Bunları bilməliyik" rubrikasında** feilin şəxsə görə dəyişməsi izah olunur. Feilin şəkilçilərinin şəxs əvəzliyinə uyğun olaraq dəyişilməsi diqqətə çatdırılır.

3-4.2.1 **Tapşırıq B (dərslik).** Bu tapşırıqda şagirdlər uyğunlaşdırma aparmalıdırlar. Tapşırıq şagirdlərdə feili şəxsə görə dəyişdirmək bacarığını formalaşdırır.

**Tapşırıq C (dərslik), C (iş dəftəri).** Bu tapşırıqlarda cümlələr təqdim olunub. Şagirdlər feillərin şəxs sonluğuna uyğun olaraq cümlələrdəki nöqtələrin yerinə şəxs əvəzlikləri yazmaqla cümləri köçürürlər.

<u>*Cavab:*</u>

Tapşırıq C (dərslik)

1. biz; 2. sən; 3. onlar; 4. mən; 5. siz; 6. o.

Tapşırıq C (iş dəftəri)

1. sən; 2. biz; 3. mən; 4. siz; 5. onlar; 6. o.

**Tapşırıq Ç (dərslik).** Bu tapşırıqda verilmiş cümlələrə feillər artırmaq lazımdır. Məsdər formasında olan feillərə cümlədəki şəxs əvəzliklərinə uyğun şəkilçilər artırmaq lazımdır.

<u>*Cavab:*</u>

*1. Biz müəllimin izahlarını diqqətlə dinlədik.*

*2. Boş vaxtım olanda mən kitab oxuyuram.*

*3. Sən həmişəki kimi ədalətli danışırsan.*

*4. O öz çalışqanlığı ilə hər zaman hamıdan seçilir.*

*5. Onlar bütün problemlərin həllində yaxından iştirak etdilər.*

*6. Siz Vətənin torpaqlarını göz bəbəyi kimi qorumalısınız.*

**Tapşırıq A (iş dəftəri).** Tapşırığın tələbinə əsasən *bacarmaq* feilini şəxsə görə dəyişərək cədvəli tamamlamaq lazımdır.

<u>*Cavab:*</u>

| | | |
|---|---|---|
| *I şəxs* | *Mən bacardım* | *Biz bacardıq* |
| *II şəxs* | *Sən bacardın* | *Siz bacardınız* |
| *III şəxs* | *O bacardı* | *Onlar bacardılar* |

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər bu tapşırıqda şəxs əvəzliklərinə uyğun feilləri seçərək onları nümunədə olduğu kimi uyğunlaşdırırlar.

<u>*Cavab:*</u>

*Sən soruşursan. Sən oxudun.*

*O yazdı. O gülür.*

Tapşırıq şagirdlərin yeni mövzunu mənimsəmələrinə kömək edir.

**Tapşırıq Ç (iş dəftəri).** Bu tapşırıq vasitəsilə şagirdlərin nəzərinə çatdırılır ki, cümlədə feillər yalnız şəxsə görə deyil, həm də kəmiyyətə görə dəyişir.

<u>*Cavab:*</u>

*1. Mən üçüncü sinifdə oxuyuram – Biz üçüncü sinifdə oxuyuruq.*

*2. Sən düzgün qərar vermisən – Siz düzgün qərar vermisiniz.*

*3. O, bir neçə dil öyrənib – Onlar bir neçə dil öyrəniblər.*

**Müəllimin nəzərinə!** Bu tapşırığı əksinə davam etdirmək də olar. Şagirdlərə şəxs əvəzliyi cəmdə olan cümlə vermək olar. Onlar bunu həmin əvəzliyin təki ilə əvəz edərək dəyişə bilərlər. Bu zaman dəyişən feil şəkilçilərinə diqqət etmək lazımdır. Bu tapşırıq qazanılmış bilikləri möhkəmlətməklə bərabər, şagirdlərdə yeni bacarıqlar formalaşdırır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlədə şəxs əvəzlikləri ilə feilləri qrammatik baxımdan uzlaşdırır. | Tap. A, B, C, Ç (dərslik), tap. A, B, C, Ç (iş dəftəri) |

# fəsil 4 QIZ QALASI

## 1-ci dərs. “Odlar qızı”

• Dərslik: səh. 70–71 • İş dəftəri: səh. 47

### Təlim məqsədləri

• Mətni sürətli, səlis, aydın səslə oxuyur (st. 3-2.1.1).
• Yaxınmənalı sözlərin köməyi ilə sözləri izah edir (st. 3-4.4.2).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Mətnin tərkib hissələrini, struktur elementlərini onun əsas məzmunu ilə əlaqələndirir (st. 3-2.4.3).
• Sətiraltı fikir və informasiyanı izah edir (st. 3-2.3.1).
• Əfsanə janrını səciyyələndirən xüsusiyyətləri müəyyən edir (st. 3-2.4.3).
• Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir (st. 2.2.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Tarixi abidələr haqqında söhbət |
| 2 | **Oxu. Söz ehtiyatı** | “Qız qalası” mətninin oxusu; yeni sözlərin mənimsədilməsi |
| 3 | **Oxuyub-qavrama** | Hekayə xəritəsinin tərtib edilməsi |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlərin Qız qalası haqqında bildiklərini danışırlar. Qalanın adı ilə bağlı şagirdlər öz təxminlərini söyləyirlər. Müəllim şifahi nitq fəaliyyətini genişləndirmək üçün şagirdlərə tapşıra bilər ki, qalanın adı ilə bağlı əfsanə düşünüb-danışsınlar. Nəzərə almaq lazımdır ki, şagirdlər artıq əfsanə janrının xüsusiyyətləri ilə tanışdırlar.

### Oxu

3-2.1.1 Müəllim şagirdlərlə növbəli şəkildə mətnin oxusunu təşkil edir. Onlara səlis, aydın səslə oxumaq tövsiyə olunur. Şagirdlərə xatırladır ki, mətnin oxusu zamanı söz boğçasına daxil olmayan elə sözlərlə qarşılaşa bilərlər ki, mənasını dəqiq bilmirlər. Həmin sözləri qeyd etmək tap-

şırılır. Əgər oxu mərhələsi bitdikdən sonra belə sözlər qeyd olunursa, onlar üzərində iş aparılır. Həmin sözləri müəllim izah edir.

### Söz ehtiyatı

3-4.4.2 **Tapşırıq A (iş dəftəri).** Bu tapşırıqdakı cümlələrdə söz boğçasındakı sözlərin mənasına uyğun gələn ifadələr işlənib. Şagirdlər həmin ifadələrin mənalarını müəyyən etməli və söz boğçasından onlara mənaca yaxın olan sözləri uyğun sətirlərdə yazmalıdırlar. Tapşırığın əsas məqsədi şagirdlərin yeni sözləri mənimsəməsi və nitqdə işlətməsidir.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Bu çalışma modeli şagirddən diqqətli oxu bacarığı tələb edir.

Cavab:

2-ci və 4-cü sualların cavabı mətndə yoxdur. Çünki düşmən tərəfinin nə qədər itki verməsi və ilk dəfə qalanı kimin Qız qalası adlandırması haqqında mətndə məlumat verilmir. 1-ci sualın cavabı mətndə var. Düşmənin tez-tez şəhərə hücum etməsinin səbəbi bu yurdun zəngin təbii sərvətlərinin olması idi. 3-cü sualın cavabı mətndə birbaşa olmasa da, onu müəyyən etmək asandır. Mətndə şəhərin 90 gün mühasirədə qaldığı deyilir. Şagirdlər bunu asanlıqla müəyyən edə bilərlər ki, 90 gün 3 aydır.

3-2.4.3 **Tapşırıq C (dərslik).** Tapşırıqda mətndəki hadisələrin hansı problemdən başlandığı və necə həll olunduğu soruşulur.

Cavab: Mətndəki əsas problem şəhərin yadellilər tərəfindən mühasirəyə alınmasıdır. Problem möcüzəli Odlar qızının düşməni məğlub etməsi ilə öz həllini tapır.

Tapşırığın əsas məqsədi şagirdlərin oxuyub-qavrama bacarığını inkişaf etdirməkdir.

3-2.3.1 **Tapşırıq Ç (dərslik).** Tapşırıqda belə cümlə verilib: *Qədimdə Qız qalası mayak rolunu oynayırdı.* Şagirdlərə "mayak" sözünün mənası xatırladılır (onlar əvvəlki siniflərdə bu sözlə tanış olublar): *Mayak gəmilərə yol göstərmək məqsədilə sahil yaxınlığında inşa olunan tikilidir. Mayak* sözünün mənasını xatırladıqdan sonra şagirdlər mətnin birinci abzasında verilən fikri təsdiq edən cümləni seçməlidirlər.

Cavab: *Şəhərə yaxınlaşan hər bir gəmiçi onu uzaqdan görürdü.*

3-2.4.3 **Tapşırıq D (dərslik).** Bu tapşırıqda şagirdlərdən mətnin əfsanə janrına aid olmasını əsaslandırmaq tələb olunur.

Cavab: Alovun gözəl bir qıza dönməsi, mavi alovdan qılıncın olması, yerin odlu nəfəsinin alovlanıb yanması və s. hadisələr qeyri-adi, möcüzəli olduğu üçün mətn əfsanədir.

3-2.2.1 **Tapşırıq E (dərslik).** Tapşırığın tələbinə əsasən şagirdlər mətndəki hadisələrin düzgün ardıcıllığını müəyyən etməlidirlər. Ardıcıllıq aşağıdakı kimi olmalıdır.

Cavab: 2, 3, 1, 4.

3-2.2.1 **Tapşırıq B (iş dəftəri).** Tapşırıqda "Odlar qızı" mətninin məzmununa aid hekayə xəritəsini tamamlamaq tələb olunur. Tapşırığı yerinə yetirmək üçün müəllim tövsiyə edir ki, şagirdlər hekayə xəritəsini diqqətlə nəzərdən keçirsinlər. Boşluqları hansı məlumatlarla tamamlamalı olduqlarını özləri üçün müəyyən etsinlər. Sonra işin icrasına başlasınlar.

Cavab:

Mətnin adı: Odlar qızı.

Məkan: Odlar yurdu, Abşeron torpağında şəhər.

Baş qəhrəman: möcüzəli Odlar qızı.

Digər obrazlar: Şəhərin ağsaqqalı, şəhər əhalisi, düşmənlər.

Plan:

1. *Giriş hissə:* Sahildə ucalan möhtəşəm qala
2. *Əsas hissə:*
1) Şəhərin düşmən mühasirəsində qalması
2) Ağsaqqalın Od tanrısına müraciəti
3) Odlar qızının qalanın başında görünməsi
4) Odlar qızının yurdunu xilas etməsi
3. *Sonluq hissə:* Qalanın "Qız qalası" adlandırılması

Hekayə xəritəsini tərtib etməklə şagirdlər oxuduqları mətni dərindən mənimsədiklərini nümayiş etdirmiş olurlar. Tapşırıq qazanılmış biliklərin möhkəmləndirilməsinə xidmət edir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Fikrin dəqiq ifadə olunmasında yaxınmənalı sözlərin rolunu müəyyən edir. | Tap. A (iş dəftəri) |

| | |
|---|---|
| Mətnin məzmununa uyğun olan (olmayan) fikirləri müəyyən edir. | Tap. B (dərslik) |
| Mətnin kompozisiyasında problemin yaranması və həlli məqamlarını müəyyən edir. | Tap. C (dərslik) |
| Oxuduğu mətnə istinad etməklə fakt və ya mülahizələrin həqiqətə uyğunluğunu əsaslandırır. | Tap. Ç (dərslik) |
| Əfsanə janrını səciyyələndirən xüsusiyyətləri müəyyən edir. | Tap. D (dərslik) |
| Epizodların mətndəki ardıcıllığını müəyyən edir. | Tap. E (dərslik) |
| Mətnin tərkib hissələrini müəyyən edir. | Tap. B (iş dəftəri) |

## 2-ci dərs. "Qız qalası"

• Dərslik: səh. 72 • İş dəftəri: səh. 48

**Təlim məqsədləri**

• İnformativ mətndəki əsas faktları müəyyən edir (st. 3-2.2.1).
• Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya və s.) onun əsas məzmunu ilə əlaqələndirir (st. 3-2.4.3).
• Mətndə müəllif mövqeyini faktlardan, təxəyyülü real hadisədən fərqləndirir (st. 3-2.4.4).
• Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st. 3-2.4.4).
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 3-3.2.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Kiçik şeir parçasının oxunması |
| 2 | **Oxuyub-qavrama** | İnformativ mətnin mənimsədilməsi |
| 3 | **Yazı** | Mətnin məzmununa uyğun hekayə xəritəsinin tərtib olunması |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sinfə kiçik bir şeir parçası ilə müraciət edir:

*Xəzərin sahilində*
*Sirli qala ucalır.*
*Onun əzəmətindən*
*Böyük bir xalq güc alır.*
Söhbət hansı qaladan gedir?

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq A (dərslik).** Mətnin oxusuna başlamazdan əvvəl müəllim şagirdlərə xatırladır ki, oxu zamanı rast gəldikləri faktları dəftərdə qeyd etmək lazımdır. Sonra səssiz oxu prosesi həyata keçirilir. Şagirdlər mətndən aşağıdakı qeydləri götürə bilərlər.

*Cavab:*
1. Bakıda yerləşir.
2. Hündürlüyü 28 metrdir.
3. 8 mərtəbədən ibarətdir.
4. Qorunan abidədir.

Oxu başa çatdıqdan sonra şagirdlər öz qeydlərini səsləndirirlər. Mətni qeydlər götürməklə oxumaq diqqətli oxunu təmin edən vasitələrdəndir.

3-2.4.3 **Tapşırıq B (dərslik).** Tapşırığın tələbinə əsasən şagirdlər mətnin bitkin hissələrini yarımbaşlıqlara ayırmalıdırlar. Tapşırığı icra etmək üçün şagirdlərdən bitkin hissələri fərqləndirə bilmək bacarığı tələb olunur. Mətn hissələrə ayrıldıqdan sonra yarımbaşlıqlar şəklində adlandırılmalıdır. Adlandırma söz birləşməsi və ya sual cümləsi şəklində ola bilər.

*Nümunə:*
1. Azərbaycanın simvolu
2. Qalanın quruluşu
3. Qız qalasının sirləri
4. Qalanın yaşı
5. Qalanın təyinatı

Mətni bitkin hissələrə ayırmaq və həmin hissələri adlandırmaq şagirdlərin mətnin strukturunu və məzmununu anladıqlarını nümayiş etdirir.

3-2.4.4 **Tapşırıq C (dərslik).** Tapşırığın şərtinə görə şagirdlər mətndən verilən fikirlərin fakt, yoxsa mülahizə olduğunu müəyyən edirlər.

*Cavab:*
1-ci və 2-ci cümlədə ifadə olunan faktdır. Digər cümlələrdəki fikirlər isə öz təsdiqini tapmadığı üçün mülahizədir.

3-2.2.1 **Tapşırıq A (iş dəftəri).** Bu tapşırıq iki mərhələdən ibarətdir. Şagirdlərə "Odlar qızı" və "Qız qalası" mətnlərindən suallar təqdim olunur.

Onlar əvvəlcə sualların hansı mətnə aid olduğunu qeyd etməlidirlər. Sonra isə sualların altından onların cavablarını yazmalıdırlar.

<u>*Cavab:*</u>

1-ci və 4-cü suallar "Odlar qızı" mətninə aiddir.

2-ci və 3-cü suallar isə "Qız qalası" mətninə aiddir.

*1. Yurdun xilası üçün ağsaqqal Od tanrısından kömək istədi.*

*2. Qız qalası 8 mərtəbədən ibarətdir.*

*3. Bu sualın cavabı şagirdlərin öz yanaşmasından asılıdır.*

*4. Odlar qızı düşmənin üzərinə hücum etdi. Beləcə, Odlar yurdu düşməndən azad oldu.*

Mətnləri diqqətlə oxuyan şagird sualları cavablandırmaqla yanaşı, onların hansı mətnə aid olduğunu da asanlıqla müəyyən edəcək.

3-2.4.4 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər "Qız qalası" və "Odlar qızı" mətnini məzmun xüsusiyyətlərinə görə müqayisə edirlər.

<u>*Cavab:*</u>

"Odlar qızı" mətninə aid xüsusiyyətlər:

1. Bədii mətndir; 2. Möcüzəli əhvalat var; 4. Obrazlar var.

"Qız qalası" mətninə aid xüsusiyyətlər:

3. Faktların sayı çoxdur; 5. İnformativ mətndir; 6. Qalanın geniş təsviri var.

Bu tapşırıq şagirdlərin müqayisə etmə bacarığını inkişaf etdirməklə yanaşı, bədii və informativ mətnlərin fərqi haqqında təsəvvürlərini dərinləşdirir.

### Yazı

3-3.2.5 **Tapşırıq Ç (dərslik).** Tapşırığın şərtinə əsasən şagirdlər "Qız qalası" mətnindən götürdükləri qeydləri qruplaşdırmaqla "Yaddaş xəritəsi" tərtib edirlər. Bu tapşırıq qazanılmış biliklərin möhkəmləndirilməsində, faktları qruplaşdırmaq bacarığının inkişafında önəmli rol oynayır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Qeyd götürməklə mətni oxuyur. | Tap. A (dərslik) |
| Mətnin hissə və epizodlarını uyğun yarımbaşlıqlarla (sual cümləsi və ya söz birləşməsi ilə) adlandırır. | Tap. B (dərslik) |
| Oxuduğu mətnə istinad etməklə fakt və ya mülahizələrin həqiqətə uyğunluğunu əsaslandırır. | Tap. C (dərslik) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. A (iş dəftəri) |
| Bədii və informativ mətnləri məzmun xüsusiyyətlərinə görə fərqləndirir. | Tap. B (iş dəftəri) |
| Məlumatları qrafik informasiya (məlumat vərəqi, cədvəl, diaqram, sxem) şəklində təqdim edir. | Tap. D (dərslik) |

## 3-cü dərs. Feilin zamanları

• Dərslik: səh. 73 • İş dəftəri: səh. 49

**Təlim məqsədləri**

• Cümlədəki sözlər arasındakı əlaqədən çıxış edərək feili uyğun qrammatik formada işlədir (st. 3-4.2.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Feilin zamanları haqqında söhbət |
| 2 | **Dil qaydaları** | İş və ya hərəkətin icra vaxtını müəyyən etməklə feilin zamanlarının fərqləndirilməsi; feili müxtəlif zamanlarda işlədərək cümlələr qurulması; feillərin zamanlara görə qruplaşdırılması |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhəyə beş feil yazır:

*Oxudu, oxumuşdur, oxuyur, oxuyacaq, oxuyar.*

O, *"Bu feillər bir-birindən nəyə görə fərqlənir?"* sualı ilə sinfə müraciət edir. Şagirdlər aşkar edirlər ki, 1) eyni hərəkəti ifadə edir, 2) hərəkətin icraçısı 3-cü şəxsin təkidir. Müəllimin yönəldici sualları ilə şagirdlər müəyyən edirlər ki, burada fərqlənən hərəkətin icra olunduğu zamandır.

## Dil qaydaları

3-4.2.1 **Tapşırıq A (dərslik).** Tapşırığı yerinə yetirdikdən sonra şagirdlərdə zaman haqqında müəyyən fikir formalaşır.

**"Bunları bilməliyik" rubrikasında** feilin zamanları haqqında məlumat və nümunələr verilib. Şagirdlər zaman şəkilçiləri və zamandan asılı olaraq feilin sualları ilə tanış olurlar.

**Tapşırıq B (dərslik).** Verilmiş cümlələrdə feilin hansı zamana aid olduğu müəyyən edilir.

1. oynayırlar (indiki zaman);
2. gedəcəyik (gələcək zaman);
3. yayıldı (keçmiş zaman);
4. əyləşdi (keçmiş zaman);
5. danışar (gələcək zaman);
6. hazırlaşmışam (keçmiş zaman);
7. seçirsən (indiki zaman).

Tapşırıq şagirdlərdən həm feilləri seçmək, həm də onların aid olduğu zamanı müəyyən etmək bacarığı tələb edir.

**Tapşırıq C (dərslik).** Bu tapşırıqda feillər verilib. Şagirdlər onları müxtəlif zamanlarda cümlələrdə işlətməlidirlər. Tapşırıq cümlə qurmaq bacarığını inkişaf etdirməklə yanaşı, feilləri müxtəlif zamanlarda cümlənin tərkibində dəyişmək vərdişi formalaşdırır.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər verilmiş cümlələrin tərkibindəki feilləri tələb olunan zamana görə dəyişirlər.

*Cavab:*

Aqşin dərsə gecikdi – *gecikir.*

Dostlarım bizə qonaq gəldilər – *gələcəklər.*

Bağban ağacları suladı – *sulayar.*

Əli babasına məktub yazır – *yazdı.*

**Tapşırıq A (iş dəftəri).** Tapşırıqda cədvəl verilib. Verilən feilləri zamana uyğun olaraq cədvəlin xanalarına düzgün yazmaq lazımdır.

*Cavab:*

Keçmiş zaman: *yazdı, yoxladı, gəlmişdir, dedi.*

İndiki zaman: *gətirir, danlayır, alır, yatır.*

Gələcək zaman: *danışacaq, soruşar, bağışlayacaq, gözləyər.*

**Tapşırıq B (iş dəftəri).** Tapşırıqda verilən sözlərdən cümlələr qurmaq lazımdır. Diqqət etmək lazımdır ki, feil mötərizə daxilində verilmiş zamanda işlədilsin.

*Cavab nümunəsi:*

1. Arif dərslərinə səylə hazırlaşmışdı.
2. Qış fəslində ayı mağarada yatır.
3. Aysu bayramda rəfiqəsinə hədiyyə alacaq.

**Tapşırıq C (iş dəftəri).** Bu tapşırıq şagirdlərin məntiqini yoxlayır və möhkəmləndirir. Şagirdlər söz sırasında olan dörd feildən hansının fərqli olduğunu müəyyən edirlər.

*Cavab:*

1 – b; sıradakı feillər indiki zamandadır, fərqlənən feil isə gələcək zamanda işlənib.

2 – c; sıradakı feillər keçmiş, fərqlənən isə indiki zamandadır.

3 – ç; sıradakı feillər gələcək, fərqlənən isə keçmiş zamandadır.

Bu tapşırıq şagirdlərin feilin zamanı haqqında öyrəndiklərini tətbiq etməyə imkan verir.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Hərəkətin zamanından asılı olaraq feili uyğun qrammatik formada işlədir. | Tap. A, B (dərslik), tap. C (iş dəftəri) |
| Kontekstdən asılı olaraq feilin qrammatik formasını müəyyən edir. | Tap. C, Ç (dərslik), tap. A, B (iş dəftəri) |

fəsil 5 **AZƏRBAYCAN QALALARI**

## 1-ci dərs. Qalalarımız

• Dərslik: səh. 74–75 • İş dəftəri: səh. 50

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Mətni intonasiya ilə oxuyur (st. 3-2.1.1).
• Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır (st. 3-1.3.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Azərbaycanda olan qalaların xatırlanması |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Qalalarımız" mətninin oxusu; yeni sözlərin mənimsədilməsi |
| 3 | **Danışma** | Qalaların təyinatı haqqında söhbət |
| 4 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzərində iş |
| 5 | **Danışma** | Şəklin təsvir edilməsi və mövzu üzrə təxminetmə |
| 6 | **Formativ qiymətləndirmə** | |

**Köməkçi vasitələr:** illüstrasiyalar.

### Mövzuya yönəltmə

Müəllim sinfə aşağıdakı suallarla müraciət edir:

– *Azərbaycanda yerləşən hansı qala adlarını eşitmisiniz? Yaşadığınız ərazidə qala varmı? Qala ilə qayanın fərqi nədir?*

***Qeyd:*** Azərbaycanın bir çox guşələrində qədim qala qalıqları mövcuddur və yerli əhali indi də onların adlarını nitqdə işlədir. Buna görə də şagirdlər əvvəlki dərslərdə tanış olduqları Qız qalasından başqa, Çıraqqala, Əlincəqala və s. qala adlarını çəkə bilərlər.

### Danışma

3-1.3.3 **Tapşırıq A (dərslik).** Şagirdlər bildikləri məlumatlar və məntiq əsasında qalaların məqsədi haqqında fikir yürüdürlər. Onlar baxdıqları filmlərdən, oxuduqları mətnlərdən də müəyyən nəticələrə gələ bilərlər.

Müəllim fikirləri ümumiləşdirə bilər:

*Qədimdə qalalar müdafiə məqsədilə tikilirdi. Adətən, qalalar ən hündür ərazilərdə, yüksəkliklərdə tikilərdi. Çünki hündürlükdən düşmənin yaxınlaşdığını, bütün ətrafı asanlıqla müşahidə etmək mümkün idi.*

*Təhlükəli vəziyyət yarananda elin qız-gəlinini, yaşlıları, uşaqları qalada qoruyurdular. Qalalara yaxınlaşmaq elə də asan olmurdu.*

### Oxu

3-2.1.1 **Növbəli oxu.** Şagirdlər növbəli oxu prosesinə cəlb edilirlər. Müəllim onların informativ mətnə uyğun səs tonuna, sözləri düzgün, aydın tələffüz etmələrinə nəzarət edir.

### Söz ehtiyatı

Oxudan sonra söz boğçasındakı sözlər müzakirə olunur. Müəllimin köməyi ilə şagirdlər yeni sözlərin mənasını izah edirlər. Bu sözlərin mənimsədilməsi ilə bağlı fəaliyyət iş dəftərində aparılır.

3-2.2.3 **Tapşırıq A (iş dəftəri).** Tapşırıqda verilmiş izahların qarşısında söz boğçasından uyğun gələn ifadəni yazmaq tələb olunur.

*Cavab:* 1. qatran; 2. sıldırım.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər tapşırıqda verilmiş cümlələrin mətnin məzmununa uyğun gəlib-gəlmədiyini müəyyən edirlər.

*Cavab:*

1-ci cümlədəki fikir *yanlışdır*, çünki Gələrsən-görərsən qalası Zaqatalada yox, Şəkidə yerləşir.

3-cü cümlədəki fikir də *yanlışdır*, çünki mətnə görə, şəkililər Nadir şaha təslim olmadılar.

2-ci, 4-cü, 5-ci cümlələrdə ifadə olunan fikirlər *doğrudur*.

Bu tip tapşırıqlar diqqətli oxu bacarığını inkişaf etdirir.

3-2.2.1 **Tapşırıq C (dərslik).** Bu tapşırıqda mətnin giriş və sonluq hissəsində verilən məlumatların hansı qalaya aid olduğu sual olunur. Tapşırıq test xarakterlidir. Şagirdlər verilən cavablardan uyğun olanı seçməlidirlər.

Mətnin giriş və sonluq hissəsində qalalar haqqında ümumi məlumat verilib: qalaların yerləşdiyi coğrafi mövqe, tikilmə məqsədi, onların tarixi əhəmiyyəti və qorunmasının vacibliyi. Bu məlu-

matlarda ayrılıqda hər hansı qalaya aid fərqli xüsusiyyət öz əksini tapmadığı üçün onları hər iki qalaya şamil etmək olar.

Cavab: C. Hər iki qalaya.

Bu tapşırıq mətnin tərkib hissələrini fərqləndirməklə yanaşı, şagirdlərin oxuyub-qavrama bacarığını möhkəmləndirir.

3-2.2.1 **Tapşırıq B (iş dəftəri).** Bu tapşırıqda mətndən qalalara aid müxtəlif fikirlər verilib. Verilən fikirlərin hansı qalaya aid olması soruşulur. Gələrsən-görərsən qalasına aid fikirlər 1-ci xanada, Pəri qalasına aid fikirlər 2-ci xanada, hər ikisinə aid olan fikirlər isə 3-cü xanada işarələnir.

Cavab: 1 – 3; 2 – 2; 3 – 3; 4 – 1; 5 – 2; 6 – 1.

Tapşırıq mətnin bitkin hissələrinə aid məlumatları fərqləndirmək bacarığını inkişaf etdirir.

**Tapşırıq C (iş dəftəri).** Tapşırığın tələbinə əsasən mətnin tərkib hissələrinə aid suallar tərtib etmək lazımdır.

Nümunə:

*Giriş hissə:*

- Nə üçün qalaları yüksəkliklərdə salırdılar?
- Qalalardan nə məqsədlə istifadə olunurdu?

*Əsas hissə:*

- Nadir şahın Şəkiyə qoşun yeritməsinin səbəbi nə idi?
- Gələrsən-görərsən qalasının adı necə yarandı?
- Pəri qalası harada və necə tikilmişdi?
- Pəri qalasının adı necə yaranıb?

*Sonluq hissə:*

- Sizcə, niyə qalalarımızı qorumalıyıq?

**Müəllimin nəzərinə!** Sualları yazarkən yaxşı olar ki, şagirdlərə mətnin tərkib hissələri, ümumi məzmunda onların rol və funksiyaları xatırladılsın.

Tapşırıq şagirdlərin mətnin tərkib hissələrini fərqləndirməklə hər hissənin məzmununu necə qavradıqlarını yoxlayır.

3-1.3.2 **Tapşırıq Ç (dərslik).** Tapşırıqda haqqında danışılan hər iki qalaya aid illüstrasiya verilib. Şagirdlər mətndən aldıqları məlumat (qalaların görünüşü, yerləşdiyi mövqe və s.) əsasında illüstrasiyaların hansı qalalara aid olduğunu müəyyənləşdirir və onları sözlə təsvir edirlər.

Cavab: 1. Gələrsən-görərsən; 2. Pəri qalası.

Tapşırığın əsas məqsədi illüstrasiya əsasında mövzu üzrə danışmaq bacarığını inkişaf etdirməkdir.

### Danışma

3-1.3.3 **Tapşırıq D (dərslik).** Bu, şagirdlərin dünyagörüşünü, məntiqi təfəkkürünü, düşünmə qabiliyyətini və təxəyyülünü inkişaf etdirən bir tapşırıqdır.

Bu sualı şagirdlərin hər biri öz məntiqinə uyğun cavablandıra bilər. Müəllim cavabları bu şəkildə ümumiləşdirə bilər:

*Keçmişdə qalaları tikmək üçün heç bir texniki vasitə yox idi. Daşları kəsən aparat, onları dağların başına daşımaq üçün yük maşınları, tikinti materiallarını yuxarı daşımaq üçün qaldırıcı kranlar – bunların heç birinin olmadığı şəraitdə insanlar belə əzəmətli qalalar tikib bizə yadigar qoyublar. İnsanlar min metrlərlə məsafəyə hər şeyi əl və arabalarla daşıyıblar. Belə ağır zəhmət hesabına tikilən qalalarımız bizim mənəvi sərvətimizdir. Bu gün tikilən hündürmərtəbəli binaların tikintisi ilə qalalarımızın tikintisini müqayisə etsək, görərik ki, keçmişdə insanlarımız nə qədər ağır əl əməyindən istifadə ediblər.*

**Müəllimin nəzərinə!** Söhbəti müasir tikililərin inşasına yönəltməklə müqayisə aparmaq olar. Bu, keçmiş dövrün çətinliklərini daha aydın təsəvvür etməyə yardım edər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlar əsasında mövzu üzrə danışır. | Tap. A, D (dərslik) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Mətnin məzmununa uyğun olan (olmayan) məlumatları müəyyən edir. | Tap. B (dərslik) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. C (dərslik), tap. B (iş dəftəri) |
| Əldə etdiyi məlumatlar əsasında qrafik informasiyanı şərh edir. | Tap. Ç (dərslik) |
| Mətnin tərkib hissələrinə aid suallar tərtib edir. | Tap. C (iş dəftəri) |

## **2-ci dərs.** Məlumat vərəqləri üzərində iş

• Dərslik: səh. 76 • İş dəftəri: səh. 51

**Təlim məqsədləri**

• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Verbal-qrafik informasiyanı (məlumat vərəqi) mənimsədiyini nümayiş etdirir (st. 3-1.3.2).
• Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir (st. 3-2.3.1).
• Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st. 3-2.4.4).
• Mətni məzmununa və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır (st. 3-2.4.2).
• Qrafik informasiyanı yazıda rabitəli cümlələr şəklində təqdim edir (st. 3-3.2.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Tarixi şəxsiyyət” ifadəsi haqqında söhbət |
| 2 | **Oxu** | Faktoloji sualın cavablandırılması |
| 3 | **Danışma** | Məlumat vərəqlərindən istifadə etməklə mətnin məzmununun genişləndirilməsi |
| 4 | **Yazı** | Məlumat vərəqlərinin rabitəli mətn şəklində yazılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim “tarixi şəxsiyyət” ifadəsinə aydınlıq gətirir. *Kimə tarixi şəxsiyyət demək olar?* sualı ətrafında müzakirə aparılır. Yönəldici suallarla şagirdlər belə bir qənaətə gəlirlər ki, ölkələrin tarixində mühüm rol oynamış, adları tarixin yaddaşında qalmış insanlar tarixi şəxsiyyətlər sayılır.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq A (dərslik).** Tapşırıqda qoyulmuş sual faktoloji xarakter daşıyır və əvvəlki dərslə əlaqə yaratmağa xidmət edir. *Cavab:* Nadir şah və Əmir Teymur.

3-1.3.2 **Tapşırıq B (dərslik).** Bu tapşırıqda görkəmli şəxsiyyətlər haqqında məlumat vərəqləri təqdim olunub. Şagirdlər məlumat vərəqlərini oxumaqla qrafik informasiyanı rabitəli mətnə çevirmək bacarığını nümayiş etdirirlər.

Cavab nümunəsi:

**Nadir şah haqqında məlumat vərəqi**

*Nadir şah 1689-cu ildə Xorasanda sadə bir ailədə doğulub. Onun ana dili türk dili olub. O, böyük sərkərdə kimi şöhrət qazanıb. Nadir şah 1736-cı ildə 47 yaşında hakimiyyət başına gəlib. O, Hindistanı, Əfqanıstanı işğal edərək öz torpaqlarına qatıb, böyük Əfşarlar dövlətini yaradıb. Nadir şah ömrünün sonuna kimi hökmdar olub. O, 1747-ci ildə 58 yaşında vəfat edib.*

**Əmir Teymur haqqında məlumat vərəqi**

*Əmir Teymur 1336-cı ildə doğulub. O, türk, fars, ərəb dillərini bilib. Teymurilər dövlətinin başçısı olan Əmir Teymur 1370-ci ildə 34 yaşında hakimiyyətə gəlib. O, çoxlu ölkə fəth edib. Döyüşlərin birində ayağından yaralanıb. Bu yaralanmadan sonra Əmir Teymur həmişəlik axsayıb. Ona “Teymurləng” ləqəbi veriblər.*

*Əmir Teymur ömrünün sonuna kimi hökmdar olub. O, 1405-ci ildə 69 yaşında vəfat edib.*

**Müəllimin nəzərinə!** Məlumat vərəqində verilənlərdən çıxış edərək əlavə faktlar da toplamaq mümkündür. Məsələn, rəqəmlərdən və tarixi faktlardan istifadə etməklə həm Nadir şahın, həm də Teymurləngin neçə yaşında hakimiyyətə gəlməsi, neçə il hökmdar olması, neçə yaşında vəfat etməsi kimi məlumatlar əldə etmək olar. Şagirdlərə bu iş üsulu izah edilərək tövsiyə olunsa, onlara məlumat vərəqi üzərində işləmək daha maraqlı olar.

3-2.3.1 **Tapşırıq C (dərslik).** Bu tapşırıq şagirdlərin dil bacarıqları ilə yanaşı, riyazi təfəkkürünü də yoxlayır.

Məlumat vərəqlərindəki faktları tutuşdurmaqla sualları cavablandırmaq lazımdır.

*Cavab:*

*1. Hansı hökmdar əvvəl yaşayıb: Nadir şah, yoxsa Əmir Teymur?*

Nadir şahın doğum tarixi – 1689-cu il
Əmir Teymurun doğum tarixi – 1336-cı il
1689 – 1336 = 353
Əmir Teymur Nadir şahdan 353 il əvvəl doğulub.

*2. Nadir şah neçə yaşında hökmdar olub?*

Nadir şahın doğum tarixi – 1689-cu il
Hakimiyyətə gəldiyi il 1736-cı il

1736 – 1689 = 47
Nadir şah 47 yaşında hakimiyyətə gəlib.
*3. Nadir şah neçə il hökmdarlıq edib?*
Nadir şahın hökmranlıq illəri (1736–1747)
1747 – 1736 = 11
Nadir şah 11 il hökmranlıq edir.
*4. Əmir Teymur neçə il yaşayıb?*
Əmir Teymurun yaşadığı illər (1336–1405)
1405 – 1336 = 69
Əmir Teymur 69 il ömür sürüb.

Bu tapşırıq faktlardan istifadə etməklə yeni məlumat əldə etmək bacarığını inkişaf etdirir.

3-2.4.4 **Tapşırıq A (iş dəftəri).** Tapşırığa əsasən şagirdlər Nadir şah və Əmir Teymuru haqqında öyrəndikləri məlumatları müqayisə edirlər.

Cavab:
Nadir şaha aid xüsusiyyətlər: 4, 6, 7
Əmir Teymura aid xüsusiyyətlər: 2, 3, 8
Hər ikisinə aid xüsusiyyətlər: 1, 5

3-2.4.2 **Tapşırıq Ç (dərslik). Qruplarla iş**. Tapşırığın tələbinə əsasən şagirdlər əldə etdikləri yeni məlumatlardan istifadə etməklə "Qalalarımız" mətnini genişləndirib nəql etməlidirlər.

Tapşırığı yerinə yetirmək üçün iki qrup seçilir.

*I qrup.* Gələrsən-görərsən + Nadir şah haqqında məlumat vərəqi

*II qrup.* Pəri qalası + Əmir Teymur haqqında məlumat vərəqi

Tapşırıq şagirdlərin yaradıcılıq və şifahi nitq bacarıqlarını inkişaf etdirir.

### Yazı

3-3.2.1 **Tapşırıq B (iş dəftəri).** Tapşırığın tələbi ilə qrafik informasiya cümlələr şəklində yazılmalıdır.

Cavab nümunəsi:
*1. Nadir şah.*
Nadir şah 1689-cu ildə doğulub, 1747-ci ildə vəfat edib. O, 1736-cı ildən 1747-ci ilə qədər Əfşarlar dövlətinə başçılıq edib.
*2. Əmir Teymur.*
Əmir Teymur 1336-cı ildə doğulub, 1405-ci ildə vəfat edib. O, 1370-ci ildən 1405-ci ilədək Teymurilər dövlətinə başçılıq edib.

Tapşırıq şagirdlərin qrafik informasiyanı yazıda rabitəli mətnə çevirmək bacarığını formalaşdırır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. A (dərslik) |
| Verbal-qrafik informasiyanı (məlumat vərəqi, cədvəl, sxem) mənimsədiyini nümayiş etdirir. | Tap. B (dərslik) |
| Faktlardan istifadə etməklə mətndə birbaşa əks olunmayan məlumat əldə edir. | Tap. C (dərslik) |
| Əldə etdiyi məlumatlara və ya təxəyyülünə əsasən mətnə yeni epizodlar əlavə edir. | Tap. Ç (dərslik) |
| Mətn(lər)dən əldə etdiyi məlumatları müqayisə edir və qruplaşdırır. | Tap. A (iş dəftəri) |
| Qrafik informasiyanı yazıda rabitəli cümlələr şəklində təqdim edir. | Tap. B (iş dəftəri) |

## 3-cü dərs. Rəvayət

• Dərslik: səh. 77 • İş dəftəri: səh. 52

**Təlim məqsədləri**
• Rəvayət janrını səciyyələndirən xüsusiyyətləri müəyyən edir (st. 3-2.4.3).
• Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st. 3-2.4.4).
• Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir (st. 3-1.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mətn növlərinin xatırlanması |
| 2 | **Oxuyub-qavrama** | Rəvayət janrı haqqında ilkin təsəvvürün yaradılması |
| 3 | **Dinləmə** | "Brilyant qaşlı üzük" mətni üzrə iş |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

3-2.4.3 **Tapşırıq A (dərslik).** Əfsanə ilə rəvayət arasındakı fərqi aydınlaşdırmaq üçün dərslikdəki

A tapşırığından istifadə olunur: *Bu bölmədəki hansı mətndə möcüzəli hadisəyə rast gəlinmir?*

Cavab: Qalalar mətnində.

Digər mətnlər əfsanə olduğu üçün onlarda möcüzəli hadisələrin təsviri var. Beləliklə, şagirdlər bölmənin mətnlərini yenidən yada salırlar.

## Oxuyub-qavrama

3-2.4.4 "Yadda saxla" rubrikasında rəvayətin janr xüsusiyyətləri haqqında məlumat verilib.

**Tapşırıq B (dərslik).** Bu tapşırıqda Əmir Teymurla bağlı iki mətn verilib. Şagirdlər hər iki mətni növbəli şəkildə oxuyurlar. Oxu başa çatdıqdan sonra mətnlərdən hansının rəvayət olduğu müəyyənləşdirilir.

Bu mətnlərdən birincisi rəvayətdir. Bu mətnin tərkibində "deyilənə görə" ifadəsinin işlənməsi onun rəvayət olması fikrini təsdiq edir. İkincisi isə informativ mətndir. Çünki həqiqətən baş vermiş döyüşdən bəhs olunur, həmin döyüşün konkret tarixi göstərilir.

## Dinləmə

3-1.1.2 **Tapşırıq C (dərslik).** Tapşırığın məqsədi şagirdlərə rəvayət janrının səciyyəvi xüsusiyyətlərini mənimsətməkdir. Müəllim "Brilyant qaşlı üzük" mətnini səsləndirir və şagirdlərə tapşırır ki, dinləmə zamanı rəvayətə xas xüsusiyyətlərə diqqət etsinlər.

**Brilyant qaşlı üzük**

*Deyilənə görə, bir gün Hacı Zeynalabdinin könlünə balıq ləvəngisi düşür. Aşpazını bazara göndərir ki, balıq alsın. Aşpaz bir azdan əliboş qayıdır. Deyir ki, bazarda bir dənə də olsun təzə balıq yoxdur. Hacı özü bazara gedib bunun səbəbini öyrənir. Balıqçılardan biri deyir:*

*– Dənizdə bir neçə gün külək oldu. Balıqçılar ova çıxmadılar. İndi də balığın qiymətini elə qaldırıblar ki, gətirib satmaq sərf eləmir.*

*Ertəsi gün Hacı Zeynalabdin faytona minib dəniz qırağına gedir. Balıqçılardan təzə tutulmuş balıq alır. Barmağından çox bahalı brilyant üzüyünü çıxarıb balığın ağzına atır. Balıq üzüyü udan kimi onu suya buraxır. Bir söz demədən evə qayıdır.*

*Bu xəbər bütün balıqçılara yayılır. Balıqçılar qarnında brilyant üzük gəzdirən balığın axtarışına çıxırlar. İki gündən sonra Bakı bazarlarında balıq əlindən tərpənmək olmur. Balığın qiyməti elə ucuzlaşır ki, ən kasıb adamlar belə balıq ala bilirlər.*

Şagirdlər mətni dinlədikdən sonra müzakirə edirlər vərəvayətə xas xüsusiyyətləri əsaslandırırlar.

**Müəllimin nəzərinə!** Müəllim Hacı Zeynalabdin Tağıyevin (1823-1924) həyatı və xeyriyyəçilik fəaliyyəti haqqında əlavə məlumat verə bilər və yaşagirdlərə onun haqqında araşdırma aparmaq tapşırıla bilər.

**Tapşırıq A, B, C (iş dəftəri).** İş dəftərindəki tapşırıqlar vasitəsilə şagirdlər dinlədikləri mətnin mövzu, məzmun, janr xüsusiyyətlərini mənimsədiklərini nümayiş etdirirlər. A tapşırığını yerinə yetirməklə şagirdlər mətnin mövzusunu (Ç variantı) müəyyənləşdirirlər.

Şagirdlər C tapşırığını yerinə yetirərkən təxminən bu fikirləri yaza bilərlər:

– Mətndə real məkan və tarixi şəxsiyyətin adı çəkilib.

– Mətndə möcüzəli əhvalat yoxdur.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii mətnlərin janrlarını səciyyələndirən xüsusiyyətləri müəyyən edir. | Tap. A (dərslik) |
| Bədii və informativ mətnləri məzmun və struktur xüsusiyyətlərinə görə müqayisə edir. | Tap. B (dərslik) |
| Dinlədiyi mətnin məzmun-bədii xüsusiyyətlərinə görə janrını müəyyən edir. | Tap. C (dərslik), tap. A, B, C (iş dəftəri). |

## 4-cü dərs. Feilin şəxsə və zamana görə dəyişməsi

• Dərslik: səh. 78 • İş dəftəri: səh. 53

**Təlim məqsədləri**

• Cümlədəki sözlər arasındakı əlaqədən çıxış edərək feili uyğun qrammatik formada işlədir (st. 3-4.2.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Feillərə mümkün qrammatik şəkilçilər artırmaqla xatırlatma |
| 2 | **Dil qaydaları** | Feilin şəxsə və zamana görə dəyişməsinin mənimsədilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə feilin zamanlarını və şəxs əvəzliklərini xatırladır. Sonra lövhəyə *öyrənmək* feilini yazır. Müəllim şagirdləri bir-bir lövhəyə dəvət edir. Onlara feilə mümkün şəkilçilər artırmaq tapşırığı verir.

### Dil qaydaları

3-4.2.1 **Tapşırıq A (dərslik).** Bu tapşırıqda *yazmaq* feili cümlələrin tərkibində müxtəlif zamanlarda şəxslər üzrə dəyişib. Şagirdlər bu feilin hansı şəxsə və zamana aid olduğunu müəyyən etməlidirlər.

*Cavab:*

*Yazdım* – 1-ci şəxs, keçmiş zaman

*Yazırsan* – 2-ci şəxs, indiki zaman

*Yazacaq* – 3-cü şəxs, gələcək zaman

Tapşırığın ardınca feilin şəxsə və zamana görə dəyişməsi “Bunları bilməliyik” rubrikasında izah olunur. Yaxşı olar ki, müəllim *çalışmaq* feilini lövhədə bütün şəxslər üzrə indiki zamanda dəyişərək şəkilçilərin qoşulma ardıcıllığını şagirdlərə izah etsin. Eyni zamanda o da diqqətə çatdırılır ki, 3-cü şəxsin təki bəzən şəxs sonluğunu *(-dır)* qəbul etmir (*yazır, yazdı, yazar* və s.).

**Tapşırıq B (dərslik).** Bu tapşırıqda cümlələr verilib. Nümunəyə əsasən həmin cümlələrin tərkibindəki feillərin zamanını və zaman şəkilçilərini müəyyən etmək lazımdır.

*Cavab:*

2. Sən bu işi bacaracaqsan. *(gələcək zaman)*

3. Mən babamı çox istəyirəm. *(indiki zaman)*

4. Siz bu xəbərə çox sevinəcəksiniz *(gələcək zaman)*

5. O, səbirlə hamını dinlədi. *(keçmiş zaman)*

6. Biz sizi axşam yeməyinə gözləyirik. *(indiki zaman)*

Tapşırığı yerinə yetirməklə şagirdlər feildə zaman məfhumu yaradan şəkilçini müəyyənləşdirmiş olurlar.

**Tapşırıq C (dərslik).** Bu tapşırıqda verilən feillərdə şəxs sonluqlarını müəyyən etməklə hərəkətin hansı şəxsə aid olduğunu müəyyənləşdirmək tələb olunur.

*Cavab:*

Böldük (I şəxsin cəmi), cücərdi (şəxs sonluğu yoxdur; III şəxsin təki), büdrədim (I şəxsin təki), bişirirsən (II şəxsin təki), buraxdılar (III şəxsin cəmi), bilərsiniz (II şəxsin cəmi), bəyənirik (I şəxsin cəmi), xoşladın (II şəxsin təki), bəsləyirlər (III şəxsin cəmi), çağıracağıq (I şəxsin cəmi), oxudunuz (II şəxsin cəmi), çaşıram (I şəxsin təki), calayarsan (II şəxsin təki).

Tapşırıq yeni qazanılmış biliklərin möhkəmləndirilməsinə xidmət edir.

**Tapşırıq Ç (dərslik).** Tapşırıqda verilmiş feillər əsasında cədvəli nümunəyə uyğun tamamlamaq tələb olunur.

| Feil | Zaman | Şəxs |
|---|---|---|
| dağıdacaqlar | gələcək zaman | III şəxsin cəmi |
| inanmışıq | keçmiş zaman | I şəxsin cəmi |
| dərdi | keçmiş zaman | III şəxsin təki |
| dayandıq | keçmiş zaman | I şəxsin cəmi |
| güvənirəm | indiki zaman | I şəxsin təki |
| dəyişdiniz | keçmiş zaman | II şəxsin cəmi |
| istədim | keçmiş zaman | I şəxsin təki |

Tapşırığın əsas məqsədi feilin qrammatik formasının zamana və şəxsə görə necə dəyişdiyini qavramaq, beləliklə, şagirdlərdə dil duyumunu inkişaf etdirməkdir.

**Tapşırıq D (dərslik).** Tapşırıqda *qaçmaq, susmaq, görüşmək* feillərini şəxsə və zamana görə dəyişmək tələb olunur.

Tapşırıq qazanılmış bilikləri möhkəmləndirir.

**Tapşırıq A (iş dəftəri).** Verilmiş cədvəli nümunə əsasında tamamlamaq tapşırığın tələbidir.

*Cavab:*

*Keçmiş zaman*

Mən oxudum; Sən oxudun; O oxudu;
Biz oxuduq; Siz oxudunuz; Onlar oxudular.

*İndiki zaman*

Mən oxuyuram; Sən oxuyursan; O oxuyur;
Biz oxuyuruq; Siz oxuyursunuz; Onlar oxuyurlar.

*Gələcək zaman*

Mən oxuyacağam; Sən oxuyacaqsan; Onlar oxuyacaqlar;
Biz oxuyacağıq; Siz oxuyacaqsınız; Onlar oxuyacaqlar.

**Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq dərslikdəki C tapşırığının analoqudur. Tapşırığın şərtinə əsasən cədvəli verilmiş feillər üzrə tamamlamaq lazımdır. Tapşırığı yerinə yetirməklə şagirdlər mənimsədikləri bilik və bacarıqlarını möhkəmləndirirlər.

| Feil | Zaman | Şəxs |
|---|---|---|
| yaşayırıq | indiki zaman | I şəxsin cəmi |
| soruşdun | keçmiş zaman | II şəxsin təki |
| yoxlayırlar | indiki zaman | III şəxsin cəmi |
| söyləyəcəyəm | gələcək zaman | I şəxsin təki |
| dinləyər | gələcək zaman | III şəxsin təki |

**Tapşırıq C (iş dəftəri).** Tapşırıqda verilmiş feillər əsasında cədvəli tamamlamaq tələb olunur. Şagirdlər feilləri kök və şəkilçiyə ayırmalıdırlar. Nisbətən çətin tapşırıqdır. Feilin kökünü, zaman şəkilçilərini və şəxs sonluqlarını uyğun xanalara yazmaqla cədvəl doldurulmalıdır.

| Feil | Feilin kökü | Zaman şəkilçisi | Şəxs şəkilçisi |
|---|---|---|---|
| donmuşdur | don | -muş | -dur |
| qoruyuram | qoru | -yur | -am |
| qazandılar | qazan | -dı | -lar |
| sevinəcəksiniz | sevin | -əcək | -siniz |
| axtarırsan | axtar | -ır | -san |
| tapacağıq | tap | -acaq | -ıq |

Bu tapşırıq şagirdlərin təfəkküründə qrammatik biliklərlə (kök, şəkilçi) semantik duyum (zaman, şəxs) arasında əlaqəni formalaşdırır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən asılı olaraq feilin qrammatik formasını müəyyən edir. | Tap. A, B, C, Ç (dərslik), tap. B (iş dəftəri) |
| Uyğun şəkilçilər artırmaqla feili şəxsə və zamana görə dəyişir. | Tap. D (dərslik), tap. A, C (iş dəftəri) |

## Ümumiləşdirici təkrar

• Dərslik: səh. 79 • İş dəftəri: səh. 54

**Təlim məqsədləri**

• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Çoxmənalı sözün və ya omonimin kontekstə uyğun mənasını müəyyən edir (st. 3-2.2.3).
• Əsas nitq hissələrinin (feil, əvəzlik) ümumi leksik-qrammatik xüsusiyyətlərini müəyyənləşdirir (st. 3-4.2.1).
• Cümlədəki sözlər arasındakı əlaqədən çıxış edərək əsas nitq hissələrini uyğun qrammatik formada işlədir (st. 3-4.2.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bölmə üzrə sual-cavab |
| 2 | **Oxuyub-qavrama** | Bölmə boyunca oxunulan mətnlərə aid faktların yazılması |
| 3 | **Söz ehtiyatı** | Həqiqi və məcazi mənalı sözlərin müəyyənləşdirilməsi |
| 4 | **Dil qaydaları** | Şəxs əvəzlikləri və feilin ümumi qrammatik formalarına aid biliklərin möhkəmləndirilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim suallar vasitəsilə bölməyə aid mətnləri xatırladır.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin bu bölmədə öyrəndikləri mövzuları necə mənimsədiklərini müəyyən edir. Onlar öyrəndikləri məlumatları cədvələ yazmaqla bilik və bacarıqlarını nümayiş etdirirlər. Tapşırıqda cümlələrə bu sözlər əlavə edilməlidir:

*Cavab:*

*Əfsanə qəhrəmanları:* Aldədə, Göyçək, Odlar qızı.

*Tarixi şəxsiyyətlər:* Nadir şah, Əmir Teymur, Ağabəyim.

*Azərbaycanın tarixi abidələri:* Qız qalası, Gələrsən-görərsən, Pəri qalası.

*Azərbaycan musiqisi:* Çahargah əfsanəsi.

**Söz ehtiyatı**

3-2.2.3 **Tapşırıq A (dərslik).** Tapşırıq vasitəsilə şagirdlər kontekstdən çıxış edərək sözün həqiqi və ya məcazi mənada işləndiyini müəyyənləşdirir, bu haqda biliklərini möhkəmləndirirlər.

Məcazi mənalı sözlərin işləndiyi cümlələr: 2, 3, 5, 6, 8, 11, 14.

**Dil qaydaları**

3-4.2.1 **Tapşırıq B (dərslik).** Verilmiş kiçikhəcmli mətndə əvəzliklərin hansı sözləri əvəz etdiyini müəyyən etmək tələb olunur.

*Cavab:*

Onlar – uşaqlar

Ona – qaradamına

Onu – kökü

Onu – Ziyanı

Mən – Ziya

Sizə – uşaqlara

O – Ziya

Bu tapşırıqda şəxs əvəzliklərinin hansı sözü əvəz etdiyini müəyyən etmək bacarığı möhkəmləndirilir.

3-4.2.1 **Tapşırıq C (dərslik).** Bu tapşırıqda şagirdlər cümlələrin tərkibində səhv yazılan feilləri düzgün yazaraq cümlələri köçürürlər.

*Cavab:*

1. Biz heyvanları çox sevirik.
2. Sən üçüncü sinifdə oxuyursan.
3. Siz tədbirdə çıxış edəcəksiniz.
4. Mən dərsə cavab verdim.
5. Onlar evdə dincəldilər.
6. O hamıdan yaxşı cavab verdi.

3-4.2.1 **Tapşırıq Ç (dərslik).** Bu tapşırıqda cümlələr verilib. Feillərin yeri boş saxlanılıb. İstifadə üçün cümlələrin qarşısında təsdiq və inkarda işlənmiş feillər verilib. Tapşırığın tələbi belədir: Hansı cümlədə nöqtələrin yerinə həm təsdiq, həm də inkar feil yazmaq mümkündür?

*Cavab:*

1-ci və 4-cü cümlələrdə nöqtələrin yerinə yalnız inkarda olan feillər yazmaq mümkündür. 2-ci və 3-cü cümlələrdə isə nöqtələrin yerinə həm təsdiq, həm də inkar feillər yazmaq olar.

*Əli bu gün tapşırıqlarını yazdı.*

*Əli bu gün tapşırıqlarını yazmadı.*

*Orxanın papağı çox köhnəlmişdi.*

*Orxanın papağı çox köhnəlməmişdi.*

Bu tapşırıq təsdiq və inkar feilləri kontekstə görə düzgün işlətmək bacarığını möhkəmləndirir.

3-4.2.1 **Tapşırıq D (dərslik).** Bu tapşırıqda məsdər formasında verilmiş feilləri müvafiq şəxsdə və zamanda işlədərək cümlə qurub yazmaq tələb olunur.

*Cavab:*

Aparmaq – aparırsan. *Sən kitabı nə zaman aparırsan?*

Gülmək – güldülər. *Uşaqlar bu sözə ürəkdən güldülər.*

Baxmaq – baxacağıq. *Bu gün birlikdə filmə baxacağıq.*

Tapşırıq verilmiş kateqoriyalara görə sözlərin düzgün qrammatik formasını müəyyən etmək bacarığını formalaşdırır.

3-4.2.1 **Tapşırıq B (iş dəftəri).** Tapşırıqda cümlələr verilib. Cümlələrin tərkibində işlənmiş əvəzliklərin hansı sözü əvəz etdiyini müəyyən etmək lazımdır.

*Cavab:*

1. Ayselgil təzə mənzilə köçüblər. O (mənzil) dördotaqlıdır. Onlar (Ayselgil) çox sevinirlər.

2. Əli dedi: "Samir, mən (Əli) səni (Samiri) evimizə dəvət edirəm. Biz (Əli və Samir) birlikdə filmə baxarıq.

3. Jalə rəfə yaxınlaşdı, onu (rəfi) səliqəyə saldı. Ana dedi: "Afərin sənə (Jaləyə), mənim (ananın) qızım".

**Tapşırıq C (iş dəftəri).** "Dördündən biri fərqlidir" tipli tapşırıqda verilmiş bəndlərdən biri digərlərindən fərqlənir.

Bu tapşırıqda sıra ilə verilmiş feillərdən biri hansısa xüsusiyyətinə görə digərlərindən fərqlidir. Feillər üç parametrə görə fərqlənir:

A. Şəxsə görə B. Zamana görə C. Təsdiq və ya inkara görə

1. B. göründü; bildi; <u>gizlənir</u>; oynadı
2. C. sərlədim; görüşdüm; <u>bilmədim</u>; çatdım
3. B. yollanırsan; danışırsan; <u>susdun</u>; deyirsən
4. A. görmədi; istəmədi; yazmadıq; <u>almadı</u>

Şagirdlərdən xüsusi diqqət tələb edən bu tapşırıq feilə aid keçilənlərin təkrarına imkan yaradır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir. | Tap. A (iş dəftəri) |
| Şəxs əvəzliklərinin qrammatik xüsusiyyətlərini müəyyən edir. | Tap. B (dərslik), tap. B (iş dəftəri) |
| Kontekstdən asılı olaraq feilin qrammatik formasını müəyyən edir. | Tap. C (dərslik), tap. Ç (iş dəftəri) |
| Təsdiq və inkar feilləri fərqləndirir. | Tap. Ç (dərslik) |
| Uyğun şəkilçilər artırmaqla feili şəxsə və zamana görə dəyişir. | Tap. D (dərslik) |

bölmə **8** # HİKMƏT XƏZİNƏSİ

| **Mövzu** | | **Hikmət xəzinəsi** |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | • Situasiyaya uyğun atalar sözü və aforizmlərin işlədilməsi<br>• Janrın (lətifə) xüsusiyyətlərini nəzərə almaqla mətnin nəql olunması. |
| | Söz ehtiyatı | Yeni sözlər: hikmət, kəlam, firavan, gileylənmək, minnətsiz, əsirgəmək, alnıaçıq, üzüağ, xəcalət, aludə olmaq, vərdiş, nəsihət, pusqu, kasəyən, kəniz, məharət, pərişan.<br>Frazeoloji birləşmələr: əl açmaq, baş əymək, əl çəkmək, tərkinə almaq, qulp qoymaq, əlacı kəsilmək. |
| | Oxu | • Mətni oxuyarkən səs tonu ilə obrazların nitqini müəllif nitqindən fərqləndirmə<br>• Bədii mətnləri məzmun və struktur xüsusiyyətlərinə görə fərqləndirmə |
| | Yazı | • Mətnin qısa məzmununun yazılması<br>• Şəkillər əsasında bədii mətnin yazılması |

Bu bölmədə bir sıra mənəvi dəyərlərdən (birlik, əməksevərlik, çalışqanlıq və s.) bəhs edən ibrətamiz məzmunlu bədii mətnlər təqdim olunur. Bölmədə şagirdlərin bədii mətnlərin müxtəlif janrları ilə (hekayət, təmsil, lətifə və s.) tanış olması, onlarda ifadə olunan hikmətin qavranılması bədii mətnlərin mütaliəsinə maraq, sevgi oyadır. Əsas məqsəd isə şagirdlərin müxtəlif növ bədii mətnlərin məzmun, ideya, struktur xüsusiyyətlərini analiz etməsi ilə dinləmə, oxuyub-qavrama, danışma və yazı bacarıqlarını inkişaf etdirməkdir.

**Öncədən vacib olan bilik və bacarıqlar:**
• Dinlədiyi mətndəki əsas məlumatlarla bağlı suallara cavab verir;
• Mətni aydın, səlis oxuyur;
• Mətndəki əsas və köməkçi epizodları fərqləndirir;
• Obrazın xarakterini təhlil etməklə mətnin ideyasını müəyyənləşdirir;
• Bədii mətni plan əsasında nəql edir;
• Bəzi atalar sözlərinin ifadə etdiyi fikri izah edir.

**Diferensial təlim**
Bölmədə müxtəlif növ bədii mətnlər (hekayət, təmsil, lətifə) təqdim edilmişdir. Bu mətnlərin ideyasının müəyyənləşdirilməsi, şəkillər əsasında bədii mətnin yazılması, atalar sözləri və aforizmlərin ifadə etdiyi fikrin izah edilməsi danışma, oxuyub-qavrama, yazı bacarığı kifayət qədər inkişaf etməmiş uşaqlar üçün çətinlik yarada bilər. Belə şagirdlərin fəaliyyətinə diferensial yanaşmaq tövsiyə olunur. Bu məqamlarla bağlı tövsiyələr dərslərin şərhində verilmişdir.

**Mənimsəmədə çətinlik doğuran məsələlər:**
• İbrətamiz məzmunlu mətnlərin ideyasının müəyyənləşdirilməsi;
• Fikrin dolayısı yolla ifadə edildiyi atalar sözləri və aforizmlərin izah edilməsi.

**8-ci bölmədə nəzərdə tutulan köməkçi vəsaitlər:** *orfoqrafiya lüğəti və izahlı lüğət, vatman kağızları* və s.

## **Giriş dərsi.** Bölmənin mövzusu ilə tanışlıq

• Dərslik: səh. 80–81 • İş dəftəri: səh. 55

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Obrazların nitqini onların xarakterinə uyğun səsləndirir (st. 3-2.1.2).
• Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir (st. 3-2.3.3).
• Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir (st. 3-1.1.2).
• Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətn yazır (st. 3-3.2.2).

**Köməkçi vasitələr:** İş vərəqləri (MV: səh. 87-də verilmiş mətnlərin üzünün çıxarılması).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | İbrətamiz məzmunlu mətnlərin xatırlanması |
| 2 | **Danışma** | “Xoşbəxtlik nədir?” mövzusu üzrə danışma |
| 3 | **Oxu. Oxuyub-qavrama** | “Həyat dərsi” mətninin oxusu və ideyasının müəyyənləşdirilməsi |
| 4 | **Dinləmə** | “Şah və xidmətçi” mətninin ideyasının müəyyən olunması |
| 5 | **Oxu** | Mətnlərin oxunması və ideyasının müəyyənləşdirilməsi |
| 6 | **Yazı** | Mətnin tamamlanması |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim soruşur:

*– Siz informativ mətnləri oxumağı sevinirsiniz, yoxsa bədii mətnləri? Bədii əsərlərin mütaliəsi nə üçün vacibdir? (Həyatı əks etdirən əsərlərin tərbiyəvi əhəmiyyəti vurğulanmalı və bu bölmədə təqdim olunan mətnlərin ibrətamiz məzmunlu olması deyilməlidir.) Hansı bədii mətnləri xatırlayırsınız? Bu mətnləri oxuduqdan sonra xarakterinizdə, fikirlərinizdə hansı dəyişikliklər oldu?*

### Danışma

3-1.3.3 **Tapşırıq A (dərslik).** Müəllim yönəldici suallarla şagirdlərə indiyə qədər keçilmiş mətnləri *(“Yöndəmsiz timsah” – I sinif, “Bir parça torpaq” – II sinif, “Cəmil + Mahir” – III sinif)* xatırladır. Şagirdlər bu mətnlərin oxucuya təlqin etdiyi mənəvi dəyərlər haqqında danışırlar. Müəllim şagirdlərin fikirlərini ümumiləşdirir:

– Bədii əsərlərin çoxu həyatda baş verən hadisələri əks etdirir və belə əsərlər oxucunun həyatda doğru yol tutmasına, xarakterinin dəyişməsinə yardım edir.

**Tapşırıq B (dərslik).** Şagirdlər “xoşbəxtlik” sözünün mənası ilə bağlı ilkin fikirlərini söyləyirlər. Sonra müəllim onların yaş səviyyəsini nəzərə alaraq bu sözün mənasını izah edir. Şagirdlər *“Xoşbəxt olmaq üçün insana sağlamlıq lazımdır, yoxsa var-dövlət?”* sualı ətrafında müzakirə aparırlar.

### Oxu

3-2.1.2 **“Həyat dərsi” mətni. Rollu oxu.** Şagirdlər mətni əvvəlcə səssiz oxuyurlar. Tanış olmayan sözlərin (*firavan, gileylənmək* və s.) mənasını müəllimin köməyi ilə dəqiqləşdirirlər. Sonra müəllim rolları bölüşdürür, bir neçə şagird mətni səsli oxuyur. Müəllim faktoloji suallar verir:

*– Oğlan nədən gileylənirdi? O niyə müəlliminin “Sən ki böyük dövlət sahibisən!” sözünə təəccübləndi? Oğlan hansı həqiqəti başa düşdü? Sizcə, mətnin adı niyə “Həyat dərsi” adlanır?*

### Oxuyub-qavrama

3-2.3.3 **Tapşırıq C (dərslik).** Şagirdlər tapşırıqda verilmiş fikirləri müzakirə edir və mətnin ideyasını əks etdirən fikri *(Ən böyük dövlət sağlamlıqdır)* müəyyənləşdirirlər.

**“Yadda saxla” rubrikası.** Müəllim “Həyat dərsi” mətninin ideyasını əks etdirən ibrətamiz fikrin nümunəsində “hikmət” və “kəlam” sözlərinin mənasını açıqlayır.

### Dinləmə

3-1.1.2 **Tapşırıq Ç (dərslik).** Tapşırığın yerinə yetirilməsi üçün müəllim “Şah və xidmətçi” mətnini səsləndirir:

**“Şah və xidmətçi”**

*Keçmiş zamanlarda bir şah varmış. Bu şah həmişə bir neçə güclü köpək saxlayarmış. Şahın kimsəyə acığı tutanda onu itlərə atarmış. İtlər də o saat onu parçalayıb yeyərmiş.*

*Şahın cavan bir xidmətçisi var idi. O hər dəfə itlərin yanına gələndə özü ilə bir parça ət gətirər və onlara atardı. İtlər cavanı gördükdə onu mehribanlıqla qarşılayardılar.*

*Günlərin birində zülmkar şahın xidmətçiyə acığı tutur. Əmr edir ki, onu itlərə atsınlar. Gəncin əl-qolunu bağlayıb itlərə atırlar. Lakin itlər oğlanı dərhal tanıyır, ona toxunmurlar. Onu dövrəyə alıb mehriban davranırlar. Bundan xəbər tutan şah heyrətə gəlir. Xidmətçini yanına gətizdirib necə sağ qaldığını soruşur. Xidmətçi deyir:*

*– Mən illərdir sənin qulluğunda durdum. Ancaq sən qəzəblənib məni itlərə atdın. İtlər isə onları yedizdirib qulluq etdiyim üçün mənə toxunmadılar.*

*Şah itlərin vəfasını görüb öz əməlindən peşman olur.*

*N.Gəncəvinin mənzum hekayəsi əsasında*

**Oxu**

**3-2.3.3** **Tapşırıq D (dərslik). Qruplarla iş.** Müəllim aşağıdakı mətnlərin üzünü çıxarıb qruplara paylayır.

**QEYBƏT**

*Bir adam müdrik qocanın yanına gəlib deyir:*

*– Filankəs sənin haqqında pis sözlər dedi.*

*– Nə vaxt?*

*– Bu gün.*

*– Harada?*

*– Öz evində.*

*– Sən onun evində nə edirdin?*

*– Ziyafət verirdi. Məni də dəvət etmişdi.*

*– Nə yedin?*

*– Səkkiz növ yemək var idi. Hamısından yedim.*

*Qoca deyir:*

*– Səkkiz növ yeməyi qarnına sığışdırmısan. Bu bir sözü niyə qarnında saxlaya bilmədin?*

*Akif Mehmed*

**KİMİN NƏYİ VARSA**

*Bir müdrik başqa bir kəndə köçür, amma bir neçə gəncdən başqa heç kim ona əhəmiyyət vermir. Əksinə, kəndin sakinləri onu ələ salırlar.*

*Bir gün müdrik öz şagirdləri ilə gedirmiş. Bu vaxt bir neçə nəfər müdriki təhqir etməyə başlayır. Müdrik onlara yaxınlaşıb onu təhqir edənlərə alqış edir. Həmin adamlar çıxıb gedəndən sonra şagirdləri müdrikə irad tutub deyirlər:*

*– Onlar ağızlarına gələni sizə dedilər, siz isə onlara xoş söz dediniz.*

*Müdrik şagirdlərinə belə cavab verir:*

*– Bizim hər birimiz nəyimiz varsa, onu da başqalarına təklif edirik.*

*Paulo Koelyo*

**OTUZ ADAM**

*Bir padşahın Ayaz adlı köməkçisi var idi. Padşah həmişə onu tərifləyir, digər bəylərdən üstün tuturdu. Bu, padşahın adamlarını narazı salırdı.*

*Bir gün padşah narazı bəylərə dərs vermək üçün onlarla birlikdə ova çıxır. Ov zamanı uzaqdan keçən bir karvan görür. Bəylərdən birinə tapşırır ki, bu karvanın haradan gəldiyini öyrənsin.*

*Bəy öyrənib məlumat verir ki, karvan Rey şəhərindən gəlir. Padşah karvanın haraya getdiyini soruşur. Bəy cavab verə bilmir. Padşah bunu öyrənmək üçün ikinci bəyi karvana göndərir.*

*İkinci bəy öyrənir ki, karvan Yəmənə gedir. Ancaq padşahın başqa sualını cavablandıra bilmir.*

*Padşah suallarına cavab tapmaq üçün yanındakı bəyləri bir-birinin ardınca karvana sarı göndərir. Yenə də suallarına tam cavab tapa bilmir.*

*Odur ki padşah Ayazı çağırtdırır. Onu da karvana göndərir. Ayaz qayıtdıqda padşah ona düz otuz sual verir. O bütün sualları cavablandırır. Padşah isə üzünü bəylərə tutub deyir:*

*– İndi gördünüzmü? Ayaz otuz nəfərin otuz dəfəyə öyrəndiyini bir dəfəyə öyrənib gəldi. Deməli, Ayaz ona verilən qiymətə layiqdir.*

**DƏNİZ QORXUSU**

*Bir şah öz qulu ilə gəmiyə minmişdi. Bu qul ömründə dəniz səfərində olmamışdı. O, qorxudan əsməyə və ucadan ağlamağa başladı. Gəmidəkilər nə qədər çalışdılarsa, onu sakitləşdirə bilmədilər. Qulun bu halını görən şahın kefi pozuldu.*

*Gəmidə müdrik bir adam var idi. Onun təklifi ilə qulu dənizə atırlar. Qul bir neçə dəfə suya batıb-çıxdı. Sonra onu saçlarından tutub gəmiyə dartdılar. Qul gəmiyə çıxan kimi dinməz-söyləməz bir küncdə oturdu. Onun bu hərəkəti şaha qəribə gəldi. Səbəbini həmin müdrik adamdan soruşdu.*

*Kişi cavab verdi:*

*– Bu qul dənizdə batmaq qorxusunu keçirməmişdi. Ona görə də gəmidəki rahatlığın qədrini bilmirdi.*

*Sədi Şirazi*

Qruplar onlara təqdim olunmuş mətni oxuyur, mətnin ideyasını müzakirə yolu ilə müəyyənləşdirirlər. Bir neçə cümlə ilə mətnin ideyasını ifadə edirlər.

**Mətnlərin ideyası:**

**Qeybət:** Birinin sözünü başqasına demək, xəbərçilik etmək yaxşı xüsusiyyət deyil.

**Kimin nəyi varsa:** Hər kəs öz ağlı və tərbiyəsi

ilə hərəkət edir.

**Otuz adam:** Ağıllı və fərasətli olanlar həmişə hörmət sahibi olurlar.

**Dəniz qorxusu:** Çətinliyə düşməyən sakitliyin qədrini bilməz.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırığı müstəqil yerinə yetirməklə hikmətli ifadəni (kəlamı) seçə bildiklərini nümayiş etdirirlər. Tapşırıq yerinə yetirildikdən sonra kəlamın *(Bir buğda əkməsən, min buğda biçməzsən)* mənası şagirdlərlə müzakirə olunur.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlərin yaş xüsusiyyəti nəzərə alınmaqla mətndə ifadə olunan hikmət şagirdlərlə müzakirə oluna bilər. Şagirdlər nar ağacının düşüncə və davranışlarını analiz edərək mətnin ideyasını *(Bar verən ağacı kəsməzlər)* təxminən belə izah edə bilərlər: *İnsan yararlı olmalı, başqalarına xeyirxah davranmalıdır.*

### Yazı

3-3.2.2 **Tapşırıq C (iş dəftəri).** Bu tapşırıq şagirdlərin hadisələri analiz edib nəticə çıxarmaq bacarığını və yaradıcı təfəkkürünü inkişaf etdirir.

Şagirdlər mətni təxminən belə davam etdirə bilərlər:

*– Görürsən, bu balaca ağaclar bir-birini qoruyub güclü küləkdən xilas olmuşlar. İnsanlar da çətin vəziyyətdə bir-birinə kömək etməlidirlər.*

Kiçikhəcmli ibrətamiz məzmunlu mətnlərlə tanış olan şagirdlərə "Hikmət xəzinəsi" bölməsinin adı, mövzusu, məzmunu aydınlaşır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəyyən fikirlə bağlı mövqeyini bildirir və onu əsaslandırır. | Tap. A (dərslik) |
| Obrazların nitqini onların emosional vəziyyətinə uyğun səsləndirir. | "Həyat dərsi" mətni |
| Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir. | Tap. C, Ç, D (dərslik), tap. B (iş dəftəri) |
| Bədii mətnin məzmununa uyğun sonluq yazır. | Tap. C (iş dəftəri) |

## fəsil 1 ƏMƏKSEVƏRLİK

### 1-ci dərs. "Kərpickəsən kişinin hekayəti"

• Dərslik: səh. 82–83 • İş dəftəri: səh. 56

**Təlim məqsədləri**

- Obrazların nitqini onların xarakterinə uyğun səsləndirir (st. 3-2.1.2).
- Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st. 3-2.4.4).
- Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 3-2.4.1).
- Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir (st. 3-2.3.3).
- Yaxınmənalı və əksmənalı sözlərin köməyi ilə sözləri izah edir (st. 3-4.4.2).
- Oxunulmuş mətnin məzmununu ssenari şəklində yazır (st. 3-3.2.1).
- Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətn yazır (st. 3-3.2.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | Mövzuya yönəltmə | Mövzu üzrə sual-cavab |
| 2 | Oxu | Mətnin rollu oxusu |
| 3 | Oxuyub-qavrama | Mətnin məzmunu və ideyası üzrə iş |
| 4 | Söz ehtiyatı | Yeni sözlərin mənimsədilməsi |
| 5 | Yazı | Mətn əsasında ssenarinin yazılması; şəkillər üzrə mətnin qurulması |
| 6 | Formativ qiymətləndirmə | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə suallar verir:

*– Kimə əməksevər insan deyilir? Ailənizdə və ətrafınızda kimləri əməksevər hesab edirsiniz?*

### Oxu

3-2.1.2 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini illüstrasiyaya cəlb edir. Şagirdlər obrazların zahiri görkəmini (qoca, cavan, kasıb, varlı) müqayisə edirlər. Sonra müəllim soruşur:

*– Sizcə, yaraşıqlı, gənc oğlan kasıb və ağır işlə*

*məşğul olan qoca kişiyə nə deyir?*

Şagirdlər sual ətrafında mətnin məzmununu təxmin edirlər. Ola bilər ki, şagirdlərin təxminləri mətnin məzmunundan çox fərqli olsun. Bu zaman müəllim mətnin oxunmasına maraq yaratmaq üçün müdaxilə etməməlidir.

**"Yadda saxla" rubrikası.** Müəllim mətnin adında "hekayət" sözü ilə rastlaşan şagirdlərə "hekayət" haqqında qısa məlumat verir.

**Rollu oxu.** Müəllim şagirdlərə mətni səssiz oxumağı və obrazların hiss-həyəcanını ifadə edən cümlələrə diqqət etməyi tapşırır. Şagirdlər mətni oxuduqca tanış olmayan sözlərin mənasını müəllimin köməyi ilə dəqiqləşdirirlər. Sonra müəllim rolları bölüşdürür, bir neçə şagird mətni səsli oxuyur. Müəllim oxu zamanı şagirdlərin jest və mimikalardan yerində istifadə etməsinə, obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə səsləndirməsinə diqqət yetirir.

**Müəllimin nəzərinə!** Mətnin "Rollu oxu" üsulu ilə oxunması iş dəftərindəki B tapşırığının yerinə yetirilməsində şagirdlərə kömək olacaq.

### Oxuyub-qavrama

Müəllim mətnin məzmunu ilə bağlı faktoloji suallar verməklə şagirdlərin oxuyub-qavramasını yoxlayır:

*– Hekayənin baş qəhrəmanı nə işlə məşğul idi? Cavan oğlanın sözlərinə nə üçün kişinin acığı tutdu?*

3-2.4.4 **Tapşırıq B (dərslik).** Şagirdlər misralarla abzasları uyğunlaşdırırlar:

1-ci iki misra: 5-ci abzas;
2-ci iki misra: 3-cü abzas;
3-cü iki misra: 1-ci abzas;
4-cü iki misra: sonuncu abzas.

**Müəllimin nəzərinə!** Bölmə boyunca Nizami Gəncəvinin bir neçə hekayəti şagirdlərə təqdim olunur. Müəllim şagirdlərə Nizami Gəncəvi haqqında kiçik məlumat verə bilər: *"XII əsrdə yaşayıb-yaradan görkəmli şairdir. Gəncədə doğulub, ömrünün sonuna qədər orada yaşayıb. İbrətamiz məzmunlu xeyli əsəri var və s."* Həmçinin qeyd etmək lazımdır ki, bu hekayəti müəllif şeir formasında, yəni nəzmlə yazmışdır. Dərslikdə isə hekayətin məzmunu nəsrlə verilib.

3-2.4.1 **Tapşırıq C (dərslik).** Şagirdlərdən mətndəki obrazların davranışına münasibət bildirmək tələb olunur. Tapşırıq şagirdlərin tənqidi təfəkkürünün inkişaf etdirilməsinə yönəlib. Şagirdlər fikirlərini təxminən belə əsaslandıra bilərlər:

*– Kişi haqlıdır, adam kiməsə möhtac olmamaq üçün öz ruzisini özü qazanmalıdır.*

*– Oğlan haqlıdır, yaşlı adamlara qayğı göstərməliyik, onları işləməyə qoymamalıyıq.*

3-2.3.3 **Tapşırıq Ç (dərslik).** Tapşırıqdakı fikirlərin hamısı mətnin məzmununa uyğundur. Ancaq mətnin əsas ideyası belədir: *İnsan öz zəhməti ilə yaşamalıdır.*

### Söz ehtiyatı

**"Söz boğçası" rubrikası.** Müəllim şagirdlərin diqqətini söz boğçasına yönəldir və şagirdlər sözlərin mənasını müəllimin köməyi ilə izah edirlər.

3-4.4.2 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlər yeni öyrəndikləri sözləri müxtəlif kontekstdə istifadə etməklə söz ehtiyatlarını inkişaf etdirirlər.

<u>*Doğru cavab:*</u> 1 – c, 2 – b, 3 – ç, 4 – a.

### Yazı

3-3.2.1 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər oxuduqları dialoji mətn əsasında ssenari yazmaqla bilik və bacarıqlarını möhkəmləndirirlər.

3-3.2.2 **Tapşırıq D (dərslik).** Tapşırıq şagirdlərin mətn qurma bacarıqlarını inkişaf etdirir. Şagirdlər şəkilləri nəzərdən keçirir və şəkillərin altında verilmiş şərhləri oxuyurlar. Təsvir olunmuş hadisəni analiz edir, baş qəhrəman üçün ad seçirlər.

**Diferensial təlim**

Mətn yazmaqda çətinlik çəkən şagirdlərə müəllim suallardan ibarət plan hazırlayıb verə bilər:

**Plan**

1. Birinci şəkildə qaranquş nə edir?
2. Kim qaranquşun yuva qurmasını izləyir?
3. Oğlan qaranquşa kömək etmək üçün nə axtarıb-tapacaq?
4. Oğlan quşun yuvasına nə üçün çıxıb?
5. Qaranquş nə vaxt gəldi? O, yuvasında nə gördü? Nə üçün yad çör-çöpü bayıra atdı?
6. Oğlan bunu görüb nə düşündü?

Şagirdlər təxminən belə bir mətn yaza bilərlər:

*Yaz idi. Kənangilin evinin eyvanında qaranquş yuva qurmağa çalışırdı. Kənan hər gün onu maraqla izləyir, intizarla yuvanın hazır olmasını gözləyirdi.*

*Bir gün qaranquş ağzında nazik bir çöp gətirib yuvasına qoydu və yenidən uçub-getdi. Kənan bunu görüb lap hövsələdən çıxdı. Həyətdən kiçik çör-çöp tapıb eyvana dırmaşdı. Onları ehmalca yuvanın kənarlarına düzdü. Sonra öz yerində oturub tamaşa etməyə başladı.*

*Birazdan qaranquş gəlib çıxdı. Gətirdiyi çöpü yuvaya qoydu. Yad çör-çöpü bir-bir dimdiyinə alıb bayıra atdı. Kənan bu işə lap mat qalmışdı. Demək, quşlar da öz zəhməti ilə yaşamağı üstün tuturlar.*

***Mətnin ideyası:*** Hər kəs öz zəhməti ilə yaşamalıdır.

***Mətnə verilmiş ad:*** Qaranquş yuvası.

Şagirdlər mətnlərini fərqli sonluqla tamamlaya bilərlər: Məsələn:

*Qaranquş yuvasında yad çör-çöpü görüb qorxdu. Yuvasının təhlükədə olduğunu düşündü.*

Mətnlərini belə tamamlayan şagirdlər buna uyğun ideya müəyyənləşdirə bilərlər: *Hər kəs öz yuvasını yadlardan qorumalıdır.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirir. | Tap. A (dərslik) |
| Nəzm və nəsrlə yazılmış eyni məzmunlu mətnləri müqayisə edir. | Tap. B (dərslik) |
| Mətndəki obrazların davranışlarına münasibət bildirir. | Tap. C (dərslik) |
| Verilmiş fikirlərdən əsərin ideyasına uyğun gələnini seçir. | Tap. Ç (dərslik) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Mətndəki epizoda uyğun ssenari yazır. | Tap. B (iş dəftəri) |
| Verilmiş açar söz və şəkillərdən istifadə edərək kiçikhəcmli mətn yazır. | Tap. D (dərslik) |

## 2-ci dərs. Atalar sözləri

• Dərslik: səh. 84 • İş dəftəri: səh. 57

### Təlim məqsədləri

• Atalar sözünün ifadə etdiyi müdrik fikri izah edir (st. 3-2.3.3).
• Bədii nümunələrdə fikrin təsirli və dəqiq ifadə olunmasında yaxınmənalı və əksmənalı sözlərin rolunu müəyyən edir (st. 3-4.4.1).
• Situasiyaya uyğun gələn standart ifadələr (atalar sözü, aforizm) seçir (st. 3-2.3.3).
• Mətni məzmununa və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır (st. 3-2.4.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Kərpickəsən kişinin hekayəti”nin xatırlanması |
| 2 | **Söz ehtiyatı** | Atalar sözlərində ifadə olunmuş müdrik fikrin izah edilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim “Kərpickəsən kişinin hekayəti”nə aid suallar verməklə mətni xatırladır.

– *Kərpickəsən kişinin xarakteri necə idi?*

### Söz ehtiyatı

3-2.3.3 **Tapşırıq A (dərslik).** Şagirdlər mətndən çıxış etməklə tapşırıqda verilmiş atalar sözlərini təxminən belə izah edirlər:

– *Əmək insanı ucaldır.* Hekayətdə qoca kərpickəsən kişi öz əməksevərliyi ilə başqalarının hörmətini qazanır.

– *Zəhmətlə yeyilən acı soğan minnətlə yeyilən baldan şirindir.* Hekayətdə qoca kərpickəsən kişi ilə cavan oğlanın söhbətindən məlum olur ki, o, kərpic kəsməklə, ağır zəhmət hesabına qazandığı bir parça çörəyi başqasının ona verdiyi bir qarın çörəkdən üstün tutur.

İkinci atalar sözündə fikir dolayısı yolla çatdırıldığı üçün onun izahı şagirdlər üçün bir qədər çətin ola bilər. Müəllim şagirdlərə izah etməlidir ki, oxuduqları hekayətdə soğan və bal haqqında söhbət getməsə də, atalar sözünü həmin hekayətin ideyası ilə bağlamaq olar.

**“Yadda saxla” rubrikası.** Müəllimin rubrikada verilən məlumatı və nümunəni şagirdlərin yaş

səviyyəsinə uyğun olaraq situasiyalar əsasında izah etməsi tövsiyə olunur. Məsələn:

*– Tutaq ki, yoldaşınız kitabını itirib və onu tapmağı sonraya saxlayır. Bu məqamda ona "Dəmiri isti-isti döyərlər, sonra gec olar" deyib məsləhət verə bilərsiniz. Gördüyünüz kimi, atalar sözünün məzmunu dəmirlə bağlı olsa da, biz onu tamamilə başqa məqamda istifadə edə bilərik.*

**Tapşırıq B (dərslik).** Şagirdlər tapşırıqda verilmiş atalar sözlərində müdrik fikrin necə ifadə olunmasını təhlil edirlər.

Doğru cavab: "Sürüdən ayrılan qoyunu qurd yeyər" və "Halva-halva deməklə ağız şirin olmaz" atalar sözlərində fikir dolayısı yolla ifadə olunub. Şagirdlər bu atalar sözlərini əvvəlcə müəllimin yönəldici sualları ilə *(Nə üçün sürüdən ayrılan qoyunu qurd yeyər? Halva-halva deməklə halva yeyib-doyduğumuzu düşünə bilərikmi? və s.)* həqiqi mənada izah edirlər. Sonra həmin atalar sözlərində ifadə olunan müdrik fikri müəyyənləşdirirlər: *Tək qalan adam gücsüz, köməksiz olar; İnsan məqsədinə nail olmaq üçün zəhmət çəkməlidir.*

**Tapşırıq C (dərslik).** Müəllimin köməyi ilə şagirdlər həyatdan nümunələr gətirməklə atalar sözlərini izah edir, onların işlənmə məqamları haqqında danışırlar.

3-2.4.2 **Tapşırıq Ç (dərslik).** Şagirdlər tapşırıqda verilmiş atalar sözlərini tamamlamaqla həm oxuyub-qavrama bacarıqlarını inkişaf etdirir, həm də söz ehtiyatlarını zənginləşdirirlər.

Doğru cavab: 1 – c, 2 – ç, 3 – b, 4 – a.

3-4.4.1 **Tapşırıq D (dərslik).** Şagirdlər atalar sözlərinin məzmunundakı uyğunsuzluğu müəyyənləşdirməklə həm oxuyub-qavrama bacarıqlarını inkişaf etdirir, həm də əksmənalı sözlər üzrə biliklərini xatırlayırlar.

Doğru cavab: 1. yaman – yaxşı; 2. yayda – qışda; 3. axşamın – gündüzün; 4. biçmək – əkmək; 5. qürbət – vətən.

**Müəllimin nəzərinə!** Atalar sözlərində əksmənalı sözlərin işlənməsi bu bədii nümunələrin daha təsirli və yaddaqalan olmasını təmin edir. Müəllim şagirdlərə əksmənalı sözlərin işləndiyi atalar sözləri tapmağı tapşıra bilər.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq vasitəsilə atalar sözlərinin ifadə etdiyi hikməti anladıqlarını nümayiş etdirirlər.

Doğru cavab: 1 – b; 2 – c; 3 – a.

"Hirsli başda ağıl olmaz" atalar sözündə fikir birbaşa ifadə edilmişdir.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər atalar sözlərini uyğun sözlə tamamlayır və əksər atalar sözlərində qafiyənin rolunu izah edirlər. Qafiyənin olması atalar sözlərinin yadda qalmasını asanlaşdırır. Bəzi şagirdlər 3-cü və 4-cü atalar sözünü tamamlamaqda çətinlik çəkə bilərlər. Tapşırıq yerinə yetirildikdən sonra həmin atalar sözlərinin müzakirəsi tövsiyə olunur.

3-2.3.3 **Tapşırıq C (iş dəftəri).** Şagirdlərin atalar sözünü uyğun situasiyalarda istifadə etmək bacarığı yoxlanılır. Şagirdlər müəyyənləşdirirlər ki, mətndəki situasiyaya "Hoppanmamış "hop" demə" atalar sözü uyğundur və bu atalar sözündə fikir dolayısı yolla ifadə olunub.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Atalar sözünün ifadə etdiyi müdrik fikri izah edir. | Tap. A, C (dərslik) |
| Atalar sözündə obrazlı ifadə olunmuş fikri müəyyənləşdirir. | Tap. B (dərslik), tap. A, B (iş dəftəri) |
| Mətndəki situasiyaya uyğun atalar sözü seçir. | Tap. C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə qruplarla işin təşkili üçün vatman kağızları lazım olacaq.

## 3-cü dərs. Samitlərin yazılışı

• Dərslik: səh. 85 • İş dəftəri: səh. 58

**Təlim məqsədləri**

• Sözlərdə samitlərin düzgün yazılış qaydalarına əməl edir (st. 3-4.1.1).

**Köməkçi vasitələr:** orfoqrafiya lüğəti, vatman kağızları.

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Orfoqrafik qaydaların xatırlanması |
| 2 | **Dil qaydaları** | Söz ortasında və söz sonunda bəzi samitlərin düzgün yazılışının müəyyən edilməsi;sözlərin orfoqrafik normalara uyğun yazılması; *k-y* və *q-ğ* əvəzlənməsi; samitlə başlanan bəzi şəkilçilərin yazılışı |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Şagirdlər söz sonunda və söz ortasında bəzi samitlərin düzgün yazılış qaydaları, həmçinin *k-y* və *q-ğ* əvəzlənməsi üzrə qrammatik qayda ilə tanışdırlar. Bu dərsdə şagirdlərin həmin mövzular üzrə bilik və bacarıqları təkrar olunur.

Müəllim öyrədilən qaydaları yada salmaq üçün lövhədə bir neçə sözü səhv yazaraq şagirdlərə səhvi müəyyənləşdirməyi tapşırır.

### Dil qaydaları

3-4.1.1 **Tapşırıq A (dərslik). Kollektiv iş.** Şagirdlər orfoqrafik qaydalardan çıxış edərək atalar sözlərindəki səhv yazılmış sözlərin düzgün yazılışını müəyyənləşdirirlər: 1) çaqqal; 2) barmağın; 3) tüstü; 4) ağac.

**Tapşırıq B (dərslik).** Tapşırıqda aşağıdakı dil qaydaları üzrə bilik və bacarıqlar möhkəmləndirilir.

1. Söz ortasında yanaşı gələn eynicinsli samitlərin yazılışı;
2. Söz ortasında yanaşı gələn fərqli samitlərin yazılışı;
3. Söz sonunda cingiltili samitlərin yazılışı;
4. Sözə şəkilçi əlavə etdikdə *k-y* əvəzlənməsi;
5. Sözə şəkilçi əlavə etdikdə *q-ğ* əvəzlənməsi.

Tapşırığın cütlərlə iş formasında yerinə yetirilməsi tövsiyə edilir.

*Doğru cavab:* 1) C; 2) Ç; 3) A; 4) Ç; 5) Ç.

**Tapşırıq C (dərslik).** Şagirdlər orfoqrafik biliklərini tətbiq edərək cümlələrdəki sözləri uyğun hərflərlə tamamlayıb köçürürlər.

> **Müəllimin nəzərinə!** Bu tipli tapşırıqların yoxlanmasına şagirdlərin özlərini cəlb etmək dərsin interaktivliyinə kömək edir, şagirdlərin biliklərini möhkəmləndirir, redaktə etmək bacarıqlarını formalaşdırır. Yoxlama zamanı şagirdlərin lüğətdən istifadəsinə imkan yaradılmalıdır.

**Tapşırıq A, C (iş dəftəri).** Şagirdlər bu tapşırıqları müstəqil şəkildə yerinə yetirməklə orfoqrafik biliklərini nümayiş etdirirlər.

**Tapşırıq Ç (iş dəftəri).** Tapşırıqda verilmiş sözləri kök və şəkilçiyə ayırmaqla müəyyən edirlər ki, "kötüyə" sözündə sözün kökü "kötük"dür və bu sözə saitlə başlanan şəkilçi artırıldığı üçün *k-y* əvəzlənməsi baş verib. "Körpəyə" və "körpüyə" sözlərində isə sözün kökü "körpə" və "körpü"dür. Şagirdlər "kötük" sözünə samitlə başlanan şəkilçi artırıb yazmaqla dil qaydasını mənimsədiyini nümayiş etdirirlər.

> **Müəllimin nəzərinə!** Şagirdlərə *"y"* samitinin bitişdirici funksiyası haqqında izahat vermək tövsiyə olunmur.

**Tapşırıq B (iş dəftəri).** Əvvəlki dərslərdə *l* samiti ilə başlayan şəkilçilərin *(-lar$^2$, -lıq$^4$, -lı$^4$)* yazılışı üzrə şagirdlərə mənimsədilən bilik və bacarıqlar möhkəmləndirilir.

*Doğru cavab:* 1. pislik; 2. dostluğun; 3. qəhrəmanlar; 4. atlı; 5. birlik.

**Tapşırıq Ç (dərslik). Qruplarla iş.** Tapşırıq vasitəsilə şagirdlərin orfoqrafik qaydalar üzrə bilik və bacarıqları ümumiləşdirilir. Qruplar əvvəlcə cədvəldə verilmiş sözlərin düzgün yazılışını və aid olduğu orfoqrafik qaydanı müzakirə yolu ilə müəyyənləşdirirlər. İş vərəqində həmin qaydanı əks etdirən əlavə sözlər yazırlar. Hazırlayacaqları plakatın məzmunu ilə bağlı başlıq düşünüb müzakirə edirlər.

Müzakirələr bitdikdən sonra vatman kağızı üzərində iş başlanır. Müəllim qrupları müəyyənləşdirən zaman diqqət etməlidir ki, hər qrupda tərtibat bacarığı olan şagirdlər iştirak etsin.

**Diferensial təlim**

Bəzi qruplar plakatın məzmunu üzrə başlıq seçərkən çətinlik çəkə bilərlər. Bu zaman müəllim şagirdlərə uyğun başlıqlar təqdim edə bilər:

*I qrup:* Söz sonunda *b, c, d, g* samitlərinin yazılışı;

*II qrup:* Yanaşı gələn *kk, qq, pp, tt* samitlərinin yazılışı;

*III qrup:* Söz ortasında yanaşı gələn müxtəlif samitlərin yazılışı;

*IV qrup:* *l* samiti ilə başlanan bəzi şəkilçilərin yazılışı.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Özünün və başqasının yazısında orfoqrafik səhvləri müəyyən edir. | Tap. A, B (dərslik) |
| Samitlərin yazılışı ilə bağlı orfoqrafik normaları yazısında tətbiq edir. | Tap. C (dərslik), tap. A, C (iş dəftəri) |
| *K, q* samitləri ilə bitən sözləri orfoqrafik normalara uyğun yazır. | Tap. C (dərslik) |
| Sözdə *"l"* samiti ilə başlayan şəkilçiləri orfoqrafik normalara uyğun yazır. | Tap. B (iş dəftəri) |

fəsil 2 **NƏSİHƏT**

## 1-ci dərs. Ruminin məsləhəti

• Dərslik: səh. 86–87 • İş dəftəri: səh. 59

**Təlim məqsədləri**

• Mətni intonasiya ilə oxuyur (st. 3-2.1.1).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir (st. 3-2.3.1).
• Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir (st. 3-2.3.3).
• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• Mövzu ilə bağlı fakt və münasibət bildirən fikirləri yazıda əks etdirir (st. 3-3.2.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Məsləhət" mövzusu üzrə danışma |
| 2 | **Oxu** | "Ruminin məsləhəti" mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş |
| 4 | **Söz ehtiyatı** | Müdrik fikirlərin müzakirəsi |
| 5 | **Yazı** | Mövzu ətrafında fikirlərin yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Tapşırıqda verilmiş suallar əsasında şagirdlərlə müzakirə aparılır. Suallar şagirdlərin şəxsi həyatları ilə bağlı olduğu üçün onları danışmağa həvəsləndirəcək.

### Oxu

3-2.1.1 **"Ruminin məsləhəti" mətni. Növbəli oxu.**

Şagirdlər mətni növbə ilə oxuyurlar. Müəllim şagirdlərin bir-birini izləməsini yoxlamaq üçün oxunulan hissəyə aid suallar verir.

Şagirdlər sonuncu abzasda tanış olmayan söz və ifadələrin *(aludə olmaq, vərdiş, əl çəkmək)* mənalarını kontekstdən çıxış edərək təxmini izah edirlər. Müəllim həmin söz və ifadələrin izahını dəqiqləşdirib "söz boğçası"na əlavə edir.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır.

3-2.3.1 **Tapşırıq C (dərslik).** Şagirdlər mətndəki faktları tutuşdurmaqla bu qənaətə gəlirlər ki, ana ilə oğlu şairdən məsləhət almaq üçün 21 gün (3 həftə) gözləyirlər.

3-2.3.3 **Tapşırıq Ç (dərslik).** Şagirdlər müəyyənləşdirirlər ki, verilmiş fikirlərin hamısı mətnin məzmununa uyğundur. Ancaq mətnin ideyası belədir: *Başqalarına verdiyin məsləhətə əvvəlcə özün əməl etməlisən.*

### Danışma

3-1.3.3 **Tapşırıq D (dərslik).** Şagirdlər nümunə ilə tanış olduqdan sonra verilmiş fikirləri əsaslandıraraq tamamlayırlar, daha sonra kitabı tərsinə çevirməklə Azərbaycanın müdrik şəxsiyyətlərindən biri olan Abbasqulu ağa Bakıxanovun fikirləri ilə tanış olur, həmin fikirləri öz fikirləri ilə müqayisə edirlər.

### Söz ehtiyatı

3-2.2.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər yeni öyrəndikləri sözləri başqa kontekstlərdə işlətməklə həmin sözləri mənimsədiklərini nümayiş etdirirlər.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər bilməcəni həll etməklə mətndəki şairin adını öyrənirlər: *Cəlaləddin Rumi.*

Daha sonra şagirdlər tapşırıqda verilmiş kəlamın ifadə etdiyi fikri müəyyənləşdirirlər:

*Bildiklərimizi başqaları ilə bölüşəndə biliyimiz tükənməz.*

Tapşırıq yerinə yetirildikdən sonra kəlamın kollektiv şəkildə müzakirə edilməsi tövsiyə olunur.

### Yazı

3-3.2.3 **Tapşırıq E (dərslik). Qruplarla iş.** Tapşırıqda verilmiş nümunə ilə tanış olan qruplar mövzu ətrafında fikir mübadiləsi aparmaqla məsləhətlər yazır, təqdimat edirlər.

**Diferensial təlim**

Şagirdlər tapşırıqda verilmiş mövzulara aid indiyə qədər bir neçə mətn oxumuşlar. Müəllim həmin mətnləri (*"Cəmil + Mahir", "Anaya məktub", "Ağıllı daxıl", "İki alma"* və s.) xatırlatmaqla qruplara kömək edə bilər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii və informativ mətnləri oxuyarkən müvafiq səs tonu seçir. | "Ruminin məsləhəti" mətni |
| Mətnlə bağlı faktoloji sualları cavablandırır. | Tap. B (dərslik) |
| Mətndəki əlaqəli faktları tutuşdurmaqla nəticələr çıxarır. | Tap. C (dərslik) |
| Əsərin ideyasına uyğun gələnini seçir. | Tap. Ç (dərslik) |
| Müəyyən fikirlə bağlı mövqeyini əsaslandırır. | Tap. D (dərslik) |
| Cümləni tamamlamaq üçün kontekstə uyğun gələn sözü müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Mövzu ilə bağlı tövsiyə xarakterli fikirlərini yazıda əks etdirir. | Tap. E (dərslik) |

## 2-ci dərs. Aforizmlər

• Dərslik: səh. 88 • İş dəftəri: səh. 60

**Təlim məqsədləri**

• Aforizmi səciyyələndirən xüsusiyyətləri müəyyən edir (st. 3-2.3.3).
• Mətnlərin bədii, poetik xüsusiyyətlərini müəyyənləşdirir və ekspressiv təsirini izah edir (st. 3-2.4.3).
• Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir (st. 3-1.1.2).
• Mətni məzmununa və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır (st. 3-2.4.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Birlik mövzusu üzrə danışma |
| 2 | **Söz ehtiyatı** | Aforizmlərin mənimsədilməsi |
| 3 | **Oxu** | “Oğlum Məhəmmədə nəsihət” şeirinin oxusu |
| 4 | **Dinləmə** | “Sərkərdə və qarışqa” mətninin dinlənilməsi və aforizmlərin seçilməsi |
| 5 | **Oxu** | Natamam verilmiş aforizmlərin tamamlanması |
| 6 | **Formativ qiymətləndirmə** | |

## Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Tapşırıqda eyni məzmunlu iki nəsihətamiz fikir verilmişdir. Hər iki fikir müəllimin köməyi ilə şagirdlər tərəfindən müqayisə olunur. Aydın olur ki, hər iki fikir ibrətamiz məzmunludur. 1-ci fikrin müəllifi yazılıb, ancaq ikinci fikrin müəllifi məlum deyil. Atalar sözləri müəllifi unudulan müdrik fikirlərdir.

## Söz ehtiyatı

**“Yadda saxla” rubrikası.** Şagirdlər rubrikada verilmiş məlumatla tanış olur və aforizmlərlə oxşar və fərqli xüsusiyyətlərini müəyyənləşdirirlər.

3-2.3.3 **Tapşırıq B (dərslik). Kollektiv iş.** Şagirdlər verilmiş aforizmləri oxuyur, ifadə olunan fikri izah edir və uyğun atalar sözünü seçirlər.

<u>Doğru cavab:</u> 1 – c; 2 – a; 3 – b.

## Oxu

3-2.4.3 **Tapşırıq C (dərslik).** Şagirdlər verilmiş vaxt ərzində Nizami Gəncəvinin “Oğlum Məhəmmədə nəsihət” şeirini səssiz oxuyurlar. Tanış olmayan sözləri seçib mənasını müəyyənləşdirirlər. Bir neçə şagird şeiri ifadəli oxuyur. Sonra aforizm kimi seçdikləri misraları söyləyib fikirlərini əsaslandırırlar.

Şagirdlər aforizm kimi bu misraları seçə bilərlər:

1) Ata nəsihəti faydasız olmaz.
2) Bir elmi öyrənmək istədikdə sən
Çalış ki, hər şeyi kamil biləsən.
3) Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan.
4) Bir insan əliboş gəzməsin gərək.

## Dinləmə

3-1.1.2 **Tapşırıq Ç (dərslik).** Müəllim “Sərkərdə və qarışqa” mətnini səsləndirir:

**“Sərkərdə və qarışqa”**

*Bir gün bir sərkərdə döyüşdə məğlub olur. Tamam ruhdan düşür. Bikef halda oturub fikirləşirdi. Birdən binanın divarında hərəkət edən qarışqa sərkərdənin gözünə sataşdı. Qarışqa bir buğda dənəsini divarla yuxarı qaldırır, gücü çatmayıb yerə salırdı. Qarışqa yenə də buğda dənəsini götürüb divarla yuxarı dırmaşırdı. Beləliklə, qarışqa otuz doqquz dəfə buğdanı yerə saldı. Nəhayət, axırıncı dəfə o, buğda dənəsini öz yuvasına apara bildi. Sərkərdə gördü ki, qarışqa öz məqsədi yolunda necə inadla, səbirlə mübarizə aparır. Sərkərdənin gözlərinə sanki işıq gəldi. O, qarışqanın hərəkətindən özü üçün ibrət götürdü. Yeni qüvvə toplayıb məqsədinə nail oldu. Düşmənə qalib gəldi.*

Şagirdlər mətni dinlədikdən sonra müəllim şagirdlərə mətnlə bağlı suallar verir:

– *Sərkərdə nə üçün bikef idi? Qarışqa buğdanı aparmaq üçün neçə dəfə cəhd etdi? Sərkərdə qarışqadan nə öyrəndi? Sizcə, sərkərdənin qalib gəlməsinə səbəb nə oldu?*

**Cütlərlə iş.** Cütlər mətndən çıxan nəticəni müzakirə edib bir neçə aforizm yaza bilərlər:

– *Uğursuzluqla qarşılaşanda ruhdan düşməməliyik. Məqsədimizə çatmaq üçün əziyyət çəkməliyik. İnsan bəzən kiçik bir həşəratdan da ibrət götürə bilər* və s.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər müstəqil şəkildə tapşırığı yerinə yetirdikdən sonra öz yazdıqları variantlarla burada verilən variantları müqayisə edirlər.

<u>Doğru cavab:</u> C.

## Oxu

3-2.4.2 **Tapşırıq B, Ç (iş dəftəri).** Şagirdlərin aforizmi oxuyub ifadə olunan fikri qavraması yoxlanılır.

<u>Doğru cavab:</u> B tapşırığı – *b variantı;*

Ç tapşırığı – *Səhər oyananda düşün ki, sən nə edəcəksən, axşam yatanda fikirləş ki, bu gün nə etmisən. (Pifaqor)*

**Tapşırıq C (iş dəftəri).** Tapşırıq şagirdlərin həm oxuyub-qavramasını, həm də yazı bacarıqlarını inkişaf etdirir.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Aforizmi səciyyələndirən xüsusiyyətləri müəyyən edir. | Tap. A (dərslik) |
| Eyni məzmunlu atalar sözləri və aforizmləri müəyyənləşdirir. | Tap. B (dərslik) |
| Oxuduğu mətndən düşündürücü bədii ifadələr seçir. | Tap. C (dərslik) |
| Dinlədiyi mətnin ideyasını əks etdirən fikirləri müəyyənləşdirir. | Tap. Ç (dərslik), tap. A (iş dəftəri) |
| Mətni janrın tələbinə uyğun tamamlayır. | Tap. B, C, Ç (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Üzərinə sözün tərkibi üzrə qrammatik qaydalara aid suallar (hər şagirdə bir sual) yazılmış iş vərəqləri hazırlamaq tövsiyə olunur. Suallar fərdi və ya cütlər üçün nəzərdə tutula bilər.
Məsələn: *1) Mürəkkəb sözü seç.*
*2) Hansı sözün tərkibində şəkilçi var?*
*3) Hansı sözün kökü isimdir?*
*4) Sözdəki şəkilçinin altından xətt çək* və s.

## 3-cü dərs. Sözün tərkibi

• Dərslik: səh. 89 • İş dəftəri: səh. 61

**Təlim məqsədləri**

• Sözə şəkilçi artırmaqla yeni sözlər düzəldir (st. 3-4.2.1).
• Mürəkkəb sözləri tərkib hissələri arasındakı məna əlaqəsindən çıxış edərək düzgün yazır (st. 3-4.1.2).
• Sözlər arasında uyğunluğu müəyyən edərək mürəkkəb sözlər düzəldir (st. 3-4.2.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sözün tərkibi üzrə mənimsədilmiş biliklərin xatırlanması |
| 2 | **Dil qaydaları** | Sözün tərkibi üzrə biliklərin möhkəmləndirilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Bu dərsdə şagirdlərin 3-cü sinifdə mənimsədikləri sözün tərkibi üzrə bilikləri təkrarlanır və möhkəmləndirilir.

Müəllim əvvəlcədən hazırladığı kiçik vərəqləri şagirdlərə paylayır. Şagirdlər fərdi və ya cütlərlə iş formasında sualları yazılı cavablandırıb müəllimə təhvil verirlər. Yazılan doğru və yanlış cavablar müzakirə olunur. Məqsəd şagirdlərin mövzu üzrə biliklərini xatırlatmaqla onlarda mövzuya maraq oyatmaqdır.

### Dil qaydaları

3-4.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər tapşırıqda verilmiş aforizmi oxuyur və aforizmdə işlənən sözlərin tərkibini suallar əsasında təhlil edirlər.

*Doğru cavab:* 1) düşmən, axmaq; 2) dostdan, yaxşıdır; 3) ağıllı.

**Tapşırıq B (dərslik). Cütlərlə iş.** Cütlər doğru və yanlış fikirləri müəyyənləşdirməklə 3-cü sinifdə sözün tərkibi üzrə əldə etdikləri biliklərini möhkəmləndirirlər.

*Doğru cavab:* 1-ci, 2-ci və 4-cü fikirlər doğru, 3-cü və 5-ci fikirlər yanlışdır.

**Tapşırıq C, Ç (dərslik).** Hər iki tapşırıq şagirdlərə kök və şəkilçi üzrə öyrədilən biliklərin möhkəmləndirilməsi məqsədi daşıyır.

**Ç tapşırığı üzrə doğru cavablar:** 1. qorxaq; 2. köksüz; 3. çalışqan; 4. təhlükəli.

**Tapşırıq A (iş dəftəri).** Ahəng qanunundan asılı olaraq iki və dörd cür yazılan şəkilçilər xatırlanır və şagirdlərin bilik və bacarıqları möhkəmləndirilir.

3-4.1.2 **Tapşırıq D (dərslik), B (iş dəftəri).** Şagirdlər aşağıdakı qaydalara əməl edərək tapşırığı yerinə yetirirlər:

1) müxtəlifmənalı sözlərin birləşməsindən yaranan mürəkkəb sözlər bitişik yazılır;

2) yaxınmənalı, əksmənalı, bir tərəfi ayrılıqda işlənə bilməyən sözlərin birləşməsindən və eyni sözün təkrarından əmələ gələn mürəkkəb sözlər defislə yazılır.

Şagirdlər verilmiş sözlərə məna uyğunluğu olan sözlər artıraraq söz birləşmələri yazırlar.

3-4.2.1 **Tapşırıq C (iş dəftəri).** Tapşırıq modeli yeni olduğu üçün müəllim lövhədə başqa bir nümunə yazmaqla izahat verə bilər:

Məsələn: *(susuz – suz) + (it + i) = suiti.*

*Doğru cavab:* 1) acgöz; 2) çobanyastığı.

**Tapşırıq Ç (iş dəftəri).** Şagirdlər verilmiş yer adlarının tərkibini təhlil etməklə sözün tərkibi üzrə bilik və bacarıqlarını möhkəmləndirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözü kök və şəkilçiyə ayırır. | Tap. A, C, Ç (dərslik) |
| Ahəng qanununu gözləməklə sözə uyğun şəkilçilər artırır. | Tap. A (iş dəftəri) |
| Mürəkkəb sözün tərkib hissələri arasında məna əlaqəsindən çıxış edərək onun düzgün yazılışını müəyyən edir. | Tap. D (dərslik), tap. B (iş dəftəri) |
| Mürəkkəb sözün tərkibindəki sözləri müəyyən edir. | Tap. Ç (iş dəftəri) |

fəsil **3** **BİRLİK**

## 1-ci dərs. "Bir dəstə göyərçin"

• Dərslik: səh. 90–91 • İş dəftəri: səh. 62

**Təlim məqsədləri**
- Mətni intonasiya ilə oxuyur (st. 3-2.1.1).
- Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
- Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
- Mətndəki obrazlı ifadələri fərqləndirir və izah edir (st. 3-2.4.3).
- Tanış olduğu məlumatları yazıda əks etdirir (st. 3-3.2.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Birlik mövzusu üzrə danışma |
| 2 | **Oxu** | "Bir dəstə göyərçin" mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmunu ilə bağlı sualların cavablandırılması |
| 4 | **Danışma** | Mövzu ətrafında danışma |
| 5 | **Söz ehtiyatı** | Mətnin ideyası ilə bağlı atalar sözlərinin təhlili |
| 6 | **Yazı** | Mətndəki epizodların təsvir edilməsi |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Şagirdlər *"Birlik nədir?"* sualı ətrafında danışmaqla fəslin mövzusu ilə tanış olurlar.

### Oxu

3-2.1.1 **Tapşırıq A (dərslik). "Bir dəstə göyərçin" mətni.** Mətnin ilk üç abzası oxunur və müəllim suallar verir: *Göyərçinlər necə xilas ola bilərlər? Sizcə, göyərçinlərin başçısı Alabaxta onlara necə kömək edəcək?*

Şagirdlər öz təxəyyüllərinə uyğun və mətnə çəkilmiş illüstrasiyadan çıxış edərək mətnin davamını təxmin edə bilərlər. Məqsəd şagirdlərdə mətnin oxunmasına maraq oyatmaqdır.

Növbəti iki abzas şagirdlər tərəfindən növbə ilə oxunur. Müəllim soruşur:

*– Ovçu göyərçinləri torla birlikdə göydə görəndə nə üçün çaşıb-qaldı? Ovçu göyərçinləri nə üçün izləməyə başladı? Sizcə, hadisələr necə davam edəcək?*

Şagirdlər mətnin davamını təxmin edirlər. Sonra şagirdlər Alabaxta ilə göyərçinlərin dialoqunu obrazların hiss-həyəcanına uyğun səs tonu ilə oxuyurlar.

Sonuncu abzas oxunmazdan öncə müəllim şagirdlərin diqqətini ikinci illüstrasiyaya yönəldir və deyir:

*– Mətnin sonluğunu təxmin edin. Göyərçinlər azadlığa necə çıxdılar?*

Daha sonra mətnin sonluğu oxunur.

**"Söz boğçası" rubrikası.** Şagirdlər mətni oxuduqca rast gəldikləri yeni sözlərin (pusqu, kəsəyən və s.) mənasını müəllimin köməyi ilə aydınlaşdırırlar.

### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik), tapşırıq A (iş dəftəri).** Dərslikdəki B tapşırığında verilmiş faktoloji suallar və iş dəftərindəki hekayə xəritəsi vasitəsilə şagirdlərin mətnin məzmununu qavraması yoxlanılır.

### Danışma

3-1.3.3 **Tapşırıq C, Ç (dərslik).** Şagirdlər debat xarakterli suala cavab vermək üçün Alabaxta obrazının davranışlarını nümunə gətirə bilərlər.

### Söz ehtiyatı

3-2.4.3 **Tapşırıq D (dərslik).** Şagirdlərin atalar sözlərinin ifadə forması ilə bağlı əldə etdikləri biliklər möhkəmləndirilir.

<u>*Doğru cavab:*</u> Güc birlikdədir.

Şagirdlər obrazlı şəkildə ifadə olunmuş atalar sözlərini təxminən belə izah edə bilərlər:

**"Tək əldən səs çıxmaz"** atalar sözündə ifadə olunan fikir belədir: *Problemi tək həll etmək çətin olur.* Təmsildə də göyərçinlər ovçunun əlindən xilas olmaq üçün güclərini birləşdirdilər.

**"El bir olsa, dağ oynadar yerindən"** atalar sözündə fikir mübaliğə ilə çatdırılır: *Birlik hətta dağı da yerindən tərpədə bilər.* Təmsildə göyərçinlərin birləşib torla birlikdə göyə qalxa bilməsi haqqında da bu atalar sözünü söyləmək olar.

### Yazı

3-3.2.1 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər illüstrasiya əsasında oxuduqları mətnin qısa məzmununu yazmaqla təsviretmə bacarıqlarını inkişaf etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni intonasiya ilə oxuyur. | Tap. A (dərslik) |
| Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir | Tap. B, C (dərslik), tap. A (iş dəftəri) |
| Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. C, Ç (dərslik) |
| Atalar sözlərinin bədii xüsusiyyətlərini izah edir. | Tap. D (dərslik) |
| Mətndən seçilmiş epizodu yazıda təsvir edir. | Tap. B (iş dəftəri) |

## 2-ci dərs. Təmsil

• Dərslik: səh. 92 • İş dəftəri: səh. 63

**Təlim məqsədləri**

• Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st. 3-2.4.4).
• Təmsil janrını səciyyələndirən xüsusiyyətləri müəyyən edir (st. 3-2.4.3).
• Verilmiş şəkillərə əsasən mətn yazır (st. 3-3.2.1).
• Mövzu ilə bağlı fakt və münasibət bildirən fikirləri yazıda əks etdirir (st. 3-3.2.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mətnin xatırlanması |
| 2 | **Oxu** | "Sığırçın və Göyərçin" mətninin oxunması |
| 3 | **Oxuyub-qavrama** | "Sığırçın və Göyərçin" mətni ilə "Bir dəstə göyərçin" mətninin müqayisəsi |
| 4 | **Yazı** | Təmsilin yazılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Müəllim "Bir dəstə göyərçin" mətninin məzmunu və ideyası ilə bağlı suallar verməklə mətni xatırladır.

**Oxu**

3-2.4.4 **Tapşırıq A (dərslik).** Şagirdlər əvvəlcə müəllimin verdiyi vaxt ərzində şeiri səssiz, sonra növbə ilə ifadəli şəkildə oxuyurlar.

**Oxuyub-qavrama**

Müəllim şagirdlərin şeiri qavramasını yoxlamaq üçün suallar verir:

– *Oxuduğunuz şeirdə obrazlar kimlərdir? Şeirdə müəllif hansı fikri oxuculara çatdırmaq istəyir? Şeirin sonluğunda hansı kəlam söylənilir?*

Şagirdlər şeiri obraz və məzmun baxımından "Bir dəstə göyərçin" mətni ilə təxminən belə müqayisə edə bilərlər:

– Hər iki mətndə əsas obrazlar quşlardır. Hər iki mətndə quşlar tələyə düşürlər. "Bir dəstə göyərçin" mətnində tələdən xilas olmaq üçün quşlar güclərini birləşdirir, "Sığırçın və Göyərçin" mətnində isə biri digərinə tələyə düşdüyü üçün gülür, lağ edir və sonda cəzasını alır.

Məzmunlarında oxşarlıq olmasına baxmayaraq hər iki mətnin ideyası bir-birindən fərqlidir.

Mətnlərdən biri nağıl formasında (nəsrlə), digəri şeir formasında (nəzmlə) yazılmışdır.

**"Yadda saxla" rubrikası.** Şagirdlər "Bir dəstə göyərçin" ilə "Sığırçın və Göyərçin" mətnlərinin nümunəsində təmsil janrının xüsusiyyətləri ilə tanış olurlar.

3-2.4.3 **Tapşırıq B (dərslik).** Şagirdlər indiyəcən oxuduqları mətnləri *("Çil toyuq və balaları", "Qartalın təşəkkürü", "Məlikməmmədin nağılı", "İlbizin çanağı")* xatırlayır və təmsilləri *("İlbizin çanağı", "Çil toyuq və balaları")* müəyyənləşdirirlər.

**Tapşırıq C (dərslik). Qruplarla iş.** Qruplar onlara təqdim olunmuş təmsili oxuyur, müzakirə edib sualları cavablandırırlar. Sonda qrupların təqdimatı dinlənilir.

**Siçan və Dəvə**

*Bir siçanla dəvə dost olmuşdular. Siçan özündənrazı və lovğanın biri, dəvə isə ağıllı və müdrik idi. Günlərin bir günü Siçan Dəvəyə dedi:*

*– Artıq buralarda yaşamaq məni bezdirdi. Gəl yaşamaq üçün başqa yer seçək. Mən hər tərəfi beş barmağım kimi tanıyıram. Sənə bələdçilik edə bilərəm. Dəvə dostunun xətrinə dəyməmək üçün razılaşdı. Siçan qabaqda, Dəvə də onun arxasınca yola düşdülər. Gəlib kiçik bir çayın kənarına çatdılar. Siçan qorxa-qorxa dedi:*

*– Mən bu çaydan keçə bilmərəm.*

*Dəvə gülümsünərək dedi:*

*– Niyə? Bu ki çox balaca çaydır. Qorxursan?*

*– Yox, yox. Bu çay sənə balaca gəlir, amma biz siçanlara onun suyu nəhəng dərya kimi görünür.*

*– Axı sən dedin ki, bələdçilik edəcəksən. Ona görə də gərək qabağa özün düşəsən.*

*Siçan utandığından başını aşağı saldı. Yersiz lovğalıq etdiyi üçün peşman oldu.*

*Cəlaləddin Rumi*

**Sincab və Balıq**

*Sincab ilə Balıq göl qırağında görüşdülər. Onlar dost olmaq istədilər. Əvvəlcə Balıq Sincabı evinə dəvət etdi. Amma Sincab qorxdu ki, suda boğular. Ona görə də Balığın evinə getmədi. Sincab təklif etdi ki, Balıq onun evinə gəlsin. Balıq isə ağaca çıxa bilmədi. Beləcə, Sincab ilə Balığın dostluğu pozuldu.*

**Ayı və Şir**

*Əlbir olub bir ayı bir şir ilə*
*Ovladılar dovşanı tədbir ilə.*
*Olmadılar razı onu bölməyə,*
*Çıxdı iş axır ölüb-öldürməyə;*
*Çeynədilər, dişlədilər, diddilər.*
*Bir-birini al-qana qərq etdilər.*
*Özlərini taqətdən saldılar,*
*Hər biri bir səmtə düşüb-qaldılar.*
*Tülkü uzaqdan görüb ol haləti*
*Bildi ki, yox heç birinin taqəti.*
*Gəldi götürdü ovu, etdi fərar,*
*Həsrət ilə baxdı dalınca onlar.*

*Abbas Səhhət*

**Ağıllı Qarışqa**

*Bala dovşana dedi anası:*
*– Gəl kömək elə mənə, qadası!*
*Görürsən, işim başımdan aşır.*
*Sən də buğdanı yuvaya daşı.*
*– Mən oynamağa gedirəm axı!*
*Deyib boz Dovşan qaçdı aşağı.*
*Gördü, yamacda kiçik Qarışqa*
*Kələm daşıyır öz yuvasına.*
*Dedi: – Balaca, işləmə bunca!*
*Gəl oynayaq biz yamac boyunca.*
*Qarışqa dedi: – Sonra oynaram,*
*Mənə bu işi tapşırıb anam.*

*Hikmət Ziya*

### Yazı

3-3.2.1 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətnin giriş hissəsini oxuyur və şəkillərdə hadisənin gedişini izləyir və nəticə çıxararaq təmsili tamamlayırlar.

3-3.2.3 **Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin fikirlərini yazılı şəkildə ifadə etmək bacarığını inkişaf etdirir.

**Müəllimin nəzərinə!** Təmsilin mövzusu şagirdlərin yaş xüsusiyyətinə uyğundur və bəzi şagirdlərdə bu xüsusiyyət özünü bariz göstərir. Həmin şagirdlər üçün tapşırığın həm də tərbiyəvi əhəmiyyəti var.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu mətnlər arasında oxşar epizodları müəyyən edir. | Tap. A (dərslik) |
| Təmsil janrını səciyyələndirən xüsusiyyətləri müəyyən edir. | Tap. B, C (dərslik) |
| Verilmiş şəkil və şərhlər əsasında təmsil yazır. | Tap. A (iş dəftəri) |
| Mövzu ilə bağlı fakt və münasibət bildirən fikirləri yazıda əks etdirir. | Tap. B (iş dəftəri) |

## 3-cü dərs. Əsas və köməkçi sözlər

• Dərslik: səh. 93 • İş dəftəri: səh. 64

### Təlim məqsədləri

• Əsas nitq hissələrinin (isim, sifət, say, feil, əvəzlik) ümumi leksik-qrammatik xüsusiyyətlərini müəyyənləşdirir (st. 3-4.2.1).
• Cümlənin ifadə etdiyi fikrə əsasən müvafiq köməkçi sözlərdən istifadə edir (st. 3-4.2.1).
• Cümlədəki sözlər arasındakı əlaqədən çıxış edərək əsas nitq hissələrini uyğun qrammatik formada işlədir (st. 3-4.2.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Nitq hissələri üzrə biliklərin xatırlanması |
| 2 | **Dil qaydaları** | Əsas və köməkçi sözlər üzrə bilik və bacarıqların möhkəmləndirilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhədə bir neçə cümlə yazıb şagirdlərə tapşırır ki, cümlədəki sözlərin aid olduğu nitq hissəsini söyləsinlər. Çalışmaq lazımdır ki, seçilmiş cümlələrdə keçilməyən nitq hissələrinə aid sözlər işlənməsin. Cümlələr təxminən belə ola bilər:

*– Sevinirəm ki, dərsdə çoxlu şagird iştirak edir. Təəssüflənirəm ki, Əli, Sevda məktəbə gəlməyiblər.*

### Dil qaydaları

3-4.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər verilmiş cümləni cədvəl üzrə qruplaşdırmaqla keçilən nitq hissələrini fərqləndirdiklərini nümayiş etdirirlər.

**Tapşırıq B (dərslik). Cütlərlə iş.** Cütlər tapşırıqda verilmiş fikirləri analiz edərək doğru və yanlış olduqlarını müəyyən edirlər.

*Doğru cavab:* 1-ci, 4-cü, 5-ci, 6-cı fikirlər doğru, 2-ci və 3-cü fikirlər yanlışdır.

**Tapşırıq C (dərslik).** Verilmiş müxtəsər cümlələrə say, sifət və isim əlavə etməklə cümlələri genişləndirirlər. Bununla da şagirdlər həm nitq hissələrini fərqləndirir, həm də cümlə qurmaq bacarıqlarını inkişaf etdirirlər.

Təxminən belə yaza bilərlər:

1. Ana üç böyük top aldı.
2. Müəllim bir neçə maraqlı şeir söylədi.
3. Ramiz on qırmızı qələm gətirdi.
4. Əsgər bir balaca ev gördü.
5. Bağban iki iri armud dərdi.
6. Dərzi beş uzun don tikdi.

3-4.2.1 **Tapşırıq Ç (dərslik).** Tapşırıq vasitəsilə şagirdlər əsas və köməkçi nitq hissələrini fərqləndirdiklərini nümayiş etdirirlər.

Doğru cavab: 1. çünki; 2. və, ancaq; 3. ilə, və; 4. və, çünki.

3-4.2.1 **Tapşırıq D (dərslik). Cütlərlə iş.** Cütlər verilmiş xüsusiyyətlərə aid sözləri müəyyənləşdirməklə isim və feil üzrə biliklərini möhkəmləndirirlər.

Doğru cavab: 1 – d; 2 – a; 3 – ç; 4 – b; 5 – c; 6 – e.

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırıq şagirdlərin həm nitq hissələri üzrə biliklərini, həm də söz ehtiyatını möhkəmləndirir.

Doğru cavab: 1. isim; 2. sifət; 3. say; 4. əvəzlik; 5. feil; 6. bağlayıcı.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər cümlələrin məzmununa uyğun olaraq köməkçi sözlərdən istifadə etməklə bilik və bacarıqlarını möhkəmləndirirlər.

Doğru cavab: 1. və; 2. amma; 3. çünki.

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər dil daşıyıcıları olduqlarına görə onlar feilləri asanlıqla şəxsə görə dəyişə bilirlər. Bu tapşırıqda isə şagirdlər cümlələri oxuyur və cümlələrdəki feilləri deyil, feilin tələbinə görə şəxs əvəzliyini dəyişirlər.

Doğru cavab:

*1. **Siz** ingilis dilini də öyrənməli**siniz**.*
*2. **Biz** gündəlik idmanla məşğul olur**uq**.*
*3. **Sən** çimərliyə gedəcək**sən**?*
*4. **Biz** Samirlə Gəncəyə getdi**k**.*

**Tapşırıq Ç (iş dəftəri).** Bu tapşırıqda feillər məsdər formasında verilib və şagirdlər feilləri tələb olunan qaydada dəyişirlər.

Doğru cavab: *gözləmədiniz; barışacaqlar; yapışmadı.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əsas nitq hissələrini (isim, sifət, say, feil, əvəzlik) leksik-qrammatik xüsusiyyətlərinə görə müəyyənləşdirir. | Tap. A (dərslik), tap. A (iş dəftəri) |
| Köməkçi sözləri əsas nitq hissələrindən fərqləndirir. | Tap. B, Ç (dərslik) |
| Cümlənin tərkib hissələri arasında məna əlaqəsinə görə uyğun gələn bağlayıcını müəyyən edir. | Tap. B (iş dəftəri) |
| Feilləri şəxsə və zamana görə dəyişdirir. | Tap. C, Ç (iş dəftəri) |

fəsil 4 **YUMOR VƏ HİKMƏT**

## 1-ci dərs. "Molla ilə oğlu"

• Dərslik: səh. 94–95 • İş dəftəri: səh. 65

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 3-1.3.3).
• Obrazların nitqini onların xarakterinə uyğun səsləndirir (st. 3-2.1.2).
• Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir (st. 3-2.3.1).
• Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir (st. 3-2.3.3).
• Lətifə janrını səciyyələndirən xüsusiyyətləri müəyyən edir (st. 2.4.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin gülməli əhvalat söyləməsi |
| 2 | **Danışma** | Şagirdlərin gülməli əhvalat danışması |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Molla ilə oğlu" mətninin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Mətnin ideyasının müəyyənləşdirilməsi; lətifə janrının tanıdılması |
| 5 | **Yazı** | Sualların yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim dərs vaxtı başına gələn gülməli əhvalatlardan birini və ya aşağıdakı əhvalatı danışa bilər:

*Bir gün şagirdlərimdən birinə dedim:*

*– Kamran, boynuna al, sənin yerinə bu tapşırığı kim yazıb?*

*– Müəllim, bilmirəm, düz sözümdür! Mən yatmağa tez getmişdim!*

Müəllim danışdığı əhvalat nümunəsində "yumor" sözünü izah edir.

### Danışma

3-1.3.3 **Tapşırıq A (dərslik).** Şagirdlər başlarına gələn gülməli əhvalat danışırlar. Danışdıqları əhvalatda hansı məqamın gülüş doğurması müzakirə olunur.

### Oxu. Söz ehtiyatı

3-2.1.2 **"Molla ilə oğlu" mətni. Rollu oxu.** Mətndə müxtəlif obrazların nitqi olduğu üçün rollu oxu məqsədəuyğundur. Şagirdlər mətni növbəli şəkildə oxuyurlar.

3-2.2.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətni oxuduqca tanış olmayan sözlərin mənasını müəllimin köməyi ilə aydınlaşdırırlar. "Söz boğçası" üzrə iş aparılır. İfadələrin mənası aydınlaşdırılır. Şagirdlər tapşırığı müstəqil yerinə yetirməklə ifadələrin mənasını anladıqlarını nümayiş etdirirlər.

### Oxuyub-qavrama

3-2.3.1 **Tapşırıq B (dərslik).** Müəllim faktoloji suallar vasitəsilə şagirdlərin mətnin məzmununu necə qavradıqlarını yoxlayır.

<u>Doğru cavab:</u> *Mətndə 5 epizod var.*

3-2.3.3 **Tapşırıq C (dərslik).** Şagirdlər əvvəlcə mətndəki əsas fikri ifadə edən cümləni müəyyənləşdirirlər: *Hamıya qulaq assan, gərək eşşəyi belinə alasan.*

Sonrakı mərhələdə müəyyən edirlər ki, bu fikri başqa cür *"Başqalarının dediyi ilə oturub-durmaq olmaz"* kimi ifadə etmək olar.

Müəllim əlavə izah verə bilər:

– İnsan hər hansı addımı atarkən özü düşünməli və başqalarından məsləhət alsa belə, qərarını özü verməlidir.

**"Yadda saxla" rubrikası.** Şagirdlər təmsil haqqında rubrikada verilən məlumatla tanış olurlar.

**"Molla ilə oğlu"** mətninin nümunəsində lətifənin xüsusiyyətləri müzakirə olunur.

3-2.4.3 **Tapşırıq Ç (dərslik).** Şagirdlər "Diş ağrısı" mətnini müəllimin verdiyi vaxt ərzində səssiz oxuyub lətifə olmasını əsaslandıran xüsusiyyətləri müəyyənləşdirirlər. Sonra bir neçə şagird lətifəni, obrazların nitqini onların keçirdiyi hiss və həyəcana uyğun intonasiya ilə oxuyurlar. Mətnin lətifə olmasını əsaslandıran xüsusiyyətləri *(yığcamdır, gülüş doğurur, hikmətamiz məzmunu var, əsas fikir sonda aydın olur)* söyləyirlər.

3-2.3.3 **Tapşırıq D (dərslik).** Şagirdlər lətifənin ideyasına uyğun atalar sözünü seçirlər.

<u>Doğru cavab:</u> Bu canın o candan xəbəri olmaz.

**Müəllimin nəzərinə!** Tapşırıqda verilmiş

digər atalar sözlərində ifadə olunan fikirləri və işlənmə məqamını şagirdlərə izah etmək tövsiyə olunur.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq üç mərhələdən ibarətdir.

**1.** Şagirdlər tapşırıqda verilmiş mətni oxuyur, gülüş yaradan cümlələrin altından xətt çəkirlər.

**2.** Lətifənin ideyasına uyğun atalar sözünü müəyyənləşdirirlər.

**3.** Lətifənin baş qəhrəmanının davranışına münasibət bildirirlər.

Lətifənin ideyasına "Yalançının şahidi yanında olar" atalar sözü uyğun gəlir. Molla qonşusuna eşşəyin dəyirmana getdiyini söyləyərkən tövlədən eşşəyin səsi gəlir və Mollanın yalan danışması ortaya çıxır. Mollanın hazırcavab olub pərt vəziyyətdən çıxa bilməsi də lətifədə gülüş yaradan məqamdır. Şagirdlər baş qəhrəmanın davranışına münasibət bildirərkən bu məqamı da qeyd edə bilərlər.

**Müəllimin nəzərinə!** Şagirdlərə "Yumor və hikmət" fəslində təqdim olunmuş bir neçə lətifənin baş qəhrəmanı Molla Nəsrəddindir. Müəllimin onun haqqında kiçik məlumat verməsi tövsiyə olunur. Molla Nəsrəddinin hazırcavab, çoxbilmiş, eyni zamanda avam, sadəlövh xüsusiyyətləri onun haqqında lətifələrin yaranmasına səbəb olmuşdur. Azərbaycan lətifələrinin başqa tanınmış qəhrəmanları da var. *Bəhlul Danəndə, şəkili Hacı dayı* və s.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəxsi həyatından nümunələr gətirməklə fikrini əsaslandırır. | Tap. A (dərslik) |
| Mətndəki obrazların nitqini onların emosional vəziyyətinə görə səsləndirir. | "Molla ilə oğlu" mətni |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Mətndəki əlaqəli faktları tutuşdurmaqla nəticələr çıxarır. | Tap. B (dərslik) |
| Lətifə janrını səciyyələndirən xüsusiyyətləri müəyyən edir. | Tap. Ç (dərslik) |
| Verilmiş atalar sözlərindən əsərin ideyasına uyğun gələnini seçir. | Tap. D (dərslik), tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** 1. Tapşırıq E (dərslik). Tapşırığın məqsədi şagirdlərdə lətifə danışmaq bacarığını formalaşdırmaqdır. Şagirdlər oxuduqları lətifələrdən birini seçib növbəti dərsdə danışacaqlar. Müəllim şagirdlərə tapşırır ki, oxuduqları lətifələri evdə ailə üzvlərinə söyləsinlər.
2. Dərsliyin 96-cı səhifəsindəki Ç tapşırığı üzrə qruplarla iş təşkil etmək üçün müəllimə "Molla və qonşusu" mətninin (MV: səh. 104) üzünü çıxarmaq tövsiyə olunur.

## 2-ci dərs. Lətifə

• Dərslik: səh. 96 • İş dəftəri: səh. 66

### Təlim məqsədləri

• Mətni məzmununa və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır (st. 3-2.4.2).
• Dinlədiyi mətnin mövzu və məzmununa yaradıcı yanaşmaqla danışır (st. 3-1.3.1).
• Dialoji mətni səhnələşdirərkən improvizələr edir (st. 3-2.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Lətifə janrının xüsusiyyətlərinin xatırlanması |
| 2 | **Oxuyub-qavrama** | Lətifələrin tamamlanması |
| 3 | **Danışma** | Lətifələrin təlimata əsasən söylənilməsi |
| 4 | **Oxuyub-qavrama** | "Molla və qonşusu" mətni əsasında tamaşanın qurulması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə sual verir:

– *Lətifəni digər mətnlərdən fərqləndirən əsas xüsusiyyət nədir?*

### Oxuyub-qavrama

3-2.4.2 **Tapşırıq A (dərslik).** Şagirdlər tapşırıqda verilmiş kiçik dialoqları oxuyur, uyğun variantı seçməklə lətifə yaradırlar. Məqsəd şagirdlərdə yumor hissini inkişaf etdirməkdir.

Doğru cavab: 1 – b; 2 – b; 3 – a; 4 – b.

Şagirdlər seçdikləri cavabları əsaslandırmalıdırlar.

**Tapşırıq A, B (iş dəftəri).** Şagirdlər bu tapşırıqları müstəqil yerinə yetirməklə lətifə ilə bağlı bilik və bacarıqlarını nümayiş etdirirlər.

1-ci lətifədəki obrazın yalan danışması gülüş yaradır. Doğru cavab: b) Pilləkənlə düşəndə yıxıldı, ayağı sındı, ona görə də evə qaçdı.

2-ci lətifədə isə gülüş yaradan məqam budur: Müəllim bölmə əməlinə dair sual verdiyi halda şagird 8 rəqəminin formasına görə bölünməsindən danışır. Doğru cavab: b) 0 və 3.

**Tapşırıq C (iş dəftəri).** Tapşırıq şagirdlərin yaradıcı təfəkkürünün inkişafına xidmət edir.

Şagirdlər təxminən belə yaza bilərlər:

1-ci lətifə: – Bir, iki, üç, dörd, beş.

2-ci lətifə: – Qızardılmışlar.

3-cü lətifə: – Amma onu uzatmaq olur.

**Diferensial təlim**

Çətinlik çəkən şagirdlərə müəllim əvvəlki tapşırıq modelində olduğu kimi variantlar təqdim edə bilər.

## Danışma

3-1.3.1 **Tapşırıq B (dərslik).** Müəllim dinləmə mətnini səsləndirməzdən öncə şagirdlərə tapşırır:

*– Mən lətifəni söyləyən zaman səsimin tonuna, istifadə etdiyim jest və mimikalara diqqət edin. Bu sizə növbəti tapşırıqları yerinə yetirməyə kömək edəcək.*

**"Molla və qonşusu"**

*Molla Nəsrəddin bir gün dostlarından birinə məktub yazırmış. Bir nəfər də onun yanında durub gizlin-gizlin yazdıqlarını oxuyurmuş. Molla axırda təngə gəlib məktubda yazır ki:*

*– Əziz dostum! Sənə çox şeylər yazacaqdım. Ancaq bu saat yanımda ədəbsizin biri dayanıb, hər nə yazıramsa, oxuyur.*

*Kişi bunu da oxuyub hirslənir ki:*

*– Bu nədir? Sənin nə haqqın var, məni ədəbsiz adlandırırsan?*

*Molla deyir:*

*– Çünki başqasının məktubunu oxuyursan.*

*Kişi deyir:*

*– Mən nə zaman sənin məktubunu oxudum?*

*Molla deyir:*

*– Bax indi ki oxumursan, nə bildin, mən sənin haqqında ora nə yazmışam?*

**Tapşırıq C (dərslik).** Şagirdlər tapşırıqda verilmiş təlimatı oxuyub təqdimata hazırlaşırlar.

Şagirdlər təqdimat edən yoldaşlarının fəaliyyətini qiymətləndirməlidirlər. Bunun üçün müəllim lövhədə "Yoldaşını qiymətləndir" cədvəli çəkə bilər:

| Meyarlar | Bəli | Qismən | Xeyr |
|---|---|---|---|
| Aydın səslə danışırdı. | | | |
| Jest və mimikaları danışığa uyğun idi. | | | |
| İfadəli və təsiredici danışırdı. | | | |
| Lətifənin gülüş yaradan sonuncu cümləsini fərqli səs tonu ilə dedi. | | | |

## Oxuyub-qavrama

3-2.1.2 **Tapşırıq Ç (dərslik). Qruplarla iş.** Müəllim qruplara onların dinlədikləri "Molla və qonşusu" lətifəsini təqdim edir. Qruplara müzakirə və məşq üçün bir qədər vaxt verir.

Qrup üzvləri tərəfindən iki aktyor seçilir. Hər birinin rolu, nitqi, hərəkətləri müzakirə olunur, iş vərəqində tamaşanın ssenarisi hazırlanır. Sonda qruplar təqdimat edirlər.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni janrın tələbinə uyğun tamamlayır. | Tap. A (dərslik), tap. A, B, C (iş dəftəri) |
| Lətifəni janrın xüsusiyyətlərini nəzərə almaqla nəql edir. | Tap. C (dərslik) |
| Dialoji mətni səhnələşdirərkən improvizələr edir. | Tap. Ç (dərslik) |

## **3-cü dərs.** Söz birləşməsi və cümlə

• Dərslik: səh. 97  • İş dəftəri: səh. 67

**Təlim məqsədləri**

• Sözlər arasında məna əlaqəsini müəyyən etməklə söz birləşməsi və cümlələr qurur (st. 3-4.2.2).
• Sadə cümlələr arasında uyğunluğu müəyyən edərək mürəkkəb cümlə qurur (st. 3-4.2.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Söz birləşməsi və cümlələrin fərqləndirilməsi |
| 2 | **Dil qaydaları** | Söz birləşməsi və cümlə üzrə bilik və bacarıqların möhkəmləndirilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhəyə "hava" sözü yazır və ardıcıllıqla bu tapşırıqları verir:

*– Bu sözdən söz birləşmələri yaradın.*

*– Bu söz birləşməsindən cümlələr qurun.*

*– İndi isə bu cümləyə başqa bir cümlə əlavə edib mürəkkəb cümlə yaradın.*

Müəllim şagirdlərdən aldığı cavablar əsasında lövhədə təxminən belə yaza bilər:

*1. Hava. 2. Küləkli hava. 3. Mənim küləkli havadan xoşum gəlmir. 4. Mənim küləkli havadan xoşum gəlmir, ancaq məktəbə getməliyəm.*

### Dil qaydaları

**Tapşırıq A (dərslik). Kollektiv iş.** Şagirdlər lətifəni oxuyur və qrammatik sualları cavablandırırlar.

*Doğru cavab:* 1. Üç cümlə; 2. Birinci cümlə; 3. İki cümlə; 4. Sonuncu cümlə.

3-4.2.2 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin söz birləşmələri üzrə bilik və bacarıqlarının tətbiqi üçün nəzərdə tutulmuşdur.

3-4.2.2 **Tapşırıq C (dərslik).** Şagirdlər cümlələr arasından 1-ci, 2-ci və 5-ci cümlənin mürəkkəb cümlə olmasını müəyyənləşdirdikdən sonra həmin cümlələrə uyğun gələn bağlayıcılar əlavə etməklə köçürürlər. Bununla da şagirdlərin mürəkkəb cümlənin tərkib hissələri arasında bağlayıcılardan istifadə bacarıqları möhkəmləndirilir.

**Tapşırıq Ç (dərslik).** Bu tapşırıqda isə bağlayıcıların mürəkkəb cümlədə rolunu anlayan şagirdlər cümlələri uyğun məzmunda tamamlayırlar.

*1. Çox maraqlı oyun gedir, amma mən evə qayıtmalıyam.*

*2. Mən xəstələndim, çünki bu gün hava çox soyuq idi.*

*3. Adilin bacısı yıxıldı və Adil atasını köməyə çağırdı.*

*4. Həkim bir qədər gec gəldi, çünki yolda tıxac yaranmışdı.*

*5. Əsgərlər məktəbə gəlmişdilər, ona görə də uşaqlar əsgərlərə təşəkkür etdilər.*

3-4.2.2 **Tapşırıq A (iş dəftəri).** Bu tapşırıq vasitəsilə şagirdlər qrammatik biliklərini tətbiq edərək tapşırıqda verilmiş şəkli yazılı təsvir edirlər.

3-4.2.2 **Tapşırıq B, C (iş dəftəri).** Tapşırıqlar mürəkkəb cümlə üzrə mənimsədilən bilik və bacarıqları möhkəmləndirmək məqsədi daşıyır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlər arasında məna əlaqəsini müəyyənləşdirərək söz birləşmələri yaradır. | Tap. B (dərslik) |
| Cümlənin tərkib hissələri arasında məna əlaqəsinə görə uyğun gələn bağlayıcını müəyyən edir. | Tap. C (dərslik) |
| Şəklə aid açar söz, söz birləşməsi və cümlələr yazır. | Tap. A (iş dəftəri) |
| Mürəkkəb cümlənin tərkib hissələrini müəyyən edir. | Tap. Ç (dərslik), tap. B, C (iş dəftəri) |

## fəsil 5 MƏHARƏT

### 1-ci dərs. "Fitnə" (I hissə)

• Dərslik: səh. 98–99 • İş dəftəri: səh. 68

**Təlim məqsədləri**

• Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• Yaxınmənalı və əksmənalı sözlərin köməyi ilə söz və ifadələri izah edir (st. 3-4.4.2).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 3-2.2.1).
• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 3-2.4.1).
• Mətni məzmununa və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır (st. 3-2.4.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Məharətli, istedadlı olmaq haqqında söhbət |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Fitnə" (I hissə) mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə sualların cavablandırılması; yeni epizodun mətndəki yerinin müəyyənləşdirilməsi |
| 4 | **Formativ qiymətləndirmə** | |

#### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdləri xüsusi qabiliyyətləri haqqında danışdırmaq onlarda "Fitnə" mətninin oxunmasına maraq oyadacaq. Müəllim bir sıra xüsusi qabiliyyət tələb edən sənət adlarını (rəssamlıq, rəqqaslıq, şahmat, idman və s.) çəkməklə şagirdləri öz bacarıqları üzrə düşündürə bilər.

#### Oxu. Söz ehtiyatı

3-2.2.3 **"Fitnə" mətni. Növbə ilə oxu.** Şagirdlər mətni bir-birini izləyərək oxuyurlar. Tanış olmayan sözləri qeyd edirlər. Sonda müəllim şagirdlərə tanış olmayan sözlərin mənasını kontekstə əsasən izah etməyi tapşırır. Şagirdlər təxmin etdikləri mənanı söylədikdən sonra müəllimin və ya lüğətin köməyi ilə həmin sözlərin mənalarını dəqiqləşdirirlər.

Sözlərin izahı:

*Kəniz* – xidmətçi qız, qulluqçu; *öyünmək* – özünü öymək, özünü tərifləmək; lovğalanmaq; *pərişan* – 1) dağınıq, qatma-qarışıq, nizamsız, 2) qəmli, kədərli, qüssəli.

**Müəllimin nəzərinə!** Şagirdlərə mətndə işlənən "quşu gözündən vurmaq" ifadəsinin başqa situasiyalarda da işləndiyini onların nəzərinə çatdırmaq tövsiyə olunur. Məsələn, *Kamil sonuncu cavabı ilə lap quşu gözündən vurdu* və s.

3-4.4.2 **Tapşırıq A, B (iş dəftəri).** Kontekstdən çıxış edərək sözün mənasını təxmin edir və yaxınmənalı qarşılığını müəyyənləşdirir.

*Doğru cavab:* **Tap. A:** öyünmək; məharət; hirslənmək.

**Tap. B:** *Pərişan* – kədərli, məyus, fikirli, bikef, qəmgin və s.

#### Oxuyub-qavrama

3-2.2.1 **Tapşırıq B (dərslik).** Mətnlə bağlı faktoloji sualları cavablandırmaqla mətni oxuyub-qavradıqlarını nümayiş etdirirlər.

3-2.4.1 **Tapşırıq C (iş dəftəri).** Səbəb-nəticə cədvəlini tamamlamaqla mətni qavradıqlarını nümayiş etdirirlər.

*Doğru cavab:* 1. Fitnə Bəhram şahı qəzəbləndirdi. Bəhram şah onu öldürməyi əmr etdi.

2. Fitnə sərkərdəni razı saldı ki, onu öldürməsin. Sərkərdə Fitnəni öldürmədi.

3. Sərkərdə Bəhram şaha Fitnəni öldürdüyünü dedi. Bəhram şah verdiyi əmrə görə peşman oldu, kədərləndi.

3-2.4.2 **Tapşırıq C (dərslik).** Müəllim "Bəhramın ceyran ovlaması" epizoduna aid hissəni səsləndirir:

*Bir gün Bəhram ovda idi. Fitnə də onunla getmişdi. Bəhram fikir verib gördü ki, Fitnədən başqa hamı onun şücaətini tərifləyir. Bəhram Fitnəni yanına çağırıb dedi:*

*– Sən niyə susursan? Mənim ovçuluq məharətimi bəyənmədinmi?*

*Bu zaman kolların arasından bir ceyran çıxdı. Bəhram ceyranı göstərib dedi:*

*– Odur, bax, bizə tərəf bir ceyran qaçır. İstəyirsən, bir oxla o ceyranın ayağını başına tikim?*

*Bunu deyib Bəhram kamanına daş qoydu və ceyranın başını nişan aldı. Daşı elə məharətlə atdı ki, düz ceyranın qulağına dəydi. Ceyran ayağını*

*qaldırıb ağrıyan qulağını qaşımağa başladı. Bəhram da elə bunu gözləyirdi. Cəld kamana ox keçirib atdı. Ox ceyranın dırnağından keçib başına sancıldı. Ceyran yerə yıxıldı. Bəhram özündən razı halda Fitnəyə baxıb tərif gözlədi.*

Şagirdlər mətni dinlədikdən sonra bu epizodun mətndəki yerini müəyyən edirlər.

<u>*Doğru cavab:*</u> Epizod mətnin giriş hissəsinə uyğundur.

3-2.4.1 **Tapşırıq Ç (dərslik).** Şagirdlər şəkildən və dinlədikləri hissədən çıxış edərək Bəhram şahın ovçuluğu haqqında Fitnənin fikrini şərh edirlər. Şagirdlər Fitnənin sözlərini belə izah edə bilərlər:

*– İnsan ən çətin işin öhdəsindən vərdişlə gələ bilər. Sənin şücaətin, məharətin güclü olmağında deyil, vərdişinin nəticəsidir. O qədər ov etmisən ki, artıq ovunu nişan alıb dəqiq vura bilirsən. Hər kəs sənin qədər ov etsə, o da bacara bilər.*

**Tapşırıq D (dərslik).** Mətnin davamını təxmin edib öz versiyalarını söyləyirlər. Bununla da onların hadisələri analiz etmək bacarığı və yaradıcı təfəkkürləri inkişaf etdirilir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək sözün mənasını təxmin edir, yaxınmənalı sözlə izah edir. | “Fitnə” mətni. Tap. A, B (iş dəftəri) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. B (dərslik) |
| Obrazın davranışı haqqında verilmiş fikri əsaslandırır. | Tap. C (iş dəftəri) |
| Yeni epizodun mətndəki yerini müəyyən edir. | Tap. C (dərslik) |
| Öyrəndiyi məlumatlardan çıxış edərək mətndəki fikirləri şərh edir. | Tap. Ç (dərslik) |
| Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir. | Tap. D (dərslik) |

## 2-ci dərs. “Fitnə” (II hissə)

• Dərslik: səh. 100–101 • İş dəftəri: səh. 69

### Təlim məqsədləri

• Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 3-2.2.3).
• Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir (st. 3-2.3.1).
• Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir (st. 3-2.3.3).
• Bədii mətni hadisələrin ardıcıllığına uyğun nəql edir (st. 3-1.3.1).
• Mətndəki obrazları xarakterizə edir (st. 3-2.3.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | İllüstrasiyaya baxıb mətnin məzmununun təxmin edilməsi |
| 2 | **Oxu. Söz ehtiyatı** | “Fitnə” (II hissə) mətninin oxunması; yeni sözlərin mənimsədilməsi |
| 3 | **Oxuyub-qavrama** | “Fitnə” mətnindəki obrazların xarakter və davranışlarının təhlili |
| 4 | **Danışma** | Mətnin nəql olunması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərin diqqətini illüstrasiyaya yönəldir və soruşur:

*– Sizcə, Fitnə 1-ci şəkildə buzovu və 2-ci şəkildə öküzü nə üçün çiyninə qaldırıb? O bunu necə bacarıb?*

### Oxu. Söz ehtiyatı

3-2.2.3 **Tapşırıq A (dərslik).** “Fitnə” mətninin davamı növbə ilə oxunur. Müəllim şagirdlərə tapşırır ki, mətni oxuduqca tünd hərflərlə verilmiş cümlələrin məzmununa diqqət yetirsinlər. Müəllifin nəyə işarə etdiyi üzərində düşünsünlər.

**“Söz boğçası” rubrikası.** Mətn oxunduqdan sonra müəllim “söz boğçası”ndakı sözlərin mənasını açıqlayır:

*təpəl* – mal-qaranın, xüsusilə at, inək və öküz kimi iri ev heyvanlarının alnındakı ağ ləkə;

*naxır* – bir yerdə otlayan mal-qara sürüsü;

*rübənd* – gözün üstündən salınan hissəsi tordan ibarət olan qadın baş örtüyü.

Mətn oxunduqdan sonra şagirdlər əvvəlki dərsdə mətnin davamı ilə bağlı təxmini versiyalarını mətnin məzmunu ilə müqayisə edirlər. Bu, şagirdlərin bədii təxəyyülünün inkişafına kömək edir.

### Oxuyub-qavrama

3-2.3.1 **Tapşırıq B (dərslik).** Tapşırığı yerinə yetirməklə şagirdlər mətni oxuyub-qavradıqlarını nümayiş etdirirlər.

3-2.3.3 **Tapşırıq C (dərslik). Cütlərlə iş.** Cütlər tapşırıqda verilmiş atalar sözlərini mətnə istinad etməklə müzakirə edirlər. Təqdimat zamanı fikirlərini şərh etmək üçün mətndən uyğun epizodları müəyyənləşdirirlər.

*Doğru cavab:* 1 – b; 2 – c; 3 – a.

Şagirdlər atalar sözlərini mətnə uyğun təxminən belə şərh edə bilərlər:

– **Hirsli başda ağıl olmaz.** Bəhram şahın hirslənərək Fitnəni öldürmək qərarı verib sonradan peşman olması onu göstərir ki, həqiqətən də, hirsli başda ağıl olmaz.

– **Dil var, bal gətirər, dil var – bəla.** Fitnənin Bəhram şaha cəsarətlə öz sözünü (onun şücaətini başqaları kimi təriflməyib məharətini vərdiş hesab etməsi) deməsi onun başına bəla oldu.

– **Yaxşılıq edən yaxşılıq görər.** Sərkərdənin Fitnəyə yazığı gəldiyi üçün onu öldürmədi. Bəhram şah ona bu yaxşılığına görə qiymətli hədiyyələr bağışladı.

3-2.3.2 **Tapşırıq A (iş dəftəri).** Fitnə ilə bağlı obraz xəritəsini tamamlamaqla şagirdlərin həm oxuyub-qavrama, həm də yazı bacarıqları inkişaf etdirilir.

Şagirdlər obraz xəritəsində verilmiş fikirləri belə əsaslandıra bilərlər:

**Fitnə cəsarətlidir.** Çünki, o öz fikrini Bəhram şaha qorxmadan deyir.

**Fitnə ağıllıdır.** Sərkərdənin onu öldürmək istəmədiyini başa düşdükdə onu razı salmağı bacarır.

**Fitnə səbirli və iradəlidir.** O yorulmadan kiçik buzovu böyüyüb öküz olana qədər çiynində daşıyır.

**Diferensial təlim**

Müəllim yüksək təfəkkürlü şagirdlərə əlavə tapşırıq verə bilər:

– *“Fitnə inadkardır” fikrini mətnə istinad etməklə əsaslandırın.*

Şagirdlər təxminən belə əsaslandıra bilərlər:

– *Fitnə öz sözünün üstündə duraraq Bəhram şahı inandırmaq üçün uzun müddət məşq edir və Bəhram şaha sübut edir ki, ən çətin bacarığı belə uzunmüddətli məşq və vərdiş hesabına əldə etmək olar.*

### Danışma

3-1.3.1 **Tapşırıq Ç (dərslik). Kollektiv iş.** Şagirdlər ardıcıllığı müəyyənləşdirdikcə müəllim və ya şagirdlərdən biri lövhədə yarımbaşlıqları sıra ilə yazır və bir neçə şagird mətni bütövlükdə nəql edir.

*Doğru cavab:*
1. Bəhram şahın ceyranı ovlaması
2. Bəhram şahın Fitnəyə qəzəblənməsi
3. Sərkərdənin Fitnəni gizlətməsi
4. Bəhram şahın peşman olması
5. Sərkərdənin Bəhram şahı qonaq çağırması
6. Bəhram şahın Fitnəni tanıması

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni oxuyarkən tanış olmadığı sözlərin mənasını aydınlaşdırır. | Tap. A (dərslik) |
| Faktlardan istifadə etməklə mətndə birbaşa əks olunmayan məlumat əldə edir. | Tap. B (dərslik) |
| Mətnə istinad etməklə obrazın xarakteri və ya davranışı haqqında fikirləri əsaslandırır. | Tap. C (dərslik) |
| Tərtib etdiyi plan əsasında mətni nəql edir. | Tap. Ç (dərslik) |
| Mətn üzrə obraz xəritəsi tərtib edir. | Tap. A (iş dəftəri) |

## 3-cü sinifdə keçilənlərin təkrarı

• Dərslik: səh. 102–103 • İş dəftəri: səh. 70–71

Tədris ilinin sonunda dərslik və iş dəftərində 3-cü sinifdə keçilən dil qaydaları və filoloji anlayışlarla bağlı təqdim olunan tapşırıqlar müvafiq standartların nə dərəcədə reallaşdığını yoxlamağa imkan verir. Tapşırıqlar, əsasən, dil qaydalarını əhatə edir. Həmçinin oxu (söz ehtiyatı) və yazı-məzmun xətti üzrə mənimsədilən bir sıra filoloji anlayışlarla bağlı (Müqayisə cədvəli, yaddaş xəritəsi, obraz xəritəsi, janrlar və s.) tapşırıqlar da verilmişdir. Tapşırıqlar tətbiqi xarakterlidir və şagirdlərin nitq bacarıqlarını üzə çıxarır. Dərslikdə verilən bir sıra tapşırıqlar kollektiv şəkildə müzakirə yolu ilə yerinə yetirilə bilər. Fərdi yerinə yetirilən tapşırıqların sonda ümumi siniflə müzakirə edilməsi məqsədəuyğundur. Tapşırıqlar aşağıdakı təlim məqsədlərinin reallaşdırılmasına xidmət edir.

| Məzmun standartları | Təlim məqsədləri | Materiallar |
|---|---|---|
| 3-4.4.2. Söz və ifadələri izah etmək bacarığını nümayiş etdirir. | • Ümumi məna və özəl əlamətləri göstərməklə anlayışı izah edir. | Tap. A, B, C, D (dərslik) |
| 3-2.4.3. Mətni məzmun, struktur, dil-üslub və obrazlar sistemi baxımından təhlil edir. | • Mətnlərin bədii, poetik xüsusiyyətlərini müəyyənləşdirir və ekspressiv təsirini izah edir. | Tap. E (dərslik), tap. E (iş dəftəri) |
| 3-4.2.1. Cümlədə sözləri leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir. | • Əsas nitq hissələrinin (isim, sifət, say, feil, əvəzlik) ümumi leksik-qrammatik xüsusiyyətlərini müəyyənləşdirir.<br>• Cümlənin ifadə etdiyi fikrə əsasən müvafiq köməkçi sözlərdən istifadə edir. | Tap. Ə, F (dərslik), tap. C (iş dəftəri) |
| 3-3.1.2. Mənimsədiyi orfoqrafiya qaydalarını sözlərin yazılışında tətbiq edir. | • Sözlərdə samitlərin düzgün yazılışını müəyyən edir. | Tap. G (dərslik), tap. A (iş dəftəri) |
| 3-2.4.3. Bədii ifadələrin nitqdəki rolunu dəyərləndirir. | • Mətndəki obrazlı ifadələri fərqləndirir və izah edir. Situasiyaya uyğun obrazlı ifadələrdən istifadə edir. | Tap. B (iş dəftəri) |
| 3-3.1.2. Özünün və ya başqasının yazısını təkmilləşdirir. | • Özünün və başqasının yazısını dil qaydaları baxımından təkmilləşdirir. | Tap. Ç (iş dəftəri) |
| 3-2.3.3. Mətndəki hadisə və faktlardan nəticə çıxarır və əsas fikri müəyyən edir. | • Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir. | Tap. Ə (iş dəftəri) |

*BURAXILIŞ MƏLUMATI*

*Ümumi təhsil müəssisələrinin 3-cü sinifləri üçün*
*Azərbaycan dili (tədris dili) fənni üzrə dərsliyin (qrif nömrəsi: 2022-004)*
***metodik vəsaiti***

**Tərtibçi heyət**

| | |
|---|---|
| Müəlliflər | **Rafiq İsmayılov**<br>**Ülkər Nurullayeva**<br>**Şəhla Zahidova**<br>**İradə Bayramova**<br>**Aysel Xanalıyeva**<br>**Könül Cəlilova** |
| Layihə rəhbəri | **Rafiq İsmayılov** |
| Bədii redaktor | **Taleh Məlikov** |
| Dil-üslub redaktoru | **Dilrüba Cəfərova** |
| Texniki redaktor | **Zeynal İsayev** |
| Dizayner | **Taleh Məlikov** |
| Korrektor | **Fəridə Ziyadova** |


**© Azərbaycan Respublikası Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun
hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

ISBN 978-9952-8402-5-4

Hesab-nəşriyyat həcmi: 13,5. Fiziki çap vərəqi: 15.
Səhifə sayı 208. Formatı: 57×82 1/8. Kəsimdən sonra ölçüsü: 195×275.
Şriftin adı və ölçüsü: Calibri 11 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş ___. Tirajı 8400. Bakı – 2022.

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix:

Çap məhsulunu nəşr edən:
Azərbaycan Respublikasının Təhsil İnstitutu (Bakı ş., A.Cəlilov küç., 86).

Çap məhsulunu istehsal edən:
“Çaşıoğlu Eİ” MMC (Bakı ş. M.Müşfiq küç., 2 A).

Pulsuz